Firidun Şuşinski

# Azərbaycan xalq musiqiçiləri

Bakı, Yazıçı, 1985

# Misilsiz xəzinə

GÖRKƏMLİ musiqi tədqiqatçısı Firidun Şuşinskinin «Azərbaycan xalq musiqiçiləri» adlı samballı əsərində Azərbaycan xalqının mənəvi xəzinəsinin ən maraqlı, aktual sahələrindən birinə toxunulur. Kitabda xalq musiqisi və onun tanınmış nümayəndələri haqqında ilk dəfə ətraflı məlumat verilir.

Məlum olduğu kimi, Azərbaycan musiqi mədəniyyətinin və xalq incəsənətinin çoxəsrlik ənənələri vardır. Görkəmli incəsənət ustaları, xalq çalğı alətlərində çalanlar, xüsusilə xalq xanəndələri bu ənənələri nəsildən-nəslə yaşadaraq böyük və zəngin bir irs yaratmışlar. Klassik xanəndələrin təcrübə və irsini not və səs-yazma sayəsində öyrənmək isə yalnız bizim əsrdə mümkün olmuşdur.

Buna baxmayaraq son zamanlaradək xalq içərisindən çıxan görkəmli musiqiçilərin nəinki həyat və yaradıcılığı, eyni zamanda onların milli musiqi mədəniyyətimizin inkişafında göstərdikləri böyük xidmətləri öyrənilməmişdir. Bir sıra sənətkarların adı belə unudulmuş, itib batmışdır. Bu baxımdan Firidun Şuşinskinin Azərbaycanın musiqi tarixində yeni bir səhifə açan bu nadir kitabını ilk qaranquş adlandırmaqla, onun müstəsna əhəmiyyətini xüsusi olaraq qeyd etməyə ehtiyac duyuruq...

Bu qiymətli və son dərəcə məzmunlu kitab ilk dəfə 1970-ci ildə Bakıda nəşr olunmuşdur. Hələ o vaxt əsərdə 40 sənətkarın həyat və yaradıcılığından bəhs edən oçerklər, xanəndəlik sənətinin keçmiş tarixi - ilk «sazəndə dəstələri», «Musiqi məclisləri», «Şərq konsertləri» və «Gecələri» haqqında məlumat verilmişdir.

Bəllidir ki, F. Şuşinskinin «Azərbaycan xalq musiqiçiləri» kitabı respublika musiqi ictimaiyyəti və geniş oxucu kütləsi tərəfindən məhəbbətlə qarşılanmışdır. Bunu mətbuatda görkəmli elm və incəsənət xadimlərinin kitab haqqında yazdıqları qiymətli rəylər bir daha sübut edir. Kitabın aktuallığını və musiqişünaslıq baxımından əhəmiyyətini nəzərə alan Mosivanın «sovetski kompozitor» nəşriyyatı həmin kitabı bir qədər yığcam, həm də nəfis şəkildə 1979-cu ildə rus dilində çap etmişdir.

İndi isə «Yazıçı» nəşriyyatı geniş oxucu kütləsinin tələbatını nəzərə alaraq F. Şuşinskinin kitabını yenidən nəşr etmişdir. Bu, təqdirəlayiq, nəsib təşəbbüsdür.

Kitabın ilk nəşrindən 14 il keçmişdir. Bu dövr ərzində müəllif kitab üzərində yenidən işləmiş, təkmilləşdirmiş, eyni zamanda yeni tapıntılar əsasında oçerklərin sayını artırmışdır. Kitabın ilk nəşrində 40 musiqiçidən söhbət gedirdisə, oxuçulara təqdim olunan yeni nəşrdə oçerklərin sayı 51-ə çatmışdır. Burada oxucu ilk dəfə yeni, açılmamış səhifələrlə tanış olacaqdır. Göründüyü kimi, müəllifin son illər apardığı tədqiqat nəticəsində kitabın «Azərbaycanda xanəndəlik sənətinin inkişafı tarixindən» bölməsi, həm də ayrı-ayrı sənətkarlar haqqında yazılmış oçerklər yeni arxiv materialları əsasında bir daha işlənərək zənginləşdirilmişdir.

Yorulmaz tədqiqatçının əldə etdiyi yeni fotoşəkillər, afişa və konsert proqramları kitabın qiymətini, elmi məzmununu artırmışdır.

«Azərbaycan xalq musiqiçiləri» kitabında tanınmış xanəndə və çalğıçılara, muğam ustası olan musiqişünaslara geniş yer verilmişdir. Kitab XIX əsrin görkəmli xanəndəsi Hacı Hüsüdən başlamış məşhur xanəndə Xan Şuşinskiyə qədər yaşamış el sənətkarlarının demək olar ki, hamısını əhatə edir. Bu klassik musiqiçilər, hər şeydən əvvəl, muğam ifaçıları olmuşlar.

Muğam həm bütövlükdə, həm də ayrılıqda bədii obrazların təsəvvür və fəlsəfi ideyalarının bütöv bir dünyası deməkdir. Bu ecazkar aləmi kütlələrə tanıtdıran sənətkarlar ən əvvəl xanəndələr və onları müşayiət edən virtuoz çalğıçılar olmuşlar. Xanəndələr yalnız kişi üçün yüksək tesseturlu qüdrətli səsə malik olmaqla qalmır, onlar həm də zəngin xalq musiqi ənənəsinin davamçıları, muğam sənəti ifaçılığının təcrübəli və gözəl biliciləri idilər.

Muğamı improviziya ilə başlamaq ən əsas şərtlərdəndir. Muğamların melodik zənginliyi, ecazkarlığı və intonasiyası hər xanəndənin fərdi ustalığından və fantaziyasından asılıdır.

Lap qədim zamanlardan muğam Şərq poeziyasının yol yoldaşı olmuşdur. Belə ki, muğam ifa olunarkən xanəndələr Nizami, Xaqani, Nəsimi, Füzuli kimi qüdrətli sənətkarların qəzəllərini oxumuşlar. Buna görə də muğam ifaçıları eyni zamanda şairlərin yaratdıqları ölməz əsərlərin yorulmaz təbliğatçıları olmuşlar. Muğam sənəti Azərbaycan musiqi mədəniyyətinin, həmçinin bütün Şərq xalqlarının, o cümlədən türklərin, farsların, ərəblərin və hindlilərin musiqi mədəniyyətinin inkişafında böyük rol oynamışdır.

Məhz bu baxımdan ilk Azərbaycan milli operalarının «muğam operası» adlandırılması təsadüfi deyildi. Milli operanın yaranmasında və inkişafında misilsiz xidmətləri olan xanəndələrin fəaliyyətindən bəhs olunması bu kitabın elmi əhəmiyyətini xeyli artırır. Məlumdur ki, Azərbaycan xalq musiqiçilərinin həyatı, sənəti və fəaliyyəti ətraflı tədqiq olunmamışdır. Bu məsələ vaxtilə Azərbaycan opera musiqisinin banisi Üzeyirbəy Hacıbəyovu çox ciddi narahat edirdi. O, həmişə Azərbaycan bəstəkarlarını və musiqişünaslarını milli musiqi mədəniyyətini və xalqın içindən çıxmış böyük musiqiçi-improvizatorların təcrübə və irsini öyrənməyə çağırırdı.

Məncə kitabın müəllifini bu işə təhrik edən səbəblərdən biri də məhz Üzeyirbəyin vəsiyyəti olmuşdur. Dahi bəstəkarın arzu və tövsiyyələrini nəzərə alan F. Şuşinski Azərbaycan musiqi mədəniyyəti tarixində xanəndə sənətini öyrənmək sahəsində ilk uğurlu addım atmışdır.

Xalq musiqiçiləri və onların ölməz sənəti haqqında samballı monoqrafik əsər yazmaq qərarına gələn müəllifin qarşısında böyük çətinliklər dururdu. O, arxivlər də ciddi axtarışlar aparmalı, bir çox ölkələrin onlarca şəhər və kəndlərini oymaq-oymaq gəzməli idi. Eyni zamanda qocaman xanəndələrlə, musiqi

həvəskarları və incəsənət xadimləri ilə görüşüb xatirələr toplamalı, dövri mətbuatı gözdən keçirməli idi. Bütün bunlar uzun illər səbr və inadla, əzab-əziyyətə qatlaşmaqla, böyük zəhmətlə başa gələ bilərdi. F. Şuşinski bu işin öhdəsindən fədakarlıqla gəldi.

Təsadüfi deyil ki, onu musiqi mədəniyyətimizin tarixini öyrənən ilk tədqiqatçı adlandırırlar. Çünki, F. Şuşinskiyə qədər bu sahədə heç kəs xüsusi tədqiqat aparmamışdır.

Zaqafqaziyanın görkəmli xalq musiqiçilərinin həyatı, fəaliyyəti və sənəti haqqında «itib-batmış» materialları toplayıb sistemləşdirən görkəmli musiqişünas-yazıçı və fədakar tədqiqatçı alim F. Şuşinski qiymətli kitabı ilə musiqi ictimaiyyətini sevindirmişdir.

Kitabın hər səhifəsində oxucu yeniliklə üzləşir. Muğam sənətinin korifeyləri, klassik musiqiçilər göz önündə canlanır. Bütün bunlar böyük zəhmətin, iyirmi illik axtarışların məhsuludur. Kitabda verilən nadir materiallar, sənədlər ölkəmizin, istərsə də, xarici məmləkətlərin mərkəzi kitabxanalarından və arxivlərindən toplanmışdır. Müəllif Zaqafqaziyada, Orta Asiya və Rusiyada nəşr olunan bütün qəzet və jurnalları nəzərdən keçirmiş, hətta İran və Türkiyə dövri mətbuatını araşdırmışdır. Bununla yanaşı 300-ə qədər nadir qrammofon valları toplamışdır. «Ekstrafon», «Sport-rekord» və «Qrammofon» aksioner cəmiyyətləri tərəfindən buraxılmış vallar XIX əsrin axırları, XX əsrin əvvəllərində yaşamış Qafqaz musiqiçilərinin səsi və çalğısı haqqında müəyyən təsəvvür yaradır. Bu kitabı yazmaq üçün müəllif yalnız arxivlərdən material toplamaqla kifayətlənməmiş, xalq musiqiçilərinin yaşadığı yerləri el-el, oba-oba gəzmiş, onların sağ qalmış qohumları ilə, uzunömürlü ağsaqqallarla görüşüb söhbət etmiş, onların xatirələrini dinləmişdir. Bu mənada, F. Şuşinskinin zəhmətini, sözün həqiqi mənasında qiymətləndirmək də çox çətindir.

Gərgin axtarışların bəhrəsi olan nadir fotoşəkillər kitabda verilən oçerkləri tamamlayır, onların elmi baxımdan qiymətini daha da artırır.

F. Şuşinskinin kitabını oxuyanlar görkəmli muğam ifaçılarının tərcümeyi-halı və yaradıcılıq taleyi ilə tanış olmaqla yanaşı Azərbaycan musiqi mədəniyyətinin tarixi inkişaf yolunu izləməyə imkan tapırlar. Yazıçı kitabında bu barədə ayrıca danışır.

Məşhur fransız romançısı Aleksandr Dümanın Azərbaycanın Şamaxı şəhərinə gəlişi və onun yerli musiqiçilərlə tanışlığı, eyni zamanda dünya şöhrətli yazıçı Jül Vernin xanəndə Səttar haqqında mülahizələri, XIX əsrin istedadlı kürsü şairi Nikolaz Baratişvilinin iki Azərbaycan xanəndəsi - Səttar və Səfərlə dostluğu, rus şairi Yakov Polonskinin Azərbaycan xanəndəsinin şərəfinə yazdığı «Səttar» və Sergey Yeseninin Cabbar Qaryağdı oğluna həsr etdiyi şerləri, məşhur türk musiqişünası Rauf Yektəbəyin Məşədi Cəmillə İstambulda görüşləri və Cabbar

Qaryağdı oğlunun böyük Şalyapinlə dostluğundan bəhs edən səhifələr də oxucunun nəzər-diqqətini cəlb edəcəkdir.

F. Şuşinskinin kitabında oxucular Azərbaycanda, eləcə də Zaqafqaziyanın digər respublikalarında musiqili teatr sənətinin inkişaf yolu haqqında, Tiflisdə, Şuşa və Bakıda verilmiş ilk «Şərq konsertləri» barədə zəngin və maraqlı faktlarla da qarşılaşacaqlar. Bu kitabın meydana gəlməsinin mühüm çətinliklərindən biri də haqqında oçerk yazılmış görkəmli ifaçıların böyük əksəriyyətinin təxminən eyni dövrdə, eyni ictimai-siyasi şəraitdə yaşaması, istedad və qabiliyyətcə yaxınlığı olmuşdur. Ona görə də hər bir sənətkarın fərdi yaradıcılıq imkanlarını, özünəməxsus cəhətlərini ayırmaq, saf-çürük etmək, ifaçılıq manerasını aydınlaşdırmaq, əlbəttə, heç də asan deyildi. Bu, musiqişünasdan hər bir sənətkarın portretini yaratmaq üçün rəngarənglik tələb edirdi.

F. Şuşinskinin kitabında beynəlmiləlçilik ruhu güclüdür. Burada Zaqafqaziya xalqlarının yaradıcılıq əlaqələrinə toxunulmuşdur. Göründüyü kimi, XIX əsrdə görkəmli Azərbaycan xanəndələri erməni və kürsü musiqiçiləri ilə sıx əməkdaşlıq etmişlər. Zəngin arxiv materialları və nadir fotoşəkillər də fikrimizi təsdiq edir.

Şübhə yoxdur ki, F. Şuşinskinin bu nadir kitabı böyük maraqla oxunacaq, geniş oxucu kütləsinin dərin rəğbətini qazanacaqdır.

*FİKRƏT ƏMİROV*

*Bəstəkar, SSRİ Xalq artisti.*

## Azərbaycanda xanəndəlik sənətinin inkişafı tarixindən

DÜNYANIN ən qədim və mədəni xalqlarından olan Azərbaycan xalqı özünün tarixi, maddi-mədəniyyət abidələri, zəngin ədəbiyyatı, incəsənəti və musiqi mədəniyyəti ilə haqlı olaraq fəxr edir. Bu nəsib, həssas qəlbli xalqın vətəni Odlar yurdu, həm də sehrkar musiqi diyarı kimi məşhurdur.

Musiqi şən günlərdə, bayramlarda, istərsə də ağır və iztirablı vaxtlarda belə xalqa mənəvi dayaq olmuşdur. Çünki Azərbaycan musiqisi gələcəyə böyük inam hissi, nikbinlik, insanı cəsur, mübariz olmağa ruhlandıran motivlərlə doludur.

Buna görədir ki, əsrlərdən bəri Azərbaycanın musiqi yaradıcıları və xanəndələri milli bayramlarda, toy mərasimlərində misilsiz çıxışları ilə geniş kütlələrin rəğbətini qazanmışlar.

Azərbaycan musiqisi öz milli zəmini üzərində yüksəlmişdir. Bununla yanaşı, Azərbaycan musiqisi qabaqcıl dünya mədəniyyətinin gözəl ənənələrindən də müəyyən dərəcə təsirlənmiş, daha da inkişaf edib müasir səviyyəyə çatmışdır. Şübhəsiz demək olar ki, dünyanın mütərəqqi musiqi mədəniyyəti xəzinəsini öz nadir inciləri ilə zənginləşdirən Azərbaycan musiqisinin inkişafında xalq musiqisi yaradıcılarının, eyni zamanda xanəndələrinin böyük xidmətləri olmuşdur. Xanəndələr xalqın mənəvi aləminin, zəkasının, arzu-istəyinin ifadəsi olan xalq musiqisini təbliq etmiş, yaşatmış və qoruyub-saxlamışlar.

Xanəndəlik sənətinin inkişafı muğam musiqisi ilə sıx əlaqədardır. Əsl xalq yaradıcılığından ibarət olan bu musiqi əsrlər boyu şifahi halda nəsildən-nəslə keçərək böyük və zəngin irs yaratmışdır.

Xanəndələr tərəfindən ifa olunan muğamlar musiqimizin janrları içərisində ən əsas və əhəmiyyətli yerlərdən birini tutur. Xalq dühasının ən parlaq yaradıcılıq məhsulu muğamlardır. Muğamat musiqimizin təməl daşı, onun bünövrəsi, onun dayaq sütunudur. Əsrlərdən bəri xalqımızın yaratdığı mahnılar, təsniflər və oyun havaları muğamat üzərində yaranmışdır.

Öz tarixi etibarilə qədim keçmişlə bağlı olan muğamatın harada nə vaxt və kim tərəfindən yaradıldığını konkret şəkildə demək çox çətindir. Çünki muğam musiqisi təkcə bir xalqın deyil, bir sıra xalqların, daha doğrusu, Yaxın və Orta Şərq, Afrika və Asiya qitəsi xalqlarının mədəniyyətinə daxildir. Buna görə də onun tarixini dəqiqləşdirmək, mənşəyi haqqında hələlik qəti fikir söyləmək o qədər də asan deyildir. Bəzi muğamlar müəyyən yerlərin, şəhərlərin adını daşısa da, yenə onların tarixini söyləmək çətindir.

Muğamlar Azərbaycan xalqının da məişətinə möhkəm daxil olmuş onun həyatı, ruhi aləmi, mənəvi tələbləri ilə sıx bağlıdır. Son dərəcə orijinal olan bu musiqi özünəməxsus, təkraredilməz xüsusiyyətlərə malikdir.

Muğamat, qeyd etdiyimiz kimi, əsrlər boyu böyük bir coğrafi ərazidə yaşamış bir sıra xalqların ən çox sevdiyi musiqi olmuşdur. Türk, fars, ərəb, hind və

başqa xalqların musiqisinin inkişafında muğamat həlledici rol oynamışdır. Lakin muğamların meydana gəlməsi, təşəkkülü və inkişaf prosesi hər ölkədə spesifik milli xüsusiyyət və cizgilər kəsb etmişdir.

Azərbaycan muğamları da tarix boyu özünəməxsus inkişaf prosesində ictimai-siyasi hadisələrin təsiri altında təkmilləşmiş, müasir formaya düşmüşdür. Eyni zamanda muğamatda hər bir tarixi dövrün, zamanın, gərdişin öz möhürü, əks-sədası təcəssümünü tapmışdır. Musiqi aləmində öz ahəngləri, rəngləri və ifaçılıq yolları ilə fərqlənən Azərbaycan muğamları zəhmətkeş xalqın həyat fəlsəfəsi, onun arzu və düşüncələri ilə sıx bağlı olmuşdur. Akademik Mirzə İbrahimovun qeyd etdiyi kimi, muğamat əsrlər boyu yaranmış kamil, bitkin musiqidir. Dərin fəlsəfi məzmuna malikdir, emosionaldır, ehtiraslıdır. İnsanın ruhi vəziyyətini, əhvali-ruhiyyəsini, duyğularını ifadə edir. Onu da inkar etmək olmaz ki, muğamat zaman keçdikcə Azərbaycan xanəndələrinin zövqü və ifaçılıq məharətləri sayəsində dəyişmiş, milli formaya düşərək daha kamil və zəngin olmuşdur. Orta əsrlərdə xalqın zövqünü oxşayan milli xanəndələr və Şərq musiqisinin kamil biliciləri olan görkəmli Azərbaycan alimləri Səfiyəddin Ürməvi və Əbdülqadir Maraği muğam musiqisinin inkişafında bir sıra yeniliklər yaradaraq silinməz izlər buraxmışlar.

Muğamat yalnız təsnif və mahnıların, oyun havalarının deyil, eyni zamanda opera və baletlərin, hətta simfonik əsərlərin tükənməz çeşməsidir. Bir sözlə, muğamat Azərbaycan musiqi dilinin lüğətidir. Məhz buna görə də xalqımızın ona vurulması təbii haldır. Çünki, hələ anamız bizə beşik başında laylay çalarkən bu beşik havasını məhz muğam üzərində oxumuşdur. Buna görə də biz gözümüzü açıb dünyanı dərk edən gündən bəri qulaqlarımız muğamat təranələri ilə «köklənmişdir». Bir sözlə, bizim xəmirimiz muğamla yoğrulmuşdur. Bax, buna görə də biz muğamata laqeyd yanaşanlara göz yuma bilmərik. Azərbaycan muğamatı ən qiymətli xalq sərvəti kimi mühafizə olunur. Qədirbilən xalqımız öz milli adətini, dilini və milli musiqisinin bütövlüyünü, saflığını göz bəbəyi kimi qoruyub saxlamışdır.

Əgər biz bu müqəddəs borcumuzu yerinə yetirməsək gələcək nəsillər bunu bizim üçün heç cürə bağışlamazlar...

Onu da milli iftixar hissi ilə qeyd etməliyik ki, muğam musiqisinin əzəmətli və nikbin təranələri, onun mahir ifaçılarının ölməz sənəti Şərqin, həm də Avropanın bir çox elm, mədəniyyət və incəsənət xadimlərini məftun etmişdir. Dünyanın xalq musiqisi pərəstişkarları klassik xanəndələrimizi heyrətlə dinləmiş, onların sənətinə yüksək qiymət vermişlər.

Azərbaycan musiqisi tarixində muğamların mövqeyi və əhəmiyyətindən bəhs edərkən böyük bəstəkar Üzeyir bəy Hacıbəyov yazmışdır: «Muğamat keçmiş dövrlərdən bəri Şərqin, xüsusilə Azərbaycanın klassik musiqi yaradıcılıq nümunəsi kimi tanınmışdır. Muğamat qədim Şərq pərdələri üzrə qurularaq yüksək

melodiyaya malikdir».[1] Üzeyir Hacıbəyov muğamatı yüksək qiymətləndirir, onun zəngin melodiyasında xalqın arzu-istəyinin, mübarizəsinin, düşmənə nifrətinin və gələcəyə böyük inamının dolğun ifadəsini görürdü. Məlumdur ki, böyük bəstəkar milli operamızın bünövrəsi olan «Leyli və Məcnun»u muğamlar üzərində qurmuşdur... Üzeyir Hacıbəyov gənc bəstəkarlara dönə-dönə tövsiyə edirdi ki, Azərbaycan musiqisində çox böyük rol oynayan canlı muğamlara qayğı ilə yanaşsınlar. O yazırdı: «Mən şəxsən inanmışam ki, biz Azərbaycan muğam musiqisini intensiv şəkildə işləməklə muğam incəsənətini ən yüksək səviyyəyə qaldıra bilərik».[2]

Üzeyir Hacıbəyov ölməz «Koroğlu» operasını yaradarkən muğam incəsənətinin qüdrətini parlaqlığı ilə nəzərə çatdırmışdır. O, muğamlarda xalqın mənəvi aləminin salnaməsini görürdü. Üzeyir Hacıbəyov öz operalarında xalq həyatının rəngarəng səhnələrini yaratdığı zaman zəhmətkeş kütlələrin mübarizəsini, sevinc və kədərini muğamlarla ifadə etmişdir. Bəstəkar məqalələrinin birində bu barədə yazmışdır: «...«segah» muğamı lirik aşiqanə əhəmiyyətə malikdir. Bütün incə aşiqanə xalq nəğmələri bu muğam əsasında qurulmuşdur. Buna görə də mən aşiqanə səhnələri öz operalarımda verdikdə bu muğamdan istifadə edirəm.

Musiqi boyaları ilə xalqın məzlum vəziyyətini, yaxud istismarçı siniflərin qəddarlığını ifadə etmək lazım olduqda mən «Çahargah» muğamını işlədirəm. Bundan başqa mərdlik, sevinc, mübarizə xarakterinə malik olan «Rast» muğamı da vardır».[3]

Üzeyir Hacıbəyov «Koroğlu» operasının xalq tərəfindən böyük rəğbətlə qarşılanmasını muğamla bağlamaqda haqlı idi. O yazırdı: «Mən «Koroğlu» operasını bir qədər sərbəst etildə yazmışam. Təcrübə göstərdi ki, opera bütünlüklə geniş tamaşaçı kütlələrinə çata bilmişdir və bunun səbəbi də operanı yazarkən onun musiqi mətnində və həmçinin yaradıcılıq fantaziyamda muğam sistemini əsas götürməyim olmuşdur».[4]

SSRİ xalq artisti Bülbül muğamların inkişafını məhz xanəndəlik sənəti ilə bağlayırdı. O, haqlı olaraq göstərirdi ki, «...Azərbaycan klassik muğamlarının inkişaf tarixi onların ifaçıları ilə sıx əlaqədardır. Fasiləsiz olaraq saat yarım, iki saat uzanan oxumaları yaradan müğənnilər ancaq Azərbaycanda olmuşdur. Səttar, Cabbar Qaryağdı oğlu, Şəkili Ələsgər, Əbdülbağı, Seyid Şuşinski məhz belə müğənni olmuşlar. Yuxarıda adları çəkilən xanəndələr-«dəstgah» adı altında proqram əsər yaratmışlar.

[1] Ü.Hacıbəyov. Musiqimiz tərəqqi yolunda. “Kommunist” qəzeti, 15 avqust, 1936-cı il, № 188.
[2] Ü.Hacıbəyov. Musiqidə xalqçılıq, “Revolusiya və kultura” jurnalı, 1939-cu il, № 5, səh. 111.
[3] Yenə orada.
[4] Ü. Hacıbəyov. Musiqidə xalqçılıq. «Revolyusiya və kultura» jurnalı, 1939-cu il, № 5, səh.112.

Azərbaycan muğamlarını məharətlə ifa etməklə xanəndələr empirik yollarla əsrdən əsrə keçən, zəmanələrin sınaqlarından çıxıb-gələn orijinal oxumaq məktəbi yaratmışlar. Bu orijinal məktəb Zaqafqaziyada olduğu kimi, bütün Yaxın Şərqdə böyük hörmət qazanmışdır».[5]

Xalqımız qədim zamanlardan el aşığını, xanəndə və sazəndələrin sənətini qızğın məhəbbətlə sevmiş, onlara həmişə hörmət və ehtiram göstərmişdir. Muğamları nəsildən-nəslə çatdıran, onlara yeni-yeni guşələr və xallar əlavə edib zənginləşdirən xalq xanəndələri olmuşlar.

«Azərbaycan xanəndələri və musiqiçiləri bütün Şərqdə şöhrət qazanmışdı. Onların mahnılarını Xəzərin o tərəfində, Türkmənistan düzlərində, Elbrus dağının ətəklərində və Qara dəniz sahillərində oxuyurdular. Xalqlar öz arzu və fikirlərini mahnı vasitəsi ilə bir-birinə bildirirdilər. Xalq həmişə öz sənətkarlarını, xanəndələrini, aşıqlarını yüksək və əziz tutmuşdur».[6]

Azərbaycanda xanəndəlik sənətinin mənşəyi və inkişaf yolları tədqiq edilməmişdir. Bu sahədə məlumatın azlığı hər addımda hiss olunur. Lakin əldə etdiyimiz bəzi mənbələrə və məxəzlərə istinadən demək olar ki, xanəndəlik sənəti orta əsrlərdə şəhərlərin inkişafı ilə əlaqədar meydana gəlmişdir. O zamanlar xanəndələr əsasən şəhər-əyanlarının düzəltdikləri ziyafətlərdə, toy şənliklərində, karvansaralarda, çayxanalarda və yarmarkalarda çıxış etmişlər. Xanəndələr əsasən fars dilində yazılmış qəzəlləri və təsnifləri oxuduqlarına görə kəndlilər xanəndələri öz məclislərinə dəvət etməzdi. Kənd məclislərinin yaraşığı ya aşıqlar, ya da zurnaçılar dəstəsi olardı.

XX əsrin əvvəllərinə qədər varlı ailələr xanəndələri, ortabab və şəhər yoxsulları isə zurnaçılar dəstəsini, kənd əhli isə aşıqları öz şənliklərinə dəvət edirdilər. Lakin böyük toylara həm xanəndə, həm də aşıq dəstəsi çağırar və növbə ilə oxudardılar.[7]

Xanəndələr arasında xalq musiqisinə, nəğmə və qoşmaya meyl 1905-ci il inqilabından sonra güclənmişdir.[8] Rusiyada burjua-demokratik inqilabının başlanması Yaxın Şərq xalqlarının, o cümlədən Azərbaycan xalqının siyaci-ictimai həyatında da dönüş yaratdı. Yeni ictimai şərait ədəbiyyatımıza, incəsənətimizə, bir sözlə, mədəniyyətimizə inqilabi-demokratik motivlər gətirməklə, xanəndəlik sənətini xalqa daha da yaxınlaşdırdı.

Kənd toylarında, məclislərində xanəndə də xalqın sevimlisi oldu. Böyük müğənni Cabbar Qaryağdı oğlundan sonra bu nəcib təşəbbüsə Malıbəyli Həmid, Zabul Qasım, Şəkili Ələsgər, İslam Abdullayev və Seyid Şuşinski kimi sənətkarlar

[5] Bax: A. Məmmədova. Bülbül. Bakı, 1967, səh. 117.
[6] “Pravda” qəzeti, 5 aprel 1938-ci il.
[7] Ü.Hacıbəyov. Azərbaycan musiqi həyatına bir nəzər. Əsərləri, ikinci cild. Bakı, 1965, səh. 217.
[8] Bülbül. Xanəndəlik və nəğmələrimiz haqqında (əlyazması). Azərbaycan SSR Mədəniyyət Nazirliyi Memarlıq və İncəsənət İnstitutunun arxivi, inv. 67.

qoşuldular. Onlar xalq kütlələri arasında artıq fars təsnifləri deyil, Azərbaycan dilində təsniflər oxuyurdular. Bu xanəndələr muğam oxuyarkən Füzulinin, Vaqifin, Seyid Əzimin, Zakirin və Natəvanın qəzəllərindən istifadə edirdilər. Dəstgahlarda Azərbaycan şairlərinin qəzəl və qoşmalarından istifadə edilməsi muğam sənətini xalqa daha da yaxınlaşdırırdı. Lakin onu da demək lazımdır ki, xanəndə dəstəsinin kənd məclislərinə çağırılması aşıq dəstələrini sıxışdırdı.[9] Çünki xanəndə dəstəsində olan tar, kamança, dəf və qoşanağara xüsusi tembrə malik olmaq etibarilə saz və zurnadan geniş və zəngin idi.

Beləliklə, istər musiqiçilərin sayına, istərsə də repertuar zənginliyinə görə xanəndə dəstəsi hələ o vaxta qədər Azərbaycanda olan digər musiqiçi dəstələrindən fərqlənirdi. Əgər aşıq sənəti öz ədəbi qidasını zəngin xalq şerindən alırdısa, xanəndə sənətinin ədəbi mənbəyi klassik Azərbaycan şeri, xüsusilə qəzəl idi. Xanəndələr xalq mahnılarından da geniş şəkildə istifadə edirdilər.

Azərbaycanın məşhur musiqiçiləri Cabbar Qaryağdı oğlunun, Bülbülün və Saşa Oqanezaşvilinin əlyazmalarından məlum olur ki, XIX əsrin birinci yarısında xanəndələr tar, kamança və yastıbalabanın müşayiəti ilə oxuyurmuşlar. Xanəndə və çalğıçılara o zaman «sazəndə dəstəsi» deyirdilər. Bütün xalq şənliklərinə sazəndə dəstəsi dəvət olunardı.[10] XIX əsrin ikinci yarısında sazəndə dəstəsi - xanəndə, tarzən, kamança və qoşanağara çalanlar olmaq üzrə dörd nəfərdən, sonralar, XX əsrin əvvəllərindən isə xanəndə dəstəsi əsasən üç nəfərdən - xanəndədən, tarzəndən və kamançaçalandan ibarət olmuşdur. Xanəndə ansambllarında qoşanağaraya və yastıbalabana təsadüf edilmirdi. Qafqaz xalqlarının musiqisini öyrənən məşhur rus musiqişünası P. Vostrikov öz əsərlərində xanəndəlik sənətini yüksək qiymətləndirərək yazmışdır: «Azərbaycanda oxumaq üçün əsas material xalqın adət-ənənələrini əks etdirən və xalqın özü tərəfindən yaradılan xalq nəğmələridir. Lakin xanəndələr təkcə xalq nəğmələri oxumaqla kifayətlənmirlər. Xalq mahnılarından başqa azərbaycanlıların muğam havaları da məşhurdur. Muğamların tərkibi müxtəlifdir. Oxumaq üçün söz seçmək xanəndənin özündən asılıdır. Heç bir ictimai yığıncaq, ailə şənliyi xanəndəsiz keçinməz. Azərbaycanlılar muğamları çox sevirlər. Xanəndəni əhatə edən dinləyicilər ona diqqətlə qulaq asırlar. Xanəndə oxumağı bitirir. Dinləyicilər başlarını qaldırıb dərdli adamlar kimi dərindən ah çəkib, «çox cağ ol» deyirlər.

Azərbaycanlılar öz vətənlərini, öz tarixi keçmişlərini çox sevirlər. Onlar sözlərinə düz, diqqətçildirlər, həm də başqasının dərdinə qalandırlar».[11]

---

[9] Bax: Ü. Hacıbəyov. В старом и новом Азербајджане. «Советскаја музыка» jurnalı, 1938-ci il, № 2, səh. 58.

[10] Bax: M.M.Ипполитов-Иванов. Грузинскаја народнаја песнја и јеје современноје состојание. Москва, 1895, səh. 4.

[11] П. Вострикoв. Музыка и песнја у азербајджанских татар. СМОМП, Тифлис, 1912, вып. 42, отдел 11, стр. 34.

Musiqi mədəniyyətimizin inkişafında klassik xanəndələrimizin böyük xidmətləri olmuşdur. Təsadüfi deyil ki, Azərbaycan xalqının içərisindən öz məlahətli gözəl səsləri və nümunəvi sənətkarlıq bacarıqları ilə Qafqazda, Yaxın və Orta Şərqdə məşhur olan Hacı Hüsü, Məşədi İsi, Səttar, Əbülhəsən xan İqbal, Keştazlı Həşim, Ala Palaz oğlu Molla Rza, Əbdülbaqi Zülalov, Cabbar Qaryağdı oğlu, Şahnaz Abbas, Keçəçi oğlu Məhəmməd, Həsənçə, Şəkili Ələsgər, Mirzə Məhəmmədhəsən, Malıbəyli Həmid, Zabul Qasım, Segah İslam, Məşədi Məmməd Fərzəliyev, Bülbül, Seyid Şuşinski, Zülfü Adıgözəlov, Xan Şuşinski kimi məşhur xanəndələr çıxmışlar. Onlar muğam musiqisini məharətlə ifa edən böyük bir məktəb yaratmışlar.

Azərbaycanda xanəndəlik sənətinin inkişafı ilə əlaqədar olaraq çalğı musiqisi də inkişaf etmişdir.

XIX əsrin ikinci yarısı və XX əsrin əvvəllərində Əliəsgər, Sadıqcan, Artemi, Məşədi Zeynal, Lazar Ter-Vartanesov, Cavadbəy Əlibəyoğlu, Arcen Yaramışev, Bala oğlu Qrikor, Mirzə Mənsur Mənsurov, Mərdi Canıbəyov, Məşədi Cəmil Əmirov, Tatevoc Arutunyan, Şirin Axundov, Qurban Pirimov, Bala Məlikov kimi tarzənlər, Qaraçı Hacı bəy, Avanec, Qulu Əliyev, Bağdagül oğlanları - Ata və Qosti, Mirzə, Saşa Oqanezaşvili, Levon Qaraxanov, Moses Quliyans, Rasim Şirinov, Sevi və Böyükkişi Əliyev kimi məşhur kamançaçalanlar yetişmişdir.

Repertuarları xalq yaradıcılığından ibarət olan bu musiqiçilər dəstəsinin ifa etdikləri el havaları yayılaraq inkişaf etmiş, musiqi mədəniyyətimizi zənginləşdirmişdir. Bu xalq sənətkarları böyük bəstəkarımız Üzeyir Hacıbəyovun qeyd etdiyi kimi, gözəl və ustad sənətkar olmaqdan başqa xalq musiqi yaradıcılığını meydana çıxaran, onu canlandıran, əsaclandıran tükənməz bir mənbədirlər. El aşıqları kimi xanəndələrin də ənənəvi libasları olmuşdur. Onlar bahalı, yəni mahud parçadan çuxa, atlasdan arxalıq, diaqanaldan şalvar keyor, bellərinə qızıl toqqa bağlayar, barmaqlarına brilyant üzüklər taxar, başlarına buxara papaq qoyardılar. Çalğıçılar isə musiqi alətlərini qiymətli daş-qaşlarla bəzəyərdilər. Qocaların söylədiklərinə görə Sadıqcanın tarının qolu bütünlüklə sədəfə, çanağı isə qızıla tutulmuşmuş. Xalq yazıçısı, akademik Mirzə İbrahimov klassik xanəndələrimizin adət-ənənələrindən və onların sənətə münasibətlərindən bəhs edərək yazmışdır: «Keçmişdə əsl xanəndə və çalğıçıların möhkəm ədəb-ərkan qaydaları vardı. Onlar geyimlərinin səliqəsinə, zahiri hərəkətlərinin nəcibliyinə, ağır oturub, ağır durmaqa fikir verdikləri kimi ifaçılıqda da müəyyən kamil, bütöv qaydaları gözləyərdilər. Xüsusən oxunan havanın bitkinliyinə çalışar, sözlərini diqqətlə seçər, əxlaqi, fəlsəfi və estetik mənası olan qəzəllər, bayatılar, qoşmalar, gözəlləmələr oxuyardılar».[12]

XIX əsrin ikinci yarısından başlayaraq Azərbaycanda incəsənətin başqa sahələri ilə yanaşı xanəndəlik sənəti də sürətlə inkişaf etmişdir. Bu dövrdə

[12] M. İbrahimov. Azərbaycan bülbülü. «Ədəbiyyat və incəsənət» qəzeti, 1959-cu il, № 17. 16

xanəndələr klassik muğamları oxuyarkən yeni-yeni təsniflər və mahnılar yaratmışlar. Onlar bəzən müəllifi məlum olmayan poetik əsərlərə - qoşma, qəzəl və müxəmməslərə mahnılar bəstələyir, onu məharətlə oxuyurdular. Bu mahnıların əksəriyyəti sevgi, məhəbbət və qadın gözəlliyinə həsr edilirdi.

Xanəndə sənətinə el ədəbiyyatı ilə yanaşı klassik Azərbaycan ədəbiyyatı da ciddi təsir göstərmişdir. Xanəndələrin oxuduqları mahnı və muğamların sözləri qəzəl və qoşmalardan ibarət olurdu. Onlar klassik muğamları tamam-dəstgah oxumaqla Şərqin zəngin mədəniyyətini mühafizə edirdilər. Hacı Hüsü, Məşədi İsi, Cabbar Qaryağdı oğlu, Sadıqcan, Bülbül və Seyid Şuşinski kimi mahir sənətkarlar bir çox muğamların təkmilləşməsinə böyük əmək sərf etmiş və bunların əsasında yeni-yeni təsniflər və mahnılar yaratmışlar.

Xanəndələrin tərkibi eyni deyildi. Saray xanəndələrindən, yəni varlılara xidmət edən müğənnilərdən başqa «gəzəyən xanəndələr» də var idi. XIX əsrin ikinci yarısında «gəzəyən xanəndələr»in əksəriyyəti Tiflis, Şamaxı və Şuşa şəhərlərinin iri küçələrində, bazar və ticarət meydançalarında, həm də şəhər sənətkarlarının və xırda tacirlərinin məclislərində çalıb-çağırardılar. O dövrdə Tiflis, Şamaxı, Şuşa şəhərləri ticarət mərkəzləri olduğundan əhalinin əksəriyyəti gündüzlər alış-verişlə məşğul olar, axşam düşən kimi də bağlara, meydançalara toplaşaraq xanəndələrin xoş avazını dinlər, həm də rəqs edərdilər. Belə şən gəzinti və musiqi sədaları gecədən xeyli keçmiş davam edərdi.

«Gəzəyən xanəndələr»in əsas gəliri «şabaş»dan ibarət idi. Onlar həmişə öz dinləyicilərinin zövqünü nəzərə alaraq oxuyardılar.

* * *

XIX əsrin axırlarında Şuşada, sonralar isə Şamaxı və Bakıda xüsusi musiqi məktəbləri açılır. Azərbaycanda o dövrün ən məşhur musiqi məktəbi Şuşa məktəbi idi.

«Şuşa musiqi istedadlarının beşiyi idi. Bu füsunkar təbiətli yerin xoşavazlı xanəndələri Zaqafqaziyadan kənarlarda da şöhrət qazanmışdı. «Şuşa musiqiçiləri» Azərbaycan musiqisinin tarixini yaratmış və onu yalnız öz vətənlərində deyil, həm də Şərqin başqa ölkələrində təmsil etmişlər».[13]

Məşhur erməni musiqişünası V. D. Karqanov «Qafqaz musiqisi» adlı əsərində yazmışdır: «Zaqafqaziya musiqi xadimlərini çalğıçı və xanəndənin, şer, musiqi və mahnıların füsunkar vətəni olan Şuşa verirdi. Bütün Zaqafqaziya üçün bir konservatoriya rolunu oynayan bu şəhərdən hər mövsümdə, hətta hər ay Zaqafqaziyaya yeni mahnılar, yeni motivlər gəlirdi».[14]

---

[13] V. Vinoqradov. Üzeyir Hacıbəyov və Azərbaycan musiqisi (rusca). Moskva, 1939, səh. 9.
[14] V. D. Karqanov. Кавказскаja музыка. Тифлис, 1908, səh. 28.

Məşhur rus şairi Sergey Yesenin məktublarının birində şuşalıların gözəl səsə malik olmalarına işarə edərək yazırdı: «Əgər biri oxumağı bacarmırsa, deməli, şuşalı deyildir».[15]

Beləliklə, Şuşa şəhəri XIX əsrin sonunda musiqi mərkəzinə çevrilmişdi. Burada 70-ə qədər sazəndə fəaliyyət göstərirdi. Şuşada musiqi məktəbinin yaradıcısı məşhur musiqişünas Xarrat Qulu Məhəmməd oğlu (1823-1883) idi. Xarrat Qulu məclisə gözəl səsi olan gəncləri cəlb edərək məhərrəmlik təziyəsini keçirmək üçün onlara muğamatı və oxumaq qaydalarını öyrədirdi.

O zaman dini ənənələrdən başlıcası məhərrəmlik təziyəsi idi. Məlum olduğu üzrə hicri tarixin 60-cı ilinin məhərrəm ayında Fərat çayının sağ sahilində Kərbəla adlı yerdə ərəb xəlifəsi Yezidin (Müaviyənin oğlu) 4 minlik qoşunu Məhəmməd peyğəmbərin nəvəsi İmam Hüseyni və onun 72 yaxın qohum-əqrabasını mühasirəyə alıb vəhşicəsinə qırmışdı. Bu qanlı faciə bütün müsəlman dünyasını sarsıtmışdı. Buna görə də müsəlmanlar, xüsusilə şiələr hər il məhərrəm ayının 10-da «aşura günü» baş vermiş hadisələrin, İmam Hüseynin və onun yaxın adamlarının öldürülməsi gününü matəm günü kimi qeyd edirdilər. Kərbəla hadisəsi əsrlərdən bəri ərəb, fars, türk və Avropa tarixçilərinin diqqətini cəlb etmiş, bu hadisəyə aid yüzlərlə əsərlər yazılmışdır. Tarixçilərdən geri qalmayan bir çox Azərbaycan şairləri Kərbəla hadisəsinə, xüsusilə İmam Hüseynin şərəfinə bir çox növhə və qəsidələr yazmışlar.

Azərbaycanın hər yerində olduğu kimi Şuşada da din xadimlərinin təhriki ilə dini mərasimlərə ciddi hazırlıq görülürdü. Hələ məhərrəmliyə üç ay qalmış cavanlar əllərində məşəl qapı-qapı evləri gəzər, pul yığardılar. İrandan xüsusi mərsiyəxanlar, dərvişlər dəvət edilərdi. Beləliklə, bir ay davam edən məhərrəmlikdə məscidlər qiymətli xalılarla döşənər, axund və mollalar məscid və təziyələrdə çıxış edərdilər. Şəhərin tamahkar tacir və xanzadələri də öz evlərində təziyə qurdurar, mərsiyə oxutdurardılar. Bu dini mərasim on gün davam edən aşura dövründə daha gərgin şəkil alardı: emalatxanalar, dükanlar bağlanar, hamı məscidlərə cəlb olunardı.

Məhərrəm ayının 10-cu günündə aşura zamanı dini tamaşalar göstərilərkən hər məhəllədən bir dəstə Şuşanın mərkəzi hissəsinə - «Meydan»a toplaşardılar. Bir dəstə adam köynəksiz halda çılpaq bədənlərinə mıx, dəmir qıfıl keçirmiş vəziyyətdə meydana girərdi, bunlara «ələmdarlar» deyərdilər. Digər dəstə isə ayinlərinə kəfən geymiş, başlarını xəncərlə yarmış «ağköynəklər»dən ibarət olardı. Başqa bir dəstə isə sinə vura-vura meydana daxil olardı. Deyilənə görə, bu dəstələr meydana daxil olanda xor ilə «Şah Hüseyn», «Vay Hüseyn», «Heydər!» «Heydər!» deyəndə bütün meydan titrəyərmiş. Ələmdar və ağköynək dəstələri şəhər meydanına daxil olanda hələ vaxtı ilə Molla Pənah Vaqif tərəfindən yazılmış növhəni oxuyardılar,

---

[15] S. Yesenin. Seçilmiş əsərləri. Moskva, 1962, V cild, səh, 205.

Şuşada məhərrəmlik təziyəsi barədə bir çox rəvayətlər, məzəli əhvalatlar söyləyirlər. Bir gün şəhər meydanında şəbih çıxarılarkən Haris[16] Kərbəla əsirlərini döyə-döyə meydana gətirir. İmam övladları və qohumlarını bu acınacaqlı vəziyyətdə görən «tamaşaçılar» - şəhər əhli ağlaşırlar. Birdən şəhər sakinlərindən Məmi-Qoca meydana atılıb bərkdən qışqırır:

Kərbəlada olmadıq
Şümur Sənanı öldürək...

Məmi Qocanın yanında duran Şuşa taciri allahverənli Kərbəlayı Şirin onun şeri axıradək deməsinə imkan vermir, başına bərkdən bir qapaz salıb deyir: «Başına daş, ay Şümür, gör nə günə» qalmısan ki, pişikdən qorxan Məmi Qoca da səni hədələyir».

Sonra Şuşaya gəzməyə gələn Avropa səyyahlarından biri şəbih mərasimini görüb çox təəccüblə şəhərin axundu Hacı Molla Şükürdən soruşur: «Canım, bu hadisə 1200 il bundan əvvəl olub. Məgər bu xəbər sizə indi gəlib çatıb?!»

Məşhur rus rəssamı V. Vereşşagin 1865-ci ildə Şuşaya gələrkən məhərrəmlik mərasiminə tamaşa etmiş, hətta bu mərasimi rəsm əsərlərinin birində böyük sənətkarlıqla təsvir etmişdi.

Şəbihgərdanlığın xanəndəlik sənətinin inkişafına da müəyyən təsiri olmuşdur. Xarrat Qulu Şuşada məhərrəmlik təziyəsi zamanı təşkil etdiyi məclisə gəncləri cəlb edər, Səkinə, Zeynəb, Əli Əkbər və başqa şəbih rollarında oynamağı öyrədərdi. O, klassik Şərq musiqisini kamil bilirdi, həm də şerlər yazırdı. Bu mahir musiqişünas din xadimlərinin təsiri altında olduğuna görə, xalq məclislərində çıxış etməzdi. Xarrat Qulunun məclisi haqqında Qarabağda çoxlu rəvayətlər və xatirələr mövcuddur...

Bir gün Xarrat Qulu şəbih rollarını öz adamları arasında bölürmüş. Şümür rolunu oynamağa heç kəs razılıq vermir. Çünki Şuşada kim Yezid, Haris və Şümür rolunu oynaca imiş şəhər əhli həmin adamları bu adlarla çağırarmış. Təsadüfi deyildir ki, Şuşada «Qurdlar məhəlləsi»ndə yaşayan Cavad kişiyə «Yezid Cavad», «Köçərli məhəlləsi»ndə yaşayan Sarı Bəşirə isə «Haris Bəşir» deyərmişlər.

Xarrat Qulu əlacsız qalıb bazara gedir, kartof satan bir erməni kişisinə 10 manat qızıl pul verərək, Şümürün rolunu oynamasına razılıq alır. Xarrat Qulu onunla məşq edir və kişiyə təkidlə tapşırır: «Şəbih keçirilərkən sənin ətrafına böyük su qabları qoyulacaqdır. İki uşaq sənə yaxınlaşıb yalvaracaq, su istəyəcəkdir: «Əmi, bizə bir qurtum su ver. Sən qətiyyən verməməlisən».

Erməni öz «rejissorunun» tapşırığını yerinə yetirəcəyinə söz verir. Mərasim başlanır. Müslümün uşaqları Şümürə yaxınlaşaraq, ondan su istəyirlər. Uşaqların acınacaqlı vəziyyətini görən erməni onlardan birinə: «Ay bala, baxıram ki, sən bir

[16] Haris – "Kərbəla faciəsi"nin təşkilatçılarından biri – Red.

abırlı adama oxşayırsan. Nə təhər eyləyim ki, məndən inciməyəsən. O Xarrat Qulu köpək oğlu tapşırıb ki, heç kəsə su vermə». Tamaşaçılar gülüşürlər, şəbih pozulur.

Xarrat Qulunun öz şagirdlərini dini mərasimlərdə çıxış etməyə sövq etdirməsinə baxmayaraq onlara Şərq musiqisinin əsaslarını, muğamları, Azərbaycan xalq nəğmələrini də öyrədərdi. Cabbar Qaryağdı oğlunun söyləməsinə görə, Xarrat Qulu çox yaxşı hafizəyə malik bir sənətkarmış. O, dəstgahların şagirdlər tərəfindən düz oxunmasına, səsin büllur kimi saf çıxmasına xüsusi səy edərmiş.

Məşhur ədəbiyyatşünas alim Firidunbəy Köçərli Xarrat Qulunun sənətinə yüksək qiymət verərək yazırdı:

«Kərbəlayı Qulunun sənəti xarratlıq idi. Çox dəqiq və əhlizövq, şirinkəlam bir şəxs idi ki, cümlə Şuşa əhli onu əziz və mehriban tutardı. Öz sənətində artıq məharəti olduğu kimi, elmi-musiqidə dəxi baxəbər idi və Qarabağın məşhur xanəndələri onun dəstpərvərdələridir».[17]

Uşaqlıq illərində şəbihgərdanlıqda iştirak etmiş sevimli müğənnimiz Bülbül şəbihdə muğamların necə öyrənildiyini belə xatırlayır: «O dövrün xanəndələri yalnız toylarda və məclislərdə deyil, məhərrəmlikdə də oxumalı olurdu. Məhərrəmlik və şəbihkərdanlığa iki ay qalmış xanəndələr hazırlaşır və fars dəstgahlarını yaxşı öyrənməyə məcbur olardılar. Məsələn, Qasım şəbihi veriləndə məclis «Bayatı-Şiraz»la başlanırdısa, şəbihdə iştirak edənlərin hamısı «Bayatı-Şiraz» muğamını yaxşı bilməli idilər. Mərasimdə iştirak edənlərin rolları elə bölünürdü ki, onlar şəbih mərasiminin tələbi üzrə bir-birini tamamlayırdı. Birisi oxuyub müəyyən yerdə kəsdikdə, o birisi onu davam etdirməli idi və i. a. Beləliklə, bir dəstgah bir neçə nəfər arasında mükəmməl surətdə icra edilirdi. Məsələn, əgər məclis «Segah-Zabul» ilə başlanırdısa, ikinci oxuyan «Manəndi-müxalif» ilə başlayır, üçüncü «hasar», dördüncü isə «Zabul» oxuyardı, yaxud məclis «Şur» üstündə başlanırdısa, ikinci «Şur-Şahnaz» deyir, sonra «Dügah»a keçir, üçüncü «Şikəsteyi-fars», dördüncü «Hicaz», «Əraq» və yaxud «sarəng» oxuyardı. Göründüyü kimi, «Şur» dəstgahı şəbihdə iştirak edənlər tərəfindən tamam oxunardı. Aydın məsələdir ki, bu cür muğam dəstgahlarının oxumaq qaydalarının xanəndələr tərəfindən mənimsənilməsi onları klassik Şərq muğamları ilə daha yaxından tanış edir və nəticədə bəzi dəstgahları oxumaqda ustad sənətkarlara çevirirdi. Şəbih qurtardıqdan sonra isə xanəndələr həmin dəstgahları toy məclislərində oxuyurdular».[18]

Xarrat Qulunun məktəbində xanəndələrin oxumaq tərzləri belə bir ümumi qayda və ənənəyə əsaslanırdı: Xanəndə dizi üstə oturub oxuyardı. Onlar çox gözəl qaval vurar, oxuyarkən tərpənməz, bəzən isə gözlərini də yumardılar.

[17] Bax: F.B.Köçərli. Azərbaycan ədəbiyyatı tarixi, ikinci cild, Bakı, 1981, səh. 130.

[18] Bülbül. Xanəndəlik və nəğmələrimiz haqqında (əlyazması). Azərbaycan SSR Mədəniyyət Nazirliyi Memarlıq və İncəsənət İnstitutunun arxivi, inventar № 67.

Xarrat Qulunun musiqi məktəbi dinə xidmət məqsədi güdsə də, Azərbaycanda vokal və çalğı musiqisinin inkişafında mühüm rol oynamış, bir sıra ustad sənətkarların yetişməsinə səbəb olmuşdur. Şuşanın ən görkəmli xanəndələri Hacı Hüsü, Məşədi İsi, Dəli İsmayıl, Şahnaz Abbas, Əbdülbaqi (Bülbülcan), Keştazlı Həşim, Keçəçi oğlu Məhəmməd, Cabbar Qaryağdı oğlu və məşhur tarzən Sadıqcan həmin məktəbin yetişdirmələridir.

Xanəndəlik sənətinin inkişafı ilə əlaqədar olaraq Şuşada musiqinin nəzəri məsələlərinə dair əsərlər də yaranırdı. Məşhur alim, şair Mir Möhsün Nəvvab qədim Azərbaycan alimlərinin əsərlərindən istifadə edərək muğamat haqqında «Vüzuhul-ərqam» əsərini yazmışdı. Nəvvab öz kitabında muğamatı təhlil edərək onu şöbə və guşələrə bölmüş və bu xüsusda bir cədvəl tərtib etmişdm. Nəvvabın bu əsəri klassik musiqi tariximizi öyrənmək sahəsində qiymətli bir təşəbbüs idi.

XIX əsrin ortalarında xanəndə sənəti ilə əlaqədar olaraq kamança, tar musiqi alətləri də təkmilləşir, eyni zamanda yeni ifa üsulları meydana çıxırdı. Cabbar Qaryağdı oğlu və məşhur kamançaçı Saşa Oqanezaşvilinin Şərq musiqisinə aid yazılarından məlum olur ki, keçən əsrin əvvəllərində kamança üç simli, tar isə beş simli olmuşdur. Lakin sonralar XIX əsrin ikinci yarısında tar daha da təkmilləşdirilmişdir. Böyük tarzən Sadıqcan tara 6 sim əlavə etmiş, artıq pərdələri qırıb atmış, onu döşü üzərində çalmışdır.*

XIX əsrin axırları və XX əsrin əvvəllərində Azərbaycanda siyasi-istimai və iqtisadi aləmdə nəzərə çarpan tərəqqi Bakı, Şuşa, Gəncə və s şəhərlərdə vəziyyəti dəyişir. Belə bir şəraitdə ziyafət və eyş-işrət məclislərinin artması xanəndələr arasında təbəqələşməyə səbəb olurdu. Bülbül yazırdı: «O dövrlərdə şəhərlərdəki məclis və toylar dörd yerə bölünürdü: Birinci, ürəfa məclisləri; ikinci, əsnaf toyu; üçüncü lotu toyları; dördüncü; erməni toyları, müxtəlif qonaqlıqlar və kef məclisləri.

Birinci dərəcəli xanəndələr ürəfa məclislərinə çağırılardı. Buraya başqa adamlar buraxılmazdı. Bu məclisdə klassik Şərq musiqisinə və muğamata dərindən bələd olan «mümtazlar», bir də tacirlər və əsilzadələr iştirak edərdilər. Burada xanəndələr muğamları tamam-dəstgah oxuyardılar. Oyun havaları çalınmazdı. Əsnaf toylarına ikinci dərəcəli xanəndələr çağırılardı. Burada müğənnilərə güzəştə gedərdilər, iki saat dəstgah oxunandan sonra el havası çaldırıb bir-iki adamın oynamasına icazə verərdilər. «Lotu toyları»-nın xanəndəlik sənəti ilə heç bir əlaqəsi yox idi. Sadəcə olaraq pul yığar, qız oynadar, «xalqı soyardılar». Belə toylara iki-üç xanəndə və bir zurnaçı dəstəsi çağırılardı. Burada dəstgah oxumağa, musiqiyə fikir verməyə vaxt qalmırdı. Məclisi rəqqasələr və mütrüblər[19] məşğul

* Bu barədə «Sadıqcan» oçerkində ətraflı danışılır. - Red.

[19] O zamanlar toylarda oynayıb oxuyanlara mütrüb deyərdilər. Mütrüblər çiyinlərinə tökdükləri saçlarını daraya-daraya oynayardılar. - Müəllif.

edərdilər: Qızlar oynayan zaman xanəndələr «Şikəsteyi-fars», yaxud da «Şahpaz» və «Qatar» oxuyardılar.

«Lotu toyları»nın ən çox tədavüldə olduğu yer Bakı idi. Belə toylarla yanaşı, «sünnət toyları» da mövcud idi. Varlılar bu toyları təşkil edib camaatı soyurdular».[20] Təəssüf ki, belə toylara indi də rast gəlmək olur.

Erməni toylarına gəldikdə, burada çalanlar erməni musiqiçiləri olsa da, bir ənənə olaraq bu toylarda azərbaycanlı xanəndələr oxuyardılar. Burada adətən yaxşı tarzən və kamançaçı erməni, ən yaxşı oxuyan isə azərbaycanlı olardı. Həmin faktı etiraf edən böyük musiqişünas Üzeyir Hacıbəyov yazırdı ki, erməni və kürsülərdən Azərbaycan musiqisini özlərinə sənət edən mahir ustalar çoxdur. Ermənilərdə gözəl tar və kamança çalanlar çox olduğu kimi, gürcülərdə də zurna və balaban çalanlar məşhurdur.[21]

Əsrlər boyu mehriban qonşuluq şəraitində yaşayan Zaqafqaziya xalqları bir-birinin kədər və sevincinə şərik olmuş, duz-çörək kəsmiş, ailə şənliklərində, toy məclislərində çalıb-oxumuşlar. Şuşada «erməni Bahadır» adı ilə tanınan məşhur xanəndə Çarıqçı Bahadır el mahnılarının ən gözəl ifaçısı idi. Azərbaycan xalq mahnılarını böyük məhəbbətlə sevən ermənilər Çarıqçı Bahadırı tez-tez öz məclislərinə dəvət edərdilər. Bülbül yazır ki, erməni toylarında dəstgah oxunmazdı. Başlıca olaraq orta və yetim segah oxunardı. Oyun havaları çox çalınar və el mahnıları ifa olunardı.

Məlum olduğu kimi, xanəndəlik sənətinin inkişafında mühüm rol oynamış amillərdən biri də XIX əsrin ikinci yarısında Azərbaycanda təşkil olunmuş ədəbi-musiqi məclisləri idi. Məşhur musiqişünas Xarrat Qulunun ölümündən sonra Kor Xəlifə adlı birisi Şuşada musiqi məktəbi açmışdı. O, tələbələrə muğam oxumağı, tar və kamança çalmağı öyrədirdi. Kor Xəlifənin məktəbi bir çox musiqiçi yetişdirmişdir. Kor Xəlifənin ölümündən sonra məktəb bağlanır. Lakin bu dövrdə Azərbaycanın bir sıra şəhərlərində musiqişünaslar məclisi və krujoklar (dərnəklər), musiqi sənətinə dair maraqlı söhbətlər olurdu. Şuşada «Nəvvabın məclisi», Şamaxıda «Mahmud ağanın krujoku», Bakıda isə «Məşədi Məlik Mənsurovun salonu» əsl musiqi məktəbinə çevrilmişdi. Burada Şərq musiqisinin incəliklərinə dərindən bələd olan görkəmli musiqişünaslar xanəndələrin düzgün oxumasına və ustalığına xüsusi qayğı göstərirdilər. Musiqi məclislərində «Şur», «Rast», «Mahur», «Çahargah», «Bayatı-İsfahan» muğamlarının oxunması iki, bəzən də üç saat çəkərdi. Maraqlı budur ki, məclislərdə bütün muğamları düzgün və tamam-dəstgah oxumağı öyrənən xanəndələr hər hansı bir muğamı daha kamil öyrənər,

---

[20] Bülbül. Xanəndəlik və nəğmələrimiz haqqında (əlyazması). Azərbaycan SSR Mədəniyyət Nazirliyinin Memarlıq və İncəsənət İnstitutunun arxivi, inventar musiqi salonları yaranmağa başlayır. Bu musiqi məclislərində ədəbiyyata, rəssamlıqa və № 67.

[21] Bax: Ü. Hacıbəyov. Əsərləri, ikinci cild, Bakı, 1965, səh. 224.

ixtisaslaşmağa çalışardılar. Hacı Hüsü «Zəmin-xarə» və «Şüştər»i, Məşədi İsi «Mahur»u, Bülbülçan «Hasar-müxalif»i, Mirzə Məhəmmədhəsən «Mənsuriyyə»ni, Qasım Abdullayev «Zabul»u, Malıbəyli Həmid «Rast»ı, İslam Abdullayev «Yetim Segah»ını, Şəkili Ələsgər «Şur»u, Seyid Mirbabayev «Simayi-şəms»i, Cabbar Qaryağdı oğlu «Heyratı»nı, Keçəçi oğlu Məhəmməd «Bayatı-Qacar»ı bütün muğamlardan yaxşı oxuyardılar.

Musiqi məclisləri xalq musiqisinin milli ruhunu, eyni zamanda musiqi dilini yabançı meyllərdən təmizləmiş, muğamatın orijinallığını mühafizə edərək onların assimilyasiya olunma təhlükəsinə qarşı kəskin müqavimət göstərmişdir. Bu məclislər ziyafətlərdən, toy şənliklərindən fərqlənmişlər. Burada şer, musiqi və sənətin «stetik problemləri ətraflı müzakirə olunurdu. Bu musiqi məclislərindən «Şuşa məclisi» şöhrət qazanmışdı. Çünki Şuşada Azərbaycanın başqa yerlərinə nisbətən musiqiçi-çalan, oxuyan, rəqs edən daha çox idi. Təsadüfi deyildir ki, xalq şairi Səməd Vurğun yazmışdır: «Şuşanı əbəs yerə musiqi və poeziyanın beşiyi adlandırmırlar, demək olar ki, Azərbaycanın bütün məşhur oxuyan və çalanları... Şuşada doğulmuşdur...».[22]

Şuşanın musiqi mərkəzi kimi məşhur olmasının səbəblərindən biri şübhəsiz ki, onun məsum uşaq qəlbi kimi pak olan havası, sərin bulaqları, səfalı meşələri, təkrarolunmaz seyrəngahları, bir sözlə, füsunkar təbiətidir.

Sağlamlıq ocağı kimi tanınmış Şuşada hələ XIX əsrin axırlarında həyat qaynayardı: hər il yay aylarında Qafqazın, Yaxın Şərqin və Orta Asiyanın hər yerindən buraya şairlər, dramaturqlar, bəstəkarlar, artistlər və musiqiçilər, həm də Rusiyada və Qərbi Avropada, ali məktəblərdə oxuyan azərbaycanlı tələbələr toplaşaraq teatr tamaşaları göstərir, musiqi məclislərində iştirak edirdilər. Hər xanəndə öz dəstəsi ilə Şuşanın «Yay klubu»nda, səfalı seyrangahlarında, sərin bulaqlarının başında qurulan məclislərdə dinləyicilər qarşısında çıxış edərək Şərq musiqisindən qəribə hekayətlər söylərdilər. Hər evdən, hər həyətdən, hər ağac kölgəsindən tar, kaman, ney, qarmon səsi ucalırdı. Məsəl var deyərlər: «Şuşanın uşaqları ağlayanda «Segah», güləndə «Şahnaz» üstündə gülərlər».

Şuşa Qafqazın konservatoriyası, həm də vokal məktəbi kimi də bütün Yaxın və Orta Şərqdə məşhur idi. Cəsarətlə, özü də mübaliğəsiz demək olar ki, Şuşanın musiqi istedadlarını Qafqazın, eləcə də Şərqin heç bir şəhəri verməmişdir. «İtadiya vokal məktəbi» Avropa musiqi tarixində hansı mövqeyi tutursa, «Şuşa vokal məktəbi» də Şərq musiqi tarixində eyni mövqeyi tutur. Təsadüfi deyildir ki, vaxtı ilə Şuşanı «Qafqazın İtaliyası» adlandırmışlar.[23]

Görkəmli yazıçı Ə. B. Haqverdiyevin qeyd etdiyi kimi, XIX əsrin ikinci yarısı və XX əsrin əvvəlləri Qafqazın harasına getsəydin orada musiqiçini - çalanı, oxuyanı qarabağlıdan görərdin. Bakı, Şəki, Şamaxı, Aşqabad, Tehran, hətta

---

[22] Bax: «Pravda» qəzeti, 23 may 1940-cı il.
[23] Bax: «Kaspi» qəzeti, 12 avqust 1900-cu il, № 177.

İstambul şəhərlərinin toy məclislərinə sazəndə dəstəsini çox vaxt məhz Şuşadan dəvət edərdilər. Qarabağ xanəndələri öz gözəl səsləri, mahir sənətləri ilə İran, türk müğənnilərini həmişə kölgədə qoymuşlar. Qarabağ xanəndələri Şamaxı, Bakı musiqi məclislərinin üzvləri arasında da xüsusi bir hörmət və ehtirama malik idilər. Bu xanəndələr o zaman musiqi sahəsində çalışan bütün digər sənətkarlara istiqamət verirdilər. Müxtəlif yerlərdən xanəndə və tarzənlər Şuşaya gəlib Qarabağ musiqiçiləri üçün çalıb-oxuyar, onlardan göstəriş və qiymət almağa can atardılar. Onlar muğam mülkünün sultanları olan Hacı Hüsünün, Sadıqcanın, Mirzə Muxtarın necə qiymət verəcəyini səbirsizliklə gözləyərdilər...

Beləliklə, Şuşa musiqi məclisi milli musiqi xadimlərinin yetişməsində müstəsna rol oynamış və Azərbaycan musiqisinin inkişafına təkan vermişdir. Şuşa musiqi məclisinin rəhbəri olan Mir Möhsün Nəvvab (1833-1918) XIX əsrin ən mahir musiqişünaslarından biri olmuşdur. O, şair, rəssam, astronom, xəttat, nəqqaş, dülgər, kimyagər, riyaziyyatçı, həm də hipnozçu idi. Nəvvab əhalinin maariflənməsi, mədəni inkişafı uğrunda ciddi çalışmışdır. O, Şuşanın musiqi mərkəzinə çevrilməsinə xüsusi qayğı göstərirdi. Nəvvab böyük xanəndə Hacı Hüsünün yaxından iştirakı ilə «Xanəndələr məclisi» təşkil etmişdi. Onun musiqi məclisi Xarrat Qulunun musiqi məclisindən və Xurşidbanu Natəvanın «Məclisi-üns»ündən (dostluq məclisindən) sonra şəhərin mədəni həyatında müstəsna rol oynamışdır.

Nəvvabın musiqi məclisindən sonra, Şuşada Molla İbrahimin musiqi məktəbi yaranmışdı. Bu məktəbdə bir çox musiqiçilər dərs almışlar. Sevimli müğənnimiz Bülbül də ilk təhsilini bu məktəbdə almışdır.

* * *

XIX əsrin ikinci yarısında Şirvan mahalında xanəndəlik sənətinin intişar tapmasında Mahmud ağanın böyük xidməti olmuşdur. Mahmud ağa Əhməd ağa oğlu (1826-1896) Şamaxının məşhur mülkədarı və bütün Qafqazda tanınmış musiqi xadimi idi. Mahmud ağa sənəti, şeri, musiqini sevən, əliaçıq, qonaqpərvər bir mesenat[*] kimi şöhrət tapmışdı. O, musiqiçilərin qayğısına qalır, onlara maddi köməyini əsirgəmirdi. O dövrdə Qafqazda elə bir məşhur xanəndə və tarzən olmamışdır ki, Mahmud ağanın məclisində iştirak etməmiş olsun.

Şamaxının başqa mülkədar və bəylərindən fərqli olaraq Mahmud ağa alicənab, səxavətli, yoxsulların qayğısına qalan adam idi. Şamaxının abad və gözəl bir şəhər olmasında onun müstəsna xidməti olmuşdur. O, şəhərə su kəməri çəkdirmiş, hətta «Beytüs-səfa» adlı ədəbi məclisə belə maddi yardım etmişdi... Azərbaycanın məşhur şairi Seyid Əzim Şirvani şerlərində Şamaxı bəylərini həcv etmiş, lakin Mahmud ağanı tərifləmişdi.

---

[*] Mesenat - latınca elmə, incəsənətə himayəlik etmək deməkdir. Red.

Mahmud ağa musiqi tariximizdə görkəmli bir musiqişünas kimi xüsusi yer tutur. O özü qəsdən oxuyar, həm də şirin tar çalardı. Mahmud ağa ömrünün bir gününü də musiqisiz keçirməz, necə deyərlər, «Şüştər»lə yatıb, «Osmanlı» ilə oyanarmış.

O öz malikanəsində musiqili gecələr keçirmək üçün düzəltdirdiyi xüsusi salonda tez-tez xanəndələrin müsabiqəsini keçirər, birinci yerləri tutanlara qiymətli hədiyyələr və mükafatlar verərdi. Mahmud ağanın musiqi məclisinin sədası nəinki bütün Qafqazda, hətta onun sərhədindən çox-çox uzaqlarda belə yayılmışdı.

XIX əsrin ikinci yarısında Şamaxıya qonaq gələn bir çox səyyahlar Mahmud ağanın evinə düşər, axşamlar isə musiqi salonunda məşhur müğənnilərin oxumaqlarını dinlər, rəqqasələrə tamaşa etməkdən doymazdılar.

Məşhur fransız yazıçısı Aleksandr Düma da Qafqaza səyahəti zamanı Şamaxıda Mahmud ağanın qonağı olmuş, onun var-dövlətinə, mülkünə, xüsusilə musiqi məclisinə heyran qalmışdı. Aleksandr Düma öz səyahətnaməsində yazmışdı:

«Bazarda gəzərkən biz başqa bir yerə də dəvət olunduq. Şamaxının varlı tatarlarından (azrbaycanlılarından - F. Ş.) olan Mahmud bəy bizi iransayağı şama və rəqqasələrin iştirak etdiyi gecəyə çağırdı. Biz Mahmudbəygilə gəldik. Onun evi İranın (Azərbaycanın - F. Ş.) ən gözəl binalarından biridir. Mən Dərbənddən Tiflisədək heç bir yerdə belə bir bina görməmişdim. Biz Şərq qaydasında sahmana salınmış salona daxil olduq. Buradakı sadə, lakin yaraşıqlı avadanlığı sözlə ifadə etmək çətindir. Bütün qonaqlar üstünə zərif örtük. Salınmış qızılı rəngə çalan atlas döşəklər üzərində əyləşmişdilər. Bu da otağa xüsusi gözəllik verirdi. Böyük pəncərə qarşısında üç rəqqasə və beş musiqiçi oturmuşdu.

Musiqi sədaları yüksəldi... Üç dəmir haça üzərində qurulmuş təbil nəhəng bir yumurtanı xatırladırdı. Bizim fleytaya oxşayan tütəyin, mandalinanı xatırladan tarın, nəhayət, çonquriyə oxşayan dəmir dayaqlı kamançanın şən sədaları bir-birinə qarışdı. Səslər çox yüksək və qarışıq olsa da olduqca orijinal idi...».[24]

Məşhur rus etnoqrafı və səyyahı İ. Yevlaxov da öz xatirələrində həmin görüş barədə yazır:

«...«Monte-Kristo»nun müəllifi ilə mən birinci dəfə 1858-ci ilin noyabrında Şamaxıda rastlaşdım.

...Axşam bizi Şamaxının varlı müsəlmanlarından birinin - Mahmud bəyin bu yaxınlarda Şərq tərzində tikilmiş evinə dəvət etdilər... Tamam Şərq dəbində qaydaya salınmış otağa daxil olduq... Aleksandr Düma öz dəstəsilə mer-meyvə yeyib sərinləyir, qəlyan çəkirdi. Süfrəyə cürbəcür dadlı Şərq yeməkləri düzülmüşdü. Məclisdə qonaqlar arasında rus çinovnikləri də var idi. Biz «Monte-Kristo»nun müəllifi ilə onu heyran edən evin dəbdəbəsi və gözəlliyi haqqında xeyli söhbət etdik.

[24] А.Дума. Кавказ. Путешествийе. Тифлис,1861, г, стр. 337—338.

Növbəti gecələrin birində rəqqasə Nisənin gözəlliyinə heyran qalan Düma ikinci yeməkdən sonra masanın arxasından duraraq Nisəyə yaxınlaşıb qızın örtüyünü qaldırıb göbəyindən öpdü. Məclis əhli, xüsusilə müsəlman qonaqlar Aleksandr Dümaya qəzəblə baxdılar: «Allah! Allah! Yazıçılar belə vicdansız olduqları halda, bəs adi kafirlərdən nə gözləmək olar» deyə başlarını bulayaraq bir-biri ilə pıçıldaşdılar. Gecə saat 3-də Düma bizimlə vidalaşdı. Ertəsi gün Şamaxıdan getdi».[25]

Mahmud ağanın qonaqlarından biri də Peterburq Rəssamlıq Akademiyasının prezidenti, məşhur rus rəssamı, knyaz Qaqarin olmuşdur. Mahmud ağanın məclisində onu ən çox məftun edən, rəqqasələrin, xüsusilə məşhur rəqqasə Nisə xanımın son dərəcə məharətlə oynaması olmuşdu. Təsadüfi deyildir ki, knyaz Qaqarin «Şamaxı rəqqasları» adlı məşhur tablosunu yaratmış, hətta öz qeydlərində Nisədən başqa digər rəqqasələrin - Sona, Rəna, Səkinə, Hikmət və Məleykənin adlarını da çəkmişdir.

Mahmud ağanın musiqi məclisində yerli musiqiçilərlə birlikdə Tiflis, Qarabağ, İran musiqiçiləri də çıxış edirdilər. Hacı Hüsü, Məşədi İsi, Bülbülcan, Ərdəbilli Səttar, Sadıqcan, Cabbar Qaryağdı oğlu kimi dövrünün məşhur xanəndələri aylarla Mahmud ağanın qonağı olub, onun təşkil etdiyi musiqi müsamirələrində fəaliyyət göstərmişlər. Bir çox tarixi sənədlərdən məlum olur ki, bu sənətkarlar içərisində Mahmud ağanın ən çox hörmət bəslədiyi və tez-tez Şamaxıya dəvət etdiyi xanəndə Hacı Hüsü və tarzən Sadıqcan olmuşdur.

Mahmud ağa öz məclisinə gənc musiqiçiləri də dəvət edib onlara klassik Şərq musiqisindən təlim verərmiş. Onun məclisi bütün Zaqafqaziyada çalan və oxuyanlar üçün bir növ «təkmilləşdirmə institutu» idi. Burada ifaçılıq təlimi alan və çalğısı bəyənilən hər bir musiqiçi təqdir olunardı. Şamaxıda yetişmiş Mirzə Məhəmmədhəsən, Mehdi, Məbud, Şükür, Davud Səfiyarov kimi xanəndələr, topal Məhəmmədqulu və Hümayi kimi tarzənlər Mahmud ağanın tələbələri olmuşlar.

O zaman Şamaxı musiqi məclisinin şöhrəti çox uzaqlara yayılmışdı. Azərbaycanın hər yerindən oxuyan, çalan, oynayan Şamaxıya gəlib Mahmud ağa qarşısında öz sənətini nümayiş etdirməyə can atardı. Təsadüfi deyildir ki, Şamaxı məclisi və onun rəhbəri haqqında el arasında əfsanələr, rəvayətlər yaranmışdı.

* * *

Azərbaycanda xanəndəlik sənətinin inkişafında Şuşa və Şamaxı məclisləri ilə bərabər Bakı məclisinin də müəyyən xidməti olmuşdur. Bakı musiqi məclisinin rəhbəri Məşədi Məlik Mənsurov (görkəmli tarzən Mənsur Mənsurovun atası) idi.

Məşədi Məlik (1838-1909) öz dövrünün açıqfikirli, mədəni şəxslərindən biri olmuşdur. O, bilikli musiqişünas, mahir çalğıçı, «musiqiçilər ailəsinin» görkəmli nümayəndəsi idi. Məşədi Məlik Bakının İçərişəhər hissəsində yaşayırdı.

[25] Bax: «Новоje обозрениje» qəzeti, 1887-ci il, № 1060.

Onun geniş və işıqlı otaqları olan evinin böyük salonunda tez-tez yığıncaq olardı. Məşədi Məliki musiqi sənətinə sövq etdirən Tehranlı Mirzə Səttar olmuşdur. Bir çox tarixi vəsiqələrdən və Səttarla bir dövrdə yaşamış musiqiçilərin xatirələrindən aydın olur ki, Səttar Bakıya gələrkən qonaqpərvər Mənsurovların evinə düşərmiş. Səttarın Məşədi Məlikin evində yaşaması Mənsurovlar ailəsinin musiqiyə olan həvəsinə ciddi təsir göstərmişdir. Bu barədə Məşədi Məlikin oğlu tarzən Məşədi Süleyman Mənsurovun xatirələri daha maraqlıdır. O yazır: «Azərbaycanda muğamatı intişar etdirən Mirzə Səttar (kamançazən) olmuşdur. Bakıya kamançanı gətirən də o, olmuşdur. Mirzə Səttar fars və ərəb dillərini mükəmməl bilirdi. Otağında musiqişünaslara və şairlərə dair külli miqdarda ədəbiyyat var idi».[26]

Məşədi Süleymanın xatirələri faktiki material kimi qiymətli olsa da, lakin burada yanlış fikirlər də yox deyildir: əvvəla, Azərbaycanda muğamatı intişar etdirən Mirzə Səttar olmamışdır. İkincisi, Səttar ömrünün çoxunu İranda keçirmişdi, yalnız qoca vaxtlarında Bakıya gəlmiş, kamança çalmaq ilə məşğul olmuşdur. Qaldı kamançanın Bakıya gətirilməsi məsələsində də Məşədi Süleyman Mənsurov yanılır. Çünki, bakılılar kamançanı hələ Səttarın Bakıya gəlməsindən təxminən 20-25 il qabaq, yəni 1888-ci ildə Bakıya qəssab Hənifənin toyuna Cabbarın, tarzən Sadıqcanın və kamançaçalan Avanesin dəvət olunduğu vaxt görmüşlər. O dövrə qədər Bakı toylarına aşıq dəstəsi və balabançılar dəvət olunardı. Məşhur rus səyyahı professor İ. Berezina (Abbasqulu ağa Bakıxanovun dostu və Mirzə Kazımbəyin tələbəsi) «Dağıstan və Zaqafqaziyaya səyahət» adlı kitabında yazır: «Mən 1844-cü ildə Bakıda olarkən buzovnalı Əlyar bəyin qonağı oldum. Biz axşam qəza rəisi Mirzə ilə Buzovna kəndinə gəldik. Son dərəcə varlı və qonaqpərvər ev sahibi bizi çox mehribanlıqla qarşıladı.

...Mən Şərq yeməklərinin keyfiyyətindən danışmayacağam. Çünki bunları saymaq ilə qurtarmaz. Dağ keçisinin kababı, cürbəcür xuruşlu plovların sayı-hesabı yox idi. Hətta bir-birinin dalınca Avropa yeməkləri, dessert içkilər, əla dəmlənmiş qəhvələr adamı çaşdırırdı... Nahardan sonra kəndin mənzərəsinə tamaşa etdik... Axşam biz Əlyar bəyin evinə qayıdanda bizi yenə də Şərq yeməkləri və müsəlman musiqiçiləri gözləyirdi...

Orkestr dörd musiqi alətindən ibarət idi. «Qoşanağara», bizim balalaykaya oxşayan «saz» və fleytaya bənzəyən «balaban», bir də dəyirmi şəkildə olan «qaval» idi.

Orkestrə sazçalan rəhbərlik edirdi. Çünki o, həm çalır, həm də oxuyurdu (Prima-Tenor). Mahnılar bir-birini əvəz edirdi. Ola bilsin ki, Şərq oxumaqları avropalının xoşuna gəlməsin. Ancaq onu da deməliyəm ki, mən axır vaxtlar Tehranın, Qahirənin, Konstantinopolun (İstambulun - F. Ş.) ən yaxşı müsəlman artistlərini çox eşitmişəm. Lakin Abşeron yarımadasında Əlyar bəygildə eşitdiyim

[26] Bax: Azərbaycan SSR Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutunun elmi arxivi, qovluq № 80.

oxumaqlar mənə daha da xoş gəldi. Abşeron müğənnisi şən, həm də kədərli mahnılar çox oxudu. Hətta mən onlardan birinin mətnini belə yazıb götürdüm».[27]

Məşədi Məlik qonaqpərvər bir şəxs olduğundan Qarabağdan, Şirvandan, eləcə də İrandan Bakıya gələn musiqiçilər aylarla onun hər cür şəraiti olan yaraşıqlı otaqlarında dincələrdilər. Azərbaycanın Hacı Hüsü, Əbdülbaği (Bülbülcan), Məşədi Zeynal, Sadıqcan kimi musiqiçiləri Məşədi Məlikin ən yaxın dostları idi. Bu virtuoz sənətkarlar Bakıya toy şənliklərinə dəvət olunanda Məşədi Məlikin musiqi salonunda da çalıb-çağırardılar. Hacı Hüsünün qeyri-adi məlahətli səsi, onun təkrarolunmaz bir ustalıqla «Şüştər», «Mahur» oxuması, Bülbülcanın «Hasar-müxalif»də vurduğu sürəkli zəngulələri, Sadıqcanın iti və şirin barmaqları məclisdəkiləri vəcdə gətirərdi. Hətta Şərqin məşhur müğənnilərindən olan ərdəbilli Ala Palaz oğlu Molla Rza da Məşədi Məlikin tez-tez qonağı olardı. O zaman Ala Palaz oğlu Bakının Bibi-Heybət kəndində yaşayırdı. Ala Palaz oğlu uzun illər Nəsirəddin şahın saray müğənnisi olmuş, sonralar isə Qarabağa gəlib Şuşa şəhərində mərsiyəxanlıq etmişdir. O, hərdənbir toy məclislərində də çıxış edərdi. Cabbar Qaryağdı oğlunun ilk müəllimlərindən biri də Ala Palaz oğlu olmuşdur. Ala Palaz oğlu keçən əsrin axırlarında Bakıya köçmüş və Bibiheybət məscidində minacat verməklə məşğul olmuşdur. Deyilənə görə, Ala Palaz oğlunun elə qüdrətli və zil səsi var imiş ki, o, minacat verəndə bütün Bakı onun səsini eşidərmiş.

Şübhəsiz ki, Məşədi Məlikin «musiqi salonu» Şuşa və Şamaxı məclisləri kimi müntəzəm və hərtərəfli fəaliyyət göstərə bilməmişdi. Bu məclis İrandan, Tiflisdən, xüsusilə Qarabağdan Bakıya toy şənliklərinə dəvət olunan məşhur musiqiçilərin, birinci növbədə Hacı Hüsü, Əbdülbaği Bülbülcan, Məşədi Zeynal, Sadıqcan kimi sənətkarların musiqi dəstələri hesabına fəaliyyət göstərirdi. Daha doğrusu, bu sənətkarların Bakıya gəlməsindən istifadə edən Məşədi Məlik onların şərəfinə təmtəraqlı qəbullar düzəldər, yerli musiqiçiləri də oraya toplayardı.

Məşədi Zeynal, Bülbülcan, Hacı Hüsü və Sadıqcan kimi məşhur sənətkarların Bakıya gəlişi, yerli musiqiçilərin hədsiz sevincinə səbəb olardı. Bundan istifadə edən Bakı musiqiçiləri bu nəhəng sənətkarların ifaçılıq məharətlərini əxz etməyə, «Qarabağ vokal məktəbi»nin sirlərinə yiyələnməyə çalışardılar. Bütün bu sənətkarlar içərisində Məşədi Məlikin ən çox sevdiyi, yaxın dostu böyük tarzən Sadıqcan olmuşdur. Məşədi Məlikin özü və oğlanları Mirzə Mənsur və Məşədi Süleyman tar çalmağı Sadıqcandan öyrənmişlər. Sadıqcan Bakı məclislərində, xüsusilə şəhər əhlinin elə hörmət və məhəbbətini qazanmışdı ki, bakılılar onu hörmət əlaməti olaraq: «Mirzə Sadıq» deyə çağırmışlar.

Bakı musiqi məclisində ifaçılıq sənəti barəsində ciddi söhbətlər aparılsa da, əsas fikir musiqi tarixinə verilərdi. Burada muğamatın nə zaman, kim tərəfindən, hansı şəraitdə yaradılması mövzusu məclis üzvlərini daha çox maraqlandırardı. Bununla belə məclisdə hər bir muğam ayrıca müzakirə olunardı. Muğamların

---

[27] И. Березина. Путешествие по Дагестану и Закавказью. Казань, 1850, г., часть, III, стр. 70-71.

tamam-dəstgah və düzgün oxunmasına xüsusi diqqət yetirilərdi... Musiqiçilər arasında müəyyən bir muğamın şöbə, guşə və hissələri barəsində mübahisə düşdükdə tarzən Mirzə Fərəsə, yaxud xanəndə Ağa Kərim Salikə müraciət edərdilər...

Bakı musiqi məktəbində Seyid Mirbabayev*, Lazar Ter-Vartanesov, Ağa Kərim Salik, Bəylər, Ağa Səid oğlu Ağabala, Əli Zuhab, Mirzə Fərəs, Arşaq Xıdırov, Baladadaş, Qosti, Mərdi Canıbəyov və başqa musiqiçilər toplaşaraq öz musiqi savadlarını təkmilləşdirirdilər. Bu musiqiçilər arasında Ağa Səid oğlu Kəblə Ağabala xüsusi yer tuturdu. Ağa Səid oğlu tacir idi, xanəndəlik etməzdi. Lakin bəzi hallarda kübar ailələrin toy şənliklərində çıxış edərdi.

Qaryağdı oğlu Cabbarın dediyinə görə, Ağa Səid oğlu həm səsdə, həm də savadda başqalarından üstün idi. O, «Segah-Zabul»u xüsusi bir ustalıqla oxuyardı.

Görkəmli musiqişünas Məşədi Məlikin təşkil etdiyi «musiqi salonu» Bakı musiqiçilərinin bütöv bir nəslini yetişdirib tərbiyə etmişdi. Məşədi Məlikin oğlanları Məşədi Süleyman və Mirzə Mənsur öz nəslinin musiqi irsini qoruyub saxlamış və onu təbliğ etmişlər.

Azərbaycanda xanəndəlik sənətinin inkişafında Şuşa, Şamaxı və Bakı məclislərinin müstəsna əhəmiyyəti olmuşdur.[28] Bu məclislər yeni xanəndələr nəsli yetişdirməklə bərabər, muğam musiqisinin xalq arasında intişar tapmasında da böyük rol oynamışdır. Digər tərəfdən, məclislər musiqimizi yad təsirlərdən qorumuş, muğamların milli məzmunlu, xalq ruhunda olmasını təmin etmişlər. Muğamın geniş xalq kütlələrinin məişətində möhkəm yer tutmasına da səbəb məhz bu idi. Bəzən musiqi məclislərində muğamı bir neçə xanəndə oxuyar, onları dinləyən tamaşaçılar, peşəkar və həvəskar xanəndələr isə dəstgah oxuyan xanəndənin səhv cəhətlərini tənqid edərdilər. Bu tənqidi qeydlər çox zaman ciddi

---

* Seyid Mirbabayev Bakı musiqi məclisinin sonbeşiklərindən biri olmuşdur. Mir Tağı 1867-ci ildə Bakıda mərsiyəxan ailəsində anadan olmuşdur. O, əvvəllər atası və böyük qardaşları kimi mərsiyəxanlıq etmiş, sonralar isə xalq şənliklərində bir xanəndə kimi şöhrət qazanmışdı. O, 1910-cu ilə kimi Bakının musiqi həyatında ciddi rol oynamış, teatr tamaşalarının fasilələrində və Şərq konsertlərində mahir bir müğənni kimi yaxından iştirak etmişdi. 1906-cı ildə qrammafon şirkəti tərəfindən Riqa şəhərinə dəvət edilib səsini vala yazdırmışdı. Lakin 1910-cu ildə Bakı milyonerlərindən biri olan Şıx Balayevin toy məclisinə dəvət olunan Seyid Mirbabayev, tarzən Şirin Axundov və kamançaçı Levon Qaraxanov ilə birlikdə həmin məclisdə iştirak edərkən toy sahibi sazəndələrə pul əvəzinə hərəsinə sabunçuda həyət sahəsi bağışlamışdı. Həmin həyətdən bir neçə neft quyusu fantan vurduqdan sonra Seyid Mirbabayev xanəndəliyin daşını atmış, az vaxtda Bakı milyonerlərindən biri olmuşdur. Ondan sonra xanəndəlik sənətinə nifrət etmiş, hətta öz qrammafon vallarını baha qiymətə alıb sındırmışdı. Nəhayət, 1929-cu ildə Parisdə səfil vəziyyətə düşən Seyid Mirbabayev «Pate-rekord» qrammafon firmasına gəlib öz köhnə qrammafon vallarının təzədən çap olunmasını xahiş edərkən saxladığı yeganə valı əlindən yerə salıb sındırmışdı. Seyid Mirbabayevi bakılı Teymur bəy Aşurboyov Parisdən Tehrana gətirmişdi. Burada bakılıların çayxanasında yenidən xanəndəlik etmiş Seyid Mirbabayev 1953-cü ildə 86 yaşında Tehranda vəfat etmişdir - müəllif.

[28] Саша Оганезашвили. Azərbaycan xalq musiqisinin vəziyyəti. "Dan yıldızı" jurnalı, Tiflis 1927-ci il, № 3, səh. 32.

mübahisələrə çevrilərdi. Mübahisə kəskin şəkil aldıqda müəyyən bir muğamı tamam-dəstgah oxumaq üçün müsabiqə elan edilərdi. Belə müsabiqələrin canlı şahidi və iştirakçısı olan məşhur kamançaçı Saşa Oqanezaşvili yazırdı:

«...Müsabiqə üçün buraya ən yaxşı sazəndələr çağırılırdı. Hələ musiqi məclislərinə bir həftə qalmış ən yaxşı sazəndə və xanəndələri, habelə rəisi-məclisi seçmək üçün komissiya ayrılırdı. Rəisi-məclis çağırılan xanəndə və sazəndələrin ifa edəcəkləri musiqi proqramını tərtib edirdi. Tamaşaçılar üçün müəyyən bir qayda qoyulmuşdu: xanəndənin oxuduğu sözlərə qulaq asmaq üçün hamı tam sakitliyi gözləməli idi.

Rəisi-məclis və xalq tərəfindən bəyənilən musiqişünas və xanəndələr mükafat və pul alırdılar. Proqramı ifa edə bilməyənlər isə istehzalar altında məclisdən çıxarılırdı.

Bunu bildikləri üçün hər bir xanəndə və musiqişünas öz ixtisasını daha dərindən öyrənməyə ciddi səy edirdi».[29]

Azərbaycanın məşhur şairlərindən seyid Əzim Şirvani, X. B. Natəvan, M. Ə. Bakı, M. A. Müctehidzadə və başqaları da musiqi məclislərində iştirak etmiş, hətta bu barədə şerlər də yazmışlar.

Xanəndəlik sənəti inkişaf edərək XIX əsrin axırlarında məhdud məclis, toy və adi şənlik çərçivəsindən çıxıb teatr və konsert salonlarına yol tapır. Xanəndə dəstələri teatr tamaşalarının fasilələrində böyük müvəffəqiyyətlə çıxış etməyə başlayır.

Qafqazda xanəndələrin ilk dəfə teatr tamaşalarında çıxışı Tiflis və Şuşa şəhərlərində olmuşdur. Xanəndələrin teatr fasilələrində çıxışları Azərbaycanda musiqili səhnəciklərin və teatr tamaşalarının meydana gəlməsinə təkan verir.

Azərbaycan mədəniyyəti tarixində ilk musiqili səhnəciklər məşhur ədib Əbdürrəhimbəy Haqverdiyevin təşəbbüsü ilə Şuşa şəhərində göstərilmişdi. Ə. Haqverdiyev xalq xanəndələrini və musiqiçilərini səhnəyə çıxaran ilk mədəniyyət xadimidir.

1897-ci ildə Şuşada Ə. Haqverdiyevin rejissorluğı altında yerli həvəskarlar böyük Azərbaycan şairi Füzulinin «Leyli və Məcnun» poemasından «Məcnun Leylinin qəbri üstündə» parçasını musiqili səhnəcik kimi göstərmişlər. Məcnun rolunu oynayan məşhur xanəndə Cabbar Qaryağdı oğlu başına quş yuvası qoyub səhnəyə çıxmışdı. İlk tamaşa çox bəsit olsa da, dinləyicilərə dərin təsir bağışlamışdı. O zaman 13 yaşlı Üzeyir Hacıbəyov da Cabbar Qaryağdı oğlunun Məcnun rolunda çıxışına böyük həyəcanla tamaşa etmişdi.

Musiqili səhnəcik Azərbaycanın mədəni həyatında əlamətdar hadisə idi. 1902-ci ildə Şuşada Nizami Gəncəvinin «Xosrov və Şirin» poeması əsasında

---

[29] Üzeyir Hacıbəyov. "Leyli və Məcnun"dan "Koroğlu"yadək. "Бакински рабочи» qəzeti, 16 mart 1938-ci il, № 61.

«Fərhad və Şirin» adlı musiqili səhnəcik göstərildi. Fərhad rolunda da Cabbar Qaryağdı oğlu oynadı. Bütün bu mədani tədbirlər «Şərq konsertləri»nin təşkilinə də müəyyən dərəcədə təsir edir, şərait yaradırdı. Azərbaycanda ilk I «Şərq konsertləri» 1901-ci ildə Şuşada, 1902-ci ildə isə Bakıda Ə. Haqverdiyevin rəhbərliyi altında təşkil edilmişdi. Ə.Haqverdiyev həmin konsertlərə Azərbaycanın ən yaxşı xanəndə dəstələrini və Gülablı aşıqlarını dəvət etmişdi. Ə. Haqverdiyev Azərbaycan musiqi tarixində ilk dəfə olaraq 12 nəfərdən ibarət orkestr və el nəğmələrini ifa edən xor dəstəsini səhnəyə çıxartmışdı. Konsert Ə. Haqverdiyev tərəfindən tərtib edilmiş «Azərbaycan toyu» tamaşası ilə bitirdi. «Şərq konsertləri»ndə muğamat, xalq mahnı və rəqsləri, aşıq havaları ilə yanaşı musiqili səhnəciklər də göstərilirdi.

XX əsrin əvvəllərində Şuşada və Bakıda verilən musiqili səhnəciklərin və «Şərq konsertləri»nin Azərbaycanda milli operanın yaranmasında da böyük rolu olmuşdur. Bu faktı böyük bəstəkar Üzeyir Hacıbəyov özü belə təsdiq etmişdir: «Leyli və Məcnun» operasının yazılışına mən 1907-ci ildən başladığıma baxmayaraq, bu operanın yaranması fikri məndə hələ 1897-1898-ci illərdə 13 yaşlı uşaq ikən, doğma Şuşa şəhərində həvəskarlar tərəfindən tamaşaya qoyulan «Məcnun Leylinin qəbri üstündə» musiqili faciəni görərkən oyanmışdı.

Bu tamaşa mənə o qədər dərin təsir etdi ki, mən bir neçə ildən Azərbaycanda xalq musiqisinin, xanəndəlik sənətinin inkişafı «Leyli və Məcnun» operasının meydana çıxmasına, beləliklə, musiqi mədəniyyətimizdə yeni bir mərhələnin başlanmasına imkan yaratmışdır...

* * *

XX əsrin əvvəllərində xanəndələrin iştirakı ilə verilən musiqili səhnəciklər və «Şərq konsertləri» istər vokal, istərsə də çalğı musiqisi ifaçılığının inkişafına imkan yaratmaqla «Şərq gecələri»nin də təşkilinə meydan açırdı. Tamaşaçıların estetik zövqünə müsbət təsir göstərən «Şərq gecələri»nin proqramı konsertlərə nisbətən bir qədər geniş və çoxcəhətli idi. Əgər konsertlərdə təkcə xanəndələr və aşıqlar iştirak edirdisə, «Şərq gecələri»ndə həm «Şərq konsertinə» yer verilər, həm də kiçik həcmli teatr tamaşaları göstərilər və axırda da rəqs təşkil olunardı. «Şərq gecələri»nin bir üstünlüyü də o idi ki, gecəyə gələn tamaşaçıların milli tərkibi müxtəlif olurdu. Bu isə kütlələrin beynəlmiləl tərbiyəsinə müsbət təsir göstərirdi.

Azərbaycanda ilk «Şərq gecəsi» Bakıda, 1907-ci ilin yanvar ayının 20-də Artistlər Cəmiyyətinin zalında «Müsəlman xeyriyyə cəmiyyəti» tərəfindən şəhər yoxsullarının xeyrinə təşkil olunmuşdur. Dörd şöbədən ibarət olan bu gecədə əsas yer «Şərq konserti»nə verilmişdir. Birinci şöbədə xalq çalğı alətləri orkestri «Araz-barı» ritmik muğamını çalmış, xanəndələr «Gülə-gülə» mahnısını xorla oxumuşlar:

Nə durmusan dağ başında qar kimi,
Məmələrin heyva kimi, nar kimi.

Gülə-gülə, gülə-gülə, ay xanım,
Sənə qurban mənim bu yazıq canım.

Bəzi musiqişünaslar Azərbaycanda xor ilə mahnı oxunmasının tarixini dolaşıq salırlar. Onlar xorun yaranmasını 1908-ci ildə «Leyli və Məcnun» operasının tamaşası tarixi ilə, ya da əsrimizin 20-ci illərindən sonrakı dövrlə əlaqələndirirlər. Əlbəttə, bu iddialar doğru deyildir. Məlum olduğu kimi, hələ 1906-cı ildə «Qrammafon» aksioner cəmiyyəti Qafqaz xanəndələrindən Cabbar Qaryağdı oğlu, Şəkili Ələsgər, Keçəçi oğlu Məhəmməd və Məşədi Məmməd Fərzəliyevin, Qurban Pirimov və Saşa Oqanezaşvilinin müşayiətilə xorla oxuduqları «Şəbi-hicran», «Gülə-gülə» və başqa mahnıları qrammofon valına yazmışdır.

«Şərq gecəsi»nin ikinci şöbəsinin iştirakçıları Qarabağdan dəvət olunmuş aşıqlar - Abbasqulu, Nəcəfqulu, Həşim, Heydər və məşhur balabançı Həsən idi. Üçüncü şöbə «Şərq konserti»nə həsr edilmişdir.*

Dördüncü şöbədə Vasak Mədətovun birpərdəli «Qırt-qırt» komediyası oynanılmışdır. Baş rolda, Ağamurad rolunda Azərbaycan teatrının görkəmli xadimi Cahangir Zeynalov çıxış etmişdir. «Şərq gecəsi» tamaşaçılar üçün təşkil olunmuş rəqslə başa çatmışdır.

Bakıda ikinci «Şərq gecəsi» 1915-ci il mart ayının 13-də «Nicat» cəmiyyəti tərəfindən keçirilmişdir. Ü. Hacıbəyovun «Ər və arvad» musiqili komediyasından bir pərdə göstərilmişdir. Məşhur tarzən Məşədi Zeynal Haqverdiyev «Rahab», kamançaçı Moses Kuniyans «Zəmin-xarə», neyçalan Mirzə Abdulla isə «Rast» muğamını çalmışdır. Ölməz sənətkar Hüseyn Ərəblinski hamletin: «Ölüm, ya ölüm» monoloqunu söyləmişdir. O gecədə həmçinin aşıq Abbasqulu, artist Hüseynqulu Sarabski, Qarabağdan dəvət olunmuş məşhur məzhəkəçi Abdal Qasım iştirak etmişlər.

Bakılılar «Şərq gecələri»nə böyük maraq göstərdikləri üçün «Nicat» cəmiyyəti gecələrin sayını artırırdı. Həmin gecələrin proqram və afişaları əvvəlcədən qəzetlərdə elan olunurdu. O dövrdə Bakıdan sonra Şuşa, Gəncə, Şəki və Tiflis şəhərlərində də «Şərq gecələri» keçirilirdi. (Ayrı-ayrı sənətkarlardan danışarkən onların bu gecələrdə iştirakından ətraflı bəhs edəcəyik).

İllər ötdükcə «Şərq konsertləri» muğamat konsertləri ilə əvəz olunduğu kimi, «Şərq gecələri» də məzmunca dəyişilməyə başlayır. «Şərq gecələri»nin proqramı əvvəllər «Şərq konsertləri»ndən, musiqili səhnəciklərdən, teatr tamaşasından və rəqslərdən tərtib edilirdisə, artıq XX əsrin iyirminci illərindən etibarən bu gecələr müəyyən bir sənətkarın yaradıcılığına həsr olunmuş ədəbi-musiqili gecədən ibarət olardı. 1925-ci ildə böyük müğənni Bülbülün Şuşada təşkil etdiyi ədəbi-musiqili gecə Şərq poeziyasının günəşi Məhəmməd Füzulinin poetik

* Oçerklərdə yeri gəldikcə «Şərq konserti» barədə ətraflı danışılır. Red.

yaradıcılığına həsr olunmuşdu. Burada Füzulinin şərəfinə xorla ifa olunan bir mahnı da səslənmişdir. Mahnının sözləri Cabbar Qaryağdı oğlunun, musiqisi isə Bülbülün idi. Füzulinin «Şəfayi-vəsl qədrin hicr ilə bimar olandan sor» rədifli qəzəlini «Şüştər» muğamı üstə Cabbar Qaryağdı oğlu, «Füzuli təsnifləri»ni Bülbül, şairin sözlərindən ibarət bir türk təsnifini isə tarzən Məşədi Cəmil Əmirov məlahətlə oxumuş və rəğbətlə qarşılanmışdır. Həmin gecə ilk dəfə səhnəyə çıxan gözəl səsli Eloğlu İsmayıl da böyük müvəffəqiyyət qazanmışdı. (O, sonralar görkəmli opera müğənnisi olmuşdur). Məşhur həkim Kərimbəy Mehmandarov gecənin təşkilatçılarını tamaşaçılar adından qızğın təbrik etmiş, ifaçılara dərin minnətdarlığını bildirmişdir.

Bir çox klassik xanəndələrimiz geniş və rəngarəng repertuarla fərdi konsertlər vermişlər. Musiqi tariximizdə ilk dəfə səhnəyə çıxan və müstəqil konsert verən məşhur xanəndəmiz Səttar olmuşdur. XX əsrin əvvəllərində isə müstəqil muğamat konserti ilə Cabbar Qaryağdı oğlu, sonralar Seyid Şuşinski, Bülbül və Xan Şuşinski çıxış etmişlər. Tarzənlərdən XIX əsrdə ilk dəfə səhnədə solo tarçalan, Azərbaycan tarının atası Sadıqcan, 1907-ci ildə Məşədi Zeynal, 1913-cü ildə isə Bala Məlikov Peterburqda müstəqil konsert vermişdir.

Şübhəsiz ki, o dövrlərdə tamaşaçılar qarşısında fərdi konsertlə çıxış etmək hər musiqiçinin hünəri deyildi.

***

Xanəndəlik sənətindən, onun inkişaf yolundan bəhs edərkən milli musiqiçilərin qrammafon vallarını unutmaq olmaz. Klassik xanəndələrin gözəl səslərini hifz edib yaşadan, «şahidlik edən» qrammafon valları misilsiz milli sərvətdir. Məlum olduğu kimi, xanəndələrin gözəl səslərinin qrammafon vallarına yazılması istər Azərbaycan musiqisinin təbliğində, istərsə də onun dünya şöhrəti qazanmasında müstəsna rol oynamışdır. Məhz buna görə də bu məsələnin qısaca da olsa tarixinin işıqlandırılması, musiqi mədəniyyəti irsimizin öyrənilməsi baxımından böyük əhəmiyyət kəsb edir.

Qrammafon (yunanca Qramma - yazan, Phope - səs) səsyazan deməkdir. Bu aparatı ilk dəfə 1887-ci ildə məşhur alman mühəndisi Emil Berliner (1851-1929) icad etmişdir. Birinci dəfə qrammafon valına dünyaya şöhrətli italyan müğənnisi Enriko Karuzonun səsi yazılmışdır.

Qrammafon vallarının istehsalı Rusiyada Avropa ölkələrinə nisbətən bir qədər gec başlasa da, rus artistləri xarici ölkələrə dəvət olunar, səsləri qrammafon vallarına yazılardı. 1897-ci ildə Peterburq Marina teatrının artistləri Almaniyanın Hannover şəhərinə gedərək öz səslərini qrammafon vallarına yazdırmışlar. Rus artistlərindən səsini ilk dəfə vala yazdıran məşhur müğənni İ. V. Tartakov olmuşdur.

1899-cu ildə Emil Berliner Peterburqda səsyazma studiyası açır və bir çox məşhur opera artistlərinin səsini qrammafon vallarına köçürür. 1901-ci ildə məşhur

rus müğənnisi Fyodor Şalyanin, sonra isə L. Sobinov, N. N. və M. İ. Fiqner (ər-arvad) səslərini qrammafon vallarına yazdırırlar.

İngiltərənin «Qrammafon» səhmdarlar cəmiyyəti 1902-ci ildə Rusiyada ilk dəfə qrammafon valları fabriki açır. Həmin cəmiyyətin Varşava, Riqa, Peterburq, Moskva, Kiyev və Tiflis şəhərlərində baş idarələri yaradılır.

Nəhayət, 1906-cı ildə «Qrammafon» cəmiyyətinin Riqa şəhərindəki şöbəsi məşhur Qafqaz müğənnilərinin səslərini vallara köçürmək üçün onları Riqaya dəvət edir. Şərq tarixində ilk dəfə səsini qrammafon valına yazdıran Cabbar Qaryağdı oğlu olmuşdur. Bu ilk vallar birüzlü, kiçik həcmli olmaqla diskinin diametri 200 mm idi. Cabbar Qaryağdı oğlundan sonra Şəkili Ələsgər, Seyid Mirbabayev, tarzən Mərdi Canıbəyov, kamançaçı Avanes qrammafon valına çalıb-oxumuşlar.

1907-ci ildə Fransanın «Pats» qardaşları şirkəti Rusiyada qrammafon vallarını buraxmaq üçün fabrik açmışdı*. «Pate» qardaşları şirkətinin buraxdığı valların diametri əvvəllər 6 sm, sonralar isə 12, 15 və 18 sm, daha sonralar isə, hətta 50 sm-ə çatmışdır. Bu vallar da əvvəllər birüzlü olmaqla, ortadan kənara oxunurdu. Bu vallar özü də iynə ilə yox, almaz ilə oxunardı. «Pate» firması Qafqaz müğənnilərindən yenə də ilk dəfə Cabbar Qaryağdı oğlunu və məşhur İran müğənnisi Qəmər-Mülük xanımı dəvət etmişdi. Bunlardan sonra Keçəçi oğlu Məhəmməd, Məşədi Məmməd Fərzəliyev, Davud Səfiyarov həmin şirkətin firmalarında səslərini vala yazdırmışlar. Bütün bu müğənniləri tarda Qurban Pirimov, kamançada Saşa Oqanezaşvili müşayiət etmişdi. O zaman xırda valın qiyməti qızıl pul ilə 1 manat 30 qəpik, iri valın qiyməti isə 3 manat 50 qəpik idi.

1910-cu ildə İngiltərənin «Qrammafon» cəmiyyəti bir qrup Qafqaz musiqiçilərini Riqa şəhərinə dəvət edib onların səslərini vala köçürür. Artıq bu dövrdə qrammafon valları ikiüzlü buraxılırdı. O zaman Azərbaycan musiqiçilərindən Malıbəyli Həmid və Əsgər qardaşları, Məcid Behbudov, Seyid Mirbabayev, Kərbəlayı Lətif Əliyev və başqaları çalıb-oxumuşlar.

1912-ci ildə isə Almaniyanın «Sport-Rekord» aksioner şirkəti Cabbar Qaryağdı oğlunu, Keçəçi oğlu Məhəmmədi, Məşədi Məmməd Fərzəliyevi, Davud Səfiyarovu, Qurban Pirimovu və Saşa Oqanezaşvilini Varşava şəhərinə dəvət etmişdi. «Sport-Rekord» şirkəti qrammafon vallarına yazılmağa dəvət olunan musiqiçilərin vallarının kataloqunu ayrıca kitabça şəklində minlərcə tirajla çap etdirib bütün Rusiya ərazisində, hətta Şərq ölkələrində yaymışdı. Kitabçada musiqiçilərin şəkli, adı, familiyası, doğulduğu yer, repertuarı və valların nömrələri göstərilmişdir. Şirkətin buraxdığı bütün kataloq-kitabçalarda ən əvvəl Cabbarın foto-şəkli verilmiş və şəklin altında yazılmışdı: «Cənab Cabbar Qaryağdı oğlu (məşhur tenor - Şuşalı)». Kitabçanın üstündə isə şirkətin emblemi, emblemin

* Pate - Fransalı iki qardaşın familiyasıdır. Valları oxutmaq üçün kəşf etdikləri aparata onların şərəfinə «patefon» adı verilmişdi - müəllif.

ortasında tar, kaman, qaval şəkli, aşağısında isə Qaryağdı oğlu Cabbarın adı qeyd olunmuşdur.

Onu da deməliyik ki, Cabbar Qaryağdı oğlunun icazəsi və zəmanəti olmadan heç bir musiqiçinin səsi qrammafon valına yazılmazdı. Şirkətin buraxdığı valların qiyməti qızıl pulla 1 manat 50 qəpik olduğu halda, Cabbarın vallarının qiyməti isə 2 manat idi. Bu hörmət və üstünlük heç də təsadüfi deyildi. Çünki Azərbaycan musiqi tarixində heç kəs Cabbar Qaryağdı oğlu qədər milli musiqiyə hərtərəfli xidmət göstərməmişdir. Bülbül: «Cabbarı heç kəs ilə müqayisə etmək olmaz» deməkdə haqlı idi.

Azərbaycan musiqiçiləri Varşavada qrammafon vallarına 97 muğam, təsnif, mahnı, xor və oyun havaları çalıb-oxumuşlar. Kütləvi tirajla buraxılan qrammafon valları dünyanın hər yerinə yayılmışdır.

Şübhəsiz ki, o dövrün müğənnilərinin səslərinin qrammafon vallarına yazılışı texniki cəhətdən çox çətinliklə başa gəlirdi. Buna görə də musiqiçidən son dərəcə yüksək ifaçılıq məharəti tələb olunurdu. Çünki, məclisdə iki-üç saat ərzində oxunan bir muğamı üç dəqiqəlik val üçün oxumaq və dinləyicidə az-çox təsəvvür yaratmaq heç də asan deyildi. Çox qəribədir ki, üç dəqiqəyə muğam oxuyan müğənki muğamın arasında yeri gəldikcə təsnifdən də istifadə edirdi. Bu, müğənnilərin son dərəcə yüksək ifaçılıq məharətinə malik olmalarına bir daha canlı sübut idi.

Səsini vala yazdıran xanəndələrin hər biri bu və ya digər muğam və mahnı ifaçılığında qeyri-adi ustalıq göstərmişlər. Onların hamısı Azərbaycan musiqisini bütün təravəti ilə dinləyiciyə çatdırmağa çalışmışlar. Xanəndələr içərisində Cabbar Qaryağdı oğlunun əzəmətli səsi, şaqraq zəngulələri, qeyri-adi guşəxanlığı insanı riqqətə gətirir. O, zildə oxuduğu muğamlarda qəzəlin sözlərini aydın və səlis tələffüz etməklə heyrət doğurur. Onun qrammafon valına zildən oxuduğu qəzəl «Mənsuriyyə»də açıq-aşkar eşidilir:

Adət bundadır ay yerinə gün gecə gəlməz,
Boş sözdür deyərlər, nigarım gecə gəlməz.
Gər cəzbeyi-eşq olsa gətirrəm, necə gəlməz.
Gər cəzbeyi-eşq olmasa gəlsə vecə gəlməz.[30]

«Sport-Rekord» şirkətinin buraxdığı vallar içərisində xanəndə Məşədi Məmməd Fərzəliyevin oxuduğu «Çahargah», «Bayatı-Əcəm», xüsusilə «Şüştər» muğamlarını, «Axşam oldu», «Qarabağda bir desən» «Ayşə» təsniflərini, Keçəçi oğlu Məhəmməd isə «Bayatı-Qacar»ı, «Şikəsteyi-farsı» və «Çoban bayatı»sını qeyri-adi bir ustalıqla oxumuşlar. Həmin vallarda Qurban Pirimovun və Saşa

[30] Qəzəl məşhur Qarabağ şairi İbrahim Tahirindir - müəllif.

Oqanezaşvilinin müşayiətçilik məharətləri və bir çox muğamları solo çalmaları da dinləyicini heyran edir.

Sazəndə dəstələrinin vala yazdırdığı «Vağzalı», «Mirzəyi», «Tərəkəmə», «Əsgərəni», «Uzundərə» kimi oyun havaları, xanəndələrin «Gülə-gülə», «Eşqi-atəşi», «Vətən şərqisi», «Mən bir türkəm», «Tello» və başqa xalq mahnılarını birlikdə, xorla oxumaları bu gün bizim üçün əvəzsiz incilərdir.

Azərbaycan musiqiçilərinin qrammafon vallarının kütləvi tirajla buraxılışı 1913-cü ildə olmuşdur. Həmin il artıq «Qrammafon», «Sport-Rekord» və «Pats» qardaşları firmasının Riqa, Moskva, Varşava, Peterburq, Kiyev, Tiflis və Bakı şəhərlərində daimi şöbələri açılmışdı. Bundan əlavə 1913-1914-cü illər Rusiyada «Konsert-Rekord», «Ekstrafon», «Primer-Rekord», «Monarx-Rekord», «Qrammafon-Rekord» şirkətləri fəaliyyətə başlamışdı. Bütün bu şirkətlərin Qafqaz üzrə yeganə müvəkkili şuşalı A. T. Kaytsakov idi. Şübhəsiz, Qafqaz musiqiçilərinin səslərinin qrammafon vallarına yazılışında A. T. Kaytsakovun xeyli rolu olmuşdur.

1913-cü ildə «Ekstrafon» aksioner şirkəti müğənnilərdən Seyid Şuşinskini, Şəkili Ələsgəri, Keçəçi oğlu Məhəmmədi, Məmmədqulu Şuşinskini, Malıbəyli Cümşüdü, İslam Abdullayevi, tarzənlərdən Bala oğlu Qrikoru, Arsen Yaramışevi, Tevos Balayansı, Bala Məlikovu, kamançaçılardan Sevi, Ruben Qaraxanovu, Moses Kuniyansı, məşhur balabançı Həsən Əliyevi və bir çox başqa musiqiçiləri Kiyev şəhərinə dəvət edib səslərini və çalğılarını vala yazmışdır. «Ekstrafon» şirkətinin buraxdığı vallar içərisində Seyid Şuşinskinin oxumağı, tarzən Arsen Yaramışevin çalğısı, xüsusilə balabançı Həsənin virtuoz ifaçılıq məharəti daha cəlbedici və qiymətlidir. O dövrdə mətbuatın yazdığına görə bu üç sənətkarın vallarına tələbat daha çox olmuşdur.

Azərbaycan musiqiçilərinin inqilabdan əvvəl sonuncu vallarını 1914-cü ildə «Sport-Rekord» şirkəti Tiflis şəhərində buraxmışdır. Əvvəllər olduğu kimi, şirkət yenə də Qafqaz musiqiçilərinin repertuar və fotoşəkillərindən ibarət kitabçalar buraxmışdır. Bu kataloq-kitabçalar Bakıda «Orucov qardaşları»nın mətbəəsində nəfis şəkildə çap edilib dinləyicilərə (alıcılara) pulsuz paylanmışdır. Başqa şəhərlərdə yaşayanlar poçt vasitəsilə Bakıya, Kaytsakovun mağazasına sifarişlər göndərib istədikləri sənətkarın vallarını əldə edərdilər.O zaman Bakıdan Tiflis şəhərinə Cabbar Qaryağdı oğlu, Şəkili Ələsgər, Segah İslam, «Zabul» muğamının təkrarolunmaz ifaçısı Zabul Qasım, məşhur Qarabağ aşıqı Abbasqulu (öz dəstəsi - Həşim, Heydər və Xanlar ilə), xanəndə Əkbər Xamuş oğlu və Azərbaycan teatrının görkəmli xadimi Hacağa Abbasov dəvət edilmişdir. Bundan əlavə, şirkət Zülfüqarbəy Hacıbəyovun «Evliykən subay» və «Əlli yaşında cavan» operettalarını da qrammafon valına köçürmüşdür.

«Sport-Rekord» şirkəti həmişə olduğu kimi bu dəfə də xanəndələri müşayiət etmək, həm də oyun havalarını çalmaq üçün Qurban Pirimovla Saşa

Oqanezaşvilini dəvət etmişdi. Bu isə təsadüfi deyildir. Əlimizdə olan qrammafon valları sübut edir ki, hər iki sənətkarın çalğısı heyrətamiz olmuşdur. Şəkili Ələsgər «Ekstrafon» şirkətində «Rahab»ı Tevos və Moses ilə, həmin muğamı «Sport-Rekord» şirkətində isə Qurban və Saşanın müşayiətilə oxumuşdur. Hər iki vala qulaq asanda Ələsgərin Qurban və Saşanın müşayiətilə oxuduğu «Rahab» daha rəvan, daha oynaq və şirin səsləndiyinin şahidi oluruq. «Segah» oxumaqda bütün Şərqdə məşhur olan İslam Abdullayev «Primer-Rekord»da tarzən Şirin Axundov və kamançaçı Levon Karaxanovla, «Sport-Rekord» şirkətində isə Qurban və Saşanın müşayiətilə «Segah» oxumuşdur. Şübhəsiz ki, bunların arasında fərq vardır. Məlum olduğu kimi, xanəndəni oxudan tarzəndir, muğamın öhdəsindən xanəndənin müvəffəqiyyətlə gəlməsində tar və kamança çalandan çox şey asılıdır.

«Sport-Rekord» şirkətinin Tiflisdə buraxdığı qrammafon valları içərisində məşhur komik Hacağa Abbasovun qrammafon vallarına tələbat daha çox idi. Belə ki, aktyorun böyük məharətlə yaratdığı Xudaverdi, Hacı Qəmbər, xüsusilə Qıdı kirvə obrazlarının qrammafon vallarında səslənməsi nadir hadisə idi. Bu son dərəcə qiymətli vallar əl-əl gəzərdi.

Bəzi səbəblərə görə o vaxtlar bir çox müğənnilər səslərini qrammafon vallarına yazdıra bilməmiş, bir çoxları isə səslərini və çalğılarını vala yazdırmaqdan imtina etmişlər. O zaman ən məşhur xanəndələrdən sayılan Əbdülbaği Zülalov (Bülbülcan), Musa Şuşinski, tarzən Məşədi Zeynal və məşhur qarmonçu Abutalıb Kərbəlayı Muxtar oğlu və aşıq Nəcəfqulu «Sport-Rekord» şirkəti tərəfindən dəfələrlə Tiflis şəhərinə dəvət olunsalar da, təəssüf ki, qrammafon vallarına yazılmaqdan boyun qaçırmışlar. Onlar özlərinə olan böyük marağın azalmasından, pərəstişkarların itirilməsindən ehtiyat etmişlər. Hətta tarzən Məşədi Zeynaldan bu xeyirxah, faydalı işdən imtina etməsinin səbəbini soruşduqda demişdir:

- Əgər mənim çalğım vallarda səslənsə, onda hər evdən bir Məşədi Zeynal çıxar.

Böyük Oktyabr sosialist inqilabının qələbəsindən iki il sonra qrammafon vallarının istehsalı milliləşdirildi. 1922-1925-ci illər səsyazan fabriklər yaradıldı. Otuzuncu illərdə isə yeni səs-yazma müəssisələri açıldı. Nəhayət, 1938-ci ildə Moskva şəhərinə dəvət olunan 30 millətin ən qabaqcıl musiqi ifaçılarının səsləri və çalğıları qrammafon vallarına (35 milyon tirajla) yazıldı.

Məşhur muğam ustası Zülfü Adıgözəlovun, Cahan Talışinskayanın, Yavər Kələntərlinin, Sürəyya Qacarın valları əl-əl gəzirdi. Məşhur tarzənlərdən Qurban Pirimovun çaldığı «Çoban bayatı», xüsusilə Saqomon Seyranovun ifa etdiyi «Segah» və qarmonçu Kor Əhədin qrammafon vallarını əldə etmək səadət idi. Həkim A. İoanesyanın rəhbərlik etdiyi «Birinci Şərq orksetri»nin ifasında çalınan "Çahargah" və "Bayatı-Şiraz" muğamlarının valları bütün Qafqazda, Yaxın və

Orta Şərq bölgələrində səs salmışdı. Bu vallar ən qiymətli sərvət kimi dinləyicilərin evlərini bəzəyir, könüllərini oxşayırdı.

Göründüyü kimi, Azərbaycan musiqisinin ən əsas sahələrindən biri olan xanəndəlik sənəti mürəkkəb inkişaf yolu keçmişdir. Təəssüf ki, musiqi mədəniyyətimizin tarixində müstəsna xidmətləri olan xanəndələr haqqında yazılı ədəbiyyat olduqca azdır. Doğrudur, 20-30 ildə xanəndə sənəti və bir sıra görkəmli nümayəndəri haqqında elmi mopoqrafiyalar, ayrı-ayrı tədqiqat əsərləri meydana çıxmışdır. Lakin burasını da gizlətmək olmaz ki, bütün bunlar qədim tarixə malik olan musiqi mədəniyyətimiz haqqında tam təsəvvür yarada bilmir. Ayrı-ayrı xanəndə və musuqiçilərimizin yaradıcılıq fəaliyyətini hərtərəfli öyrənmədən təbiidir ki, milli musiqi tarixini yaratmaq olmaz.

## Hacı Hüsü



GÖZƏL yay günlərindən biri idi. Moskvanın geniş və yaraşıqlı salonlarından birində Şuşa sakini Camharov İvan öz oğlu üçün toy məclisi düzəltmişdi. Qonaqların əksəriyyəti Qarabağdan idi.

Məclis başında musiqi üçlüyü əyləşmişdi. Xanəndə oxuyurdu. Onun məlahətli səsindən xoşlanan qonaqlar yerbəyerdən «Qarabağ şikəstəsi» oxumasını xahiş edirdilər. Məşhur tarzən Bala oğlu Qrikor kamançaçı Avaneso simləri kökləməyi işarə etdi. Xanəndə guşa gəldi:

Mən aşiqəm Qarabağ,
Qara salxım, qara bağ,
Aləm cənnətə dönsə,
Yaddan çıxmaz Qarabağ.

Xanəndə bu sözləri incə xallar və coşqun zəngulələrlə oxuduqca dinləyicilər xəyalən özlərini səfalı Qarabağda hiss edirdilər. Hər tərəfdən: «Ay can, ay can», «sənə nənəm qurban», «sağ olsun xanəndə» sədaları ucalırdı. Yalnız məclisdə əyləşmiş bir neçə musiqişünas dərin fikrə dalıb xanəndəni dinləyir, arabir də bir-birlərinə mənalı nəzər salırdılar. Xanəndə şikəstəni qurtaran kimi professorlardan biri məclis əhlinə müraciət edərək dedi:

- Ağalar, biz bütün ömrümüzü musiqiyə həsr etmişik. İnsanda bu incə, təravətli səs nadir hadisədir. Mənə elə gəlir ki, burada isə bir sirr vardır.

Kimsə söz atdı:

- Yəqin ki, ağzında nə isə tutub oxuyur.

Məclisdə qızğın mübahisə başlandı. Vəziyyəti belə görən məclis sahibi qonaqları sakit edərək dedi:

- Canım, mübahisə nəyə lazımdır. Əgər xanəndənin səsinə şübhəniz varsa, onun boğazını yoxlaya bilərsiniz.

Məclisdə əyləşən bir həkim xanəndənin ağzına və boğazına baxdı. Əlbəttə, heç nə tapılmadı. Xanəndəni yenidən alqışladılar.

Bu xanəndə, öz sənəti və zəngin səsi ilə bütün Qafqazda, Yaxın və Orta Şərqdə məşhur olan böyük müğənni Hacı Hüsü idi.

Hacı Hüsü Niftalı oğlu Şuşanın «Çölqala məhəlləsi»ndə papaqçı ailəsində anadan olmuşdur. Onun hansı ildə anadan olması haqqında hələlik dəqiq məlumat yoxdur. Böyük sənətkar ilk musiqi təhsilini Xarrat Qulunun məktəbində almışdır. Gənc Hüsü öz müəllimindən musiqi sənətini və klassik Şərq muğamlarını mükəmmol öyrənmişdir. Görkəmli ədibimiz Yusif Vəzir Çəmənzəminlinin yazdığına görə Hacı Hüsünün müəllimlərindən biri də Şərq muğamlarını gözəl bilən Mirbaba Mirabdulla oğlu (Yusif Vəzir Çəmənzəminlinin atası) olmuşdur.[31]

Xarrat Qulu Hacı Hüsünün gözəl səsini və oxumaq qabiliyyətini nəzərə alıb onu özü ilə bərabər məclislərə aparırdı. Bu məclislərdə Hacı Hüsü zil və incə səsi ilə hamını heyran qoyardı. Hələ kəns ikən böyük müqənnini dipləyən moşhur xanəndə Cabbar Qaryağdı oğlu Hacı Hüsünün səsinə qiymət verərək yazmışdı: «Hacı Hüsünün səsi elə qüvvətli, elə cazibəli idi ki, hər bir muğamı başlayıb oxuyanda tarın bütün pərdələrini gəzib son pərdədən bir qədər də zilə qalxardı. O, «Orta mahur» oxuyanda bütün musiqiçiləri heyrətdə qoyardı».[32]

Bir çox mənbələrdən və böyük sənətkarların xatirələrindən aydın olur ki, XIX əsrin ən böyük və məşhur müğənnisi Hacı Hüsü olmuşdur. Lakin hələ XVIII əsrin axırları, XIX əsrin əvvəllərində Şuşada - Qarabağda tanınmış bir çox sənətkarların adlarına rast gəlirik. Bu sənətkarlardan Şahsənəm oğlu Yusif, Mirzə Hüseyn, Həsənçə, Qaraçı Əsəd, Kosa Məhəmməd bəy, Tükverdi Həsən, Mirzə İsmayıl və başqa müğənnilər klassik musiqini əhali arasında yayaraq Şuşada xanəndəlik sənətinin əsasını qoymuşlar. Həmin dövrün məşhur tarçalanı Əli Əsgər (Sadıqcanın müəllimi) və gözəl kamançaçalanı Qaraçı Hacıbəy, qoşanağara çalanı isə Qapançı oğlu Kərim idi. Şübhəsiz ki, Hacı Hüsünün kamil bir ustad kimi yetişməsində bu böyük sənətkarların həlledici rolu olmuşdur.

Hacı Hüsü şuşalılar qarşısında ilk dəfə «Xandəmirovun teatrı» binasında «Xeyriyyə gecəsi»ndə çıxış etmişdi. Cabbar Qaryağdı oğlunun yazdığına görə, həmin gecədə Hacı Hüsü tarzən Sadıqcanın müşayiəti ilə «Çahargah» oxumuşdur.

---

[31] Bax: Y. V. Çəmənzəminli. Bir cavanın dəftəri, Bakı, 1966, səh. 84.

[32] C. Qaryağdı oğlu. Keçmiş Azərbaycan musiqisi haqqında xatirələrim (əlyazmaları). Azərbaycan SSR Mədəniyyət Nazirliyi Memarlıq və İncəsənət İnstitutunun elmi arxivi, qovluq № 75.

Bu məclisdən sonra onun şöhrəti hər yapa yayılır. Müğənnini tez-tez Azərbaycanın, Ermənistanın və Gürcüstanın toy şənliklərinə dəvət edirlər. Hacı Hüsü nəinki Zaqafqaziyada, Rusiyada, hətta Yaxın və Orta Şərqin bir sıra ölkələrində də şöhrət tapır. Bu ölkələrin kübar ailələri, varlı əyanları onu öz ziyafətlərinə, toy məclislərinə çağırmışlar. 1880-ci ildə İran hakimi Nəsrəddin şah oğlu şahzadə Müzəffərəddinin toyuna Hacı Hüsünü də dəvət etmişdir. Hacı Hüsü bu toya məşhur tarzən Sadıqcan, kamançaçı Bağdəgül oğlu Ata ilə birlikdə getmişdi. Toy Təbriz şəhərində təşkil, olunmuşdu. Həmin toyda İranın ən məşhur oxuyan və çalanları Hacı Hüsü ilə birlikdə çıxış etmişlər. Məclisin axırında şah tərəfindən birinci mükafat Hacı Hüsüyə verilmişdi. Həmin məclisdə-müğənninin gözəl səsi və muğamları böyük ustalıqla oxuması, Sadıqcanın isə tarı sinəsi üstündə çalması iranlıları heyrətə gətirmişdi.

Hacı Hüsü sadəcə xanəndə deyildi. O, klassik Şərq və Azərbaycan muğam və təsniflərinə dərindən bələd olan musiqişünas və gözəl bir müəllim kimi də çox məşhur idi. Hacı Hüsü Mir Möhsün Nəvvabla birlikdə Şuşada ilk «Musiqişünaslar məclisi»nin əsasını qoymuşdu. Müəllimi Xarrat Qulunun ölümündən (1883) sonra isə Qarabağ xanəndələrini öz ətrafına toplayıb «Xanəndələr məclisi» yaratmışdı.

Bu məclisin məqsədi yeni xanəndələr yetişdirmək, xanəndəlik sənətini kütlə arasında yaymaq və klassik Azərbaycan muğamlarını inkişaf etdirmək idi. Həmin dövrdə bu məclis musiqi məktəbi və yaxud «Xanəndələr ittifaqı» rolu oynamışdır. Məşədi İsi, Keştazlı Həşim, Dəli İsmayıl, Malıbəyli Cümşüd, Şahnaz Abbas, Keçəçi oğlu Məhəmməd, Cabbar Qaryağdı oğlu, Malıbəyli Həmid, Məşədi Məmməd Fərzəliyev və başqaları bu məclisə daxil idilər.

Hacı Hüsü klassik muğam musiqisinin təkmilləşdirməsi üzərində işləyərək «Rast», «Şur», «Mahur» və başqa muğamlara yeni-yeni variantlar, guşələr əlavə etmiş, həmin muğamlar əsasında təsniflər və mahnılar yaratmışdır. Hacı Hüsü eyni zamanda bir neçə-muğamların yaradıcısı kimi də məşhurdur. O, «Kürdü» muğamına «Şahnazı» əlavə edərək birlikdə «Kürdü-Şahnaz» oxumuşdur. Cabbar Qaryağdı oğlunun yazdığına görə Hacı Hüsü «Qatar» muğamını Sadıqcanın tarda müşayiəti ilə yaratmışdır.

Hacı Hüsü gözəl Azərbaycan şairəsi Xan qızı Natəvanın ən sevimli xanəndəsi idi. O, Natəvanın sarayında qurulan məclislərin bəzəyi və yaraşığı olmuşdur. Hacı Hüsü eyni zamanda məşhur musiqiçi kimi şöhrət qazanmış şamaxılı Mahmud ağanın və bakılı Məşədi Məlik Mənsurovun məclislərinə tez-tez dəvət edilərdi. Xalqımızın mərd oğlu Qaçaq Nəbi də Hacı Hüsünün sənətini çox sevərdi Məşədi Müseyib Daşdəmirov (Hacı Hüsünün oğlu İsmayılın da yaxın dostu) belə bir maraqlı əhvalat söyləyirdi: «Bir gün Şuşada Bala Hacısadığın toyu idi. Hacı Hüsü oxuyurdu. Mənim olardı 14—15 yaşım. Çıxmışdım pəncərəyə. Məclisin şirin yerində kimsə qışqırdı: - «Vay dədə, vay, Qaçaq Nəbi bura gəlir». Məclisdə əyləşən tacir və bəylər, xüsusilə pristav Mahmudbəy Ağabəy oğlu təşvişə

düşdülər. Nəbi salona dörd nəfər ilə daxil oldu. Məclisdəkilərin narahat olduğunu görən Nəbinin dostu Kəblə Məmməd üzünü məclisə tutub dedi:

- Camaat heç nədən qorxmayın, Nəbi buraya Hüsünü dinləməyə gəlmişdir.

Toyun «padşahı» şair Mirzə Ələsgər Növrəs üzünü Hacı Hüsüyə tutub dedi:

- Hüsü, əziz qonağımızın ürəyi nə istəyir, onu oxu.

Qaçaq Nəbi «Bayatı-kürd» oxumağı xahiş etdi. Hacı Hüsü elə oxudu ki, nə deyim... toy olmasına baxmayaraq hamını ağlatdı...»

Lakin böyük xanəndənin ömrünün son illəri çox pərişan keçmişdir. O, Ərəbistandan qayıtdıqdan sonra mollaların təzyiqinə məruz qalaraq Göhər ağanın məscidində minacat verməyə məcbur olmuşdur.

Respublikamızın əməkdar artisti Cəlilbəy Bağdadbəyov öz xatirələrində yazır: «Qış mövsümü, yuxunun şirin olmasına baxmayaraq Hacı Hüsü oxuyarkən uzaq məhəllələrdən yüzlərlə adam gəlib bu cazibəli səsə qulaq asardılar. Hacı Hüsünün uzun nəfəsi olmaqla bərabər zənguləsinin misli-bərabəri yox idi. O, «Üzzal» oxuyarkən Qövsü Təbrizinin:

Sınıq səbudə su tutmaz qərar, mey durmaz,
Şikəstə könlümə böhtəm ki, qan ilən doludur.

rədifi ilə başlanan qəzəlini tez-tez oxuyardı».[33]

Hacı Hüsü ömrünün son illərində ehtiyac içində yaşamışdır. O, 1898-ci ildə Aşqabad şəhərində vəfat etmişdir.

Azərbaycan vokal incəsənətinin ən görkəmli nümayəndələrindən biri olan Hacı Hüsü sözün həqiqi və tam mənasında böyük xanəndə idi. O, xanəndəlik sənətində yeni bir dövr açmaqla, eyni zamanda bu sənəti yüksək bir pilləyə qaldırmışdır. Hacı Hüsü nəinki muğam oxumaqda, eyni zamanda milli Azərbaycan musiqisinin bütün sahələrində böyük ustad idi. O, qədim xalq musiqisini sonsuz bir məhəbbətlə sevirdi. Şərq, eləcə də Azərbaycan səhnəsi Hacı Hüsünün səsindən də qüvvəli, lirik-dramatik tepor tipli səslər çox görmüşdür. Lakin bütün Şərqdə Hacı Hüsünün səsi kimi hərtərəfli tembr gözəlliyinə malik olan ikinci bir incə və təravətli səs olmamışdır.

Fizioloji cəhətdən Hacı Hüsünün səsi fenomen deyildi. Lakin bu səs bədii fenomen kimi təkrarolunmazdır.

Hacı Hüsü olduqca zəngin və hərtərəfli yaradıcılıq diapazonu olan müğənni idi. Onun böyük sənəti təkcə Azərbaycanda deyil, bütün Yaxın və Orta Şərqdə

---

[33] Cəlilbəy Bağdadbəyov. Qarabağ xanəndələri haqqında xatirə (əlyazması). Azərbaycan SSR Mədəniyyət Nazirliyi Memarlıq və İncəsənət İnstitutunun elmn arxivi, qovluq № 149.

məşhur olmuşdur. Onu başqa sənətkarlardan ayıran cəhətlərdən biri də onun son dərəcə təbii istedada malik olması idi. Hacı Hüsüdə olan zəngin ifaçılıq fantaziyası və improvizo elementləri başqa xanəndələrdə olmamışdır.

Hacı Hüsü qoca Şərqin Sədi, Hafiz, Ömər Xəyyam və Füzuli kimi nəhəng klassiklərinin lirik əsərlərini ilham və məhəbbətlə oxumuşdur. Onu gözəlliyin və azadlığın çarçısı adlandırmışlar. Hacı Hüsü el arasında məşhur olduğundan xalq yaradıcılığında onun haqqında çoxlu nağıllar, əfsanələr və rəvayətlər yaradılmışdır. Deyilənə görə, Hacı Hüsü Sadıqcan ilə «İsa bulağı»nda çalıb oxuyarkən onun incə səsindən ruhlanan bülbüllər gəlib onun çiyninə, papağına, tarın üstünə qonar və oxuyarmışlar...

## Səttar



ADI musiqi mədəniyyəti tariximizdə böyük hörmət və milli iftixar hissi ilə çəkilən sənətkarlardan biri də xanəndə Səttardır. Öz zəmanəsinin şöhrət qazanmış ən istedadlı müğənnilərindən olan Səttar, musiqi mədəniyyətimizin inkişafında müstəsna xidmət göstərmişdir.

Böyük xanəndənin anadan olması və vəfatı tarixi haqqında hələlik dürüst məlumat əldə edilməmişdir. Lakin bəzi məxəzlərə əsasən ehtimal etmək olar ki, Səttar keçən əsrin 20-ci illərində Cənubi Azərbaycanın Ərdəbil şəhərində aradan olmuşdur. Səttar ilk gənclik illərindən musiqiyə həvəs göstərmiş, Azərbaycan və İran mahnılarını gözəl səslə oxumuşdur.

Dini fanatizmin hökm sürdüyü feodal-patriarxal İranın hər yerində olduğu kimi, Ərdəbildə də o zaman dini mərasimlər çox təntənəli keçirilirdi. Səttarın gözəl səsini eşidən yerli ruhanilər onu məscidə çağırıb, dini mərasimlərdə iştirak etməyə təhrik etmişdilər. Səttar məhərrəmlik günləri Qasım, Səkinə, Zeynəb rollarında çıxış etməyə məcbur olmuşdur. Buna baxmayaraq, açıqfikirli Səttar islamiyyətin bu çürük adətlərinə nifrət etdiyindən hər vasitə ilə dini mərasimlərdə iştirak etməkdən boyun qaçırmışdı. Səttar gözəl və məlahətli səsi ilə xalq şənliklərində iştirak etmək, xalqın xeyrinə, şərinə yaramaq istəyirdi. Məhz buna görə də çox zaman dini mərasimlərdə qədim el nəğmələrinə müraciət edərdi. Səttar toy məclislərində Sədinin, Hafizin, Füzulinin Şərq poeziyasının inciləri olan qəzəllərini muğam və təsnif üstündə oxuyardı. Səttarın bu böyük şairlərin yaradıcılığına olan həvəsi onu ərəb, fars və türk dillərini mükəmməl öyrənməyə sövq etmişdi.

Səttar 20-25 yaşlarında olarkən bir xanəndə kimi təkcə Ərdəbildə deyil, bütün Azərbaycanda və İranda şöhrət tapmışdı. Xalq hər yerdə gənc sənətkarı böyük hörmət və məhəbbətlə qarşılayırdı. Səttar get-gedə dini mərasimlərdən

uzaqlaşır, xalq şənliklərində və toy məclislərində öz məlahətli səsi ilə camaatı xoşhal edirdi. Ona görə də Ərdəbil ruhanilərinin onu görməyə gözləri yox idi. Onlar Səttarı təqib edir, dinsiz adlandırıb xalq arasında hörmətdən salmağa çalışırdılar. Ruhanilərin hədə və iftiralarına dözməyən Səttar Təbrizə gəlir. Çox keçmədən Təbriz məclislərinin yaraşığı olur. Nəhayət, onun xanəndəlik məharətinin sorağı Tehrana - şah sarayına çatır. Onu Tehrana dəvət edirlər. Səttar bir neçə il İran şahı Məhəmməd Mirzənin sarayında xanəndəlik etdikdən sonra, 1844-cü ilin əvvəllərində Naxçıvan şəhərinə köçür.

Səttarın Naxçıvana gəlməsi xəbəri tez bir zamanda şəhərə yayılır. Onun şərəfinə hər yerdə böyük məclislər qurulur. Hamı çalışırdı ki, Səttar olan məclisdə iştirak edib, onun incə və həzin oxumağını eşitsin. O zaman Səttar Naxçıvan məclislərinin birində məşhur kürsü şairi Nikolaz Baratəşvili (1816-1845) ilə tanış olur. N. Baratəşvili Azərbaycan musiqisini dərindən sevər və onu yüksək qiymətləndirərdi. Baratəşvili 1844-cü ilin noyabr ayından 1845-ci ilin may ayınadək Naxçıvanda qəza rəisinin köməkçisi vəzifəsində çalışmışdı. O, Tiflisə rəfiqəsi Maiko Orbelianiyə yazdığı bir məktubunda Səttar və Səfər adlı başqa bir xanəndə ilə dost olduğunu qeyd etmişdir. Baratəşvili öz məktubunda Səttarla Səfəri müqayisə edərək Səttarın son dərəcə gözəl səsə malik olduğunu göstərir:

«...Kimdən məktub alıram hamı Səfəri tərif edir. Onun tərifi bizi dərk edib. Mən başa düşmürəm, niyə hamınız ona valeh olmusunuz? Onun halını bizdən soruşun. Səfəri İrandan Süleyman Xan[34] gətirib. İki gün bizim yanımızda qaldı. Nə mahnıları vardısa, hamısını bizim üçün oxudu. Kim deyir ki, Səfər Səttardan yaxşı oxuyur? Görünür yaman başa düşübləр. Mən isə deyirəm: Səfər Səttara nisbətən köhnə oxuyandı. Amma Səttarın səsi allah vergisidir. Özü də oxuyanda səsinə elə bəzəklər vurur ki, adamı valeh edir. Bu səsdən heç kəsdə olmayıb».[35]

O zaman Baratəşvilinin evi şer və musiqi məclisini xatırladırdı. Şair tez-tez şer və musiqi gecələri təşkil edərdi. Bu gecələrdə Səttar və Səfərdən başqa Naxçıvan xanının qızı, şairə Qönçə Bəyim də iştirak edirmiş. Səttar ilə Səfər Tiflisə gedəndən sonra Baratəşvidi Qönçə Bəyimin şerlərini kürçü dilinə tərcümə edib oxumaq üçün Səttara göndərirdi. Baratəşvili Orbelianiyə yazdığı məktublarında Qönçə Bəyim ilə tanışlığından bəhs etmişdi:

«...İndi Naxçıvanda yeni bir şer var. Bu 18 yaşlı Qönçə Bəyimin şerləridir. Xan qızıdır. Olduqca gözəl və duzlu görkəmi var. Təsəvvür edin, gözəllikdə lap Orlovun arvadına oxşayır. Ərindən çox yanıqlıdır. İndi ərindən ayrılıb, çalışır ki, boşansın. Yazıq qızın 12 yaşı olanda zor ilə ərə veriblər. Bunların əhvalatı bir romandı: şerlərində öz halına ağlayır. Şerin bir yerində deyir: «Mənim gözəl bağçam, istəyirəm gəlib sənin fəvvarən və güllərin ilə söhbət edəm. Ancaq qorxuram ərim orada olsun». Bu şeri tərcümə edib göndərəcəyəm. Mənə belə gəlir

[34] Süleyman xan Səttarın dövründə yaşamış Naxçıvan xanı idi. Müəllif.
[35] N. Baratəşvili. Əsərləri (gürcücə). Tbilisi, 1945, səh. 92.

ki, Səttar bu mahnını bilir. Yenə bir mahnı var. Çox xoşa gələndir. Belə düşünürəm bunu Səfər də bilir, Səttar da. Onlara rast gələndə deyərsən ki, bu mahnıları oxusunlar».[36]

Qönçə Bəyimin şerlərinin Barataşvili tərəfindən gürcü dilinə tərcümə edildiyini və onların Səttar tərəfindən gürcü dilində oxunması faktını professor Y. Yenikolopov da təsdiq edir.[37]

Şairin bacısı Varvara Vezirişvili isə qeyd edir ki, Nikolaz musiqi və mahnıları çox sevərdi. Onun evində tar, çonquri (kamança), ney və başqa musiqi alətləri var idi. Evdə məclis quranda hər dəfə Səttarı dəvət edərdi. Şairin dayısı Dmitri Vezirişvili isə yazır ki, Barataşvili hətta Səttarın şərəfinə tərifnamə belə yazmışdı.[38]

Səttar İrəvanda və Tiflisdə olarkən bir çox illər erməni sənətkarlarından tarzən Ağamal Məlik-Ağamalov ilə çalıb çağırmışdır. Ağamal Şərq musiqisinə yaxından bələd olan, kamil bir musiqiçi tək bütün Ermənistanda məşhur idi. Məlum olduğu kimi, XIX əsrin 50—60-cı illərində Hindistanın və İranın məşhur musiqiçiləri və xanəndələri Tiflisə, oradan da Konstantinopola (İstambula) tez-tez gələrmişlər. Onlar İrəvandan keçəndə həmişə Məlik Ağamalovun evində əylənər, onu dinlər və onun üçün çalıb oxuyarmışlar.[39] Səttar da hər dəfə Cənubi Azərbaycandan Tiflisə gedərkon tarzən Ağamalın evində qonaq qalardı. Səttarın hər gəlişi toy şənliklərinə səbəb olardı. İrəvan xanları və əyanları onun şərəfinə məclislər düzəldərdilər. Bu şənliklərdə Səttar sənət dostu tarzən Ağamal ilə oxuyardı. Səttar ilə Ağamalın dostluğundan bəhs edən məşhur erməni tədqiqatçılarından Qumeretsi yazmışdır: «Qafqaz və rus şairləri tərəfindən nəzmə çəkilən məşhur xanəndə Səttar aylarla Ağamalın qonağı olardı. O vaxt onların çalıb oxumaqlarını eşidənlər söyləyirdilər ki, Səttar ilə Ağamalı dinləyən adam dünyada özgə heç nəyi eşitmək istəməz».[40]

XIX əsrin sənətkarları kimi Səttarın da bir müğənni tək bütün Qafqazda məşhur olmasında Tiflisin musiqi həyatı mühüm rol oynamışdı. Tiflis Zaqafqaziyanın inzibati və siyasi mərkəzi olduğuna görə burada rus, Avropa və Şərq mədəniyyətinin özünü göstərməsinə istər-istəməz imkan yaranırdı. Buna görə də, XIX əsrin birinci yarısında Tiflis Zaqafqaziya xalqlarının mədəni mərkəzi kimi də şöhrət tapmışdı. Hələ keçən əsrin 40-50-ci illərindən başlayaraq, burada rus, kürsü, erməni teatrları yaradılmış, sonralar isə Azərbaycan dilində tamaşalar

---

[36] Yenə orada, səh. 83.
[37] Yenikolopov. Naxçıvan görüşləri. «Бакински рабочи» qəzeti, 1945, № 210.
[38] Bax: İona Meunargiya. N. Barataşvilinin həyatı və poeziyası (gürcü dilində). Tbilisi, 1954-cü il, səh. 32.
3 Qumeretsi. N. F. Tiqranov i muzıka Vostoka. Leninqrad, 1927, səh. 8.
[39] Bax: Sbornik Vesti Kavkaza. Tiflis, 1903-cü il, səh. 67.
[40]Qumeretsi. N. F. Tiqranov i muzıka Vostoka. Leninqrad, 1927, səh. 8.

göstərilmişdi. Həmin dövrdə burada İtaliya opera müğənniləri tez-tez çıxış edər, hətta balet tamaşaları göstərərdilər. Bundan əlavə, Tiflis operasının gözəl orkestri vardı. O zaman Tiflis musiqi mərkəzi kimi də şöhrət qazanmışdı. Burada musiqi salonları və «krujok»lar (dərnəklər) mövcud idi. Bu krujoklarda tez-tez konsertlər, musiqili gecələr və xalq gəzintiləri təşkil edirdilər. Ələsgər, Allahverdi (Nəriman Nərimanovun ulu babası), Yevanqul kimi məşhur xanəndələr, Ağamal, Kevork, Ələsgər, Sako və Hüseyn Baba kimi çalğıçılar xalq şənliklərində, teatr tamaşalarının fasilələrində və konsertlərdə çıxış edirdilər.

Tiflisin musiqi həyatı Rusiya, Qərbi Avropa, Yaxın və Orta Şərq ölkələrindən gələn səyyahların nəzərini cəlb etmiş, onların qəlbində dərin iz buraxmışdı. XIX əsrin ikinci yarısında Qafqaza səyahətə çıxan Aleksandr Düma, L. N. Tolstoy, Y. Polonski, İ. Seqal, M. Olşevski, A. Kişmişov kimi dövrünün qabaqcıl maarifpərvərləri Tiflis haqqındakı yazılarında şəhərin musiqi həyatını geniş təsvir etmiş, xanəndəlik sənətinə və bu sənətin görkəmli nümayəndələrinə yüksək qiymət vermişlər.

XIX əsrin ikinci yarısında Tiflisdə uzun illər yaşamış məşhur rus şairi Y. Polonski şəhərin musiqi həyatına, xüsusilə musiqiçilərinə aid qeydlərində yazmışdı: «Keçmişdə olduğu kimi indi də Gürcüstanda sazəndələrə çox böyük hörmət bəsləyirlər. Onların xalq arasında saysız-hesabsız pərəstişkarları vardır. Tiflisdə istər kübar və istərsə də ortabab ailədə heç bir toy şənliyi sazəndəsiz keçmir. Onları xüsusi maraqla dinləyirlər».[41]

Görkəmli rus tarixçisi A. Kişmişov isə yazırdı: «...o dövrdə (XIX əsrin 40-cı illəri nəzərdə tutulur - F. Ş.) əhalinin əksəriyyəti «köhnə şəhər»də yaşayırdı. Gün çıxandan, gün batana kimi onun küçələrində həyat qaynayırdı. Erməni bazarında, tatar (azərbaycanlı - F. Ş.) bəzzazxanasında, Sion küçəsində və bura yaxın olan karvansarada xüsusi canlanma gözə çarpırdı. Şəhərin bu gur yerlərində böyük kommersiya və parça alveri aparılırdı.

Küçələrdəki gediş-gəliş kəsilmirdi. Axşam düşən kimi mahnı sədaları şəhəri bürüyürdü. Açıq havadakı bu konsertlər yerli əhalinin musiqi qabiliyyətini açıq-aydın göstərirdi. Bu mahnıların yaradıcıları ölməz xalq xanəndələri idi. Onlar aylı gecələrdə şəhərin meydançalarına toplaşıb, son dərəcə melodik alət olan tarın müşayiətilə xalq nəğmələri oxuyurdular.

Xanəndələr küçələrdə görünən kimi, şəhər əhli evlərin eyvanına, damına və darvazaların ağzına toplaşıb, gecə yarısına qədər davam edən musiqi nəşəsindən həzz alardılar. Yerli musiqiçilərin mahnılarının sədası altında şənlik səhərə qədər davam edirdi. Dan qızaranda hamı evlərinə çəkilərdi. Bəziləri isə elə oradasa yatardılar ki, sabahı günü yenə musiqi ilə əylənsinlər».[42]

[41] Polonski. sayat Nova. «Kavkaz» qəzeti, 5 yanvar 1851-ci il, № 1.
[42] A. Kişmişov. Tiflis 40-cı illərdə. «Kavkaz» qəzeti, 1894-cu il. № 52.

Qeyd etmək lazımdır ki, İranın, hətta Hindistanın məşhur musiqiçiləri və xanəndələri belə Tiflisə tez-tez gələrdilər. Tiflisin musiqi həyatı Səttarın da diqqətini cəlb edir. O, bir qədər Naxçıvanda yaşadıqdan sonra İrəvana, oradan da 1845-ci ilin yazında Tiflisə gəlir. Çox keçmədən Səttarın şöhrəti bütün şəhərə yayılır. Hamı onun məlahətli səsini eşitməyə can atır.

Səttar milli musiqimizi Qafqaz xalqları arasında yaymaqda böyük fəaliyyət göstərmiş, Azərbaycan, rus, erməni, gürcü məclislərində çıxış edərək öz gözəl səsi və həzin nəğmələri ilə dinləyiciləri riqqətə gətirmişdir. Hətta Təflisdə yaşayan rus və italyan musiqiçiləri belə Səttarı öz konsert-tamaşalarına dəvət edərdilər. Məsələn, 1847-ci il fevralın 23-də məşhur italyan skripkaçısı, Tiflis teatr orkestrinin dirijoru Malaqolli Xeyriyyə cəmiyyəti salonundakı konsertinə Səttarı da dəvət etmişdi. Konsertdə muğam oxuyan Səttar böyük müvəffəqiyyət qazanmışdı. Bu barədə Tiflisdə çıxan «Qafqaz» qəzeti səhifələrində maraqlı rəylər çap olunmuşdu. L. F. Yapşevski familiyalı bir nəfər musiqişünas yazmışdı:

«Konsertin sonunda cənab Malaqolli tərəfindən dəvət olunan müğənni Səttar bəy öz dəstəsinin müşayiəti ilə oxudu.

Biz avropalılar üçün bu musiqi («Şərq musiqisi» - F. Ş.) böyük maraq oyadır. Gələcəkdə mən bu musiqi haqqında ətraflı danışacağam. İndi Səttar bəyin oxumağı haqqında nə deyə bilərəm? Yaxşısı budur ki, Şərq tarixçilərinin yazdıqları bir əhvalatı söyləyim:

«Soltan Murad Bağdad şəhərini alarkən şəhərdə yaşından və cinsindən asılı olmayaraq yaşayan bütün iranlıların dar aqaçından asılmasını əmr edir. Birdən əsirlərin içərisində gözəl oxumağı ilə bütün İran müğənnilərini heyrətdə qoyan xanəndə Şahqulu qalibin qabağında dayanır. O, arfanın müşayiəti ilə elə valehedici bir nəğmə oxuyur ki, bundan heyrətlənən Soltan öz qanlı əmrini xətm edir. Murad Şahquluya cəza əvəzinə qiymətli hədiyyələr bağışlayır və onu yoldaşları ilə birlikdə Konstantinopola (İstambula) aparır. Orada Şahqulu musiqiçi dostları ilə birlikdə türk musiqisinin əsasını qoyur.[43] Mən heç də şübhə etmirəm ki, bizim Səttar bəy də özünün gözəl oxumağı ilə ən vəhşi ürəkləri belə yumşalda bilər».[44]

Bir çox tarixi məxəzlərdən məlum olur ki, Səttar Tiflisin musiqi həyatında görkəmli rol oynamışdı. O, nəinki musiqi gecələrində, həm də açıq havada təşkil olunan konsertlərdə və ziyafətlərdə məlahətli səsi ilə çoxmillətli şəhərin sakinlərinə estetik zövq vermişdi. Tarixçi A. Kişmişovun yazılarından aydın olur ki, o, Səttarın məclislərində dəfələrlə iştirak etmişdir. Azərbaycan xanəndəsinin böyük məharəti onu ovsunlamışdı. Kürsü məclislərində Səttarı dinləyən tarixçi yazırdı: «...Bir neçə gəlmə qonaqlıqlər haqqında demək istərdim. O zaman şəhər tacirləri növbə ilə

---

[43] Biz Yanşevskinin belə səhv müddəası ilə qəti razılaşa bilmərik. Çünki türk musiqisinin əsasını Şahqulu qoymamışdı. Şahqulu XVI əsrdə Bağdadda yaşamış böyük müğənni idi. O, Füzulinin müasiri, həm də dostu olmuşdur. Şahqulu türkləri İran musiqisi ilə tanış etmişdi - müəllif.

[44] * L. Yanişevski. Tiflisdə birinci musiqi gecəsi. «Kavkaz» qəzeti, 1 mart 1847-ci il, № 9.

qonaqlıqlar təşkil edərdilər ki, buna da kürsülər «Riqis-Puri» (növbəti nahar) deyərdilər. Nahara 20-30 və daha çox adam dəvət edilərdi. Bu adamlar qış zamanı növbə ilə bir-birinin evinə toplaşardılar.

Hər bir amfitrion[45] çalışardı ki, yeməklərin və şərabların keyfiyyəti ilə öz sələfini keçsin. Nahar çox şən keçərdi. Hər bir qonaq yumorla dolu məzəli söhbətlə hamını özünə cəlb etməyə çalışardı. Masa arxasında oturan qonaqlar qəlbən şadlıq edərdilər. Əgər nahar vaxtı xanəndələr, xüsusilə nadir səsə malik olan məşhur İran (Azərbaycan - F. Ş.) müğənnisi Səttar ağa oxusaydı, kefin, şadlığın həddi-hüdudu olmazdı».[46]

Səttarı Azərbaycan, erməni və kürsü toylarında tez-tez eşidən və dəfələrlə onun konsertlərində iştirak edən rus şairi Y. Polonski müğənninin yanıqlı səsindən təsirləndiyini, onun xoş avazına məftun olduğunu «Səttar» adlı şerində tərənnüm etmişdi:

Саттар! Саттар! Твой плач гортанный —
Рыдающий, глухой, молящий дикий крик —
Под звуки чианур и трели барабанной
Мне сердце растерзал и в душу мне проник.

Не знаю, что поешь, я слов не понимаю,
Я с детства к музыке привык совсем иной.
Но ты поешь всю ночь на кровле земляной,
И весь Тифлис молчит, и я тебе внимаю —
Как будто из пустынь Востока брат больной
Через тебя мне шлет упрек иль ропот свой.

Не знаю, что поешь, быть может, песнь Кярама —
Того певца любви, кого сожгла любовь,
Быть может, славишь ты кровавый меч ислама —
Те дни, когда пред ним дрожали тьмы рабов...
Не знаю, слышу вопль — и мне не нужно слов!

Я чувствую, что раб иначе петь не может —
И в музыке твоей мне слышен звук цепей.
Саттар! Саттар! Твой плач меня тревожит
Не легче грустных дум об участи людей.

[45] Amfitrion (yunanca Atphtryon sözündəndir) qonaqpərvər ev sahibi deməkdir.
[46] L. Kşimişov. Tiflis 40-cı illərdə. «Kavkaz» qəzeti, 7 mart 1894-cü il, № 64.

(Səttar! Səttar! Sənin qəmli oxumağın həm kədərli, həm də hıçqırıqlıdır. Bir yandan kamanın, qavalın qəmli fəryadı, bir yandan da sənin nisgilli səsin mənim ürəyimi didib qəlbimi parçalayır...

Mən bilmirəm nə oxuyursan, sözlərini anlaya bilmirəm. Çünki, mən uşaqlıqdan başqa cür musiqiyə alışmışam. Qaranlıq gecədir, bütün Tiflis susub... Lakin yenə də komandan qəmli səsin gəlir. Səni başa düşməsəm də, anlayıram ki, xəstə qardaşın Şərqin qumlu səhralarından sənin vasitənlə mənə öz narazılığını bildirir.

Yenə də anlamıram, nə oxuyursan. Bəlkə öz eşqindən alovlanıb yanan Kərəmin məhəbbətindən danışırsan? Bəlkə də vaxtilə minlərcə məzlumları əsir etmiş İslamın qanlı qılıncını mədh edirsən? Heç nə anlamıram. Ün çəkirsən, artıq mənə söz nə gərək.

Mən çox yaxşı duyuram, Qul başqa cür oxuya bilməz. Çünki, sənin musiqində zəncirlərin səsini eşidirəm. Səttar! Səttar! hönkürtün məni təşvişə saldığından insan taleyinin qəmli iztirablarını unuda bilmirəm).

Y. Polonskinin bu şeri ilk dəfə Tiflisdə çıxan «Qafqaz» qəzetinin 15 mart 1850-ci il tarixli nömrəsində çap edilmişdir. Şerin altından qəzetin redaktoru O. Konstantinovun Səttar haqqında qeydləri vardır. Həmin qeydlərdə oxuyuruq: «Səttar, Tiflisdə məşhur olan iranlı (Azərbaycanlı — F. Ş.) xanəndənin adıdır. Onu Asiya tərzində şənliklər edərkən, nahar və şama dəvət edirlər. Səttarı həm də kürsü və erməni toylarında da dinləmək olar. Səttardan başqa iki xanəndə də məşhurdur. Bunlardan biri İrəvan sakini Əli Əskər[47], o biri isə erməni Yevanquldur.[48] Bunların arasında həm rəqabət, həm də yarış vardır. Mən bunların üçünü də eşitmişəm. Birinciliyi isə Səttara verirəm. Onun səsindəki həzinlik və kədər motivləri avropalının qəlbini titrətməklə ürəyində qəribə həyəcanlı hisslər oyadır».[49]

Son dərəcə gözəl və misilsiz səsə malik olan Səttar nəinki Azərbaycanlı, erməni və gürcü məclislərində, hətta Tiflisdə verilən beynəlmiləl konsertlərdə belə şöhrət qazanmışdı. Bu konsertlərdən biri 1853-cü ildə aprel ayının 7-də olmuşdu. Həmin konsertdə Səttar məşhur skripkaçalan Miller ilə çıxış edərək böyük məharət göstərmişdi. Bu dəfə də, «Qafqaz» qəzeti susmamış, Səttarın oxumaq qabiliyyətinə yüksək qiymət vermişdi.[50]

Millerin konsertindən sonra, 1853-cü ilin aprel ayının 10-da Səttar məşhur müğənni Seymur-Şiff ilə birlikdə konsert vermişdi. Bu konsert haqqında «Qafqaz» qəzetində qabaqcadan elanlar verilmiş, qəzetin birinci səhifəsində «Tiflisdə konsertlər» başlığı altında məqalə dərc edilmişdi. Məqalədə deyilirdi:

---

[47] Əli Əsgər XIX əsrdə yaşamış məşhur el aşığıdır.

[48] Yevanqul XIX əsrin ortalarında Tiflisdə yaşamış məşhur erməni müğənnisidir. Səttarın dostu olmuşdur. Gürcü dilində mahnılar oxumaqda şöhrət qazanmışdı - müəllif.

[49] Bax: «Kavkaz» qəzeti, 15 mart 1850-ci il, № 21.

[50] Bax: «Kavkaz» qəzeti, 8 aprel 1853-cü il, № 24.

«Yaz qapının ağzını kəsmişdir. Təbiət yaşıl məxmərdən don geyinmişdir. Dünən biz yoxsulların xeyrinə verilən gözəl konsertdə olduq. Nəhayət, o birisi gün (cümə günü) cənab Seymur-Şiff Tiflis ilə vidalaşır. Cənab Şiffin konsertində həmişəki kimi, xalq musiqisinin sahibi, bizim məşhur asiyalı xanəndə Səttar da iştirak edəcəkdir. O, ayrıca olaraq öz dəstəsi ilə oxumayacaq, Avropa musiqisi əlini Asiya musiqisinə uzadacaqdır. Beləliklə, Şiffik konsertində indiyədək görünməmiş musiqi ittifaqı yaranacaqdır. Bizə elə gəlir ki, bu hadisə xüsusi diqqət kəsb etməklə, Avropa və Asiya musiqisinə böyük xeyir verə bilər.

Asiya oxumaqlarında, xüsusilə Səttarın oxumaqında elə bir incəlik, gözəllik və cazibə vardır ki, onu musiqi notları vasitəsi ilə vermək çətindir. O, qafqazlılarda həm kədər, həm də sevinc hissi oyadır».[51]

Səttar keçən əsrin 60-cı illərində Tiflisdə verdiyi muğamat konsertləri ilə də böyük şöhrət qazanmışdır. O dövrdə Tiflisdə verilən muğamat gecələrində Səttar tarzən Ağamal, kamançaçı Kevork, skripkaçı Mnatsakan ilə çıxış edərdi.

Məşhur erməni musiqişünası V. Karqanov yazır ki, «mən 1860-cı ilin afişalarında Qafqazın sevimli müğənnisi Səttarın verdiyi konsertin proqrammasını tapdım. Afişada belə bir yazı diqqəti cəlb edirdi:

«4 yanvar bazar ertəsi günü (1860-cı il) buradakı teatrda Ağa Səttar konsert verəcəkdir». Proqram 12 nömrədən ibarət idi. Xanəndəni Şərq musiqi alətlərində: tarda Mnatsakan, dayrədə Ələkbər, qoşanağarada isə Sako müşayiət etmişdir.

Mənim fikrimcə, belə bir konsert dinləyicilərdə böyük maraq oyada bilər. Öz zəmanəsinin ən yaxşı xanəndəsi olan Səttarın oxuduğu nəğmələr yerli dinləyicilərə bədii zövq verməklə bərabər, eyni zamanda Asiya musiqisini öyrənən mütəxəssislər üçün gözəl materialdır».[52]

Səttarın repertuarı olduqca rəngarəng idi. O, «Zəmin-xarə», «Dəşti», «Rahab», «Şüştər», «Bayatı-İsfahan», «Rast», «Çahargah» kimi çətin və mürəkkəb muğamları böyük məharətlə oxuyardı. Bunlardan əlavə, Səttar qədim İran, Azərbaycan, erməni və gürcü mahnılarını da böyük ustalıqla ifa edərdi. O, çox vaxt Azərbaycan nəğmələrini oxuyarkən sözlərini erməni və gürcü dillərində deyərdi.

Səttar Tiflisdə yaşadığı illərdə onu nəinki xalq şənliklərinə, hətta Qafqaz canişininin iqamətgahında İran şahlarının, Türkiyə soltanlarının və digər rəsmi şəxslərin şərəfinə verilən ziyafətlərə belə dəvət edərdilər.[53]

Səttarın Qafqaz və yaxın Şərq xalqları tərəfindən sevildiyini və böyük hörmətlə qarşılandığını nəzərə alan İran, Türkiyə və Rusiya hökumətləri onu bir neçə orden və medallarla təltif etmişlər.

---

[51] Bax: «Kavkaz» qəzeti, 1853-cü il, № 267.

[52] V. Karqanov. Tiflis operasının əlli illiyi. «Kavkazski Vestnik» jurnalı, 1902-ci il, № 1, 11 şöbə, səh. 46.

[53] Bax: «Zakavkazski Vestnik» qəzeti, 10 may 1845-ci il, № 10, səh. 92, «Kavkaz» qəzeti, 20 iyun 1848-ci il, № 26.

Məlum olduğu kimi, Səttar məşhur musiqişünas Mahmud ağanın yaxın dostu olmuş, onun məclislərində çox oxumuşdur. O, Mahmud ağanın məclisində görkəmli şair Seyid Əzim Şirvani ilə tanış olmuşdu. Səttarı dinləyən şair öz müxəmməslərinin birində Səttarı tərif etmişdir:

Fəhm qıl, gör ki, nədir çəngü dəfü bərbətü ud,
Nədir onlarda bu ahəngü bu ləhnü bu sürud,
Arif ol, rəmz bil, ey mahəsəli-qeybi-şühud,
Ud hər ləhzə gəlib şurə deyir: ya Məbud,
Tar hər ləhzə gəlib vəcdə deyər: ya Səttar.[54]

Səttarın xanəndəlik məharəti dövrünün bir çox mədəniyyət xadimlərini məftun etmişdi.

Məşhur fransız yazıçısı Jül Vern özünün «Arxipelaq alovlanır» adlı əsərində Səttarın səsinə yüksək qiymət verərək yazırdı: «...Mən şəhəri (Tiflisi — F. Ş.) gəzə-gəzə irəliləyirdim.[55]

— Cənab, — deyə kimsə çəlimsiz bir nəfər mənə müraciət edir və o, mənim fikrimcə, çox adi görünən qonşu bir binanı mənə göstərir: — Siz xaricisiniz?

— Şübhəsiz.

— Elə isə bir dəqiqə ayaq saxlayın və bu evə yaxşı tamaşa edin.

— Axı bu evdə tamaşa ediləsi nə var ki?

— Necə nə var, məşhur xanəndə Səttar bu evdə yaşamışdır, bu həmin adamdır ki, sinədən gələn zil səslə oxuyardı... Həm də oxuyanda ona nə qədər pul verərdilər!

Bu ləyaqətli patriarxın daha zildən oxumağını arzu edərək... Mən Kür çayının sağ sahili ilə yuxarı qalxmağa başladım ki, oradan, dağın təpəsindən («Şeyx Sənan dağı»ndan — F. Ş.) şəhərin gözəl mənzərəsinə tamaşa edim.

Budur, dağın təpəsinə çatıram, kiçik bir meydançada dayanıram: burada kim isə, səyyar bir aktyor (Səttar — F. Ş.) böyük bir həyəcanla gözəl İran şairi Sədinin şerlərini incə musiqi təranələrinin müşayiətilə oxuyur...»

Səttarın sənətkarlığını görkəmli erməni bəstəkarı N.F.Tiqranov da yüksək qiymətləndirmiş, onun tez-tez Ermənistan və Gürcüstanda olmasını, dövrünün görkəmli şəxsləri ilə görüşdüyünü qeyd etmişdi.[56] Səttar barəsində general M.L.Olşevski də “Tiflis haqqında olan qeydləri”ndə bəhs etmiş, onun bütün Gürcüstanı heyran qoyan məhşur müğənni olduğunu yazmışdır. Mərhum professor

---

[54] Seyid Əzim Şirvani. Şerlər. Bakı, 1963, səh. 269.
[55] M. Y. Olşevski. Zapiski o Tiflise. Jurnal «Russkaya starina». 1894-cü il, № 6, səh. 87.

[56] Bax: Н.Ф.Тигранов. Мысли о восточной музыке. Сборник «Вести Кавказа». Етнографически отдел. Тифлис, 1903, səh. 67-68.

Mikayıl Rəfili isə “M.F.Axundov” monoqrafiyasında Səttarı haqlı olaraq “Tiflisin sevimli müğənnisi” adlandırmışdır. Böyük müğənnimizin gözəl obrazı 1941-ci ildə Bakı kinostudiyası tərəfindən çəkilmiş “Səbuhi” adlı bədii filmdə verilmişdir.

## Sadıqcan

Guş qıl, ey ki, bilirsən özünü vaqifi-kar,
Agah ol, gör ki, nədir: naleyi-ney, nəğmeyi-tar.

*Seyid Əzim Şirvani*



AZƏRBAYCAN musiqi mədəniyyəti tarixində müstəsna xidmətləri olan sənətkarlardan biri də böyük tarzən Sadıqcandır.

Mirzə Sadıq Əsəd oğlu 1846-cı ildə Şuşa şəhərində anadan olmuşdur. Sadıqcanın atası Əsəd kişi gözətçi işləmiş, ailəsini çox çətinliklə dolandırmışdır. Yoxsulluq və ehtiyac içərisində böyüyən Sadıq incəsənətə sonsuz həvəs göstərir, xalq mahnılarını gözəl səslə oxuyarmış. Əsəd kişi oğlunun məlahətli səsini eşidib, onu Xarrat Qulunun məktəbinə aparır. Xarrat Qulu gənc Sadığın səsini yoxlayıb, məktəbə qəbul edir. Bu məktəb Sadığın musiqiçi kimi yetişməsində böyük rol oynayır. On səkkiz yaşında ikən Sadığın səsi batır. Lakin o, ruhdan düşməyib əvvəlcə tütək və ney çalmağı öyrənir, sonra isə kamança çalır. Bir qədər keçdikdən sonra Sadıqda tar çalmaq həvəsi oyanır. O, kamançanı buraxıb tar çalmaqı öyrənir. Professor Bülbülün yazdığına görə, Mirzə Sadığın tar müəllimi şuşalı tarzən Əli Əskər[57] olmuşdur. İri əlləri, uzun və güclü barmaqları olan Sadıq qısa müddətdə özünün fitri istedad və qabiliyyəti nəticəsində nəinki bu sənətə yiyələnir, hətta məharətli tar çalması iləo öz müəllimini geridə qoyur. Sadıq tar çalanda ustadı Əli Əsgər həsədlə deyərmiş: «Kaş mənim var-dövlətim Sadığın, onun barmaqları isə mənim olaydı».

Gənc Sadığın adı hər yanda - Azərbaycanın bir çox şəhərlərində, hətta, Ermənistanda, Gürcüstanda və İranda Hacı Hüsü, Məşədi İsi, Keştazlı Həşim, Mirzə Məhəmməd, Həsən, Əbdülbaqi (Bülbülcan) və Cabbar Qaryağdı oğlu kimi görkəmli xanəndələrlə yanaşı çəkilmişdir. Mirzə Sadıq İran şahzadəsi Müzəffərəddinin toyunda elə bir məharət göstərmişdir ki, Nəsrəddin şah onu «Şiri-Xurşid» qızıl medalı ilə təltif etmişdir.

Azərbaycan musiqi tarixinə yaxından bələd olan və «Harun Əl-Rəşid» operasının müəllifi Ağalarbəy Əliverdibəyovun yazdığına görə, Təbrizdə

[57] XIX əsrdə yaşamış məşhur tarzən Əli Əsgər görkəmli səhnə xadimi Mirzə Muxtarın atası idi. Müəllif.

Nəsrəddin şahın məclisində məşhur bir tarzən Sadığı yarışa çağıranda Sadıq tarın bütün pərdələrini kəsib. Bunu görən tarzən yarışdan imtina edib Sadığın barmaqlarını öpüb.[58]

Sadıq Zaqafqaziya xalqları arasında böyük şöhrət qazanmış bir sənətkar idi. Onup «Sadıqcan» adlanması da bu şöhrət və məhəbbətlə əlaqədardır. Xalq rəssamı Lətif Kərimovun «Musiqi lüğətinin izahı»na aid əlyazmalarından məlum olur ki, XVIII əsrdən etibarən Yaxın Şərq ölkələrində, o cümlədən Azərbaycanda xalq tərəfindən yüksək dərəcədə sevilən və qiymətləndirilən xanəndə və sazəndələrə «can» kimi yüksək ad və yaxud təxəllüs verilərdi. Bu tərifli adı qazanmaq şərəfi Sadığa və məşhur xanəndəmiz Əbdülbaqi Zülalova (Bülbülcana) müyəssər olmuşdur.

Musiqi həvəskarlarından bakılı Əbdülhəmid Babayev öz xatirələrində yazır:

«Mən ilk dəfə Sadıqcanı 1897-ci ildə Bakıda — İçərişəhərdə Hüseynbəy Ağayevin toyunda gördüm. Cəmi Qafqazda belə gözəl tarçalan olmayıb. Sadığın çox gözəl camalı var idi. Ucaboy, enlikürəkli və cüssəli idi. O, məclisə çox ədəb və ərkanla girərdi. Camaat ona sonsuz hörmət bəslərdi. Onun sol əlində o qədər qüvvə var idi ki, tarı çox zaman mizrabsız çalardı».[59]

Sadıqcanın gözəl çalğısı şamaxılı Mahmud ağanın da nəzərini cəlb etmişdi. Bu barədə məşhur şair və musiqişünas Məhəmməd ağa Müctəhidzadə «Qarabağnamə» adlı əsərində yazır: «Şirvanlı Mahmud ağa Sadıqcanın tərifini eşidib onun Şirvana təşrif gətirməsini xahiş edir. Mahmud ağa Sadıqcanı dəvət etmək üçün öz məclisində hümayi təxəllüsü ilə məşhur olan bir tarzəni Şuşa şəhərinə göndərir. Sadıq əvvəlcə gəlmək istəmir, sonralar isə necə olursa razılıq verir. Mahmud ağa onun Şamaxıya gəlməsindən son dərəcə şadlanaraq Sadığa lazımi qədər hörmət edir, hətta onu dəvət edib gətirdiyi üçün hümayiyə də mükafat verir. Sadıqcan məclisdə kamali-zövqlə tar çalmaqa başlayır. Məclis Sadığın böyük məharətlə tar çalmağını alqışlayır. Hümayi günəş qarşısında ay olsa da, günəşin qarşısında sönüklüyünü hiss edərək Şirvanda dəxi qala bilməyib təcili olaraq Şuşaya gəlir. Mahmud ağanı həcv edib, Sadıq haqqında nalayiq sözlər söyləməyə başlayır.

Bu əhvalatı eşidən Sadıqcan Şirvana qayıtmaq şərtilə Şuşaya getməyə Mahmud ağadan icazə alır. O, Şuşaya qayıdarkən eşidir ki, hümayi yalan və böhtan ilə onun şəxsiyyətinə toxunub. Hümayinin bu nalayiq işlərindən qəmgin olan Sadıq Şirvana qayıtmaqdan imtina edir.

Mahmud ağa Sadığın qayıtmamasından kədərlənir və Seyid Əzim Şirvanidən xahiş edir ki, məktub vasitəsilə Sadığın gəlməməsi səbəbini sorsun.

---

58 A.Əliverdibəyov. Musiqi tarixi (əlyazması). Respublika əlyazmaları fondu, inv. № B-5007.

59 Ə. Babayev. Xatirələrin. Azərbaycan SSR Mədəniyyət Nazirliyi Memarlıq və İncəsənət İnstitutunun elmi arxivi, inv. № 90 «A».

Seyid Əzim isə məktub yazıb Sadıqdan gəlməməsi səbəbini soruşarkən, Sadığcan həcvin surətini məktubla Seyid Əzimə göndərir».[60]

Sadıqcanın məktubunu alan Seyid Əzim Hümayinin yazdığı Həcvin müqabilində ona cavab olaraq 60 misradan ibarət müxəmməs formasında bir həcv yazmışdır Bu həcv olduqca kəskin şəkildə yazıldığına görə Seyid Əzimin son illərdə çap edilmiş külliyyatına daxil edilməmişdir. Lakin həmin şer Seyid Əzimin oğlu tərəfindən, şairin 1897-ci ildə Təbrizdə çap olunmuş divanında verilmişdir. Şerdən şairin Sadıqcanla tez-tez görüşməsi, onun məclislərində iştirakı məlum olur. Seyid Əzim, həmin müxəmməsində Mahmud ağanı, onun musiqi məclisini tərifləyir, burada Sadıqdan başqa Səttar, Mirzə Məhəmmədhəsən, Hacı Hüsü, Şükür kimi məşhur xanəndələrin çıxış etməsini də söyləyir. Sadıqcanı müdafiə edən şair şerdə hümayiyə xitabən deyir:

Ey hümayi, bu nə ətvar idi izhar elədin.
Çərxi bəd-mehr kimi zülm pədidar elədin.
Sübhi-kasib kimi Sadiq üzünü tar elədin.
Sadığın sabiti-əşkin üzə səyyar elədin.
Şəfəqi-eşqlə ruxsarını gülnar elədin.

Dustluqda nə üçün gözləmədin əndazə,
Düşmən oldun niyə ol sərvi-qədi tənnazə.
Qəl'eyi Şişəyə saldın gedibən avazə.
Ki, Filani ruxi-zibayə vurardı sazə.
Şahidi-ismətə məşşatəlik izhar elədin.

Sadığın naməsi gəldi mənə ey talibi-Vaz,
Sanki yazmışdı onu nazilə Mahmudə Əyaz.
Leyk başdan ayağa işvə idi suzi güdaz.
Görünür eşği-həqiqin demisən eşqi-məcaz,
Ey bəradər, nə üçün sən belə rəftar elədin.

Sadığın vəsfini dostanə gətirdin sən özün,
Gedibən kişvəri-Şirvamə gətirdin sən özün,
Töhfə tək bəzmi-Süleymanə gətirdin son özün,
Mindirib rəxşini meydana gətirdin sən özün,
Vəsfini aləmə Firdövsi kimi car elədin.

---

[60] M. A. Müctehidzadə. Qarabağnamə (əlyazması). Azərbaycan SSR Mədəniyyət Nazirliyi Memarlıq va İncəsənət İnstitutunun elmi arxivi, qovluq №78 «A».

Ey əzizim, gəlibən şur ilə köftarə özün,
Eylədin haqlı Züleyxa ruhi-dildarə özün.
Çəkdin ol Yusifi-gülçöhrəni bazarə özün,
Eylədin ərz məta eyki xiridarə özün,
Sonra döndün niyə bəs təlqi-xiridar elədin.

Ey humayi-qəsəm ol padişahi-qəhharə,
Ki, veribdir qulağa cəm necə gör nəzzarə,
Hüsn də Yusif ola kor o məhi səyyarə,
Olmayıb pirəhəni-isməti nərgiz parə,
Yox yerə sən bu işi böylə qərəz dar elədin.

Xub, tutaq Sadığa lazım görünürdü böhtan,
Neyləmişdi sənə Mahmudağa ey ruhi-rəvan,
Şərm edib, gözləmədin həqqi-nəmək, hörməti-nan
Gedibən Qəl'əyə[61] haqqında danışdın hədyan,
Filhəqiqə nə onu, sən özünü xar elədin.

Ağanın ne'məti-əlvani gözündən gəlsin,
Süfreyi-bəzmi-Süleymani gözündən gəlsin.
Kababu şərabu buryani gözündən gəlsin.
Meyi olsun cigərin qani gözündən gəlsin.
Çünki həqiqində olan feyzini inkar eldin,

Gəlmisən bir neçə dəfə sən özün Şirvanə,
Hüsndə bənzər idin mehri məhi-təbanə,
Sənə də Mahmudağa etdi xəyanət ta nə?
Niyə bica yerə saldın kişini böhtanə,
Binəvanın nə üçün fisqini iqrar elədin.

Nəğəmat əhlinə Mahmudağanın rəğbəti var,
Bilməyən yoxdu bu əsrarə onun şöhrəti var.
Gər ola həqqi də vardır kişinin dövləti var,
Dövləti, mə'rifəti, ləzzəti var, hörməti var,
Sən bu zahir işi, bais nədir inkar elədin.

Saxlamaq adət olubdur kişiyə xanəndə,

[61] Qəl'ə - Şuşa şəhəri. 62

Neçə xanəndə ona yeksər olub payəndə.
Biri Səttar, Həsən, çəndi bilirsen sən də,
...............ola hər kimsə məgər sazəndə?
Sadığa gəzbi nə üçün belə səzavar elədin.

Çəkməyirdin nə üçün bəs Şükürün qeyrətini,
Həm.................həm də yazığın övrətini,
Gəlibən, kəsib yeyəydin Mahmudağanın
İndi bəs qeyrəti namusa gəlib ar elədin.[62]

Sadıqcanın sənətinə və şəxsiyyətinə son dərəcə vurulan Mahmud ağa onu xanəndə Hacı Hüsü ilə tez-tez Şamaxıya qonaq dəvət edərdi. Bu isə Xanqızı Xurşidbanu Bəyim Natəvanı əsəbiləşdirərdi. Çünki Sadıqcan Xanqızının məclislərinin yaraşığı idi. İstər Xanqızı sarayında düzəldilən ziyafətlərdə və istərsə də «Məclisi-üns»ün yığıncaqları Sadıqsız keçinməzdi. Maraqlı burasıdır ki, Mahmud ağa da Sadıqsız keçinə bilmirdi. Deyilənə görə, Sadığın üstündə Mahmud ağa ilə Natəvan arasında uzun illər yazışma olmuşdur.

Hətta bir dəfə nə təhər olmuşsa, Sadıq Şamaxıya gəlməkdən imtina edərkən Mahmud ağa şair Seyid Əzim Şirvanini Sadıqcanın dalınca Şuşa şəhərinə göndərmişdir. Böyük şair Şuşaya gəlmiş və Şuşa haqqında bu beyti söyləmişdir:

Şəhri-Qarabağa Şişə qoymuşlar ad,
Bu şəhər pərilərdən olubdur abad.
Təxsiri-pari Şişədə qalmaq xoşdur,
Amma bu pərilərin əlindən fəryad.

Sadıqcan toy şənliklərində və məclislərdə çalmaqla bərabər Şuşada və Tiflisdə göstərilən teatr tamaşalarının fasilələrində bir tarzən kimi çıxış edirdi. Məsələn, 1886-cı il dekabrın 29-da Tiflisin «Artsruni» teatrının binasında M. F. Axundovun «Müsyö Jordan və dərviş Məstəli şah» komediyası tamaşaya qoyulmuşdu. Həmin tamaşanın afişasında yazılmışdı ki, tamaşanın fasilələrində məşhur tarzən Sadıq çalacaq, xanəndə Mirzəli isə oxuyacaqdır.

Tiflisdə çıxan «Kavkazskoye obozreniye» adlı siyasi, ədəbi və yumoristik qəzet də bu tamaşa haqqında maraqlı yazılar vermişdi. Qəzetdə «Teatr və musiqi» rubrikası altında dərc olunmuş məqalədə Sadıqcanın və xanəndə Mirzəlinin çıxışlarına aid məlumatda deyilirdi: «Komediya səhnədə sönük keçdi... Tamaşamı maraqlı edən əsasən sazəndələr idi. Tarda bütün Zaqafqaziyada birinsi tarzən sayılan məşhur Sadıq çalırdı. Onun çalğısı aydın, sənətkarlıq cəhətcə dəqiq, güclü və məlahətli idi.

[62] Seyid Əzim Şirvani. Divan, Təbriz, 1897-ci il, səh. 226-228.

Yaxşı olardı ki, bizim Tiflis bəstəkarları Sadığın Tiflisə gəlməyindən istifadə edib ondan Şərq havalarını öyrənələr. Bu isə onlara yeni əsərlər yazmaqdan ötrü yaxşı material ola bilər.

İran şahının saray müğənnisi Mirzə Əli oxudu. Mirzə Əli geniş diapazonlu səsə malik olan tenor tipli xanəndədir. O, əvvəllər dini havalar oxuyurmuş. Ancaq yaxın zamanlardan müasir nəğmələrə keçmişdir... Odur ki, hələlik onun oxumaqlarında dini motivlərin təsiri vardır. Lakin buna baxmayaraq Mirzə Əlinin oxumağı öz təsir və səmimiliyi ilə insanda həqiqi zəvq oyadır».[63]

Sadıqcan Şuşada təşkil olunan birinci Şərq konsertində (1901) iştirak etmiş tarçalanlar sırasında ilk dəfə olaraq tarda solo «Mahur» çalmışdır.

Sadıqcan sözün ən geniş mənasında novator tarzən idi. O, təxminən 1870—1875-ci illərdə İran tarı üzərində hərtərəfli rekonstruksiya aparır. Yəni o, tarın təkmilləşməsi üzərində işləyərək tarın quruluşunu dəyişdirmişdir. Tarın qolunda olan bir çox artıq pərdələri atıb 17 pərdə saxlamış, tarın səsini gücləndirmək üçün birinci qoşa ağ simin və qoşa sarı simin hərəsindən bir oktava yuxarı zil səslənən iki cüt singənə simi əlavə etmişdi. Tarın rezonansını artırmaq, həm də lazım gəldikdə səsləndirmək üçün sarı simdən bir oktava aşağı, yəni bəm səslənən bir qalın sarı boş sim də artırdı. Bundan əlavə tarın qolunun yuxarısında, yəni kəlləyə yaxın yerdə əlavə pərdə bağlamaq ilə «lal barmaq» üslubunu da icad etdi.

Sadıqcana qədər tarı adət üzrə diz üstündə qoyub əyilərək çalardılar. Sadıqcan bu primitiv qaydanı da ləğv edib tarın tarixində ilk dəfə onu sinə üzərində əlində tutaraq çalmağa başlamışdı. Sadıqcana qədər tarın beş simi var idi. O, tara altı sim də əlavə edib onun sayını 11-ə çatdırmışdır. Professor Saşa Oqanezaşvili yazır ki, «Sadıq tara 8 sim əlavə etmişdir. Bunlar «Re» və «sol» səslənir».[64]

Sadıqcanın tar ifaçılığı qaydaları üzrə irəli sürdüyü bütün bu yeniliklər az zamanda bütün Zaqafqaziya və Orta Asiya tarzənləri tərəfindən danışıqsız qəbul olundu. Onun yaratdığı yeni tar, yəni Azərbaycan tarı çox az müddət içərisində bütün Qafqaz və Orta Asiyada mövcud olan primitiv, beş simli, zəif səsli İrak tarını sıxışdırıb ortadan çıxartdı.

Tarın quruluşunda etdiyi bu yeniliklərlə Sadıq tarın ifaçılıq texnikasını yüksək bir mərhələyə qaldırdı. Beləliklə, tar ifaçılıq sənətində bir musiqi aləti kimi daha mühüm rol oynamağa başladı. Təsadüfi deyildir ki, onun tarını xalq «sehirli tar», Sadığı isə «tarın atası» hesab etmişdir. Bülbül yazır ki, köhnə İran tarı gözəl musiqiçi Sadıqcan tərəfindən təkmilləşdirildikdən sonra onda çalınan havalar daha rəngarəng səslənməklə əsl xalq çalğı alətinə çevrildi.[65]

Yeri gəlmişkən onu da deyək ki, bir çoxları musiqi irsimiz və milli musiqi alətlərimiz haqqında mətbuatda və istərsə də radioda tərtib etdikləri oçerklərdə

---

[63] Bax: «Kavkazskoye obozreniye» qəzeti, 4 yanvar 1887-ci il, № 3.
[64] Saşa Oqanezaşvili. Tar. «Dan yıldızı» jurnalı, Tiflis. 1926-cı il. № 10, səh. 35.
[65] Bülbül. Xalqın yaradıcılığı. «Pravda» qəzeti, 2 aprel 1938-ci il, № 91.

tarın guya ərəb, fars, əfqan və başqa millətlərə aid musiqi aləti olduğunu söyləyirlər. Bəziləri isə Nizami Gəncəviyə əsaslanıb guya tarın XII əsrdə Azərbaycanda yarandığını və bir çoxları isə tarın Füzuli dövrünə aid olduğunu iddia edirlər. Bütün bunlar heç bir elmi və arxiv sənədlərinə əsaslanılmayan sadəcə söz-söhbətdən başqa bir şey deyildir. Mötəbər tarixi vəsiqələrə əsaslanıb deyə bilərik ki, tarı Miladın X əsrində Türküstan türklərindən Tərxanın oğlu Məhəmməd Carco şəhərinin Fərab adlı bir kəndində qayırmışdır.[66]

Şərq musiqi alətlərinin şahı olan tar təkçə türkdilli xalqların deyil, eyni zamanda ərəb, fars, əfqan, hind, erməni, ləzgi və Qafqazın bir çox xalqlarının istifadə etdiyi bir musiqi aləti kimi məşhur olmuşdur.

Lakin Yaxın və Orta Şərq xalqlarının istifadə etdikləri tar alətləri içərisində Azərbaycan tarı özünün istər forması, məziyyəti, istərsə də kamilliyi cəhətdən seçilir. Bu tarın yaradıcısı isə dediyimiz kimi, böyük tarzən Sadıqcan olmuşdur.

Məşhur türk musiqişünası Rauf Yektabəy Qafqaz musiqisinə aid yazılarında Sadığın sənətkarlığına və onun tara etdiyi yeniliklərə yüksək qiymət verərək yazmışdır: «...Sadığın musiqiçilik şöhrəti bütün Qafqaza yayılmışdı. Tarzənlikdə dahi olan Sadıq 5 simli tara 6 sim əlavə edib onu zənginləşdirmişdir».[67] Rauf Yektabəy Sadığı dövrünün bir çox böyük xanəndələri ilə müqayisə edərək üstünlüyü ona vermişdir:

«...Tarzən Sadıqdan sonra Qafqazda Hacı Hüsü, Məşədi İsi, Yusif, Həsənçə, Dəli İsmayıl, Həşim və Əbdülbaqi adlı xanəndələr şöhrət qazanmışlarsa da, lakin bunların heç biri Sadıq dərəcəsinə çatmamışlar».[68]

Sadıq Azərbaycan muğamına da bir sıra yeniliklər gətirmişdir. O, «Segah» muğamını inkişaf etdirərək, tarın qoluna «Zabul» pərdəsini, «Mirzə Hüseyn segahı»na isə «Müxalif»i əlavə etmiş, «Mahur» muğamını təkmilləşdirmişdir.

Görkəmli bəstəkar-musiqişünas Əfrasiyab Bədəlbəyli Sadıqcanın tara və muğamata gətirdiyi yenilikləri yüksək qiymətləndirərək yazırdı: «Əgər muğamatın ifası sahəsində tarın musiqi alətləri içərisində birinci yer tutduğunu nəzərə alsaq Mirzə Sadığın kəşf etdiyi yeniliklərin, nəticə etibarı ilə Azərbaycan musiqisi tarixində böyuk bir dönüş yaratdığını təsdiq etmiş olarıq. Demək olarki, Mirzə Sadıqdan başlayaraq Azərbaycan muğamatının mahiyyəti, onun ifadə vasitələri, təsir qüvvəsi və muğamatı ifa etmək üslubu yeni bir pilləyə qalxmış oldu. Mirzə Sadıq Azərbaycan musiqisi tarixində yeni bir səhifə açdı».[69]

Sadıqcanın sənətkarlığı gənc çalğıçılar və oxuyanlar üçün məktəb olmuşdur. O, XIX əsrin 90-cı illərində Şuşada ansambl yaratmış, dövrünun ən məşhur

---

[66] Bax: «Yeni yol» qəzeti, 1929-cu il, № 15.
[67] Bax: Rauf Yektabəy. Qafqaziyədə musiqi. «Şəhbal» jurnalı, İstambul, 1912-ci il, № 59, səh. 210.
[68] Yenə orada.
[69] Ə. Bədəlbəyli. Qurban Pirimov. Bakı, 1955, səh. 18. 66

oxuyub-çalanlarını ansambla cəlb etmişdi. Ansamblda, hətta iki nəfər qız da iştirak edirdi. Onlar Azərbaycan, erməni və gürcü rəqslərini ifa edərdilər. Sadıqcanın ansamblı Şuşa şəhərinin ziyafət salonlarında, xüsusilə Xurşidbanu Natəvanın məclislərində, Tiflisin «Müstəhid», «İrəvanın «Xürrəm» bağlarında dəfələrlə çıxış etmişdir.

Sadıqcan tarı elə məharətlə çalarmış, elə şirin barmaqlar vurarmış ki, hətta quşlar belə onun çalğısının səsindən həvəsə gələrmiş. Böyük tarzənin müasirləri olan Məhəmməd ağa Müctehidzadə, şuşalı Xan İsmayıl, Məşədi Süleyman Mənsurov və Məşədi Müseyib Daşdəmirov öz xatirələrində Sadıqcanın qaratoyuq quşuna bir-iki yüngül təsnif və mahnı öyrətdiyini təsdiq edirlər. Bu hadi-sənin canlı şahidi olan Qurban Pirimovun xatirələrində oxuyuruq: «Vir gün Sadıq məndən xahiş etdi ki, onun üçün Gülablıdan bir bülbül tutub gətirim, mən də bir şeydə bülbül, bir də qaratoyuq tutub apardım. Vir gün gəlib gördüm ki, o, qaratoyuğun qabağına bir güzgü qoyub özü isə kənarda durub tar çalır. İndiki kimi yadımdadır. O, qaratoyuqların çöldə oxumaqlarına bənzəyən bir təsnif çalırdı. Güzgüdə öz şəklinə tamaşa eləyən qaratoyuq birdən başlayıb oxuyanda düzü mən təəccübümdən yerimdə quruyub qaldım... Sadıq belə sənətkar idi. O, görünməmiş bir möcüzə idi.»[70]

Sadıqcanın tarda işlətdiyi barmaqları, vurduğu alt-üst mizrabları hələ indiyə qədər heç kəs təkrar edə bilməmişdir. Onun sənəti barəsində Qarabağda çoxlu nağıllar, rəvayətlər yaranmışdı. Bunların yaranması isə heç də təsadüfi deyildir. Xalq öz doğma sənətkarını sevmiş və onun şəninə dastanlar söyləmişdir. Şair Məşədi Əyyub Bakinin Mirzə Sadığa müraciətlə yazdığı şer belə başlayır:

Ey Sadıq! Al ələ tarı,
səni-tarı.
Bir halə gətir, mən dili zarı,
səni-tarı.

Xalqımızın sevimli sənətkarı Mirzə Sadıq 1902-ci ildə 56 yaşında Şuşada vəfat etmişdir. Məşədi Zeynal, Arsen Yaramışev, Mərdi Canıbəyov, Malıbəyli Həmid, Tatevos Arutunyan, Məşədi Cəmil Əmirov, Şirin Axundov, Qurban Pirimov və başqaları Sadıq məktəbinin yetişdirmələri olmuşlar.

[70] Bax: "Ədəbiyyat və incəsənət" qəzeti, 30 oktyabr 1955-ci il, № 44.

# Məşədi İsi



MƏŞƏDİ İSİ Sadıqcanın və Hacı Hüsünün müasiri idi. Onun adı həmişə öz zəmanəsinin görkəmli xanəndələri ilə yanaşı çəkilmişdir. Əlbəttə, bu heç də təsadüfi deyildi. İlk musiqi təhsilini Xarrat Qulunun məktəbində alan Məşədi İsi məşhur xanəndə Hacı Hüsünün «Xanəndələr məclisi»nin ən fəal üzvü olmuşdur. Məşədi İsi klassik Şərq, xüsusən Azərbaycan muğamlarının incəliklərinə dərindən bələd idi. O öz bilik və sənətkarlıq bacarığını «Xanəndələr məclisi»nin gənc xanəndələrinə öyrədər, onlarda sənətə dərin məhəbbət hissi oyadardı.

Məşədi İsi muğamatı yüksək dərəcədə mənimsəyən ustad xanəndə kimi tanınmışdı. O, «Rast», «Şur», «Humayun», xüsusilə «Mahur» dəstgahını özünəməxsus fərdi xüsusiyyətlə ifa etmişdir. Cabbar Qaryağdı oğlu Məşədi İsinin xanəndəlik qabiliyyətinə yüksək qiymət verərək yazmışdı: «...Şuşa şəhərində, bütün Qafqazda məşhur olan Xarrat Qulunun şagirdlərindən xanəndə Məşədi İsi «Mahur» dəstgahını çox təntənə ilə oxuyardı. Özü də təsnifxanalıqda və qaval çalmaqda birinci sayılırdı».[71]

Məşədi İsi oxuduğu muğam və mahnıların sözlərini aydın, səlis diksiya ilə dinləyiciyə çatdırardı. O, Azərbaycan şairlərinin qəzəl və qoşmaları ilə yanaşı, Hafizin və Sədinin əsərlərini ilhamla oxuyar, öz dinləyicilərini valeh edərdi. Cəlilbəy Bağdadbəyovun yazdığına görə, Azərbaycan şairlərinin şerlərini ilk dəfə məclislərdə oxuyan Məşədi İsi olmuşdur.

Məşədi İsi təkcə Qarabağda deyil, Azərbaycanın bir çox şəhərlərində - Gəncədə, Ağdaşda, Şamaxı və Bakıda dəfələrlə toy məclislərinə, şənliklərinə dəvət edilmişdi. Məşədi İsi şamaxılı Mahmud ağanın məclislərində aylarla oxumuş və İran hakimi Nəsrəddin Şah tərəfindən bir neçə dəfə Tehran şəhərinə çağırılmışdı. Şah sarayında İran müğənniləri ilə olan bir müsabiqədə qələbə qazanan Məşədi İsi «Şiri-Xurşid» ordeni ilə təltif olunmuşdu.

Keçən əsrin 90-cı illərində Məşədi İsi tarzən Sadıqcan ilə birlikdə Aşqabad, Səmərqənd, Daşkənd və başqa şəhərlərdə xalq şənliklərində iştirak etmişdir.

Məşədi İsi böyük muğam ustası olmaqla bərabər bir təsnifxan kimi də klassik Azərbaycan xanəndələri arasında xüsusi yer tutur. Məlum olduğu kimi, təsniflərin müəllifi xanəndələr olmuşlar. Məşədi İsinin bir çox təsnifləri, xüsusilə

[71] C. Qaryağdı oğlu. Keçmiş Azərbaycan musiqisi haqqında xatirələrim (əlyazması). Azərbaycan SSR Mədəniyyət Nazirliyi Memarlıq və İncəsənət İnstitutunun elmi arxivi, inventar № 75.

«Rast», «Mahur» təsnifləri məşhurdur. O, el ədəbiyyatından bəzi nümunələrə, xüsusilə Vaqifin, Zakirin bir çox müxəmməs və qoşmasına təsniflər düzəltmişdir. Məsələn, o, «Rast» oxuyarkən Qasım bəy Zakirin:

Bir bağda bülbül olmasa,
Gülüm nə miqdarı, dilbər.
Dal gərdənə tökülməsə,
Telin nə miqdarı, dilbər.

rədifilə başlanan gəraylısından istifadə edib «Rast» təsnifini bəstələmişdi. Görkəmli ədəbiyyatşünas Salman Mümtaz yazırdı: «Bu gəraylını qarabağlı məşhur xanəndə Məşədi İsi Aşqabadda təsnif məqamında oxuduğunu şəxsən eşitmişəm».[72]

Əlbəttə, Məşədi İsinin Hacı Hüsü, Bülbülcan kimi çox zil səsi olmamışdı. Lakin o, muğamatın texnikasına dərindən bələd olduğundan xoş səsi ilə öz dinləyicilərini heyran etmişdir. Məşədi İsi kamil bir sənətkar idi. Onun ustad bir xanəndə olması haqqında müasiri, şuşalı Çıraq Məhəmməd oğlu söyləyirdi:

«Məşədi İsinin səsi çox zil deyildi. Amma bütün muğamları çox ustalıqla oxuyardı. Dünyada Məşədi İsi kimi «Osmanlı» oxuyan çətin tapılar.

Şuşanın «Çöl qala məhəlləsində» Səlimbəyin qardaşı oğlu Rüstəmbəyin toyu idi. Adamları toya dəvətnamə ilə buraxırdılar. Mənim 17— 18 yaşım olardı. Dayım dəllək Kərbəlayı Hüseyn Zeynal oğlu toya bir dəllək kimi dəvət olunduğundan məni də özü ilə toya aparmışdı.

Səlimbəyin böyük salonu altı arşın Qarabağ xəliləri ilə döşənmişdi. Qaz lampanın işığı adamın gözünü qamaşdırırdı. Hamı milli geyimdə idi. Toya iki xanəndə dəstəsi - Gülbalı aşıqları və qarmonçalan dəvət edilmişdi. Toyun padşahı şair Növrəs Mirzə Ələsgər, fərraşı isə lotu Qulu idi.

Xanəndə Məşədi İsi, tarçalan Qulu (Xəstə Qasımın qardaşı) ilə salonun görkəmli yerində əyləşmişdi. Salonun başında isə Hacı Hüsü ilə Sadıqcan oturmuşdu. Ayaq tərəfdən Gülablı aşıqları (Abbasqulu, Nəcəfqulu, Həşim, Heydər) əyləşmişdilər. Aşıqlar ilə qabaq-qabağa qarmonçu İsi bəy qarmonu əlində hazır saxlamışdı.

«Toyun padşahı» Növrəs əmr etdi ki, Hacı Hüsü bir dəstgah başlasın. Hacı Hüsü saat yarıma «Şüştər» oxudu.

Hacı Hüsü oxuyandan sonra «toyun padşahı» əmr etdi ki, Məşədi İsi dəstgah başlasın. Yadımdadı, tarzən Qulu Məşədi İsiyə dedi:

- Hacı Hüsüdən sonra nə dəstgah başlayacaqsan?

Məşədi İsi:

---

[72] Salman Mümtaz. Azərbaycan el ədəbiyyatı. Bakı, 1928, I cild, səh. 362.

— Mən dəstgah başlamayacağam. Hacı Hüsü camaatı yatırdıb, mən isə oyadacağam.

Qulu:

— Nə ilə oyadacaqsan? Məşədi İsi:

— «Osmanlı» ilə

Məşədi İsi qavalı əlində oynadıb ağzını açdı:

Sübhi tezdən oyandım,
Dərdi-qəmə boyandım.
Daş olsaydım əriyərdim,
Torpaq idim, dayandım.

Məşədi İsinin bu sözləri hamının diqqətini cəlb etdi. «Toyun padşahı» Növrəs qışqırdı. «Dalısını de! sənə nənəm qurban!». Məşədi İsi fərəhlə oxumağa başladı:

Mən aşiqəm, xan dursun,
Xan əyləşsin, xan dursun.
Qovza kətan köynəyi,
Ağ məmələr yan dursun.

Məşədi İsi oxuyub qurtaranda salonu sürəkli alqış bürüdü. Məclisi şən keçirdiyinə görə, o gecə Məşədi İsiyə qızıl suya çəkilmiş gümüş padnosun üzərində məndülədən bir paltarlıq və 500 manat qızıl pul hədiyyə verildi».[73]

Görkəmli xanəndə Məşədi İsi 1905-ci ildə Ağdamda vəfat etmişdir.

---

[73] Çıraq Məhəmməd oğlunun xatirələrindən (xatirə kitabın müəllifindədir).- Red.

# Mirzə Muxtar

«Mirzə Muxtar musiqidə ustadır».

*N. Nərimanov*



O, HƏQİQƏTƏN dövrünün ən görkəmli və istedadlı sənətkarı idi. Uzun və mənalı bir ömür yolu keçmiş Mirzə Muxtar Azərbaycanın mədəniyyət tarixində səhnə xadimi, xalq müəllimi və məşhur musiqişünas-müğənni kimi fəxri yer tutur.

Mirzə Muxtar Məmmədzadə 1841-ci ildə Şuşa şəhərində musiqiçi ailəsində anadan olmuşdur. Onun atası Mirzə Əli Əsgər Qarabaği Azərbaycan musiqi mədəniyyəti tarixində görkəmli rol oynamışdır. Mirzə Əli Əsgər gözəl səsə malik bir xanəndə, həm də kamil bir kamançazən olmuşdur. Əli Şirazi İran tarını Qarabağa gətirəndən sonra bu sənətə yiyələnmiş, bütün Qafqazda virtuoz bir tarzən kimi şan-şöhrət qazanmışdır.

Mirzə Əli Əsgər əvvəllər Xurşidbanu Bəyim Natəvanın atası Mehdiqulu xanın sarayında «saray musiqiçisi» kimi şərəfli vəzifəyə layiq görülmüş, uzun illər Mirzə Hüseyn, Həsənçə, Keştazlı Həşim, Hacı Hüsü, Məşədi İsi kimi məşhur xanəndələri tarda müşayiət etmişdi. Mirzə Əli Əsgər Yaxın Şərq ölkələrinə də səyahət etmiş, İran hakimi Nəsrəddin Şahın sarayında qurulan məclislərdə mahir bir tarzən kimi ad-san çıxarmışdır.

XIX əsrin Sadıqcan, Cavad bəy, Əlibəy oğlu (Xanəzəyski), Şəkər oğlu Kərim, Artemi və Məşədi Zeynal kimi məşhur tarzənlər onun şagirdləri olmuşlar.

Göründüyü kimi Mirzə Muxtarın kamil bir musiqişünas kimi yetişməsində atası həlledici rol oynamışdır. Mirzə Muxtar hələ kiçik yaşlarından atasının çalıb-oxumasını dinləmiş, onun qurduğu məclislərdə yaxından iştirak edərək musiqinin incə nöqtələrini əxz etmişdi. İlk təhsilini Şuşa mədrəsələrindən birində alan Muxtar türk, ərəb, fars dillərini mükəmməl öyrənmiş, hətta bu dillərdə qəzəllər belə yazmışdı. O, eyni zamanda şəxsi mütaliə yolu ilə Şərq və Azərbaycan klassik ədəbiyyatına, o cümlədən, Firdovsi, Nizami, Sədi, Hafiz və Füzuli yaradıcılığına dərindən bələd olmuşdur.

Mirzə Muxtar rus və erməni dillərini də kamil bilirdi. Buna görə də, keçən əsrin 60-70-ci illərində Şuşada «Qış klubu»nda qoyulan rus və erməni teatr tamaşalarına gedirdi. Bu tamaşalar onun qəlbində teatr sənətinə və dramaturgiyaya rəğbət oyadır, doğma ana dilində tamaşa göstərmək meylini gücləndirirdi.

Nəhayət, Mirzə Muxtar öz arzusuna çatır. O, 1870-ci ildə yerli ziyalıları (əksərən müəllimləri) ətrafına toplayıb Şuşada, «Hacıqulular zalı»nda M. F.

Axundovun «Hacı Qara» komediyasını tamaşaya qoyur. Lakin bəzi səbəblər üzündən tamaşa müvəffəqiyyətlə keçmirsə də, teatr tarixində ilk tamaşa kimi şəhərin mədəni həyatında müsbət rol oynayır. İlk müvəffəqiyyətsizlik Mirzə Muxtarı ruhdan salmır, üç il sonra, yəni 1873-cü ildə ziyalı həvəskarların köməyi ilə «Hacı Qara»nı yenidən tamaşaya qoyur. 1919-cu ildə Bakıda nəşr olunan «Övraqi-nəfisə» adlı incəsənət jurnalında bu əlamətdar hadisə haqqında Mirzə Muxtar özü yazırdı: «Qırx beş il bundan əqdəm Şuşada mərhum Mirzə Fətəli Axundovun əsəri «Hacı Qara»nı teatra məxsus bir bina olmadığından qışlaqda (kazarmada) mövqeyi-tamaşaya qoydum. O vaxt mətbəə filan olmadığından qələm ilən otuz beş elan yazdım və payladım camaatə. Axşam tamaşaçılardan bəziləri «Şəriətə zidd şey bulsaq vay halına» deyərək məni hədələdilər. Bərəkət versin ki, dinə müxalif bir şey bulmayıb razı getdilər».[74]

Azərbaycanda teatr sənəti bütün Şərq ölkələrində olduğu kimi çətin və mürəkkəb şəraitdə inkişaf edirdi. Hər yerdə səhnəyə çıxmaq, tamaşa göstərmək din xadimləri tərəfindən günah hesab edildiyindən, aktyorlar «kafir», «dinsiz» adlandırılır, təqib edilirdilər.. Milli teatrın ilk qaranquşlarından biri olan Mirzə Muxtar da bu ağır şəraitdə bütün təhqir və təqiblərə dözərək avam, dindar kütlələri qəflətdən oyatmaq üçün əlindən gələni əsirgəmirdi.

Yarım əsrlik səhnə fəaliyyəti ərzində o, Molla İbrahimxəlil, Dərviş Abbas, Molla Həmid («Molla İbrahimxəlil kimyagər »),. Məstəli şah («Müsyö Jordan və dərviş Məstəli şah»), Mirzə Əziz («sərgüzəşti-vəziri-xani-Lənkəran»), Şeyx Əhməd («Ölülər»), Hacı Səməd ağa («Bəxtsiz cavan») və b. rollarda səhnəyə çıxmış, dini, cəhaləti, istibdadı, tamahkar və yalançıları, feodal mühitin eybəcərliklərini cəsarətlə ifşa etmişdi.

Mirzə Muxtarın Azərbaycan milli teatr tarixində unudulmaz xidmətlərindən biri də onun teatr səhnəsində ilk dəfə qadın rolunda çıxış etməsidir. Şübhəsiz ki, bu məsələ o dövrdə heç də asan deyildi. Bir yandan ruhanilərin teatr sənətini «şeytan əməli» və səhnəyə çıxanı isə «kafir» adlandırmaları, digər tərəfdən də qadın hüquqsuzluğu azərbaycanlı qızlarının səhnəyə çıxmasına heç cürə imkan vermirdi. Buna görə Azərbaycan səhnəsində qadın rollarını kişilər oynamağa məcbur olmuşdular. Lakin o dövrdə qadın rolunda çıxış etmək özü də böyük cəsarət istəyirdi. Çünki qadın rolunda çıxış edən aktyorlar ikiqat hücuma məruz qalırdı. Onları bir tərəfdən avam camaat, digər tərəfdən qohum-əqraba təqib edirdi. Bütün bunlara baxmayaraq, Mirzə Muxtar qadın rollarında da böyük həvəslə çıxış edirdi.

Mirzə Muxtarın səhnə fəaliyyətinin 40 illiyi münasibətilə «Kaspi» qəzeti 9 may 1913-cü il tarixli nömrəsində yazırdı: «Mirzə Muxtar Məmmədov müsəlman səhnəsinin ilk həvəskar artistlərindən biridir. O, birinci dəfə Şuşada müsəlman Molyeri Mirzə Fətəli Axundovun ölməz «Hacı Qara» pyesində oynamışdır. Müsəlman səhnəsi üçün onun xidmətləri ona görə qiymətlidir ki, o zaman səhnədə

[74] Bax: «Övraqi-nəfisə» jurnalı, 1919-cu il, № 2.

oynamaq mürtədlik hesab olunur, bu işə cəsarət edənlər isə avam camaat və dindarlar tərəfindən təqib olunurdu. O dövrdə qadın rollarını oynamaq daha böyük qəbahət sayılırdı. Bu rolları oynayanlar hər cürə alçaldılır, onları hətta rolunu ifa etdikləri qadınların adı ilə çağırırdılar. Hamıya bəllidir ki, müsəlman arasında kişinin qadın adı ilə çağırılması nə qədər ağır təhqirdir. Mirzə Muxtarın müsəlman səhnəsi üçün xidməti bir daha ona görə böyükdür ki, o, belə şəraitdə fəaliyyətə başlamışdı. Müsəlman səhnəsinin bu qocaman həvəskar artisti bu cür çətin maneələri keçib gəlmişdir.»

Mirzə Muxtar 1870—1882-ci illərdə Şuşada verilən milli teatr tamaşalarının təşkilatçısı və iştirakçısı olmuşdur. Lakin o, 1883-cü ildə acınacaqlı bir hadisə nəticəsində doğma yurdunu tərk etməli olmuşdur. Bir gün Şuşada məşhur publisist Həşimbəy Vəzirovun «Evlənmək bir stəkan su içmək deyil» əsəri tamaşaya qoyulur. Tamaşada qumar oyunu səhnəsi göstərilir. «Dörd aşıq» atan qumarbazın birinin aşığı alçı durur. Lakin onun «rəqibi» yaxşı görmədiyindən inad edir ki, aşıq «toxan» durub.* Burada mübahisə düşür. Məsələ ciddi şəkil aldıqda qumarbazın biri qışqırır:

— O Əlinin qeyrətli oğlu Həzrət Abbas haqqı aşıq alçı durub.

Bunu eşidən dindar tamaşaçılar arasında çaxnaşma düşür. Onlar imam Əlinin və onun oğlunun adının çəkilməsini həqarət və təhqir hesab edib dəlicəsinə səhnəyə atılarkən aktyorlar dal qapıdan qaçmağa imkan tapırlar. Lakin Mirzə Muxtar ələ keçir. Xoş bəxtlikdən qadın paltarında olması onu ölümdən qurtarır. səhnəyə hücum çəkənlər Mirzə Muxtarın «süpürgəçi qadın» olduğunu güman edib ona dəymirlər. Lakin hadisə bununla qurtarmır. Səhəri bu əhvalat ildırım sürətilə şəhərə yayılır. Ruhanilərin əmri ilə tamaşanı göstərən aktyorlar, o cümlədən onların tətkilatçısı Mirzə Muxtarı axtarırlar. Mirzə Muxtar bir qədər Ağdamda gizlənir, ancaq burada da onu təqib edirlər. Nəhayət, dindarların ölüm hədəsinə məruz qalan Mirzə Muxtar əvvəl Gəncəyə, sonralar isə Tiflis şəhərinə köçür və bir neçə il müəllimlik edir. Eyni zamanda yerli həvəskarlarla birlikdə teatr tamaşaları göstərir.

Mirzə Muxtar 1899-cu ildə Bakıya köçür. Müəllimliklə məşğul olur, eyni zamanda Bakıda teatr tamaşalarında müntəzəm çıxış edir. 1905-ci ildə o, müəllimlikdən əl çəkir. Bütünlüklə taleyini teatr sənətinə bağlayır.

Mirzə Muxtarı Şərq musiqisinin incəliklərini mükəmməl bilən musiqişünas və görkəmli səhnə xadimi kimi tanıyan Üzeyirbəy Hacıbəyov onu ilk Azərbaycan operası «Leyli və Məcnun»un tamaşasında iştirak etməyə dəvət edir. O, ilk dəfə Məcnunun atası rolunda çıxış etməklə bərabər tamaşanın hazırlanmasında Ü. Hacıbəyovun ən yaxın məsləhətçisi və köməkdarlarından biri olur.

---

* «Dörd aşıq oyunu»nun qaydasına görə aşıq «alçı» duranda pulu alarlar. «Toxan» duranda isə pulu verərlər - müəllif.

O vaxtdan Mirzə Muxtar əsasən opera səhnəsində çalışmış, «Əsli və Kərəm»də Kərəmin atası, «Aşıq Qərib»də Xacə, «Şah İsmayıl»da Rəmmal, «Şah Abbas və Xurşidbanu»da Vəzir, «Mehr və Mah»da Yəmən şahı, «Fərhad və Şirip»də isə Şapur rollarını yüksək sənətkarlıq və incə nəğməkarlıq məharətilə nümayiş etdirdiyinə görə tamaşaçıların sonsuz məhəbbətini qazanmışdır. Mirzə Muxtarın tamaşaçılar içərisində çoxlu pərəstişkarları var idi. Onlardan biri də Üzeyirbəy özü idi. Mərhum Cəlilbəy Bağdadbəyov söylərdi ki, «Leyli və Məcnun» tamaşası verilərkən Üzeyirbəy arvadı Mələk xanımla teatra gələr, Mirzə Muxtarın ifasında Məcnunun atasının ariyasını dinlədikdən sonra teatrı tərk edərdi.

Mirzə Muxtar operetta tamaşalarında da yaxından iştirak edirdi. O, kişi rolları ilə yanaşı müntəzəm olaraq qadın rollarında da oynayırdı. 45 illik çətin və aqır səhnə fəaliyyəti dövründə o min bir müsibət çəkmiş, həmişə ehtiyac, avamlıq və səhalətin təqibinə məruz qalmışdır. Səhnə həyatında onun başına nə qədər fasiəli hadisələr, gülməli əhvalatlar gəlmişdir. Məşhur səhnə xadimi Hüseynqulu Sarabski xatirələrində Mirzə Muxtarın başına gəlmiş qəribə əhvalatlardan birini belə xatırlayır:

«...Yoldaşlarımızdan İsmayıl bəy Rüstəmbəyov «Dövləti-bisəmər» adlı bir pyes yazmışdı. O, faciədə üç mühüm qadın rolu var idi. İstəyirdik ki, qadın rolunu kişilər deyil, qadınlar oynasınlar. Kişidən xilas olmaq üçün gedib qadın axtardıq. Axırda Mislavskaya adlı türk dili bilən bir qadın tapdıq. Həmin «Dövləti-bisəmər» faciəsində bir yengə rolu var idi. Qadın da tapılmayır. Kimə verək, kimə verək? Qət etdik ki, Mirzə Muxtardan başqa bunu oynayan olmaz. Nə isə, birtəhər Mirzə Muxtarı razı elədik. Rolun mühümlüyü bu idi ki, onun içərisində qadın nəğmələri var idi. Yengə xonçanı yerə qoyandan sonra bu mahnını oxuyub oynamalı idi.

Əriştə oldu toy aşı,
Ona qarışdı göz yaşı.
Açılmadı o gün başı,
O toyda mən də var idim.
O toyda mən də var idim.

İki quda bir-birinə,
Baxırdılar yan, qıyğası.
Qaragözlü, qarasaçlı,
Bişməmişdi heç turacı.
O toyda mən də var idim.
O toyda mən də var idim.

Mirzə Muxtar qrim etməzdi. Yaylığı elə bağlardı, burnunun üstündə iki gözü görünərdi. Mahnını oxuyub oynamağa başladıqda salonda gülmək səsindən

qulaq tutulurdu. Mirzə Muxtar rola elə girmişdi ki, hətta səhnədə qadın olmağı yadından belə çıxmış idi. Birdən burnunun üstündə olan dəsmal çənəsinə düşdü. Camaat bu halı görsək gülmək daha şiddətləndi. Mirzə Muxtar elə güman edir ki, camaat onun yaxşı oynamağına gülür. Odur ki, heç kəsə fikir verməyib öz işində idi. Bu halda başındakı şalı sürüşdü, öz başı göründü. Səhnə arxasından: «Mirzə, bığını ört, başın görünür, şalın düşüb...» deyə qışqırdıq. O isə öz işindədir. Mahnını oxuyub atdanıb-düşür. Bu vaxt qəflətən tumanın bağı qırılıb tamam dizinə düşdü. Mirzənin şalvarı göründü. Camaat ol çalmağa başladı. Səhnədə olan artistlər gülməkdən bir söz deyə bilmirdilər. Camaat artistlərə, artistlər camaata qarışmışdı... Mirzə birdən ayılıb avazı belə gördükdə bir saniyə sükutdan sonra səhnədən qaçdı».[75]

1908-1918-ci illərdə Mirzə Muxtar bir aktyor kimi Zaqafqaziyanın, Şimali Qafqazın və Orta Asiyanın bir çox şəhərlərində səhnəyə qoyulan opera və musiqili komediya tamaşalarında oynayaraq tamaşaçıların dərin hörmətini qazanmışdı. Çünki, Mirzə Muxtarda həm fitri istedad, məlahətli səs, həm də böyük səhnə mədəniyyəti var idi. O, hər hansı bir tamaşada oynayarkən özünü səhnədə yox, həyatda hiss edərdi. Heç bir süni və xarici effektə uymayaraq rolunu təbii, canlı oynayardı. Bir də Mirzə Muxtarın muğamata, daha doğrusu, musiqi elminə dərindən bələd olması onun ifasının təsir gücünü artırırdı. O, ərəb, fars və türk dillərini kamil bildiyindən əruz vəznində yazılmış qəzəlləri aydın, rəvan və düzgün tələffüz edərdi. Buna görə də dinləyici onun istər bəmdə və istərsə də zildə oxuduğu sözləri asanlıqla qavrayardı. O, bir aktyor kimi tamaşaçını öz ehtiraslı oyunu ilə elə ovsunlayardı ki, kim olursa-olsun səhnədəki hadisələrə qəlbən bağlanar, təsirlənərdi.

Heç də təsadüfi deyildir 1913-cü ildə Bakının teatr ictimaiyyəti, teatr tariximizdə Mirzə Muxtarın müstəsna rolunu nəzərə alıb onun səhnə fəaliyyətinin 40 illik yubileyini keçirmişdi. O zaman dövri mətbuat bu əlamətdar hadisə haqqında elanlar vermişdir. «Kaspi» qəzeti Mirzə Muxtarın şəkli ilə birlikdə verdiyi bir xəbərdə yazırdı: «Bu gün Tağıyev teatrında «Nicat» cəmiyyətinin təşəbbüsü ilə müsəlman səhnəsinin ən köhnə fədaisinin 40 illik səhnə fəaliyyəti bayram edilir.

Bakı müsəlmanlarından kim Mirzə Muxtarı tanımır?

Mirzə Muxtarı nəinki fədakar səhnə xadimi kimi, eyni zamanda onu təvazökar xalq müəllimi kimi də tanıyırlar.

Mirzə Muxtar ömrünün 30 ilini müəllimlik fəaliyyətinə həsr etmişdir. Bakının bir çox müsəlman ziyalıları onun yetirməsidir.

Mirzə Muxtarın müsəlman səhnəsində 40 illik fəaliyyətini nəzərə alan «Nicat» cəmiyyəti onun yubileyini keçirməklə öz borcunu yerinə yetirir».[76]

---

[75] H. Sarabski. Bir aktyorun xatirələri. Azərnəşr, Bakı, 1930 səh 49-50.
[76] "Kaspi" qəzeti, 9 may 1913-cü il, № 103.

Gecədə yubilyarın adına gələn çoxlu təbrik teleqramları oxundu. Sonra gözləri yaşarmış halda çıxış edən 72 yaşlı Mirzə Muxtar onun yubileyini təşkil edənlərə, tamaşaçılara və qonaqlara öz təşəkkürünü bildirdi.

Yubilyara çoxlu qiymətli hədiyyələrlə yanaşı, öz aktyor yoldaşları və H.Z. Tağıyev tərəfindən iki konvertdə pul mükafatları da təqdim olundu.

Gecənin axırında yubilyarın iştirakı elə Üzeyirbəy Hacıbəyovun «Rüstəm və Zöhrab», «Leyli və Məcnun» operalarından səhnələr göstərildi.

«Kaspi» qəzeti yazır ki, teatrda həddindən artıq adam var idi ki, bu da yubilyara olan hörmət və izzətin canlı ifadəsi idi.[77]

Yaşı 72-ni keçsə də, Mirzə Muxtar istər opera, istərsə də dram teatrları tamaşalarında müntəzəm çıxış edirdi. Qocaman aktyor uzaq qastrol səfərlərinə belə çıxırdı. Məsələn, 1914-cü ildə Tiflisdə «Leyli və Məcnun» operası tamaşaya qoyularkən Məcnunun atası rolunda çıxış edən 75 yaşlı Mirzə Muxtar çoxmillətli Tiflis tamaşaçılarının sonsuz rəğbəti ilə qarşılanmışdı. Həmin ilin 10 aprelində Üzeyirbəy Hacıbəyovun «Əsli və Kərəm» operası gürcü Dvoryan teatrının binasında tamaşaya qoyulur. Həmin tamaşa haqqında məşhur publisist Eynəli Sultanov yazırdı: «Aktyor Sarabski, həm də müsəlman səhnəsində 40 ildən artıq fəaliyyət göstərmiş cənab Mirzə Muxtar bu dəfə də bir opera aktyoru kimi özlərini doğrultmaqla tamaşaçıların gözlədiyindən də artıq sənətkarlıq məharəti göstərdilər».[78]

Mirzə Muxtar 1919-cu ildə 78 yaşında səhnə ilə vidalaşır... Bu münasibətlə «Övrəqi-nəfisə» jurnalında verilmiş bir məlumatda deyilir: «Mirzə Muxtar Əli Əsgər oğlu Məmmədzadə Şuşada anadan olub, kəndisi məharətli bir aktyor, müqtədir bir müəllim olduğu kimi musiqi aləmindən təlimatlı təbi şeri dəxi yazıb. həm türkcə, həm də farsca yazdığı qəzəllərindən onun nə qədər dəqiq hissə malik olduğu hiss olunur.

45 sənədir o, teatr xadimi olub oynadığı rollarda özunün layiqli və istedadlı aktyor olduğunu da sübut etmişdir».[79]

Sonra jurnalın həmin nömrəsində özü haqqında oxuculara məlumat verən Mirzə Muxtar məqaləsinin axırında yazmışdır: «İşdə o zamandan (yəni 1873-cü ildən - F.Ş.) bəri Qafqaziyanın başqa şəhərlərinə səfər edib tamaşalar göstərmişəm. O cümlədən İrəvanda, Gəncədə, Tiflisdə, Vladiqafqazda, Dərbənddə...

İndi isə Bakıda sakinəm. Qocalıqdan və bahalıqdan əhvalım çox pərişandı».[80]

---

[77] "Kaspi" qəzeti, 12 may 1913-cü il, № 195.
[78] "Zakavkazskaya reç" qəzeti, 1914-cü il № 82.
[79] Bax: «Övrəqi-nəfisə» jurnalı, 1919-cu il, № 12
[80] Yenə orada.

Mirzə Muxtarın Azərbaycan teatr mədəniyyəti tarixindəki unudulmaz xidmətlərini nəzərə alan Hacıbəyov qardaşları ona ayda 500 manat təqaüd təyin etmişlər.

Mirzə Muxtar ömrunün son 10 ilinin (1919—1929) musiqişünaslıqla məşğul olmuşdur. Hələ gənc yaşlarından atası Mirzə Əli Əsgərdən kamil musiqi təhsili alan və Şuşa musiqi məclislərində yaxından iştirak edən, dövrünün ən məşhur xanəndə və sazəndələri ilə durub-oturan Mirzə Muxtar, Azərbaycan xalq musiqisinin mahir bilicisi və «ağsaqqalı» sayılırdı. O, eyni zamanda Şərq musiqisinin, xüsusilə klassik muğamların dərin nəzəriyyəçisi kimi tanınan bir alim idi. Muğam dəstgahlarının tərkibi, ifa etmək qayda və sirləri onun böyük xanəndəlik sənətində öz əksini tapmışdı.

Azərbaycanda sovet hakimiyyətinin qələbəsi mədəniyyətin bütün sahələrində olduğu kimi musiqi təhsili və ifaçılığı sahəsində də böyük canlanmaya səbəb olmuşdur. Sovet hökuməti musiqi sənətinin tərəqqi və inkişafı üçün hər cür əməli tədbirlər həyata keçirirdi. Əvvəllər Şərq (sonra isə Dövlət) Konservatoriyası adlanan ali musiqi məktəbi, Azərbaycan türk musiqi texnikumu, Bakının neft rayonlarında fəhlə klubları, mədəniyyət evləri, o cümlədən Əbilov adına, Krupskaya adına klublar, Əli Bayramov adına «Türk qadınlarının mədəniyyət sarayı» qızğın mədəni fəaliyyət göstərirdilər. Bundan əlavə həkim Avanse İoanesyanın 65 musiqiçidən ibarət yaratdığı «Azərbaycan xalq musiqi alətləri orkestri», «Qızlar ansamblı», «Qadın orkestri» geniş əməkçi kütlələri qarşısında müntəzəm konsert proqramları ilə çıxış edirdilər.

20-ci illərin sonunda Gəncə və Şuşa şəhərlərində musiqi məktəbləri və s mədəni müəssisələr yaradıldı. Bütün bu mədəniyyət ocaqları, ali və orta musiqi məktəbləri üçün mükəmməl bir dərs planı tərtib etmək, yeni musiqiçi kadrları hazırlamaq işini qaydaya salmaq, ifaçılıq sənətini kustarçılıqdan qurtarmaq, bir sözlə, musiqi sənətini sahmana salmaq lazım idi.

Bu şərəfli, həm də mürəkkəb vəzifəni yerinə yetirmək üçün Azərbaycan SSR Xalq Maarif Komissarlığının nəzdində incəsənət işləri idarəsi yaradılmışdı. həmin idarəyə rəhbərlik etmək məşhur yazıçı-dramaturq və görkəmli musiqi xadimi Ə. Haqverdiyevə tapşırılmışdı. Musiqi şöbəsinə isə böyük bəstəkar Üzeyir Hacıbəyov başçılıq edirdi. O, eyni zamanda Azərbaycan türk musiqi texnikumunun direktoru idi. Beləliklə, Azərbaycan xalq maarif komissarlığının göstərişi və Ə. Haqverdiyevin təşəbbüsü ilə 1923-cü ildə türk musiqi texnikumu nəzdində xalq musiqisinə, xüsusilə muğamata dərindən bələd olan xanəndə və musiqiçilərdən ibarət «muğamat komissiyonu» adlanan elmi şura təşkil olunmuşdu. Şuraya sədrlik etmək Üzeyir Hacıbəyova tapşırılmışdı. Şuranın daimi üzvləri: Cabbar Qaryağdı oğlu, Mirzə Fərəc, Səlyanlı Şirin, Qurban Pirimov, Mirzə Mənsur idi. Həmin komissiyonun texniki katibliyi isə 16 yaşlı gənc (sonralar Azərbaycanın məşhur bəstəkarı, dirijoru və musiqişünası) Əfrasiyab Bədəlbəyliyə həvalə olunmuşdu.

Mirzə Muxtar isə bu komissiyonun (elmi şuranın) ağsaqqalı kimi hərdənbir yığıncaqlarda iştirak edərdi. Bu yığıncaqlarda milli musiqinin bünövrəsi olan muğamların bəzi mühüm nəzəri məsələlərini müəyyənləşdirmək, dəstgahların şöbə və guşələrini dəqiqləşdirməklə, eyni zamanda muğam ifaçılığını Şərq oxumaq üslubunun bütün qayda-qanunları üzrə çalınıb-oxunması kimi ciddi və son dərəcə əhəmiyyətli problemlər müzakirə olunurdu.

Şübhəsiz ki, «muğamat komissiyonu»nun işi və fəaliyyəti həmişə «sakit» keçmirdi. Tez-tez müəyyən bir muğamın şöbə və hissələri, onların ifa etmək qaydaları üstündə mübahisələr başlanardı. Bəzən bir muğam müzakirə olunarkən komissiyon üzvləri qəti bir fikrə gəlməyib iki tərəfə bölünərdilər. Belə vaxtlarda Üzeyirbəy təmkin və səbrlə həmin məsələnin ayrıca olaraq yenidən müzakirəyə qoyulacağını elan edər, bu ciddi mübahisəyə (bəzən də münaqişəyə) son qoymaq üçün Mirzə Muxtarı dəvət edərdi. Şübhəsiz ki, son söz Mirzə Muxtarın idi. Onun fikri ilə hamı razılaşardı. Bu mübahisələrin canlı iştirakçısı və şahidi olmuş Əfrasiyab Bədəlbəylinin Mirzə Muxtarın komissiyonun işindəki iştirakı və rolu haqqında qeydləri çox maraqlıdır: «...Mübahisəli olan müəyyən bir məsələ açıq qaldığı hallarda, həmin mübahisəli məsələ haqqında son və qəti hökm verilməsi bütün muğamatçılar arasında on çox nüfuzlu sayılan qocaman Mirzə Muxtar Məmmədova həvalə olunurdu. O, muğamat komissiyonunun ağsaqqalı, fəxri münsifi sayılırdı. Hər bir mübahisəli məsələ haqqında onun mülahizəsi heç bir etiraz qəbul etməyən qanun hökmündə idi. Ona göstərilən böyük hörmət və etimad onun Azərbaycan musiqisini, xüsusilə muğamatı doğrudan da hamıdan yaxşı bildiyindən əmələ gəlirdi... Çox yaxşı musiqi hafizəsi olan, ərəb və fars dillərində sərbəst danışan, oxuyub yazan Mirzə Muxtar muğamat aləminin soltanı idi».[81]

Bu sözlərdə böyük həqiqət vardı. Heç təsadüfi deyildi ki, o zamanlar Mirzə Muxtarı bir muğam ustası və xalq musiqisinin mahir bir bilicisi kimi tez-tez Dövlət konservatoriyasına, musiqi məktəblərinə, mədəniyyət evlərinə və «Kommunist» qəzetinin redaksiyası nəzdində olan «Oxucular klubu»na görüşə dəvət edərdilər. Məşhur musiqişünas bu görüş zamanı muğamların tarixindən, şöbə və guşəsindən müfəssəl danışar, yeri gəldikcə Şərqin Əbu-Əli İbn-Sina Əbü-Nəsr əl-Farabi, Səfiyyəddin Ürməvi, Əbdülqadir Maraği kimi dahi musiqişünasların əsərlərindən nümunələr gətirirdi. O, söhbətlərində gənc xanəndələrə səsi işlətmək, idarə etmək haqqında tövsiyələr verərək deyərdi:

«— Səs işlədikcə açılır.

— Oxumaq adi danışıq kimi sərbəst, aparılan söhbət kimi asanlıqla əldə edilməlidir.

— Oxumağın ümdə şərti — düzgün nəfəs almaqdı. Nəğməkar oxuduğu zaman sakit, heç bir tövşüməyə qətiyyən yol vermədən səssiz nəfəs almağa

[81] Bax: Ə. Bədəlbəyli. Musiqi lüğəti. Bakı, 1909, səh. 18.

çalışmalıdır. Nəfəsi ağızdan yox, burundan almaq lazımdır. Əgər nəfəsi həddindən artıq tez, ya da gec buraxsan səsin boğuq eşidilər.

Oxumaq zamanı boynu və çiyinlərini sərbəst saxla, çünki hər bir kəskin hərəkət boğaza zərərdir».[82]

Mirzə Muxtar oxunan havanı çənəyə salmağı və çənəni oynatmağı xanəndə üçün böyük qəbahət və qüsur sayaraq deyirdi: «Bəzi xanəndələr oxuyan zaman alt çənəsini sağa-sola hərəkət etdirirlər. Bu halda onlar ot kövşəməkdə olan heyvanı andırırlar, həm də özlərini aldadırlar - onlar güman edirlər ki, bununla səs qaltanlı olar. Bu, böyük səhvdir. Alt çənənin sağa-sola hərəkəti heç vaxt səsi artırmaz.

Evində tək qalıb güzgü qabağında, həm bəmdə, həm də zil pərdələrdə bir müddət oxu, bax gör sifətin nə hallara düşür. Əgər oxuduğun zaman ağzın bir yana əyilirsə, bu çox böyük nöqsandır. Buna yol vermə, yoxsa dinləyicilər bunu sənə irad tutar, rişxənd edərlər.

— Zil pərdələrdə oxuduğun zaman ağzını həddindən ziyada açma, çünki, əngin aşağı salınması, boğazın yolunu daraldır, bu isə səsin dolğunluğunu azaldır».[83]

Daha sonra Mirzə Muxtar söhbətlərində xanəndələrə səslərinin qüvvəsindən ehtiyatla və ölçü ilə istifadə etməyi məsləhət edər, yersiz çığırmağın və səsə süni güc verməyin zərərli olması haqqında deyərdi:

«—Olduğundan daha güclü səs çıxarmağa cəhd etmə, çünki o sayaq oxumağın heç bir faydası yoxdur. Qışqıraraq oxuyan, həm dinləyicinin zəhləsini tökər, həm də axırda özünün səsini batırar.

— Səsin həcmini istər həm, istərsə də zil pərdələrə doğru çox böyük ehtiyatla, ehmalca, tədricən, pillə-pillə genişləndirmək lazımdır.

Çalış ki, səsin rəvan olduğu qədər qıvraq, oynaq olduğu qədər səlis, dayanaqlı, həm də axıcı olsun.

— Səsi süni surətdə gücləndirmək və həddindən ziyadə bərkdən (ucadan) oxumağa cəhd etmək zərərlidir... Bunlar boğaz əzələlərini düzgün inkişaf etməsinə mane olur».[84]

Mirzə Muxtar xanəndələrdən mürəkkəb guşəxanlıq, şirin nəfəslər vurmağı tələb etməklə, eyni zamanda onlardan burunda da oxumağı (müxtəliflik xatirinə) tələb edərdi.

«- Oxuma zamanı müxtəliflik xatirinə hərdənbir burunda oxumaq (ağız yumulmuş halda) özlüyündə çox gözəl üsuldur. Həm də hər xanəndəyə müyəssər olan iş deyil. Burada əsl məharət səsi bir müddət burunda uzatdıqdan sonra

---

[82] Bax: Ə. Bədəlbəyli. Göstərilən əsəri, səh. 183.

[83] Yenə orada.

[84] Yenə orada, səh. 184.

ehmallıca ağıza keçirməkdən ibarətdir. Bu hünər istər. Gərək burada heç bir sərt səs ayrılığı hiss olunmasın».[85]

O, bu sahədə yeganə mütəxəssis kimi Seyid Şuşinskini nümunə gətirərək deyərdi:

«— Mənim istər keçmişdə və istərsə də indi tanıdığım xanəndələrdən yalnız Seyid Şuşinski burunda oxumaq üsulundan məharətlə istifadə etməyi bacarır. Bu işdə heç bir müğənni ona tay ola bilməz».

Aydın məsələdir ki, klassik şerlərdən yerli-yerində istifadə etməyi bacarmayan müğənni ifaçılıq sənətində uğurlu yol tapa bilməz. Mirzə Muxtar da öz tövsiyələrində dəstgahları məharətlə oxumaq üçün şer nümunələrini düzgün seçə bilmək, onları aydın tələffüz etməyi xanəndə üçün ümdə şərt hesab edib deyərdi:

«— Oxuduğun dəstgahın təsirli olması üçün münasib qəzəl seçmək çox vacib və əhəmiyyatli vəzifədir. Lakin oxuduğun hər qəzəlin sözlərini düzgün və mənalı tələffüz etməyi bacarmaq daha da vacib bir şərt sayılmalıdır.

Yaxşı məlahətli səsə malik, lakin kəmsavad xanəndə füsunkar bir qızın yaxşı çəkilmiş şəklinə bənzər: gözəldir, amma canı yoxdu.

Oxuduğu qəzəlin vəzninə, bəhrinə riayət etməyən, ya da qəzəlin. sözlərini təhrif edən xanəndə şerin, sənətin birinci düşmənidir».

Nəhayət, Mirzə Muxtar xaric oxumağı xanəndə üçün ən böyük bağışlanmaz qəbahət hesab edirdi. O, qəti inamla deyirdi:

— Xaric oxumaq — fəlakətdir, xaric oxuduğunu eşitməmək — faciədir, xaric oxuduğunu inkar etmək isə səhalətdir...»

Görkəmli musiqişünasın unudulmaz, qiymətli tövsiyələri bu gün də öz əhəmiyyətini saxlayır. Onu xalq sənətini sevən, onun saflığını göz bəbəyi kimi qorumağı müqəddəs vəzifə bilən, inkişafına çalışan xanəndələr yadda saxlamağı, özləri üçün nəticə çıxarmağı bacarmalıdırlar.

Mirzə Muxtar irsi böyük bir məktəbdir. Onun çoxşaxəli sənətinin və fitri istedadının bir çox mədəniyyət xadimlərinin diqqət mərkəzində olması təsadüfi deyildi. Qaryağdı oğlu Cabbar, Cahangir Zeynalov, Üzeyirbəy Hacıbəyov, Hüseyn Ərəblinski, Bülbül, Hüseynqulu Sarabski, Seyid Şuşinski, Hacağa Abbasov kimi qüdrətli mədəniyyət xadimləri Mirzə Muxtara böyük hörmət, ehtiram bəsləmiş və sənət məsələlərinin həllində həmişə ondan məsləhətlər almışlar. Mirzə Muxtarın milli incəsənət tarixində əvəz olunmaz xidmətləri dövrün məşhur musiqi xadimlərinin və teatrşünaslarının diqqətini cəlb etmişdir.

Azərbaycan SSR əməkdar artisti Cəlilbəy Bağdadbəyov teatr xatirələrində Mirzə Muxtarın sənətini yüksək qiymətləndirərək yazmışdı: «Musiqi və muğamata dərin bələd olan gözəl müəllim Mirzə Muxtar... rus dilindən əlavə fars, ərəb dillərini, ədəbiyyatı mükəmməl bilən bir aktyor idi.

---

[85] Bax: Ə. Bədəlbəyli. Göstərilən əsəri, səh. 183-184.

Mirzə Muxtar təmizürəkli olub gənc aktyorlara muğamatı təlim edib şerlərin anlamadıqları sözlərini başa salardı. Olduqca müsbət bir adam idi. Mirzə Muxtarın «Hicaz» və «Şur» oxumağını bir xanəndə və aktyorda görmədim. Onun «Şur»u eşitdiklərimə bənzəmirdi. Bunun səbəbini ondan sorduqda:

— Bala, mən oxuyan «Şur», «Şuri əl nəvayidir» — deyirdi».[86] Məşhur musiqişünas, görkəmli aktyor 1929-cu ilin yanvar ayının 17-də 88 yaşında əbədi olaraq gözlərini yumdu. O zaman «Kommunist» qəzetində yazılmış nekroloqda deyilirdi: «Türk səhnəsinin bütün ağırlıqlarını çiyinlərində keçirmiş, uzun ömrünün çox və dəyərli bir hissəsini bu səhnədə çalışmış, ən qoca aktyor Mirzə Muxtar həyat səhnəsindən həmişəlik olaraq çəkildi».[87]

Azərbaycan mədəniyyətinin görkəmli xadimi Mirzə Muxtar Məmmədzadə mənalı ömrünün 70 ilini teatr sənətinə, pedaqoji fəaliyyətə, musiqi elminin tədqiq və tədrisinə həsr etmişdir. Onun milli teatr, istərsə də opera sənətinin bina edilməsi və inkişaf yollarındakı xidmətləri unudulmazdır. Biz onu iftixarla teatr sənətimizin, musiqi mədəniyyətimizin ən görkəmli xadimlərindən biri adlandıra bilərik.

## Bülbülcan



QƏDİM Tiflisin Qolovinski (indiki Rustaveli) prospekti həmişəki kimi qələbəlik idi. Birdən əynində vəznəli çuxa, atlas arxalıq, başında gümüşü papaq, çiynində aynalı tüfəng, qolunun üstündə qızıl quş olan bir atlı gəlib keçdi. Adamlar ayaq saxlayıb heyrətlə ona tamaşa etməyə başladılar. İncə ayaqlı Qarabağ atının və onun üstündəki adamın gözəlliyi baxanları heyran edirdi. Bu adam kimdir? O, baş küçədən nə hünərlə belə keçib gedir? Axı, Qolovinski prospektində at sürməyə yalnız Qafqaz canişininin və onun ən yaxın adamlarının ixtiyarı var. Lakin buradan Koroğlu vüqarı ilə at sürən adamın Qafqaz canişini ilə heç bir yaxınlığı yox idi. Bu, Azərbaycan xanəndəsi Əbdülbaqi Bülbülcan idi. Bəs necə olmuşdu ki, Əbdülbaqi Bülbülcan bu küçədən at sürməyə cəsarət etmişdir?!.

Bu hadisənin çox maraqlı bir tarixi vardır: rus çarlarından III Aleksandr 1888-ci ilin payızında öz ailəsi ilə birlikdə Qafqaza səyahətə gəlmişdi. Çarın Tiflisə gəlişi münasibətilə şəhərin ən gözəl guşəsi olan «Müçtehid bağı»nda böyük şənlik təşkil edilmişdi.[88] Çalan kim, oynayan kim, hamı təzə libasda idi. Əbdülbaqi

[86] Azərbaycan SSR. Elmlər Akademiyasının əlyazmaları fondu. Arxiv. № 27, inv. № 13940.
[87] Bax: «Kommunist» qəzeti, 1929-cu il, 18 yanvar, № 15.
[88] Bax: Tearskaya semya na Kavkaze. Tiflis, 1889, səh. 152.

Bülbülcan da öz dəstəsi ilə bu şənlikdə iştirak edirdi. Cabbar Qaryağdı oğlunun yazdığına görə həmin məclisdə çarın sağlığına badə qaldırılarkən, Bülbülcan elə bir zəngulə vurur ki, YP Aleksandr və arvadı onun səsinə heyran qalırlar. Bundan sonra III Aleksandr Qafqazı gəzdiyi müddətdə Bülbülcan onun məclislərində iştirak edir.

Çar qayıdıb Rusiyaya gedərkən Qafqaz canişininə tapşırır ki, Əbdülbaqinin nə arzusu olsa yerinə yetirsin. Canişin, Əbdülbaqini çağırıb çarın tapşırığını ona bildirdikdə, Bülbülcan xahiş edir ki, ona bir aynalı tüfəng bağışlasın və Qolovinski küçəsindən at sürməyə icazə versin. (Bülbülcan nadir istedada malik bir xanəndə olmaqla bərabər, gözəl at minən və yaxşı ovçu idi) Qafqaz canişini onun xahişini yerinə yetirir.

Əbdülbaqi Bülbülcan Kərbəlayı Əli oğlu Zülalov 1841-ci ildə Şuşa şəhərində anadan olmuşdur. Başqa xanəndələr kimi Əbdülbaqinin də bir sənətkar kimi yetişməsində «Qafqaz konservatoriyası» adlanan Şuşanın musiqi həyatı həlledici rol oynamışdı.

Əbdülbaqi ilk musiqi təhsilini Xarrat Qulunun məktəbində almışdır. Məktəbi bitirdikdən sonra o, tarzən Sadıqcan ilə bərabər Qarabağ, Şəki, Şirvan və Gəncə məclislərində, el şənliklərində çıxış etməyə başlayır. Bu ustad sənətkarda həm gözəl səs, həm cazibədar sima, həm də yüksək səhnə mədəniyyəti var idi. Təsadüfi deyildir ki, bir xanəndə kimi müasirlərinin, o cümlədən şairə Natəvanın rəğbətini qazanmışdı. Xan qızı Natəvanın bağında qurulan məclislərdə, xüsusilə onun Şuşaya su çəkdirməsi (18 avqust 1873-cü il) münasibətilə təşkil olunmuş xalq şənliyində Əbdülbaqi də yaxından iştirak etmişdir.

O, musiqişünas Mahmud ağanın dəvətilə dəfələrlə Şamaxı şəhərinə getmiş, orada təşkil edilən musiqi müsabiqələrində həmişə birinci yeri tutmuşdur.

1875-ci ilin əvvəllərində Əbdülbaqi Tiflis şəhərinə köçür. Zaqafqaziyanın mədəniyyət mərkəzi sayılan Tiflisdə xeyriyyə məqsədi ilə tez-tez konsertlər verilirdi. Həmin konsertlərdə yerli xanəndələr ilə birlikdə məşhur rus, italyan müğənniləri və musiqiçiləri da çıxış edərdilər.

Əbdülbaqi Tiflisdə ilk dəfə böyük tarzən Sadıqcanın müşayiəti ilə oxumuşdur. İlk çıxışdan sonra onların adı nəinki Tiflisdə, bütün Gürcüstanda məşhurlaşır. Az vaxtda o, Tiflisdə yaşayan müxtəlif tərkibli əhalinin sevimli müğənnisi olur. Əbdülbaqi qısa müddət ərzində gürcü dilini də mükəmməl öyrənir. O öz oxumaları ilə gürcü dinləyicilərini vəcdə gətirir.

Az bir vaxtda Əbdülbaqi elə bir şöhrət qazanır ki, bütün Tiflisdə ona «Bülbülcan» deyirlər.

Bülbülcan Tiflis şəhərində yaşadığı müddət ərzində (1875-1905) bir neçə musiqi dəstəsi yaratmışdı. XIX əsrdə sazəndə dəstələri üç və yaxud dörd nəfərdən ibarət olardı. Lakin Bülbülcanın təşkil etdiyi hər dəstədə altı nəfər var idi. Böyük müğənninin dəstəsində Aьak Tarxanov (tar), Çipri (kamança), Ketran

(yastıbalaban), Aleko (dəf), Hüseynbala (qoşanağara) kimi sənətkarlar birləşmişdi. Əbdülbaqi Tiflisə gəldiyi ilk günlərdə xalqın xeyir-şər işlərində yaxından iştirak edərdi. O, tarzən Sadıq ilə birlikdə Tiflisdə yaşayan yoxsul müsəlmanların xeyrinə təşkil olunan konsertlərdə də yaxından fəaliyyət göstərərdi. O zaman Tiflisdə çıxan «Ziya» qəzeti Əbdülbaqinin və Sadığın iştirakı ilə verilən konsert tamaşaları haqqında qabaqcadan xəbərlər dərc edirdi. Belə konsertlərin biri haqqında qəzetin verdiyi elanlarda oxuyuruq:

«Bu yaxın vaxtda füqəra və misginlərdən ötrü Tiflisdə bina olunan İran xəstəxanasının sərmayəsinə qüvvət və mənfəət vermək qəsdilə həmin ayın 8-də Tiflisin teatr imarətində ibrətnüma və fərəh-əfza, növbənöv görməli və eşitməli tamaşalar olacaqdır. Avropa və Şərq nəğmələrində xoşavaz xanəndələr vasitəsi ilə muğamat musiqi icra olunacaqdır və Tiflis əhlinin dildadəsi olan xanəndə vo sazəndələrdən Əbdülbaqi və Sadıq dəxi hazır olacaqdır.

Əvvəliminci[*] dəfədir ki, Tiflis və İran müsəlmanları bu gün (bunun kimi) baisi-fəxr (fəxr eləməli) və tərəqqi olan payəyə (pilləyə) qədəm qoyacaqlar».[89]

Əbdülbaqi öz musiqi dəstəsi ilə Tiflisdə yerli teatr həvəskarlarının tamaşalarında da fasilə zamanı çıxış edərdi. «Qafqaz» qəzetində verilən elanlardan birində oxuyuruq: «Bu gün 22 iyun 1886-cı ildə Arsurini teatrının binasında həvəskarlar tərəfindən tatar (Azərbaycan - F. Ş.) dilində M. F. Axundovun «Müsyö Jordan və dərviş Məstəli şah» komediyası oynanılacaq. Tamaşanın fasilələrində Əbdülbaqinin sazəndə dəstəsi çalacaqdır».[90] Bülbülcanın musiqi dəstəsi şəhərin «Müctehid», «Avropa» və başqa bağlarında təşkil olunan xalq gəzintilərində və bal-maskaradlarında da dəfələrlə çalıb-oxumuşdur.

1900-cü ilin may ayında İran hakimi Müzəffərəddin şahın Tiflisə gəlməsi münasibəti ilə saray bağında düzəldilən böyük məclisdə adlı-sanlı xanəndələr arasında Əbdülbaqi də vardı. Əbdülbaqi bu məclisdə elə bir məharətlə oxuyur ki, Müzəffərəddin şah heyran qalır. O, Əbdülbaqini xanəndəlik hünərinə görə «Şiri-Xurşid» ordeni ilə təltif edir.

Bülbülcanın repertuarı çox geniş və hərtərəfli idi. O, təkcə Azərbaycan dilində deyil, gürcü, etməni, kumık və fars dillərində də oxuyardı. Onu erməni, gürcü və hətta rus məclislərinə dəvət edərdilər. Məşhur erməni musiqişünası V. Karqanov Bülbülcanın səsinə və repertuarına yüksək qiymət verərək yazmışdı: «Tiflisin ən yaxşı xanəndəsi Əbdülbaqinin repertuarı hər bir bico və kintonui ürəyinə yol tapırdı. Xanəndə öz ifaçılıq məharətilə nəinki şəhər sakinlərini, hətta nazənin sakinləri belə valeh edərdi».[91]

---

[*] Bu məlumat dəqiq deyildir. Tiflisdə ilk dəfə muğamat konserti 1860-cı il Yanvar ayının 4-də xanəndə Səttarın iştirakı ilə olmuşdur-müəllif.

[89] Bax: «Ziya» qəzeti, 4 oktyabr 1879-cu il.

[90] «Kavkaz» qəzeti, 1886-cı il, № 162.

[91] V.Karqanov. Qafqaz musiqisi. Tiflis, 1908, səh. 5.

Bülbülcan fitri istedada, məlahətli səsə, təsirli nəfəsə və güclü zənguləyə malik bir müğənni olmuşdur. Səsə dinamik boyalar verməkdə, bir neçə forma və mərtəbədə şaqraq zəngulələr vurmaqda seçilən Bülbülcana çoxları həsəd aparmışlar. Ümumiyyətlə, xanəndəlik sənətində zəngulə vurmaq əsas amillərdən biridir. Elə bir muğamımız yoxdur ki, orada zəngulə olmasın. Qaryağdı oğlu Cabbar zəngulə vurmağı böyük xanəndəmiz Əbdülbaqidən öyrəndiyini dəfələrlə etiraf etmişdi. Bülbülcan «Çahargah» və «Zabul» dəstgahlarının «hasar» və «Müxalif» şöbələrini elə çoşğun zəngulə ilə oxuyarmış ki, ona musiqiçilər arasında «hasar-müxalif» deyərmişlər.

Bülbülcanın böyük sənəti və gözəl zəngulələri haqqında el arasında bir çox əfsanələr və rəvayətlər söylənməkdədir.

Cabbar Qaryağdı oğlu «Keçmiş Azərbaycan musiqisi» adlı xatirələrində yazmışdır: «Xarrat Qulunun şagirdi, bütün Qafqazda məşhur olan xanəndələrdən Əbdülbaqi Zülalov, «Zabul» dəstgahını çox təmtəraqla oxuyardı. «Hasar»a keçəndə elə bir səda il o oxuyardı ki, heç bir kəs bunu bacarmazdı. Çünki «hasar» zəngulə istəyən nağmədir, Əbdülbaqi isə gözəl zəngulәli səsə malik olduğundan bu muğamı layiqincə ifa edərdi».[92]

Azərbaycanda sovet hakimiyyətinin Bülbülcan bakıya gəlir və Şərq konservatoriyasında müəllimlik edir.

1921-ci ildə Azərbaycan artistlərinin bir qrupu təşviqat briqadası ilə respublikanın rayonlarına göndərilmişdi. Həmin briqadanın tərkibində Ə. Zülalov və tarzən Qurban Pirimov da var idi.

1923-cü ildə Bülbülcan muğamatdan dərs demək üçün Üzeyir Hacıbəyovun təşkil etdiyi Azərbaycan Dövlət Türk Musiqi Məktəbinə dəvət edilir.

Yaşının çox olmasına baxmayaraq Əbdülbaqi Zülalov müğənnilik fəaliyyətini davam etdirməklə bərabər gənc xanəndələrin yetişdirilməsinə xüsusi səy göstərir.

Ustad xanəndənin sənəti bir çox məşhur musiqişünasların diqqətini cəlb etmişdir. Ü. Hacıbəyov məqalələrinin birində Qafqaz millətləri arasında tanınmış və beynəlmiləl truppa düzəltmiş musiqiçilər içərisində Əbdülbaqinin adını çəkərək yazmışdır:

«...Tarzən Sadıqların, xanəndə Əbdülbaqilərin adları və sədaları Qafqazın hər bir yerində məşhur olub beynəlmiləl bir mahiyyətdə ad qazanmışlar».[93]

Əbdülbaqinin bir çox layiqli və istedadlı şagirdləri olmuşdur. Cabbar Qaryağdı ordu, Musa Şuşinski, Məşədi Məmməd Fərzəliyev, Şəkili Ələsgər, Vahab bəy, Molla Abbas, Seyid Şuşinski kimi məşhur xanəndələr ondan çox şey öyrənmişlər. Zülalovlar ailəsinin Azərbaycan incəsənət tarixində «istedadlar ailəsi»

[92] C. Qaryağdı oğlu. Keçmiş Azərbaycan musiqisi haqqında xatirələrim (əlyazması). Azərbaycan SSR Mədəniyyət Nazirliyi Memarlıq və İncəsənət İnstitutunun elmi arxivi, qovluq № 75.
[93] Ü.Hacıbəyov. Azərbaycanda musiqi təhsili. Əsərləri, ikinci cild, Bakı, 965, səh. 204.

kimi tanınması təsadüfi deyildi. Əbdülbaqinin qızı, nəvəsi və qardaşı uşaqları: Əzizə xanım, Sona xanım, Əli və Qəmbər gözəl səsləri və mahir sənətləri ilə Bülbülcanın nəsib ənənələrini layiqincə davam etdirmişlər.

Bülbülcanın 70 illik xanəndəlik fəaliyyətini və Azərbaycan musiqisinin inkişafı tarixindəki xidmətlərini nəzərə alan Sovet hökuməti böyük sənətkarı əmək qəhrəmanı kimi yüksək ada layiq görmüş və ona şəxsi təqaüd təyin etmişdi.

Böyük sənətkar Əbdülbaqi Bülbülcan 1927-ci ilin avqust ayında Bakıda 86 yaşında vəfat etmişdir.

## Mirzə Fərəc



TARZƏN Mirzə Fərəc Rza oğlu 1847-ci ildə Bakı şəhərində anadan olmuşdur. Fərəcdə musiqiyə həvəs erkən oyanmışdı. O, xalası qızı Nazənin ilə birlikdə toylara və məclislərə gedib xanəndələrə qulaq asmaqdan doymazdı. Nazənin xanım yaxşı nağara çaldığından onu Bakının qadın toylarına dəvət edərdilər. O, atadan yetim qalmış balaca Fərəcin tərbiyəsi ilə özü məşğul olmuş, ona öz sənətini öyrətmişdi.

Fərəc 13-15 yaşlarından toylarda nağara çalmağa başlayır. Xalq məclislərində adlı-sanlı sazəndələrin çalıb-oxumalarını dinləyən gənc Fərəcdə tar çalmaq sənətinə sönməz bir həvəs oyanır. O, tezliklə tar çalmağı öyrənir və ilk dəfə bir tarzən kimi bakılı xanəndə Baladadaş ilə məclislərdə çıxış edir. O eyni zamanda Məşədi Məlik Mənsurovun musiqi məclisinin fəal üzvlərindən biri olur və bu məclisdə məşhur Cənubi Azərbaycan sənətkarlarından - tarzən Şirazlı Əlinin, tehranlı kamançaçı Mirzə Səttarın və Sadıqcanın çalğısını dönə-dönə dinləyir. Hətta o, Şərq musiqisini dərindən öyrənmək məqsədi ilə bir müddət İranda yaşayır, fars və ərəb dillərini öyrənir. O, ərəb, yunan və fars alimlərinin musiqiyə dair əsərləri ilə yaxından tanış olur. Məhz buna görə də Mirzə Fərəc müasirləri içərisində məşhur bir musiqişünas kimi də tanınır. Qocaman musiqiçi Mirzə Mənsur Mirzə Fərəcin bütün muğamların tarixini, hissə və şöbələrini mükəmməl bildiyini söyləyirdi.

Mirzə Fərəc xanəndələrdən Seyid Mirbabayev, Cabbar Qaryağdı oğlu və Davud Səfiyarov ilə bir neçə il əməkdaşlıq etmişdi.

1900-1905-ci illərdə Mirzə Fərəc kamançaçı Məşədi Qulu ilə birlikdə məşhur xanəndə Cabbar Qaryağdı oğlunu müşayiət etmişdi. Şübhəsiz ki, Qaryağdı oğlu kimi böyük muğam ustası ilə sənət dostluğu etmək Mirzə Fərəcə çox şey vermişdi. Məhz bu dövrdə Mirzə Fərəc nəinki Abşeronda, hətta bütün Azərbaycanda kamil tarzən kimi şöhrət tapmışdı. Sonralar qoca yaşlarında keçdiyi sənət yollarını xatırlayan tarzən xanəndəlik sənətindən söz düşəndə hə mişə Cabbar

Qaryağdı oğlunu tərifləyərək onu «xanəndələrin allahı» adlandırardı. Mirzə Fərəc öz tələbələrinə yaxşı sənətkar olmağın sirlərindən danışarkən deyərdi:

«Kamil tarzən olmaq üçün nadir istedad, uzun və iti barmaqlar, samballı biliyə malik olmaq hələ o demək deyildir ki, yaxşı sənətkar ola bilərsən. Muğamatı yaxşı bilmək üçün gərək heç olmasa, 5-10 il ustad xanəndə ilə çalıb-çağırasan. Mən sənət yollarında çox mahir xanəndələrə rast gəlmişəm və onlardan çox şey öyrənmişəm. Lakin Qaryağdı oğlunda olan qüdrətli səsi, bülbül cəhcəhinə bənzər zənguləni, təkrarolunmaz ustalığı heç kəsdə görməmişəm. Cabbarı oxudanda bir tarzən, həm də bir dinləyici kimi dincələrdim. Mən muğamatın dərinliyini və incəliyini yalnız Cabbarın sənətində görmüşəm. Bax, buna görə də bir də demək istəyirəm: Əgər istəyirsinizsə ustad tarzən olasınız, Cabbar kimi hərtərəfli istedadı olan xanəndə ilə durub-oturun. Onda çox şey qazanarsınız».

Mirzə Fərəc 1905-ci ildən sonra Keçəçi oğlu Məhəmmədin dəstəsinə qoşulur. O, Keçəçi oğlunu nəinki xalq şənliklərində, hətta konsert və «Şərq keçələri»ndə belə müşayiət edir. 1907-ci ilin yanvar ayında Bakıda ilk «Şərq gecəsi»ndə Mirzə Fərəc xanəndə Keçəçi oğlu Məhəmmədi müşayiət etmiş, həm də «Humayun» muğamını məharətlə çaldığı üçün dinləyiciləri heyrətə gətirmişdi. Mirzə Fərəc Cabbar Qaryağdı oğlundan və Keçəçi oğlu Məhəmməddən başqa, xanəndələrdən Seyid Mirbabayevi, Davud Sofiyarovu, Zülfüqar Sarıyevi də bir neçə il müşayiət etmişdi. Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Mirzə Fərəc gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olmuşdur. O, Şərq konservatoriyasında (1920—1921-ci illər), Ramana fəhlə klubunda (1923), Bakı şəhər musiqi texnikumunda (1924-1926-cı illər) tar dərsi demiş, öz bilik və təcrübəsini gənc tarzənlərə öyrətmişdir. Mənsur Mənsurov, Paşa Əliyev kimi bir sıra görkəmli tarzənlər Mirzə Fərəcin tələbələri olmuşlar. İstedadlı bəstəkar Ağabacı Rzayeva isə tarzən Mirzə Fərəcinin nəvəsi idi. Şərq konservatoriyasının rektoru professor Saşa Oqanezaşvilinin yaratdığı və rəhbərlik etdiyi «Şərq orkestri»ndə Mirzə Fərəc də bir tarzən kimi yaxından fəaliyyət göstərmişdir. O, muğam ustası, eyni zamanda bilikli bir tar müəllimi kimi məşhur idi. Lakin nədənsə bütün bilik və təcrübəsini tələbələrdən əsirgəmədiyi halda, «Rast» muğamının bütün sirlərini yetirmələrinə axıradək «öyrətməzdi. Dərs zamanı muğamın «Əraq» şöbəsinə keçəndə tələbələrə deyərdi: «Üzünüzü yana çevirin. Barmaqlarıma baxmayın. Amma Yaxşı eşidin!» Əgər tələbələrdən biri eynilə onun barmaqlarını vurardısa, əsəbiləşib deyərdi:

— Oğlum, bu olmadı, nöş mənim barmaqlarımı vurursan?!

Mirzə Fərəcinin bu «dərs üsulu»ndan xəbər tutan rektor tələbələrə yaxşı «Rast» öyrətmək üçün müsabiqə elan edir, birinciliyi qazanan müəllimə «üçqapaqlı qızıl saat» mükafat vəd edir. Onun bu cəhdinə baxmayaraq Mirzə Fərəcin vurduğu barmaqların özgələri tərəfindən mənimsəniləcəyindən ehtiyat edərək bir müəllim kimi müsabiqədən çəkinmiş, həmkarlarına demişdir:

- Hər kəsin öz yolu, öz izi olmalıdır. Başqasının süfrəsinə göz yetirən öz barını yetişdirə bilməz.

Bəlkə də qoca tarzən haqlı imiş. Doğrudan da, əsl sənətkarın öz yolu, öz ifaçılıq üslubu olmalıdır. Başqalarını yamsılamaqla sənətin zirvələrinə qalxmaq olmaz. Lakin burasını da inkar etmək olmaz ki, əsl sənətkarın gözəl irsi və bu irsi davam etdirib onu zənginləşdirən şagirdləri olmalıdır. Bunsuz musiqi ənənələrini inkişaf etdirmək qeyri-mümkündür. Lakin buna baxmayaraq Mirzə Fərəcinin bir tarzən kimi Azərbaycan milli musiqisinin inkişafında faydalı rolu inkaredilməzdir. O, ömrünün 60 ilini öz sədəfli tarı; ilə Azərbaycan musiqisinin təbliği işinə həsr etmiş fədakar tarzən idi.

Mirzə Fərəcin 1927-ci ildə 80 yaşında Bakıda vəfat etmişdir.

## Aşıq Abbasqulu



XALQ musiqisinin mühüm sahələrindən biri də tarix etibarilə ən qədim, xalqa ən yaxın olan aşıq sənətidir. Aşıq sənəti sinkretik sənətdir. Saz ifaçısının şəxsində musiqiçi, müğənni, aktyor sənəti birləşir. Aşıq sənətinin sirlərinə dərin bələd olan SSRİ xalq artisti, professor Bülbül yazırdı: «...Aşıq sənəti xalqın bütün təbəqələrini əhatə edərək, xalqımızın nəsib duyğularını, vətənimizin təbii gözəlliyini, həyatın rəngarəng lövhələrini şerdə, sözdə, vəzndə, səsdə, çalğıda ilbəil artırmış, bütün gözəlliyi, məlahəti ilə bizə çatdırmışdır».[94]

Məlum olduğu kimi, Azərbaycan milli musiqisi üç yolla inkişaf etmişdir: xalq yaradıcılığı, xanəndəlik sənəti və aşıq yaradıcılığı. Bu üç çoxcəhətli orijinal yaradıcılıq sahəsi bir-birini tamamlamış, zənginləşdirmiş, biri digərinə təsir göstərməklə eyni zamanda öz orijinallığını qoruyub saxlamışdır. Şübhəsiz ki, aşıq sənəti xanəndəlik sənətinə nisbətən həm qədim, həm də çoxşaxəlidir. Kitabın əvvəllərində qeyd etdik ki, aşıq sənəti öz ədəbi qidasını zəngin xalq şerindən aldığı kimi, xanəndəlik sənəti öz ədəbi mənbəyini klassik ədəbiyyatdan alır. Xanəndəlik sənəti kimi aşıq yaradıcılığı da Azərbaycan milli musiqisinin əsas qaynaqlarından biridir.

Aşıqlar lap qədim zamanlardan əsasən kəndlərdə çalıb-oxuduqlarına görə sadə kənd adamlarının mənəvi aləmini tərənnüm etmişlər. Aşıq sənəti çoxşaxəli, fərdi yaradıcılıqdır. O özü çalıb, özü oxuyur, şer deyir, oynayır, həm də özünü müşayiət edir. Aşıq mümkün olan hər yerdə məclis qurur. Onu dəvət etməyə

---

[94] Bülbül. Seçilmiş məqalə və məruzələri, Bakı, 1968, səh. 195.

ehtiyac olmur. Bütün qapılar aşığın üzünə açıqdır. Kənddə və yaxud yolda-irzdə bir yığıncaq görən kimi aşıq sazını əlinə alır, həmin vilayətin, diyarın adət-ənənəsinə uyğun nağıl və yaxud dastan başlayır. Məhz buna görə də Aşıq Ələsgər haqlı olaraq demişdir: «Aşığık sazı çiynində, sözü boğazındadır».

Lakin xanəndə tarın, kamançanın müşayiəti olmadan məclis qurub oxuya bilməz. Həm də xanəndə yalnız dəvət olunan yerlərə gedə bilər. Orta əsrlərdən başlayaraq xanəndələrin çıxış etdiyi yerlər yalnız şəhərlər və şəhər əyanlarının, tacir və sənətkarların qurduqları cah-cəlallı ziyafət məclisləri idi. Xanəndələri kənd məclisləri maraqlandırmırdı. Lakin bu bir həqiqətdir ki, artıq XIX əsrin axırlarında kənd toylarına da xanəndə dəstələri dəvət edirdilər. Qeyd etdiyimiz kimi bəzən böyük toylarda, həm xanəndə, həm də aşıq dəstələri çıxış edirdilər. Lakin Üzeyir bəy Hacıbəyovun qeyd etdiyi kimi xanəndələrin kənd toylarına dəvət olunması tədricən aşıq dəstələrini sıxışdırırdı.

Əlbəttə, burada başlıca məqsəd aşıq sənətini, onun keçdiyi tarixi inkişaf yollarını və aşıq yaradıcılığı ilə xanəndəlik sənəti arasındakı fərqləri şərh etmək deyil, bu kütləvi sənətlərin - aşıq və xanəndəlik sənətinin bir-birinə olan qarşılıqlı münasibətindən bəhs etməkdir.

Ancaq maraqlı burasıdır ki, aşıq və xanəndəlik sənəti tarix boyu bir-birilə çox yaxın əlaqədə inkişaf etmişdir. Hələ qədim dövrlərdən aşıqlar xalqın tükənməz ədəbi yaradıcılığını dərindən öyrənmiş, ondan bəhrələnmişlər. Xanəndələr də öz növbəsində aşıq havalarındakı oynaqlığı öz oxumalarına uyğunlaşdırmış və muğamatı zənginləşdirmişlər. Eyni zamanda vaxtilə Gəncə, Qarabağ və Şirvan aşıqları məşhur xanəndələrin (Qaryağdı oğlu Cabbar, Mirzə Məhəmmədhəsən) zəngulələrini aşıq sənətinə gətirmişlər. Bir çox aşıqlar isə xanəndə guşələri və xalları hesabına yeni boyalar tapmaqla aşıq sənətini bəzəmişlər. Bülbülün qeyd etdiyi kimi, bu iki sənət həmişə canlı, həmişə təzə, həmişə maraqlı, xoşagələn yaradısı qüvvəmizdir. Aşıqlar, xanəndələr tarix boyu məclislərimizin yaraşığı və bəzəyi olmuşlar. Xalq onları həmişə əziz tutmuş və məclislərinin başında əyləşdirmişdir. Təsadüfi deyildir ki, el arasında deyərlər: «Aşıq el anasıdır», «Bu aşıq haqq aşığıdır» və yaxud «Xanəndə məclisin bəzəyidir», «Yaxşı xanəndəyə can qurban».

Azərbaycan aşıq sənəti tarixində Tufarqanlı Abbas, Qurbani, Xəstə Qasım, Aşıq Valeh, Pəri, Ələsgər, Nəcəfqulu və Abbasqulu kimi ustad aşıqların adları böyük hörmətlə çəkilir. Bu görkəmli sənətkarlar yeri gəldikcə muğam musiqisindən məharətlə istifadə etmişlər. Klassik xanəndələrdən Hacı Hüsü, Məşədi İsi, Mirzə-Məhəmməd Həsən, Cabbar Qaryağdı oğlu, Segah İslam, Seyid Şuşinski, xüsusilə Bülbül muğamatı genişləndirmək üçün aşıq formalarını və xalq mahnılarını muğamata daxil etmişlər. Məsələn, «Arazbarı», «Mani», «Şikəstə», «Bayatı», «Kərəmi», «Şərili»,. «Kürd-ovşarı», «Kəsmə şikəstə», «Şirvan şikəstəsi»

və buna bənzər aşıq musiqisi nümunələrini əsas tutmuş və bunları zildə oxumaqla bu formaları muğamata üzvi surətdə aşılayaraq onu daha da zənginləşdirmişlər.

Eyni zamanda görkəmli aşıqlar aşıq yaradıcılığını inkişaf etdirmək üçün «Sarəng», «Şikəsteyi-fars», «Qatar-bayatı», «Bayatı-Qasar», «Əşiran», «Kürdi-şahnaz», «Bayatı-Əcəm» kimi muğam nümunələrindən istifadə etmişlər. Aşıqlardan muğam musiqisinə daha yaxın olan və yaradıcılığında muğamata daha çox müraciət edən Aşıq Abbasqulu olmuşdur. Bu görkəmli sənətkar bir muğam ifaçısı kimi də ad-san çıxarmışdı. O da klassik xanəndələr ilə çiyin-çiyinə Azərbaycan vokal sənətinin inkişafına ciddi kömək etmişdir. Məhz buna görə də onun adı klassik xanəndəlik sənəti tarixində özünə layiq yer tutur.

Aşıq Abbasqulu təxminən 1850-ci ildə Qarabağın səfalı bir guşəsində — Gülablı kəndində anadan olmuşdur. Oba-oba, oymaq-oymaq gəzib babalarımızın nəsib duyğularını tərənnüm edən məşhur aşıqlardan Valeh, Qəmbər, Nəcəfqulu da bu kənddə doğulmuşlar.

Abbasqulu məşhur el sənətkarı aşıq Valehin nəvəsidir. O da Aşıq Ələsgər kimi heç bir məktəb və mədrəsədə oxumamışdır. Lakin çox gəzmiş, məclisərdə, el şənliklərində olmuş, aşıqların çalıb-çağırmasını eşitmiş, mahnılarını öyrənmişdir. O dövrdə Qarabağ məclislərində, xüsusilə kənd toy-düyünlərində Gülablı aşıqları iştirak edərdilər. Balaca Abbasqulu 11-13 yaşında olanda Gülablıda iki aşıq dəstəsi daha məşhur idi...

Abbasqulunun aşıqlığa olan meylini nəzərə alan atası onu məşhur neyçalan aşıq Nəcəfqulunun dəstəsinə qoşur. O, əvvəlcə Nəcəfqulunun dəstəsində qoşanağara çalır, sonra bir müddət dəmkeşlik edir. Lakin Abbasqulunun arzusu saz çalmaq, el aşığı olmaq idi. Buna görə də o, tezliklə saz çalmağı, oxuyub-yazmağı öyrənir. Aşıq Həsənin dəstəsinə qoşulur.

İstedadlı gəncin son dərəcə nazik və zil səsi, xalq ədəbiyyatını dərindən bilməsi tezliklə ona şöhrət gətirir. O, Vaqif, Valeh, Zakir kimi sənətkarların müxəmməs, gəraylı və qoşmalarını məlahətlə oxuyarmış, toy, nişan mərasimlərində çeşmə başında və mənzərəli seyrangahlarda ilhama gələrək bədahətən şer söylər və qoşmalar qoşarmış.

Aşıq Abbasqulunun həyatında ilk unudulmaz hadisə ustad aşıq Ələsgərlə görüşü olmuşdur. Deyilənə görə bir gün Aşıq Ələsgər öz dəstəsilə Gülablı kəndinə toy şənliyinə dəvət olunur. Bütün kənd böyük el sənətkarını qarşılamağa hazırlaşır... Abdal kəndi ilə Gülablı arasında 300-400 adam tutan böyük bir mağar qurulur. Aşıq Ələsgəri dinləmək üçün ətraf kəndlərdən yüzlərlə atlı-piyada Gülablıya axışır. Hətta məthur xanəndə Keştazlı Həşim, tuğlu aşıq Aleksan da öz dəstəsilə Ələsgərə qulaq asmaq üçün toya bir neçə gün qalmış Gülablıya gəlirlər. Aşıq Ələsgərin Ağdama gəlməsi xəbəri kəndə çatdıqda Abdal və Gülablı kəndinin yüzlərlə cavan igidləri köhlən atlarını Qarqar çayına tərəf səyirdərək böyük el aşığını qarşılayırlar...

Aşıq Ələsgəri qarşılayan aşıqlar arasında 20 yaşlı Abbasqulu da var idi. O, sevincdən hədsiz dərəcədə həyəcan keçirirdi, çünki ustadı görmək, onu eşitmək gənc aşığın çoxdankı arzusu idi. Abbasqulu aşıqlığa başladığı gündən Ələsgər haqqında çox eşitmişdi. Hətta onun Şuşa, Gəncə toylarında məşhur xanəndələri susdurduğunu, «qabağından yeməyən» aşıqları öz sazı-sözü ilə məğlub etdiyini bilirdi. İndi o özünü dünyada ən xoşbəxt adam hesab edirdi, gecə-gündüz həsrətini çəkdiyi böyük aşığı dinləyəcəkdi.

...Aylı-ulduzlu bir yaz gecəsində məclis qızışdı. Hamı Aşıq Ələsgərin çalıb-oxumasını səbirsizliklə gözləyirdi. Birdən mağarın ortasında ucaboylu, dolugövdəli, qarayanız, enliüzlü, xırda qaragözlü, qaraxətli, əynində şaldan çuxa, çitarxalıq, başında armudu buxara papaqlı aşığın əlində saz görünməsi məclisdəkilərin uzun zaman sakitləşməyən təqdir və alqışına səbəb oldu.

Aşıq Ələsgər insanı valeh edən insə səsi, hikmətli qoşmaları, bir sözlə, böyük sənətilə aşıqlar yurdu Gülablını məst etdi. Gülablı kəndinin 80-90 yaşlı qoca sakinləri və aşıqları söyləyirlər ki, Aşıq Ələsgər Gülablıda olarkən həmin toy axşamı Qarabağa həsr etdiyi «Qarqar» rədifli təcnisini oxumuşdur:

Var olsun Qarabağ, əcəb səfadı,
Başa Xaçın axar, ayağa - Qarqar.[95]
Göyçə qar əlindən zara gəlibdir,
Muğan həsrət çəkər: a yağa, qar, qar...

Ahən gəzir, səngə verir mərdana,
Mərd oğulun qəhrin çəkər mərd ana,
Mərd iyid meydanda durar mərdana,
Müxənnət yapışar ayağa, qar, qar.

Ələsgəri çəkməyinən ala[*] sən,
Geyinibsən, yar, qəddinə ala sən.
Lazımdı ki, qərib könlün alasan,
İncidirsən, sənə, ay ağa, ğar, qar.

Aşıq Ələsgər üç gün-üç gecə çalıb-çağırdıqdan sonra sazı yerə toydu... Gülablılar Ələsgəri təkrarolunmaz ustalıqla sazı sol əlilə tutub çalmasından, incə havadan, söylədiyi şirin dastanlardan riqqətə gəlib bilmirdilər nə etsinlər. Aşıq Ələsgərin Gülablı toyunda qurduğu büsatın sədası bütün Qarabağa yayıldığından toyun sonrakı günləri daha izdihamlı və qələbəliklə keçdi.

---

[95] Xaçın və Qarqar Qarabağda çay adlarıdır.
[*] Hiyləyə salmaq, aldatmaq.

Məclisin dördüncü günü Aşıq Ələsgər yerli aşıqları dinlədikdən sonra ertəsi gün axşamı qocaman aşıqlar və kəndin mötəbər ağsaqqalları Aşıq Ələsgərdən xahiş etdilər ki, aşıqlıq sənətinə təzəcə qədəm atmış Abbasqulunu dinləsin. Ondan razılıq alıb Abbasqulunu məclisə çağırdılar. Abbasqulu özünü itirmişdi. Bu isə təbii idi. Çünki böyük saz və söz ustasının qabağında çalıb-oxumaq hər aşığın işi deyildi. Keçmişdə sənətkarlar özündən böyük sənətkarın yanında utanar, hələm-hələm çalıb-oxumazdılar. Lakin Aşıq Ələsgərin Abbasqulunu məclisə şəxsən çağırması Abbasqulunu, necə deyərlər, qeyrətə gətirmişdi. Aşıq Ələsgərin:

- Oğlum, bizim üçün nə oxuya bilərsən? - sualının qarşısında özünü itirməyən Abbasqulu ehtiramla:

- Böyük ustad nə əmr etsə, hazıram – deməsi Aşıq Ələsgərin xoşuna gəldi. O, əlini gənc aşığın çiyninə qoyub dilləndi:

- Oğul, mən Aşıq Valehin vətənindəyəm. Ona görə də Valehin «Vücudnaməsini» oxusan mənə daha xoş gələr.

Gənc aşığın məlahətli səsi, aydın və səlis tələffüzü, gözəl saz çalması ustadı xoşhal edir. Abbasqulu öz qoşmalarından bir-ikisini də məharətlə oxuyur. Abbasquludan sonra məşhur Aşıq Nəcəfqulu meydana gəlir, onun yastı balabanda virtuoz çalğısı Aşıq Ələsgəri daha da məftun edir... Hər iki aşığı dinləyən ustad aşıq üzünü məclis əhlinə tutub deyir:

- Gülablı camaatı! siz xoşbəxtsiniz. Ona görə ki, mərhum Valehin yurdu boş qalmayıb. Bu gün doğrudan da Abbasqulunun gözəl oxuması, Nəcəfqulunun əvəzsiz çalğısı məni məftun etdi. Bunların qədrinin bilin.

Abbasqulunun məclisdə ilhamla oxuması və ustad Ələsgərin ana yüksək qiymət verməsi xəbəri bütün Qarabağa yayılır. Hər yerdə söhbət Abbasquludan gedir...

Get-gedə bir aşıq kimi Abbasqulunun şöhrəti hər yana yayılır. O, bir müddət böyük tarzən Sadıqcanın ansamblında çalışır. Sadıqcan Abbasqulunun musiqi qabiliyyətini nəzərə alıb ona Şərq muğamlarının sirlərini öyrədir və özü ilə dəvət olunduğu məclislərə aparır.

Aşıq Ələsgərlə görüşəndən sonra Abbasqulunun Sadıqcan ilə tanışlıqı və sənət dostluğu onun bir sənətkar kimi püxtələşməsində mühüm rol oynayır. XIX əsrin ikinci yarısında Sadıqcanın ansamblı bütün Qafqazda məşhur idi. Abbasqulu ansamblın tərkibində Zaqafqaziyanın iri şəhərlərini gəzir, hətta Sadıqcanın Tiflis şəhərində dəfələrlə verdiyi konsert və müsamirələrdə yaxından iştirak edir, geniş tamaşaçı kütləsinin sonsuz məhəbbətini qazanır. Sadıqcanın vasitəsilə Abbasqulu o dövrün Hacı Hüsü, Məşədi İsi, Bülbülcan, Cabbar Qaryağdı oğlu, Dəli İsmayıl bəy, Şahsənəm oğlu Yusif kimi böyük sənətkarları ilə tanış olur. Hətta Sadıqcan ilə birlikdə dəfələrlə Xanqızı Xurşidbanu Bəyim Natəvanın sarayında qurulan məclislərdə çalıb-oxuyur. Xanqızı Aşıq Abbasqulunu «Məclisi-üns» ədəbi məclisinin yığıncağında iştirak etməyə dəvət edir.

Məşhur el aşığı Xaspolad bu sətirlərin müəllifinə ustadı Aşıq Abbasqulunun Xanqızı Natəvanın sarayındakı ilk çıxışı haqqında maraqlı xatirələr söyləmişdir. O deyirdi:

«Ustadım Aşıq Abbasqulu bizə söyləyirdi ki, məni ilk dəfə Xanqızının məclisinə aparan Sadıqcan olmuşdur. Məclis Xanqızının güllü-çiçəkli bağında, «Paxlava hovuzun» ətrafına toplaşmışdı. Burada Şuşanın adlı-sanlı şair və musiqiçiləri iştirak edirdilər. Mənə çalıb-oxumaq təklif edildi. Mən aşıq Valehin «Dünya əhvalatı» müxəmməsini oxuyanda məclisin başında əyləşən gözəl bir qadın mənə dedi:

- Abbasqulu, şeri düz demirsən, - deyə şeri tamam əzbər deyib, bu cür oxumağı məsləhət gördü. Məclisdən sonra həmin gözəl qadın məni yanına çağırtdırıb dedi:

- Abbasqulu sənin həm çalmağın, həm də oxuyub oynamağın mənim çox xoşuma gəldi. Amma şerləri düzgün oxuyub tələffüz edə bilmirsən. Buna görə də bizim məclisin yığıncaqlarında iştirak elə Şer qəzəl oxumağın üsullarını öyrən. Yaxşı sənətkar, hər şeydən əvvəl, şeri, ədəbiyyatı kamil bilməlidir. Xanqızının bu ağıllı sözləri mənə çox təsir etdi. Mən gecə-gündüz Vaqifin, Nəbatinin Zakirin, Ələsgərin şerlərini əl-əl axtarır tapır, onları əzbərləyib Xanqızının məclislərində oxuyardım. Axır vaxtlar mənim şerləri düzgün oxumağım Xanqızının xoşuna gəldiyindən özünün bir neçə qəzəlini mənə vermişdi. Mən də bu qəzəlləri Şuşa məclislərində muğam üstə oxuyardım».[96]

Göründüyü kimi, Şuşanın musiqi həyatı, digər tərəfdən isə Xanqızının ədəbi məclisi və burada görkəmli sənətkarlarla durub-oturması Abbasqulunun, sözün tam mənasında, kamil bir aşıq kimi formalaşmasında həlledici rol oynamışdı.

Abbasqulunun Sadıqcanın ansamblında iştirakı onu bir muğam ifaçısı kimi də tanıtmışdı.

Aşıq Abbasqulu çox gözəl zəngulə vurar, yerli-yerində muğam xalları işlədərdi. Çünki Abbasqulu Cabbar Qaryağdı oğlu, Şəkili Ələsgər və Xan Şuşinski kimi gözəl səsli xanəndələrlə uzun illər birlikdə toy məclislərində, «Şərq konsertləri»ndə və teatr tamaşalarında yaxından iştirak etdiyindən xanəndəliyin guşə və xallarına dərindən bələd olmuşdu. Odur ki, «Baş müxəmməs», «Keşiş-oğlu», «Misri», «Qəhrəmanı», «İrəvan çuxuru», «Koroğlu» havalarında oxuyarkən gözəl, ardıcıl zəngulələr, melodik bəzəklər vurmağı hamını heyran edərdi. Abbasqulu geniş fantaziyası olan yaradıcı sənətkar olduğundan xanəndə zəngulələrini sadəcə olaraq təkrar etmirdi. O, həmin zəngulələri aşıq sənəti ilə üzvi surətdə əlaqələndirib onları aşıq səsinə, aşıq formasına qovuşdurub zənginləşdirirdi.

Məlumdur ki, xanəndəlik sənətində zəngulə vurmaq ümdə şərtlərdən biridir. Elə muğam yoxdur ki, orada zəngulə olmasın. Lakin zəngulələr standart olmur,

[96] Aşıq Xaspoladın xatirələri (xatirə müəllifin arxivində saxlanılır). -Red.

onlar hər muğamın xarakterik xüsusiyyətinə uyğun olaraq vurulur. Əgər xanəndə «segah» muğamında həzin zəngulə vurursa, «heyratı»da coşğun, «Mənsuriyyə»də sürəkli, «Orta mahur»da (xüsusilə «Vilayəti» şöbəsində) bir neçə forma və mərtəbədə şaqraq zəngulələr vurur.

Burasını da deməliyəm ki, xanəndələr zənguləni muğamın ortasında, çox vaxt isə axırlarında işlədirlər. Aşıqlar isə müəyyən havanı başlayarkən və ya qurtararkən həzin zəngulələr vurmaqla oxuduqları havanı bəzəyib onu daha da zənginləşdirərək dinləyiciyə çatdırırlar. Aşıq Abbasqulu da klassik aşıqlar kimi xanəndə havalarında işlədilən zəngulələri aşıq səsinə, aşıq priyomlarına gətirərək, onu yeni çalarlarla təkmilləşdirirdi.

İllər ötdükcə Abbasqulunun ifaçılıq məharəti də artırdı. O, Sadıqcanın tar çalmağından ilhama gələrək tədricən tar çalmağı belə öyrənir, hətta bəzi məclislərdə muğam oxuyanda saz ilə yox, tarın müşayiəti ilə özü çalıb, özü oxuyardı. O da Aşıq Ələsgər nimi yeri gəldikdə «qoltuq sazı»nı sol əli ilə çalardı. Abbasqulu həm də oynamaqda mahir idi. Aşıq sənətinə dərindən bələd olan və aşıq havalarını gözəl oxuyan məşhur müğənni Seyid Şuşinski öz xatirələrində qeyd edir ki, «Aşıq Abbasqulunun işi ayrı idi. Bu adamın çalıb-oxumağına baxıb qulaq asanda, bundakı bacarıq, məharət adamı valeh edirdi. Xüsusilə, onun incə və sərrast bir ritmdə oynamağına söz ola bilməzdi. Onun iri boşqabın içərisində dayanıb «Mirzeyn» oynamağına tamaşa edən adam dünyada ayrı heç bir şeyə baxmaq istəməzdi. Rəqs etməkdə son dərəcə usta olan gürcü və ləzgilər Abbasqulunun oyununa, xüsusilə onun sırf milli ruhda oynadığı «Tərəkəmə» və «Qafqaz qaytağısı»na tamaşa edəndə dəli olardılar. Buna görə də Aşıq Abbasqulu Tiflisə gəlib konsertlər verəndə bilet üstündə qırğın düşərdi... Min təəssüf ki, mən Aşıq Ələsgəri görməmişəm. Amma çox aşıqları eşitmişəm. Bunların içərisində üç aşığın çalıb-oxumağı heç yadımdan çıxmaz. Bunlar: tuğlu aşıq Aleksan, Nəcəfqulu və Abbasquludur. Onu da deyim ki, Aleksan ilə Abbasqulu oxuyub-oynamaqda nə qədər usta olsalar da, amma Nəcəfqulunun çalğısından olmazdı. Xüsusilə onun ney alətində çaldığı havalar adamın ürəyini neştərləyərdi. Məşədi Zeynalın tarı, Abutalıbın qarmonu, Nəcəfqulunun neyi yadıma düşəndə ürəyim titrəyir, tüklərim biz-biz olur. Mən bu böyük sənətkarları çox dinləyib, onlardan çox şey öyrənmişəm».[97]

1901-ci ilin yayında Şuşada yazıçı Əbdürrəhimbəy Haqverdiyevin təşkil etdiyi ilk «Şərq konserti»ndə sənət dostu Nəcəfqulu ilə birlikdə çıxış edən Abbasqulu böyük müvəffəqiyyət qazanmış, Bakıda verilən konsertlərdə də yaxından iştirak etmişdi.

1902-ci ilin yanvar ayında Bakıda təşkil edilmiş ilk «Şərq konserti»nə məşhur xanəndə və çalğıçılarla birlikdə Gülablı aşıqları da dəvət olunmuşdular. Konsertin ikinci şöbəsində çıxış edən Gülablı aşıqları böyük müvəffəqiyyət

---

[97] S.Şuşinskinin xatirələri (xatirə kitabının müəllifindəndir). – red.

qazandılar. «Kaspi» qəzeti 1902-ci il 13 yanvar tarixli nömrəsində yazırdı: «Konsertin ikinci şöbəsində Şuşa qəzasının Gülablı kəndindən dəvət olunmuş aşıqlar çıxış etdilər. Aşıqlar dəstəsinə bütün Qarabağda məşhur olan aşıq Nəcəfqulu rəhbərlik edirdi. Aşıqlar milli geyimdə səhnədə görünərkən zalı alqış sədaları bürüdü. Tamaşaçılar Nəcəfqulunun neydə insanı vəcdə gətirən həzin çalğısından məftun olmuşdular. Nəcəfqulunun çalğısını dinlədikcə adamın gözləri qarşısında sanki Qarabağın füsünkar təbiəti, başıqarlı dağları, səfalı meşələri, coşğun çayları canlanırdı... Bir qədər sonra qəmli-kədərli ney havasına qoşulan Aşıq Abbasqulunun gözəl, təmiz və qüvvəli səsi dinləyiciləri daha da riqqətə gətirdi.

Konsertin sonunda tamaşaçılar bir daha aşıqları səhnəyə dəvət edib uzun zaman sakitləşməyən alqışlarla mükafatlandırdılar. Aşıqlara qiymətli hədiyyələr verildi».

Birinci konsertdən sonra Bakıda yanvarın 23-də yenə də «Şərq konserti» olmuşdu. Bu barədə qəzetlərdə Azərbaycan, rus və erməni dillərində elanlar verilmiş, şəhərin küçələrinə böyük afişalar vurulmuşdu. Konsertə gələn dinləyicilərə Azərbaycan və rus dillərində proqram təqdim olunmuşdu. Həmin konsertdə yenə də Gülablı aşıqları misilsiz ustalıq göstərmişdilər.

Aşıq Abbasqulunun təmiz və cingiltili səslə «Bayatı» oxuması, Nəcəfqulunun balabanda «Bayatı-Şiraz» muğamını zövqlə çalması yenə də dinləyiciləri heyran qoydu. Tamaşaçılar aşıqları səhnədən buraxmadılar. Bu dəfə də dinləyicilərin tələbi ilə Abbasqulu ilə Nəcəfqulu «Möhsün və Diləfrüz» dastanını başladılar. Dastanda iki gəncin sevgi macəraları və onların ayrı düşmələri, birinin Yəməndə (Ərəbistanda), digərinin Çində hicran əzabı çəkmələri dramatik bir şəkildə təsvir olunurdu. Aşıq Abbasqulu bu iki bədbəxt aşiqin ürək çırpıntılarını özünün gözəl şer söyləmək qabiliyyəti və incə səs məharəti ilə elə ustalıqla təsvir edirdi ki, dinləyicilər iki sevgilinin taleyinə gah sevinir, gah da kədərlənirdilər. Buna görə də aşığın hər kəlməsi «Çox yaşa», «Bərəkəllah», «Afərin» sədaları ilə qarşılanırdı».[98]

Konsertin sonunda Cabbar Qaryağdı oğlu, Şəkili Ələsgər, Keçəçi oğlu Məhəmməd, Zabul Qasım və Aşıq Abbasqulu birlikdə orkestrin müşayiətilə «Qarabağ şikəstəsi» oxudular. Bu dəfə tamaşaçıların «intizamsızlığının» həddi-hüdudu yox idi. Onlar xanəndələri dəfələrlə səhnəyə dəvət edib «Bayatı» çağırmağa, «Şikəstə» deməyə təhrik edərək hər sözün axırında «Ay can, ay can», «Yaşa», «Oxu bir də», «Sənə nənəm qurban» deyə qışqırır, onları səhnədən buraxmaq istəmirdilər.

---

[98] Bax: "Kaspi" qəzeti, 25 yanvar 1902-ci il; 29 yanvar 1903-cü il.




Bakıda 2-ci "Şərq konserti"nin afişası.

Konsertin axırında tamaşaçılar Şərq konsertlərinin təşkilatçısı, məşhur ədib və dramaturq Əbdürrəhimbəy Haqverdiyevi səhnəyə dəvət edib ona öz minnətdarlıqlarını bildirdilər. Sonra isə Aşıq Nəcəfquluya və Aşıq Abbasquluya qiymətli yun parça, Haqverdiyevə isə gümüş stəkan-nəlbəki dəsti hədiyyə verdilər.

Bakı, Şuşa və Tiflis şəhərlərində səhnəyə qoyulan teatr tamaşalarının fasilələrində də Aşıq Abbasqulu çıxış etmişdir. 1903-cü ilin fevralında Tağıyev teatrında Nəcəfbəy Vəzirovun «Yağışdan çıxdıq, yağmura düşdük» komediyası tamaşaya qoyuldu. Tamaşanın fasilələrində Aşıq Nəcəfqulu ilə Aşıq Abbasqulu çıxış edirdi. A. A. imzalı bir nəfər tamaşa haqqında «Kaspi» qəzetində yazmışdı: «Əyər biz, öz qəşəng çalıb-oxumaqları ilə tamaşanı daha da şənləndirən Aşıq Nəcəfqulu ilə Aşıq Abbasqulunun adını çəkməsək həqarət etmiş olarıq. Bunların son dərəcə gözəl çıxışlarından bütün teatr vəcdə gəlmişdi».[99]

XX əsrin əvvəllərində Bakıda «Nicat» cəmiyyəti «Şərq gecələri» keçirirdi. Abbasqulu da dəfələrlə Cəmiyyət tərəfindən bu musiqili-ədəbi gecələrə dəvət olunmuşdu. Abbasqulunun dolğun yaradıcılığına yaxşı bələd olan və həmişə onun misilsiz çalıb-oxumağının həsrətində olan Bakı tamaşaçıları onun çıxışlarına sonsuz maraq göstərirdilər. Şərq gecələrinin afişa və proqramlarında təkcə Abbasqulunun adının yazılması teatr kassaları qabağında böyük izdihama səbəb olardı. Onun konsertlərinə bilet tapmaq müşkül idi. O zamanlar Abbasqulu Bakıya dəvət olunarkən özü ilə eloğlusu, məşhur məzhəkəçi və hazırcavab Abdal Qasımı da gətirərdi. Məsələn, 1914-cü ilin mart ayının 6-da Bakıda keçirilən «Şərq gecəsi»ndə Məşədi Zeynal, Şəkili Ələsgər, Hüseyn Ərəblinski, Hacıağa Abbasov, Hüseynqulu Sarabski və Abbasqulu kimi məşhur sənətkarlar ilə birlikdə çıxış edən Abdal Qasım özünün son dərəcə yumorlu, duzlu kupletləri və gülməli lətifələri ilə dinləyiciləri güldürməkdən bihuş etmişdi.

Aşıq Abbasqulu həm saz, həm də söz ustası idi. O, çoxlu nağıl və dastan bilirdi. O, heç bir vaxt məclisdə, səhnədə dinləyicilərin başını qatmazdı... Əksinə, son dərəcə məharətlə oxuduğu ustadnamə, qıfılbənd, deyişmə, qoşma, təcnis, müxəmməs, gəraylı, bayatı, dübeyti və buna bənzər bir çox aşıq havaları ilə dinləyicilərə böyük zövq verməklə bərabər öz hikmətli sözləri ilə onların dünyagörüşlərini genişləndirməyə çalışardı. Buna görə də dinləyicilər onu hərarətlə alqışlayardılar.

Abbasqulu fədakar bir mədəniyyət xadimi idi. O, mənalı ömrünün 50 ilini Azərbaycan milli mədəniyyətinin inkişafına həsr etmişdi. N. B. Vəzirov, Ə. Haqverdiyev, H. Ərəblinski, Ü. Hacıbəyov, S. Qaryağdı oğlu, Sadıqcan, B. Bədəlbəyov və b. xadimlər Aşıq Abbasqulunun yaxın dostu və məsləkdaşları idilər.

Böyük demokrat yazıçı Cəlil Məmmədquluzadə Aşıq Abbasqulunun yaxın dostu və pərəstişkarı idi. Məlumdur ki, Mirzə Cəlil Həmidə xanım Cavanşirlə

---

[99] Bax: «Kaspi» qəzeti, 1903-cü il, № 36.

evləndikdən (1906) sonra ömrünün axırına (1932) kimi hər il Qarabağa gələr, aylarla Kəhrizli kəndində və Şuşada dincələrdi. Mirzə Cəlil musiqi həvəskarı olduğundan (o özü də yaxşı tütək, ney və kamança çalırdı), Nəcəfqulunun çalğısına, Abbasqulunun oxumağına məftun idi. Mirzə Cəlilin istər Qarabağda, istər Tiflisdə, hətta sonralar Bakıda elə bir ailə şənliyi olmamışdı ki, Gülablı aşıqları, xüsusilə Aşıq Abbasqulu orada iştirak etməmiş olsun. Mirzə Cəlil ilə Gülablı aşıqlarının dostluğundan bəhs edən Həmidə xanım Cavanşir öz xatirələrində yazır:

«Mirzə Cəlil Şərq musiqisini və aşıqları çox sevərdi. Gülablı aşıqları Nəcəfqulu və Abbasqulu ilə dostluq edərdi. Həmin aşıqlar qızımın* ərə getməsi xəbərini eşitmiş, dəvət olunmadan özləri Tiflisə - bizə gəlmişdilər. Lakin mən və Mirzə Cəlil evlənmək münasibətilə keçirilən hər cür təntənənin ziddinə idik, ona görə heç nə təşkil etmək fikrində deyildik. O günlər müsəlmanlar mərhum Mirzə Fətəli Axundovun yubileyini keçirməyə hazırlaşırdılar. Bu işdə Mirzə Cəlil fəal iştirak edirdi. Yubiley müsamirəsi Dvortsov küçəsində Banovski teatrında keçirildi. Mirzə Cəlilin təklifi ilə aşıqlar müsamirədə oxuyub böyük müvəffəqiyyət qazandılar və bolluca pul aldılar. Aşıqlar yalnız bircə axşam evdə bizim ailəmiz üçün oxudular və ertəsi gün çıxıb getdilər».[100]

1914-cü ildə bütün Qafqazda bir xalq aşığı kimi ad-san çıxarmış Aşıq Abbasqulu Almaniyanın «sport-Rekord» şirkəti tərəfindən bir çox xanəndə və musiqiçilərlə birlikdə Tiflis şəhərinə dəvət olunaraq səsini qrammafon valına yazdırmışdır. Tiflisdə Aşıq Abbasqulu öz dəstəsilə (Həşim, Heydər, Əbdüləzim) birlikdə qrammafon valları üçün bir çox qədim-aşıq mahnıları oxumuşdur. Bunlardan: «İkisi bir boyda», «Sürmən», «Neylərsən», «Dünya əhvalatı», «Vücudnamə», «Şərili», «Üç telli durna», «Şikəstə», «Tello» və s. göstərmək olar.

Qarabağda sovet hakimiyyəti qurulduqdan sonra sənət dostları kimi Aşıq Abbasqulu da xalqın mədəni quruculuq işlərində yaxından iştirak etmişdir. O öz dəstəsilə tez-tez kənd klublarında, mədəniyyət evlərində, konsert salonlarında, qızıl əskər hissələrində gediş proqramla çıxış edərdi. Yaşının çox olmasına baxmayaraq xalq aşığı 30-cu illərin əvvəllərində Ağdam, Şuşa şəhərlərində verilən Şərq konsertlərində Seyid Şuşinski, Əhməd Ağdamski, Zülfü Adıgözəlov, Mehralı oğlu Bahadır, Mütəllim Mütəllimov, Kamrabəyim, Fərzalı kimi məşhur xanəndələr, Quzanlı Bəhram, Allahyar Cavanşirov, Məşədi Əli, İmran Ağa, qarmonçu Abutalıb kimi görkəmli çalğıçılar ilə çıxış edərdi. Onun konsertlərdə Xan Şuşinski ilə birlikdə «Qarabağ şikəstəsi»ni cavanlıq ehtirası ilə oxuması dinləyiciləri vəcdə gətirərdi. O dövrdə Qarabağ xanəndələri Aşıq Abbasqulunun oxuduğu muğam və mahnılardan çox istifadə etmişlər. Onun zəngin repertuar fondu, dilinin sadəliyi və şirinliyi gənc xanəndələr üçün tükənməz xəzinə idi.

---

* Burada söhbət Həmidə xanımın birinci ərindən olan qızı Mina xanımdan gedir – müəllif.

[100] Bax: Həmidə xanım. Mirzə Cəlil haqqında xatirələrim. Bakı, 1967, səh, 80.

Aşıq Abbasqulu 1931-ci ilin yazında konsert vermək üçün Bakıya dəvət olundu. Bakının musiqi həvəskarları Aşıq Abbasqulunun 30 il bundan əvvəl sənət dostu Aşıq Nəcəfqulu ilə birlikdə ilk «Şərq konsertləri»ndəki çıxışlarını unutmamışdılar. Ona görə də bakılılar onun konsertlərinə sonsuz maraq göstərirdilər. Konsert günü Dram Teatrının kassasında bir dənə bilet qalmamışdı.. Konsertə bilet tapmayan yüzlərlə tamaşaçıların tələb və narazılığını nəzərə alan Konsert Birliyinin müdiriyyəti vəziyyətdən çıxmaq üçün aşıqların ikinci konsertinin «Müdafiə Evi»ndə (İndiki Dövlət Filarmopiyasının binasında) olacağını elan etməyə məcbur oldu. Aşıq Abbasqulunun konsertləri təkcə onun pərəstişkarlarının deyil, Bakının məşhur musiqi xadimlərinin də diqqətini cəlb etmişdi. Onun incə səsinə, mahir çalğısına qulaq asmaq, son dərəcə çevik və ritmik rəqsinə tamaşa etmək üçün konsertə Cabbar Qaryağdı oğlu, Üzeyirbəy Hacıbəyov, doktor Avanes İonesyan, Müslüm Maqomayev, Keçəçi oğlu Məhəmməd, Zülfüqarbəy Hacıbəyov, Qurban Pirimov, Seyid Şuşinski, Zülfü Adıgözəlov, Yavər Kələntərli, Mirzə Cəlil (Molla Nəsrəddin), Hüseyn Cavid, Əbdürrəhimbəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli və başqaları da gəlmişdilər.

Konsertin ikinci şöbəsinin axırında Aşıq Abbasqulu öz dəstəsilə (nağaraçı Yelmar, balabançı Çərkəz) qədim aşıq havası olan «Ruhani»ni çalıb-oxuduqdan sonra yenidən əlində tar, səhnədə göründü... Ağsaçlı qoc sənətkar tarda özünü müşayiət edib «Leyla» xalq mahnısını oxudu. Salonu alqış sədaları bürüdü. Bu zaman qəflətən səhnədə ağsaçlı, ucaboylu, vüqarlı bir qoca göründü. Bu adam klassik xanəndələri, eləcə də Aşıq Abbasqulunu ilk dəfə səhnəyə çıxardan, «Şərq konsertləri»nin və musiqili səhnəciklərin ilk təşkilatçısı, sevimli ədib və dramaturq Əbdürrəhimbəy Haqverdiyev idi. İki qoca sənətkar və köhnə dostlar səhnədə bir-birini qucaqlayanda bütün salondakılar ayağa qalxıb milli mədəniyyətimizin iki nadir sənətkarını hərarətlə alqışladılar. Camaat sakitləşəndən sonra Əbdürrəhimbəy Abbasquluya müraciətlə dilləndi:

- Abbasqulu, yadındadırmı düz 30 il bundan əvvəl həmin bu səhnədən Qaryağdı oğlu Cabbar, Şəkili Ələsgər və Keçəçi oğlu Məhəmmədlə birlikdə «Qarabağ şikəstəsi»ni oxudunuz. Hərçənd yaxşı deyiblər:

Keçən günü salma yada,
Keçən keçdi, olan oldu.

amma əlacımız yoxdur. Mən bir anlığa 30 il bundan əvvəllərə qayıtmaq, özümü ilk «Şərq konserti»nin iştirakçıları arasında bir daha yenidən görmək istərdim... – Sonra Əbdürrəhimbəy üzünü salona çevirib, orada bir tamaşaçı kimi əyləşən Cabbar Qaryağdı oğluna müraciət etdi:

- Böyük ustad, acizanə surətdə rica edirəm, səhnəyə qalxmağı müzayiqə etməyəsiniz.

Sonra Əbdürrəhimbəy Keçəçi oğlu Məhəmmədi də səhnəyə dəvət etdi.

Əbdürrəhimbəyin tədbiri hamının ürəyindən oldu. Aşıq Abbasqulu köhnə sənət dostları ilə birlikdə «Qarabağ şikəstəsi»ni oxudular... Qocaman sənətkarların qüdrətli səsi, çoşqun zəngulələri dinləyiciləri heyrət içərisində qoydu. Onların hər sözü, nəfəsi, guşəsi, dinləyicilər tərəfindən «Afərin», «Halal olsun», «Yaşa, min yaşa» kimi sözlərlə qarşılanırdı. Konsertin axırında səhnəyə çıxan Azərbaycan Dövlət Dram Teatrının direktoru Hacağa Abbasov Aşıq Abbasqulunu və onun dəstəsini, eyni zamanda Qaryağdı oğlu Cabbarı və Keçəçi oğlu Məhəmmədi tamaşaçılar adından təbrik edib onlara öz minnətdarlığını bildirib salona müraciətlə dedi:

- Camaat! Görürəm aşıqlardan doymursunuz. Heç də darıxmayın. Aşıq Abbasqulu 15 gün bizim qonağımızdır. Yenidən salonu alqış və minnətdarlıq sədaları bürüdü... Aşıq Abbasğulu aşıq və xanəndə ifası formasında bəstələnmiş xalq melodiyalarının ən yaxşı ifaçısı idi. O, oxuduğu el havalarında insanları doğrucul, nəcib, mərd, cəsarətli, dostluqda möhkəm, həm də vətənpərvər olmağa çağırırdı. Bir el aşığı, xalq müğənnisi kimi onun xidmətləri unudulmazdır. O, Azərbaycan xalq sənətinin sərçeşməsi idi. Böyük sənətkarın həzin, incə səsi, danışan sazı, vətənə məhəbbət dolu sözü ilə klassik aşıqların şer xəzinəsini göz bəbəyi kimi qoruyub bizə çatdırmışdı. Eyni zamanda Abbasqulu öz gözəl ifaçılıq məharəti ilə xanəndəlik sənətinin inkişafına da müəyyən faydalı xidmətlər göstərmişdir. Səksən yaşlı qocaman el aşığının ürəyi 1932-ci ildə döyünməkdən qaldı. Onu doğma Gülablı kəndində dəfn etdilər.



Tarzən Lazar Ter-Vartanesovun ansamblı (Bakı, 1905-ci il).

# Lazar Ter-Vartanesov



BİR gün Məşədi Məlik Mənsurova xəbər verirlər ki, Şuşa qalasından Bakıya bir tarzən gəlib, çalğısına qulaq asanda elə bilərsən Sadıqdır. Bunu eşidən Məşədi Məlik həmin tarzəni evinə dəvət etmək üçün oğlu Süleymanı «Təbriz» mehmanxanasına göndərdi.

Axşam şəhərin musiqi həvəskarları Məşədi Məlikin musiqi salonuna toplaşmışdılar. Şuşadan gələn tarzən «Mahur-hindi» muğamını böyük əzəmət və ustalıqla çalırdı. Hamı heyranlıqla qulaq asırdı. Tarzən muğamın çətin şöbəsi olan «Ərağ»a keçəndə Məşədi Məlik qəfildən səsləndi:

- Bu barmaqlar Sadığındır, afərin! İndi bildim ki, qarabağlısan.

Məclis sahibinin tərifedici sözlərindən ruhlanan tarzən tarı boynunun ardına qoyub Sadıqcanın çalğısını təqlid etməyə başladı. O, muğamı bitirib məclisdə əyləşənlərə hörmətlə baş əydi. Təqdir, alqış sədası salonu bürüdü. Sonra məclisdə dinləyici kimi oturan tarzən Mirzə Fərəc dedi:

- Çalmağına söz ola bilməz. Amma Sadığı təqlid edirsən.

- Mən böyük ustad Sadıqcanı təqlid edə bilirəmsə, bununla ancaq fəxr etməliyəm.

Məşədi Məlik öz qonağını müdafiə məqsədi ilə dedi:

- Oğlum! Mirzə Fərəcin ikibaşlı danışmağı könlünə toxunmasın. Sadığı təqlid etməyi bacarmaq özü də böyük xoşbəxtlik və ustalıqdır. Yeri düşəndə Mirzə Fərəcin özü də Sadığı yamsılamağa çalışır. Sən işində ol. Bizim məclisi unutma. Qapılarımız həmişə üzünə açıqdır.

Həmin tarzən çalğı musiqimizin tarixində görkəmli xidmətləri olan Lazar Ter-Vartanesov idi.

Lazar Ter-Vartanesov Şuşada anadan olmuş, ilk musiqi təhsilini də orada almışdır. O, tar çalmağa başlayanda Şuşanın məclislərində Sadıqcan, Artemi, Cavadbəy Əlibəy oğlu, Knyaz oğlu Karapet və Nəsir bəy kimi görkəmli tarzənlər öz gözəl çalğıları ilə məşhur idilər.

Şuşa realni məktəbində oxuyan Lazar hələ gənc ikən dəfələrlə şəhər məclislərində sənətkar xanəndələrin və çalğıçıların ürək-açan gözəl çıxışlarının şahidi olmuşdu. Bu dövrlərdə tarın-sehrkar səsi onun qəlbində xoş arzular oyatmışdı. Lazar Sadığın və Artemin çalğısına vurğun idi. O da tarzən olmaq istəyirdi. Lazar ilk dəfə məktəbdə «tələbə səhərcikləri»ndə və valideynlərin şərəfinə verilən konsertlərdə çıxış edirdi. O, tədricən xeyriyyə gecələrində, «Xandəmirovun teatrı»nda Şuşanın məşhur xanəndələrini öz tarı ilə müşayiət etmişdi. O, Şuşada Sadıqcandan sonra ikinci tarzən hesab edilirdi. Texniki

ustalıqda, sanballı mizrablar vurmaqda, zərif və iti barmaqlar işlətməkdə tarzənlər Lazara həsəd aparmışlar. Lazar bir çox illər Məşədi İsi, Dəli İsmayıl, Məmmədqulu Şuşinski, Seyid Mirbabayev və başqa xanəndələr ilə Şuşa, Tiflis və Bakı məclislərində çıxış etmişdir.

Lazar hərtərəfli biliyə, yüksək ifaçılıq mədəniyyətinə malik sənətkar idi. O, notu da öyrənmişdi.

1905-ci ildə Lazar çalğıçılar ansamblı təşkil edib oraya xanəndələr, tarzən və rəqqasələr cəlb etmişdi. Lazarın ansamblı Bakının konsert salonlarında müvəffəqiyyətlə çıxış edib dinləyicilər tərəfindən rəğbətlə qarşılanmışdı. Bütün bunlara baxmayaraq görkəmli sənətkar öz gözəl sənətini axıradək davam etdirə bilməmişdi. O, 1910-cu ildə Kiyev şəhərinə köçməyə məcbur olmuşdu.[101]

Lazar ömrünün son illərini orada keçirmiş və 1917-ci ildə Kiyevdə vəfat etmişdir.

Sadıqcan məktəbinin davamçısı olan Lazarın Azərbaycan musiqisinin təbliğində xidməti az olmamışdır. Lazar ustad sənətkar idi. O, bütün muğamları böyük bacarıqla çalmışdı. Lazarın «Mahur-hindi» muğamını özünəməxsus xallar və barmaqlarla qənirsiz çalması müasirlərini heyrətdə qoymuşdu. Böyük müğənnimiz Seyid Şuşinski Lazarın «Mahur-Hindi» çalmağını öz xatirələrində belə yad edir:

«1914-cü ildə «Ekstrafon» firması məni Kiyev şəhərinə ikinci dəfə dəvət edərkən tarzən Bala Məlikov və kamançaçı Ruben Qaraxanov ilə Lazarın görüşünə getmişdik. Qocaman sənətkar bizi mehribanlıqla qəbul etdi. Mən «Çahargah» oxuyandan sonra Qafqazda «Mahur-Hindi» çalmaqda məşhur olan Bala «Mahur-Hindi» çaldı. Sonra mən Lazardan bir şey çalmağı xahiş etdim. O əvvəlcə çalmaq istəməyib dedi ki, beş ildir əlimə tar almamışam. Nəhayət, bizim xahişimiz qarşısında aciz qalan qoca sənətkar Balanın tarını əlinə aldı. Tar «Mahur-Hindi» kökündə olduğundan o da «Mahur-Hindi» çaldı. Mən Lazarın çalğısını qiymətləndirmək üçün söz tapıb deyə bilmirəm. Çünki belə bir tar çalmağı mən nə Qrikorda, nə Arsendə, nə də Mərdidə görməmişdim. Lazar çaldıqca Balanın halına acıyırdım. Lazar muğamı bitirib tarı Balaya verəndə gülüm-söyərək dedi:

- Fikir etmə, sən məndən də yaxşı çalan olacaqsan. Biz Lazarın evini tərk edərkən dostum Balaya dedim:

- Hə, qoçaq, halın necədir?

Bala heyrətlə başını bulayıb dilləndi:

---

[101] 1910-cu ildə Lazar Bakıda yaşayarkən daşnak partiyasının liderləri ondan partiya mənafeyinə külli miqdarda pul verməsini tələb etmişlər. Lazar bu alçaq təklifi rədd etdikdə daşnaklar onu ölümlə hədələmişlər. Quldurların hədə-qorxusuna məruz qalan sənətkar tarzənlikdən əl çəkib Kiyev şəhərinə köçmüş və orada çörəkçiliklə məşğul olmuşdur. - Müəllif.

- Yaxşı ki, Kiyevə gəlib. Yoxsa Qafqazda yaşasaydı, onda gərək biz özümüzə başqa sənət tapaydıq».[102]

Lazarın sənətkarlıq qabiliyyəti dövrünün bir çox musiqişünaslarını düşündürmüşdü. Türk musiqişünası Rauf Yektabəy erməni musiqiçiləri arasında Lazarın adını ustad bir tarzən kimi çəkmişdir:

«Qafqazda ən məşhur xanəndələr Azərbaycanlılardandır. Ermənilərin də ustad tarzənləri mövcuddur ki, bunlardan Lazarı, Qrikoru və Arseni göstərmək olar».[103]



Bakıda musiqi məclisi: (sağdan) tarzən Məşədi Süleyman, rəqqasə Keşiş qızı Maşo, tarzən Lazar, dəf vuran Arşak Xıdırov (1908-ci il).

[102] Seyid Şuşinskinin xatirələrindən (xatirə kitabın müəllifindədir)-Red.
[103] Bax: «Şəhbal» jurnalı. İstambul. 1912-ci il. № 59, səh. 211.

# Mirzə Məhəmmədhəsən



MƏŞHUR xanəndə şirvanlı Mirzə Məhəmmədhəsən İsmayıl oğlu 1851-ci ildə Şamaxı şəhərində yoxsul dabbaq ailəsində anadan olmuşdur. O, ilk təhsilini mədrəsədə almış, burada fars və ərəb dillərini öyrənmişdir. Dabbaq İsmayıl kişi öz oğlunu mədrəsədə oxutmaqla, onu molla etmək niyyətində idi. Lakin Dabbaq İsmayıl öz arzusuna çatmır. Çünki balaca Məhəmmədhəsənin qəlbində xanəndə olmaq arzusu baş qaldırmışdı. Onun gözəl səsi vardı.

Mirzə Məhəmmədhəsənin bir xanəndə kimi ortalığa çıxmasında məşhur Şirvan müğənnisi Kərbəlayı Əkbərin böyük rolu olmuşdur. Kərbəlayı Əkbər məşhur musiqişünas Mahmud ağanın sarayında yaşayır və xanəndəlik edirdi. Kərbəlayı Əkbər sarayın yaxınlığında yaşayan Məhəmmədhəsənin gözəl səsini eşidib istedadına valeh olur. O, Dabbaq İsmayıla məsləhət görür ki, oğlunun musiqi təhsili almasına icazə versin. Beləliklə Kərbəlayı Əkbər gənc Məhəmmədhəsənin müəllimi olmuş, ona muğam və təsnif havalarını öyrətmişdi.

Mirzə Məhəmmədhəsən gənc yaşlarında Şamaxıda qurulan dini-mərasimlərdə fəal çıxış edir, dini mahiyyətli təsniflər oxumaqda şəhər əhalisi arasında məşhur olur. Məhəmmədhəsənin gözəl səsindən və musiqi istedadından xəbər tutan Mahmud ağa gənc xanəndəni öz sarayına dəvət edir. Məhəmmədhəsən xanəndəlik sənətinin incəliklərinə burada bələd olur. Mahmud ağa Kərbəlayı Əkbərdən sonra Məhəmmədhəsənin həyatında böyük rol oynayır. Mahmud ağa varlı mülkədar olsa da, dindən, səhalətdən uzaq idi. Buna baxmayaraq, tamahkar mollalar və seyidlər maddi cəhətdən Mahmud ağadan asılı olduqlarına görə ona bir söz deməkdən çəkinir, xəlvətdə lənət oxumaqla təsəlli tapırdılar. Hətta deyilənə görə bir gün məhərrəmlik mərasimi zamanı Mahmud ağa Mirzə Məhəmmədhəsəni və tarzən Topal Məhəmmədqulunu «heyratı» oxuda-oxuda məcsidə, oradan isə öz evinə qayıtmağa məcbur etmişdi. Köhnə şamaxılılar söyləyirlər ki, o öz nökərlərinə azan vaxtı pəncərələri bağlamağı tapşırmışdı. Təsadüfən pəncərə açıq olsaydı, Mahmud ağa öz nökərlərinin üstünə qışqırıb deyərdi: «Örtün pəncərələri! Bu məlun bayquºun səsini eºitməyim!».

Mahmud ağanın sarayında Mğhəmmədhəsən musiqi elminə daha yaxından bələd olur. Mahmud ağanın müsabiqələrində yaxından iştirak edirdi. Mahmud ağanın məclislərində bir xanəndə kimi püxtələşən Mirzə Məhəmmədhəsən nəinki Şamaxı müğənniləri arasında birinci yer tutmuş, hətta Hacı Hüsü, Əbdülbaği Bülbülcan kimi böyük müğənnilərlə müsabiqəyə girmişdi.

Mirzə Məhəmmədhəsənin məlahətli səsi və ifaçılıq sənəti öz dövrünün bir çox görkəmli mədəniyyət xadimlərinin diqqətini cəlb etmişdi. Xanəndənin müasiri olan şair Seyid Əzim Şirvani də Mirzə Məhəmmədhəsənin səsinə və sənətkarlığına heyran olmuş və ona yüksək qiymət vermişdi. Bir gün bahar fəslində Seyid Əzim Şamaxı bağlarını gəzərkən gözəl bir səsin təğənni etdiyini eşidir. Şair ayaq saxlayıb dinləyir, oxuyanın Mirzə Məhəmmədhəsən olduğunu bilib bədahətən deyir:

Əqlimi əlimdən nə gülü yasəmən aldı.
Nə sünbülü reyhan, nə bağu çəmən aldı.
Davud* məgər zində olub dəhrdə, Seyyid,
Arami-dilim sövti-Məhəmmədhəsən aldı.

Böyük müğənni Cabbar Qaryağdı oğlu da Mirzə Məhəmmədhəsənin xanəndəlik məharətinə yüksək qiymət vermişdi. O, öz xatirələrində Mirzə Məhəmmədhəsən ilə görüşünü və onun oxumağından aldığı xoş təəssüratı belə ifadə edir:

«...Məhəmmədhəsəni 1888-ci ildə Bakıda olduğum vaxt şamaxılı Hacı Əli Abbas uşaqlarının toy məclisində görmüşdüm. O toya tarzən Topal Məhəmmədqulu ilə gəlmişdi. Mən də yoldaşım tarzən Sadıqla dörd gecə həmin toyda iştirak etdim. Onun çox bilikli və gözəl səsə malik olduğunu orada yəqin etdim. Məzkur Məhəmmədhəsən el xanəndəsi olmaqla bütün camaatın hüsn-rəğbətini qazanmışdı».[104]

Mirzə Məhəmmədhəsənin gözəl oxumaqlarını dinləyənlərdən biri də onun həmyerlisi, görkəmli maarif xadimi Camo Cəbrayılbəyli olmuşdur. Camo, Məhəmmədhəsənin oxumağından aldığı xoş təəssüratı belə xatırlayır:

«XIX əsrin axırları idi. 10-12 yaşında idim, yaxın qohumlarımdan birinin toyu idi. Toyu o zamanın məşhur xanəndəsi Mirzə Məhəmmədhəsən idarə edirdi. Mən onu ilk dəfə bu toyda gördüm.

Xalq musiqisinə, muğamata, xüsusən tar çalmağa böyük həvəsim var idi. Məşhur xanəndənin oxumasını və ondan az məşhur olmayan tarzən Mehdiqulunun çalmasını ürək döyüntüsü ilə gözləyirdim.

Yaxşı yadımdadır. Məclis əhli Mirzədən (yəqin ki, hörmət əlaməti olaraq xalq onu ancaq «Mirzə» deyə çağırırdı.) «Çahargah» oxumasını xahiş etdi. Mirzə «Çahargah» muğamını Seyid Əzim Şirvaninin:

---

* Davud — əfsanəvi yəhudi peyğəmbəridir. Klassik ədəbiyyatda «Ləhni-Davud» gözəl səsə malik müğənni rəmzi olaraq işlədilir. - Red.

[104] C. Qaryağdı oğlu. Keçmiş Azərbaycan musiqisi haqqında xatirələrim (əlyazması). Azərbaycan SSR Mədəniyyət Nazirliyi Memarlıq və İncəsənət İnstitutunun arxivi, qovluq № 75.

Güş qıl, ey ki, bilirsən özünü vaqifi-kar,
Agah ol, gör ki, nədir naleyi-ney, nəğmeyi-tar.

misraları ilə başlanan məşhur müxəmməsi ilə başladı. Yanıqlı xallar, şirin gəzişlər məclisdəkiləri valeh etmişdi. Muğamın hissələri arasında bir-birindən oynaq və cazibədar təsniflərin oxunması dinləyicilərlə bərabər mənə də xüsusi ləzzət verirdi. Mirzənin oxuması iki saata qədər çəkdi. Lakin məclis əhli doymamışdı. Onun gözəl səsini dübarə eşitmək istəyirdilər».[105]

Mirzə Məhəmmədhəsən 35 il xanəndəlik etmiş, hər yerdə Azərbaycan musiqisinin qızqın bir təbliğatçısı kimi çıxış etmişdi. O da klassik xanəndələr kimi bütün muğamları ustalıqla ifa etmiş, Zaqafqaziyanın bir çox yerlərində öz sənəti ilə tanınmışdı. Onun böyük məharətlə oxuduğu «Şüştər», «Humayun», «Rast», xüsusilə «Mənsuriyyə» muğamları qoca dinləyicilərin qulaqlarında hələ də səslənməkdədir. Böyük nəğməkarın ömrünün son illəri ağır ehtiyac içərisində keçmişdi.

1916-cı ildə Mirzə Məhəmmədhəsənin həyatı və şer yaradıcılığına həsr edilmiş «Nalə» kitabçasında onun son günləri belə təsvir olunmuşdu: «...Bədbəxtlik deyilmi ki, dünyanın hər bir neməti ilə zövqiyab olmuş Mirzə Məhəmmədhəsən indi kor və kar olub güşənişini izlət məşəqqət olmuşdur. İndi ona heç kəs hörmət etmir. İndi o müstəqi-ehsan olmuşdur.

Əvət nə bədbəxtdir o adam ki, ömrünün əvvəli əziz, axırı rəzil olsun».[106] Bu sətirlərdən göründüyü kimi, məşhur xanəndə ömrünün axırlarında kimsəsiz qalmış, heç kəs ona yardım əlini uzatmamışdı. Məhəmmədhəsən başına gələn hadisələri yazdığı şerlərdə təsvir etmişdir. Onun şerləri «Nalə» kitabçasında toplanmışdır. Həmin kitabçaya «Bir neçə söz» sərlövhəli giriş məqaləsi, 192 misradan ibarət məsnəvi, 9 beytlik «Desinlər» rədifli qəzəl daxildir. Kitabçanın «Nalə» adlandırılması heç də təsadüfi deyildir.

Burada Məhəmmədhəsənin ağır ehtiyac içərisində yaşadığı günlərdə qəlbindən qopan ah-naləsi, fəryadı öz ifadəsini tapmışdır. Məhəmmədhəsən öz şerlərinin birində yazmışdır:

Tuti qəfəsində deyibən bir vətən ağlar,
Zülmətə düşüb Mirzə Məhəmmədhəsən ağlar.

həyat aşiqi, həssas ürəkli müğənni zülmət aləmində yaşamağa məhkum idi. Onun gözləri işığını itirmiş, qulaqları tutulmuşdu. Məhəmmədhəsən öz şerlərində ürək ağrısı ilə yazırdı:

---

[105] C.Cəbrayılbəyli Xatirələrim. Bakı, Azərnəşr, 1966-cı il, səh. 40-41. 1.
[106] Mirzə Məhəmmədhəsən. Nalə. Bakı, 1916, səh. 3.

Karlıq, korluq göründü məndə,
Təqsirim nədir düşdüm kəməndə?
Bu qədər fələkdə naz olurmu,
Bir başa iki qapaz olurmu?!
İki qulağım, iki gözüm yox,
Bu mərhəmətə mənim sözüm yox.

Məhəmmədhəsənin şerləri içərisində «Desinlər» rədifli qəzəli daha məşhurdur. Bu qəzəl uzun illərdən bəri xanəndələr tərəfindən oxunur. Cabbar Qaryağdı oğlu oxuduğu muğamlarda Mirzə Məhəmmədhəsənin qəzəl və şerlərindən çox istifadə etmişdir. Seyid Şuşinski isə müğənninin «Nalə» kitabçasını həmişə qoltuq cibində gəzdirərdi. «Desinlər» rədifli qəzəlində şair-müğənni Məhəmmədhəsən həyatının qüssəli keçməsindən, günü qara olmasından, işığa həsrət qalmasından, bir sözlə, həyatının ah-nalə içərisində keçməsindən şikayətlənirdi:

Pərvanə kimi yandı könül narə desinlər,
Bülbül-qəmini güldən ötür xarə desinlər.
Göz yaşı töküb sübhə kimi, eylərəm əfqan,
Dil yarələnib, yarələrim yarə desinlər.
Çeşmi-siyahim yarələri yara görünməz,
Müjgan oxunu yarəsinə çarə desinlər.
Gəl etmə cəfa, eylə vəfa, ey qədi-rəna.
İnsaf deyil, dərdimi əğyarə desinlər.
Dil yarə, günüm qarə, qəmu dərdə nə çarə,
Dərd əhli bilir, dərdi xəbərdarə desinlər.
Məcnunluğu öyrəndi, gözüm Leylidə qaldı,
Mənsur kimi çəkdi məni darə desinlər.
Həsrətdi gözüm sübhü görə, sübh açılmır.
Şəb həsrətini ah ilə biçarə desinlər.
Tədbiri-qəza sağ əlimə verdi əsanı,
Neylim məni-biçarə, günü qarə desinlər.
Söndü gözümün şəmi, günüm qarə geyindi,
Mirzə, sikərin aləmə sədparə desinlər.[107]

Azərbaycan musiqi mədəniyyəti tarixində görkəmli bir müğənni kimi şöhrət qazanan Mirzə Məhəmmədhəsən 1917-ci ildə Şamaxıda vəfat etmişdir.

[107] Mirzə Məhəmmədhəsən. Nalə. Bakı, 1916, səh. 15-16.

# Məşədi Zeynal



MİLLİ musiqi alətlərimizin tacı sayılan tardan söhbət düşəndə gözlərimiz önündə istər-istəməz böyük tarzən Sadıqcan və onun istedadlı şagirdləri - Malıbəyli Həmid, Mirzə Mənsur, səlyanlı Şirin, Məşədi Cəmil, Bala oğlu Qrikor, Qurban Pirimov, Bala Məlikov, Məşədi Zeynal və b. canlanır.

Məşədi Zeynal klassik tar məktəbinin fədailərindən biri idi. O, çalğı musiqimizin inkişafında həlledici rol oynamışdır.

Məşədi Zeynal Haqverdiyev keçən əsrin 50-ci illərində Şuşanın Gərgicahan kəndində anadan olmuşdur. Məşədi Zeynal Şuşa realni məktəbində oxuyarkən Firidunbəy Köçərli, Kərimbəy Mehmandarov, Yusifbəy Haqnəzərov, Nəcəfbəy Vəzirov, Azadbəy Əmirov, Əbdürrəhimbəy Haqverdiyev, Cabbar Qaryağdı oğlu kimi məşhur mədəniyyət xadimlərinin mühitində boya-başa çatmış, bir musiqiçi kimi Azərbaycanın istər vokal, çalğı və istərsə də teatr sənətinin inkişafında müstəsna xidmətləri olmuşdur. Lakin Məşədi Zeynal hər şeydən əvvəl məşhur bir tarzən idi. O, ustad tarzən Əli Əskərdən dərs almışdı.

M. Zeynal gənc yaşlarından Şuşa məclislərinin yaraşığı olmuş, son dərəcə əzəmətli, lirik çalğısı ilə hətta dövrünün tanınmış musiqi xadimlərini belə valeh etmişdi.

Məşədi Zeynal uzun illər xalq məclislərində və «Şərq konsertləri»ndə Şahnaz Abbası, Əbdülbaqini, Çəkməçi Məhəmmədi, M. M. Fərzəliyevi, Segah İslamı, Məcid Behbudovu, sonralar isə Seyid Şuşinski və b. müğənniləri sədəfli tarı ilə müşayiət etmişdi.

Şuşada ilk «Şərq konserti»ndə Məşədi Zeynal da çıxış etmiş, böyük ifaçılıq qabiliyyəti göstərmişdi.

1907-ci ilin yanvar ayının 20-də «Müsəlman Xeyriyyə Cəmiyyəti» Məşədi Zeynalın və digər sənətkarların iştirakı ilə yoxsul müsəlmanların xeyrinə təntənəli gecə təşkil edir. Həmin gecə haqqında «Kaspi» qəzeti öz oxucularına yazırdı: «Gecənin proqramı çox maraqlı idi. Proqram 4 şöbədən ibarət idi ki, burada da əsas yer «Şərq konserti»nə verilirdi.

«Şərq konserti»ndə ən yaxşı müğənni və musiqiçilər iştirak edirdi. Buna görə də Şərq havalarını sevən dinləyicilər xüsusi həzz aldılar.

Konsert şöbəsini idarə edən cənab Bədəlbəyov[108] dinləyicilərin təkidi ilə «Durun gəlin, fürsət məqamıdır» mahnısını oxudu. Məşhur Qafqaz müğənniləri:

[108] Bədəlbəy Bədəlbəyov (1875-1932) məşhur xalq müəllimi və incəsənət xadimi, Azərbaycan SSR xalq artistləri Əfrasiyab və Şəmsi Bədəbəylilərin atası. - Müəllif.

Cabbar, İslam, Məhəmməd, tarçalan Zeynal, Şirin və b. gözəl mahnılar ifa etdilər. Bundan sonra dinləyicilərin xahişi ilə onlar öz mahnılarını bir də təkrar etməli oldular».[109]

Tarzən Məşədi Zeynal istər Şuşada, istərsə də Bakıda xalq şənliklərinin; konsertlərin və teatr tamaşalarının müvəffəqiyyətlə keçməsi üçün əlindən gələni əsirgəməmişdi. Üzeyir Hacıbəyov Məşədi Zeynalı istedadlı bir tarzən kimi opera tamaşalarında çalmağa dəvət edirdi. 1911-ci ildə «Leyli və Məcnun» operasının afişalarından birində deyilirdi: «1911-ci il noyabrın 4-də Nikitin qardaşlarının teatr binasında Ü. Hacıbəyovun «Leyli və Məcnun» operası göstəriləcək, operada xüsusi skripkaçı və məşhur tarzən Zeynal Haqverdiyev çalacaqdır».

1911 - 1918-ci illər arasında Bakı, Tiflis və Şuşa şəhərlərində verilən opera, dram tamaşalarında və xeyriyyə gecələrində Məşədi Zeynal tar çalmış, həm də teatr tamaşalarının fasilələrində xanəndələri - İslamı, Seyid Şuşinskini, Məcid Behbudovu müşayiət etmişdi.

1915-ci ilin mart ayının 13-də Bakıda «Nicat» cəmiyyəti tərəfindən keçirilən «Şərq gecəsi»ndə Məşədi Zeynal tarda «Rahab», Moses kamançada «Zəminxarə», neydə isə Mirzə Abdulla «Rast» muğamını çalmışdı. Gecədə Hüseyn Ərəblinski Hamletin «Ölüm, ya ölüm» monoloqunu söyləmişdi. Həmin gecədə aşıq Abbasqulu, Abdal Qasım və Sarabski də iştirak etmişlər.[110]

Məlumdur ki, tarçalanlar iki yerə bölünürlər: solo çalanlar, bir də xanəndəni öz çalğısı ilə müşayiət edənlər (akkompaniator). Şübhəsiz ki, tarzənin xanəndə ilə çalması solo çalımından fərqlənir. Azərbaycan musiqi tarixində elə tarzənlər olmuş ki, onlar xanəndəni öz gözəl çalğısı ilə məharətlə müşayiət etdikləri halda, solo çalarkən dinləyicini qane edə bilməmişlər. Əksinə, elə tarzənlər də olmuşdur ki, yaxşı solo çalmışlar. Məşədi Zeynal öz yaradıcılığında bu iki cəhəti bacarıqla birləşdirən bir sənətkar idi.

Məşədi Zeynal musiqi tariximizdə Sadıqcandan sonra ilk solo çalan tarzənlərdən biri olmuşdur. O, hələ 1897-ci ildə Şuşada Xandəmirovun teatrında verilən: «Xeyriyyə gecəsi»ndə tarda «Çahargah» çalmışdır. Xanəndələr arasında «Çahargah» muğamını Seyid Şuşinski kimi ustalıqla oxuyan, klassik tarzənlər arasında isə Məşədi Zeynal kimi məharətlə çalan olmamışdır. Şübhəsiz ki, «Çahargah»ı tamam-dəstgah çalmaq hər tarzənin işi deyildir. Bu muğamı çalan tarzənin güclü biləyi, iti barmaqları olmaqla bərabər, həm də texniki ustalığı və ifaçılıq priyomları da olmalıdır. «Çahargah» major muğamdır. Burada heç bir yalvarış, sızıltı və inilti motivləri yoxdur. Bu muğam üsyandır. Bunu yaxşı duyan Məşədi Zeynal öz çalğısında nəinki texniki ustalıq, həm də sonsuz melizm əlamətlərini nümayiş etdirməklə muğamın son dərəcə əzəmətli və nikbin

---

[109] «Kaspi» qəzeti, 23 yanvar 1907-ci il.

[110] Bax: C. Cabbarlı adına Azərbaycan teatr muzeyi, afişalar fondu.

səslənməsinə nail olurdu. Tarzən muğamın «Hasar», xüsusilə «Müxalif» şöbələrində misilsiz barmaqlar vuraraq öz çalğısında nəinki xanəndə guşə və xallarını, hətta çətin zəngulə elementlərini belə məharətlə gəzişərdi. O da müəllimi Sadıqcan kimi cingənə simlərdə gəzişməyi, bir neçə formada alt-üst mizrablar vurmağı unutmazdı. Eyni zamanda Məşədi Zeynal heç bir zaman texniki ustalığa uyub muğamın bədii ifaçılıq xüsusiyyətlərini yaddan çıxaran tarzənlərdən deyildi. Məhz buna görə də saysız-hesabsız dinləyicilər həmişə onun çalğısının intizarında idilər. Çünki o, tarı sadəcə olaraq çalmır, onu oxudurdu.

Məşədi Zeynal xanəndə oxutdurmaqda da məşhur idi. Klassik tarzənlər içərisində Məşədi Zeynal kimi xanəndəni oxutdurmağı bacaran tək-tək tarzənlər olmuşdur. Qocaman sənətkarlardan Qurban Pirimov, Mirzə Mənsur, Seyid və Xan Şuşinskilər bu sətirlərin müəllifinə Məşədi Zeynal haqqında olduqca qiymətli və maraqlı xatirələr söyləmişlər. Xan Şuşinski Məşədi Zeynalın «Zabul» çalmağını elə qeyri-adi bir məharətlə yamsılayırdı ki, adam məəttəl qalırdı. Özü də deyərdi ki, Məşədi Zeynal olan məclisdə hər xanəndə sürət edib oxumazdı. Çünki rəhmətlik, tarı elə çalırdı ki, elə bil tar xanəndə kimi dil açıb oxuyurdu. Bizim hamımız - Qasım, Seyid, İslam, Musa, mən «Zabul» oxumağı onun çalğısından öyrənmişik. Mən tarın nə olduğunu və tarı necə çalmağın sirrini yalnız Məşədi Zeynalın çalğısında hiss etmişəm. Özü də bir layiqli insan kimi onun tayı-bərabəri yox idi. Son dərəcə alicənab, ağır adam idi. O, məclisə daxil olanda hamı ayağa qalxardı. Çünki Məşədi Zeynal həm yaxşı sənətkar, həm də yaxşı insan idi.

Xanəndəni oxudan tarzəndir. Sazəndə dəstəsinin başçısı xanəndədirsə, lakin dəstənin bədii rəhbəri tarzəndir. Xanəndənin istər yaxşı, istərsə də pis oxuması tarzəndən çox asılıdır. Tarzən istəsə öz rəvan, şirin çalğısı ilə xanəndəni ruhlandırdığı kimi, həm də sönük, xaric çalğısı ilə onu ruhdan sala bilər. Məhz Məşədi Zeynalda hər iki xasiyyət vardı. Hər xanəndə Məşədi Zeynal ilə oxuya bilməzdi. Həm də Məşədi Zeynal özü hər xanəndəyə tar çalmaq istəməzdi. Vay o günə ki, xanəndə bir balaca xaric oxuyaydı. Onda o xanəndənin evi yıxılardı. Bu vaxt Məşədi Zeynal nəinki çalğını saxlardı, hətta xanəndənin məclisi tərk etməsini tələb edərdi. Bəzən isə belində saxladığı tapançanın dəstəyi ilə xanəndəni kötəkləyərdi. Oxucuya elə gəlməsin ki, Məşədi Zeynal qoçu idi. Heç də yox. Əksinə, Məşədi Zeynal son dərəcə mədəni, mülayim, geniş biliyi olan yüksək tərbiyəli ziyalı idi. Amma nədənsə bu sakit, ağırxasiyyətli sənətkar xaric oxuyan xanəndə eşidəndə varlığı sarsılırdı. Mərhum Mirzə Mənsur söyləyirdi ki, bir gün Məşədi Zeynal bir xanəndə ilə «İçərişəhər»də toyda çalarkən nə təhər olubsa xanəndə xaric oxuyub. Bu zaman mən qardaşım Məşədi Süleyman ilə Hacı Hacağanın karvansarasında idik. Məşədi Süleyman Yusifbəy Dadaşovla nərd oynayırdı. Birdən kimsə içəri girib təlaşla qışqırdı:

- Ay Məşədi Süleyman, özünü toya yetir. Yoxsa, Məşədi Zeynal xanəndə filankəsi öldürür.

Bunu eşidən kimi hamımız qaçdıq ora. Onda gördük ki, Məşədi Zeynal tapançanın lüləyini xanəndənin boğazına dirəyib qışqırır:

- Ə, nadürüst, havağacan xaric oxuyacaqsan?!

Məşədi Süleyman güc-bəla ilə Məşədi Zeynalı sakit etdi və erməni göndərdi ki, get Şəkili Ələsgərin dalınca, denən Məşədi Süleyman çağırır.

Mirzə Mənsurun qısaca xatirəsində inkaredilməz bir həqiqət vardı.

Doğrudan da, keçmişdə gözəl bir adət hökm sürürdü. Xaric oxuyan xanəndəni məclisdən qovardılar və yaxud xanəndənin özü xəcalətindən bir neçə ay məclislərdə görünməzdi. Muğamatın soltanı olan Mirzə Muxtar haqlı olaraq deyirdi: «Xaric oxumaq fəlakətdir».

Bir gün də bir məclisdə «Şur» oxuyan xanəndə ağzını açarkən. Məşədi Zeynal ondan soruşur:

- Gəda, no oxuyursan?
- «Şur».

Məşədi Zeynal tarı yığışdırıb məclisə müraciət edir: «Camaat, bu mərsiyəxana tarzən lazım deyil. Oxuduğu isə «Şur» yox, şordu. Özü də talış şoru: həm duzsuz, həm də yağsız».

Musiqimizin Bülbülcan, Zabul Qasım, Seyid Şuşinski, Segah İslam kimi görkəmli xadimləri yalnız Məşədi Zeynalın çalğısını dinləməyi, yalnız onun müşayiətilə oxumağı üstün bilirdilər. Məşədi Zeynal ilə uzun illər dostluq etmiş, böyük müğənni Seyid Şuşinski söyləyirdi ki Məşədi Zeynal ilə çalıb-oxuyanda mən həzz alardım. O, nəinki məni oxutdururdu, həm də öyrədirdi: Onunla oxuyanda heç bir çətinlik çəkməzdim. Bütün Qafqazda tarçalanların hamısı Məşədi Zeynalın barmaqlarını vurmağa cəhd edərdilər. Mənim «Çahargah» ustası kimi püxtələşməyimdə Məşədi Zeynalın əməyi çox olmuşdur. O, mənə «Çahargah»ı «Mənsuriyyə» üstündə «Bordaş» edib «Mayeyə» düşməyi məsləhət görərdi. «Çahargah» ustası olmuş Kosa Mərdanbəyin və Məşədi İsinin guşə xallarını vurub, mənə təkrar etdirərdi. Mən muğamatın sirlərini Məşədi Zeynalın çalğısında duymuşam.

Məşədi Zeynal Azərbaycan musiqisi xadimləri içərisində istedadlı bir tarzən, qabil bir sənətkar kimi şərəfli yer tutur. O, bütün ömrü boyu Azərbaycan xalqı üçün əvəzsiz sənətkar olmuşdur. Zeynal varlıların, kübar ailələrin deyil, geniş xalq kütləsinin zövqünü, mənəvi ehtiyacını ödəmək üçün çalmış, ömrünün son günlərinədək sevimli tarından ayrılmamışdı. O, müəllimi Sadıqcanın tar məktəbini nəinki davam etdirmiş, həm də bu məktəbi zənginləşdirmiş, onlarca istedadlı tarzən yetişdirmişdir.

Musiqi mədəniyyətimizin görkəmli xadimlərindən biri olan Məşədi Zeynal 1918-ci ildə Bakıda vəfat etmişdir.

# Avanes Avanesov



KAMANÇAÇI Avanes Avanesovun adı musiqi tariximizdə hörmətlə çəkilir.

Avanes 1855-ci ildə Şuşa şəhərində anadan olmuşdur. O, kiçik yaşlarından kamança çalmağı Bağdagül oğlu Atadan öyrənmişdi.

Bağdagül oğlu ata XIX əsr Azərbaycan musiqisinin ən görkəmli nümayəndələrindən biri idi. O, uzun illər Hacı Hüsü. Sadıqcan, Avak Tarxanov və Bülbülcan ilə sənət dostluğu etmişdi.

Avanes xalq arasında tez şöhrət tapır. Onu 17 yaşından toy şənliklərinə dəvət edirlər Avanes ürəkoxşayan, xoş çalğısı ilə dinləyicilərin rəğbətini qazanır. Məclislərin birində Avanesin çalğısını dinləyən xanəndə Hacı Hüsü onu öz dəstəsinə dəvət edir. Avanes bir neçə il tarzən Bala oğlu Qrikor ilə Hacı Hüsünü müşayiət etmişdir. Bu trionu Zaqafqaziyanın, Orta Asiyanın, hətta Rusiyanın bir çox şəhərlərinə - toy məclislərinə dəvət edirdilər. Şübhəsiz ki, Avanesin Şərq musiqisinin sirlərini əxz etməsində görkəmli müğənnimiz Hacı Hüsünün böyük təsiri olmuşdu. Avanes də Ə. Haqverdiyevin Bakıda təşkil etdiyi «Şərq konsertləri»ndə iştirak edərək gözəl sənətkarlıq nümunələri göstərmişdi. Onun Bakıda verilən ikinci «Şərq konserti»ndəki (23 yanvar 1902-ci il) çıxışı dinləyiciləri valeh etmişdi. O zaman «Kaspi» qəzetində «Şərq konserti» başlığı altında yazılan məqalədə deyilirdi: «...kamançada solo çalan Avanes olduqca melodik və mahiranə çalğısı ilə dinləyiciləri heyrət içərisində qoydu».[111]

Avanes novator sənətkar idi. O, sənətdə axtarışlar edən, öz üzərində işləyən, sənətini sevən zəhmətkeş musiqiçi idi.

Qurban Pirimovun təbirincə desək, Avanes «ağlı, ürəyi və öz sözü olan» sənətkarlardan biri olmuşdu. O, hər dəfə inləyən kamançasını səsləndirdikdə dinləyiciyə musiqi dili ilə yeni, dərin mənalı əhvalatlar söylərdi. Avanesin 1903-cü ildə «Şərq konserti»ndə çıxışı haqqında «Kaspi» qəzetində yazılan rəydə Avanesin çalğısına böyük qiymət verilirdi. Qəzet yazırdı: «Avanesin kamançada solo çalmağını xüsusi olaraq qeyd etmək istərdik. Onun çalğısına qulaq asarkən istər-istəməz adamı dinləndirir, görəsən bu adam konservatoriyada oxumayıb?! Belə də kaman tutmaq olar?! Onun ifaçılıq müvəffəqiyyəti haqqında danışmaq artıqdır. Çünki, Avanes bütün təriflərdənp üstündür».[112]

Avanes xanəndə Hacı Hüsünün ölümündon sonra tarzən Arsen Yaramışev ilə birlikdə 1905-ci ilə kimi məşhur müğənnimiz Qaryağdı oğlunu, ömrünün son

[111] "Kaspi" qəzeti, 25 yanvar 1902-ci il, № 27.
[112] "Kaspi" qəzeti, 29 yanvar 1903-cü il, № 24.

illərində isə tarzən Mərdi Canıbəyov ilə xanəndə Seyid Mirbabayevi müşayiət etmişdi. Avanes həm solist kimi, həm də akkompaniator kimi dinləyicilərin, həm də xanəndəlorin hörmətini qazanan kamançaçı idi.

Məşhur çalğıçı Avanes 1906-cı ildə «Qrammafon» firması tərəfindən Riqa şəhərinə dəvət edilir. Firma onun ifasında «Bayatı-Şiraz», «Çahargah», «Şüştər», «Segah» muğamlarını qrammafon vallarına köçürmüşdü.

Görkəmli sənətkar A. Avanesov mənalı həyat yolu keçmişdi. O, Saşa Oqanezaşvili, Levon Qaraxanov, Sevi (Avanesin qardaşı), Ruben, Moses kimi məşhur kamançaçı nəsli yetişdirmişdir.

Avanes Avanesov 1909-cu ildə Bakıda vəfat etmişdir.

## Malıbəyli Cümşüd



KEÇMİŞDƏ, xanlıq dövründə içərisi sərnişinlərlə dolu dörd-atlı ağ arabalar Yevlaxdan çıxıb Bərdəni və Ağdamı keçib zümrüd yamacların, yaşıl təpələrin döşündə yerləşən məğrur «Əsgəran talası»na qalxardı... Burada arabaçılar atlara su verdikdən sonra təpələrin arxasından burulub keçən, dağların döşündə ilan kimi qıvrılan daşlı-kəsəkli yolla daha yuxarılara qalxaraq qədim Xocalı kəndini adlayıb «Yuxarı Xan bağı» karvansarasının qabağında dayanardılar... Burada sərnişinlər bir qədər dincəldikdən sonra onları gözləyən faytonlara minib Şuşaya, Gorusa tərəf, arabaçılar isə «Xan bağı»nın bir vestliyindən sol tərəfdə, Qarabağın mənzərəli bir guşəsində yerləşən Malıbəyli kəndinə yollanardılar...

Malıbəyli keçmiş Şuşanın ən iri, abad kəndlərindən biri idi. Kəndə niyə «Malıbəyli» deyirlər? Heç kəsə məlum deyil. Yaşıl ağaclar arasında gizlənən rəngarəng taxtapuşlu daş evləri, əzəmətli məscidi olan kənd, sağdan «Quşçular qayası», bir qədər aralı «Bağrı qan» dağı ilə, soldan isə dadlı tut bağları və seyrək meşəliklərlə əhatə olunmuşdur. Malıbəyli ilə «Xan bağı» arasındakı açıqlıq min bir rəngə çalır... Bu mənzərəyə tamaşa etdikcə, üzlər gülür, qəlb həyəcanla dolur, gözlər dincəlir.

Malıbəyli istər iqtisadi, istərsə də ictimai həyatı ilə də Şuşanın digər kəndlərindən fərqlənirdi. Burada hər cür şəraiti olan karvansaralar, əttar, baqqal, əllaf dükanları, hətta qız məktəbi belə var idi. Bu kənd istedadlı, igid oğlanları və incəbelli gözəlləri ilə də məşhur idi. Malıbəylilər xalq şənliklərin təmtəraqlı keçirər, hətta teatr tamaşaları belə göstərərdilər.

Malıbəyli kəndlilərinin əksəriyyəti «arabaçılıq»la məşqul olardılar. Bu kənd dördatlı aq arabaları ilə bütün Azərbaycanda məşhur idi. Malıbəyli arabalarına Şuşa-Gəncə, Tiflis-Bakı, Şuşa-İrəvan yollarında tez-tez rast gəlmək olardı... Bu arabaların daimi dayanacaq yeri «Yuxarı Xan bağı»nın karvansarası» idi. O vaxtlar istər sərnişinlər, istərsə də tacirlər bir yerə getmək və mallarını aparmaq istəyəndə «Xan bağı»nın karvansarasına gələrdilər...

Karvansara sahibi Tanrıverdi kişi hər işə qabil və hər şeydən vaqif olduğu üçün onun dost-aşnası çox idi. O zaman Şuşadan Bakıya, Gəncəyə, Tiflisə, Şamaxıya gedib-gələn sərnişinlər, adlı-sanlı tacirlər, bəyzadələr və ziyalılar belə Xan bağı karvansarasında dincələrdilər. Qarabağın ziyalıları, Şuşanın adlı-sanlı sakinləri, tacir və bəyləri tez-tez Tanrıverdi kişinin qonaqları olardılar. Burada həyat qaynayırdı,

Karvansaranın dincəlmək üçün rahat otaqları, aşxana və çayxanası var idi. Burada dincələn qonaqların tam istirahəti üçün karvansara sahibi Tanrıverdi kişi sazəndə dəstəsi də dəvət edərdi. Qarabağın bir çox məşhur çalıb-oxuyanları bu yoldan keçib gedərkən istər-istəməz Tanrıverdi kişinin qonağı olar, burada çalıb-çağırardılar. Lakin karvansaranın daimi çalıb-oxuyanı məşhur-xanəndə Malıbəyli Cümşüd idi.

Cümşüd Malıbəyli kəndindən olduğu üçün onu el arasında «Malıbəyli Cümşüd» deyə çağırarmışlar. Hələ 4-5 yaşında ata-anasını itirən Cümşüdün uşaqlığı ağır ehtiyac, min bir əzab-əziyyət içərisində keçmişdi. Balaca Cümşüd altı yaşında nökərçiliyə getmiş, varlıların qapısında mehtərlik etmişdi. Sonralar o, arabaçı köməkçisi olub, Şuşa ilə Yevlax arasında bir neçə il araba sürmüşdü.

Cümşüdün uşaqlıqdan musiqiyə həvəsi vardı, təbiət ona gözəl səs bəxş etmişdi. Cümşüddə həm incə səs, həm də iti musiqi yaddaşı var idi. Bir mahnıya bir dəfə qulaq asmaqla onu qavrayardı. Şübhəsiz ki, Cümşüdün muğam musiqisini əxz etməsində Qarabağın məclisləri ilə birlikdə yaşadığı karvansara həyatının da az-çox təsiri olmuşdur.

Lakin həyatında baş verən bir hadisə on altı yaşlı gəncin taleyini həmişəlik musiqi aləminə bağladı: bir gün Novruz bayramı münasibətilə «Xan bağı» karvansarasında böyük canlanma var idi. Qarabağın bir çox adlı-sanlı adamları Tanrıverdi kişinin yanına gəlmişdilər. Gələn qonaqların arasında İran tacirləri də var idi... Karvansaranın geniş həyətində qulplu qazanlarda plov dəmlənirdi. Bir yanda ceyran ətindən çəkilmiş şişlər ocaq üstünə düzülür, digər tərəfdə isə aşpaz qadınlar kəsilmiş saysız-hesabsız turac və qırqovulların tükünü yolurdular... Qonaqlıq çox şən və dəbdəbə ilə keçirdi... Lakin xanəndə Şahnaz Abbasın qəflətən xəstələnməsi qonaqları məyus etdi. Xüsusilə məclis sahibinin qüssəsinin həddi-hüdudu yox idi. Başını itirmiş Tanrıverdi kişi bilmirdi nə etsin. O, yaxşı bilirdi ki, musiqisiz məclisin heç bir qiyməti yoxdur. Hamını fikir aparmışdı. Birdən nökərlərdən biri dilləndi:

- Ağa, qoy xanəndənin xəstələnməsi heç də sizi dilxor etməsin. Bizim özümüzün xanəndəmiz var.

Tanrıverdi kişi yarı əsəbi, yarı maraq dolu nəzərlərini nökərə tərəf çevirdi:

- Nə danışırsan, o, bizdə oxuyan nə gəzir?

- Ağa, var, özü də yaxşısından...

- O kimdir, o?...

- Arabaçı Cümşüd.

Cümşüd adını eşidən Tanrıverdi kişi daha da əsəbiləşdi:

- O, nə sarsaq danışırsan, yetim Cümşüd hara, oxumaq hara?

Yazıq nökər ağasını inandırmaq üçün başladı and içməyə.

- Ağa, o Əlinin qeyrətli oğlu həzrət Abbas haqqı doğru sözümdür. Cümşüd yaman oxuyandır.

Ağa ilə nökərin mübahisəsinə son qoymaq üçün tarzən Ballıcalı Baxşı yerindən qalxdı:

- Ay Tanrıverdi kirvə, niyə nökərin sözünü qəribliyə salırsan? Məgər arabaçıda səs olmaz? Əşi, mən Malıbəyli arabaçılarından o qədər yaxşı səsi olana rast gəlmişəm ki... Nə olar, qoy Cümşüd gəlsin oxudaq. Yoxsa xanəndəsiz nə məclis?!.

Qoca tarzənin sözü hamının ürəyindən oldu... Cümşüdü çağırdılar. Tarzən Ballıcalı Baxşı tələsik tarı torbadan çıxarıb arabaçıya müraciət etdi.

- Oğlum, nə oxuya bilərsən? Cümşüd:

- Ürəyin nə istəyirsə, onu çal.

On altı yaşlı gəncin belə ötkəm cavab verməyi tarzəni daha da sevindirdi:

- Onda bizim üçün bir «Segah» oxu.

Gəncin zil səsi, uzun nəfəsi və sürəkli zəngulәsi hamını heyran etmişdi. Qoca tarzənin şadlığının həddi-hüdudu yox idi. Cümşüd olduqca sərbəst oxuyurdu. Hətta zil pərdələrə qalxanda belə onun sifətində, üzündə heç bir dəyişiklik görünmürdü. Diksiyası olduqca aydın, həm də rəvan idi. Cümşüd sürəkli, coşğun zəngulələrlə muğamın zilinə qalxıb tarın son pərdələrində ustadlara məxsus guşə-xanalıq etdikcə məclisi alqış sədaları bürüdü.

Qoca tarzən sevincindən bilmirdi nə etsin. Gəncin qeyri-adi qabiliyyətindən vəcdə gələrək gözləri yaşarmış halda dilləndi:

- A bala, başına dönüm bir «Şahnaz» da oxu.

Tarzənin xahişi hamının ürəyindən oldu. Cümşüd «Şahnaz»ı da gözəl oxudu. Qavalı yerə qoyanda məclisin hər yanından onun başına qızıl-gümüş pulları dolu kimi yağdırdılar...

Məclisin başında əyləşən tacir Məşədi Nəcəfqulu Cümşüdü təbrik edib dedi:

- Oğlum, allah-taala səni ata-anasız qoyubsa da, bir tərəfdək də sənə böyük dövlət bəxş edib. Dünyada gözəl səsdən böyük dövlət nə ola bilər?! Sabahdan arabaçılığı burax. Biz xoşbəxtik. Nəhayət, bizim kənddən də oxuyan çıxdı.

Sonra tacir Məşədi Nəcəfqulu əlini cibinə saldı, bir yüzlük çıxarıb tarzən Baxşıya verdi və sözünə davam etdi:

- Baxşı kirvə, səhər Cümşüdü özünlə apar Şuşaya, orada sədəfli bir qaval sifariş ver. Özün də daha səhərlər kənddən çıxanda bir daha Şuşaya yox, düz bura - «Xan bağı»na gəl. Bizim karvansarada çalıb-çağırın...

Bir neçə gündən sonra Malıbəyli kəndinin sakinləri əynində çit arxalıq, zoğalı çuxa, belində gümüşü kəmər, başında buxara papaq, əlində sədəfli qaval tutmuş bir cavan oğlan gördülər. Artıq bu oğlan mehtər-arabaçı Cümşüd yox, xanəndə Cümşüd idi...

Son dərəcə gözəl və məlahətli səsə malik olan bu nəğməkar Malıbəyli məclislərinin bəzəyi və yaraşığı olur. O zaman bu kənddə toy şənlikləri böyük təmtəraqla keçərdi. Odur ki, Həsənçə, Şahsənəm oğlu Yusif, Şəkər oğlu Kərim, tarzən Əliəsgər, Mütrüb İsmayıl, kamançaçı Qaraçı Hacı bəy kimi məşhur musiqiçiləri Malıbəyli kəndinə tez-tez dəvət edərdilər. Cümşüd bu böyük sənətkarları dinləməkdən doymazdı.

Şuşanın musiqi həyatı da Cümşüd üçün böyük məktəb olmuşdu. O dövrdə gəlinin cehizini mütləq Malıbəyli arabalarında aparardılar. Buna görə də Qarabağda toy mövsümü başlanan gündən Cümşüd uzaq səfərə yox, məhz toylara gedən qonaqları, köçən gəlini, onun cehizini öz arabasında daşıyar və istər-istəməz bu toy şənliklərində çalıb-oxuyan xanəndələri diqqətlə dinləyərdi. Şübhəsiz ki, Cümşüdün bir xanəndə kimi formalaşmasında bu xalq məclisləri az rol oynamamışdı.

Malıbəyli Cümşüd bir neçə il tarzən Ballıcalı Baxşı ilə Xan bağı karvansarasında çalıb-çağırdıqdan sonra, artıq 20-21 yaşlarında Qarabağ məclislərinə bir xanəndə kimi dəvət olunur. O dəstgahları özünəməxsus bir üslubla ifa etməklə, Azərbaycan muğamlarının təbiətində olan musiqi dramatizmini emosional təsirli ifadə ilə dinləyicilərə çatdırardı. Bu cəhətdən onun oxuduğu «Orta mahur»u, «Şüştər»i, ritmik muğamlardan «Heyratı», «Ovşarı» və «Qarabağ şikəstəsi» və s səciyyəvidir. Cümşüd həmin muğamları sənətkarlıqla oxuyardı. Cümşüd kənddən çıxdığına görə həmişə kənd toylarına meyl edərdi. Buna görə də o qədim el mahnılarının ifasına xüsusi diqqət yetirərdi. Çünki o vaxtlar muğamlara nisbətən el havaları kənd camaatının ruhuna daha uyğun gəlirdi. Bunu nəzərə alan xanəndə: «Ay dərya kənarında», «İstikanın deşilsin», «Gəlirəm, gedirəm, xəbərin olsun», «Ay bala Fatma», «Qapıda duran mənəm mən», «Məni dövri fələk qoymuş», xüsusilə «Məmələr» mahnısını daha çox oxuyardı:

...Üzünə ay desələr xəsil olur ay,
Qaşına yay desələr olmaz ona tay.
Ləbinə qırmızı gül desəm xətadır,
Lə'l, yaqut nədir ondan da bahadır.

Malıbəyli Cümşüd qəzəl, qoşma seçməkdə də mahir idi. O, həmişə xalq ruhuna uyğun sadə, mənalı, xalqın başa düşdüyü dildə yazılmış şerlər oxuyardı. Xanəndə ən çox Vaqifin, Natəvanın, Aşıq Ələsgərin irsinə müraciət edərdi.

25-30 yaşlarında bir xanəndə kimi Qarabağda şan-şöhrət qazanan Cümşüdün sorağı Şirvan elinə də çatır. Şamaxılı Mahmud ağa onu Şamaxıya dəvət edir. Cümşüd bir neçə ay Mahmud ağanın qonağı olmuş, görkəmli musiqişünasın qurduğu məclis və müsabiqələrdə özünü kamil bir xanəndə kimi Şamaxının musiği xiridarlarına təqdim etmişdi.

Məşhur müğənni bir neçə dəfə görkəmli tarzən Cavad bəy Əlibəy oğlu və kamançaçı Karapet ilə İranın Təbriz, Rəşt, Ənzəli və Qəzvin şəhərlərinə toy məclislərinə dəvət olunmuşdu. O hər yerdə Azərbaycan musiqisinin incəliklərini, təravətini, Qarabağ xanəndəlik məktəbinin şöhrətini bir daha nümayiş etdirmişdi.

Malıbəyli Cümşüd də Şuşada verilən opera tamaşalarında və «Şərq konsertləri»ndə yaxından iştirak edirdi. Onun yaxından iştirakı ilə 1909-cu il noyabrın 7-də və 1910-cu il mayın 23-də Malıbəyli kənd məktəbinin şagird və müəllimləri iki dəfə ədəbi-vokal gecəsi təşkil etmişdilər. Birinci gecədə 50 manat qızıl pul yığılıb o zaman Novoçerkassk universitetində oxuyan tələbə Mir Həsən Vəzirova* göndərilmişdi. İkinci gecədə isə 41 manat 38 qəpik pul yığılıb tələbələrin ehtiyacına xərclənmişdi.[113]

1912-ci ilin fevral ayında Malıbəyli kəndində ikisinifli məktəbin nəzarətçisi Məhəmməd bəy Qarayevin rəhbərliyi və təşəbbüsü ilə məktəbin müəllimlərindən N. Moiseyevanın, Mir Mehdi Ağamirovun, Simona Tatarnikovanın və xanəndə Cümşüdün iştirakı ilə tamaşa göstərilmişdi. Tamaşada yığılan pul qız məktəbində oxuyan tələbələrin ehtiyacına sərf edilmişdi.[114]

1913-cü ildə Azərbaycanda məşhur bir xanəndə kimi tanınan Malıbəyli Cümşüd Kiyevə - «Ekstrafon» aksioner şirkəti tərəfindən səsini vala yazdırmaq üçün dəvət edilir. Cümşüd Kiyevə gedərək tarzən Arsen Yaramışevin və kamançaçı Moses Quliyansın müşayiəti ilə «Segah», «Mahur», «Rast», «Şikəsteyi-fars» muğamlarını və bir neçə təsnifi məharətlə oxuyub qrammafon valına yazdırır.

Görkəmli xanəndə Malıbəyli Cümşüd 1915-ci ildə təxminən 70 yaşlarında Şuşa şəhərində vəfat etmişdir.

---

* Məşhur inqilabçı - müəllif.

[113] Bax: «Zakavkazye» qəzeti, 1910-cu il, 7 aprel, № 75.

[114] Bax: «Zakavkazskaya Reç» qəzeti, 1912-ci il, № 49.

# Bala oğlu Qrikor



BALA OĞLU Qrikor Azərbaycanda görkəmli tarzən kimi şöhrət tapmışdır. Qrikor Məlikov Bala oğlu 1859-cu ildə Şuşa şəhərində anadan olmuşdur. O, tar çalmağı şuşalı tarzən Artemidən öyrənmişdi. Artemi keçən əsrdə Şuşanın ən şöhrətli və istedadlı tarzənlərindən olmuş, uzun illər Azərbaycan xanəndələrini müşayiət etmişdir.

Bala oğlu Qrikorun sənətkar tarzən kimi inkişaf edib kamilləşməsində böyük müğənni Hacı Hüsünün həlledici təsiri olmuşdur.

Hacı Hüsü tarzən Sadıqcandan sonra 15 il Bala oğlu Qrikor və kamançaçı Avanes ilə əməkdaşlıq etmişdi.

Bu iki istedadlı çalğıçı - Qrikor və Avanse Hacı Hüsünü müşayiət etməklə, ondan Şərq muğamlarının oxuyub-çalmaq qaydalarını da mükəmməl öyrənmişdilər.

Kamançaçı Levon Qaraxanov söyləyir ki, Bala oğlu Qrikor öz müəllimi Hacı Hüsünün adını həmişə hörmətlə yad edib deyərdi: «Bu böyük xanəndə Şərq musiqisi tarixində təkrarolunmaz, qüdrətli bir xanəndə kimi qalacaqdır. Çünki onda olan gözəl səs və oxumaq qabiliyyəti heç kəsdə olmamışdı».

Hacı Hüsü, Bala oğlu Qrikor və Avanesdən ibarət musiqi üçlüyü (trio) XIX əsrin son rübündə bütün Zaqafqaziyada məşhur olmaqla, Moskvada və İranda da öz çıxışları ilə Azərbaycan musiqisinin şöhrətini yüksəklərə qaldırmışdı.

Bala oğlu Qrikor Zaqafqaziyada, hətta İranda düzəldilən musiqi müsabiqələrində həmişə birincilik qazanmış, qızıl medalla təltif olunmuşdur. O, 1901-ci ildə Şuşada, 1902-1903-cü illər isə Bakıda təşkil olunan ilk Şərq konsertlərində böyük müvəffəqiyyət qazanmışdır. İstedadlı tarzən, Hacı Hüsünün ölümündən (1898) sonra, müxtəlif vaxtlarda Zabul Qasım, Çəkməçi Məhəmməd, Məcid Behbudov, Davud Səfiyarov və Məşədi Məmməd Fərzəliyev kimi görkəmli xanəndələri öz sədəfli tarı ilə müşayiət etmişdi.

Bala oğlu Qrikor 1907-ci ildə «Тифлисскоје Общественноје Собраниje » tərəfindən Tiflisə dəvət edilmişdir. O, burada əvvəllər xanəndə Məşədi Məmməd Fərzəliyev, sonralar isə (1911-ci ildən) böyük müğənni Seyid Şuşinski, kamançaçı Sevi ilə birlikdə 10 il şəhər musiqi məclislərində teatr və klublarda xidmət göstərmişdir.

1911-ci il mart ayının 28-də Tiflisin musiqi ictimaiyyəti Bala oğlu Qrikorun fəaliyyətinin 30 illik yubileyini təntənəli şəraitdə keçirdi. Yubiley gecəsi Tiflisin ən məşhur musiqiçiləri arasında bir nəfər gənc tarzən də vardı. O, yubilyarın 23 yaşlı

oğlu Bala idi. Gənc Bala atası kimi tarzən olmaq arzusu ilə yaşayırdı. O, yubiley gecəsi məharətlə çıxış etdi.

Yubiley gecəsi Qrikora ayrı-ayrı yerlərdən göndərilən təbrik məktubları, teleqramlar və hədiyyələr onun sənətinin pərəstişkarlarının saysız-hesabsız olduğunu sübut edirdi.

1914-cü ildə muğam ustası və gözəl tarzən-səlist Bala oğlu Qrikor «Ekstrafon» firması tərəfindən Kiyev şəhərinə dəvət edilir. O, burada bir çox muğamları yüksək ifaçılıq məharəti ilə qrammafon valları üçün çalmış, kamançaçı Sevi ilə birlikdə Seyid Şuşinskini müşayiət etmişdi.

Bala oğlu Qrikor Azərbaycan musiqi tarixində böyük sənətkar - tarzən olmaqla, həm də bacarıqlı bir müəllim kimi tanınır. Zaqafqaziya tarzənlərinin əksəriyyəti onun yetirməsidir.

Gürcüstanda Sovet hakimiyyəti qurulduqdan sonra qocaman tarzən Bala oğlu Qrikor xalqın mədəni inkişafına yaxından kömək etmişdir. O, ömrünün son illərində Tiflisin fəhlə klublarında, mədəniyyət evlərində və musiqi məktəblərində gənc nəslin təlim-tərbiyəsi ilə ciddi məşğul olmuş, öz sənətkarlıq təcrübəsini şagirdlərindən əsirgəməmişdir.

Bala oğlu Qrikor 1929-cu ilin oktyabr ayında, 70 yaşında Tiflis şəhərində vəfat etmişdir.

## Cabbar Qaryağdı oğlu



AZƏRBAYCAN musiqisinin yeni bir mərhələsi Cabbar Qaryağdı oğlunun adı ilə bağlıdır. Cabbar Qaryağdı oğlu milli mədəniyyət tarixində böyük xanəndə, məşhur musiqi xadimi və vokal sənətinin ən görkəmli nümayəndələrindən biri kimi tanınır.

Cabbar Qaryağdı oğlu 1861-ci il martın 31-də Şuşa şəhərinin «Seyidli» məhəlləsində, boyaqçı ailəsində anadan olmuşdur. Şuşada bu ailə «Qaryağdılar» adı ilə məşhurdur. Ailəyə belə bir ad verilməsi haqqında müəyyən mülahizələr vardır.

Deyilənə görə, Cabbarın atası Məşədi İsmayıl kişi çox dinməz və qaraqabaq adam imiş. Tay-tuşları da onunla tez-tez zarafat edərmişlər: «Ay İsmayıl, yenə nə olub, dünyanın xərc-xəsərətini səndən alırlar? Qar-zad yağmayıb ki, nə qaşqabağını sallamısan?» Sonralar isə dostları ona sadəcə «Qaryağdı» demişlər. Cabbar isə lap uşaqlıqdan özünə «Qaryağdı oğlu» ləqəbini götürmüşdür.

Şuşa ticarət şəhəri olduğundan, o zaman az-çox varlı ailələr öz uşaqlarını həm məktəbə göndərər, həm də asudə vaxtlarında emalatxanada, dükanda öz yanlarında işlədərmişlər.

Məşədi İsmayıl kişi də oğlu Cabbara boyaqçılıq sənətini öyrətmək arzusunda idi, amma Cabbar boyaqçı olmadı. Onu hələ kiçik yaşlarından xanəndəlik sənəti cəlb edirdi.

Keçən əsrin ikinci yarısında Şuşa şəhərində ticarət və sənətkarlıq sürətlə inkişaf etsə də, feodal münasibətləri hələ tamamilə zəifləməmişdi. Şuşada dini adət-ənənələrə ciddi əməl olunurdu. Şəhərin 18 məscidi, 6 kilsəsi vardı. Burada dini mərasimlər çox təntənəli surətdə keçirilirdi.

Boyaqçı Məşədi İsmayıl da oğlanları ilə birlikdə dini mərasimlərdə iştirak edirdi. O, qatı dindar idi. Onun oğlanları - Məhəmməd və Qafar məhərrəmlik təziyəsində şəbihgərdanlıq edirdilər. Gözəl səsi olan Məhəmməd aşura günlərində İran şairi Möhtəşəmin İmam Hüseynə həsr etdiyi şerləri «Zəmin-xarə» üstündə çox təsirli səslə oxuyarmış.

Məşədi Məhəmmədin yanıqlı səsi balaca Cabbara lap uşaqlıqdan ciddi təsir etmiş, onun fikrində dərin iz buraxmışdı. Hələ məktəbə getməyən Cabbar öz böyük qardaşı kimi oxumaq arzusu ilə yaşayırdı. Bu həvəs onu musiqi aləminə çəkirdi. Odur ki, Cabbar da qardaşı Məhəmməd ilə Xarrat Qulunun məktəbində ilk xanəndəlik təhsili alır. Məhərrəmlikdə şəbihgərdanlıq etməyə məcbur olur.

Cabbargilin evi şəhərin ən səfalı yeri olan məşhur «Cıdır düzü»nə yaxın olduğundan, balaca xanəndə öz kiçik qardaşları və məhəllə uşaqları ilə «Qaya başı»nda, «Qırx pilləkən»də və «Ağzı-yastı kaha» ətrafında quzu otarar, oynayardı. Deyirlər ki, Cabbar saatlarla «Dəlik daşın» üstündə oturaraq «Xəzinə qayası»nın mənzərəsinə baxar, «Daşaltı çayı»nın zümzüməsinə qulaq asar, «Topxana» bülbüllərinin cəh-cəhini böyük bir həvəslə dinlərmiş. O zaman mahir musiqişünas Mir Möhsün Nəvvabın rəhbərlik etdiyi «Məclisi-fəramuşan» ədəbi məclisinin üzvləri də hər axşam «Ağzıyastı kaha»ya toplaşar, yeni şerlər oxuyub təhlil edər, ustad sənətkarlardan söz açarmışlar. Məclisin axırında adətən məşhur xanəndələrdən Hacı Hüsü, Məşədi İsi və Dəli İsmayıl oxuyarmışlar. Cabbar həmin xanəndələrin qüvvəli və cəzbedici səsinə heyranlıqla çox qulaq asmışdı; o zaman Hacı Hüsünün sehrli səsi onu çox düşündürmüşdü. Balaca Cabbar bəzən məclis dağılandan sonra sözlərini bilməsə də, musiqinin ahənginə uyğun oxuyar, sevimli müğənniləri yamsılayardı. Çox çəkmir ki, Cabbarın da pərəstişkarları tapılır. Uşaqlar qoyun-quzunu yaylıma aparanda gənc xanəndəni oxudar, onu çılğınlıqla alqışlayarmışlar.

Cabbarın musiqi təhsili almasında, şübhəsiz böyük qardaşı Məşədi Məhəmmədin böyük rolu olmuşdur. Məşədi Məhəmməd Cabbarda musiqiyə, sənətə uşaqlıqdan ciddi münasibət tərbiyə etmiş, ona xalqın klassik və şifahi yaradıcılığına, xalq musiqisinin incəliklərinə həssaslıqla yanaşmağı öyrətmişdir.

Məşədi Məhəmməd xanəndə kimi məşhur olduğundan, onu Şuşada toy və ziyafətlərə dəvət edərmişlər. Məşədi Məhəmməd həmin məclislərə kiçik qardaşı Cabbarı da aparardı. Şübhəsiz ki, gələcəyin böyük xalq xanəndəsi Cabbar Qaryağdı oğlunun mahir bir sənətkar kimi yetişməsinə bu musiqi məclislərinin müsbət təsiri olmuşdur. O, bu məclislərdə Şuşanın görkəmli xanəndələrinin məlahətli səsini tez-tez eşidər, bu sənətin sirlərini əxz edərdi.

Ətraf şəhər və qəzalardan xalq xanəndələrinin Şuşaya toplaşması, təntənəli toy şənlikləri və şəhər əyanlarının təşkil etdiyi böyük məclislər, gözəl Şuşanın bu zəngin musiqi mühiti balaca Cabbarın inkişafında müstəsna rol oynamışdı.

Cabbar 10 yaşında ikən şəhərdəki məktəbə daxil olur. Onun ilk müəllimi Şuşada «Saqəri» təxəllüsü ilə tanınan şair Zeynalabdinin oğlu Mirzəli olmuşdur. Mirzəli fars və türk dillərini mükəmməl bilən, hərtərəfli biliyə malik musiqişünas idi. Mirzəli kiçik Cabbarın nadir səsə malik olduğunu eşidib, ona musiqi elmini öyrədir. Cabbar 15 yaşına qədər Mirzəlinin məktəbində oxumuş və öz müəllimindən musiqi elmini və fars dilini öyrənmişdi. Cabbar məktəbdə oxuduğu illərdə şer yazmağa və hətta yoldaşları ilə beytləşməyə başlayır.

Bir gün şəhərin «Qurdlar» məhəlləsində böyük bir toy olur. Toyda o dövrün məşhur xanəndələri Hacı Hüsü, Məşədi İsi, istedadlı tarzən Sadıqcan, Cavadbəy Əlibəy oğlu və kamançaçı Mirzə iştirak edirmişlər. On altı yaşı yenicə tamam olmuş Cabbar da öz müəllimi Mirzəli ilə həmin toya qonaq gəlibmiş. Məclis qızışır. Hacı Hüsü «Şüştər», Məşədi İsi «Mahur» oxuduqdan sonra Mirzəli toyun «padşahı» şair Növrəs Ələsgərdən gənc Cabbarın oxumasına icazə verməyi xahiş edir. O, tarzən Cavadbəyin müşayiəti ilə «Kürd-Şahnaz»ı oxuyur. Cabbarın zil və təravətli səsi nəinki dinləyiciləri, hətta musiqiçiləri belə məftun edir. Onun bu müvəffəqiyyəti hamıdan çox qoca xanəndə Hacı Hüsünü heyrətdə qoyur. Hacı Hüsü onun alnından öpüb, məclis əhlinə müraciətlə deyir: «Gələcəkdə bizim yerimizi bu cavan xanəndə tutacaqdır».

Bu hadisədən sonra Cabbarın şöhrəti geniş yayılır. Onu şəhərdə olan toylara dəvət edirlər. Gənc Cabbarın toylara dəvət olunmasını eşidən Məşədi İsmayıl kişi çox narahat olur, çünki Məşədi İsmayıl öz oğluna ancaq dini mərasimlərdə oxumağa icazə vermişdi. O, Cabbara toy məclislərində oxumağı qəti qadağan edir. Bundan sonra Məşədi İsmayıl Cabbarı özü ilə «Merdinli» məscidinə gətirər, orada ona mərsiyə oxutdurarmış. S. Qaryağdı oğlu öz xatirələrində yazır ki, «Mən hələ çox gənc ikən «Merdinli» məscidinə gəlib, Ala Palaz oğlu Molla Rza mərsiyə oxuyanda onun üçün «Payi-minbər» oxumuşam».

Ala Palaz oğlu Molla Rza keçən əsrin məşhur sənətkarlarından biri idi, İranda uzun illər xanəndəlik etmişdi. Gənc Cabbar «Payi-minbər» oxumaqla, Ala Palaz oğlundan klassik Şərq muğamlarını düzgün ifa etmək yollarını böyük maraqla öyrənirdi. O, gecə-gündüz düşünür, yenidən musiqi məclislərində iştirak etmək üçün yol axtarır. Gənc Cabbar atasına nə qədər yalvarır, xahiş edirsə də, bir

nəticə hasil olmur. Onun xanəndəlik sənətinə qayıtması barədə mərhum tarzən Qurban Pirimov maraqlı bir hadisə nağıl edir:

«O dövrdə Cabbargilin qonşuluğunda Smirnov familiyalı bir həkim yaşayırdı. Həkim Cabbarın xətrini çox istəyirdi. Cabbar yenidən xanəndəlik etmək üçün ona kömək göstərməyi həkimdən xahiş edir. Həkim ona kömək edəcəyinə söz verir. Bu söhbətdən sonra Cabbar həkimin tapşırığı ilə özünü xəstəliyə vurur. Onun bir balaca naxoşluğu da var imiş; yemir, içmir, gündən-günə sınıxır, geri gedir. Atası Cabbarı həmin həkimin yanına aparır.

Smirnov Cabbarı bir qədər müalicə etdikdən sonra Məşədi İsmayıla deyir: «sənin oğlun vərəm xəstəliyinə tutulmuşdur. Bu qorxulu bir şeydir. Əgər sən onu oxumağa qoymasan, xəstəlik şiddətlənər və oğlunu tez məhv edər». Həkimin bu sözünü eşidən Məşədi İsmayıl çox qorxmuş və həmin gündən oğlunun oxumasına icazə vermişdir».[115]

Bu hadisədən sonra Cabbar çoxdan arzu etdiyi xanəndəlik sənətinə qayıdır. O, yenə də məclislərin bəzəyi olur. Cabbar şəhər məktəbini bitirdikdən sonra məşhur xanəndə Yusif Şahsənəm oğlunun tələbəsi olur. Gənc xanəndə müəllimi Yusifdən bir neçə muğam dəstgahını, o cümlədən «Heyratı», «Rahab», «Bayatı-Qacar» və bir sıra qədim Azərbaycan təsnif və el mahnılarını mükəmməl öyrənir.

Cabbar Qaryağdı oğlunu xalq məclislərinə və el şənliklərinə dəvət edirlər. Hər yerdə onun parlaq istedadından söhbət gedir. Bir gün məşhur tarzən Sadıqcan Cabbar Qaryağdı oğlunu evinə qonaq dəvət edir. O, tarın müşayiəti ilə gənc xanəndəni imtahana çəkir. Usta sənətkarın tarla verdiyi suallara Cabbar bülbül kimi cəh-cəh vuraraq cavab verir. Bu hadisədən sonra Sadıqcan onu rəhbərlik etdiyi ansambla üzv qəbul edir.

Cabbar Qaryağdı oğlu Sadıqcan ilə ilk dəfə Şuşada «Xandəmirovun teatr salonu»nda təşkil olunmuş «Xeyriyyə gecəsində» çıxış etmişdir. Həmin gecə çıxış edənlər arasında Hacı Hüsü və Keştazlı Həşim də vardı. Sadıqcanın müşayiəti ilə Hacı Hüsü «Çahargah», Keştazlı Həşim «Bayatı-Qacar», Cabbar isə «Heyratı» oxuyur. Salondakılar istedadlı xanəndələri, xüsusən gənc Cabbarı hərarətlə alğışlayırlar.

* * *

Cabbar Qaryağdı oğlu 20 yaşına qədər Sadıqcanla peşəkar xanəndə kimi ancaq Qarabağın məclis və toy şənliklərində iştirak etmişdir. Çox çəkmir ki, Cabbarın şöhrəti Bakı, Gəncə, Şamaxı, Ağdaş şəhərlərinə və daha uzaqlara yayılır. Cabbar Qaryağdı oğlunun Ağdaşda olması barədə qəribə bir əhvalat söyləyirlər: «Bir dəfə gecədən xeyli keçmiş Qarabəy karvansarasında qurulan bir məclisdə Sadıqcan tarı sinəsinə basıb «Qarabağ şikəstəsi» çalır, Cabbar da ilhamla oxumağa

---

[115] Qurban Pirimov. Cabbar Qaryağdı oğlu haqqında xatirələrim (əlyazması). Azərbaycan SSR Mədəniyyət Nazirliyi Memarlıq və İncəsənət İnstitutunun arxivi, qovluq № 76; «İzvestiya» qəzsti, 11 mart 1938-ci il, № 58.

başlayır. Çox çəkmədən şəhər əhli yuxudan oyanıb evlərin damlarına çıxaraq, bu qeyri-adi səsə təəccüblə qulaq asırlar. Camaat Qarabəyin karvansarasına sarı axışır. Polis rəisi bu hadisədən təşvişə düşüb atlı kazaklarla karvansaraya gəlir. Kazaklar nə qədər çalışırsa, camaatı dağıda bilmirlər. Nəhayət, Cabbar şikəstəni bitirir, adamlar onun bir daha oxumayacağını yəqin etdikdən sonra çıxıb gedirlər».

Cabbar Qaryağdı oğlunun Gəncə, Qarabağ, Şirvan və Bakı toylarındakı çıxışı, onu tez bir zamanda bütün Azərbaycanda məşhur edir. Çox keçmədən Cabbar Gürcüstanda, Ermənistanda, Orta Asiyada, hətta İranda belə tanınmış sənətkar olur. O, təxminən 25 yaşında ikən tarzən Mərdi Canibəyov və kamançaçı Qəsti Bağdagül oğlu ilə İrana - Murtuzaqulu xanın toyuna dəvət olunur. Gənc Cabbarın coşqun səsi, nadir istedadı əhalinin xoşuna gəldiyindən onu qırx gün buraxmırlar.

Qaryağdı oğlu öz dəstəsi ilə İrandan qayıdarkən İrəvan şəhərinə gəlir. Cabbarın gəlişi şəhərdə bir canlanma yaradır. Bəzi ailələr toy mərasimlərinin gününü qabağa çəkirlər. Cabbar üç həftə gecəbəgündüz toy məclislərində olur. Oradan isə Tiflisə dəvət olunur. Cabbar öz gözəlliyi ilə məşhur olan Tiflis şəhərinin şənlik məclislərində müvəffəqiyyətli çıxışlar edir. Burada o, azərbaycanlıların, gürcü və ermənilərin məclislərində böyük rəğbətlə qarşılanır. Onun Tiflis qastrolu üç ay davam edir. Tiflisin gözəlliyi Cabbarı valeh edir. O, «Tiflisin yolları» adlı mahnısını da bu şəhərə ithaf etmişdi. Cabbar Qaryağdı oğlu Tiflisdən sonra Poti, Kutaisi və Dərbənd şəhərlərində də çıxışlar edir.

Azərbaycanda ilk «Şərq konserti» 1901-ci ilin yayında dramaturq Əbdürrəhimbəy Haqverdiyevin rəhbərliyi altında Şuşada «Xandəmirovun teatr salonunda» təşkil edilmişdi. Konsertdə o dövrün məşhur oxuyan və çalanlarından Keçəçi oğlu Məhəmməd, Qasım Abdullayev, Məşədi Dadaş, Cabbar Qaryağdı oğlu, məşhur tarzən Sadıqcan, Məşədi Zeynal, Arsen Yaramışev, Qrikor Bala oğlu, kamançaçı Avanes, Qosti Bağdagül oğlu, aşıqlardan Abbasqulu, Nəcəfqulu və başqaları iştirak etmişlər. Konsertdə Cabbar Qaryağdı oğlu böyük ifaçılıq qabiliyyəti göstərib, Azərbaycan şairlərindən Füzulinin, Qasım bəy Zakirin, Seyid Əzim Şirvaninin və Xurşidbanu Natəvanın qəzəllərini ilham və məhəbbətlə oxumuşdur. Cabbarın doğma ana dilində qəzəl oxuması muğamatın geniş kütlələr içərisində yayılmasına xeyli kömək etmişdir.

Qaryağdı oğlunun Şərq konsertlərində və musiqili səhnəciklərdə müvəffəqiyyətli çıxışları onun şöhrətini geniş xalq kütləsi arasında daha da artırırdı. Tamaşaçılar istedadlı sənətkarın yüksək və gözəl səsini dönə-dönə dinləməyə can atırdılar.

Şuşanın yaşlı adamları söyləyirlər ki, istirahət günləri Cabbarın hansı bulağın üstündə oxuyacağını əvvəlcədən bilənlər, - dəmirçilər, palanduzlar, başmaqçılar, qalayçı və dərzilər böyük xanəndəyə qulaq asmaq üçün alaqaranlıqdan həmin yerlərə toplaşarmışlar. İstedadlı xanəndə həmişə məclis

əhlinin zövqünü nəzərə alıb oxumuşdur. O, məclisdə dinləyicilərin əhvali-ruhiyyəsini öyrənər, oxuyarkən üzü daim xoş görkəm alar, qəzəllərin mənası ilə yaşayan, şerin qəmli sözlərində kədərli, şən sözlərində şad, yalvarmaq yerində məhzun olar, şux məqamında çöhrəsində oynaq bir təbəssüm yaranarmış. Xanəndə həmişə özünə qarşı tələbkarlıqla yanaşar, doğma ədəbiyyatı, şer və sənəti dərindən öyrənməyə çalışarmış.

XX əsrin əvvəllərində Bakıda kapitalizmin inkişafı ilə əlaqədar şəhər böyüyür və tərəqqi edirdi. Belə bir zamanda buraya Gəcədən, Şəkidən, Şamaxı və Şuşadan bir çox sənətkarlar, o cümlədən yazıçı və musiqiçilər böyük ümidlə gəlirdilər. Onlardan biri də Cabbar Qaryağdı oğlu idi.

1902-ci ilin yanvarında Bakının musiqi həyatında əlamətdar mədəni bir hadisə baş verdi. «Kaspi» qəzeti bu hadisə haqqında belə məlumat vermişdi: Yanvarın 11-də cümə günü Hacı Zeynalabdın Tağıyevin teatrında məşhur Qarabağ aşığı Nəcəfqulunun və xanəndələrdən Qaryağdı oğlu Cabbarın, bakılı Seyidin, Şəkili Ələsgərin və Keçəçi oğlu Məhəmmədin iştirakı ilə Bakıda birinci «Şərq konserti» olacaqdır.[116]

Konsertin proqramı rəngarəng idi. Konsertin birinci hissəsində o zaman bütün Qafqazda bir xanəndə kimi məşhur olan Cabbar Qaryağdı oğlu «Mahur» oxuyur. O dövrün qəzetlərində Cabbarın musiqi qabiliyyətindən, zəngin və məlahətli səsindən, xanəndəlikdə özünəməxsus orijinal yaradıcılığından bəhs edən rəylər dərc edilmişdi. «Kaspi» qəzeti konsertdə iştirak edən xanəndələr içərisində birinci olaraq Cabbar Qaryağdı oğlu haqqında yaxşı rəy yazmışdı: «Cabbar «Mahur»u çox gözəl oxudu, tamaşaçılar uzun müddət onu alqışladılar».[117] Konsertdə eyni zamanda Əbdürrəhimbəy Haqverdiyevin «Tamah» əsərindən toy pərdəsi göstərilmiş və 12 nəfərlik orkestr «Arazbarı» ritmik muğamını müvəffəqiyyətlə ifa etmişdir. «Kaspi» qəzeti yazır ki, «teatrın kassasında bilet qalmamışdı. Çoxlu adam bilet tapa bilmədiklərindən narazı halda geri qayıdırdı. Bakılılar konsertə çox böyqk maraq göstərirdilər».[118]

Bu hadisədən sonra tamaşaçıların tələbi ilə Bakıda, yenə də Hacı Zeynalabdın Tağıyev teatrının binasında (1902-ci il yanvarın 23-də) Əbdürrəhimbəy Haqverdiyevin rəhbərliyi altında ikinci «Şərq konserti» verilir. Birinci konsertdə olduğu kimi, bu dəfə də həmin xanəndələr, aşıqlar, orkestr çıxış edirdi. İkinci «Şərq konserti»ndə Cabbar Qaryağdı oğlu «Heyratı» oxumaqla dinləyiciləri valeh etmişdi. Konsertin axırında dinləyicilər Əbdürrəhimbəy Haqverdiyevi səhnəyə dəvət edib, ona öz minnətdarlıqlarını bildirirlər. Dövri mətbuat ikinci «Şərq konserti» haqqında da tərif-edici məqalələr dərc etmişdi.[119]

---

[116] «Kaspi» qəzeti, II yanvar 1902-ci il, № 9.
[117] «Kaspi» qəzeti, 13 yanvar 1902-ci il, № 11.
[118] «Kaspi» qəzeti, 25 yanvar 1902-ci il, № 27.
[119] «Kaspi» qəzeti 25 yanvar 1902-ci il. №27.

Cabbar Qaryağdı oğlu 1900—1905-ci illərdə tarzən Mirzə Fərəc və kamançaçı Qulu ilə birlikdə beş il Bakının musiqi ocaqlarında çıxış etmişdir. Demək olar ki, o dövrdə bütün Abşeronda heç bir məclis, heç bir toy, heç bir ziyafət Cabbarsız keçməmişdir. Hamı çalışardı ki, onun məclisinin bəzəyi və yaraşığı Cabbarın dəstəsi olsun. Lakin Cabbar öz şəxsi mənafeyini güdən, özünü başqalarından" üstün tutan sənətkar olmamışdır. Qocaman xanəndə İslam Abdullayev deyir: «Bəzən elə hallar olurdu ki, Cabbarı bir gündə 3-4 toya və yaxud məclisə dəvət edirdilər. Belə hallarda Cabbar məclis sahiblərinə özünün xanəndə yoldaşlarını məsləhət görərdi. O» dəfələrlə məni, Keçəçi oğlu Məhəmmədi və Şəkili Ələsgəri özünün dəvət olunduğu məclislərə göndərmişdi. Bir də Cabbar istəməzdi ki, bir kəs ondan incisin. Bəzən elə hallar da olurdu ki, bu gözəl insan və böyük sənətkar bir gecədə bir neçə məclisi gəzib, hər məclisdə bir dəstgah oxumaqla xeyir iş sahiblərinin könlünü alardı. Məsələn, indiki kimi yadımdadır: Bir gün Keçəçi oğlu Məhəmməd ilə mən Bakı məclislərinin birində oxuyurduq. Həmin məclisə bizi Cabbar göndərmişdi. Gəlin gələn axşamı Cabbar qəflətən məclisə daxil oldu. Onun gəlişi məclisi daha da şənləndirdi. Toy sahibi və məclisdə əyləşən ağsaqqallar Cabbarın «Mənsuriyyə» oxumasını xahiş etdilər. Mən və rəhmətlik Keçəçi də Cabbarın «Mənsuriyyə» oxumasını təkid etdikdə, o, gülümsəyərək üzünü məclis əhlinə tutub dedi: «Mənsuriyyə»ni oxuyaram, ancaq bir şərtlə: əvvəlcə Keçəçi oğlu «Çoban bayatı»sını, İslam isə «Yetim segahı» oxusunlar. Sonra mən nə desəniz hazıram.» Biz oxuduqdan sonra Cabbar elə bir «Mənsuriyyə» oxudu ki, əgər o oxumağı mən indi eşitsəydim, ömrüm 20 il uzanardı».[120]

Cabbar Qaryağdı oğlu sözün əsl mənasında ustad sənətkar idi. O, bütün ömrü boyu doğma xalqının incəsənətinin inkişafında çalışmışdır. Cabbar Bakıda təkcə toy və ziyafətlərdə çıxış etməklə kifayətlənməmiş, Mayılovun və Tağıyevin teatrları onu dəfələrlə öz səhnəsinə dəvət etmişdi. Cabbarın tamaşaların fasilələrində dinləyicilər qarşısında çıxış etməsi onun pərəstişkarlarının sayca artmasına səbəb olardı. Bunu nəzərə alan teatr sahibləri Cabbarın çıxışını afişalarda, o dövrün qəzetlərində xüsusi olaraq elan edirdilər. Bütün bu müvəffəqiyyətlərə baxmayaraq, yay gələn kimi Cabbarı doğma yurdu gözəl Şuşanın sərin bulaqları, səfalı meşələri, gəlin kimi bəzənmiş «Cıdır düzü», xüsusilə «İsa bulağı»nın xoş məclisləri cəlb edərdi. Cabbar Qaryağdı oğlunun hər yay Şuşaya qonaq gəlməsi təntənəli el şənliyinə çevrilərdi. Xalq Cabbarı böyük sevinc hissi ilə qarşılardı.

Azərbaycan SSR-nin əməkdar artisti Cəlilbəy Bağdadbəyov «Qaryağdı oğlu haqqındakı xatirələr»ində xalq xanəndəsinin Bakıdan Şuşaya qonaq gəlməsini belə təsvir etmişdir: «Mən hələ uşaq idim. Amma yaşlı adamlardan eşitmişdim ki, Cabbar Bakıda məşhur xanəndədir. Gecə-gündüz onu görməyi arzulayardım. Mən

[120] İ. Abdullayevin xatirələrindən (xatirə kitabın müəllifindədir).- Red.

13 yaşında olanda Cabbar Şuşaya qonaq gəlmişdi. Onu birinci dəfə qonşumuzda olan toyda gördüm. Bundan sonra məhəllədən-məhəlləyə qaçaraq onun oxumasını eşitməyə can atardım.

Cabbarın Şuşaya gəlməsi böyük şadlığa səbəb olardı. Toy sahibləri əvvəlcədən onun vaxtını öz aralarında bölərdilər. Mən bir gün «Bazarbaşı»ndan keçərkən 3-4 kişinin söhbətini eşitdim. Onlar Cabbarın gəlişi münasibətilə bir-birini təbrik edirdilər. Onlardan biri dedi: «Təbrik edirəm, qardaşımız Cabbar gəlmişdir».

Başqası isə cavabında: «Mən də sizi təbrik edirəm».

Cabbar Şuşaya gələrkən bütün şəhər əhli «Çanaxqala»dan tutmuş «Meydana» qədər onun qabağına çıxar vo onu alqışlardı. Şəhər əhli xanəndə ilə elə sevinc və səmimiyyətlə görüşərdi ki, guya Cabbar bu şəhərə səadət, dirilik suyu gətirirdi. Doğrudan da, Cabbar üzü ilə xəstə könüllərə şəfa gətirərdi. Cabbar Şuşada olarkən hər yerdə söhbət yalnız onun haqqında gedərdi».[121]

* * *

1905-ci il burjua-demokratik inqilabının dalğaları Şərq xalqlarını, o cümlədən Azərbaycan xalqını da qəflət yuxusundan oyatdı. İnqilab ictimai həyatın bütün sahələrində olduğu kimi, milli mədəniyyətin tərəqqisinə də şərait yaratdı. Azərbaycanın qabaqcıl ziyalıları ictimai şəraitin yaratdığı imkandan səmərəli istifadə etməyə, xalqı gələcək mübarizəyə hazırlamağa xüsusi diqqət yetirirdilər.

Nəriman Nərimanov, Mirzə Ələkbər Sabir, Cəlil Məmmədquluzadə, Əbdürrəhimbəy Haqverdiyev, Firidunbəy Köçərli, Haşımbəy Vəzirov, Üzeyir Hacıbəyov, Hüseyn Ərəblinski və Cabbar Qaryağdı oğlu kimi tərəqqipərvər mədəniyyət xadimləri Şuşada, Şamaxıda, Gəncədə, Bakıda və başqa şəhərlərdə qəzet, jurnallar nəşr edir, kitabxanalar açır, fəhlə klublarında dram dərnəkləri, artistlər cəmiyyəti və başqa xeyriyyə cəmiyyətləri təşkil edir, beləliklə xalqı maarifləndirməyə çalışırdılar.

1907-1910-cu illərdə Üzeyir Hacıbəyov, Hacağa Abbasov və Cabbar Qaryağdı oğlunun birgə fəaliyyəti nəticəsində Bakının Balaxanı kəndində fəhlə klubunda teatr dərnəyi təşkil edilmişdi. Həmin dərnəyin Mirzə Muxtar, Cahangir Zeynalov, Hüseyn Ərəblinski, Əbülfət Vəli, Mirzağa Əliyev kimi üzvləri fəhlə klubunda tez-tez teatr tamaşaları göstərirdilər. Tamaşaların fasilələrində Qurban Pirimov və Saşa Oqanezaşvilinin müşayiəti ilə Cabbar Qaryağdı oğlu oxuyardı. Cabbar Qaryağdı oğlu bəzən öz sənət dostlarını - Ələsgər Abdullayevi, Keçəçi oğlu Məhəmmədi, Şirin Axundovu, Arsen Yaramışevi Balaxanı klubuna çağırar, yoxsul tələbələrin və məktəbin bəzi ehtiyaclarını ödəmək üçün onların xeyrinə konsertlər təşkil edərdi.

[121] Cəlilbəy Bağdadbəyov. Qarabağ xanəndələri haqqında xatirə (əlyazması). Azərbaysan SSR Mədəniyyət Nazirliyini Memarlıq və İncəsənət İnstitutu arxivi, qovluq № 149.

XX əsrin əvvəllərində «Qrammafon», «Sport-Rekord» və «Ekstrafon» aksioner cəmiyyətləri xanəndələrin səslərini qazanc məqsədi ilə qrammafon vallarına yazır və əhali arasında yayırdılar. O zaman Yaxın və Orta Şərqdə, Qafqazda ən məşhur bir xanəndə kimi şöhrət qazanmış Cabbar Qaryağdı oğlu 1906-1912-ci illərdə «Sport-Rekord» və «Qrammafon» aksioner cəmiyyətlərinin dəvətilə Qurban Pirimov və Saşa Oqanezaşvili ilə birlikdə Kiyev, Moskva və Varşava şəhərlərinə gedərək səsini qrammafon zalına saldırmışdı.

Cabbar Qaryağdı oğlunun «Sport-Rekord» firması tərəfindən yazılmış valı satışa buraxılmışdı. Bundan əlavə, firma qrammafon vallarının kataloqunu kitabça şəklində buraxaraq əhali arasında yayırdı. Bu kitabın səhifələrinlə oxuyan xanəndələri» şəkilləri, vala yazılmış muğam və təsniflərin adları, kataloq nömrələri göstərilmişdi.

Cabbar Qaryağdı oğlu səsini vala yazdırarkən, klassik Şərq və Azərbaycan muğamlarının hamısını və bu muğamların təsniflərini böyük məharətlə oxumuşdur. Xalqımızın musiqi tarixində «Kürdü-Şahnaz», «Mənsuriyyə», «Mahur» və xüsusilə «Heyratı»nı Cabbar Qaryağdı oğlu qədər misilsiz məharətlə oxuyan ikinci bir xanəndə olmamışdır; onun səsindəki mübariz ruh, əzəmət və nikbinlik insanın qəlbində xoş hisslər oyadır, gələcəyə inam hissi aşılayırdı. Seyid Şuşinski qeyd edirdi ki, Cabbar oxuyanda elə bil qüvvətli bir dağ çayı daşaraq aləmi selə-suya bürüyüb qabağına qatırdı.[122]

Cabbar Qaryağdı oğlu klassik muğamlardan «Bayatı-Şiraz», «Orta mahur», «Çahargah», «Rast», «Mirzə Hüseyn segahı»nı, ritmik muğamlardan isə «Simayi-şəms», «Mani», «Qarabağ şikəstəsi», «Araz-barı», «Əfşarı» və başqa muğamları böyük zövqlə oxuyardı. Bunlardan əlavə o, qədim Azərbaycan mahnılarından «Gəlin gedək daş altına gəzməyə», «Gözüm yaşına tab etməz», «Damınızdan damcı düşər», «Qalalıyam qalalı» və «Qarğamışam»ı son dərəcə lirik tonda ifa edərdi.

Cabbar Qaryağdı oğlu 1912-ci ildə Varşavadan qayıdarkən Moskvada Keçəçi oğlu Məhəmməd, Davud Səfiyarov, Məşədi Məmməd Fərzəliyev, Qurban Pirimov və Saşa Oqanezaşvilinin iştirakı ilə «Şərq konserti» vermişdi.[123] Moskva tamaşaçıları «Şərq konsertləri»nə böyük maraq göstərdiyindən həmin konsertlər bir neçə dəfə təkrar edilmişdi. Konsertlərdə ifaçılar sənət nümunələri göstərmiş və böyük şöhrət qazanmışdılar.

Cabbar Qaryağdı oğlunun rəhbərlik etdiyi sazəndələr dəstəsi bir aya qədər Moskvada qalaraq, orada yaşayan qafqazlıların toy şənliklərində, ziyafət salonlarında çıxış etmişdi. S. Qaryağdı oğlu həm də o zaman Moskva konservatoriyasında tələbə olan Üzeyir Hacıbəyovun şərəfinə gecələr keçirmiş və həmin gecələrdə yığılan pulları gənc bəstəkarın ehtiyacına sərf etmişdi.

[122] Bax: «Azərbaycan müəllimi» qəzeti, 17 iyul 1960-cı il, №57.
[123] «Kommunist» qəzeti, 29 aprel 1929-cu il, № 97.

* * *

Cabbar Qaryağdı oğlu Hacı Hüsü, Bülbülcan, Məşədi İsi kimi zənggin yaradıcılıq yolu keçmiş sənətkarlardan biridir. O, hər şeydən əvvəl böyük muğam ustası idi; muğamatın incəliklərini, onun texnikasını dərindən bilirdi. C. Qaryağdıoğlu hər bir muğamın spesifik xüsusiyyətini və müxtəlif hissələrini məharətlə oxuyar və bu hissələrdən bir-birinə keçmək üçün təsniflərdən böyük ustalıqla istifadə edərdi. Məsələn, Qaryağdı oğlu «Bayatı-Qacar» muğamını çox orijinal bir şəkildə, məhz Azərbaycan muğamının xüsusiyyətlərinə əsasən oxuyurdu. «Kürdü-şahnaz» və «Dəşti»ni son dərəcə lirik tonda, özünəməxsus əlavə zəngulələrlə dinləyicilərə çatdırardı. Böyük xanəndə «Çahargah» muğamını oxuyarkən qeyri-adi bir ustalıqla bir neçə formada sürəkli zəngulələr vuraraq, dəstgahın ən çətin gediş-gəliş yollarını orijinal tərzdə məharətlə gəzişərdi.

İslam Abdullayev xatirələrinin birində qeyd edir ki, Cabbar kimi «Mənsuriyyə» oxuyan ikinci bir xanəndə görməmişəm.[124]

Qocaman xanəndə bu sözləri təsadüfən demirdi. «Mənsuriyyə»ni ifa etmək xanəndədən böyük ustalıq tələb edir. «Mənsuriyyə»dən sonra isə «Mənsuriyyo»nin zərbi - «Üzzal» hissəsi gəlir. Bu hissələr çox yüksək zil səslə oxunmalıdır. Belə səsə malik olmayan xanəndə bu muğamı oxuya bilməz. Lakin Cabbar Qaryağdı oğlu «Mənsuriyyə»ni oxuyarkən, xanəndələrin təbirincə desək, elə gözəl yollar, elə üsullar tapıb seçərmiş ki, tarçalanlar çaşıb özlərini itirərmişlər. Bunun nəticəsində bəzən məşhur tarzənlər belə Cabbar Qaryağdı oğlu ilə ayaqlaşmaqda çətinlik çəkərmişlər. Məhz buna görə də Cabbar Qaryağdı oğlu «Mənsuriyyə»ni və zil səslə oxunan bəzi muğamları kamançanın müşayiəti ilə ifa edərmiş.

Cabbar Qaryağdı oğlu həmişə dərin məzmunlu lirik qəzəllər oxuyardı. Cabbar təkcə Azərbaycan dilində deyil, həm də Hafizin, Sədinin, Füzulinin fars dilində yazdıqları qəzəlləri böyük məharətlə, şirin bir ahənglə oxuyardı. Cabbar Qaryağdı oğlu hər muğama uyğun qəzəl axtarıb seçər, xanəndəlik sənətinə, böyük qayğı və həssaslıqla yanaşardı. Bu haqda Cəlilbəy Bağdadbəyov maraqlı bir hadisə söyləyir:

«Bir dəfə Bakının «İçərişəhər»ində bir dövlətli tacir öz oğluna toy edirdi. Qonaqların arasında 10-12 fars taciri də var idi. Cabbar və iki nəfər qeyri xanəndə bu məclisdə oxuyurdu. Əvvəlcə xanəndənin biri «Şur» muğamını oxuduqda, fars qonaqlarının üzündə bir narazılıq görürdü. Sonra bir-biri ilə çox yavaşdan danışıb dedilər: «Görəsən musiqini bilməyən adam niyə xanəndəlik edir». Digəri isə fars sərmayədarlarına məxsus qudurqanlıqla: «Bunlar türkdürlər, musiqinin nazik yerlərini, hissələrini bilməzlər» deyə cavab verdi. Mən özümü bilməməzliyə vurub bir söz demədim. Toy sahibi Hacı qonaqların üzündəki narazılığı görüb Cabbarın oxumasını xahiş etdi.

[124] «Ədəbiyyat və incəsənt» qəzeti, 1 aprel 1961-ci il, № 12.

Cabbar «Mahur-Hindi» dəstgahını başlayaraq Sədinin məşhur və «Mahur»a uyğun bu qəzəlini oxudu:

Bəxte-cavan darəd on ke, be to qərin əst
Pir nəgərdəd ke, dər behiştə bərin əst.

(«Gənclik bəxtinə o şəxs malikdir ki, sənə yaxındır. Qocalmaz o, çünki behiştdədir»).

Cabbar qəzəli axıra kimi oxuduqda fars qonaqlarında heyrətli bir maraq və hərəkət oyanıb, sanki Cabbarın ağzından çıxan hər bir sözü tutmaq, udmaq və qucaqlamaq istəyirdilər. Qonaqlar Cabbarı dinlədikcə elə bil özlərini Bakıda toyda deyil, bəlkə aləmi-lahutidə, şer aləmində hiss edirdilər. Cabbar oxuduqca bayaqdan əda və vüqarla oturan qonaqlar, möcüzəli səsin ruhverici nəşəsindən məst olan kimi özlərini saxlaya bilmirdilər. Hamının nəzərini cəlb edəcək halda bərkdən «bərəkallah», «səd həzər afərin», («yüz min afərin») «mükərrər» (bir də, bir də) «qurbane eşqət» (eşqinə, həvəsinə qurban) sözləri ilə böyük ustadı alqışlayırdılar.

Toy sahibi Hacı bu vəziyyətə baxıb fəxrlə saqqalını tumarladı. Kiçik bir tənəffüsdə fars qonaqları ilə mən də artırmaya çıxıb bir addım aralı dayandım. Bunların arasında 65-70 yaşlarında bir nəfər var idi ki, hamısı onunla çox hörmətlə danışırdı. Qoca Cabbardan söhbət açıb haralı və adı nə olduğunu soruşduqda. Mən xanəndənin Cabbar Qaryağdı oğlu olduğunu söylədim. Bunlar mənim farsca danışmağımdan şad olub Cabbar barəsində çoxlu suallar verdilər. Bir qədər söhbətdən sonra məlum oldu ki, qoca fars musiqişünasıdır, İranın bütün xanəndələri onun məclisində olur.. Qoca Cabbarın kim olduğunu bildikdən sonra dedi: «Mən elə düşünürdüm ki, daha Şirazlı Əlidən sonra dünyada bir elə səsə və ustalığa təsadüf etməyəcəyəm. Amma məlum oldu ki, mən yanılmışam... Belə bir xanəndə, özü də türk, maşallah...

Digəri cavabında dedi: Bəli, ağa?

Hər bişə güman məbər ki, xalist,
Şayəd ki, pələng xüftə bəşəd[125]».
(hər meşəyə ehtiyatsız girmə
Birdən orada yatmış pələng olar)

C. Qaryağdı oğlu həmişə dinləyicilər qarşısında zəngin və orijinal repertuarla çıxış edərdi. Maraqlı burasıdır ki, Cabbar Qaryağdı oğlu erməni, gürcü, ləzgi, türkmən və özbək dillərində də mahnılar oxuyardı. Məsələn, o, Ermənistanda

---

[125] Cəlilbəy Bağdadbəyov. Qarabağ xanəndələri haqqında xatirəm (əlyazmaları). Azərbaycan SSR Mədəniyyət Nazirliyi, Memarlıq və İncəsənət İnstitutunun arxivi, qovluq № 149.

çıxış edərkən Azərbaycan mahnılarından «Gülə-gülə», «Mənə nə oldu» və sair mahnıları erməni dilində də oxumuşdur. Qardaş erməni xalqı Cabbar Qaryağdı oğlunu dinlərkən onun incə bir tonla ifa etdiyi «Mənə nə oldu» mahnısını oxumağı ondan dəfələrlə xahiş edərmişlər. C. Qaryağdıoğlu mahnının bu sözlərini ermənicə deyərmiş:

Sarı çəkmən yırtılsın,
Canım səndən qurtulsun.
Məndən başqa yar sevsən
Şirin dilin tutulsun.

Bu sözləri eşidən dinləyicilər «Bir də, bir də», «Sağ olsun Qarabağ», «Yaşa, Cabbar girvə» deyərək onu hərarətlə alqışlamışlar. Bu mahnı sonralar erməni müğənniləri tərəfindən «Anqut axçik» («İnsafsız qız») adı altında oxunmuşdur. Bunlardan əlavə C. Qaryağdıoğlu «Mayrik can» («Ana can»), «Xabaremyes» («Xəbərim var»), «Sarı axçik» («Dağ qızı») və sair erməni xalq mahnılarını çox müvəffəqiyyətlə oxumuşdur.

Cabbar Qaryağdı oğlu toy məclislərinə və konsert qastrollarına gedərkən, o yerlərdə aylarla qalmağa məcbur olarmış, çünki xalq onun oxumağından doymazmış.

Cəlilbəy Bağdadbəyov C. Qaryağdıoğlu haqqında maraqlı bir əhvalat da nağıl edir:

«1911-ci ildə mən İrəvanda yerli həvəskarlar ilə teatr verirdim. Yay fəslinin əvvəlində Cabbar, tarçalan Şirin Axundov və kamançaçı Qulu İrəvana gəldilər. Mən Cabbarı görməyə getdikdə onun yanında Cümşüd adlı bir qoca xanəndə var idi. Cabbar məzkur Cümşüdün nəfinə olaraq bir konsert verəcəyini söyləyib, afişa hazır etməyi məndən xahiş etdi. Sabahı günü axşam «Canpoladovun teatrında» Cabbarın öz dəstəsi elə konsert vermək afişası yanışdırıldıqda bir saatın içərisində biletlər satılıb qurtardı. Axşam ömrümdə görmədiyim bir hadisənin şahidi oldum. Biletsiz qalmış minə qədər tamaşaçı bilet tələb edirdi. Hamıdan artıq uzaq kəndlərdən gəlmiş erməni kəndliləri nəğd olaraq bilet istəyirdilər. Çox zəhmətdən sonra teatrın yay binasında Cabbarın ikinci konsertini elan etdim. Sabahı gecə əvvəlkindən də artıq adam gəldiyindən bu dəfə nə edəcəyimi bilmədim. Bilet və yer olmadığı üçün bayırda qalanların etirazı hiddətə, açığa çevrildi. Cabbar özü səfalı «Xürrəm» bulağının ətrafında oxuyacağını elan etdikdə, kütlənin əlindən xilas olduq. Konsert gecələrində dinləyicilərin 95 faizi ermənilərlə azərbaycanlılar idi. Cabbar həmin gecələrdə oxuması ilə hər iki milləti hədsiz dərəcədə şad etdi. Onun erməni dilində oxuduğu «Krunq» («Durnalar») nəğməsi şadlıq və heyrətin zirvəsi idi. Bir gün sonra Xaçaturov familiyalı bir müxbir yerli qəzetlərdə Cabbarı layiqincə tərif edib, məqaləsini bu cümlələrlə bitirmişdi: «Cabbar Qaryağdının ən

yüksək və şöhrətli xanəndə olmağına şübhə ola bilməz. Onun erməni dilində oxuduğu nəğmələrdə azərbaycanlılıq aksenti hiss olunmurdu. Bu isə Cabbarın ən müstəsna istedad sahibi olduğunu isbat edir. Cabbar Qaryağdı oğlu insanların ruhunu cəlb edib istədiyi qədər hökm edə bilər».[126]

1916-cı ildə «Piron» qardaşları neft şirkətinin pulu ilə İbrahimbəy Musabəyovun «Neft və milyonlar səltənəti» romanı əsasında Bakıda ilk bədii Azərbaycan kinofilmi çəkmişdi. Filmdə baş rolda məşhur Azərbaycan artisti Hüseyn Ərəblinski oynamışdı. Kino şirkətinin sahibləri Cabbar Qaryağdı oğlunu görkəmli bir xanəndə kimi filmdə çəkilmək üçün dəvət etmişdilər. Filmdə Cabbar Qaryağdı oğlu oxumuş, həm də sazəndələrin xoruna rəhbərlik etmişdir. Bu film Zaqafqaziyanın kino-teatrlarında böyük müvəffəqiyyət qazanmışdır.

* * *

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Cabbar Qaryağdı oğlunun həyatında yeni dövr başlandı. O, böyük inqilabi çarpışmalar hesabına qazanılmış Oktyabr inqilabı nailiyyətlərini qorumaq və yeni həyat uğrunda ümumxalq mübarizəsinə qoşulmaqla qabaqcıl mədəniyyət ustası olduğunu sübut etdi. Qaryağdı oğlu öz sənəti ilə gənc sovet Azərbaycanına köməyə gəldi. O, Azərbaycanda sovet hakimiyyətinin qələbəsini möhkəmləndirmək məqsədi ilə təşkil edilmiş «Təbliğat briqadası»nın fəal iştirakçısı oldu. Cabbar Qaryağdı oğlu 1920-1923-cü illər ərzində bu briqada ilə birlikdə Göyçay, Ağda°, Tovuz, Gədəbəy, Quba, Gəncə və s rayon və şəhərlərə gedərək konsertlər vermiş, aparılan təbliğat işində böyük fəaliyyət göstərmişdir.

Cabbar Qaryağdı oğlu Azərbaycan Dövlət Konservatoriyasının ilk təşkilatçılarından biri olmuşdur. O, klassik musiqidən dərs deyərək, var qüvvəsini yeni musiqi kadrları, xüsusilə gənc xanəndələr yetişdirmək işinə həsr etmişdir.

Cabbar Qaryağdı oğlu Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında və Radio verilişləri idarəsində uzun müddət səlistlik etmiş, eyni zamanda Azərbaycan Dövlət Konservatoriyasının elmi-tədqiqat kabinəsinin məsləhətçisi olmuşdur. Yarım əsrdən artıq bir dövrdə topladığı 270-dən artıq xalq mahnısını və musiqi parçalarını həmin tədqiqat kabinəsinə verərək, Azərbaycan xalq musiqisi fondunu zənginləşdirmişdir. Onun 30-dan çox mahnısı görkəmli bəstəkarlarımız Üzeyir Hacıbəyov və Müslüm Maqomayev tərəfindən nota salınmışdır.

Cabbar Qaryağdı oğlu opera və operetta yazan bəstəkarlarımıza yaxından kömək edərdi.

Məşhur Sovet bəstəkarı R. M. Qlier «Şahsənəm» operasını bəstələmək üçün 1923-cü ildə Bakıya gəlir. Qlier hələ operanın musiqisini yazmazdan əvvəl

---

[126] Cəlilbəy Bağdadbəyov. Qarabağ xanəndələri haqqında xatirə (əlyazması) Azərbaycan SSR Mədəniyyət Nazirliyi Memarlıq və İncəsənət İnstitutunun arxivi, qovluq № 149.

Azərbaycan xalqının zəngin musiqisinin xüsusiyyətini dərindən öyrənir. Bu işdə Cabbar Qaryağdı oğlunun və onun sənət yoldaşı görkəmli tarzən Qurban Pirimovun bəstəkara böyük köməyi olmuşdur.[127]

Cabbar Qaryağdı oğlu bir çox qədim Azərbaycan mahnı və təsniflərini («Arazbarı», «Şikəstə», «Aşıqların yarışı») Qurban Pirimovun müşayiəti ilə dəfələrlə bəstəkar üçün oxumuşdur. «Şahsənəm» operasının yaranmasında R. Qlierə xüsusi bir maraqla kömək etdiyinə görə Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi Cabbar Qaryağdı oğlunu Fəxri Fərmanla təltif etmişdi. Bəstəkarın özü isə Cabbar Qaryağdı oğluna minnətdarlığını bildirərək «Bakinski raboçi» qəzetində yazmışdı: «Operada istifadə etdiyim mahnıların, demək olar ki, hamısı Azərbaycanın qədim mahnılarıdır və bunları mənə məşhur xanəndə Cabbar Qaryağdı oğlu vermişdir».[128]

Böyük Firdovsinin min illik yubileyi münasibəti ilə C. Qaryağdı oğlunun tərtib etdiyi altı klassik musiqi parçası nota salınaraq çap edilmişdir. «Ədəbiyyat qəzeti» 1935-ci il 11 iyun tarixli nömrəsində bu haqda yazırdı: «...Olduqca nəfis şəkildə çap edilmiş bu parçaların nəinki bizdə (Azərbaycanda. - F. Ş.), bəlkə bütün Şərq mədəniyyəti ailəsində böyük rolu vardır».[129]

Cabbar Qaryağdı oğlu xalq musiqisinin ən gözəl nümunələri olan təsnif və mahnıların toplanmasına xüsusi həssaslıqla yanaşmışdır. O, 1934-cü ildə altı ay müddətində professor Bülbülün rəhbərlik etdiyi «Azərbaycan musiqisini öyrənən elmi kabinet»ə 220 xalq mahnısı, təsnif və 70-ə qədər xalq musiqi parçası vermişdir. Qaryağdı oğlu həmin mahnı və təsnifləri köhnə dostu tarzən Qurban Pirimovun müşayiətilə oxumuşdur. Cabbar Qaryağdı oğlupup ifa et-diyi 300-ə qədər mahpı vo təsnifi professor Bülbül fonovalikə yazmış, bəstəkar Səid Rüstəmov isə nota köçürmüşdür. Cabbar Qaryağdı oğlu tərəfindən fonovalikə köçürülmüş 50 xalq mahnısı 1938-ci ildə Azərbaycan musiqisini öyrənən elmi kabinet tərəfindən «Azərbaycan xalq nəğmələri» başlığı altında ayrıca kitab şəklində çap edilmişdir. Kitabda mahnıların mətni Azərbaycan və rus dillərində verilmiş, hər mahnının not yazısı da göstərilmişdir. Bu kitab indi belə öz əhəmiyyətini itirməmişdir. Professor Bülbül həmin kitaba yüksək qiymət verərək yazmışdır: «Elmi tədqiqat musiqi kabinəsi tərəfindən nəşr edilən «50 el mahnısı məcmuəsi» Azərbaycan SSR xalq artisti, ordenli Cabbar Qaryağdı oğlunun 1934-cü ildə oxuduğu nəğmələrin ancaq bir hissəsidir. Yaşının çox olmasına baxmayaraq, bu vaxta qədər professional ustad olan xanəndə Qaryağdı oğlunun yadında bir sıra xalq mahnılarının bütün xüsusiyyətləri - təzəliyi və koloritinin orijinallığı hələ də qalmışdır. Bu melodiyalar Azərbaycan milli mahnı formalarını əhatə edir.

[127] «Pravda» qəzeti, 8 aprel 1938-ci il, № 97.
[128] «Bakinski raboçi» qəzeti, 1 may 1934-cü il, № 102.
[129] «Ədəbiyyat» qəzeti, 11 iyun 1935-ci il.

Həmin məcmuə musiqi ictimaiyyəti və bəstəkarlar üçün buraxılmışdır. Onlar ayrı-ayrı mahnıların üzərində işləmək və müxtəlif formalı musiqi əsərlərində bunlardan istifadə etmək üçün bu məcmuədə qiymətli material tapa bilərlər».[130]

1934-cü il may ayının 30-da Tbilisidə Zaqafqaziya xalqlarının incəsənət olimpiadası açıldı. Xalq yaradıcılığını daha da inkişaf etdirmək məqsədi ilə təşkil edilmiş bu olimpiada Zaqafqaziya xalqlarının mədəni inkişafında böyük tarixi hadisə idi. Olimpiadada 17 milləti təmsil edən 1900 nəfər iştirak edirdi. Olimpiada dörd gün davam etdi. Buraya Zaqafqaziyanın ən məşhur xanəndələri, gözəl çalğıçıları və rəqs ustaları dəvət edilmişdi. Olimpiadada böyük müvəffəqiyyətlə çıxış edən 74 yaşlı Cabbar Qaryağdı oğlu birinci mükafata layiq görülmüş və Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin birinci dərəcəli Fəxri Fərmanı ilə təltif edilmişdi. O dövrün mətbuatında Cabbar Qaryağlı oğlu haqqında yaxşı rəylər yazılmışdı.[131]

1935-ci il martın 31-də M. Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrının binasında Cabbar Qaryağdı oğlunun anadan olmasının 75 illik yubileyi keçirilmişdi. Gecədə yazıçı Hacıbaba Nəzərli məşhur xalq xanəndəsinin həyat və yaradıcılığı haqqında geniş və məzmunlu məruzə etmişdi.

Rəsmi hissədən sonra böyük «Şərq konserti» olmuşdu. Həmin gecədə yubilyardan başqa Azərbaycan incəsənətinin ən yaxşı nümayəndələri H. Sarabski, Qurban Pirimov, H. Hacıbababəyov, Y. Kələntərli, S. Talışinskaya, S. Qacar və A. A. İonesyanın idarəsi altında birinci Azərbaycan Şərq orkestri də çıxış etmişdilər.

Təntənəli yubiley gecəsində Cabbar Qaryağdı oğluna xalq artisti adı verilməsi münasibəti ilə Azərbaycan Xalq Komissarları Şurasının qərarı oxunmuş, yubilyara 1.500 manat mükafat, pianino, patefon, qızıl saat və s qiymətli hədiyyələr verilmiş, şəxsi təqaüd təyin edilmişdi.

Azərbaycan Xalq Maarif komissarı Müseyib Şahbazov yoldaş yubiley münasibətilə Cabbar Qaryağdı oğlunu təbrik etmişdir:

**«Cümhuriyyətin xalq artisti Cabbar Qaryağdı yoldaşa!**

Musiqi incəsənəti cəbhəsində fəaliyyətinizin 60 illik yubileyi münasibəti ilə sizi təbrik edirəm. Vokal incəsənətinin ən yaxlı və ən köhnə nümayəndələrindən biri olaraq, siz öz həyatınızın 60 ili ərzində xalq mədəniyyətinin inkişafına, həmçinin gənc kadrlar yetişdirilməsinə böyük qüvvə və enerji sərf etmişsiniz.

Ordenli Cümhuriyyətin hökuməti tərəfindən sizə Xalq artisti adı verilməsi münasibəti ilə sizi təbrik edərək, uzun illər yaşamanızı və gələcək fəaliyyətinizdə müvəffəqiyyətlər qazanmanızı arzu edirəm.

[130] «Azərbaycan xalq nəğmələri». Bakı, 1938, səh. 4.
[131] Bax: «Kommunist» qəzeti, 3 iyul 1934-cu il, № 129.

ASŞC Maarif komissarı
M. Şahbazov»[132]

Sovet hökuməti xalq artisti Cabbar Qaryağdı oğlunun uzun illər səmərəli yaradıcılıq fəaliyyətini və onun musiqi mədəniyyətimizin inkişafındakı ölməz xidmətlərini nəzərə alaraq, onu «Şərəf Nişanı» ordeni ilə təltif etmişdir.

Cabbar Qaryağdı oğlunun yaradıcılığı çoxcəhətli idi: o xanəndə, bəstəkar və şair kimi də tanınırdı. Onun poetik yaradıcılığa meyli gənc yaşlarından başlanmışdı. O, kiçik şerlər, sonralar isə qəzəllər yazmışdır. Onun «Var» rədifli məşhur qəzəli xanəndələr tərəfindən sevilə-sevilə oxunmuşdur:

Saldı yarım üzünə zülfün, əcəb purçəmi var,
Bu nə işvə, bu nə qəmzə, necə gör çəm-xəmi var.
Gah gülür, gah danışır, qaş-göz atır məxluqə,
Dili-üşşaqi yığıb dəstinə, cami-cəmi var.
Ətri-tavusu kimi çətri vurur hər yanə.
Hər surahinə baxanda deyəsən bir kəmi var.
Üzü güldür, dodağı püstə, dili badam içi,
Görəsən bir belə yarı olanın nə qəmi var.
Öldürür, gahi dirildir, yenə bihuş edir,
Bunu Məryəmdi doğan, yoxsa ki, İsa dəmi var.
Salasan ağzına lumu kimi pustanlarını,
Bir doyunca əməsən, ah nə yaxşı təmi var.
Ey gözəl, rəhm elə Cabbarə qoca vaxtında
Qaşların taqi əyibdir, demə qəddi-xəmi var.

Cabbar Qaryağdı oğlu təsnif havalarında olan bir çox şerləri yenidən işləmiş, onlarca mahnının mətnini yazmışdır. Bu təsnif və mahnılardan «Məmələr», «İstəkanın deşilsin», «Kaş ki, bayram olmayaydı», «Məni dövri-fələk», «Tiflisin yolları», «Naxçıvanın gədiyindən aşeydim», «Qalalıyam qalalı», «Qarabağda bir dənəsən», «Ay ayağında məsi var», «Gəlin gedək Daşaltına gəzməyə» və s göstərmək olar.

Onun xüsusi bir məharətlə bəstələdiyi «İrəvanda xal qalmadı» mahnısı dillər əzbəri olmuşdur. Bu gözəl, son dərəcə lirik tonda səslənən mahnının maraqlı bir tarixi vardır.

İrəvan şəhərinin varlı sakinlərindən biri Cabbarı oğlunun toy məclisinə dəvət edir. Toyun axırıncı gecəsi ümumi qayda üzrə «Özündənbəy» tariflənməli

[132] «Kommunist» qəzeti, 9 aprel 1935-ci il, № 82

idi. Ona görə də Qaryağdı oğlu «Toyun tərifi» mahnısını oxuyur və «bəyi» tərif edir.

«Özündənbəyin» tərifini eşidən qızın atası narazı halda xanəndəyə deyir:

Bəs mənim qızımı niyə tərifləmədin?

Cabbar belə gözlənilməz sualdan heç də narahat olmayıb cavab verir:

- Əmioğlu, adət belədir, toyda gəlini yox, bəyi tərifləriər. Qızın atası:

- Niyə, gəlinin bəydən nəyi əskikdir?

Qızın atasının bu sözlərini eşidən məclis əhli gülüşür. Lakin Cabbar Qaryağdı oğlu qızın atasının pərt olduğunu nəzərə alıb dillənir:

- Yaxşı, iş ki belə oldu, gəlini məclisə çağırın, mən də onu görüb tərif edim.

Cabbarın bu sözündən qızın adamları hiddətlənirlər:

Belə adət yoxdur ki, qızı məclisə dəvət edəsən - deyə qızın atası da əsəbiləşir.

Cabbar çox sakit və mülayim halda deyir:

- Onda qızın nişanələrini deyin, mən də ona mahnı qoşum.

Deyirlər ki, qızın üzündə qoşa xalı var. Bunu eşidən Qaryağdı oğlu tarzənə müraciətlə:

- Qurban, tarı götür dalımca gəl!

Qaryağdı oğlu bədahətən qızın şərəfinə bu mahnını qoşur:

İrəvanda xal qalmadı,
O xal nə xaldır, üzə düzdürmüsən?
De görüm nə xaldır qoşa düzdürmüsən?
Daha məndə can qalmadı.
O xal nə xaldır, üzə düzdürmüsən?
De görüm nə xaldır, qoşa düzdürmüsən?
Xal mənim,
Yar mənim,
İxtiyar mənim.
Xalqa nə borcdur, üzə düzdürmüşəm?!
Yarım deyibdir qoşa düzdürmüşəm.

Mahnı məclisi heyran edir. Qızın atası da razılıqla gülümsəyir. Hamı xanəndəni alqışlayır.

Yeni sosializm quruluşundan ilham alan Cabbar Qaryağdı oğlu müasir mövzuda da şerlər yazmışdır. Onun «Bakı», xüsusilə məşhur pambıq ustası Bəsti Bağırova haqqında yazdığı mahnılar dillər əzbəri olmuşdur.

Cabbar Qaryağdı oğlu xanəndəlik sənətində yeni mərhələ açmışdır. Xalqımızın zəngin musiqi irsindən bacarığla istifadə edən Cabbar Qaryağdı oğlu keçmiş xanəndələrdən fərqli olaraq, Nizaminin, Füzulinin, Zakirin, Vaqifin, Seyid

Əzim Şirvaninin və Natəvanın şerlərindən istifadə edib, fars təsniflərinin əvəzinə Azərbaycan dilində təsniflər oxumağa başlamışdır. Bunun başlıca səbəbi isə sənətkarın ədəbiyyatımızı yaxşı bilməsi və xalqa yaxın olması idi. Bir çox xanəndələr (Malıbəyli Həmid, Zabul Qasım, İslam Abdullayev) Cabbarın yolu ilə gedərək, bilavasitə Azərbaycan şairlərinin qəzəllərini oxuyurdular. Professor Bülbül yazır ki, xanəndələrimiz içərisində ən fəxri yerlərdən birini şübhəsiz ki, Cabbar Qaryağdı oğlu tutur. İlk dəfə mahallara çıxan, xalq nəğmələrini oxuyan, onların inkişafına yardım edən Cabbar olmuşdur. Onu Azərbaycan mahnılarını oxuyan xanəndələrin pioneri və bu işin müəssisi hesab etmək olar.[133]

* * *

Azərbaycan musiqisi tarixində heç bir xanəndə xalq musiqi yaradıcılığını Cabbar Qaryağdı oğlu qədər dərindən bilməmişdir.

Cabbar Qaryağdı oğlu yaradıcılığının bütün mənası, ruhu, mündəricəsi etibarı ilə həqiqi xalq müğənnisidir. Dünya musiqi aləmində Cabbar Qaryağdı oğlunun adı E. Karuzo, F. Şalyapin və B. Çili kimi böyük müğənnilər ilə yanaşı çəkilə bilər.

Cabbar Qaryağdı oğlu Azərbaycan milli musiqisini dərindən öyrənmək, ifa və təbliq etmək yolunda böyük nailiyyətlər əldə etmişdi. O, müxtəlif və saysız-hesabsız el havalarının, zəngin və mürəkkəb muğamatın mahir bilicisi idi.

«Bakinski raboçi» qəzeti yazırdı: «İnqilabdan əvvəl not yazıları olmadığından, xalq xanəndələri və çalğıçılar çoxlu mahnı və melodiyaları yadda saxlamalı olmuşlar. Azərbaycan xalqı çoxlu miqdarda melodiya hifz eləmişdir. Bizim xanəndələrin atası, respublikanın xalq artisti 80 yaşlı Cabbar Qaryağdı oğlu xalq xanəndələrinin musiqi yaddaşının nə qədər zəngin olduğuna canlı misaldır. Cabbar Qaryağdı oğlu Azərbaycan musiqi folklorunun canlı ensiklopediyasıdır. O, 500-ə qədər müxtəlif mahnı və musiqi variasiyaları yadda saxlamışdır».[134]

Cabbar Qaryağdı oğlunun vokal sənəti sahəsindəki yaradıcılığı milli musiqimizin inkişaf yollarını tədqiq etmək üçün son dərəcə maraqlıdır. Onun yaradıcılığında xalq xanəndələrinin gözəl ənənələri öz təcəssümünü tapmışdır. Onun oxuduğu muğamlar təkcə Azərbaycanda deyil, bütün Yaxın Şərqdə məşhurdur.

Xalq yazıçısı Mirzə İbrahimov istedadlı sənətkarlardan və onların xalq qarşısındakı unudulmaz xidmətlərindən bəhs edərək yazmışdır: «Bütün xalqlarda olduğu kimi, bizdə də ən yaxşı sənətkarlar vicdanı, namusu ilə böyük məqsədə xidmət etmişlər. Bu barədə danışarkən biz Nizamini, Füzulini, Axundovu, Sabiri yada salırıq. Biz məşhur xanəndə və maarifpərvər Cabbar Qaryağdını xatırlayırıq.

---

[133] Bülbül. Xanəndəlik və nəğmələrimiz haqqında (əlyazması). Azərbaycan SSR Mədəniyyət Nazirliyi Memarlıq və İncəsənət İnstitutunun arxivi, qovluq № 67.

[134] «Bakinski raboçi», 27 mart 1938-ci il, № 70.

Uzun illər Cabbarla bir yerdə xalq sənətinə xidmət etmiş görkəmli ustalarımızdan biri Qurban Pirimov Cabbardan söz düşəndə, onun yüksək şəxsiyyəti, vicdanı, xalqa və sənətə olan böyük sədaqəti haqqında danışaraq deyir: «Mən hələ sənətini bu cür istəyən adam görməmişəm. O, beş hava oxumaq üçün yüz havaya qulaq asardı. Çoxlu kitab mütaliə edər, söz seçərdi. İfa etdiyi hər hava ləyaqətli və bitmiş olardı. Ağzını yüngüllüyə açmazdı, mərifətli, mənalı söz tapardı. Özü deyərdi ki, xalis sənətkar camaatın başını qata bilməz, gərək onun mərifətini artıra». Cabbar Qaryağdının bu sadə sözlərinin mənası dərindir. Onlar belə əhəmiyyətli bir fikri ifadə edir ki, həqiqi sənət zəmanə ilə, xalqın həyatı və "mübarizəsi ilə bağlı olmalıdır, dövrün tələblərinə cavab verməlidir».[135]

Cabbar Qaryağdı oğlu tenor tipli, geniş diapazona[136] və yüksək tesseturalı[137] güclü səsə malik olmuşdur. O, səsə dinamik boyalar verməklə bir neçə forma və mərtəbədə coşğun zəngulələr vurardı. Onun «Heyratı»da, «Mahur»un «Vilayəti» şöbəsində «Mənsuriyyə»də, «Hasar» və «Müxalif»də vurduğu misilsiz zəngulələr musiqi irsimizə nadir hədiyyələrdir.

1941-ci ilin mart ayında Bakıda keçirilən Ümumittifaq vokal konfransında çıxış edən Bülbül Cabbar Qaryağdı oğlunun səsini dünyada məşhur olan böyük italyan müğənnisi Enriko Karuzonun səsi ilə müqayisə edərək Cabbara üstünlük vermişdir:

«Cabbar Qaryağdı oğlu $2^1/_2$ oktava[138] diapazonu olan usta xanəndədir. Cabbarın səsi Karuzonun səsindən yüksəkdir. Cabbarın səsi kimi qüvvətli səs olmamışdır. O, bir muğamı 2-3 saat oxuyardı. Qaryağdı oğlu böyük sənətkardır. O, 60 il öz sənəti ilə Azərbaycan xalqına xidmət etmişdir. O, ilk dəfə olaraq Azərbaycan oxuma üslubunu yaratmışdır. Qaryağdı oğlu öz ustalığı ilə geniş xalq kütləri arasında böyük şöhrət və məhəbbət qazanmışdı. Cabbarın musiqimizə gətirdiyi yenilik, orijinal Azərbaycan vokal üslubunun yaranması və daha da inkişaf etməsi işində böyük rol oynadı».[139]

Cabbar Qaryağdı oğlunun gözəl səsindəki məziyyət və məlahət heç bir zaman dəyişməmişdir. O, 25-30 yaşlarında necə oxumuşsa, 70-75 yaşlarında eyni səs və məlahətlə oxumuşdur. Onun 70-75 yaşlarında zil səslə oxuduğu muğamlar nəinki dinləyiciləri, hətta məşhur musiqişünasları belə heyran etmişdir. Çox zil səs və coşğun zəngulələr tələb edən «Heyratı», «Mənsuriyyə» kimi ritmik muğamları 70 yaşından sonra oxumaq hər xanəndəyə müyəssər olmamışdır. Görkəmli

---

[135] M. İbrahimov. Xəlqilik və realizm cəbhəsindən. Azərnəşr, 1961, səh. 229.

[136] Diapazon - musiqidə alətin və xanəndə səsinin həçminin ölçüsüdür.

[137] Tessetura - italyan sözüdür. Xanəndənin və musiqi alətinin səs diapazonunda səslərin zil düzülüşü deməkdir.

[138] Oktava - latın sözüdür. Diotanik səs sırasının səkkiz pilləsini əhatə edən fasilədir.

[139] Bülbül. Xanəndə sənəti haqqında (əlyazması). Azərbaycan SSR Mədəniyyət Nazirliyi Memarlıq və İncəsənət İnstitutunun arxivi, qovluq № 43.

müğənnimiz Xan Şuşinski Cabbarın 72 yaşında «Heyratı» oxumağı barədə belə deyirdi: «1933-cü ilin payızında məni Bakıda konsert verməyə dəvət etdilər. Yadımdadır, bir gün opera teatrında Cabbar, Seyid Şuşinski, Zülfü Adıgözəlov və başqa xanəndələrin iştirakı ilə böyük Şərq konserti oldu. Hamı oxuduqdan sonra konserti idarə edən sonuncu nömrəni elan etdi: «Heyratı». Çalır xalq çalğı alətləri orkestri, oxuyurlar məşhur xanəndə Cabbar Qaryağdı oğlu və Xan Şuşinski».

Pərdə açıldı. Cabbar əmi tarçı Qurban Pirimovun sağında, mən də Cabbar əminin yanında oturdum. O zaman Cabbar əminin 72 yaşı, mənim isə 32 yaşım var idi. Orkestr «Heyratı» çaldı. Qurban tarın pərdəsindən mizrabı götürməmiş Cabbarın qüdrətli səsi salonu bürüdü, elə bil top atıldı. Onu da boynuma alıram ki, mən 20 ilə yaxın xanəndəlik etdiyimə baxmayaraq istər-istəməz bu böyük sənətkarın qarşısında özümü itirməyə bilməzdim. Amma 72 yaşlı qocanın qeyri-adi bir zövqlə, nə təhər deyərlər, qeyrətlə oxuması mənə də qüvvət verirdi. Mən özümü ələ alıb müəllimimin getdiyi yolu eyni ilə təkrar etdim.

Bunu görən Cabbar «Heyratı»nın zilinə, yəni «Üzzal» pərdəsinə qalxdı. Doğrudan da mən heyrət içərisində qaldım. 72 yaşın ola, özü də coşğun zəngulələrlə «Üzzal» üstündə gəzişəsən. Bu muğamat tarixində misli-bərabəri görünməmiş cəsarət və böyük ustalıq idi. Cabbar bir də ağzını açıb tarın şən pərdələrini sürəkli zəngulələrlə döyüb, mənə ayaq verdi. Mən bu qoca sənətkarın vurduğu xalları iti zəngulələrlə eyni ilə təkrar edib, tarın son pərdəsindən iki pərdə də aşağı endim. Salonu alqış səsi bürüdü. Qurbanın: «Bu uşağı niyə çətinliyə saldın?» - sözünü eşidən Cabbar, üzünü ona tutub dedi:

- Qurban, atamın goru haqqı, Xana qıymazdım, ancaq özüm qəsdən imtahana çəkdim ki, görüm biliyi varmı.

Sonra Cabbar əmi sağ əli ilə kürəyimə vurub dedi:

- Halal olsun sənə çəkdiyimiz zəhmət. Səsini yaxşı saxla, gələcəyin ən gözəl oxuyanı sən olacaqsan».[140]

Bir çox sovet bəstəkarları (R. Qlier, Ü. Hacıbəyov, Niyazi,. A. Xaçaturyan, F. Əmirov) Cabbar Qaryağdı oğlunun oxuduğu muğam və mahnılarından çox istifadə etmişlər. Onun zəngin repertuar fondu gənc bəstəkarlar üçün tükənməz xəzinədir.

Cabbar Qaryağdı oğlu muğamatın nota salınmasının qızğın tərəfdarlarından olmuş və bu sahədə görkəmli bəstəkar Fikrət Əmirova yaxından kömək etmişdir. Fikrət Əmirov hələ gənc ikən Cabbar Qaryağdı oğlunun oxuması əsasında sonralar bəstələdiyi «Şur» və «Kürd-ovşarı» simfonik muğamlarının bir çox təsniflərini yazmışdır. Fikrət Əmirov böyük xanəndə ilə əməkdaşlığını xatırlayarkən demişdir: «1939- -1940-cı tədris ili idi. O zaman mən Bülbülün musiqi kabinəsində işləyirdim. Bir gün işin axırında konservatoriyaya gələrkən gördüm ki, Bülbül bir qoca kişini qolundan tutub pilləkəndən düşürür. Mən salam verdim. Bülbül dedi:

---

[140] Xan Şuşinskinin xatirələrindən (xatirə kitabın müəllifindədir). - Red.

- Cabbar əmi, bilirsən bu kimdir? Məşədi Cəmilin yadigarıdır..

Cabbar əminin gözləri yaşardı. Bülbül dedi:

- Cabbar əmi, bəlkə bir şey oxuyasan, Fikrət yaza. Bülbülün sözünü yerə salmayan 80 yaşlı qoca təzədən yuxarı qalxdı. Qavalı yanında olmadığından, royalın taxtasına əli ilə ritmlə vuraraq, «Kürd-Ovşarı»nın başlanğıcı olan bir təsnif oxudu. Mən də çaldım. Sonra qədim ərəb mahnısı oxudu. Bu hadisədən 7-8 il keçəndən sonra mən «Kürd-Ovşarı» yazanda həmin təsnifdən istifadə etdim. Onu demək istərdim ki, məni bu işə Cabbar Qaryağdı oğlu təhrik etdi.

Mən xoşbəxtəm ki, gözümü açıb Cabbar Qaryağdı oğlu, Bülbül, Qurban Pirimov və Seyid Şuşinski kimi böyük sənətkarlarla şəxsən sənət dostluğu etmişəm. Bu dostluq mənə atamdan nəsib olmuşdur».[141]

Azərbaycan xalqı XIX əsrin sonundan Cabbar Qaryağdı oğlunun şəninə dastanlar demiş, şairlər isə onun gözəl sənətinə şerlər qoşmuşlar. Şair Məhəmməd ağa Müstehidzadə şerlərinin birində Cabbar Qaryağdı oğlu haqqında belə yazmışdır:

Musiqi atası əd olan yar,
Kim, nami-humayunudu Cabbar.
Qaryağdı ləqəb olan o xoş sövt
Ki, sövtidü əhli ruh üçün qövt.

Oxuyursa «Hasar», ya «Müxalif»,
Məğlub olar bütün müxalif.
Gər başlasa şəhr-ara «Qatarı»

[141] Bax: F. Şuşinski. Cabbar Qaryağdı oğlu. Bakı, 1964, səh. 83-84.

**Naxçıvanın gədijindən aşejdim**




Girməz bu hasara qəm tatarı.[142]

Mən gedirəm Qarabağın elinə
Qurban olum ay qurban olum bağçasına, gülünə
Bir baxeydin sevgilimin telinə

Aman aman qıyqaçı baxma

[142] Bax: M. A. Müctehidzadə. Qarabağnamə (əlyazması). Azərbaycan SSR Mədəniyyət Nazirliyi, Memarlıq və İncəsənət İnstitutunun arxivi, qovluq №78 «A»

Canımı odlara yaxma.

Cabbar Qaryağdı oğlu "Naxçıvanın gədiyindən aşeydim" mahnısı.

Cabbar Qaryağdı oğlu bir muğam ustadı kimi klassik muğamların təkmilləşdirilməsi üzərində çalışmış, «Rast», «Çahargah», «Segah» və «Mahur» muğamlarına yeni-yeni variantlar, guşələr və xallar əlavə etmişdir. Cabbar Qaryağdı oğlunun əsrimizin əvvəllərində qrammafon vallarına yazdırdığı muğam və təsniflər indi belə öz orijinallığını itirməmişdir. Cabbar Qaryağdı oğlunun «Heyratı»sına qulaq asanda elə bil qələbədən qayıdan bir ordunun zəfər mahnısını,

«Xaric-segah»ını dinləyəndə öz sevgilisinə çatmaq istəyən miskin aşiqin ürək çırpıntılarını, «Bayatı-əcəm»də isə nakam məhəbbətin ah-naləsini dinləyirsən. Onun oxuduğu «Mahur» muğamına gəldikdə isə, burada böyük xanəndənin ifaçılıq məharətinə qiymət vermək üçün söz tapmaq çətindir. Məhz bu cəhətdən qocaman xanəndə Xan Şuşinski demişdir: «Mahur» Cabbar ilə getdi». Cabbar Qaryağdı oğlunun «Mahur»u böyük məharətlə, mübariz səslə, sürəkli və iti zəngulələrlə oxuması dinləyiciləri vəcdə gətirirdi.

Xalq şairi Səməd Vurğun gənc ikən Cabbar Qaryağdı oğlunu dinləmiş, onun səsinə və sənətinə yüksək qiymət verərək yazmışdır: «1924-cü ildə bağda Cabbar Qaryağdı bir səs salmışdı ki, bütün yarpaqları səhər bülbülü kimi səsə gətirirdi. Deməк, bu ustadır: oxuyanlardan bunu tələb etmək lazımdır».[143]

Görkəmli yazıçı M. S. Ordubadi isə Qaryağdı oğlunu «Şərq musiqisinin böyük mütəxəssisi» adlandırmışdır.[144]

Cabbar Qaryağdı oğlu böyük sənətkar olmaqla bərabər, həm də çox səmimi, mehriban bir insan idi. O, xanəndə dostlarına böyük qayğı və həssaslıqla yanaşar, onların müvəffəqiyyətlərinə ürəkdən sevinərdi. Deyilənə görə, bir dəfə Bakı toylarından birində Seyid Şuşinski elə gözəl oxumuşdur ki, Qaryağdı oğlu öz qiymətli qavalını ona bağışlamışdı.

Cabbar Qaryağdı oğlu heç bir zaman özünü öyməmiş, sənətdə «mənəm-mənəm» deyənlərdən xoşlanmamışdır. O, yüksək mədəniyyətli, təmizürəkli, təvazükar olmuşdur. O, yoxsulların qayğısına qalan, xalqın xeyriyyə işlərinə kömək edən, əliaçıq bir insan idi. Onun həmyerlisi Məşədi Rəsul Hacıqulu oğlu bu barədə maraqlı bir əhvalat söyləyirdi:

«Bir gün bir neçə yoldaşla dükanda oturub söhbət edirdik. Kimsə gəlib dedi ki, Rəsul əmi, axşam «Seyidli» məhəlləsində, Carçı Məşədi Daşdəmirin evində toy məclisi var, sizi də ora dəvət edirik. Oxuyanımız da Cabbar Qaryağdı oğludur.

---

[143] Səməd Vurğun. Muğamlar haqqında (əlyazması). Azərbaysan SSR Mədəniyyət Nazirliyi Memarlıq və İncəsənət İnstitutunun arxivi, qovluq № 41.

[144] Bax: «Yeni yol» qəzeti, 10 iyun 1926-cı il, № 133.

Doğrusu, bu şad xəbər hamımızın ürəyindən oldu. Çünki rəhmətlik Cabbara qulaq asmaqdan böyük xoşbəxtlik ola bilməzdi. Axşam dükanı bir qədər tez bağlayıb, bir neçə yoldaş ilə Məşədi Daşdəmirin evinə getdik.

Məclisə girəndə gördük ki, yüzə qədər qonaq var. Cabbar da öz dəstəsi ilə məclisin ortasında əyləşib. Ancaq bilmirdik ki, bu toy kimin toyudur. Toyun «padşahı» Əllaf Kərbalayı Şükür deyəndə ki, «bu günkü toy Məşədi Daşdəmirin toyudur» hamı gülüşdü. Çünki Məşədi Daşdəmir çox yaşlı idi. Vəziyyəti belə görən Cabbar söhbətə qarışıb dedi:

- Camaat, bildiyiniz kimi, Məşədi Daşdəmir xalqın xeyir-şərində çox çalışıbdır. İndi isə qocalıb, maddi vəziyyəti ağırdır. Buna görə də ona kömək məqsədi ilə bu məclisi düzəldib, sizi bura dəvət etmişik.

Cabbarın sözləri hamının xoşuna gəldi. Mən Cabbarı çox dinləmişdim. Amma o məclisdəki kimi ürəklə oxuduğunu görməmişdim. Məclisdə əyləşən tacir və sənətkarlar pulu stolun üstünə yarpaq kimi tökdülər. Məclisin axırında Cabbar Məşədi Daşdəmiri çağırıb yığılan pulun hamısını ona verdi».[145]

Cabbar Qaryağdı oğlu öz şəxsi mənafeyini xalqın və dövlətin mənafeyindən üstün tutan, «pullu toylara» aludə olan pulgir xanəndə olmamışdır. O, inqilabdan əvvəl, istərsə də sonralar verdiyi böyük konsertlərdən bir qəpik belə pul almamış, ona yığılan pul xalqın xeyriyyə işlərinə sərf edilmişdir. Onun oxuduğu konsertlərin afişalarında və proqramlarında aşağıdakı sözlərə rast gəlmək olardı: «Bakı şəhərində yaşayan yoxsul müsəlmanların xeyrinə», yaxud, «Yoxsul müsəlman tələbələrinin xeyrinə».[146]

Professor Bülbülün bir maraqlı söhbəti bu cəhətdən çox səciyyəvidir. Onu oxucuların nəzərinə çatdırmağı borc bilirəm. Bir dəfə Cabbar Qaryağdı oğlu haqqında söhbət düşəndə Bülbül dedi: «Cabbar sənəti hər şeydən üstün tutardı. O, şəxsi mənafeyi üçün yox, xalq üçün oxuyurdu. Buna görə də onu pul və dövlət maraqlandırmazdı. - Professor bir qədər fikrə getdikdən sonra dilləndi: - 1934-cü ilin sonunda Cabbar əmi 200-dən yuxarı mahnı və təsnifi fonovalik vasitəsi ilə oxudu. Bunun üçün konservatoriya ona o vaxtın pulu ilə 10 min manat qonorar verməli idi. Bir gün M. Maqomayev ilə Ü. Hacıbəyovun kabinəsində oturmuşduq. Üzeyir bəy Cabbar əminin dalınca adam göndərdi...

Cabbar əmi içəri daxil olanda hamımız ayağa qalxdıq. O, Müslümün yanında əyləşdi və tez soruşdu:

- Üzeyir bəy, xeyir ola?

Üzeyir bəy barmaqları ilə bığını tumarlayıb, sözə başladı:

---

[145] Məşədi Rəsul Hacıqulu oğlunun xatirələrindən (xatirə kitabın müəllifindədir) - Red.

[146] Bax: C. Cabbarlı adına Azərbaycan teatr muzeyində saxlanılan afişalar» fondu.



Cabbar Qaryağdı oğlu arvadı Səlimə xanım və qızı Nigar ilə birlikdə
(1916-cı il)

- Cabbar əmi, bilirsənmi, konservatoriya zəhmətin üçün sənə 10 min manat pul verməlidir...

Cabbar əmi təəccüblənib çiyinlərini çəkdi:

- Üzeyir bəy, nə zəhmət, nə pul? Heç kəs mənə bir qəpik də borclu deyil.

Mən söhbətə qarışıb dedim:

- Cabbar əmi, sən bizim elmi kabinetə 220 mahnı və təsnifin həm mətnini, həm də musiqisini vermisən, buna görə də konservatoriya sənə zəhmət haqqı verməlidir.

Mən sözümü qurtarmamış qoca əsəbiləşdi. Cəld qəlyanını tənbəki ilə doldurub, tez bir qurtum çəkdikdən sonra narazı halda dedi:

- Canım, ayıb deyil? Bəs mənə nə deyərlər. Belə iş olar ki, 60 il müddətində xalqdan öyrəndiyim və topladığım mahnıları təzədən oxuyub xalqa satam. Xalqın malını oğurlamaq olar?

Söhbətə qarışan Müslüm Cabbar əmini sakitləşdirib:

- Cabbar əmi, incimə, - dedi, - biz də bilirik ki, bu mahnılar xalqındır, axı sən əziyyət çəkmisən, yenidən onları işləyib xalqın xəzinəsinə vermisən, buna görə də biz qərara gəldik sənə zəhmət haqqı verək.

Cabbar əmi bu dəfə daha da əsəbiləşdi, üzünü Maqomayevə çevirib hirsli halda:

- Çox sağ ol, Müslüm bəy, - dedi, - heç səndən gözləməzdim. Mən bu qoca vaxtımda xalqın malını oğurlaya bilmərəm. Mən o mahnıları pul üçün oxumamışam. Mən 60 ilin müddətində 500-ə qədər mahnı toplamışam və bu gün xoşbəxtəm ki, heç olmasa onun 300-ə qədərini sizin köməyinizlə yazdırdığ. Bu mənim həm sənətkarlıq, həm vətəndaşlıq borcumdur. Mən bunları ancaq xalqımın mənafeyinə, gələcək nəsillərin xeyrinə edirəm.

Cabbar əmi ayağa durub bizimlə xudahafizləşdi. O, qapını açıb çıxmaq istərkən Üzeyir Hacıbəyova dedi:

- Üzeyir bəy, təvəqqe edirəm, bir də məni belə işlərdən ötrü çağırmayasınız».

Azərbaycan musiqi tarixinin yaranmasında Cabbar Qaryağdı oğlunun rolu böyükdür. Onun Azərbaycan milli musiqi tarixindəki mövqeyindən bəhs edən musiqişünas Q. Xubov yazmışdır: «Azərbaycanın qocaman xalq xanəndələrindən biri olan Qaryağdı bütün həyatını xalq xanəndəliyi sənətinə vermişdir. O, Zaqafqaziyada ən yaxşı xalq ifaçısı şöhrətini qazanmışdı.

Qaryağdının musiqi yaddaşı xalq melodiyalarının əsl xəzinəsidir. Həm bəstəkarlar, həm ifaçılar, həm etnoqraf musiqiçilər, həm də xalq yaradıcılığını toplayıb tədqiq edənlər Qaryağdı kimi köhnə xalq sənətinin görkəmli ustadından çox şey öyrənə bilərlər».[147]

Professor Bülbül xanəndəlik sənətindən, musiqimizin tarixindən danışarkən demişdir: «Azərbaycanda xanəndəlik sənətindən danışdığda birinci növbədə Cabbar Qaryağdı oğlundan danışmaq lazımdır. Cabbar başdan-ayağa tarixdir. Onun həyatı Azərbaycanın musiqi tarixidir. Qaryağdı oğlu böyük sənətkardır. O, 60 il öz gözəl sənəti ilə Azərbaycan xalqına xidmət etmişdir».[148]

Cabbar Qaryağdı oğlunun incə səsi və böyük sənəti həmişə mədəniyyətimizin və incəsənətimizin məşhur xadimlərinin diqqət mərkəzində olmuşdur. N. Vəzirov, M. Ə. Sabir, S. Məmmədquluzadə, Ə. Haqverdiyev, N. Nərimanov, Ü. Hacıbəyov, S. Vurğun, Ə. Vahid, M. İbrahimov və s. Rüstəm kimi görkəmli sənətkarlarımız böyük müğənnimizin coşqun zəngulələrindən, şirin xallarından və zərif guşələrindən həzz almış, onun dolğun yaradıcılığına yüksək qiymət vermişlər. Böyük rus müğənnisi F. İ. Şalyapin C. Qaryağdı oğlunun yaxın dostu olmuşdur. Şalyapin Bakıya qastrola gələrkən Qaryağdı oğlunun qonağı olardı. Azərbaycan müğənnisinin gözəl səsi rus müğənnisini valeh edərmiş.

[147] Q. Xubov. Muzıkalnaya kultura Azerbaydjana. «Sovetskaya muzıka» jurnalı, 1937-ci il, № 11, səh. 138-139.

[148] Bülbül. Azərbaycan muğamları haqqında (əlyazması). Azərbaycan SSR Mədəniyyət Nazirliyi Memarlıq və İncəsənət İnstitutunun arxivi, qovluq № 31.

Görkəmli rus şairi Sergey Yesenin də Bakıda olarkən (1924) dəfələrlə Cabbar Qaryağdı oğlunun məclislərində iştirak edər, onu dinləməkdən doymazdı. Söyləyirlər ki, qoca sənətkar bir gün Serkey Yeseninin şərəfinə verilən qonaqlıqda (Ə. H. Qarayevin evində) elə oxumuşdur ki, rus şairi həmin məclisdə Cabbarın şərəfinə şer söyləmiş, onu «Şərq musiqisinin peyğəmbəri» adlandırmışdır.

Cabbar Qaryağdı oğlunun milli musiqi mədəniyyətinə dair söylədiyi mülahizələr, qiymətli sözlər bu gün belə öz əhəmiyyətini itirməmişdir. O, «Keçmiş Azərbaycan musiqisi haqqında xatirələrim» başlığı altındakı əlyazmalarının birinci hissəsində XIX əsrin məşhur oxuyan və çalanları haqqında; ikinci hissədə muğamların tarixi haqqında; üçüncü hissədə: ayrı-ayrı təsnif və mahnılar (onların mətinləri) haqqında bəhs etmişdir. Bunlardan əlavə, Qaryağdı oğlu Azərbaycan xanəndələrindən Hacı Hüsü, Məşədi İsi, Şirvanlı Mirzə Məhəmmədhəsən, Ala Palaz oğlu, Keştazlı Həşim, Əbdülbaqi Zülalov, Dəli İsmayıl, Sadıqcan və başqalarının sənətinə yüksək qiymət vermiş, onlar haqqında maraqlı fikirlər söyləmişdir.

Qaryağdı oğlunun öz orijinal sənət yolu-məktəbi olmuşdu. Bu məktəb xalq arasında məşhur olan bir sıra istedadlı xanəndələr yetişdirmişdir. Cabbar Qaryağdı oğlu xalq yaradıcılığı sənətinin inkişafında, gənclər arasında musiqinin intişar tapmasında yaxından iştirak etmiş və bu işin əsasını qoyanlardan biri olmuşdur. İslam Abdullayev qeyd edir ki, Cabbar gözəl sənətkar, həm də qayğıkeş müəllim idi. Onun yetişdirmələrindən Çarıxçı Bahadır, Əkbər Xamuş oğlu, Davud Səfiyarov, Seyid Şuşinski, Bülbül, Xan Şuşinski, Zülfü Adıgözəlov, Yavər Kələntərli, Sürəyya Qacar, Həşim Kələntərli kimi xanəndələri göstərmək olar. Bunlardan əlavə Şəkili Ələsgər, İslam Abdullayev, Məşədi Məmməd Fərzəliyev, Malıbəyli Həmid, Zabul Qasım, Məcid Behbudov, Seyid Mirbabayev kimi məşhur sənətkarlar Cabbar Qaryağdı oğlundan çox şey öyrənmişlər.

Cabbar Qaryağdı oğlunun məhsuldar yaradıcılığı bütün xanəndə və çalğıçılar üçün gözəl nümunədir. Bu böyük insanın sənətə məhəbbəti xalq məhəbbətinin üzvi bir hissəsi olmuşdur. Bu da ona əbədi şöhrət qazandırmışdır. Qaryağdı oğlunun ardıcılları onun nəsib ənənələrini davam etdirirlər. Qaryağdı oğlunun istedadlı şagirdi məşhur müğənnimiz Seyid Şuşinski demişdir:

«Başqa sənət dostlarım kimi, mən də ustadım Cabbar Qaryağdı oğlundan çox şey öyrənmişəm. Cabbar Qaryağdı oğlunun gözəl oxumaqlarını, coşğun zəngulələrini çox eşitmişəm. Onun başqa bir zövqlə oxuduğu «Heyratı», «Mahur», «Mənsuriyyə» muğamlarına qulaq asanda, ürəyim titrəyərdi. Mən fəxr edirəm ki, böyük Cabbarın tələbəsiyəm. Musiqi sahəsində əldə etdiyim nə qədər sənət qələbəsi varsa, mən bu böyük sənətkarın adı ilə bağlayıram».[149]

---

[149] Seyid Şuşinskinin xatirələrindən (xatirə kitabın müəllifindədir) - Red.

C. Qaryağdı oğlu yaradıcı bir sənətkar olmuşdur. O, xanəndəlikdən başqa mahir musiqişünas, həm də musiqi tədqiqatçısı kimi yüzlərlə xalq mahnılarını meydana çıxarmışdır. Muğamların ifasında guşəxanlıq göstərməkdə, bilikdə, sənətkarlıq qabiliyyətində onunla ayaqlaşmaq başqa xanəndələrə müyəssər olmamışdır. Onun köhnə qrammafon vallarındakı ifalarını dinlədikdə, Azərbaycan muğamlarını nə qədər böyük bir ustalıqla və dərin bir hissiyyatla oxuduğunu dərk etmək olur. C. Qaryağdı oğlu o qədər şirin oxuyardı ki, tamaşaçı onu saatlarla dinləsəydi belə yenə doymazdı.

Cabbar Qaryağdı oğlu son dərəcə yüksək bir zövqə malik olduğundan muğamların ən incə xüsusiyyətlərini seçə bilir və onları özünə məxsus bir məlahətlə oxuyurdu.

Cabbar Qaryağdı oğlu qoca vaxtlarında da musiqi həyatından uzaqlaşmamışdı. Böyük Vətən müharibəsinin ən ağır illərində (1941-1943) 80-83 yaşlı Cabbar Qaryağdı oğlu sevimli qavalını yerə qoymamışdır. O, çağırış məntəqələrində, hərbi hissələrdə, xəstəxanalarda döyüşçülər qarşısında tarzən Qurban Pirimovla tez-tez çıxışlar edər, oxuduğu gözəl mahnılarla əştarı qarşıdakı döyüşlərə ruhlandırardı. Qaryağdı oğlu ömrünün son günlərində SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının incəsənət şöbəsinin əməkdaşı vəzifəsində çalışmış, həm də respublika xalq yaradıcılığı evinin müşaviri olmuşdur.

1944-cü ilin aprel ayının 20-də Cabbar Qaryağdı oğlu qəflətən xəstələnir, həkimlərin ciddi səyinə baxmayaraq, 84 yaşında Bakı şəhərində vəfat edir. Qaryağdı oğlunun ölümü Azərbaycan musiqisi üçün böyük itki idi. O zaman «Kommunist» qəzetində dərc olunmuş nekroloqda deyilirdi: «Cabbar Qaryağdı oğlu məşhur bir xanəndə kimi təkcə Azərbaycan xalqının içərisində deyil, bütün Yaxın Şərqdə məşhurdur. O, Azərbaycan musiqisinin bütün incəliklərini və təravətini geniş kütlələrə yaymaqda və bu musiqinin qardaş xalqlar tərəfindən dərindən sevilməsində böyük hünər göstərmişdir.

Bu böyük sənətkarın xatirəsi xalqımızın arasında əbədi olaraq yaşayacaqdır».[150]

* * *

Cabbar Qaryağdı oğlu XIX əsrin ikinci yarısında yetişən və musiqi tariximizdə ən görkəmli rol oynayan sənətkarlardan biridir. O, xalqın içərisindən çıxmış və özünün bütün mənalı həyatını klassik Şərq musiqisinin inkişafına həsr etmişdir. Cabbar Qaryağdı oğlu oxuduğu muğam və mahnılarını xalqdan alaraq, həmin mahnıları özünün incə səsi və ifaçılıq məharəti ilə bəzəyib yenidən xalqa vermişdir. Bu, Qaryağdı oğlunun ən qiymətli xalq xanəndəsi olmasının nümunələrindən biridir.

[150] Kommunist» qəzeti, 1944-cü il, № 87.

Şərqin vokal sənəti tarixində geniş xalq kütlələri arasında özünün hörməti və populyarlığı ilə Cabbar Qaryağdı oğlu ilə müqayisə edilə biləcək ikinci bir müğənni yoxdur. Onun adı dünya vokal sənətinin bir sıra görkəmli sənətkarlarının adları ilə yanaşı çəkilir. Cabbar Qaryağdı oğlunun sənəti ölməzdir. Qırx ildir xanəndənin vətənə, xalqa məhəbbət dolu ürəyi döyünmür, misilsiz, tuti səsi eşidilmir. Lakin bu təkrarolunmaz incə və qüdrətli səs sahibinin şöhrəti dillərdə söylənməkdədir.

Bu gün də Cabbar Qaryağdı oğlunun qrammafon valları dinləyicilərə böyük estetik zövq verir. Həyatı əfsanəyə çevrilmiş sənətkarın haqqında yazılmış hər bir sətir geniş oxucu kütləsi tərəfindən böyük rəğbətlə qarşılanır.

Azərbaycan xalğı öz mənəvi sərvəti olan zəngin incə sənətinə sonsuz məhəbbət, böyük qayğı və diqqətlə yanaşır. Çünki, bu sənət onun milli iftixarıdır. Cabbar Qaryağdı oğlunun yaradıcılığı isə mənəvi sərvətimizin mirvarisidir...

Cabbar Qaryağdı oğlu səhnədə görünməsi ilə bütün auditoriyanı sehrləyirdi. Cabbarın şirin xalları, incə guşələri minlərlə dinləyicisini əsir edir, heyrət içərisində qoyur, məst edirdi.

Baxmayaraq ki, Qaryağdı oğlunun səsi güclü dramatik-tenor tipli səs idi, o, bu güclü və əzəmətli səsi elə cilalayıb «yonurdu» ki, hətta son dərəcə lirik, minor ruhlu muğam sayılan «Segah» onun ifasında olduqca həzin, yumşaq və yanıqlı səslənməklə adamda belə təsəvvür yaradırdı ki, muğamı dramatik tenor yox, lirik-tenor oxuyur. Onun oxumağı son dərəcə təsirli və temperamentli idi. Onun köhnə qrammafon vallarını səsləndirdikdə, adam həmin dəqiqə hiss edir ki, belə bir qüdrətli səs, temperamentli priyomlar, müxtəlif formalı çətin zəngulələr vuran yalnız Qaryağdı oğlu ola bilər.

Xaryağdı oğlu major muğamları oxumaqda daha mahir idi. O, vokal ustalığı ilə nəinki dinləyicini heyran qoyur, eyni zamanda təsiredici ifaçılıq məharəti ilə dinləyicini fikrindən ayırır, kədərini də, sevincini də unutdururdu. Bununla belə oxuduğu şən və məzəli təsniflər ilə dinləyicinin qəlbində şirin xəyallar, xoş duyğular oyadırdı...

Xanəndə səsinə, öz qüdrətinə arxalanmalıdır. Doğrudur, hər sənətdə istedad ümdə şərtdir. Lakin istedadlı sənətkar gərək zəhməti də sevsin, özünə qarşı tələbkar olsun. Yoxsa Qurban Pirimov demişkən: «heç nə çıxmaz». Özünə qarşı son dərəcə tələbkar olan Qaryağdı oğlu, yalnız fitri istedadına arxayın olmamışdır. Müntəzəm olaraq öz üzərində çalışması sayəsində ifaçılıq sənətinin zirvələrinə qalxa bilmişdir. Qaryağdı oğlu özünə və sənətinə ciddi tələbkarlığı sayəsində təkcə Azərbaycanda deyil, bütün Şərqdə vokal sənətində bütöv bir dövr yaratmışdır.

Xanəndənin ifaçılığı, xüsusilə onun «Heyratı»sı yüksək qiymətləndirilmişdir. Bu muğamda onun vokal texnikası təkrarolunmazdır. Baxmayaraq ki, xanəndə «Heyratı»nı qrammafon valına 79» il (1906) bundan əvvəl oxumuşdur, indi belə bu muğamı həyəcansız dinləmək qeyri mümkündür.

Eləcə də «Ovşarı»da xanəndənin təsirli səsi, onun yüksək ifaçılıq məharəti və səsinin qeyri-adi gücü insanı valeh edir. Təsadüfi deyildir ki, Cabbardan sonra bu muğamı heç kim oxumaqa cürət edə bilməmişdir. Kim vaxtı ilə xanəndənin fenomenal nəfəsini, bülbül cəhcəhli zənguləsini eşdibsə, həmin xoşbəxt dinləyicilər bu gün belə bu nadir səsin cingiltilərini xatırlayırlar. Doğrudan da, Qaryağdı oğlu Şərq vokal sənətinin islahatçısı, nadir improvizator olmaqla milli musiqimizin bəzəyi idi. Müasirləri onun dahi musiqiçi olduğunu dəfələrlə söyləmişlər.

İstedadlı sovet musiqişünası V. Krivonosov[151] Cabbar Qaryağdı oğlunun nadir sənətini və zəngin repertuarını yüksək qiymətləndirərək, hələ 1940-cı ildə yazmışdır: «Azərbaycan xalq musiqisinin inkişafında müstəsna xidmətləri olan musiqi xadimlərindən biri Cabbar Qaryağdı oğludur. Onun zəngin repertuarı musiqi dünyasında böyük maraq oyadır. Uzun illər Azərbaycan, erməni, İran və türk musiqisi ilə qaynayıb-qarışan bu repertuarı yaxından bilmədən Azərbaycan musiqisinin tarixini dərindən öyrənmək olmaz».[152]

Azərbaycanda gözəl səslərdən, xanəndəlik sənətindən danışarkən gözlərimiz qarşısında birinci növbədə Cabbar Qaryağdı oğlunun obrazı canlanır. «Şərq musiqisinin peyğəmbəri» olan bu dahi müğənni Azərbaycan vokal sənətinin banisidir. Doğrudur, Cabbar Qaryağdı oğlundan əvvəl bizim musiqi tariximizdə Şahqulu, Mirzə Hüseyn, Hacı Hüsü, Məşədi İsi, Səttar, Mirzə Məhəmmədhəsən, Əbdülbaqi Bülbülcan kimi klassik xanəndələrimiz olmuşdur. Lakin bunların heç biri xalq musiqisini Qaryağdı oğlu qədər dərindən bilməmiş və onu geniş xalq kütlələrinə bacarıqla çatdırıb sevdirməmişdir. Yaradıcılığının bütün mənası, ruhu, məndəricəsi etibarilə Qaryağdı oğlu həqiqi böyük xalq müğənnisi idi. Sümüklərinin iliyinə qədər qatı musiqiçi olan Qaryağdı oğlu 70 il vokal sənətinə xidmət etmiş, qüdrətli, gözəl səsi ilə xalq məclislərini şənləndirmişdir. Onun təkcə vokal sənətində deyil, xalq musiqisinin bütün sahələrində xidmətləri əvəzedilməzdir. Azərbaycanda opera sənətinin meydana gəlməsində onun rolu böyükdür. Opera səhnəmizin ilk aktyoru məhz Qaryağdı oğlu olmuşdur. İndiyə kimi vokal tarixində müğənnilərdən heç kəsi Cabbarla müqayisə etməmişlər. Əslinə qalanda ifaçılıq sənətində onun tayı-bərabəri sayılan ikinci bir sehrkarı təsəvvürə gətirmək mümkün deyildir. Vokal sənətimizi və onun inkişaf yollarını Cabbarsız təsəvvürümüzə gətirmək çox çətindir.

Yeri gəlmişən, bir mübahisəli məsələnin üzərində qısaca olsa da dayanmaq istərdik. Bəziləri, (adlarını «musiqişünas» qoyub, lakin musiqi tariximizdən xəbəri olmayanlar) hətta, bəstəkar yoldaşlar belə mətbuatda çap etdirdikləri yazılarında

---

[151] Krivonosov Qaryağdı oğlu haqqında elmi əsər yazırdı... Lakin musiqişünas 1941-ci ildə Moskvanın müdafiəsində qəhrəmancasına həlak olduğu üçün başladığı nəsib iş yarımçıq qalır. - Müəllif.

[152] Bax: В Кривоносов. Песни Джаббара Карягды. «Советскаја музыка» jurnalı, 1940-cı il, № 2, səh. 81-83.

Azərbaycan vokal sənətindən danışarkən Qaryağdı oğlu Cabbarın Azərbaycan vokal sənətinin banisi olduğunu inkar edərək onun əvəzində sevimli müğənnimiz Bülbülün adını çəkirlər. Bir çoxları da Bülbüldən danışarkən onu: «Azərbaycan professional vokal məktəbinin yaradıcısı» adlandırırlar. Burada «professional» sözünün nə qədər düzgün işlənilməsi də şübhə oyadır.

Məlumdur ki, «professioial» - Azərbaycanca - peşəkar» deməkdir. Belə çıxır ki, guya Bülbüldən əvvəl bizim peşəkar musiqiçilərimiz olmamışdır?! Gülməlidir elə deyilmi?! Bəziləri də vokal, «vokalist» deyəndə belə anlayırlar ki, guya vokalist o xanəndə ola bilər ki, onun mütləq ali musiqi təhsili olsun. Onların bu səhv müddəalarından belə nəticə çıxır ki, əgər Qaryağdı oğlu Cabbarın ali vokal təhsili yoxdursa, o, nə vokalist, nə də vokal sənətinin banisi ola bilməz. Amma Bülbül ali təhsillidir. Məhz buna görə də onlar Cabbarı yox, Bülbülü Azərbaycan vokal sənətinin banisi hesab edirlər. Belə çıxır ki, kimin ali təhsili yoxdur, o, vokalist ola bilməz. Məkər bizim Bülbülə qədər vokal sənəti tarixində azmı məşhur vokalistlərimiz olmuşdur?!

Əvvəla oxucunun nəzərinə çatdırmaq istərdim ki, mən heç də vokal sənətimizin Cabbar və Bülbül kimi iki nəhəng nümayəndəsini bir-birilə müqayisə etmək fikrində deyiləm və bunları müqayisə etmək gülüncdür. İkincisi mən heç də Bülbülün vokal sənəti tariximizdə unudulmaz xidmətlərini inkar etmək fikrində deyiləm və bunu inkar etmək ağılsızlıq olar. Onu da oxucuya çatdırmaq istərdim ki, musiqi tariximizdə ilk dəfə Bülbül haqqında geniş, böyük məqalələr yazan məhz bu sətirlərin müəllifi olmuşdur. Biz kitabın sonunda Bülbüldən danışarkən onun unudulmaz xidmətlərindən geniş söhbət açacağıq. Lakin burada musiqi tariximizin düzgün öyrənilməsi naminə, hər bir müğənninin vokal sənəti qarşısındakı xidmətlərini düzgün aydınlaşdırmaq, daha doğrusu, hərənin payını özünə vermək naminə müəyyən məsələlərə toxunmaq yerinə düşərdi. Birinci növbədə, biz, Cabbarın Azərbaycan vokal sənəti tarixindəki tutduğu rolu və onun həqiqətən vokal sənətimizin banisi olduğunu inkar edənlərə Bülbülün öz sözləri ilə cavab vermək istərdik. Əgər vokal sənətindən, onun tarixindən danışan bəzi «musiqişünaslar» Bülbülün irsi ilə yaxından məşğul olsaydılar, heç olmasa onun çap olunmuş məqalə və məruzələrini oxuyub dərk edə bilsəydilər, şübhəsiz ki, musiqi tariximiz, xüsusilə vokal sənətimiz haqqında ağızlarına gələn dərviş bayatılarını oxumazdılar... Məlumdur ki, güllü bağçamızın şən bülbülü olan unudulmaz müğənnimiz Bülbül, Azərbaycan vokal məktəbinin tarixindən və xüsusilə xanəndəlik sənətindən danışarkən həmişə birinci növbədə Cabbar Qaryağdı oğlunun adını çəkmiş, onu «ulu xanəndə», «musiqimizin canlı tarixi», «nəğmələrimizin yaradıcısı» adlandırmaqla özünü də Cabbarın tələbəsi hesab etmişdir. Hətta söhbətdərində Cabbardan danışarkən onu heç kəslə müqayisə etməməyi tövsiyə edərək həmişə deyərdi «Cabbar bütöv bir dövrdür - tarixdir».

Bülbül hələ 1935-ci ildə Qaryağdı oğlunun anadan olmasının 75 illiyi münasibətilə «Bakinski raboçi» qəzetinin 28 may 1935-ci il tarixli nömrəsində çap etdirdiyi: «Şərq vokal sənətinin ustası» adlı məqaləsində, 1941-ci ilin mart ayında Bakıda keçirilmiş və milli vokal kadrlar yetişdirməyə həsr edilmiş ümumittifaq müşavirəsindəki məruzəsində, eyni zamanda «Azərbaycan oxuma məktəbi» adlı elmi əsərində Azərbaycan vokal sənətindən danışarkən birinci olaraq Qaryağdı oğlunun adını çəkmiş və onun vokal sənəti tarixində əvəzolunmaz xidmətlərinə böyük qiymət vermişdir. Bülbül istər çıxışlarında və istərsə də elmi məruzə və əsərlərində Qaryağdı oğlunu vokal məktəbimizin banisi adlandırmışdı. Bülbül yazırdı:

«Cabbar Qaryağdı oğlu iki oktava yarım səs diapazonuna malik müğənnidir. Onu lirik-dramatik tenor səsə aid etmək olar.

Azərbaycan oxuma üslubunu birinci olaraq o yaratmışdır (kursiv bizimdir - F. Ş.). Cabbarın gətirdiyi yenilik Azərbaycan orijinal vokal üslubunun təşəkkülündə və daha da inkişaf etdirilməsində çox böyük rol oynamışdır».[153]

Məncə məsələ aydındır, mübahisəyə ehtiyac yoxdur. Lakin bircə onu əlavə etmək olar ki, Azərbaycan vokal sənətini Cabbarsız və onun istedadlı şagirdi Bülbülsüz təsəvvür etmək qeyri mümkündür. Cabbar da bizimdir. Bülbül də. Əgər Qaryağdı oğlu muğamlarımızın şahı idisə, Bülbül nəqmələrimizin soltanıdır. Hər ikisi incə hiss, yüksək zövq və nikbin duyğular müğənnisidir. Əgər Cabbar Qaryağdı oğlu öz qüdrətli sənəti ilə muğamata yeni forma, yeni ruh, yeni məzmun gətirmişsə, Bülbül mahnılarımıza yeni həyat, yeni təravət vermişdir.

---

[153] Bax: Bülbül. "Seçilmiş məqalə və məruzələri", Bakı, 1968, səh. 13, 138.

# Arsen Yaramışev



AZƏRBAYCAN musiqi tarixində istedadlı tarzən və musiqi müəllimi kimi tanınan Arsen Yaramışev ömrünün 50 ilini tarzənlik sənətinə həsr etmişdir.

Arsen Artemoviç Yaramışev 1862-ci ildə Şuşa şəhərində anadan olmuşdur. O, 12 yaşında ikən Böyük Lazardan tar çalmağı öyrənmişdir. Gənc Arsenin musiqi tərbiyəsində Şuşanın musiqi mühitinin həlledici təsiri olmuşdur. Arsen Şuşanın erməni hissəsindəki toy şənliklərində Sadıqcan, Cavadbəy Əlibəy oğlu, Dəmirçi Qulu, Knyaz Karapet oğlu, Nəsirbəy kimi məşhur tarzənlərin çalğısını çox dinləmiş, onlardan müəyyən məsləhətlər almışdır. Bütün bunlar onun inkişafına müəyyən dərəcədə təsir göstərmişdir.

Gənc tarzən Arsen toy məclislərində Keçəçi Məhəmməd, Çarıxlı Bahadır kimi xanəndələri müşayiət edir.

Arsen Yaramışev Bakıya köçdükdən sonra Cabbar Qaryağdı oğlunun yaratdığı musiqi üçlüyün tərkibinə daxil olur. Bu trioda Cabbar Qaryağdı oğlu, kamançaçı Avanes və Arsen beş il əməkdaşlıq edirlər. Onlar Zaqafqaziyanın, İranın şəhər və kəndlərində böyük müvəffaqiyyətlə çıxış edir, hər yerdə rəğbətlə qarşılanırlar. İran məclislərində bir tarzən kimi ad-san çıxartdığına görə İran hökuməti Arsen Yaramışevi qızıl və gümüş medallarla təltif edir.

Bakıda Şərq konsertlərində fəal iştirak edən Arsen yüksək sənət nümunələri göstərmişdi. O, ikinci Şərq konsertində xanəndə Seyid Mirbabayevi tarda müşayiət etmişdi. O zaman «Kaspi» qəzeti konsertin iştirakçıları haqqında verdiyi rəyin bir yerində yazırdı: «Tarçalanlar içərisində Arsenin adını xüsusi olaraq qeyd etmək lazımdır. O, xanəndə Seyidi müşayiət edərkən çətin muğam sayılan «Çahargah»ı çox gözəl çaldı. Dinləyicilər haqlı olaraq hər iki artisti hərarətli alqışlarla mükafatlandırdılar».[154]

1905-ci ildən sonra Arsen Yaramışev uzun illər xanəndələrdən Keçəçi Məhəmməd, Davud Səfiyarov, Seyid Mirbabayev, İslam Abdullayev və Zabul Qasım ilə əməkdaşlıq etmişdir. O, dəfələrlə Bakı, Şuşa, Tiflis şəhərlərində xeyriyyə gecələrində verilən konsertlərin iştirakçısı olmuşdur.

1913-cü ilin yazında «Ekstrafon» aksioner cəmiyyəti Arsen Yaramışevi Kiyev şəhərinə dəvət edir. O, burada «Şüştər», «Rast», «İrak», «Bayatı-İsfahan», «Çahargah», «Mahur», «Rahab» muğamlarını və qədim erməni havalarını qrammafon vallarına yazılmaq üçün çalır, xanəndələrdən Keçəçi Məhəmmədi,

[154] «Kaspi» qəzeti, 25 yanvar 1902-ci il, № 27.

Məmmədqulu Şuşinskini müşayiət edir. Azərbaycan musiqiçilərinin vallarına böyük ehtiyac vardı. «Ekstrafon» firması «Kaspi» qəzeti vasitəsi ilə Arsen Yaramışevin və digər musiqiçilərin qrammafon vallarının satışa buraxıması haqqında xüsusi elanlar vermişdi.[155]

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra da Arsen Yaramışev Azərbaycan musiqi mədəniyyətinin fəal təbliğatçılarından olur. O, 1920-ci ilin payızında təbliğat qatarının musiqiçilər dəstəsinin tərkibində Azərbaycanın bir çox şəhər və kəndlərində konsertlər vermişdir.

Arsen Yaramışev ömrünün son doqquz ilini pedaqoji sahədə çalışmışdır. O, 1921-ci ildən Azərbaycan Dövlət Türk Konservatoriyasında tar dərsi demiş, konservatoriyanın ən işgüzar müəllimlərindən biri kimi hamının hörmətini qazanmışdır. Konservatoriyanın rektoru, bəstəkar Üzeyir Hacıbəyov Arsen Yaramışev haqqında Azərbaycan SSR İncəsənət İşləri İdarəsinin ünvanına göndərdiyi xasiyyətnamədə yazırdı: «Yaramışev mənim yanında 1921-ci ildən 1930-cu ilə kimi işləmişdir. Nümunəvi bir tar müəllimi kimi o, Azərbaycan incəsənəti üçün çoxlu kadr yetişdirmişdir.

...Yaramışev bizim incəsənətimiz üçün çox xeyir vermiş ən yaxşı sovet pedaqoqlarından biridir».

Arsen Yaramışev konservatoriyada müəllimliklə bərabər ayrı-ayrı musiqi ocaqlarında da fəaliyyət göstərmişdir. O, fəhlə klublarında tar dərnəkləri yaratmış, A. İonesyanın Şərq orkestrində bir səlist kimi çıxış etmişdir.

Arsen Yaramışev 50 il fasiləsiz olaraq sədəfli tarı ilə Azərbaycan musiqisinə xidmət göstərmişdir. Respublikanın musiqi ictimaiyyəti onun tarzənlik fəaliyyətinin 50 illiyini (1880-1930) qeyd etməyə hazırlaşırdı. Lakin amansız ölüm buna imkan vermədi. Sənətkar tarzən Arsen Yaramışev 14 yanvar 1930-cu ildə Bakıda vəfat etdi.

Görkəmli tarzən, həssas ürəkli müəllim Arsen Artemoviç Yaramışevin qəbri üzərində çıxış edən Cabbar Qaryağdı oğlu onu Azərbaycanın böyük musiqiçilərindən biri kimi qiymətləndirmişdi.

---

[155] Bax: «Kaspi» qəzeti, 1913-cü il, № 134.

## Keçəçi oğlu Məhəmməd



MİN səkkiz yüz doxsan altıncı ilin payız, günləri idi. Havalar yavaş-yavaş soyuyurdu. Soyuq bulaqlar, sinəsinə gül-çiçəkdən xalı salmış zümrüd yamaclar, səfalı meşələr Şuşaya dincəlməyə gələnlər ilə vidalaşırdı. Camaat yenicə çəkilmiş su kəmərinin açılışına toplaşmışdı. Həmin ikinci su kəmərini Şuşa sakini Tatevos Tamirov çəkdirmişdi. «Barjomi mehmanxanası»ndan tutmuş «Kiçik Yarmaya» qədər hər yer bəzənmişdi. Yeni su kəmərinin açılışına ətraf yerlərdən çoxlu qonaq gəlmiş, yüzlərlə teleqram alınmışdı.

Günortaçağı bu münasibətlə «İrəvan qapısı» ətrafında qonaqlıq təşkil edilmişdi. Qonaqlıqda şəhərin hər iki hissəsindən adlı-sanlı adamlar toplaşmışdı. Məclisə Şuşanın məşhur xanəndələri, çalğıçıları və aşıqları da dəvət olunmuşdu.[156] Bir neçə musiqiçilər dəstəsi at belində su kəməri boyunca şəhərə buraxılan suyu incə bayatılarla müşayiət edirdilər. Xanəndələr arasında bir gəncin oxuduğu «Qarabağ şikəstəsi» ətrafdakı dağlara səs salmışdı. Gəncin sürəkli zəngulələri «Bazar başında» eşidilirdi. Gözəl səsin sahibi «Keçəçi oğlu» adı ilə məşhur olan Məhəmməd Məşədi Xəlil oğlu idi.

Keçəçi oğlu Məhəmməd 1864-cü ildə Şuşada anadan olmuşdur. Məhəmməd kiçik yaşlarından atasının peşəsinə (keçəçilik sənətinə) yiyələndiyindən xalq arasında Keçəçi adı ilə məşhur olmuşdur.

Bir gün görkəmli musiqişünas Xarrat Qulu keçəçi dükanının yanından keçərkən, ortaboylu, qırmızıyanaq bir gəncin keçə təmizləyə-təmizləyə zümzümə etdiyini eşidir. O, gəncin kim olduğunu öyrəndikdən sonra, onu öz məktəbinə dəvət edir. Məhəmməd burada Xarrat Quludan, xüsusilə məşhur xanəndə Məşədi İsidən xalq musiqisini mükəmməl surətdə öyrənir.

Keçəçi oğlu hələ gənc ikən Şuşanın «Şəmilin bağı», «Çanaxqala» və «Səkili bulaq» kimi səfalı yerlərində qurulan məclislərdə oxumuşdur. Seyid Şuşinski deyir ki, Keçəçi oğlunu görməyib uzaqdan səsini dinləyənlər elə bilirdilər ki, oxuyan Məşədi İsidir. Çünki Keçəçi oğlu oxuduğu muğamlarda Məşədi İsinin vurduğu xalları və guşələri çox ustalıqla təqlid edirdi. O, böyük xanəndənin yolu ilə gedirdi.

Şuşada «Xandəmirovun teatrında» yazıçı Əbdürrəhimbəy Haqverdiyevin rəhbərliyi altında təşkil edilən teatr tamaşaları və musiqili səhnəciklərdə Keçəçi Məhəmməd də iştirak etmiş, tamaşaçıların hüsn-rəğbətini qazanmışdı.

Keçəçi oğlu Məhəmməd ilk dəfə bakılılar qarşısında 1902-ci ildə çıxış etmiş, «Şüştər» muğamını çox böyük ustalıqla oxumuşdu. «Kaspi» qəzeti bu

---
[156] Bax: «Kaspi» qəzeti, 1996-cı il, № 249.

münasibətlə yaxşı rəylər dərc etmişdi. Bu rəylərdən birində deyilirdi: «Xanəndə Məhəmməd «Şüştər» muğamını incə bir səslə və ürəkdən elə gözəl oxudu ki, dinləyicilərin məhəbbətini daha çox qazandı».[157]

Həmin konsertdə Məhəmməd Füzulinin «Leyli və Məcnun» poemasından bir parça (duet °əklində tamaşa) göstərilmişdi. Cabbar Qaryağdı oğlu və Keçəçi oğlu Məhəmmədin deyişmələri böyük müvəffəqiyyət qazanmışdı. Bu barədə mətbuatda yazılmışdı: «İfaçılar kostyum geymişdilərsə də oynamır, yalnız oxuyurdular, gözəl oxuyurdular».[158] Cəsarətlə demək olar ki, bu konsert-tamaşalar Azərbaycan milli opera incəsənətinin yaranmasına zəmin yaradırdı.

Bakının mədəni həyatı Keçəçi Məhəmmədi cəlb edir. O, 1904-cü ilin əvvəllərində Bakıya köçür. Keçəçi oğlu Məhəmməd Bakıda məşhur tarzənlərdən Bala oğlu Qrikor, Məşədi Zeynal, Mərdi Canıbəyov, sonralar isə Qurban Pirimov ilə əməkdaşlıq etmişdir. Keçəçi oğlu tarzən Tatevos Arutunyan və kamançaçı Armenak Şuşinski ilə də toy şənliklərində olmuşdur.

Keçəçi oğlu Məhəmməd öz sənətinə tələbkarlıqla yanaşar, öz üzərində yorulmaq bilmədən çalışardı. O, dinləyiciləri ələ almağı, öz sənəti ilə onları valeh etməyi bacarırdı. Keçəçi oğlu elə xanəndələrdən idi ki, istədiyi vaxt dinləyicini şənləndirər, «Zəminxarə», «Humayun» kimi muğamlarla isə kədərləndirərdi.

Respublikanın əməkdar artisti Cəlilbəy Bağdadbəyov öz xatirələrində Keçəçi oğlu Məhəmməd haqqında yazır: «1905-ci ildə Bakı toylarının birində Keçəçi Məhəmmod oxuyurdu. Toy məclisi geniş bir həyətdə qurulmuşdu. Adam çox idi. Keçəçi oğlu «Üzzal» oxuyurdu. Mənim yanımda görkəmindən Bakı qoçularına oxşayan silahlı bir nəfər oturmuşdu. Xanəndənin çox ustalıqla oxuması bütün məclisi-məst etmişdi. Təkcə mənim yanımda oturan qoçu narahat idi. O, nədənsə hirslənir və tapançasını əlində oynadırdı. Keçəçi oğlu bu vəziyyəti görüb İran şairi Sədinin:

Ma degər kəs nəgereftim becaye to nədim,
Əlləh-əlləh to fəramuş məgon əhde-qədim.

rədifi ilə başlanan qəzəlini oxudu. (tərcüməsi: Biz başqasını sənin yerinə özümüzə mərhəm götürmədik, sən də allah xatirinə keçmiş əhdi-peymanı unutma).

Mən qonşumun hərəkətlərindən narahat olaraq üzümü ona çevirdikdə o, bu vəziyyətdən istifadə edib dedi:

- Qardaş oğlu, Keçəçi oğlu nə oxuyur?

- Mən dedim ki, xanəndə «Üzzal» oxuyur və qəzəlin bu iki sətrini ona tərcümə etdim. Qoçu bığlarını eşib dedi:

---

[157] «Kaspi» qəzeti, 13 yanvar 1902-ci il, № 11.
[158] Yenə orada.

- Eh, heç nə bilmirəm. Bircə onu bilirəm ki, Keçəçi oğlunun oxumağı mənim o qədər xoşuma gəlir ki, istəyirəm ayağa duram, hamını qıram».[159]

Keçəçi oğlu Məhəmməd klassik muğamlardan «Nəva», «Mahur», «Mani», xüsusilə «Bayatı-Qacar»ı orijinal bir şəkildə, özünəməxsus fərdi xüsusiyyətlə ifa edirdi. Azərbaycan musiqi tarixində ritmik muğamları Keçəçi Məhəmməd kimi ustalıqla oxuyan və onun səsi kimi yüksək diapazona malik olan xanəndədələr az olmuşdur. Armenak Şuşinski nəql edirdi ki, Keçəçi oğlu Məhəmmədin səsi o qədər zil idi ki, kamançanın hər yerində oxuyurdu.

1912-ci ildə bütün Qafqazda məşhur xanəndə kimi tanınan Keçəçi oğlu Məhəmməd «Sport-Rekord» firmasının dəvəti ilə Varşava şəhərinə gedir. O, yolüstü bir neçə gün Moskvada qalır. Burada «Metropol» mehmanxanasının zalında Cabbar Qaryağdı oğlu, Məşədi Məmməd Fərzəliyev və Davud Səfiyarovun iştirakı ilə «Şərq konserti» verir.

Keçəçi oğlu Məhəmmədin qrammafon vallarına oxuduğu təsnif və muğamların kataloqu (Kiyev. 1914-cü il).

Varşavada Keçəçi oğlu, Qurban Pirimov və kamançaçı Saşa Oqanezaşvilinin müşayiəti ilə «Heyratı», «Rahab», «Kürdü-Şahnaz», «Qarabağ şikəstəsi», «Doşti», «Çoban bayatı»sı muğamları ilə birlikdə» «Getdi gəlmədi», «Gülə-gülə», «Xuraman», «Axşam oldu» təsnif və mahnılarını vala yazdırır. Onun xüsusi bir zövq ilə oxuduğu «Leyli» təsnifi dillər əzbəri olmuşdur.

Varşavadan sonra Keçəçi Məhəmməd 1914-cü ildə «Ekstrafon» firması tərəfindən Kiyevə dəvət edilir. O, burada da tarzən Arsen Yaramışev və kamançaçı Mosesin müşayiəti ilə bir çox muğam və el mahnılarını qrammafon valı üçün oxumuşdur.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Keçəçi oğlu Məhəmməd xalq incəsənəti ilə daha yaxından məşğul olmuş, bütün; qüvvəsini və biliyini musiqi mədəniyyətimizin inkişafına həsr etmişdir. 1921-ci ildə Keçəçi Məhəmməd «Təşviqat qatarı» ilə Azərbaycanın bir sıra rayonlarını gəzmiş, əhaliyə verilən konsertlərdə fəal iştirak etmişdir.

1926-cı ildə Ü. Hacıbəyovun təşəbbüsü ilə Keçəçi oğlu Azərbaycan Dövlət Konservatoriyasına dəvət edilir. O, burada Cabbar Qaryağdı oğlu və Seyid Şuşinski ilə birlikdə gənc xanəndələr yetişdirmək sahəsində birgə fəaliyyət göstərmişdir. Xalq şairi Səməd Vurğun Keçəçi oğlunun orijinal yaradıcılığına, nikbin və gözəl səsinə dəfələrlə yüksək qiymət vermiş, onun məlahətli səsini təqdiq

[159] Cəlilbəy Bağdadbəyov. Qarabağ xanəndələri haqqında xatirə (əlyazması). Azərbaysan SSR Mədəniyyət Nazirliyi Memarlıq və İncəsənət İnstitutunun arxivi, qovluq № 149.

etmişdir.[160] Keçəçi oğlunun qardaşları Mustafa, İbiş və Səmədin də yaxşı səsi olmuşdur.

Keçəçi oğlu Məhəmməd Azərbaycan milli musiqi mədəniyyətinin inkişafında müəyyən xidmətləri olan görkəmli sənətkarlardan biridir. Onun mənalı həyat yolu bu cəhətdən səciyyəvidir.

Görkəmli xanəndə Keçəçi oğlu Məhəmməd 1940-cı ildə Quba şəhərində vəfat etmişdir.

Keçəçi oğlu Məhəmməd bütünlüklə öz səsini və istedadını xalqının mənəvi və musiqi tərbiyəsinə həsr etmişdir. Bir xanəndə kimi o, nadir sənətkarlıq qabiliyyətinə, həm də gözəl səsə malik idi. Hər bir muğam, təsnif və el havalarını məharətlə oxumaqda dinləyicini valeh edərək ona yüksək bədii zövq verərdi.

Son dərəcə zil, nikbin və məlahətli səsi olan Keçəçi bütün muğamların öhdəsindən asanlıqla gələ bilirdi. Onun şirin xallarını, zərif guşələrini və cəhcəhli zəngulələrini dinləyən dinləyicidə belə təsəvvür yaranardı ki, dünyada Keçəçinin səsindən gözəl səsi, həm də mahir qabiliyyəti olan ikinci bir xanəndə yoxdur. O, olduqca aydın, rəvan və şirin oxuyardı. Onun zil muğamlarda vurduğu sürəkli zəngulələrin və uzun nəfəsinin misli-bərabəri yox idi.

Keçəçi oğlu klassik bir xanəndə kimi musiqi mədəniyyətimizin tarixində müstəsna rol oynamış, heç bir zaman xalq musiqisindən uzaqlaşmamışdır. Onun bütün varlığı və qəlbi muğam musiqisi ilə döyünmüşdür.

Minillik tarixə malik olan muğamlarımız yaşadıqca, Keçəçi oğlunun da adı və sənəti yaşayacaqdır.

[160] Bax: Səməd Vurğun. Muğamlar haqqında (əlyazması). Azərbaycan SSR Mədəniyyət Nazirliyi, Memarlıq və İncəsənət İnstitutunun arxivi, qovluq № 31.

## Şəkili Ələsgər



GENİŞ və yaraşıqlı salon qonaqlarla dolu idi. Kimi əyləşmiş, kimi də yer tapa bilməyib ayaq üstə durmuşdu. «Bayatı-Qacar»ın sədası ürəkləri riqqətə gətirmişdi, salon sükuta dalıb xanəndənin həzin və şirin ləhcəsini həyəcanla dinləyirdi. Bu sükutu təqdir səsləri pozurdu. Məclisin aşağı tərəfində küncə sıxılıb dayanmış sadə geyimli, ortaboylu bir gənc xanəndəni böyük ehtirasla dinləyirdi. Onun çöhrəsi bəzən açılır, bəzən də tutulurdu. Nəhayət, xanəndə dəstgahı başa vurdu. Həmin gəncin yanında dayanmış qoca bir bənna «toy bəyinə» müraciət etdi:

- Bəy, icazə verin bizim uşaq da oxusun.

Bənnanın təklifi narazılıq və şübhə ilə qarşılandı.

- Canım, vaxtımızı alma.
- Ay usta, o da oxumaq bilir?
- Əşi, ayıbdır, heç insafdır xanəndənin yanında uşaq-muşaq oxusun?

Xanəndə işə qarışmalı oldu. O, məclis əhlinə müraciətlə dedi;

- Camaat sakit olun, qoyun oxusun. Bəlkə gözəl səsi var. Gec-tez bu el-obadan bir xanəndə çıxmalıdır axı... Şəki mahalına havaxtacan Qarabağdan xanəndə dəvət edəcəksiniz?

Xanəndənin sözləri hamını sakitləşdirdi. O, gənci yanına çağırıb öz qavalını ona verərək mehribanlıqla dedi:

- Oğlum! Mən istəyirəm sənin səsini yoxlayım. Odur ki, bizə bir «Qatar» oxu.

Gəncin bulaq kimi çağlayan səsi, vurduğu zəngulələr elə ilk dəqiqədən məclisin diqqətini cəlb etdi. O, muğamı oxuyub başa çatanda alqış qondu. Xanəndə Keştazlı Həşim[161] bu gəncin gözəl səsinə və istedadına heyran olub, onun əlini bərk-bərk sıxaraq dedi:

- Oğlum, halal olsun, sənin çox gözəl səsin var. Ancaq muğamata bələdliyin yoxdur. Mən nə qədər ki, Şəkidəyəm, tez-tez yanıma gəl, sənə bir-iki muğam və təsnif öyrədim.

Təsadüfən Keştazlı Həşimin şagirdi olan bu gənc istedadlı xanəndə Ələsgər Abdullayev idi.

---

[161] Keştazlı Həşim XIX əsrdə yaşamış məşhur Qarabağ xanəndəsidir. Şuşa, Şəki, Şamaxı, Gəncə, Tiflis, Təbriz və Tehran şəhərlərində qurulan musiqi müsabiqələrində dəfələrlə qalib çıxmışdır. O, bir sənətkar kimi Səttar, Hacı Hüsü, Mirzə Məhəmməd Həsən və Bulbülcan kimi zəmanəsinin istedadlı xanəndələri ilə bir sırada dayanmışdır. Keştazlı Haşim Şəki mahalında uzun müddət xanəndəlik etmişdir. - Müəllif.

Azərbaycan xalq musiqisi tarixində görkəmli xanəndə kimi tanınan Ələsgər Abdullayev 1866-cı ildə Şəki şəhərində doğulmuşdur. O, yoxsul valideynlərinə kömək etmək məqsədi ilə gənc yaşlarından bənna köməkçisi olmuşdur. Xanəndə Keştazlı Həşimlə təsadüfi görüş onun həyatında dönüş yaratdı. Gənc Ələsgər Keştazlı Həşimin qayğısı sayəsində öz səsinin qüdrətinə inandı, məclislərə, toy şənliklərinə yol tapdı. Ələsgər zil və məlahətli səsi, muğamatı mükəmməl bilməsi ilə müasirlərinin etimadını qazandı. Məlum olduğu kimi, Ələsgər ilk illərdə ustad xanəndə Həşimin yaradıcılığı ilə tanış olur, ondan oxumağın qayda və qanunlarını öyrənir, yeri düşəndə isə onunla birlikdə el şənliklərində çıxış edirdi. Cabbar Qaryağdı oğlunun yazdığına görə, Ələsgər Bakıya gələnə qədər Keştazlı Həşimdən «Bayatı-Şiraz» və «Segah» muğamlarını mükəmməl öyrənmişdi.

Ələsgər Abdullayevin ikinci müəllimi Bakı tacirlərindən Ağa Səid oğlu Ağabala olmuşdur. Ağa Səid oğlu həvəskar xanəndə idi. Bir gün Ağa Səid oğlu Şəkiyə qonaq gəlir. Fayton şəhərə daxil olarkən Ağa Səid oğlu bir gəncin divar tikdiyi yerdə yanıqlı səslə «Segah» oxuduğunu eşidib faytonçuya atları saxlamağı əmr edir. Bənna «Segah»ı oxuyub qurtardıqdan sonra tacir onu yanına çağırtdırır və bir qədər söhbət etdikdən sonra deyir:

- Bacı oğlu, sənin çox gözəl səsin, musiqi qabiliyyətin var. Tale sənə böyük bir vergi veribdir. Yaxşı olar ki, mənimlə birlikdə Bakıya gedib xanəndəlik təlimini orada öyrənəsən...

Ələsgər Ağa Səid oğlunun təklifini qəbul edir, bir neçə gündən sonra tacirlə birlikdə Bakıya gəlir. Gənc Ələsgər müəllimi Ağa Səid oğlundan təlim alır və yorulmaq bilmədən musiqi təhsilini artırır. O, hər bir muğamı öyrənmək üçün aylarla vaxt sərf edir. Bir müddətdən sonra Ələsgər nəinki Bakıda, hətta Azərbaycanın şəhər və kəndlərində usta bir xanəndə kimi məşhur olur. Qurban Pirimov söyləyirdi ki, Ələsgəri toya və məclisə dəvət edən şəxs bu barədə ona məclis gününə iki ay qalmış xəbər verməli idi.

Şəkili Ələsgər zəhmətkeş xalqın içərisindən çıxdığına görə həmişə xalqa yaxın olmuş və oxuduğu qəzəllərdə xalqın istək və arzularını tərənnüm edirdi. Buna görə də xalq öz sənətkarını sevir və yüksək qiymətləndirirdi.

Məşhur xanəndə Seyid Şuşinski belə bir əhvalat nəql edirdi: «Bir gün Bakı məclislərinin birinə Cabbarı, Ələsgəri və məni də dəvət etmişdilər. Məclis qızışmışdı, nahara qədər Cabbar, nahardan sonra Ələsgərlə mən oxumalı idik. Onu da deyim ki, Cabbardan sonra oxumaq asan deyildi. Rəhmətlik Cabbarın bir dəstgah oxumağı üç-dörd saat çəkər, bəzən bir muğamdan başqa birisinə elə ustalıqla keçərdi ki, nəinki dinləyicilərin, hətta mahir musiqişünasların ruhu belə inciməzdi. Sözün qısası, Cabbar «Mahur»u qurtardı. Amma xəbər gəldi ki, nahar iyirmi-iyirmibeş dəqiqə gecikəcək. Mən fürsətdən istifadə edib Ələsgərə dedim:

- Cabbardan sonra oxumaq mənasız olsa da, əlac yoxdur, nahar vaxtınadək oxumalıyıq. Başla görək nə olar...

Usta Şirin tarı köklədi. Ələsgər bir «Segah» oxudu, nə deyim... Xanəndədə belə yağlı səs, belə gözəl guşələr, xallar, belə xırdalıqlar və belə də ayaqlar olardı? Bütün məclis Ələsgərin oxumağından sanki bihuş olmuşdu».[162]

Böyük xanəndə haqlı idi: Ələsgər kimi sənətkarlar çox nadir hallarda yetişirlər. Ələsgər təkcə «Segah»ı deyil, bütün muğamları və dəstgahları böyük bir məharətlə oxuyardı. Xüsusilə «Şur»u son dərəcə lirik tonda, özünəməxsus əlavə zəngulələrlə dinləyiciyə çatdırırdı.

Şəkili Ələsgər istedadlı xanəndə idi, onun olduqca şirin və yağlı səsindən başqa, bu sənət sahəsində gözəl, orijinal xüsusiyyətləri vardı. İncə duyğulu, minər havaların misilsiz ifaçısı olan Ələsgərin oxuduğu muğamlar bizim mədəni irsimizin nadir incilərindəndir.

Şəkili Ələsgər də 1902-1903-cü illər Bakı şəhərində verilən «Şərq konsertləri»ndə yaxından iştirak etmişdi. Birinci «Şərq konserti»ndə (11 yanvar 1902-ci il) Ələsgər «Çahargah» muğamını məharətlə oxumuşdu. «Kaspi» qəzeti yazırdı:

«Konsertin ikinci şöbəsində xanəndə Ələsgər öz dəstəsi ilə çıxış etdi. O, çətin hava olan «Çahargah» muğamını düzgün və ustalıqla oxudu».[163]

Ələsgər eyni zamanda ikinci (25 yanvar 1902-ci il) və üçüncü (27 yanvar 1903-cü il) «Şərq konsertləri»ndə «Bayatı-Şiraz», «Şüştər» muğamlarını və gürcü mahnılarını müvəffəqiyyətlə ifa etmişdir.[164]

Ələsgər Bakıda verilən teatr tamaşalarının fasilələrində və «Nicat» cəmiyyəti tərəfindən təşkil edilən «Şərq gecələri»ndə bir xanəndə kimi yaxından iştirak etməklə Azərbaycanda teatr və musiqinin inkişafına xeyli kömək etmişdir.

Şəkili Ələsgər uzun illər məşhur tarzən Şirin Axundov və kamançaçı Levon Qaraxanov ilə yoldaşlıq etmişdir. Bu xalq çalğı alətləri üçlüyü gözəl bir ansamblı andırırdı. Ələsgərin ansamblı təkcə Azərbaycanda deyil, Ermənistanda, Gürcüstanda, Dağıstanda, hətta İranda belə məşhur idi. Deyildiyinə görə, bir dəfə İran məclislərinin birində elə zövqlə və ustalıqla oxumuşdur ki, məclisdə olan xanəndələr ondan sonra oxumaqdan imtina etmiş, yalnız Ələsgərə qulaq asmaq niyyətində olduqlarını bildirmişdilər.

1910-cu ilin fevral ayında məşhur türk müğənniləri Mubar Əfəndi və Mələk xanım Qafqaza qastrol səfərinə çıxarkən Bakıda da konsert vermişlər. Türk artistlərinin ilk çıxışı 14 fevralda şəhərin «Erməni insanpərvər cəmiyyətinin» zalında olmuşdu. Türk müğənniləri öz konsertlərinə Ələsgəri də dəvət etmişlər. Konsertin ikinci şöbəsində Ələsgər tarzən Şirin Axundovun və kamançaçı Saşa Oqanezaşvilinin müşayiəti ilə əvvəl «Mahur», sonra isə «Heyratı» ritmik

---

[162] "Azərbaycan gəncləri", 18 may 1962-ci il.
[163] «Kaspi» qəzeti, 13 yanvar 1902-ci il, № 11.
[164] Bax: «Kaspi» qəzeti, 25 yanvar 1902-ci il, №20; 29 yanvar, 1903-cü il, № 24.

muğamını oxumuşdur. Tamaşaçılar və xüsusilə qonaqlar tərəfindən məhəbbətlə qarşılanan Ələsgər türklərin ikinci konsert tamaşasında da çıxış etmişdi. Həmin konsertdə Saşa Oqanezaşvili «Şüştər», Şirin Axundov isə «Rast» muğamını məharətlə ifa etmişlər.

Şəkili Ələsgər şöhrətli bir xanəndə kimi 1912-1918-ci illərdə dəfələrlə Orta Asiyanın, İran və Türkiyənin bir çox şəhərlərində konsertlor vermiş, hər yerdə gözəl bir nəğməkar kimi dinləyicilərin sonsuz məhəbbət və hörmətini qazanmışdı. O, İran məclislərinin birində gözəl ifaçılıq qabiliyyətinə görə Şah tərəfindən qızıl, medalla təltif olunmuşdur.

Ələsgər Abdullayev 1913-1914-cü illərdə «Sport-Rekord» və «Ekstrafon» səhmdarlar cəmiyyətləri tərəfindən Tiflis və Kiyev şəhərlərinə dəvət olunmuşdur. O, tarzənlərdən Qurban Pirimovun, Tevosun, kamançaçalanlardan Saşa Oqanezaşvili və Moses Quliyansın müşayiətləri ilə «Çahargah», «Rast», «Mahur-hindi», «Zabul-Segah», «Rahab», «Şüştər», «Hasar» və s. muğamları, bir sıra Azərbaycan, gürcü və erməni mahnılarını vala yazdırır. Ələsgər «Rahab» oxumaqda xüsusilə məşhur idi. Musiqi tariximizdə xanəndə Dəli İsmayıldan[165] sonra Ələsgər «Rahab» oxumaqda birinci sayılırdı. Təsadüfi deyildir ki, Ələsgərin dəfn mərasimində Cabbar Qaryağdı oğlu demişdir: «Ələsgər, biz səni yox, «Rahab»ı dəfn edirik»

Şəkili Ələsgər Şərq musiqisini dərindən öyrənmişdi» O, ustad xanəndə idi. Məclisdə oxuyarkən dinləyicilərin diqqətini özünə cəlb etməyi, sehrkar səsi ilə onları «əfsunlamağı» bacarırdı. İslam Abdullayev söyləyirdi ki, «Ələsgərdə elə bir ustalıq vardı ki, o, həmişə məclisdə oturanların musiqi zövqünü nəzərə alar, məclis əhlinin ruhuna uyğun muğam və qəzəllər oxuyardı». Ələsgəri yaxından tanıyan məşhur tarzən Qurban Pirimov deyərdi: «Mən Cabbardan sonra ikinci bir xanəndə Ələsgəri gördüm. Ələsgərin çox yağlı və ipək kimi yumşaq «boğazı» var idi. Rəhmətlik Cabbar həmişə deyirdi: «Əgər Ələsgərin boğazı məndə olsaydı, bülbülü ağacdan yerə endirərdim». Şəkili Ələsgər Azərbaycan milli musiqisinin bir çox sahələrində fəaliyyət göstərmişdir. Ələsgər üç il həmsənəti Cabbar Qaryağdı oğlu ilə birlikdə həkim İoanesyanın təşkil etdiyi birinci Şərq orkestrinin tərkibində Bakı zəhmətkeşləri qarşısında çıxış etmişdi.[166] Bundan əlavə Ələsgər tarzən Qurban Pirimov və kamançaçı Armenak Şuşinski ilə birlikdə Bakının yay klublarında, «Şərq musiqisi gecələri»ndə çalıb çağırmışdı.

Ələsgər Azərbaycan radiosunun musiqi verilişlərində də yaxından iştirak etmişdi.

İstedadlı sənətkar Ələsgər Abdullayev 1929-cu il aprel ayının 1-də Bakıda vəfat etmişdir.

---

[165] Dəli İsmayıl XIX əsrin ikinci yarısında yaşamış məşhur Qarabağ xanəndəsi idi – müəllif.
[166] Bakinskiy raboçiy qəzeti, 3 may 1923-cü il. № 35.

## Məşədi Məmməd Fərzəliyev



MƏŞƏDİ Məmməd Fərzəliyevin adı Azərbaycanın görkəmli xanəndələrindən Cabbar Qaryağdı oğlunun, Keçəçi oğlu Məhəmmədin, Şəkili Ələsgərin və Zabul Qasımın adı ilə yanaşı çəkilir.

Məşədi Məmməd (Löhbala Məmməd) olduqca məlahətli səsə və coşğun zənguləyə malik bir xanəndə idi. Məşədi Məmməd əslən şuşalı olsa da Şuşada çox az yaşamışdı. O, cavan yaşlarında bir müddət Gəncədə, sonralar isə Tiflis, Batum, Vladiqafqaz, İstambul və sair şəhərlərdə yaşamış və xanəndəlik etmişdi. Məşədi Məmməd Zaqafqaziyada, Orta Asiyada, Türkiyədə, hətta Avropanın bir çox ölkələrində görkəmli sənətkar kimi tanınmışdı.

Məşodi Məmməd hələ Şuşada olarkən toy məclislərində və xalq şənliklərində tarzən Tatevos Arutunyan və Məşədi Zeypal ilə birkə çıxış etmişdi. O, ilk dəfə Şuşada Xandəmirovun teatrında verilən Şərq konsertində böyük müvəffəqiyyət qazanmışdı.

1902-ci il avqust ayının 2-də Şuşada İvan İsakoviç Camharov adına şəhər xəstəxanası açılır. Bu münasibətlə şəhərin ən mənzərəli guşələrindən biri olan «İsfəndiyarovun bağında» böyük el şənliyi keçirilir.[167] Şəhərin adlı-sanlı adamları, şairlər və musiqiçilər ziyafətə dəvət edilirlər. Məclisdə ermənilərə hər cür şərab, Azərbaycanlılara ətirli, dadlı şərbət verilir. Bu ziyafət əslində hər iki qardaş xalqın dostluq bayramına çevrilir. Məşhur ədəbiyyatşünas Firidunbəy Köçərli bu dostluq məclisində çıxış edirlər.

Məşədi Məmməd zəngin yaradıcılıq yolu keçmişdir. Onun gözəl zəngulələri, uzun nəfəsləri dinləyiciləri həmişə valeh etmişdir. O, nadir hallarda təsadüf edilən güclü nəfəsə, geniş diapazonlu gur səsə malik olmuşdur. Bir neçə forma və mərtəbədə sürəkli, fəvvarə kimi çağlayan zəngulələr vurmaqda bir sıra görkəmli xanəndələr Məşədi Məmmədə həsəd aparmışlar. Məşədi Məmmədin məlahətli səsinə Cabbar Qaryağdı oğlu yüksək qiymət vermiş, onu özünə «rəqib» hesab etmişdi. İran məclislərinin birində Cabbar Qaryağdı oğlundan soruşmuşlar:

- Qafqazda sənə rəqib olan ikinci bir xanəndə varmı?

Cabbar Qaryağdı oğlu demişdir:

- Qafqazda mənə rəqib olan iki xanəndə vardır: Biri Zabul Qasım, o biri isə Məşədi Məmməddir. Ancaq mənim xoşbəxtliyimdən birincinin zil səsi, digərinin isə dərin musiqi savadı yoxdur.

[167] Bax: «Kaspi» qəzeti, 10 avqust 1902-ci il, № 173.

Məşədi Məmməddə böyük xanəndələrə xas olan gözəl bir xüsusiyyət olmuşdur. Bu da ondan ibarətdir ki, o, həm bəm (pəsxan), həm orta (miyanəxan) və həm də zil (zilxan) səslə məharətlə oxuyurdu. Belə keyfiyyətcə hər xanəndədə olmamışdır. Məşədi Məmməd bütün muğamları həm bəmdə, həm də zildə çox asanlıqla oxumuşdur.

Məşədi Məmməd dinləyicilər qarşısında həmişə zəngin və orijinal repertuarla çıxış etmişdir. Onun oxuduğu «Bayatı-kürd», «Rast», «Şur», «Çahargah», «Zabul-Segah», «Kürdü Şahnaz», «Heyratı», «Mənsuriyyə», «Simayi-şəms», «Qarabağ şikəstəsi», «Arazbarı», «Kərəmi», «Əfşarı» və s. muğamlar geniş xalq kütlələri tərəfindən böyük rəğbətlə qarşılanmışdır.

Azərbaycan vokal sənəti tarixində Cabbar Qaryağdı oğlu «,Mahur», Seyid Şuşinski «Çahargah», Şəkili Ələsgər «Şur», İslam Abdullayev «Segah» ustası kimi məşhur idilərsə, Məşədi Məmməd də «Şüştər» ustası kimi daha məşhur idi. Məşədi Məmməddən sonra musiqimizin son 50 ilində heç kəs «Şüştər» oxumamışdı. Bizim bütün klassik xanəndələrimizin əksəriyyəti Məşədi Məmmədin «Şüştər» oxumağını yüksək qiymətləndirmişlər. Hətta Seyid Şuşinski kimi böyük muğam ustası Məşədi Məmmədin «Şüştər»inə valeh olarmış. Böyük sənətkar xatirələrinin bir yerində yazır:

«Bir gün məni Tiflisdən Gəncəyə toy məclisinə dəvət etdilər. Həmin məclisdə məndən başqa Musa Şuşinski və Məşədi Məmməd Fərzəliyevin də dəstələri var idi. Günorta yeməyindən sonra məclis qızışdı. Əvvəlcə Musa «Segah» oxudu. sonra isə Məşədi Məmməd «Şüştər» başladı, nə başladı. Mən onun nəinki şirin guşələrinə, duzlu xallarına valeh olmuşdum, hətta özümü belə unutmuşdum. Baxmayaraq ki, axşam məclisində mən oxumalı idim, lakin «Şüştər» məni elə hala salmışdı ki, mən Məşədi Məmmədin insanı bihuş edən guşələrindən sonra oxumağı, xüsusilə məclisi yola verməyi ağılsızlıq saydım. Buna görə də əlacsız qalıb kamançaçalan sevini dəmiryol vağzalına göndərdim ki, bilet alsın ki, axşam qayıdaq Tiflisə. Yazıq sevi mənə təəccüblə baxıb dilləndi:

- Ağa, bəlkə xəstələnmisən, icazə ver həkim çağıraq.

Mən isə əsəbiləşdim:

- Ay bədbəxt, nə həkim? Nə dərman? «Şüştər» məni elə hala salıb ki, cəmi Qafqazın həkimlərini və dava-dərmanını buraya yığsanız əlac olan deyil. Tez vağzala!

Axşam, heç kəsin xəbəri olmadan Tiflisə yola düşdük. Musa məyus halda mənə dedi:

- Ağa, bəs toy yiyəsi səni sorsa onda nə deyək?

Mən:

- Heç nə, denən ki, Seyid getdi, onu mən əvəz edəcəm. Əgər narazı qalsa denən ki, nə fərqi var. O da Şuşinskidir, mən də Şuşinskiyəm. Sən oxumağını istə».

Seyid Şuşinskinin toy məclisini tərk etməsini necə izah etmək olar?! Bu böyük sənətkarın cəsarətsizliyimi, yoxsa nə idi? Bu bir həqiqətdir ki, Seyid Şuşinski səsdə, istərsə də muğam ustalığında Məşədi Məmməddən geridə qalan xanəndə deyildi. Milli musiqi tarixində Cabbar Qaryağdı oğlundan sonra ikinci xanəndə məhz Seyid Şuşinskidir. Lakin hadisənin səbəbi Məşədi Məmmədin «Şüştər»i, daha doğrusu, muğamı böyük ustalıq, həm də son dərəcə şirin oxumasının Seyid Şuşinskini bir dinləyici kimi riqqətə gətirməsində, məsti-xumar etməsində idi. Məşədi Məmməd istər texniki ustalığı, istərsə də bədii ifaçılıq məharətilə böyük sənətkarı elə valeh etmişdi, elə ovsunlamışdı ki, daha məclis aparacaq halı qalmamışdı. Ona görə də məclisi tərk etməyi üstün tutmuşdu. Əlbəttə, təcrübədən bəllidir ki, bu cür psixoloji vəziyyət təkcə Seyid Şuşinskinin başına gəlməmişdir.

Məlumdur ki, musiqi tariximizdə İslam Abdullayev «Segah» ustası kimi ad-san çıxarmışdır. Heç kəs İslam kimi «Segah» muğamını, xüsusilə «Yetim Segah»ı məharətlə oxuya bilməmişdir. Lakin İslamın özü də bir dəfə Seyid Şuşinskinin vəziyyətinə düşübdür.

Bir gün Bakı məclislərinin birinə dəvət olunan Segah İslam toyxanaya girərkən Qaryağdı oğlu Cabbar «Xaric Segah» oxuyurmuş. O zaman İslam olan məclisdə heç kəs «Segah» oxumağa sürət etməzdi. Qurban Pirimov söyləyirdi ki, Cabbar «Orta mahur»un «Vilayəti» şöbəsində gəzişəndə onu heç bir qüvvə ilə, hətta top atəşi ilə belə susdurmaq olmazdı. Buna baxmayaraq, Cabbarın qulağına pıçıldasaydın ki, «İslam gəlir», yazıq Cabbar özünü itirirdi. Burada Cabbar Qaryağdı oğlunun İslamdan qorxmasını müstəqim mənada başa düşmək gülünc olardı. Hamıya bəllidir ki, Cabbar Qaryağdı oğlu qüdrətli sənətkar idi. İslamın özü də yaxşı bilirdi ki, səsdə, istərsə də ustalıqda Cabbara nisbətən zəifdi. Lakin onu da inkar etmək olmaz ki, «Segah»ın daha şirin, rəvan, təsirli və əsl Azərbaycan ruhunda oxunmasında İslamın əvəzi yox idi. Bunu hamı bilirdi. Heç də təsadüfi deyildi ki, məclisdə Cabbar Qaryağdı oğlu «Xaric Segah»ı son dərəcə özünəməxsus məharətlə başa vurduqdan sonra dinləyicilər İslamdan «Segah» oxumağı tələb edəndə o, narazı halda demişdir:

- Ayıbdır. Məni biabır etməyin. Mən 40 ildir «Segah» oxuyuram. Lakin bu günkü «Segah»ı eşitməmişdim. Cabbarın «Segah»ından sonra mənim oxumağımdan bir şey çıxmaz. Əgər mənə hörmət etmək istəyirsinizsə, əl vurun! Mənim əlacım yalnız oynamaqdır.

Sonra üzünü çalğıçılara tutub:

- Qurban, mənim havamı çal! - deyə «Tərəkəmə» havasına son dərəcə gözəl oynayan İslam ona verilən bütün şabaşı hörmət əlaməti olaraq Cabbarın qavalına töküb böyük ustadın əllərindən öpür.

İslamın oynamağından sonra ayağa duran Cabbar Qaryağdı oğlu məclisə müraciətlə deyir:

- Camaat, əgər mən bilsəydim ki, bu gün məclisə «Segah»larımızın şahı İslam gələcək, doğrusu, «Segah» oxumazdım. Mənim özüm onun «Yetim Segah»ının əsiriyəm. İslam «Segah» üçün doğulmuşdur.

Onun «Segah»ını dinləmək xoşbəxtlikdir. Mən də sizə tərəf çıxaraq, xahiş edirəm İslam bizim üçün «Segah» oxusun.

Qaryağdı oğlunun xahişindən sonra əlacsız qalan İslam həmin gün yox, yalnız sabahı axşam məclisdə «Segah» oxumağa söz verir.

Göründüyü kimi, Seyid Şuşinskinin Gəncə məclisində başına gələn əhvalat İslamın da başına gəlmişdir. Bir də bu onun nəticəsi idi ki, xanəndələr arasında ədəb-ərkan gözlənilirdi. Bir-birlərinin sənətinə və şəxsiyyətinə hörmət edirdilər.

Məşədi Məmməd Fərzəliyev 1912-ci ildə «Sport-Rekord» şirkətinin dəvəti ilə Varşava şəhərinə gedir. O, Varşavada tarzən Qurban Pirimov, kamançaçı Saşa Oqanezaşvilinin müşayiəti ilə 40-a qədər muğam, təsnif və mahnını oxuyub vala yazdırır. Məşədi Məmməd Azərbaycan və klassik Şərq muğamlarını özünəməxsus fərdi xüsusiyyətlə ifa etmişdi. O, tamam-dəstgah oxuduğu muğamların bir şöbəsindən digərinə keçərkən təsniflərdən ustalıqla istifadə edərdi. Məsələn, ərəb muğamı olan «Hicaz»ı məlahətlə oxuyardı. Hazırda bu muğam «Şur» dəstgahının bir şöbəsi kimi oxunur. Məşədi Məmməd bu muğamı oxuyarkən elə sürəkli zəngulələr, elə guşələr vurardı ki, sanki xanəndə deyil, qönçə gülün həsrəti ilə şeyda bülbül nalə çəkir. O, «Hicaz»ı təsniflə bitirib «Şur»un «Sarəng» hissəsinə keçərkən dinləyiciləri valeh edərdi.

Məşədi Məmməd Natəvanın qəzəllərinin məharətli ifaçısı olmuş, şairənin bədii irsini xalq arasında yaymışdır. Məşədi Məmməd «Rast» muğamını oxuyarkən şairənin:

Varımdı sinədə dərdü qəmi-nihan, ölürəm,
Fəda ölüm sənə, gəl eylə imtahan, ölürəm. -

beyti ilə başlanan qəzəlinə, «Zəmin-xarə» oxuyarkən isə:

Fələk, mən tək bu dünyada qəmi-möhnət çəkən yoxdur,
Bu qədir səfheyi-rüxsarə göz yaşı tökən yoxdur.-

beyti ilə başlanan qəzəlinə müraciət etmişdi.

Məşhur bir xanəndə kimi tanınmış Məşədi Məmməd 1913-cü ilin yazında Zubalov adına xalq evi tərəfindən Tiflisə dəvət edilir. Bu xalq evində Malıbəyli Həmid, Çəkməçi Məhəmməd, Məşədi Cəmil Əmirov, Seyid Şuşinski, Məcid Behbudov, Bala oğlu Qrikor, Sevi, Kevork, Bala Məlik kimi məşhur sənətkarlar teatr tamaşalarında və ya «Şərq konsertləri»ndə çıxış edərdilər. O dövrün teatr afişalarında və konsert proqramlarında bu sənətkarların, həmçinin Məşədi

Məmmədin adına tez-tez rast gəlmək olar. Tiflisdə verilən bir teatr tamaşasının proqramında yazılmışdı: «1913-cü il may ayının 10-da Tiflisin K. Y. Zubalov adına xalq evində Sidqi Ruhullanın rejissorluğu ilə müsəlman opera həvəskarları üçün məşhur xanəndə Məşədi Məmməd Fərzəliyevin iştirakı ilə Üzeyir Hacıbəyovun «Leyli və Məcnun» operasının son pərdəsi tamaşaya qoyulacaqdır. Əsərdə Zeyd rolunu Məşədi Məmməd Fərzəliyev oynayacaqdır. Gecənin konsert şöbəsində Məşədi Məmməd tarzən Kevorkun və kamançaçı Ruben Qaraxanovun müşayiəti ilə «Bayatı-Şiraz», «Mahur» və «Hasar» muğamlarını oxuyacaqdır».

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Məşədi Məmməd öz sənətini xalqın xidmətinə verməyə geniş imkan tapır. 1923-cü ildə Məşədi Cəmil Əmirov tərəfindən Gəncə şəhərinə dəvət edilən Məşədi Məmməd şəhər musiqi məktəbində muğamatdan dərc deyir, gənc xanəndələrin yetişməsinə böyük qayğı göstərirdi. Məşədi Məmməd eyni zamanda tarzən Böyükkişi Əliyev ilə birlikdə Gəncə, Qazax, Tovuz və Şamxor rayonlarında toylarda və xalq şənliklərində çıxış edirdi. Onun əzəmətli və nikbin səsi, coşqun zəngulələri dinləyiciləri vəcdə gətirirdi. Məşədi Məmməd təsnifxanlıqda, gözəl qaval vurmaqda və qədim Azərbaycan mahnılarını ustalıqla oxumaqda qüdrətli sənətkar idi. Məsələn, o, «Qarabağda bir dənəsən», «Nəbi», «Toyun tərifi», «Vətən şərqisi», «Alma», «Səbu», «Maç-maç», «Mən bir türkəm», «Ayıl, ey millət» təsnif və mahnılarını böyük məhəbbətlə ifa edir, hamını heyrətə gətirirdi. Onun zövqlə oxuduğu «Axşam oldu» təsnifi yarım əsrdən artıq bir müddətdə xalqın qəlbindən silinməmişdir. Bu təsnif «Şikəsteyi-fars» üzərində oxunduğu üçün xanəndə hərdənbir incə guşələrlə muğama toxunurdu. Bu, təsnifin daha gözəl səslənməsinə səbəb olurdu. Seyid Şuşinski deyirdi: «Məşədi Məmmədin «Axşam oldu» təsnifini dinləmək musiqini sevənlər üçün böyük səadət idi».

1926-cı ildə Məşədi Məmməd Fərzəliyev, tarzən Saşa Taraxanov və kamançaçı Levon Qaraxanov Rusiyanın bir çox şəhərlərində çıxış edir. Moskvada böyük müvəffəqiyyət qazanan trio xarici qastrol səfərinə çıxır. Onlar Polşa, Almaniya, Fransa, Belçika, İngiltərə, Avstriya, Rumıniya, Türkiyə və İran ölkələrində konsertlər verirlər. Xarici mətbuat Məşədi Məmmədin, Levonun və Saşanın ifaçılıq məharətlərini yüksək qiymətləndirmiş, onlar haqqında dövri mətbuatda gözəl rəylər verilmişdi. Maraqlı burasıdır ki, Azərbaycan musiqiçiləri Brüssel şəhərində çıxış edərkən Londonda qastrola gəlmiş Nyu-York erməni teatr truppasının antreprenyoru onları Londona dəvət etmişdi.

Londonda erməni truppası M. M. Fərzəliyev, L. Qaraxanov və Saşa Taraxanovun musiqi müşayiəti ilə ingilis dilində Ü. Hacıbəyovun «Arşın mal alan» musiqili komediyasını tamaşaya qoyurlar. Tamaşanın fasilələrində Əsgərin ariyasını və Azərbaycan, erməni mahnılarını oxuyan Məşədi Məmməd tamaşaçılar tərəfindən hərarətlə qarşılanır.

Məşədi Məmməd Fərzəliyev ömrünün 60 ilini Azərbaycan və klassik Şərq musiqisinin inkişafına həsr etmişdir. Onun adı Azərbaycan milli musiqi mədəniyyəti tarixinə görkəmli bir xanəndə kimi daxil olmuşdur. Məşədi Məmmədi yaxından tanıyan, uzun illər onun sənət yoldaşı olmuş İslam Abdullayev, Qurban Pirimov, Seyid Şuşinski və Musa Şuşinski kimi qocaman sənətkarlar Məşədi Məmmədin sənətinə yüksək qiymət vermişlər. Musa Şuşinski deyir: «Məşədi Məmməd Fərzəliyevin çox zil və gözəl səsi var idi. «Qatar bayatı», «Kürdü-Şahnaz», xüsusilə «Şüştər» muğamını misilsiz məharətlə oxuyardı. O, həm də yaxşı qaval vurardı. Məşədi Məmmədin zənguləsinə söz yox idi. O elə sürəkli və coşqun zəngulələr vurardı ki, elə bil taxtapuşun üstünə dolu yağırdı.

Yadımdadır, Gəncədə, Bağbanlar kəndində toyda idik. Həmin məclisə Azərbaycanın ən məşhur xanəndələrindən ibarət 7-8 sazəndə dəvət edilmişdi. Məşədi Məmməd də həmin toyda oxuyurdu. Bilirəm, xanəndələr arasında oxumaq haqqında nə söhbət oldusa, Məşədi Məmməd üzünü Cabbara tutub gülə-gülə zarafatyana dedi:

- Məni əsəbiləşdirməyin. Hamınızı qataram zənguləmin qabağına, düz vağzala qədər qovaram».[168]

1929-cu ildə Məşədi Məmməd Fərzəliyev yenidən xaricə qastrol əfərinə çıxmış, bir daha vətəninə qayıtmamışdır.

O, xaricdə yaşadığı illər milli musiqiyə yeni bir şey əlavə etsə də, lakin milli vokal məktəbinin ən yaxşı ənənələrini hifz edib saxlamış, ömrünün sonunadək Azərbaycan xanəndəsi kimi qalmışdır. Məşədi Məmməd 1962-ci ildə 90 yaşlarında Türkiyədə - İstambul şəhərində vəfat etmişdir.

## Malıbəyli Həmid



BAHARIN gözəl gecələrindən biri idi. Bədirlənmiş ay «Bağrı-qan» dağının arxasından çıxaraq öz ağ «kəlağayısını» gözəl Şuşanın üstünə sərmişdi. Dağətəyi dolanbac yolla dördatlı bir araba yavaş-yavaş yuxarı qalxırdı. Ətraf tamam sükuta qərq olmuşdu, Yalnız yoxuş çıxan atların hərdən bir fınxırtısı ətrafa hakim kəsilmiş sakitliyi pozurdu.

Araba «Baş dolayı»nı döndükdən sonra «Əjdaha bulağı»nın yanında dayandı. Gənc arabaçı atlara su verib yenidən yoluna davam etdi. Sərnişinlər yorğun olduqlarından şirin yuxuya getmişdilər. Onlar toy məclisindən qayıdan Hacı Hüsü, Sadıqcan və Avanes idi. Araba daha bir döngəni ötüb «Dotələb»in ətəyinə çatdıqda, artıq dan yeri sökülür,

[168] Malıbəyli Həmidin qardaşı oğlu Muxtarın, öz doğma oğlu İmamqulunun, qızı Ağcanın, əmisi oğlu İsmayılın gözəl səsi olduğunu söyləyirlər. – Müəllif.

sərin meh əsirdi. Qəlbini tənhalıq hissi bürüyən arabaçı həzin-həzin oxuyurdu. Onun ətrafa yayılan xoş səsi elə bil ki, yalçın qayaları, zümrüd yamacları və sərin meşələri səhər yuxusundan oyadırdı. Arabaçı sərnişinləri unutmuşdu. O, «Segah» oxuyurdu. Onun məlahətli səsi sərnişinləri də yuxudan oyatmışdı. Arabaçı «Segah»ı gözəl guşələrlə bitirər-bitirməz:

- Sağ ol, Malıbəyli balası, - deyə bayaqdan bəri qulaq asan sərnişinlər onu alqışladılar.

Malıbəylinin arabası artıq «Xanlıq Muxtarın karvansarası» qabağında dayanmışdı. Sərnişinlər arabadan düşüb xudahafizləşərkən Sadıqcan cavan arabaçını nahara dəvət etdi.

Günortadan bir qədər keçmiş «Merdinli məhəlləsi»ndə Sadıqcanın evində gözəl bir məclis qurulmuşdu. Geniş, işıqlı və rahat qonaq salonunda canlanma vardı. Buraya adlı-sanlı musiqiçilər, xanəndələr toplaşmışdı. Sadıqcanın məclisində xanəndələrdən Məşədi İsi, Hacı Hüsü, Şahnaz Abbas, Dəli İsmayıl, Əbdülbaqi (Bulbülcan) və Cabbar Qaryağdı oğlu da əyləşmişdilər. Bir qədər sonra gənc arabaçı da gəlib çıxdı. Sadıqcan arabaçını mehribanlıqla qəbul edib qonaqlara təqdim etdi.

Nahardan sonra məclisdəkilərə armudu stəkanlarda pürrəng çay verildi. Bu zaman Sadıqcan «sehrli tar»ını döşünə basıb məclisdə əyləşən xanəndələri bir-bir oxutdu. Hacı Hüsünün gözəl səsi, Əbdülbaqinin coşğun və sürəkli zongulələri, Sadıqcanın əzəmətli çalğısı rəis qonağı heyrətə salmışdı. Məşhur xanəndələr oxuduqdan sonra Sadıqcan arabaçıya dedi:

- Oğlum, növbə sənindir. Bizim üçün bir şey oxu.

Bu sözləri eşidən gənc arabaçı özünü itirmişdi. O, məclisdə əyləşən xanəndələrin adlarını çox eşitmiş, onların bir neçəsini Malıbəyli kəndində məclislərdə, toylarda dinləmişdi. Usta xanəndələrin yanında oxumağı arabaçı ağlına sığışdıra bilmirdi. Necə oxusun? Məgər onların yanında oxumaq asandır? Sadıqcan qonağın çəkindiyini hiss edib mehribanlıqla dedi:

- Bacıoğlu, hamımız sənin səsinə qulaq asmaq istəyirik, çəkinmə, oxu.

Sadıqcanın sözləri arabaçı gənci ürəkləndirdi, o, «Segah»dan başqa bir şey bilmədiyini söylədi. Sadıqcan tarı «Segah» üstündə köklədi. Arabaçı gəncin oxuduğu «Segah» məclisdəkilərə xoş gəldi, onu yer-yerdən alqışladılar. Məşədi İsi dedi:

- Bala, sən gəl bu arabaçılığı burax getsin, xanəndəlik sənətini özünə peşə et, gözəl səsin var, hayıfdır, Şuşaya gəl, bizim «Xanəndələr məclisi»ndə muğamatdan dərs al.

Sadıqcanın və Məşədi İsinin xanəndəliyə təhrik etdiyi bu gənc sonralar Azərbaycanda məşhur xanəndə və görkəmli tarzən kimi tanınan Malıbəyli Həmid idi.

Həmid İmamqulu oğlu Qurbanov 1869-cu ildə Şuşa yaxınlığındakı Malıbəyli kəndində anadan olmuşdur. Səfalı, gözəl mənzərəli Malıbəyli kəndi Qarabağın ən böyük kəndlərindən idi. Malıbəylikənd əhalisinin bir hissəsi o zaman arabaçılığı özünə peşə etdiyindən Həmidin babası və atası da arabaçılıqla məşğul olmuşdular. Gənc Həmid də atası kimi Yevlax - Şuşa arasında tacirlərin mallarını daşımaqla dolanırdı. Lakin bir xoş təsadüf onu bu əzablı «peşədən» əbədi xilas etdi.

Malıbəyli Həmid Sadıqcanın evindəki qonaqlıqdan sonra Hacı Hüsünün təşkil etdiyi «Xanəndələr məclisi»nə daxil olur. O, burada məşhur sənətkarlardan, xüsusən Hacı Hüsü və Məşədi İsidən klassik Şərq və Azərbaycan muğamlarını öyrənir. Çox incə, məlahətli səsi olan Həmid xanəndəlik sənətinə yiyələnməklə yanaşı, eyni zamanda tar çalmağı da öyrənirdi. Onun ilk tar müəllimi Sadıqcan olmuşdur.

Həmid Şuşa məclislərində bir xanəndə kimi tanınırdı. O, Şuşada ilk dəfə Nəcəfqulu ağanın məclisində Hacı Hüsü, Məşədi İsi, Sadıqcan və Avaneslə birlikdə çıxış etmişdi. Xan Şuşinski danışırdı: «Atam mənə söyləyirdi ki, Nəcəfqulu ağanın qonaqlığında Həmid elə bir «Rast» oxudu ki, hamı heyran qaldı. Hacı Hüsü dedi ki, gələcəyin oxuyanı bu - Malıbəyli balası olacaq».

Bu məclisdən sonra Həmidi tez-tez xalq şənliklərinə dəvət edirlər. Malıbəyli Həmid bir çox illər toy şənliklərində və xalq məclislərində məşhur tarzənlərdən Cavadbəy Xənəzəyski, Məşədi Zeynal, Arsen Yaramışev, sonralar isə Məşədi Cəmil Əmirov və Qurban Pirimov ilə çalıb oxumuşdur. Malıbəyli Həmid qüdrətli xanəndə, eyni zamanda gözəl tarzən və istedadlı aktyor olmuşdur. Ü. Hacıbəyovun «Leyli və Məcnun», Məşədi Cəmil Əmirovun «Seyfəl-Mülük» opera tamaşalarının afişalarında onun adına tez-tez təsadüf edilir. Malıbəyli Həmid bu operalarda bacarıqlı aktyor kimi çıxış etmiş, böyük rəğbətlə qarşılanmışdır.

Malıbəyli Həmid xalq şənliklərinin və toylarının xoş keçməsi üçün də əlindən gələni əsirgəməmişdir. O, çox vaxt məclislərdə özü həm çalar, həm də oxuyardı. Görkəmli müğənni Seyid Şuşinski öz xatirələrinin birində bu barədə yazır: «Mən Həmid ilə üç dəfə məclisdə çıxış etmişəm. Onun çalğısına söz yox idi. Həmiddə gözəl xallar, guşələr və çox şirin barmaqlar vardı. O, xanəndəni elə ustalıqla müşayiət edirdi ki, müğənni onun çalğısından həzz alırdı».

O, bütün muğamları tarda ustalıqla ifa etsə də, əslində məclis xanəndəsi idi. Onun xüsusi bir zövqlə oxuduğu «Raot» və «Segah» muğamları təkcə Azərbaycanda deyil, bütün Zaqafqaziyada böyük maraqla dinlənilmişdi.

Malıbəyli Həmid «Segah»ı şirin bir üslubda, yanıqlı oxuması ilə müasirlərindən fərqlənərdi. O, «Segah»ı bir neçə variantda oxuyarmış. «Yetim Segah»ı və «Orta Segahı» daha gözəl, özünəməxsus orijinal bir şəkildə ifa edərmiş. Belə nəql edirlər ki, Həmid «Orta Segah» oxuyanda dəstgahı tarın sarı simlərində «Müxalif» hissəsindən başlayır, bir qədər gəzişdikdən sonra muğamın «Hasar»

şöbəsinə keçirdi. O, «Hasar» üstündə elə nəfəslər, zərif xallar, həzin guşələr vurardı ki, hamı onu məftunluqla dinlərdi. «Müxalif»dən «Hasar»a keçmək Həmidin «Segah» muğamına gətirdiyi yenilik idi. Buna xanəndələr arasında «Həmid Segah»ı deyərdilər. O, eyni zamanda «Rast» ifaçısı kimi daha məşhur idi.

XX əsrin əvvəllərində Həmid ailəsi ilə birlikdə Gəncə şəhərinə keçir. Burada Malıbəyli Həmid Məşədi Cəmil Əmirovla yaxından tanış olur. Onlar uzun müddət əməkdaşlıq edirlər. Məşədi Cəmil tar çalmaqda Həmidin ən yaxşı müşayiətçisi idi. Maraqlı burasıdır ki, Məşədi Cəmilin oxumaq tərzinə daha yaxın bələd olan Malıbəyli Həmid də Məşədi Cəmili tarda müşayiət etmişdir. Hər iki istedadlı sənətkar Gəncə, Şamxor, Qazax və Tiflis şəhərlərində və onların ətraf rayonlarında toy və məclislərdə müvəffəqiyyətlə çalıb-oxumuşdur. O zaman görkəmli müğənni kimi məşhur olan Malıbəyli Həmid dəfələrlə İranın Rəşt, Ənzəli şəhərlərinə dəvət olunmuşdur.

Malıbəyli Həmid qardaşı Əsgər Qurbanov və kamançaçı Böyükkişi Əliyevlə birlikdə bir çox illər çalıb-oxumuşdur.[169]

1910-cu ildə Malıbəyli Həmid «Qrammafon» şirkətinin dəvəti ilə Riqa şəhərinə getmiş və səsini vala yazdırmışdır. O, «Şur», «Rast», «Yetim Segah», «Humayun» və bir çox təsnifləri və el mahnılarını oxumuşdur. Tarı Malıbəyli Həmidin özü çalmışdı. Xanəndənin qardaşı Əsgər Qurbanov da bir neçə muğamı onun müşayiəti ilə oxumuşdur. Bu hadisədən bir neçə vaxt sonra yaradıcılığının ən səmərəli vaxtında Malıbəyli Həmidin səsi batmışdır. Lakin o, qətiyyən ruhdan düşməmiş, tar çalmaq sənəti ilə daha ciddi məşğul olmağa başlamışdır. Qarabağ məclislərində, Gəncə toylarında və Tiflis şəhərində verilən konsertlərdə Malıbəyli Həmid Keçəçi oğlu Məhəmmədi, Zabul Qasımı, Musa Şuşinskini, İslam Abdullayevi, Məşədi Məmməd Fərzəliyevi, Məmmədqulu Şuşinskini, Bülbülü tarda müşayiət etmiş və xalq arasında «gözəl tarzən» adını ləyaqətlə daşımışdır.

Ömrünün 40 ilini Azərbaycan milli musiqi mədəniyyətinin inkişafına həsr etmiş Malıbəyli Həmid 1922-ci il mart ayının 22-də Ağdamda vəfat etmişdir.

[169] Malıbəyli Həmidin qardaşı oğlu Muxtarın, öz doğma oğlu İmamqulunun, qızı Aqsanın, əmisi oğlu İsmayılın gözəl səsi olduğunu seyləyirlər. — Müəllif.

# Çarıqçı Bahadır



ÇARIQÇI Bahadır təxminən 1870-ci ildə Şuşada, «saatlı məhəlləsi»ndə anadan olmuşdur. Yoxsul ailədə doğulmuş Bahadır həddi-büluğa çatandan sonra çarıqçılıq sənətini öyrənir və Şuşa şəhərinin «Başmaqçı bazarı»nda kiçik bir dükan açır, çarıq tikib satmaqla dolanır. Məhz buna görə də el arasında o, «Çarıqçı Bahadır» adı ilə tanınmışdır.

Gənc Bahadır gündüzlər çarıq tikər, axşamlar isə şəhərin qış klubuna və ya «Xandəmirovun teatrı»na gedərdi. Burada" xanəndələrdən Məşədi İsi, Həsənçə, Çətənə Məhəmməd, Şahnaz Abbas, tarzənlərdən Sadıqcan, Cavadbəy Əlibəy oğlu, Məşədi Zeynal, Bala oğlu Qrikor, Böyük Lazar və başqaları çalıb-oxuyardılar. Çarıqçı Bahadır bu ustad sənətkarları dinləməkdən doymazdı. Deyilənlərə görə, Çarıqçı Bahadır qəpik-qəpik pul yığıb çox çətinliklə qrammofon alır. O, dükanında işləyə-işləyə Cabbar Qaryağdı oğlunun, Şəkili Ələsgərin, Keçəçi oğlu Məhəmmədin qrammofon vallarını oxudar, hərdən özü də zümzümə edərdi. Çox vaxt qonşu dükançılar və yoldan keçənlər də Bahadırın ətrafına toplaşar, onun oxutduğu qrammofon vallarına qulaq asardılar:

- Bahadır qardaş, Cabbarın «Heyratı»sını bir də oxut.
- Keçəçi oğlunun valını...

Şəkili Ələsgəri...

Bahadır bu sözlərdən xoşlansa da, dükanında kasıbkarlıq edə bilməməsi onu darıxdırardı:

- Daha bəsdir, ə... Səhərdən bəri bir iş görə bilməmişəm. Kim çarıq sifariş eləmirsə, çıxsın, işimizi görək...

Bahadırın baməzəliyinə bələd olanlar çarığın pulunu verər, oturub qrammofona qulaq asardılar.

Hər gün dəfələrlə eyni qrammofon vallarına qulaq asan Bahadır bir çox muğam nə təsnifləri öyrənir. Bir gün tarzən Balaca Qrikor Bahadırın dükanda işləyə-işləyə gözəl səslə oxuduğunu eşidib, onu özü ilə erməni kəndi olan «Daşaltı»na toy məclisinə aparır. Bu hadisədən sonra Bahadır çarıqçılığın daşını atır və xanəndəliklə məşğul olur.

Çarıqçı Bahadır 30 il xanəndəlik etmişdir. O, bu müddət ərzində Qarabağ kəndlərindən özgə bir yerə getməmişdir. Tarzən Balaca Qrikor, Tatevos, Lazar Qabrielyan, kamançaçı Mirzə və Makiç ilə uzun illər əməkdaşlıq edib Şuşa məclislərində çalıb-çağırmışdır.

Bahadır həmişə şəhərin erməni hissəsində olan yay klubunda və erməni toylarında oxuduğuna görə, ona xalq arasında «Erməni Bahadır» da deyərmişlər.

Bahadır erməni dilini mükəmməl bildiyindən erməni xalq mahnılarını çox məharətlə oxuyar, dinləyiciləri valeh edərdi.

Çarıqçı Bahadırın ürəkaçan səsini çox eşitmiş Cəlilbəy Bağdadbəyov yazır: «...Bu xanəndənin (Bahadırın - F. Ş.) səsi qaltanlı olmaqla bir qədər yoğun idi. Lakin yüksəklərdə çox rahat oxumağı ilə tamaşaçıları razı salardı. O, bədəncə boy-buxunlu və qüvvətli bir adam idi. Çox sadə qəzəllər oxuyardı. Məncə «Şikəstə» ilə «Segah»ı çox oxuyardı. «İsa bulağı»nda və başqa seyrangahlarda qurulan məclislərdə ona yüzlərlə zəhmətkeş qulaq asardı. Bahadır oxuyarkən səsini iki kilometrlikdən eşitmək olardı. Onun ən çox oxuduğu Qarabağ şairlərindən Şahinin «Eşq divanəsiyəm zülfün olub zəncirim» rədifi ilə başlanan qəzəli idi».[170]

Çarıqçı Bahadır ömrünün son illərində tarzən Abbasqulu ağa və qarmonçu Kərbəlayı Lətif ilə əməkdaşlıq etmişdir.

İstedadlı xanəndə olan çarıqçı Bahadır 1930-cu ildə Şuşada vəfat etmişdir.



Üçlük. Çarıqçı Bahadır, tarzən Lazar Qabrielyan, kamançaçı Arsen (1908-ci il).

---

[170]Cəlilbəy Bağdadbəyov. Qarabağ xanəndələri haqqında xatirə (əlyazması). Azərbaycan SSR Mədəniyyət Nazirliyi, Memarlıq və İncəsənət İnstitutunun arxivi, qovluq № 149.

# Əbülhəsən xan Azər İqbal-Soltan



GÖRKƏMLİ müğənni Əbülhəsən xan Azər keçən əsrin sonu və XX əsrin birinci yarısında Cənubi Azərbaycanda böyük sənətkar xanəndə kimi şöhrət qazanmışdır. Onun zəngin yaradıcılığına dair məlumat hələlik çox azdır.

Əbülhəsən xan Azər 1871-ci ildə anadan olmuşdur. Məşhur İran musiqişünası Ruhulla Xaliqi «İran musiqisinin sərgüzəştləri» adlı əsərində Əbülhəsən xanın Qəzvin şəhərində anadan olduğunu iddia edir. O, belə bir mülahizə yürüdür ki, Əbülhəsən xan milliyyətcə Azərbaycanlı deyildir. Ruhulla Xaliqinin fikirləri şübhəsiz ki, yanlışdır. Əbülhəsən xan Təbrizdə anadan olmuşdur. Onun el arasında «Təbrizli Əbülhəsən xan Azər» adlanması da bu fikrin doğru olmasını təsbit edir.

Əbülhəsən xanın atası Molla Musa öz dövrünün ən tanınmış alimlərindən biri olmuşdur. Əbülhəsən hələ yeddi yaşında ikən atası vəfat etdi. Başsız qalan ailə Qəzvin şəhərinə köçməyə məcbur oldu. Lakin bədbəxtliyə düçar olan ailəyə xoşbəxtlik üz verdi. Bu xoşbəxtlik isə təbiətin Əbülhəsən xana bəxş etdiyi ən böyük nemət - səs vergisi idi. Təbiət ona bu gözəl neməti verməkdə səxavət göstərmişdi. Çox keçmir ki, Əbülhəsənin olduqca gözəl, qəlbəyatan «qeyri-adi» səsini və bülbül kimi cəhcəhini eşidənlər: «Bu allah vergisidir» deyə heyrət edirlər.

Əbülhəsən xan ilk musiqi təlimini qəzvinli məşhur musiqişünas və böyük ustad Hacı Molla Kərimdən almışdı. Molla Kərim gənc Əbülhəsənin nadir səsini və istedadını dərindən duyub tərbiyəsi ilə şəxsən özü məşğul olmağa başlayır. Şərq musiqisinin mahir bilicisindən dərs alan Əbülhəsən ilk gənclik dövründən xalq arasında istedadlı müğənni kimi tanınır.

XX əsrin ilk illərində xanəndə Əbülhəsən xan İqbal-Soltan[171] dəfələrlə Təbriz şəhərinə dəvət olunur. O, təbrizlilər arasında elə bir şöhrət qazanır ki, vəliəhd Məhəmmədəli Mirzə onu saraya çağırır. Vəliəhdin təklifi ilə o, bir müddət sarayda qalır, burada böyük şöhrət qazanır. Müzəffərəddin şahın vəfatından (1906) sonra o vəliəhd ilə birlikdə Tehrana gedir. Bu vaxtlar Tehran şəhərində «Dövlət təkiyəsinin baş xanəndəsi» yerini tutmaq üçün müsabiqədə birinci yeri tutub, şah sarayında xanəndə olmaq hüququ qazanır. Məhəmmədəli şah hakimiyyətdən salındıqdan sonra Əbülhəsən xan Səttar xanın dəvəti ilə yenidən Təbriz şəhərinə qayıdır.

---

[171] Əbülhəsən xana «İqbal-Soltan» ləqəbi Əhməd şahın hökmranlığı (1909- 1920) dövründə verilmişdi - müəllif.

1909-cu ildən sonra Əbülhəsən xan Təbrizdə vəliəhd Məhəmmədhəsən Qacarın xüsusi xanəndəsi olur. Saray məclislərində oxuyan xanəndə, məhərrəmlik təziyələrində də mərsiyəxan kimi çıxış edərdi. Ancaq Əbilhəsən xan təkcə saray müğənnisi və ya mərsiyəxan deyildi, sözün həqiqi mənasında xalq sənətkarı idi. O, məşhur tarzən Dərviş xan və kamançaçı Bağır xan ilə uzun müddət Təbrizin toylarında, xalq şənliklərində bir xanəndə kimi çalıb-çağırmışdır.

1914-cü ilin mart ayında Əbülhəsən xan Avropaya qastrol səfərinə çıxarkən əvvəlcə Tiflis şəhərinə gəlir. Əbülhəsən xan hələ Tiflisə gəlməmişdən xeyli əvvəl şəhərin görkəmli yerlərində reklamlar asılmış, teatr və klubların qapılarına iri və rəngarəng afişalar vurulmuşdu. Əbülhəsən xanın Tiflisə gəlişi barədə qəzetlərdə xüsusi xəbərlər çap edilmişdi. O zaman «Zakavkazskaya reç» qəzetində dərc olunmuş xəbərlərin birində deyilirdi: «Avropaya gedərkən İran şahının saray müğənnisi Əbülhəsən xan Tiflisdə qonaq olacaqdır.

Yerli müsəlman cəmiyyətinin arzusu ilə o, Tiflisdə bir neçə konsert vermək fikrindədir. Onu da qeyd edək ki, Əbülhəsən xan hələ heç bir vaxt böyük tamaşaçı kütləsi qarşısında çıxış etməmişdi.

Xanəndənin səsi olduqca güclü, məlahətli, həm də yüksək tembrə malik səsdir. Hərəkətləri çox incədir, səhnədə əllərini döşünə qoyub ayaq üstündə oxuyur. Görkəmi məğrur və əzəmətlidir.

Müğənni qədim İran motivlərinə yeni ruh, yeni forma, yeni hisslər gətirmişdir. Onu dinləyəndə adama elə gəlir ki, Şərq motivlərini oxuyan Avropa müğənnisini dinləyirsən.

Belə bir şəraitdə müsəlman xanəndəsinin qarşıdakı konsertinin çox maraqlı olacağı gözlənilir. Şübhəsiz ki, həmin konsertlər müsəlmanlardan savayı Şərq musiqisinin pərəstişkarları olan digər qafqazlıları da maraqlandıracaqdır.

Konsertlər xanəndə, habelə, saray musiqiçiləri, tarzən Dərviş xan və onun dəstəsi Tiflisə gələn kimi başlanacaqdır».[172]

Əbülhəsən xanın Tiflisdə ilk konserti 1914-cü ilin mart ayının 26-da «Kazyonnı teatr»da (indiki Z. Paliaşvili adına opera teatrı) Şərqin məşhur sənətkarları xanəndə Tahirzadənin, tarzən Dərviş xanın, kamançaçı Bağır xan və zərb vuran Abdulla xanın iştirakı ilə olmuşdur.

Azərbaycan müğənnisinin birinci konserti böyük müvəffəqiyyətlə keçmişdir. Bu konsert dinləyiciləri, xüsusilə Tiflisin musiqi ictimaiyyətini valeh etmişdi. O zaman məşhur jurnalist Eynəli Soltanov «Şərq konserti» adlı məqaləsində yazmışdır:

«İrandan gəlmiş xanəndələr: Əbülhəsən xan və Tahirzadənin, müsiqiçilərdən Dərviş xan və Bağır xanın martın 26-da «Kazyonnı teatr»da verdikləri ilk «Şərq konserti»nə çoxlu adam gəlmişdi. Tamaşaçıların arasında Şərq

[172] «Zakavkazskaya reç» qəzeti, 2 mart 1914, № 50.

musiqisinin mahir biliciləri və tələbkar pərəstişkarları var idi. Onların və son dərəcə aludə olan bütün tamaşaçıların tərifini nəzərə alsaq, demək olar ki, konsert çox müvəffəqiyyətlə keçmişdir.

Geniş tamaşaçı kütləsi qarşısında ilk dəfə çıxış edən xanəndə Əbülhəsən xan (tenor) klassik İran mahnılarının bir neçəsini ifa etdi.

Əbülhəsən xan nə qədər ucadan oxusa, nə qədər çətin zəngulə vursa da onun səsi bütün mərhələlərdə təmiz və ahəngdardır. Həm də o, oxuyarkən sifətində heç bir gərginlik hiss olunmurdu».[173]

O zaman Tiflisdə yaşayan məşhur müğənni Seyid Şuşinski Əbülhəsən xanın konsertlərində yaxından iştirak etmiş, qonaqlar üçün hər cür şərait yaratmışdı. Respublikanın xalq artisti Mustafa Mərdanov xatirələrinin birində yazır: «Şərqin məşhur xanəndələrindən sayılan Əbülhəsən xan öz dəstəsilə Tiflisə konsert verməyə gələndə, birinci növbədə Seyid Şuşinskinin görüşünə getdi. İki sənətkar çox səmimi görüşdülər. Seyid Şuşinski Cənubi Azərbaycandan gəlmiş qonaqlara öz xərci ilə frak tikdirib səhnəyə çıxartdı. Əbülhəsən xan ürəkaçan gözəl bir səslə «Bayatı-Şiraz» və «Rast» dəstgahı oxudu. O, dinləyiciləri valeh etdi. Bu konsertdə iştirak edən Gürcüstan opera sənətinin banisi Vano Saraçaşvili Əbülhəsən xanın sənətkarlığını yüksək qiymətləndirərək dedi: «Əbülhəsən xanın nəyi Karuzodan əskikdir». O, sonra səhnəyə çıxıb Əbülhəsən xanı bağrına basıb öpdü.

Əbülhəsən xanın konsertlərinin təşkilinə Seyid Şuşinski ilə birlikdə biz də kömək edirdik. İstəyirdik ki, qastrol səfərindən onlar öz vətənlərinə xoş təəssüratla getsinlər».[174]

İqbal-Soltan Tiflisdə olarkən tarzən Dərviş xanın müşayiəti ilə bir çox muğam və təsnifləri oxuyub qrammofon vallarına yazdırır. Bu vallardan birində isə o, Seyid Şuşinskiyə hörmət əlaməti olaraq «Humayun» oxumuş və valın üstündə «Seyid Şuşinskiyə Əbülhəsən xandan hədiyyə» sözlərini yazdırmışdı.

Əbülhəsən xanı Tiflisdə hörmətlə qarşılayanlardan biri də mütəfəkkir yazıçı Cəlil Məmmədquluzadə olmuşdur. Seyid Şuşinski xatirələrində qeyd edir ki, Cəlil Məmmədquluzadə Əbülhəsən xanı hörmətli bir qonaq kimi «Molla Nəsrəddin» jurnalının redaksiyasına dəvət etdi. Böyük qonaqlıq oldu. Ziyafətdə Əbülhəsən xanın xahişi ilə mən də oxudum. Axırda İqbal-Soltan elə bir «Kürdü-Şahnaz» oxudu ki, o gecə mən aldığım təəssüratdan səhərəcən yata bilmədim.

Seyid Şuşinski haqlı idi. Əbülhəsən xanın və başqa Azərbaycan müğənnilərinin qiymətli valları da bu fikirləri təsbit edir. Onların ayrı-ayrılıqda oxuduqları «Kürdü-Şahnaz» muğamını dinlədikdə Əbülhəsən xanın oxuduğu «Şahnaz»ın daha səlis, daha təsirli və gözəl səsləndiyinin şahidi oluruq. Əbülhəsən xanın oxuduğu «Kürdü-Şahnaz» həqiqətən müğənnilər üçün nümunə olmuşdu.

---

[173] Bax: «Zakavkazskaya reç», qəzeti, 30 mart 1914, № 73.
[174] M. Mərdanov. Xatirələrim. Bakı. 1964, səh. 81-82.

Təsadüfi deyildir ki, görkəmli müğənni Xan Şuşinski gənc yaşlarında Əbülhəsən xanın valda oxuduğu «Şahnaz»ı yerli-yerində o qədər təqlid etmişdir ki, hamı onu «Əsl xan kimi (yəni Əbülhəsən xan kimi) oxuyur» - deyə tərif etmişlər.

Avropa qastrol səfərindən vətəninə qayıdan Əbülhəsən xan Təbrizdə məşhur tarzən Ələkbər Şahnazı elə dostluq etmiş, onunla bir çox ölgələrdə çıxış edərək səsini yeni qrammofon vallarına saldırmışdı.

1944-cü ildə bir qrup sovet incəsənət nümayəndəsi Təbrizə qastrol səfərinə getmişdi. O zaman Təbriz bələdiyyə idarəsinin məmuru olan Əbülhəsən xan Şimali Azərbaycandan gəlmiş artistləri olduqca səmimi və mehribanlıqla qarşılamış, onların konsertlərinin uğurlu keçməsi üçün əlindən gələni etmişdi. O, Azərbaycan incəsənət ustalarının, xüsusən Xan Şuşinskinin ifaçılıq məharətinə yüksək qiymət vermişdi.

1945-ci ildə Cənubi Azərbaycanda demokratik xalq hakimiyyəti qurularkən Əbülhəsən xan zəhmətkeş kütlələrin mədəni tədbirlərində yaxından iştirak etmişdir. Təbrizdə Əbülhəsən xanla bir yerdə işləmiş yazıçı Əvəz Sadıq onun haqqında yazmışdı: «İran Azərbaycanının bu gün ən məşhur musiqiçisi Əbülhəsən xan İqbal Azərdir. İndi qoca yaşlarında olan Əbülhəsən xanın xanəndəlik şöhrəti 30-40 il bundan əvvəl başlamışdır. O, Azərbaycanın məşhur xanəndələri Cabbar Qaryağdı oğlu, Ələsgər Abdullayev və Seyid Şuşinski ilə bir zamanda yaradıcılığa başlamış və şöhrət qazanmış sənətkarlardandır.

Əbülhəsən xan muğamatı çox gözəl bilir və demək olar ki, klassik muğamatın əsas mühafizəçisi olan nadir sənətkarlardan biridir. Əbülhəsən xan muğamatı ifa edərkən onun ən incə cəhətlərini mühafizə etməyə, nəzərə çatdırmağa çalışır və buna müvəffəq olur. Əbülhəsən xan oxuyarkən başqa xanəndələr kimi əlində qaval tutmur, yerə oturmur. Bəzən öz ahəngdar, məlahətli səsinin tar və ya kamançanın səsi ilə xələldar olmaması üçün musiqinin müşayiəti olmadan oxuyur».[175]

Əbülhəsən xan İqbal-Soltan Azərbaycan vokal məktəbinin bütün incəliklərini mükəmməl surətdə öyrənmiş böyük müğənnidir. Onun muğam ifaçıları arasında xüsusi yeri vardır. O, nəinki Azərbaycan havalarını, həm də klassik İran muğamlarının mahir ifaçısı kimi bütün yaxın Şərqdə şöhrət qazanmışdı. Muğamlara melodik bəzəklər vurmaqda, onları bir neçə formada ifa etməkdə Şərqin ən böyük müğənniləri ona həsəd aparmışlar. Əbülhəsən xan İqbal da Cabbar Qaryağdı oğlu və Seyid Şuşinski kimi heç bir zaman musiqidən uzaqlaşmamış, qoca vaxtında belə dinləyicilər qarşısında çıxış etmişdir. Musiqişünas Ruhulla Xaliqi Əbülhəsən xan İqbalın son illərdə oxuduğunu belə qeyd edir: «Mən axırıncı dəfə Əbülhəsən xanın səsini 1946-cı ildə Təbrizə ezam

---

[175] Ə.Sadıq. İran Azərbaycanının musiqisi və çalğıçıları. "Ədəbiyyat" qəzeti, 7 sentyabr 1946-cı il, № 24.

olunan vaxtı eşitdim. O, hələ də yaxşı oxuyurdu. Əbülhəsən xan, Arifin[176] «Bayatı-İsfahan» muğamı əsasında yazdığı təsnifi çox gözəl ifa edirdi».[177]

Cənubi Azərbaycan vokalistlərinin tam bir nəsli Əbülhəsən xan İqbal Azərin ifaçılıq məktəbinin yetirməsidir. Rzaqulu Mirzə Zili, İbrahim Buzəri və başqaları da böyük xanəndənin şagirdləri olmuşlar.

Görkəmli Azərbaycan şairi Şəhriyar Əbülhəsən xan Azərə həsr etdiyi qəzəlində onu görkəmli sənətkar kimi səciyyələndirmişdi. Şəhriyar öz qəzəlinin bir yerində yazır:

Tapdı İqbal ilə şöhrət bu cahanda musiqi,
Gül üzün gördü, gül açdı gülsitanda musiqi,
Sanki sənət zirvəsindən bir şəlalə yollanır,
Coşğun avazı ilə həmahəng olanda musiqi.
Şaxta vurmuşsa hünər gülzarını,
İqbal ötər bülbüli-şeyda olub fəsli xəzanda musiqi.
Güzgüdür saf qəlbi, onda əks edər öz hüsnünü,
Nalətək rüxsarini seyrə dalanda musiqi.
Şövqilə bir zümzümə axsa döşündən su kimi.
Güllənər dağda, çəməndə, bustanda musiqi.
Fəxr edər şair ki, vəsfində sənin yazmış qəzəl,
Fəxr edir çünki, adınla hər zamanda musiqi.[178]

Xalq şairi Süleyman Rüstəm «Yenə canlandı əski xatirələr...» sərlövhəli məqaləsində Əbülhəsən xan İqbalı «Həmişəcavan ustad xanəndə» adlandırır, onun xanəndəlik sənəti haqqında böyük məhəbbətlə söz açır. Süleyman Rüstəm Əbülhəsən xan İqballa 1942-ci ildə Təbrizdə görüşdüyünü xatırlayaraq yazır: «Azərbaycanın incəsənət ustaları - Bülbül, Həqiqət Rzayeva, Əlövsət Sadıqov, Yavər Gələntərli və b. Təbrizə dostluq görüşünə gəlmişdilər. Məktəblərin birində keçirilən görüşdə konserti idarə edən cavan, təbrizlilər adından Əbülhəsən xan İqbalın çıxış edəcəyini elan etdi. Bülbül iki əli ilə üzünü tutub dedi:

- Ay Süleyman, mən nə etdim...
- Nə olub ki?
- Heç bilirsən Əbülhəsən xan kimdir?
- Xeyr, bilmirəm.
- Şərqin dahi xanəndəsidir. Mən gərək məclisdə mahnı yox, bir dəstgah oxuyaydım, keçib.

[176]Arif - XX əsrin birinci rübündə yaşamış məşhur İran şairi, musiqişünası, həm də müğənnisi idi – müəllif.
[177] Ruhulla Xaliqi. İran musiqisinin sərgüzəştləri (farsca). Tehran, 1333 (1954), səh. 353.
[178] Qəzəli fars dilindən Mübariz Əlizadə tərcümə etmişdir - Red.

...Salon alqışdan titrədi. Bəli, bu, Əbülhəsən xan İqbal idi. O, «Zülfünü bas yarama, qoyma məni qan aparur» - deyə oxumaqa başladı. Hamı dərin sükut içində idi. Doğrudan da, ecazkar bir xanəndə imiş. Oxuyarkən onun üzündə əzab əlaməti görünmürdü. Onun dodaqları, gözləri, bir sözlə, bütün siması təbəssümə qərq olmuşdu. Gəlib Bülbüllə çox səmimi, mehriban qucaqlaşıb öpüşdü».[179]

Şərq vokal sənətinin ən görkəmli nümayəndələrindən biri olan Əbülhəsən xan Azər İqbal-Soltan 1970-ci ildə 99 yaşında Təbriz şəhərində vəfat etmişdir. Biz yuxarıda qeyd etdik ki, məşhur Azərbaycan şairi Məhəmmədhüseyn Şəhriyar Əbülhəsən xanın şərəfinə xüsusi qəzəl yazmışdı. Bundan əlavə, Şəhriyar həmişə Əbülhəsən xan haqqında yüksək fikirdə olmuş, hətta uşaqlıq illəri məşhur müğənnidən musiqi və avaz təlimi aldığını belə etiraf etmişdi. Hətta Şəhriyar 1967-ci ildə İranda fars dilində çıxan «Ümmidi İran» jurnalının müxbiri ilə görüşərkən müasir İran musiqisi, eyni zamanda Azərbaycan və İran xanəndələrindən söz açaraq Əbülhəsən xan haqqında demişdir: «Əbülhəsən xan İqbal Soltanı müasir İranın ən yaxşı xanəndəsi hesab edirəm. Əvvəlan ona görə ki, o, İran musiqisinə və mahnılarına kamil surətdə bələddir və səsi kamil surətdə dinləyiciyə çatır. Həmişə Sədinin və Hafizin əxlaqi paklığa və ürəfana çağıran şerlərini oxuyur».[180]

Qocaman xanəndənin ölümündən son dərəcə kədərlənən şair öz müallimi və dostunun dəfnində yaxından iştirak etmiş və onun məzarı başında ana dilində bu bayatıları demişdir:

Xəzan gəldi gül apardı,
Bir şeyda bülbül apardı.
Yanmışdım mən kül olmuşdum,
Yel də gəldi gül apardı.

Üzdüm əl bir nazlı yardan,
Gözəl üzlü gülüzardan.
Sevgilim tək bir cavahir,
Bir də doğmaz ruzigardan.

Yar hər yerə mənnən getdi,
Əcəl gəlcək onnan getdi:
Dayan, gəlim yola salım,
Xoş günüm də sənnən getdi.

---
[179] Bax: «Ədəbiyyat və incəsənət» qəzeti, 21 yanvar 1967-ci il, № 3.
[180] Bax: «Ümmidi İran» jurnalı, 1340 (1967-ci il), № 65.




Əbülhəsən xan İqbalın Tiflis şəhərində İran musiqiçiləri ilə birlikdə verdiyi “Şərq konserti”nin afişası (Tiflis, 26 mart, 1914-cü il).

Yarı kaş görməyəydim.
Vəsli xoş görməyəydim,
Öleydim yardan qabaq,
Yerin boş görməyəydim.

Elim getdi, ölüm qaldı,
Alovlandım külüm qaldı.
Uçurdu bülbülüm bağdan,
Deyəydi, bir gülüm qaldı.

Üzüyüm qaşsız qaldı,
Çəmənim quşsuz qaldı.
Ay aman, İqbal getdi,
Təbrizim başsız qaldı.

## Dabbax Məhəmmədqulu



TARZƏN Şüşülü Qrikor (Balaca Qrikor) hər səhər kənddən şəhərə gələrkən istər-istəməz «Torpaq meydanında» yerləşən balaca bir dabbax dükanının yanında dayanmağa məcbur olardı. Bunun səbəbi isə yolçunun yorğunluğu, yaxud dükandan gön-çarıx almaq niyyəti deyil, eşitdiyi incə və yanıqlı səs idi... Bu «sehirli səs» dabbax dükanından gəlirdi. Bəzən Qrikor dükanın hələ açılmadığını görüb meydanda olan iri daşlardan birinin üstündə oturub intizarla gözlərdi... Aradan bir az keçmiş 15-16 yaşında ortaboylu, çevik və iti baxışlı bir oğlan əlində açarları oynada-oynada dükanın qapısını açıb zümzümə edə-edə piştaxtanın arxasında axşamdan suya qoyulmuş gönləri aşılayardı... Gənc dabbax həmişə bir-iki ağız şikəstə deyəndən sonra ən çox sevdiyi «Axşam oldu» təsnifinə keçərdi. Qonşu sənətkarlar və meydana yığışan tacirlər gəncin oxuduğu təsnifin sözlərini aydınca eşidərdilər.

Axşam oldu, şamlar yandı,
Keçən keçdi, olan oldu.
Bu gün burda qalmaq olmaz,
Yaxşı dostdan doymaq olmaz.

Gənc təsnifin axır sözlərini qurtarar-qurtarmaz meydanın hər yanından alqış sədaları qopardı: «Ay can, ay can!..» «Sağ ol, dabbax balası».

Bir gün tarzən Qrikorun səbri çatmadı. O, dükana yaxınlaşıb ədəb-ərkanla salam verdi. Dükançı Qrikorun salamını qəbul edib dilləndi:

- Ay usta, ürəyin və istəyir? Yaxşı aşılanmış camış gönüm var, bükümmü?

Qrikor:

- A bala, mənim camışnan, onun gönüylə nə işim var.
- Bəs nə istəyirsən? – deyə gənc dabbax soruşdu.
- A bala, mənim istədiyim başqa şeydir.

Ona maraq və təəccüblə baxan gənc oğlan dedi:

- Burada göndən-köşəkdən savayı bir şey yoxdur.
- A bala, mən səs almaq üçün gəlmişəm.
- Mən başa düşmürəm nə danışırsan. Ay kişi, səs nədir, səs də satılarmı?
- Bəli! Səndəki səsi almaq istəyirəm, gözəl səsin var... Mən Şuşanın məclislərini bu səslə bəzəmək istəyirəm. Sən gəl bu gündən dabbaxlığın daşını at, qoşul mənim dəstəmə.
- Nə danışırsan, ay kirvə, mən hara, oxumaq hara. Gül kimi sənəti buraxım ki, nə var, nə var, oxuyan olacağam? Yox...
- Ərə, sən nə danışırsan. Məgər çalıb-oxumaq sənət deyil? Bəs Hacı Hüsünün, Keçəçi oğlunun sənəti sənət deyil? Bəs nədi?... Hamı, ermənisi də, müsürmanı da allaha yalvarır ki, kaş Hacı Hüsü, kaş Cabbar mənim toyumda oxuyaydı! Mən də istəyirəm sən də onlar kimi oxuyan olasan.
- Kirvə, nə danışırsan? Məndən nə Keçəçi oğlu olar, nə də Qaryağdı oğlu.
- Ərə, sən nə tərs-məssəb adamsan. Sən heç nədən qorxma, hər şeyi mən sənə öyrədəcəm. İstəyirsən hər səhər şəhərə gələndə sənin dükanında sənin üçün çalım, ya da icazə ver evinizə gəlim. Ya da ki, gəl «Qış klubu»na, mən orada çalıram.

Gənc dabbax gördü ki, Qrikor kirvə tutduğundan bərk yapışıb, əl çəkən deyil, əlacsız qalıb axırda dedi:

- Axşam kəndə qayıdanda bizim evə gəl, «Ayaqyalın qurdlar» məhəlləsində oluruq. Atamla danış. Yoxsa mən onun icazəsi olmadan heç nə deyə bilmərəm.

Axşam Şüşülü Qrikor kamançaçı Makiç ilə gəncs dabbaxın evinə gəlib çox söhbətdən sonra dabbaxın atasından oğlunun onun dəstəsinə qoşulmasına icazə aldı.

Həmin gənc sonralar XIX əsrin axırları və XX əsrin əvvəllərində Qarabağ və Gəncə mahallarında ad-san çıxarmış məşhur el xanəndəsi Dabbax Məhəmmədqulu idi.

Məhəmmədqulu Şuşinski 1874-cü ildə Şuşa şəhərinin «Ayaqyalın qurdlar» (Kiçik qurdlar) məhəlləsində dabbax ailəsində anadan olmuşdur. Bu məhəllədə yaşayanların əksəriyyəti dabbaxlıq sənəti ilə məşğul olardılar. Ona görə də bu kiçik

məhəlləyə «Dabbaxlar məhəlləsi» və ya «xanəndələr məhəlləsi» də deyirdilər. Təsadüfi deyildir ki, Qarabağın məşhur müğənniləri: Əbdülbaqi Bülbülcan, Tükverdi Həsən, Bülbül, Musa Şuşinski və başqaları bu məhəllədə anadan olmuşlar.

Ata-babası kimi özü də dabbaxlıqla məşğul olduğundan el arasında Məhəmmədqulunu sadəcə «Dabbax Məhəmmədqulu» deyə çağırardılar.

Məhəmmədqulu ibtidai təhsilini Şuşada Kor Xəlifənin hücrəsində almışdı. Tarzən Şüşülü Qrikorun dəstəsinə qoşulduqdan sonra atası onu Mir Möhsün Nəvvabın məktəbinə qoymuş və burada üç il muğamat dərsləri keçmişdir. O, 19 yaşında olarkən Qarabağın musiqi məclislərində və toy şənliklərində xanəndəlik etməyə başlamışdır. Məhəmmədqulunun bir nəğməkar kimi püxtələşməsində XIX əsrin məşhur müğənnisi Şahsənəm oğlu Dəli İsmayılın və tarzən Şüşülü Qrikorun böyük köməyi olmuşdur. Dəli İsmayıl Məhəmmədqulunun zil səsini, çoşqun zəngulələrini nəzərə alıb ona ən əvvəl major ruhlu muğamları, xüsusilə «Hasar», «Müxalif», «Kürdü-Şahnaz», «Heyratı» kimi uzun nəfəs, sürəkli zəngulə tələb edən muğamları öyrətmişdi. Onun çəkdiyi zəhmət hədər getmədi. Aylar, illər ötdükcə istedadlı şagirdi özünün ürəklərə yol açan, dinləyicinin ruhunu oxşayan məlahətli səsi ilə geniş xalq kütlələrinin rəğbətini qazandı. Məhəmmədqulu özü zəhmətkeş ailədən çıxdığına görə şəhər yoxsullarının, xüsusilə sənətkarların məclislərində tez-tez çıxış edərdi. O, həmişə xalqın arzu və istəyini, mübarizəsini tərənnüm edən şerlər, qoşmalar oxuyardı. Məhəmmədqulu eyni zamanda keçmiş həmsənətləri olan dabbaxları da unutmurdu. O zamanlar Şuşanın küçə və meydançalarında həyat qaynayırdı. Xüsusilə şəhərin ən izdihamlı yerlərindən biri olan «Qapan dibində» ayrı aləm olardı. Şəhərin Gəncə və İrəvan qapıları adlanan giriş yolundan buraya istiqamət alan dəvə və qatır karvanlarının sayı-hesabı yox idi. Burada tez-tez İran və rus tacirlərinə, Dərbənd, Tiflis, Aşqabad alverçilərinə, Təbriz qaçaq mal gətirənlərinə, Bakıdan gələn tuluxçulara (neft satanlara) rast gəlmək olardı. Onlar «Qapan dibində» öz mallarını satdıqdan sonra buradan aldıqları məşhur Qarabağ atları, ipək, tut arağı, «axtarma» motal, xəli-gəbə və s. mallar alıb öz ölgələrinin bazarlarında satardılar. Meydanın ətrafında dabbax, əttar, əllaf, başmaqçı dükanları, ayrı yerlərdən gələn tacirlər üçün hər cür şəraiti olan karvansarası belə var idi. Karvansaranın dəyirmi meydançasından «Yuxarı meydan»a qədər keçən dar küçədə adam əlindən tərpənmək belə olmazdı.

Günorta vaxtı meydanda məşhur Qaradolaq cinsli qoyunun ətindən Kəblə Məhərrəmin hazırladığı sarıköklü, zəfəranlı pitisinin və çörəkçi Molla oğlunun papiros kağızı qədər nazik lavaşının hər yanı bürüyən ətri... Bir yandan da Noxud İsgəndərin pürrənk çayı, Kəblə Mehdinin hilli-mixəkli paxlavası məclisdə əyləşən səyyahları və tacirləri məst edərdi...

Axşamlar «Qapan dibi» daha əyləncəli, daha qələbəlik olardı. Gündüzün gərgin alverindən sonra kef məclisləri qurulardı... Bu məclislərin də yaraşığı

sazandalar idi. 20 yaşlı Məhəmmədqulu, tarzən Qrikor, qarmonçu İsi bəylə yay vaxtları hər axşam buraya yığışan qonaqları çalıb-çağırmaqla əyləndirirdilər... Gecədən xeyli keçəndə Məhəmmədqulu «Qarabağ şikəstəsi» üstündə bayatılar oxuyardı:

Qarabağda talan var,
Gözü yolda qalan var.
Gedirsən get, tez qayıt,
Gözü yolda qalan var.

Əslim qarabağlıdır,
Sinəm çarpaz dağlıdır.
Nə gələn var, nə gedən,
Məgər yollar bağlıdır?

Qarabağda bağ olmaz,
Qara salxım ağ olmaz,
Qürbətdə yar sevənin
Ürəyində yağ olmaz.

Deyilənə görə, Məhəmmədqulu «Qarabağ şikəstəsi»ni oxuyanda onun zil və qaltanlı səsi «Qaya başında», «Cıdır düzü»ndə eşidilərdi. Onu dinləmək üçün ətraf məhəllələrin sakinləri «Qapan dibi»nə toplaşar, gecədən xeyli keçmiş evlərinə dağılışardılar...

Gənc Məhəmmədqulu bir xanəndə kimi ovvəlcə doğma vətəni Şuşada, sonra isə bütün Azərbaycanda tez şöhrət qazanır. Onun sənətkarlığının hələ gənc yaşlarında ikən püxtələşməsində tarzənlərdən Şüşülü Qrikorun və Malıbəyli Həmidin xidmətləri böyükdür. Malıbəyli Həmid həm kamil xanəndə, həm də gözəl tarzən olduğundan Məhəmmədqulunun nəğməkarlıq istiqamətinin müəyyənləşməsində böyük rol oynamışdır. Onun qayğısı və sənət dostluğu nəticəsində gənc Məhəmmədqulu Gəncə, Şirvan və Tiflis məclislərində tanınmağa başlayır. Şübhəsiz ki, Məhəmmədqulunun klassik Şərq muğamlarını kamil bilməsi bir xanəndə kimi ifaçılıq sənətinin qanunlarına riayət etməsi, həm də onun qədim Azərbaycan təsnif və mahnılarını son dərəcə incə bir tonda oxuması ustad tarzəni də ruhlandırırdı.

Xanəndə Məhəmmədqulu bütün muğamları istər bəmdə və istərsə də zildə sərbəst, həm də böyük zövq ilə oxumuşdur. Məşhur müğənnimiz Musa Şuşinski (Məhəmmədqulunun bacısı oğlu) xatirələrində yazır: «Dayım muğamata dərindən bələd olmaqla «Şüştər» ilə «Bayatı-kürdü» xüsusi bir məharətlə oxuyardı. Onun «Hasar-müxalif»də vurduğu çətin zəngulələr istər-istəməz bizim böyük xanəndəmiz Əbdülbaqi Bülbülcanın guşə və xallarını yada salardı».

Yeri gəlmişkən onu da demək istərdik ki, Tiflis məclislərinin birində Məhəmmədqulunun səsini eşidən böyük sənətkar Bülbülcan bir neçə il Tiflisdə dəvət olunduğu məclislərə onu da özü ilə aparmışdır. Şübhəsiz ki, Məhəmmədqulunun bütün Qafqaz və Yaxın Şərqdə şan-şöhrət qazanmış Əbdülbaqi kimi böyük bir xanəndə ilə birlikdə çalıb-oxuması onun xanəndəlik sənətində daha da kamilləşməsinə böyük, həlledici təsir göstərmişdir.

1905-ci ildən sonra vətəni Şuşaya qayıdan Məhəmmədqulu yenə də Şuşa məclislərinin yaraşığı olmuşdur. O, tarzən Tatevos Arutunovla Şuşanın gəzməli seyrəngahlarında, şəhərin erməni toylarında çalıb-çağırmış, hətta bir neçə dəfə İran məclislərinə belə-dəvət olunmuşdur. Məhəmmədqulu harda olmuşsa, harda çıxış etmişsə həmişə Azərbaycan xalq musiqisini təbliğ etmiş, «Qarabağ musiqi məktəbi»nin şan-şöhrətini artırmışdır.

1913-cü ildə Qafqazda bir xanəndə kimi məşhur olan Məhəmmədqulu Şəkili Ələsgər, Keçəçi oqlu Məhəmməd, İslam Abdullayev və Seyid Şuşinski ilə birlikdə «Ekstrafon» aksioner şirkəti tərəfindən Kiyev şəhərinə dəvət olunur. Kiyevdə o, tarzən Arsen Yaramışev və kamançaçı Moses Quliyansın müşayiəti ilə «Bayatı-Kürd»,. «Zabul-Segah», «Kürdü-Şahnaz», «Qatar», «Hasar», «Müxalif», «Qarabağ şikəstəsi», «Heyratı» muğamlarını və ən çox sevdiyi və məharətlə oxuduğu «Axşam oldu» təsnifini qrammafon valları üçün oxumuşdur.

Görkəmli xanəndə Məhəmmədqulu Şuşinski 1929-cu ilin mart ayında Şuşada 55 yaşında vəfat etmişdir.

# Xanlıq Şükür



BİR gün Xan qızı Xurşidbanu bəyim Natəvan bağda gəzərkən bir gəncin Qala hasarının bürcü üstündə oturub yanıqlı səslə oxuduğunu görür. Xan qızı onun saraya gətirilməsini əmr edir. Xidmətçilər cavan oğlanı saraya, Xan qızının payına gətirirlər. Natəvan ona oxumağı təklif edir. Gəncin gözəl, məlahətli səsi şairəyə xoş gəlir. Natəvan oğlanın kim olduğunu öyrəndikdən sonra deyir: «Oğlum, sən yoxsul ailədənsən. Amma sənin çox məlahətli səsin var. Bu səs həm səni, həm də ailənizi xoşbəxt edə bilər. Əgər sən mənim yanımda qalsan, uşaqlarımla bir yerdə tərbiyə alarsan, savadlı xanəndə olarsan».

Sonralar Zaqafqaziyada istedadlı xanəndə kimi şöhrət tapan Şükürün həyat yolu belə başlandı.

Rövşənin nəvəsi Şükür 1872-ci ildə Şuşada yoxsul kəndli ailəsində doğulmuşdur. Şükür gənc yaşlarında Xan sarayında yaşadığına görə Şuşa əhli onu «Xanlıq Şükür» deyə çağırardı.

Şükürün bir sənətkar xanəndə kimi inkişafında şairə Natəvanın böyük rolu olmuşdu. Yeri gəlmişkən deməliyik ki, Şuşa şəhərinin mədəniyyət mərkəzinə çevrilməsində və burada yetişən xalq istedadlarının parlamasında Natəvanın xidmətləri unudulmazdır. O zaman Natəvanın yaratdığı və rəhbərlik etdiyi «Məclisi-üns» ədəbi məclisinin üzvləri onun bağına toplaşardılar. Məclisin üzvləri olan şairlər və ədiblər öz yeni əsərlərini oxuyar, müzakirə edər, sənətdən, musiqidən söz açardılar. Natəvanın qurduğu məclislərə şairlərlə birlikdə musiqiçilər də dəvət olunardı. Xan qızının müasirləri olan Hacı Hüsü, Məşədi İsi, Həsənçə və Sadıqcan kimi məşhur musiqiçilər bu məclislərdə yaxından iştirak edirdilər. Natəvanın sarayındakı belə bir ədəbi mühit gənc Şükürün musiqi təhsilinə heç şübhəsiz ki, müsbət təsir bağışlayırdı. Şükür şer və musiqi gecələrində iştirak edər, burada şairlərin oxuduğu şerləri dinləyər, xanəndələrin vurduğu xoş guşə və xalları öyrənərdi.

Xanlıq Şukürün ilk müəllimi Hacı Hüsü olmuşdur. Böyük sənətkar ona Şərq muğamlarını, Azərbaycan xalq mahnı və təsniflərini öyrətmiş, onun xanəndəlik sənətinin sirlərinə yiyələnməsində mühüm rol oynamışdır.

Məlum olduğu kimi, Xan qızı Natəvan ömrünün axır illərini çox dərdli və pərişan keçirmişdir. Buna görə də şairənin qəzəllərinin əksəriyyəti bədbin əhvali-ruhiyyədə yazılmışdır.

Natəvanın minər ruhlu muğamları çox sevməsi bu cəhətdən təsadüfi deyildi. O, Şükürə «Zəmin-xarə», «Segah», «Hicaz», «Şüştər» muğamlarını oxumağı xahiş

edərdi. Şükür Natəvanın və onun oğlu Vəfanın qəzəllərindən istifadə edərək bu muğamları həzin və yanıqlı səslə oxuyardı.

Natəvanın vəfatından (1897) sonra Şükür İrəvan şəhərinə köçür və orada uzun illər xanəndəlik edir. Şükür erməni xalq mahnılarını və Sayat Novanın nəğmələrini elə bir məharətlə oxuyarmış ki, dinləyicilər onu «erməni müğənnisi» hesab edərmişlər.

Şükür təkcə xanəndəlik etməmişdir. Maraqlıdır ki, o, 1910-cu il may ayının 14-də Bakı şəhərində Ü. Hacıbəyovun «Leyli və Məcnun» operasında İbn Səlam rolunu məharətlə oynamışdır.[181]

Şükürün İbn Səlamı Məcnun rolunun görkəmli ifaçısı Hüseynqulu Sarabskinin çox xoşuna gəlmişdi. Təsadüfi deyildir ki, 1913-cü il avqust ayının 7-də Şuşada H. Sarabskinin benefisi keçirilərkən Sarabski Məcnunu, Şükür isə İbn Səlamı böyük məharətlə oynamışdılar.

Xanlıq Şükür də başqa klassik müğənnilər kimi el şənliklərində və məclislərində milli muğamları xüsusi ustalıqla oxuyardı. Onun xüsusi zövqlə oxuduğu «Şur» muğamı dinləyicilərin rəğbətini qazanmışdı. Bu barədə Cəlilbəy Bağdadbəyov yazmışdır: «Xanlıq Şükürün gözəl səsi var idi. O, «Şur» muğamını məharətlə oxuyardı. Şükür xalqın içərisindən çıxdığından geniş xalq kütlələri onu çox sevərdi».[182]

Xanlıq Şükür 1927-ci ildə Şuşada vəfat etmişdir.

[181] Bax: «Kaspi» qəzeti, 19 may 1910-cu il, № 111.

[182] Cəlilbəy Bağdadbəyov. Qarabağ xanəndələri haqqında xatirə (əlyazması). Azərbaysan SSR Mədəniyyət Nazirliyi, Memarlıq və İncəsənət İnstitutunun arxivi, qovluq № 149.

# Zabul Qasım



TİFLİS. 1927-ci ilin payız fəsli idi. Güllü-çiçəkli kiçik bağçada xudmani bir məclis qurulmuşdu. Əsən ruzigar bağçada olan ağacların saralmış yarpaqlarını və güllərin ləçəklərini tökürdü. Bu mənzərədən pərişan olan xanəndə yanıqlı səslə oxuyurdu. Bülbül kimi fəğan edən xanəndənin səsi elə bil ki, bağçanın müqəddəs gözəlliyini pozan ruzigarın özbaşınalığına etiraz naləsi idi...

Nahardan sonra ev sahibi qonaqların arzusunu yerinə yetirib ortalığa nərd taxtası gətirdi. Məşhur xanəndə Cabbar Qaryağdı oğlu nərd taxtasını açıb zərləri götürdü, üzünü qonaqlara tutub özünə «rəqib» istədi. Gənc bir oğlan irəli gəlib onunla nərd oynamaq istədi. Ev sahibi gəncin bu cəsarətini görüb ona xəbərdarlıq etdi:

- Bacıoğlu, sən Cabbarla nərd oynaya bilməzsən.

- Niyə? - deyə gənc ötkəm bir səslə sual etdi. - Məgər bu oyun zər ilədir, yoxsa zor ilə.

Qonaqlar gülüşdülər. Ev sahibi müraciətlə dedi:

- Cabbarın nərd oynamağı oxumağından məşhurdur. Ehtiyatlı ol yoxsa...

Kimsə yerindən söz atdı:

- Cabbar əmi ilə Məşədi Məmməd oynasa, yaxşı olar.

Məclisin bir tərəfində əyləşən 70-80 yaşlı bir qoca söhbətə qarışaraq dedi:

- Məncə iki xanəndənin oynaması daha maraqlıdır. Ancaq bir şərtlə: əgər Məşədi Məmməd uduzsa bizim üçün «Şüştər», Cabbar uduzsa, «Mahur» oxusun. Qocanın bu şərti hamının ürəyindən oldu.

Oyunun şirin yerində həyət qapısı döyüldü, sonra bir oğlan yüyürə-yüyürə gəlib ev sahibinə dedi:

- Dayı, Qarabağdan qonaqlar gəlib, sizi görmək istəyirlər.

Ev sahibi gələn qonaqları bağçaya dəvət etdi. Onlar Cabbar Qaryağdı oğlunu tanıyıb, onunla səmimiyyətlə görüşdülər. Cabbar Qaryağdı oğlu üzünü qonaqlara tutub soruşdu:

- Qarabağda nə var, nə yox, salamatlıqdırmı?

Qonaqlardan biri:

- Allaha şükür, hər şey öz yerindədir. Amma heyf Məşədi Qasımdan, rəhmətə getdi, - deyə kədərlə cavab verdi.

Cabbar Qaryağdı oğlu ilan çalmış kimi yerindən sıçradı:

- Necə, Zabul Qasım?..

Qonaq başı ilə onun sözünü təsdiq etdi.

Cabbarın əlindəki zərlər yerə düşdü, göz yaşları onu boğdu... Qonaqların arasında olan nurani bir qoca Cabbar Qaryağdı oğluna təsginlik verdi:

- Ölümə çarə yoxdur, oğlum, - dedi: - ağlama...

Cabbar Qaryağdı oğlu nərdi yığışdırıb, kədərlə dilləndi:

- Mən Qasımın ölümünə ağlamıram, «Zabul»un ölümünə ağlayıram: Qasım ölmədi, «Zabul» öldü.

Cabbar Qaryağdı oğlu haqlı idi. Azərbaycan musiqi mədəniyyəti tarixində «Zabul» muğamını Məşədi Qasım kimi şirin və məharətlə oxuyan ikinci bir xanəndə olmamışdır.

Qasım Abdullayev 1873-cü ildə Şuşanın «Culfalar» məhəlləsində anadan olmuşdur. O, ortaboylu, zərif bədənli, xoşsima bir adam idi. Qasım avropasayağı, şux geyinərdi. Onun çox yanıqlı və duzlu səsi vardı. Qasım Abdullayev məclis xanəndəsi olsa da Şuşanın səfalı yerləri sayılan «Səkili bulaq»da, «Şır-şır»da, və «Şəmilin bağı»nda, zəhmətkeş kənd adamlarının ən çox toplandığı yerlərdə tez-tez çıxış edərdi.

Qocaman xanəndə İslam Abdullayev öz xatirələrində Qasım haqqında belə bir əhvalat söyləyir: «1913-cü ilin səfalı yay günlərindən birində «İsa bulağı»nda bir neçə məclis qurulmuşdu. Bu məclislərə Qarabağın bütün adlı-sanlı xanəndələri dəvət edilmişdi. Hər məclisdə bir xanəndə vardı. Məclislərin birindən Qasımın adamı valeh edən xoş səsi eşidildi. O, «Zabul» oxuyurdu. Qasımın səsini eşidən bütün xanəndələr, hətta rəhmətlik Cabbar Qaryağdı oğlu belə qavalı yerə qoyub Qasımın vurduğu şirin xalları, gözəl guşələri maraqla dinləyirdi. Həmin vaxt, mən Şuşa taciri Hacı Bəşirin məclisində «Rast» oxuyan xanəndə Xanlıq Şükürə qulaq asırdım. Qasımın oxumağını eşidən tarzən Bala oğlu Qrikor tarını, xanəndə Şükür isə qavalını tələsik yerə qoydular. Bunu görən məclis sahibi Hacı Bəşir qəzəblə çalğıçılardan soruşdu:

- Niyə oxumağı dayandırdınız?

Bala oğlu Qrikor cavabında dedi:

- Kirvə, başına dönüm, heç insafdırmı, Qasım oxuyanda çalasan?

Hacı Bəşir daha da əsəbiləşərək əlini cibinə atıb «palazqulaq» bir yüzlük çıxarıb Şükürün alnına yapışdırıb, əda ilə dedi:

- Ə. Rövşənin nəvəsi, sən də acığa bir «Zabul» oxu.

- Ağa, Qasım olan məclisdə mən «Zabul» oxumaram, - deyə Şükür cavab verdi. Bunu eşidən tacir bir yüzlük də çıxarıb Bala oğlu Qrikorun tarının başına keçirərək, o baş-bu başa var-gəl edib dedi:

- İndi necə, oxuyarsanmı?

Tarzən Bala oğlu Qrikor Hacı Bəşirə müraciətlə dedi:

- Hacı, bütün «İsa bulağı»nı bizə bağışlasan belə, iə mən çalaram, nə də Şükür oxuyar».[183]

---

[183] İ. Abdullayevin xatirələrindən (xatirə kitabın müəllifindədir). - Red.

Məlum olduğu kimi, Azərbaycan xalqının məclislərində «Segah» muğamı daha çox intişar tapmışdır. Bu muğamı ustalıqla oxumaqda Azərbaycan müğənniləri, demək olar ki, Yaxın Şərqin müğənnilərini geridə qoymuşlar. Lakin XIX əsrin son illərində xanəndələrimiz «Zabul-segah»a daha çox meyl edirdilər. Cabbar Qaryağdı oğlunun yazdığına görə, tara «Zabul» pərdəsini məşhur tarzən Sadıqcan əlavə etmişdir. Sadıqcanın bu ixtirasından sonra istər bəm, istərsə də yüksək səs diapazonuna malik xanəndələrə «Zabul» oxumaq daha əlverişli idi. Çünki «Segah» muğamını tamam-dəstgah (yəni «Mayei-zabul», «Manəndi-Müxalif», «Orta Segah», «Məxluq», «Şikəsteyi-fars», «Mübərriğə», «Ərağ», «Yədi hasar», nəhayət «Aşiqi-guş» şöbəsindən sonra təkrar «Zabul»a qayıtmaq) oxumaq üçün «Zabul-segah» öz həcmi etibarı ilə xanəndəyə daha gözəl şərait yaradır.

Məşədi Qasım «Zabul» muğamını çox gözəl ifa edirdi. Onun oxuduğu «Zabul» son dərəcə lirik mahiyyət daşımaqla, həddindən artıq gözəl guşə və şirin xalları ilə bütün başqa xanəndələrin oxuduqları «Zabul»dan fərqlənirdi. Buna görə də Qasımdan sonra gələn xanəndələr, xüsusilə Musa Şuşinski, Bülbül, Xan Şuşinski, Əli Cavad oğlu və Zülfü Adıgözəlov kimi peşəkar xanəndələr, «Zabul» oxumaqda, məhz Qasım Abdullayevi təqlid edirdilər.

XX əsrin əvvəllərində Zabul Qasım Bakıda bir neçə dəfə konsert vermiş və bakılıların sonsuz məhəbbətini qazanmışdır. Zabul Qasım ilk dəfə bakılılar qarşısında 1903-cü ilin yanvar ayının 27-də H.Z.Tağıyevin teatr binasında verilən «Şərq konserti»ndə Cabbar Qaryağdı oğlu, Şəkili Ələsgər və Seyid Mirbabayevlə birlikdə çıxış etmişdir.

Əvvəlki konsertlərə nisbətən daha geniş, rəngarəng və maraqlı olan bu konsertdə Qasım «Zabul-segah»ı böyük bir məharətlə ifa etmişdi. «Kaspi» qəzeti «Şərq konserti» və onun ifaçıları haqqında çap etdiyi məqalələrin birində Qasımın xanəndəlik, fəaliyyətini yüksək qiymətləndirmişdir. Qəzetdə deyilirdi ki, «Konsertin birinci şöbəsində, bir neçə vaxt bundan əvvəl Şuşadan gəlmiş müğənni Qasım çıxış etdi. O, gözəl səsi ilə «Segah» muğamını olduqca şirin oxudu. Xanəndəni tarzən Qrikor və kamançaçı Qosti məharətlə müşayiət etdilər».[184]

Rus jurnalistlərindən biri konsertdə ifaçıların məharətindən və onların tərkibi müxtəlif millətlərdən olan tamaşaçılar tərəfindən rəğbətlə qarşılandığından bəhs edərək yazmışdır: «Əgər mən antrepreiyor[185] olsaydı, dünənki ifaçıları bir dəqiqə belə fikirləşmədən Peterburqa aparardım. Onlar orada müvəffəqiyyət qazanardılar. Onları dinləməyə gələr, dinlər və ağlardılar.

Rus dinləyiciləri insana kədər aşılayan... melodiyanın təsiri altında ağlar «xalq» adlandırdığı, azadlıqdan məhrum olan bu adamların taleyinə göz yaşı

[184] Bax: «Kaspi» qəzeti, 29 yanvar 1903-cu il, № 24.
[185] Antreprenyor - fransız sözü olub, xüsusi teatr və aktyor truppası sahibinə deyilir.

tökərdilər. Ürək parçalayan qüssə dolu yegrəng Şərq müğənnisi hər hansı bir rus üçün anlaşılardı.

Bu qonşu xalqların taleyində çox oxşar cəhətlər var».[186]

Azərbaycan xanəndələrinin yanıqlı səsində ifadə olunan kədər rus jurnalistini mütəəssir etməyə bilməzdi. Çünki onların oxuduğu muğamlarda əsrlər boyu əsarət və zülmə məruz qalmış Azərbaycan xalqının arzu-istəyi, mübarizəsi, sevinc və kədəri hifz olunub, nəsildən-nəslə yadigar saxlanmışdı.

Zabul Qasım təkcə peşəkar xanəndə deyildi, o, eyni zamanda bir opera artisti kimi də tanınmışdı. Onu səhnəyə ilk dəfə dəvət edən və sənətkarlığına yüksək qiymət verən görkəmli bəstəkar Zülfüqarbəy Hacıbəyov olmuşdur. O, görkəmli bəstəkarın xahişi ilə 1913-cü il avqust ayının 7-də Şuşa yay klubunda tamaşaya qoyulmuş «Leyli və Məcnun» operasında Məcnunun atası rolunda məharətlə oynamış, dinləyiciləri valeh etmişdi. Bundan sonra teatr tamaşalarının afişa və proqramlarında Qasımın adı tez-tez çəkilir. Əlbəttə, bu təsadüfi deyildi. Zabul Qasım geniş kütlələri qəflətdən ayıltmaq, onlara feodal-patriarxal həyatın ziddiyyətlərini, din xadimlərinin riyakarlıqlarını anlatmaq üçün teatr tamaşalarının faydalı olduğunu bilirdi. Onu səhnəyə bağlayan da bu idi.

1914-cü ildə Zabul Qasım «Sport-Rekord» şirkətinin dəvəti ilə Tiflis şəhərinə gedərək səsini vala yazdırır. Həmin vaxt Zabul Qasım tarzən Qurban Pirimovun və kamançaçı Saşa Oqanezaşvilinin müşayiəti ilə «Zabul-segah», «Bayatı-Şiraz», «Humayun», «Şur», «Mahur-Hindi» və bir neçə təsnif oxuyur. Zabul Qasımın oxuduğu Azərbaycan şairlərinin qəzəlləri və xalq mahnıları olmuşdur. O, Seyid Əzimin:

Dünən gecə mənə bir mahiparə həmdəm idi,
Ki, mən cəmalı ilə gözlərim münəvvər idi -

beyti ilə başlanan qəzəlini «Zabul»da oxuyardı. Zabul Qasımı yaxşı tanıyan, onunla uzun illər dostluq edən böyük müğənni Seyid Şuşinski deyirdi: «Məşədi Qasım sözün həqiqi mənasında böyük xanəndə idi. Bu adam incəsənət üçün yaranmışdı. O, həmişə tarzən Məşədi Zeynalla oxuyardı. Qasım elə bil «Zabul» muğamı ilə ekiz yaranmışdı».

Zabul Qasım Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra incəsənət sahəsində çalışmış, var qüvvəsini Azərbaycan musiqisinin inkişafına həsr etmişdir. O, ömrünün son illərində Şuşa musiqi məktəbində muğamatdan dərs demiş, incəsənət işçilərinin respublika həmkarlar ittifaqı şurasının sədri vəzifəsində çalışmışdır.

---

[186] «Kaspi» qəzeti, 29 yanvar 1903, № 24.

# Əkbər Xamuş oğlu



GÖRKƏMLİ xanəndə Əkbər Əhəd oğlu 1873-cü ildə Qarabağın Bağbanlar kəndində anadan olmuşdur. Əkbərə el arasında «Xamuş oğlu», bəzən də «Bağban Əkbər» demişlər. Deyilənə görə, kənd əhli arasında bir mübahisə düşəndə Əkbərin atası camaatı sakit etmək üçün ucadan qışqırarmış: «Xamuş! Xamuş!».[187] Buna görə də yerli əhali Əhəd kişiyə «Xamuş Əhəd», onun oğlu Əkbəri isə «Xamuş oğlu» deyə çağırırmışlar. Bağbanlar kəndindən olduğuna görə isə ona «Bağban Əkbər» də demişlər.

Əkbər gənc yaşlarından yaxın qohumu Qurban Pirimov ilə birlikdə Qarabağın kənd toylarında və Şuşanın seyrangahlarında qurulan məclislərdə bir xanəndə kimi çıxış etmişdir. Cəlilbəy Bağdadbəyov yazır ki, ilk dəfə Əkbəri Şuşada - İsfəndiyarovun bağında Qurban Pirimovla oxuduğunu gördüm. Onun zil səsi vardı, muğamata yaxşı bələd idi. Əkbər zəhmətkeş xalqın arasından çıxdığından, yəni kəndli oğlu olduğundan kənd əhalisinin zövqünü oxşayırdı. Onun dağ kəndlərində çox hörməti var idi. Əkbərin oxuduğu qəzəllər çox sadə idi. Ən çox Vaqifdən, Zakirdən oxuyardı.

Əkbər çox məlahətli-zil səsli, uzun nəfəsli xanəndə olmuşdur. O, «Şüştər», «Simayi-şəms», «Üzzal», «Hicaz» kimi zil səs, cəh-cəhli zəngulə tələb edən muğamların öhdəsindən asanlıqla gəlmişdir. Qurban Pirimov öz xatirələrində qeyd edir ki, Əkbərin oxumağı böyük xanəndə Cabbar Qaryağdı oğlunun çox xoşuna gələrdi. Əkbərin səsi o qədər zil idi ki, car çəkdikcə uzanırdı.

Əkbər Xamuş oğlunu xanəndələrdən ayıran bir cəhət də onun uzun zəngulələr vurması idi. O da Məşədi Məmməd Fərzəliyev kimi bir neçə formada uzun və şaqraq zəngulələr vurardı. Onun oxuduğu «Hasar» və «Müxalif» muğamlarının qrammafon valları vardır. O, bu muğamlarda coşğun zəngulələr vurmuşdur. Qurban Pirimov söyləyirdi ki, belə bir «Hasar» və «Müxalif» oxumağı yalnız Bülbülcanda görmüşdür.

Əkbər Xamış oğlu 1914-cü ildə Cabbar Qaryağdı oğlunun təklifi ilə Tiflis şəhərinə gedib, səsini qrammafon vallarına yazdırmışdır. O, Qurban Pirimov və Saşa Oqanezaşvilinin müşayiəti ilə «Mənsuriyyə», «Bayatı-Əcəm», «Kürdü-Şahnaz», «Şüştər», «Qatar», «Hasar», «Müxalif» muğamlarını, «Axşam oldu», «Cüt sona» kimi təsnifləri ifa etmişdir. Əkbər Xamuş oğlu Cabbar Qaryağdı oğlu ilə birlikdə «Kərəmi», «Kürdü», «Təsnif əsli» duetlərini də müvəffəqiyyətlə oxumuşdur.

İstedadlı müğənni Əkbər Xamuş oğlu 1928-ci ildə Ağdamda vəfat etmişdir.

[187] Xamuş — farsca susmaq, dinməmək, sükut deməkdir - Red.

# Məcid Behbudov



AZƏRBAYCAN müğənnilərinin istedadlı nəslinə mənsub olan nümayəndələrindən biri də Məcid Behbudovdur. Məcid Behbudəli oğlu Behbudov[188] 1873-cü ildə Şuşa şəhərində anadan olmuşdur. Məcidin atası Behbudəli kişi şəhərli olduğuna baxmayaraq bir müddət Qarabağın Boyat kəndində (Mirzalıbəy Behbudovun malikanəsində) təsərrüfat işlərində çalışmışdır. Behbudəli kişinin vəfatından sonra Məcid doğulduğu şəhərə - Şuşaya qayıtmağa məcbur olur. Burada o, varlı bir tacirin yanında arşın malı satmaqla başsız qalmış ailələrini dolandırmağa başlayır. Gənc Məcid varlı xanımların malikanəsinə arşın malı aparanda, şəhərin küçələrində «Ay arşın malı alan» deyə «Segah» və «Bayatı» üstündə oxuyar, xoş səsi ilə müştərilərin diqqətini cəlb edərdi. Maraqlı burasıdır ki, Məcid arşın malı satarkən gözəl qızlardan birini görüb sevmiş, həmin qız da onunla qoşudub qaçmışdı.

Məcid xanəndəlik sənətinə başlamazdan əvvəl bir müddət şəbihgərdan olmuş, məsciddə nöhə oxumuş və minacat vermişdi. Lakin Məcid nə tacir, nə mərsiyəxan olmadı. Çünki o, uşaqlıq illərindən şerə, musiqiyə böyük həvəs göstərir, xanəndə olmaq arzusu ilə yaşayırdı. Gözəl səsi olan Məcid ilk vaxtlar xüsusi məclislərdə, sonralar isə toy şənliklərində arabir xanəndəlik edərdi.

Cəlilbəy Bağdadbəyovun verdiyi məlumata görə Məcid Behbudov xanəndəliyə 1904-cü ildən başlamışdır. O, əvvəllər Qarabağ, Gəncə məclislərində tarzən Tatevos və kamançaçı Makiç ilə çalıb-çağırmış, sonralar isə Zaqafqaziyanın kənd və şəhərlərində xanəndəlik etmişdir. Məcid uzun illər Tiflisdə tarzənlərdən Məşədi Zeynal, Rzabala və kamançaçı Ruben Qaraxanov ilə «Dvoryanski klub»da çalıb-çağırmışdır. O dövrün afişaları da bunu aydın sübut edir.[189]

1910-cu ildə Məcid Behbudov Gürcüstanda məşhur xanəndələrdən biri idi. Riqa şəhərindəki «Qrammofon» şirkəti Azərbaycan musiqiçiləri ilə yanaşı xanəndə Məcidin də səsini vala yazmağa dəvət etmişdi.

Riqada xanəndə Məcid tarzən Məşədi Cəmilin müşayiəti ilə bir neçə muğam, təsnif və qədim Qarabağ mahnılarını qrammafon valı üçün oxuyur. Cəlilbəy yazır ki, «Məcidin səsi baş səsi olub, «Mirzə Hüseyn segahı»nı, «Şüştər»i və «Çahargah»ı yaxşı oxuyardı.[190]

Məcid Behbudovun repertuarı çox geniş, həm də rəngarəng idi. Onu təkcə Azərbaycan məclislərinə deyil, erməni - xüsusilə gürcü məclislərinə tez-tez dəvət

[188] M. B. Behbudov SSRİ xalq artisti Rəşid Behbudovun atasıdır - red.
[189] Bax: Gürcüstan İncəsənət muzeyinin teatr afişaları saxlanılan fondu.
[190] C. Bağdadbəyovun göstərilən xatirələri (əlyazmaları).

edərdilər. Xanəndə erməni və gürcü dillərini yaxşı bildiyindən çox vaxtı məclislərdə gürcü və erməni mahnılarını qüsursuz oxumağı hamını valeh edərdi.

Məcid Behbudov Azərbaycanda opera teatrının inkişafına da yaxından kömək göstərmişdir. O, hələ 1911-ci ildə Saşa Oqanezaşvilinin «Fərhad və Şirin» operasında Xosrov rolunda oynamışdır. «Kaspi» qəzeti həmin opera tamaşası haqqında rəyində yazırdı: «Cənab Behbudov (Xosrov) çox məlahətli səsə malikdir. Yaxşı oxudu. Ancaq rolu pis oynadı».[191]

Məcid Behbudov Üzeyir Hacıbəyovun opera vo operettalarında, Məşədi Cəmilin «Seyfəl-Mülük» operasında da çıxış etmişdir. Məcid Behbudov istedadlı bir xanəndə kimi bir neçə dəfə tarzən Məşədi Zeynal ilə İran məclislərinə dəvət olunmuşdur. Yeri gəlmişkən maraqlı bir əhvalatı qeyd edək: xanəndənin oğlu Rəşid Behbudov 1942-ci ilin yazında İranın Xoy şəhərində qastrol səfərində olarkən vilayətin adlı-sanlı əyanlarından Analı xan onu evinə qonaq dəvət edir. Məclisdə Rəşidin məlahətli səslə oxuması hamıdan çox xanın arvadını heyrətə salır. Rəşid oxuyub qurtarandan sonra xanın arvadı böyük bir sandığı açıb uzun illərdən bəri qoruyub saxladığı cavan bir oğlanın şəklini və bir ədəd qrammafon valını Rəşidə göstərir. Bu şəkil Məcidin şəkli idi... Analı xanın arvadı Rəşidə deyir ki, mən Naxçıvanda anam ilə bir məclisdə olanda Məcid elə gözəl oxudu ki, anam onu İrana - Xoy şəhərinə, mənim toyuma dəvət etdi. Toy şənliyindən sonra Məcid şəkillə valı mənə yadigar verdi. Bu əhvalat 1912-ci ildə olmuşdu.

Gürcüstanda Sovet hakimiyyəti qurulduqdan sonra Məcid Behbudov bir neçə il Tiflis teatrlarında və konsert salonlarında zəhmətkeşlərə göstərilən mədəni xidmətlərdə yaxından iştirak etmiş, Gürcüstanın azərbaycanlılar yaşayan rayonlarında aparılan təşviqat işlərinə kömək məqsədi ilə təşkil olunan konsertlərdə zəhmətkeşlərin hörmətini qazanmışdı. O, bir müddət tarzən Bala Məlikovun ansamblı ilə birlikdə Ermənistanın şəhər və kəndlərində Azərbaycan musiqisini təbliğ etmişdir.

Məcid Behbudov Yerevanda olarkən Ermənistan İncəsənət İşçiləri İttifaqının Şərq orkestrinin rəhbəri M. Şahnazarov tərəfindon orkestrə dəvət olunur. İstedadlı Azərbaycan xanəndəsi bu orkestrin tərkibində bir neçə il Zaqafqaziyanın şəhər və kəndlərində çıxış edir. Orkestrin afişalarında kamançaçı Saşa Oqanezaşvilinin və xanəndə Məcid Behbudovun adlarının nəzərə çarpması üçün xüsusi şriftlərlə yazılardı.[192]

Məcid Behbudov ömrünün son illərini Azərbaycan SSR-nin Qazax rayonunda keçirmişdir. O, burada mədəniyyət evində çalışmış, gənc istedadların tərbiyəsi ilə məşğul olmuşdur. Məcid Behbudov 40 il Azərbaycan musiqisinə xidmət etmiş və bir sıra ləyaqətli şagirdlər yetişdirmişdir. Məlahətli səsi ilə bütün dünyanı valeh edən sosialist Əməyi Qəhrəmanı, SSRİ xalq artisti Rəşid Behbudov,

---

[191] Bax: «Kaspi» qəzeti, 1911-ci il, № 53.
[192] «Zarya Vostoka» qəzsti, 22 aprel 1926-cı il.

RSFSR-nin xalq artisti Ənvər Behbudov və Azərbayçan SSR əməkdar artisti Nəcibə Behbudova Məcidin yetirmələridir. Onlar və doğma atalarının musiqi irsini daha da inkişaf etdirmiş, ölkəmizin görkəmli mədəniyyət xadimləri səviyyəsinədək yüksəlmişlər.

Məcid Behbudov 1945-ci ildə Qazaxda vəfat etmişdir. Onun xatirəsi könüllərdə yaşayır. O öz yetirmələrinin əməllərində ölməz olmuşdur.

## Davud Səfiyarov



AZƏRBAYCAN musiqi mədəniyyəti tarixində bir çox erməni və gürcü xanəndələrinin adları çəkilir. Bunların arasında xanəndə Davud Səfiyarovun da adına təsadüf olunur.

Davud Səfiyarov 1875-ci ildə Bakı şəhərində yoxsul bir ailədə doğulmuşdur. O, atasını erkən itirdiyindən anasının himayəsi altında böyümüşdür. Bakıda ağır ehtiyac içərisində yaşayan başsız ailə 1884-cü ildə Şamaxıya köçür. Deyilənə görə hələ kiçik yaşlarından Davudun gözəl səsi diqqəti cəlb edir. Yaxın adamların təkidi ilə anası onu Mahmud ağanın yanına aparır. Mahmud ağanın 14 yaşlı Davudun məlahətli səsindən çox xoşu gəlir. Təhsil almaq üçün onu mədrəsəyə qoyur. Davud mədrəsədə bir neçə il ərzində türk, fars dillərini mükəmməl öyrənir. Mahmud ağanın qayğısı sayəsində təlim-tərbiyə alan Davud musiqiyə xüsusi meyl göstərər, Mahmud ağanın məclislərində çıxış edən məşhur xanəndə və musiqiçilərə məftunluqla qulaq asardı. O, Mirzə Məhəmmədhəsənin məlahətli səsini dinləməkdən xüsusi zövq alardı.

Davud Səfiyarov xanəndə kimi ilk dəfə Mahmud ağanın məclislərində çıxış etmişdir. Mahmud ağa vəfat etdikdən sonra (1896) Davud Bakıya köçür. Burada Cabbar Qaryağdı oğlu ilə yaxından tanış olur. Böyük müğənni gənc Davudu xanəndəlik sənətinə daha da həvəsləndirir və sənətin sirlərini ona dərindən başa salır. Beləliklə, gənc xanəndə çox şey əxz edir...

Davud Səfiyarov geniş diapazonlu səsə, güclü nəfəsə malik olduğundan təmtəraqlı muğamları böyük məharətlə oxuyardı. O, «Mahur», «Mənsuriyyə», «Kürdü-Şahnaz», «Osmanlı», «Bayatı-Qacar» kimi muğamları ifa edərkən öz müəllimi Cabbarın guşə və xallarını yerli-yerində vurardı. Bu mülahizəni köhnə qrammofon valları da təsdiq edir. Maraqlı burasıdır ki, Davud Səfiyarov oxuduğu muğam və təsniflərdə Azərbaycan şerini və qoşmalarını elə aydın, səlis ifa edərdi ki, qulaq asanlar onun erməni olduğuna inanmazdı. O, hətta bəzi muğamlarda Füzulinin, Seyid Əzimin fars dilində yazdığı qəzəlləri belə ustalıqla oxuyardı.

Böyük xanəndə Cabbar Qaryağdı oğlu yazırdı: «Davud elə gözəl oxuyurdu ki, hamının diqqətini cəlb edirdi».[193]

Davud Səfiyarov bir çox illər tarzən Bala oğlu Qrikor, Tatevos Arutunyan, Məşədi Zeynal, kamançaçı Moses, Qosti və Levon Qaraxanov ilə əməkdaşlıq etmişdi. 1905-1915-ci illər ərzində Bakıda verilən teatr tamaşalarının fasilələrində və «Şərq konsertləri»ndə Azərbaycan xanəndələri ilə birlikdə Davud Səfiyarov da çıxış etmişdir.

1912-ci ildə Davud Səfiyarov məşhur Azərbaycan müğənniləri-Keçəçi Məhəmməd, Cabbar Qaryağdı oğlu, Məşədi Məmməd Fərzəliyev ilə birlikdə səsini vala yazdırmaq üçün «Sport-Rekord» şirkəti tərəfindən Varşava şəhərinə dəvət edilir. Burada Davud tarzən Qurban Pirimovun və kamançaçı Saşa Oqanezaşvilinin müşayiəti ilə on iki muğam, on təsnif və altı qədim Azərbaycan mahnısını oxuyub qrammofon vallarına yazdırır.

Davud Səfiyarov istedadlı xanəndə idi. O, «Qatar», «Osmanlı», «Mənsuriyyə» muğamlarını, «Səttar xan», «Neçin gecikdin», «Nəbi», «Namidani-cidar» təsniflərini adamı heyrətə gətirən bir şövqlə oxuyardı.

Davud milliyyətcə erməni olsa da, doğma ana dilini yaxşı bilmədiyindən vala yazdırmaq üçün bu dildə bir mahnı belə oxumamışdır.

Davud Səfiyarov bütün xanəndəlik fəaliyyətini Azərbaycan vokal sənətinin inkişafına həsr etmişdir. Şübhəsiz Azərbaycan milli musiqi sənəti tarixində onun adı görkəmli xanəndələrlə yanaşı çəkilir. Davud Səfiyarovun mənalı həyat yolu xalqlar arasında dostluq və qardaşlıq bayrağını uca tutan hər bir kəs üçün qiymətlidir. O, sözün əsl mənasında beynəlmiləlçi xanəndə idi. İstedadlı xanəndə Davud Səfiyarov 1917-ci ildə həlak olmuşdur.

[193] Cabbar Qaryağdı oğlu. Keçmiş Azərbaycan musiqisi haqqında (əlyazması). Azərbaysan SSR Mədəniyyət Nazirliyi. Memarlıq və İncəsənət İnstitutunun arxivi, qovluq № 75.

## Məşədi Cəmil Əmirov



MƏŞƏDİ Cəmil Azərbaycan musiqi mədəniyyəti tarixində görkəmli xidmətləri olan simalardan biridir. O, gözəl tarzən, mahir müğənni, eyni zamanda istedadlı bəstəkar və dirijor olmuşdur.

Məşədi Cəmil Kərbəlayı Əmiraslan oğlu Əmirov[194] 1875-ci ildə Şuşa şəhərində anadan olmuşdur. İlk təhsilini mədrəsədə almış Cəmilin uşaqlıq və gənclik illəri maddi ehtiyac içərisində keçmişdir. On iki yaşında olarkən atası vaxtsız vəfat etdiyindən o, anası Məşədi Yaxşı ilə altı başdan ibarət ailələrini dolandırmaq üçün təhsilini yarımçıq qoymuşdur. Balaca Cəmil şəhərin «Torpaq meydan»ında bişmiş noxud satmaqla ailəsinə kömək edirdi. Ağır ailə vəziyyəti Cəmili məktəbdən ayırca da, qəlbində musiqiyə olan coşğun həvəsini söndürə bilməmişdi. Əksinə, onun musiqiyə meyli getdikcə daha aşkar hiss edilirdi.

Cəmil məhəllə toylarında saatlarla çalıb-oxuyanları dinləyərdi. Onu, hər şeydən əvvəl, tar aləti maraqlandırırdı. O, toy olan salon və eyvanlarda pəncərəyə, həyətdəki ağaclara dırmaşıb gözlərini tarçalanın barmaqlarına zilləyər, çalınan havalara, oxunan mahnılara diqqət yetirərdi. Onun musiqiyə olan həvəsi haqqında Şuşada belə bir əhvalat söyləyirlər: «Bir gün Cəmilgilin qonşuluğunda toy məclisi qurulur. Samovarlara qulluq etməyi Cəmilə həvalə edirlər. Cəmil çayniki dəmləmək üçün böyük bir samovarın altına qoyub lüləyini açır... Elə bu zaman xanəndə onun çox sevdiyi mahnılardan birini oxuyur. Cəmil mətbəxin qapısını açıb xanəndəni dinləyir... Sevdiyi mahnını dinləyə-dinləyə xəyala dalan Cəmil samovarı unudur. Mətbəxdən qalxıb qonşu otağı bürüyən buğ toydakı adamların diqqətini cəlb edir. Samovarların yanına gələnlər suyun çaynikdən daşıb yerə töküldüyünü, Cəmilin isə sakitcə dayanıb xəyala daldığını görürlər».

Cəmil tar çalmaq arzusuna çata bilmirdi. Buna baxmayaraq, ruhdan düşmür, ağacdan tara oxşar bir şey düzəldir, üstünə nazik məftildən «sim» çəkir, toylarda öyrəndiyi havaları öz «tarı»nda çalır, xoş səsi ilə zümzümə edirdi.

Məlum olduğu kimi o zamanlar Şuşa bütün Zaqafqaziyada ticarət şəhəri kimi məşhur idi. Burada ticarətlə əlaqədar olaraq sənətkarlıq da inkişaf etmişdi. Şəhər yoxsulları öz uşaqlarını məktəbdə oxuda bilmədiklərindən onları alış-verişlə məşğul olmağa, sənət öyrənməyə qoyardılar. Yekanə oğlunun gələcəyini düşünən Məşədi Yaxşı arvad da Cəmili şəhər dərzilərindən birinə şagirdliyə verir.

---

[194] M. C. Əmirov bəstəkar Fikrət Əmirovun atasıdır. - Red.

Cəmil paltar biçib tikməyi öyrənir, sifarişlər qəbul edir, beləliklə, şəhərdə ən qabiliyyətli ustalardan biri kimi tapınır. Bir müddət sonra dərzi dükanı açır. Onun müştərilərinin sayı gündən-günə artırdı. Get-gedə Cəmilin maddi vəziyyəti yaxşılaşır. Hətta o, şəhərin «Çöl Qala» məhəlləsində ikiotaqlı ev də tikdirir. Bir sözlə, Cəmil kasıbçılığın daşını birdəfəlik atır. Lakin musiqiyə daxilən duyduğu ehtiyac onu narahat edir, düşündürürdü. O, şəhərdə məşhur dərzi yox, adlı-sanlı bir musiqiçi - tarzən kimi tanınmaq arzusunda idi. Cəmil bu məqsədlə tar çalmağı öyrənir. Ağalarbəy Əliverdibəyovun yazdığına görə, Cəmilin ilk tar müəllimi Armenak adlı bir nəfər tarzən olmuşdur.[195] Bunun isə qısaca tarixi belədir: Bir gün tarzən Armenak özünə və oğlanlarına paltar tikdirmək üçün Cəmilə sifarişlər verir. Paltarları almağa gələn tarzən dərzinin tar çaldığını görür. Onun həvəslə tar çalmağı qoca tarzənin xoşuna gəlir. Armenak kişi paltarları alanda Cəmil deyir:

- Usta Armenak, mən tikdiyim paltarlara səndən haqq almayacağam. Bunun əvəzinə mənə tarda bir-iki şey öyrətsən, pis olmaz.

Cəmilin səxavətini, musiqiyə hədsiz həvəsini nəzərə alan qoca tarzən onunla razılaşır. Bir müddətdən sonra Cəmilin tar çalmağı dərziliyindən də məşhur olur.

Dövrünün bir çox sənətkarları kimi Cəmil də böyük musiqişünas Nəvvabdan klassik Şərq muğamlarının sirlərini əxz edir. Bir müddət sonra isə o, dərzilik sənətindən tamam uzaqlaşıb tarzənliklə məşğul olur. Şuşa məclislərində ilk dəfə xanəndə Qaragöz Zülfüqarla çalıb-çağırmağa başlayan Məşədi Cəmil tezliklə Qarabağ, Şəki və Şirvanda həm tarzən, həm də xanəndə kimi dinləyicilərin sonsuz məhəbbətini qazanır.

1907-ci ildə Məşədi Cəmil Gəncə şəhərinə köçür. Yerli musiqiçilər ilə yaxından tanış olur, beləliklə, şəhərin musiqi həyatında görkəmli rol oynayır. Məşədi Cəmil Gəncə məclislərində Məşədi Məmməd Fərzəliyevi, Malıbəyli Həmidi, Musa Şuşinskini, sonralar isə Bülbülü və Seyid Şuşinskini öz sədəfli tarı ilə müşayiət etmişdir. Bütün mahalda gözəl tarzən və mahir bir müğənni kimi məşhur olan Cəmili hamı öz şənliklərində, məclislərində görmək istəyirdi. O zaman xalq arasında deyərdilər: «Cəmili məclisə dəvət edən uduzmaz». Çünki, Cəmil tar çalmaqla bərabər, həm də oxuyurdu. Məclislərdə Cəmil çox zaman Malıbəyli Həmidi, Malıbəyli Həmid isə Məşədi Cəmili tarda müşayiət edərdi. Bu məşhur sənətkarların məclisinə düşən dinləyicilər özlərini bəxtiyar hesab edərdilər.

1910-cu ilin ilk aylarında Məşədi Cəmil bir qrup musiqiçi ilə Riqa şəhərindəki «Qrammafon» şirkətinə dəvət olunur. Burada o, bir sıra muğam və türk mahnılarını vala yazdırır. Məşədi Cəmil ancaq tarçalan kimi qalmaq istəmirdi. O,

---

[195] Respublika Əlyazmaları fondu, inventar № 55007. 224

Gəncədə yaşadığı müddət ərzində tədricən qarmon, kamança, skripka və pianoda çalmağı da öyrənmişdi. Onun yaradıcılıq planları geniş idi. Cəmil dərk edirdi ki, dövrünün qabaqcıl bir musiqiçisi olmaq üçün ona birinci növbədə musiqi təhsili və not cavadına yiyələnmək çox vacibdir. 1911-ci ildə o, musiqi təhsili almaq üçün Türkiyənin İstambul şəhərinə gedir. İki ilə yaxın İstambulda yaşayır. Bu müddət ərzində həm musiqi təhsili alır, həm not savadına yiyələnir, həm də Avropa musiqisi ilə yaxından tanış olur.

Məşədi Cəmil Türkiyədə olduğu illərdə Azərbaycan musiqisinin qızğın bir təbliğatçısı kimi çıxış edir. Onun İstambulda verdiyi konsertlər böyük rəğbətlə qarşılanır. Məşədi Cəmil buradakı konsertlərində klassik Azərbaycan muğam və təsniflərini məlahətli səslə oxuyur, tarda isə solo çalırdı. Türklər tarı sinə üstə tutub çalmağı ilk dəfə Məşədi Cəmilin ifasında görmüşlər. O zaman İstambul mətbuatında Məşədi Cəmilin türkləri valeh edən çalğısı haqqında səmimi rəylər yazılmışdı. Məşədi Cəmil İstambulun musiqi ictimaiyyəti qarşısında Qafqaz musiqisi haqqında dəfələrdə məruzə etmişdi. Cəmilin Azərbaycan musiqisi və onun məşhur nümayəndələri haqqındakı çıxışı türk musiqişünaslarını heyran qoymuşdu. İstambulun ən nüfuzlu jurnallarından biri olan «Şəhbal» sənətkarın tarla birlikdə şəklini vermiş, haqqında böyük məqalə çap etmişdi. Məqalənin müəllifi Türkiyənin məşhur musiqişünası Rauf Yektabəy yazmışdı: «Qafqazın ən məşhur musiqi sənətkarlarından olan Cəmilbəy not öyrənmək və osmanlı musiqisini tədqiq etmək məqsədi ilə Gəncə şəhərindən bizə qonaq gəlmişdir. Biz onun vasitəsi ilə Qafqaz diyarının musiqisi haqqında olduqca qiymətli məlumatlar əldə etdik».[196]

Azərbaycan musiqisi tarixində ilk dəfə muğamları pota salanlardan biri məhz Məşədi Cəmil olmuşdur. O, hələ 1912-ci ildə İstambulda yaşadığı vaxt «Heyratı» muğamını nota salıb «Şəhbal» jurnalının səhifələrində çap etdirmişdi. Azərbaycan muğam və mahnılarının Məşədi Cəmil tərəfindən nota köçürülməsini qiymətləndirən Rauf Yektabəy həmin məqaləsində deyir: «...Bu sətirlərin müəllifi Cəmilbəy Əmirovun nota saldığı «Heyratı» muğamını «Şəhbal»ın bu nömrəsində (59-cu nömrəsində) çap etdirmişdir. Biz Cəmilbəydən Qafqaz musiqisinin bir çox not yazılarını, həm də bu musiqiyə aid bəzi stnoqrafik məlumatları almışıq.

Cəmilbəy İstambuldan vətəninə qayıdarkən Qafqazın ən gözəl şərqilərini nota salıb bizə göndərəcəyini vəd etmişdir. Biz bununla bizə yabançı olmayan Qafqaz şərqiləri ilə dinləyicilərimizi şad edəcəyimizə ümid edirik».[197]

Məşədi Cəmil Türkiyədə təhsil aldığı müddətdə Şərqdə məşhur olan musiqi alətlərindən ud və kanonda çalmağı da vətəninə qayıdan Məşədi Cəmil özü ilə bu iki aləti də gətirmişdi.

---

[196] Rauf Yektabəy, Qafqaziyədə musiqi, "Şəhbal" jurnalı, İstambul, 1912-ci il. № 59, səh. 210.
[197] Yenə orada.

Məşədi Cəmil kanon çalarkən (1915-ci il).



Zəngin sənət təcrübəsi ilə vətənə qayıdan istedadlı sənətkar Gəncənin musiqi həyatında geniş fəaliyyət göstərir. O, 1913-cü ilin yayında şəhər musiqiçilərinin iştirakı ilə bir neçə Şərq konserti təşkil edir. Onun həmyerliləri qarşısında özünəməxsus incə bir məharətlə türk şərqiləri oxuması, ud və kanonda bir neçə muğamı gözəl çalması dinləyiciləri valeh edir. Həmin günləri sonralar xatırlayan qocaman xanəndə Musa Şşinski demişdir: «Mən Məşədi Cəmili uşaqlıqdan tanıyırdım. Biz Şuşada qonşu idik. O, gənc yaşlarından tar çalmağı öyrənmişdi. Məşədi Cəmil bütün muğamları həm gözəl bilir, həm də zövqlə çalardı. Olduqca savadlı, həm də ziyalı və mədəni sənətkar idi. Gəncədə konsert verəndə türk mahnılarını elə məharət və ustalıqla oxuyurdu ki, adam heyran qalırdı. O, kanonda «Bayatı-Şiraz» çalanda dinləyicilər onu səhnədən buraxmazdılar».[198]

Məşədi Cəmil Azərbaycan musiqisinin bir çox sahələrində hərtərəfli fəaliyyət göstərməklə teatr sənətimizin inkişafında da mühüm rol oynamışdır. O, Şuşada və Gəncədə olarkən Üzeyir Hacıbəyovun opera və operettalarında Məcnun, Zeyd, Kərəm, Rza bəy və başqa rolları müvəffəqiyyətlə oynamış, teatr orkestrlərinə dirijorluq etmişdir.

Məşədi Cəmilin Azərbaycan musiqi tarixində bir bəstəkar kimi də müəyyən xidmətləri olmuşdur. O, 1915-ci ildə «Seyfəl-Mülük» operasını yazır və əsəri tamaşaya qoymaq üçün bir çox xanəndə və musiqiçiləri Gəncəyə dəvət edir. «Seyfəl-Mülük» operasının ilk rejissoru SSRİ xalq artisti Sidqi Ruhulla bu tamaşa haqqında yazmışdı: «1915-ci ildə Gəncədə Məşədi Cəmil Əmirovun «Seyfəl-Mülük» operasını tamaşaya qoymaq üçün hazırlıq görürdük. Bu məqsədlə görkəmli xanəndə və sazəndələrdən Ələsgər Abdullayev, Məcid Behbudov və başqalarından ibarət bir qrup təşkil etmişdik: «Seyfəl-Mülük» operasının rollarını bu adamlar arasında bölüşdürdük.

Operanın qəhrəmanlarından olan gənc səadətin rolunu ifa etmək üçün məlahətli və incə səsli bir qız lazım idi. Bu isə bizim işimizi çox çətinləşdirirdi.

Xeyli axtardıqdan sonra, nəhayət artistlərə rəğbət bəsləyən gənc bir oğlanı bizə nişan verdilər. O zaman həmin gəncə el arasında «Xanəndə Bülbül» deyirdilər. M. C. Əmirovun vasitəsi ilə Bülbülü çağırtdırdıq».[199]

Bülbülə qız rolunda çıxış etmək təklif olunanda o:

- Necə, arvad tumanı geymək? Bu ki, kişi üçün biabırçılıqdır! - deyə əsəbiləşmişdi.

Lakin Məşədi Cəmilin xahişindən sonra Bülbül qız rolunda oynamağa razılıq vermişdi. Sonralar bu hadisəni xatırlayan Bülbül yazmışdı: «Mənim

---

[198] M. Şuşinskinin xatirələri kitabın müəllifindədir. - Red.
[199] Bax: «Kommunist» qəzeti, 1957-ci il, № 304.

səhnəyə çıxmağıma aşağıdakı hadisə səbəb olmuşdur: «Mənim Gəncə dostlarımdan tarzən Məşədi Cəmil musiqili- əsər yazmışdı. Müəllimimə qarşı olan hörmətimə görə onun əsərində qız rolunda çıxış etməyə razılıq verdim. O zaman aktyor qüvvəsinə olduqca ehtiyac olduğundan mənə iki rol verdilər: Bir pərdədə mən vəzirin oğlu, digərində isə qız rolunda çıxşı etdim».[200] «Seyfəl-Mülük» operası Gəncədə iki dəfə oynanılandan sonra 1916-cı il iyun ayının 3-də Tiflis şəhərində «Kazyonnı teatr»ın binasında (hazırda Z. Paliaşvili adına Opera və Balet Teatrında) göstərilmişdi. Məşədi Cəmil operanın tamaşasında dirijorluq etmişdi. Sidqi Ruhulla yazır ki, tamaşa salonu adamla dolu idi. Azərbaycanlılardan başqa erməni, gürcü və ruslar da gəlmişdilər.[201] Operanın istər musiqisi, istərsə də artistlərin yaxşı oynaması xalqa xoş gəldiyindən tamaşa bir neçə dəfə göstərilmişdi.

Tiflis qastrollarından sonra Məşədi Cəmil gənc xanəndə Bülbül ilə İrəvana qastrol səfərinə çıxır. Bülbülün insanı valeh edən incə səsi, Məşədi Cəmilin şirin çalğısı İrəvan tamaşaçıları tərəfindən böyük rəğbətlə qarşılanmışdı.

Məşədi Cəmil yenidən Gəncəyə qayıdır. Burada onun rəhbərliyi ilə musiqili gecələr, teatr tamaşaları və konsertlər verilərdi. Məşədi Cəmil şəhərin xanəndə və çalğıçılarını ətrafına tolayıb, onlarla yaxından məşğul olardı. O öz mənzilində tez-tez muğamat gecələri, yaxşı oxuyan və çalanların müsabiqələrini elan edib ən yaxşı ifaçıları mükafatlandırardı. Lakin bütün bu tədbirlər Məşədi Cəmili qane etmirdi. O, Gəncədə musiqi məktəbi yaratmaq, gənc musiqi istedadlarını toplayıb onlara elmi əsaslar üzərində musiqi təlimi öyrətmək arzusunda idi. Məşədi Cəmil bu məqsədə çatmaq - yəni Gəncədə musiqi məktəbi açmaq üçün dəfələrlə Yelizavetpol qubernatoruna müraciət etmiş, hətta Qafqaz canişininin qəbulunda olmuşdu. Lakin ona öz nəcib arzusunu həyata keçirməyə imkan verilmədi. Əlbəttə, bu təəccüblü hadisə deyildi. Çünki bürokrat çar məmurları rus olmayan xalqların mədəni inkişafına müxtəlif bəhanələrlə maneçilik törədirdilər. Bunu başa düşən Məşədi Cəmil ruhdan düşmədi, öz şəxsi maddi imkanları əsasında «Muğamat kursu» açdı. Buraya gənc istedadları dəvət edib, onların musiqi təhsili ilə məşğul olmağa başladı.

Məşədi Cəmilin çəkdiyi zəhmət hədər getmədi. Bir çox cavan musiqiçilər onun təlimi sayəsində görkəmli sənətkar kimi Azərbaycan musiqisini inkişaf etdirməkdə əvəzsiz xidmətlər göstərdilər. Seyid Şuşinski, Bülbül, Zülfü Adıgözəlov, Əli Cavad oğlu, Əbdürrəhman Fərəcov və Musa Şuşinski kimi xanəndələrin bir sənətkar kimi püxtələşməsində Məşədi Cəmilin müəyyən rolu olmuşdur. Mənim heç yadımdan çıxmaz. Günlərin birində, Şuşada Seyid Şuşinski bizdə qonaq olarkən mən ona keçmiş sənətkarların şəkillərini göstərirdim. O, xüsusi bir maraqla sənət dostlarının şəkillərinə baxırdı, baxdıqca gah çöhrəsi

---

[200] Bülbül. Artistin yolu. «Bakinski raboçi» qəzeti, 16 mart 1938-ci il. № 61.
[201] «Kommunist» qəzeti, 1957-ci il, № 304.

tutulur, gah açılır, gah da dodaqlarında təbəssüm görünürdü. Birdən o, şəkillərin içərisində Məşədi Cəmilin 1912-ci ildə İstambul şəhərində çəkdirdiyi şəkli görəndə ayağa qalxıb otaqda fikirli-fikirli o baş-bu başa var-gəl etdi. Sonra yenidən Məşədi Cəmilin şəklinə heyrətlə baxdı. Bir qədər keçməmiş yaş damcıları şəklin üstünə töküldü.

- Ağa, nə üçün bütün sənət dostlarının şəkilləri içərisində Məşədi Cəmilin əksini görəndə əhvalınız dəyişdi? - deyə soruşdum.

Seyid Şuşinski dərindən köksünü ötürdü, dəsmalı ilə üzünü isladan göz yaşını silib dilləndi: - «Eh... hanı o keçən günlər; gənclik illəri? Hanı Məşədi Cəmil... Məşədi Cəmilin adı çəkiləndə gəncliyimin ən xoş günləri bir-bir gözümün önündən keçir; Gəncə məclicləri, Tiflisin şən gecələri, Barjomi, Kislovodski, Şuşa yaylaqları - hansını deyim? Bu yerlərin hər daşına, hər bağçasına, coşqun sularına baxsan Məşədi Cəmil ilə keçirdiyimiz günlərin əksini görərsən.

Məni xanəndəlik sənətinə sövq edən, musiqiyə həvəsləndirən Məşədi Cəmil olmuşdur. Məşədi Cəmil Şərq musiqisinə dərindən bələd olan mahir musiqişünas, həm də çox şirin oxuyan və çalan idi. O, «Rast» muğamını mayedə, «Segah»ı, «Şikəsteyi-fars»ı və «Şur»u pəsdən yaxşı oxuyardı. Məşədi Cəmil Hacı Hücünün, Məşədi İsinin, Əbdülbaqinin (Bülbülcanın) xalları və guşələrini mənə öyrədərdi. Bir də Məşədi Cəmil olduqca mədəni, ağıllı, ürəyi-açıq və qonaqpərvər bir insan kimi bütün Qafqaz musiqiçiləri arasında məşhur idi - Seyid Şuşinski bir qədər susduqdan sonra yenidən ah çəkib dedi: - Bəs belə bir gözəl insanın, yaxşı sənətkarın şəklinə ötəri baxmaq olarmı? Bax, buna görə də əhvalım pərişan oldu».

Görkəmli müğənni Bülbül də Azərbaycan musiqisi və onun görkəmli nümayəndələri haqqındakı çıxışlarında Məşədi Cəmilin adını hörmətlə çəkir, onun sənətkarlıq qabiliyyətinə yüksək qiymət verirdi. Bülbül Məşədi Cəmili özünün ilk müəllimi hesab edirdi. Bülbül «Muğamat və xalq havaları haqqında» sərlövhəli məqaləsində yazmışdı: «Mən 15 yaşında olarkən Məşədi Cəmil ilə qız toyuna getmişəm. O, «Mahur» çaldı, mən oxuyub «Zəmin-xarə»yə çıxdım. Sonra gördüm ki, bir nərdivan gətirdilər ki, aşağı düşəm. Lakin Məşədi Cəmil məni usta yolla «Zəmin-xarə»dən mayeyə endirdi. Mən onda bildim ki, o, məni öyrətmək üçün oxudur».[202]

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Məşədi Cəmil həqiqi xalq sənətkarı kimi respublikamızın musiqi həyatında yaxından iştirak etmişdir.

Sovet quruluşunun sənətkara verdiyi geniş imkanlardan ruhlanan musiqiçi yerli əhaliyə mədəni xidmət məqsədi ilə 1921-ci ildə Gəncədə dram truppası yaradır. Truppa iki ilə yaxın bir müddətdə Gəncə, Şəki, Qazax mahallarında zəhmətkeşlərin qarşısında musiqili dramlar, opera tamaşaları ilə çıxış etmiş, yerli əhalinin rəğbətini qazanmışdı.

[202] Bülbül. Muğamat və xalq havaları haqqında (əlyazması). Azərbaycan SSR Mədəniyyət Nazirliyi Memarlıq və İncəsənət İnstitutunun arxivi, qovluq № 41, 68.

Məşədi Cəmilin arzusu musiqi məktəbi açmaq idi. Nəhayət, o, bu arzusuna da çatdıq. 1923-cü ildə onun təşəbbüsü və yaxından köməyi ilə Gəncədə musiqi məktəbi açmaq idi. Birinci il məktəbə 39 tələbə qəbul olunmuşdu.[203] Son dərəcə gözəl təşkilatçılıq qabiliyyəti olan Məşədi Cəmil həmin məktəbin ilk direktoru (1923-1928) olmuşdur. Bundan əlavə o, məktəbdə tardan dərs demiş, həm də xalq çalğı alətlərindən ibarət orkestrə rəhbərlik etmişdir.[204] Sonralar bu məktəb böyüyərək 1928-29-cu tədris illərində musiqi texnikumuna çevrilmişdi. Bu məktəbi qurtaran bir sıra tələbələr sonralar Azərbaycanda musiqiçi kimi məşhur olmuşlar.[205]

Məşədi Cəmilin sənətkarlığı sözün həqiqi mənasında milli sənət idi. Bu sənət, hər şeydən əvvəl, mənsub olduğu xalqın nəcib hiss və duyğularını əks etdirmişdir. Məhz buna görə də onun istər çalıb-oxumağı, istərsə də musiqili əsərləri həmişə rəğbətlə qarşılanmışdır.

Azərbaycan milli teatrının professional mədəniyyət ocağı səviyyəsinə yüksəlməsində də Məşədi Cəmilin müəyyən xidmətləri olmuşdur. O, artist kimi fəaliyyət göstərmiş, həm də ilk milli operetta yazanlardan biri kimi tanınmışdır. Onun «Seyfəl-Mülük» operasından çox sonralar yazdığı «Namuslu qız» (1923) operettası da Gəncədə müvəffəqiyyətlə tamaşaya qoyulmuşdur.

Gözəl librettosu və musiqisi olan «Namuslu qız» əsəri bir neçə il Gəncə teatrının repertuarında möhkəm yer tutur. Əsərin şöhrəti hər yana yayılır. Bir çox teatr kollektivi əsəri oynamaq üçün müəllifə müraciət edir. Odur ki, 1924-cü ildə «Namuslu qız» operettası ayrıca kitabça şəklində çap edilərək Azərbaycanın bir çox yerlərinə göndərilir. Operetta Şuşada, Ağdaşda, Şəkidə, Bərdədə, Zaqatalada, Ağdamda və Tiflisdə tamaşaya qoyulur. Bu şəhərlərin musiqi ictimaiyyəti və teatr truppaları çoxlu məktub və teleqramlar göndərib əsərin müəllifini hərarətlə təbrik edirlər. Azərbaycanın əməkdar artisti Mürşüd Həşimli «Namuslu qız» oprettasının Şuşada ilk tamaşasını belə xatırlayır:

«1924-cü ilin yayında Zülfüqar Hacıbəyov ailəsi ilə Şuşaya dincəlməyə gəlmişdi. O, Şuşanın səhnə həvəskarlarını ətrafına toplayıb bir tamaşa verməyi məsləhət gördü. Belə qərara alındı ki, «Aşıq Qərib»i oynayaq. Lakin Qəribi oynamaq üçün qız lazım idi. Çox axtarışdan sonra qarmonçalan Kamra Bəyimi[206] tapdıq. Onun iştirakı ilə «Aşıq Qərib»i göstərdik.

---

[203] K. Safaralieva. Музыкальное образование в Азербайджане. Азербайджанская музыка (Сборник статей), Москва, 1961 г. стр. 293.

[204] K. Safaralieva. Музыкальное образование в Азербайджане. Азербайджанская музыка (Сборник статей), Москва, 1961 г. стр. 293.

[205] Məşədi Cəmilin oğlu Fikrət Əmirov, eləcə də Qənbər Hüseynli, Telman Hacıyev, Zərif Qayıbov bu məktəbin yetişdirmələridir - müəllif.

[206] Kamra Bəyim (1900-1904) məşhur el xanəndəsidir. O, opera tamaşalarında da çıxış etmiş, 1930-1931-ci illərdə isə Bakıda bir neçə dəfə konsert vermişdir - müəllif.

Üçüncü pərdənin fasiləsində dedilər ki, Gəncədən məşhur tarçalan Məşədi Cəmil gəlib, özü də tamaşa salonunda əyləşibdi. Tamaşa qurtardıqdan sonra o, səhnəyə gəlib Züqlfüqar bəyi və bizi təbrik etdi:

Sabahısı günü Məşədi Cəmil teatra gəlib bizimlə söhbət etdikdən sonra masanın üstünə təzə çap olunmuş bir kitab qoyaraq dedi:

- Bu mənim təzə əsərimdir.

Teatrın artistləri əsərlə tanış oldular. Təzə əsərin adı «Namuslu qız» idi. Bir neçə gündən sonra əsəri tamaşaya qoyduq. Mən Hacı Sadıq rolunda çıxış etdim. Tamaşaya müəllif özü dirijorluq edirdi. Tamaşa günü adam həddindən artıq çox idi. Əsərin axırında tamaşaçılar Məşədi Cəmili səhnəyə çağırıb onu hərarətlə qarşıladılar. Həkim Kərim bəy Mehmandarov Şuşa camaatı adından müəllifi təbrik etdi... Məşədi Cəmilə çoxlu gül dəstələri verdilər.

«Namuslu qız»ı bir neçə dəfə oynadıqdan sonra Məşədi Cəmilin iştirakı ilə «Leyli və Məcnun» operasını verdik. O gecə Cəmil Məcnun rolunu məharətlə oynadı.

Yayın axır günlərində Məşədi Cəmili Bakıya dəvət etdilər. «Namuslu qız» Bakıda oynanıldı. Mənim Məşədi Cəmil ilə ikinci görüşüm 1925-ci ildə yenə Şuşada olmuşdur. O zaman böyük şairimiz Füzuliyə həsr edilmiş ədəbi-bədii gecə keçirildi. Həmin gecəni məşhur müğənnimiz Bülbül təşkil etmişdi. Bülbül Füzulinin şərəfinə xorla ifa olunan bir mahnı düzəltmişdi. Mahnının sözləri Cabbar Qaryağdı oğlunun, musiqisi isə Bülbülün idi. Gecədə dinləyicilər tərəfindən məhəbbətlə qarşılanan Məşədi Cəmil Füzulinin sözlərindən ibarət bir türk təsnifi oxudu, həm də tarda «Segah» çaldı».[207]

Məşədi Cəmil istedadlı xanəndə-tarzən idi. Onun xoş, məlahətli səsindən savayı, tar çalmaq sahəsində orijinal xüsusiyyətləri var idi. Hər şeydən əvvəl, o, Azərbaycan musiqi mədəniyyəti tarixində görkəmli bir tarzən kimi daha çox məşhur olmuşdur. Məşədi Cəmil uzun illər Qaragöz Zülfüqar, Seyid Şuşinski, Bülbül, Musa Şuşinski, Malıbəyli Həmid və Əsgər, Əli Cavad oğlu kimi məşhur müğənniləri tarda müşayiət etmiş, həm də bir tarzən-səlist kimi müasirləri arasında fəxri yer tutmuşdu.

Məşədi Cəmil böyük tarzən Sadıqcanın tar məktəbinin ən görkəmli davamçılarından biri idi. O, bütün muğamları çox gözəl çalardı. Onun tarından qopan xoş sədalar insanın qəlbini həyəcanla doldurardı. Çünki o, tar ifaçılığının ən mürəkkəb və çətin texnikasına yiyələnmiş bir usta idi. Məşədi Cəmilin tarda çaldığı «Segah» daha məşhurdur. O da öz çalğısı ilə sübut etmişdir ki, muğamatın çox mürəkkəb nyuanslarını (səs əlamətlərini) tarda çox müvəffəqiyyətlə vermək olar.

Məşədi Cəmil nadir istedad sahibi olmaqla bərabər, həm də yüksək mənəviyyatlı, nəcib, xeyirxah insan, qayğıkeş bir müəllim idi. Məşədi Cəmilin

[207] Mürşüd Həşimlinin xatirələri kitabın müəllifindədir. - Red.

gənc ifaçılara məsləhətlər verməsi, həssas sənətkar qəlbi ilə kömək etməsi və onları ruhlandırması haqqında Azərbaycan SSR xalq artisti Solmaz Orlinskaya öz xatirələrində belə yazmışdır: «Səhnə arxasına gəlib məni təbrik edənlər çox olurdu. Mən bu adamların kim olduqlarını bilmirdim. Bəzi vaxt qaçıb gizlənirdim ki, məni görüb tanımasınlar. «Namuslu qız» operettasının müəllifi Məşədi Cəmil Əmirov da gəlib məni təbrik elədi, qucaqlayıb alnımdan öpdü və mənə dedi: «Çox yanıqlı səsin var. Adam qulaq asanda təsirlənir, qüssə ona güc gəlir. Bir opera yazmaq fikrindəyəm. Çalışacağam ki, sənin ruhuna uyğun bir rol yaradım.

Məşədi Cəmil əlimi bərk-bərk sıxıb getdi».[208]

Məşədi Cəmil bütün varlığı ilə xalq musiqisinə bağlı olmuşdur. O, sənət yollarında fədakarlıq göstərmiş, xalqın məhəbbətinə həssas ürəklə yanaşmışdır. Onun musiqi yaradıcılığı xalq musiqisinin zəngin ənənələri üzərində qurulmuşdur. Başqa sənət dostları kimi Məşədi Cəmil də dərin zövq, yüksək həvəs və böyük məhəbbətlə çalıb-oxuduğu muğam və el mahnılarının gözəl səslənməsinə az əmək sərf etməmişdi. Görkəmli səhnə ustası Sidqi Ruhulla yazmışdı: «...Məşədi Cəmil öz dövrünün ən qabaqcıl və maarifpərvər-adamlarından biri idi. Xanəndəlik etməzdi, lakin gözəl oxuyardı. Tar, ud və kanon alətlərini çalmaqda misilsiz usta idi. Məşədi Cəmil səhnəni çox sevərdi, özü çox xeyirxah adam idi. Mənim aktyorluğuma qiymət qoyardı, yaradıcılığım haqqında gözəl məsləhətlər və göstərişlər verərdi».[209]

Məşədi Cəmil Əmirov XX əsr Azərbaycan musiqi mədəniyyətinin görkəmli xadimləri içərisində mahir bir bəstəkar, qayğıkeş müəllim, istedadlı müğənni və görkəmli tarzən kimi şərəfli yer tutur. O, mənalı ömrünün 40 ilini milli incəsənətimizin tərəqqisinə həsr etmişdir. Onun keçdiyi yol gərgin, ağır mübarizə, arasıkəsilməz axtarışlarla dolu olmuşdur. Bu yol həm do oxumaq, öyrənmək, klassik Şərq musiqisinin ənənələrini mənimsəmək, yüksəlmək yolu idi. Müasir Azərbaycan ifaçıları və bəstəkarlar bu yola nəzər salsalar, şübhəsiz ki, çox şey öyrənə bilərlər.

İstedadlı sənətkar Məşədi Cəmil Əmirov 1928-ci ildə Gəncə şəhərində vəfat etmişdir. Onun zəngin irsi bu gün də Azərbaycan milli mədəniyyətinin yüksəlməsinə kömək edir. Məşədi Cəmilin adı və əməlləri bu gün yüz minlərlə musiqi sevən azərbaycanlılar tərəfindən hörmətlə yad edilir.

---

[208] R. Şahvələd. Solmaz. Bakı, 1962, səh 8.

[209] S. Dadaşov. M.F.Axundov adına Lenin ordenli azərbaycan Opera və Balet Teatrı, Bakı, 1958, səh. 19.

# Kərbəlayı Lətif



AZƏRBAYCAN musiqiçiləri arasında adı hörmətlə yad edilən məşhur qarmonçalan Kərbəlayı Lətif əlli il Azərbaycan milli mədəniyyətinin inkişafına xidmət etmişdir.

Lətif Hüseyn oğlu 1876-cı ildə Şuşa şəhərində anadan olmuşdur. Onun atası Hüseyn kişi çəkməçiliklə məşğul idi. Lakin həvəskar musiqiçi kimi tanınmışdı. Hüseyn kişinin iki oğlu vardı. Məhəmməd və Lətif. Onlar ataları Hüseyn kişinin çəkməçilik sənətini öyrənməklə bərabər musiqiyə xüsusi həvəs göstərirdilər. Lətif atasından qarmon çalmaq öyrəndikdən sonra gözəl səsi olan böyük qardaşı Məhəmmədlə birlikdə məhəllə şənliklərində və ayrı-ayrı ailə məclislərində çıxış etməyə başlayır. Az keçmir ki, böyük qardaş Çəkməçi Məhəmməd adı ilə Qarabağın məşhur xanəndələrindən biri olur. O, uzun illər Məşədi Zeynal Bala Məlikov kimi virtuoz tarzənlərlə Qarabağ, Gəncə və Tiflis məclislərində istedadlı bir xanəndə kimi çalıb-çağırır. Şübhəsiz ki, Lətifin musiqi sənətinə dərindən yiyələnməsində böyük qardaşı Məhəmmədin də ciddi təsiri olmuşdur.

Kərbəlayı Lətif uzun illər Qarabağ məclislərində qardaşı Məhəmmədi, Malıbəyli Cümşüdü, Keçəçi oğlunu, Pəsxan Cəlili və Qəssab Abışı qarmonu ilə müşayiət etmiş, xalq arasında «Şirin barmaqlar» adı ilə şöhrət qazanmışdı.

1914-cü ildə bütün Qafqaz ölkəsində usta qarmonçalan kimi məşhur olan K. Lətif «Ekstrafon» aksioner cəmiyyəti tərəfindən Kiyev şəhərinə dəvət edilmişdir. O, burada «Şur», «Orta mahur», «Rast», «Bayatı-Qacar», «Çoban-bayatı»sı, «Segah» və s. muğamları, «Qızılgül», «Turacı», «Vağzalı» kimi bir çox oyun havasını qarmonda ifa edib vala yazdırmışdır.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Kərbəlayı Lətif Şuşada açılan musiqi məktəbində gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olmağa başlayır.

Qarmonçu Lətif 1922-ci ildə İran, İraq və Ərəbistan ölkələrinə səyahətə çıxır. O, klassik Şərq musiqisi ilə yaxından tanış olmaq imkanı əldə edir. O, xarici səfərdən öz doğma vətəninə qayıdandan sonra öz bilik və təcrübəsini xalqın xidmətinə vermişdir.Kərbəlayı Lətif Azərbaycanda, hətta Zaqafqaziyanın bir çox şəhər və kəndlərində klassik muğamları müvəffəqiyyətlə ifa edərək dinləyicilərin dərin rəğbətini qazanmışdı.

Kərbəlayı Lətif istedadlı bir musiqiçi kimi Şuşa, Ağdam, Bərdə dram teatrlarında uzun illər fəaliyyət göstərmiş, respublika olimpiadalarında dəfələrlə mükafata layiq görülmüşdür. O, 1935-ci ilin dekabr ayında Bakıda, Azərbaycan Şura Cümhuriyyətinin XV illiyi münasibəti ilə keçirilən 1-ci bədii özfəaliyyət olimpiadasında iki qarmonda «Bayatı-Qacar» və «Segah» muğamlarını məharətlə

çalaraq birinci yeri tutmuşdu. «Kommunist» qəzeti bu münasibətlə Lətif Əliyevin şəklini vermiş, onun haqqında səmimi sözlər yazmışdır.[210]

1939-cu ilin oktyabr ayında SSRİ Xalq Komissarları Soveti nəzdində olan İncəsənət İşləri İdarəsinin qərarına görə Moskvada xalq musiqi alətlərində çalanların Ümumittifaq baxışı keçirildi. Bu baxışda həm professional, həm də həvəskar musiqiçilər iştirak edirdilər. Kərbəlayı Lətif Ümumittifaq baxışında milli musiqi havalarını böyük ustalıqla ifa edib tərifnaməyə layiq görülmüşdü.

O, saysız-hesabsız el nəğmələrinin mahir bilicilərindən biri idi. Lətif istər milli oyun havalarını, istərsə də mahnılarını əzbərdən bilir, bunların hər birini ayrı-ayrılıqda məharətlə çalırdı. Təsadüfi deyildir ki, məşhur sovet bəstəkarı R. Qlier «Şahsənəm» operası üzərində işlərkən Qarabağa getmiş və orada Kərbəlayı Lətifin ifasında otuza yaxın el mahnısı nümunəsini öyrənmiş və yazıb götürmüşdür. Görkəmli bəstəkar Əfrasiyab Bədəlbəyli isə 1936-cı ildə «Qız qalası» baletini yazarkən, məşhur rəqqasə Qəmər Almaszadə ilə birlikdə Şuşa şəhərinə - Kərbəlayı Lətifin yanına gedir. Kərbəlayı Lətif onlara Şuşanın məşhur rəqqasələrinin oyun texnikası, milli oyun havaları haqqında ətraflı məlumat verir.

Kərbəlayı Lətif öz sənətinin vurğunu idi. Məhz ona görə də öz bilik və təcrübəsini heç kəsdən əsirgəməzdi. Bu sadə, xeyirxah və nəcib insan hər kimdə musiqiyə həvəs, meyl görürdüsə, ona qayğıkeş bir müəllim kimi kömək edər, öz sənətinin sirrini ondan əsirgəməzdi.

Ustad qarmonçu Kərbəlayı Lətif 1944-cü ilin dekabr ayının 6-da Bərdə şəhərində vəfat etmişdir.

## Segah İslam



AZƏRBAYCANIN xalq şairi Səməd Vurğun vaxtı ilə demişdir: «Mən İslama kamil oxuyan kimi baxıram. O, «Yetim segah»ı elə oxuyur ki, bütün məclisi əlinə alır. İslamın yaxşı cəhəti odur ki, onun «Segah»larında Azərbaycan ruhu daha çoxdur».

Doğrudan da belədir. İslam Abdullayev həqiqi sənətkar idi. O, Azərbaycan vokal sənətinin ən görkəmli nümayəndələrindən biri kimi tanınır.

İslam Əbdül oğlu Abdullayev 1876-cı ilin dekabrında Şuşa şəhərində anadan olmuşdur. O, ilk təhsilini də burada - şəhər məktəbində almışdır. Məktəb illəri İslamda musiqiyə coşğun həvəs oyatmışdır. Bunu atası Əbdül kişi hiss etsə də oğluna musiqi müəllimi tutmaq imkanı yox idi. Bir təsadüf İslamı musiqi aləminə gətirib çıxartdı. Sonralar İslam Abdullayev özü şair Nəvvabın «Xanəndələr

[210] Bax: «Kommunist» qəzeti, 29 dekabr 1935-ci il, № 293.

məclisi»nə dəvət olunmasını belə şərh edirdi: «Sərin yaz günlərinin birində atam evimizi təmir etdirirdi. Ustalar bütün işi qurtardıqdan sonra böyük, sal bir daşı ikinci mərtəbəyə qaldırıb pilləkənin başına qoymalı idilər. Üç usta, atam və mən nə qədər çalışdıqca, daşı yerindən qaldıra bilmədik. Vəziyyəti belə görən atam ustalardan birinə müraciətlə dedi:

- Ay Aleksan kirvə! Gəlin, bir qədər yorğunluğunuzu alın, sonar görək nə olur.

Ustalar tut ağacının kölgəliyində oturub çay içir, dincəlirdilər. Bu zaman atam məni çağırıb dedi:

- Bala, sən də bizim üçün bir-iki ağız de.

Mən pilləkəndə oturub «Qarabağ şikəstəsi» oxudum. Bir də nə görsəm yaxşıdı: darvazamızın ağzı adamla doludu. Camaatı görəndə utanaraq evə qaçdım. Həyətə yığışanlar atamdan xahiş etdilər ki, mən bir də oxuyum. Atam əlacsız qalıb dedi:

- Xahişinizi yerinə yetirərəm, bu şərtlə ki...

- Əbdül əmi, axı şərtin nədir?

Atam gülümsəyərək dedi:

- Bu daşı pilləkənin başına qaldırasınız.

Gənclər qollarını çırmayıb, ustaların köməyi ilə daşı lazım olan yerə qoydular. Atam məni yanına çağırıb mehribanlıqla dedi:

- İslam, çıx daşın üstə, camaat üçün bir şey oxu.

Mən o zaman təzəcə öyrəndiyim «Qarabağda bir dənəsən» mahnısını oxudum. Qurtaranda hamı məni alqışladı. Bir qoca kişi atama dedi:

- Ay Əbdül, elə deyirsən kasıbam. Bundan da böyük var-dövlət istəyirsən?»

Gənc İslamın məlahətli səsindən xəbər tutan şair Nəvvab onu «Xanəndələr məclisi»nə cəlb edir. İslam Abdullayev öz xatirəsində yazır ki, mən Nəvvabın məclisində ilk dəfə o dövrün məşhur xanəndələrindən Məşədi İsini, Hacı Hüsünü, Mirzə Muxtarı, Dəli İsmayılı, Keştazlı Həşimi dinləmişəm, onlardan dərs almışam. Mən həmin məclisdə Hacı Hüsüdən «Segah», Məşədi İsidən «Mahur», Keştazlı Həşimdən «Bayatı-Qacar», Mirzə Muxtardan «Rast», Dəli İsmayıldan «Rahab» və s. muğamları öyrəndim. Lakin özüm də bilmirəm, nədənsə bu muğamlar içərisində məni daha çox cəlb edən «Segah» muğamı idi. Rəhmətlik Sadıq tarını döşünə alan kimi mənim üçün «Segah» çalardı. Məni dinləyən usta Hacı Hüsü isə bu muğama yeni-yeni guşələr, xallar əlavə edib məndən onları təkrar etməyi tələb edərdi...

Gənc İslam belə bir mühitdə musiqi elminin incəliklərini öyrənir, məclislərdə xanəndə kimi tez-tez çıxış edirdi. Onun ilk müstəqil çıxışı görkəmli tarzən Sadıqcanın oğlu Əsədullanın toyunda olmuşdur. Toyun axırıncı gecəsində şair Nəvvab toyun «padşahı» Əllaf Kərbəlayı Şükürdən xahiş edir ki, İslamın «Segah» oxumasına icazə versin. Həmin gecə İslam tarzən Arsen Yaramışevin və kamançaçı Qostinin müşayiəti ilə «Segah» oxuyur. İslamın yanıqlı bir səslə, lirik

tonda «Segah» oxuması məclis əhlini, hətta orada iştirak edən musiqiçiləri heyran edir. Buradakı ilk çıxışdan sonra İslamın şöhrəti artır. O tez-tez Qarabağ, Gəncə, Şəki, Şirvan mahallarının el şənliklərinə dəvət edilir. Çox çəkmir ki, İslamın səsi İran məclislərindən gəlir. Gənc xanəndə İranın Rəşt şəhərində məclislərin birində Tehran xanəndələri Rübabə xanım, Sidqiyyə xanım və Qəmər Mülük xanım ilə yaxından tanış olur. İslamın həmin məclisdə tarzən Məşədi Zeynalın müşayiəti ilə oxuduğu muğamlar, xüsusilə «Segah» oxuması dinləyiciləri heyrətdə qoyur. İran sənətkarları İslamın yanıqlı səsinə və zəngin yaradıcılığına yüksək qiymət verir, ona heyran olduqlarını bildirirlər.

XX əsr Azərbaycan musiqi mədəniyyəti tarixində «Segah» muğamını İslam Abdullayev kimi mükəmməl və incə zövqlə oxuyan ikinci bir xanəndə olmamışdır. Seyid Şuşinski söyləyərdi ki, İslam olan məclisdə nə Cabbar, nə Ələsgər, nə Keçəçi Məhəmməd, nə də mən «Segah» oxumazdıq.

Həqiqətən belə idi. İslamın oxuduğu «Segah», xüsusilə «Yestim segah» nəinki Zaqafqaziyada, hətta bütün Yaxın Şərqdə məşhur idi. Məhz buna görə də, xalq onu «Segah İslam» adlandırmışdı.

İslam qəzəlləri səlis və çox aydın bir ləhcə ilə oxuyub dinləyicilərə çatdırması ilə də müasirlərindən fərqlənmişdir. İslamın yetmiş beş il bundan əvvəl qrammofon valına yazılmış «Yetim segah»ında şair Qumrinin «Keçər qürbətdə ömrüm ah ilə, bir həm-zəbanım yox» misrası ilə başlanan məşhur qəzəlinin sözləri çox aydın və təsirlidir.

İslamın ifaçıdıq qabiliyyətinə yüksək qiymət verən sevimli müğənnimiz Bülbül yazmışdır: «İslam fars qəzəli oxumaz idi. O, Azərbaycan şairlərinin qəzəllərini, Füzulini, Zakiri oxuyardı. İslam «Segah»ı o qədər gözəl oxuyardı ki, ona qulaq asdıqca adamın ürəyi titrəyirdi...».[211]

İslamın «Segah»ı gənc xanəndələr üçün məktəb olmuşdur. Təsadüfi deyildir ki, o zaman gənc xanəndələrdən Mahmud İmamqulu oğlu, Əsgər Qurbanov, Əli Cavad oğlu, Əbdürrəhman Fərəcov, Musa Şuşinski, Cəmil Məmmədov, Bülbül, Xan Şuşinski, sonralar isə Zülfü Adıgözəlov, Həşim Kələntərli, Sürəyya Qacar, Pəsxan Cəlil, Zeyniş Məşədi Səfər oğlu və başqaları «Segah» oxuyarkən, məhz İslam Abdullayevi təqlid edirdilər.

Məlumdur ki, «Segah» muğamı Yaxın Şərq ölkələrində, xüsusilə Azərbaycanda daha çox yayılmış və intişar tapmışdır. «Segah» muğamını xüsusi bir zövqlə oxumaqda Azərbaycan xanəndələri Şərq sənətkarlarını həmişə geridə buraxmışlar. Bu faktı İranın məşhur musiqişünaslarından Ruhulla Xaliqi, Əlinəqi Vəziri və başqaları da etiraf etmişlər.

---

[211] Bax: Bülbül. «Muğamat və xalq mahnıları haqqında (əlyazması). Azərbaycan SSR Mədəniyyət Nazirliyi, Memarlıq və İncəsənət İnstitutunun arxivi, qovluq № 41.

Azərbaycan xalqı «Segah» muğamını bütün muğamlardan daha çox sevir. Heç təsadüfi deyildir ki, bir sıra təsnif, mahnı və oyun havaları «Segah» muğamı üstündə qurulmuşdur. «Segah» muğamı xalq arasında geniş yayılmış, müğənnilər tərəfindən sevilə-sevilə oxunmuşdur.

1901 - 1905-ci illərdə İslam Abdullayev tarzən Qurban Pirimovla birlikdə Qarabağ, Gəncə məclislərində çıxış etmişdir. Qurban Pirimov deyirdi ki, Mən birinci dəfə məclisdə İslamla çıxış etmişəm. İslamın «Segah»ına söz ola bilməz. O, «Yetim segah»ı oxuyanda elə bil dağı-daşı dilə gətirirdi.

İslam bütün muğamları, xüsusilə minor ruhlu muğamları həddindən artıq gözəl oxumuşdur. Şübhəsiz ki, «Segah» «Mahur», «Çahargah», «Şüştər» muğamlarına nisbətən yüngül, həm də sadə muğamdır. Lakin bununla belə «Segah»ı olduğu kimi ifa etmək bu muğamlara nisbətən bir qədər çətindir. Ona görə də hər xanəndə «Segah» oxuya bilməz. Bu muğam xanəndədən son dərəcə məharət, ustalıq tələb edir. «Segah» oxuyan xanəndənin səsində tembr gözəlliyindən başqa məlahətlilik, həyatilik, emosiya və texniki cəhətlər güclü olmalıdır. Həm də xanəndə guşəxanlıqda usta olmaqla incə xallar, yanıqlı nəfəslər, qəşəng xırdalıqlar vurmağı bacarmalıdır. «Segah» oxuyan müğənni bülbül kimi cəh-cəh vurub dinləyicini heyran etməlidir. «Segah» oxuyan xanəndədə səs gözəlliyindən başqa istedadın olması da şərtdir. Əgər xanəndə istedadlıdırsa, Bülbül demişkən, muğamın melodik xüsusiyyətlərini düzgün duyursa, şerin məzmununa dərin nüfuz edirsə, onun ifası da təbii və səmimi olar. Dərhal qəlblərə hakim kəsilər.

Bütün bu keyfiyyətlərin hamısı İslamın istər səsində, istərsə də ifaçılıq məharətində cəmləşmişdi. Məhz buna görə də o, «Segah»ı bütün xanəndələrdən daha şirin, rəvan və daha təsirli oxuyurdu.

Bir də «Segah» başqa muğamlara nisbətən dinləyicidə eşq, sevgi və məhəbbət duyğusunu daha güclü oyadır. Buna görə də xanəndə «Segah»ı (xüsusilə «Yetim segah»ı) son dərəcə yanıqlı, nisgilli və həzin oxumalıdır. Şübhəsiz ki, «Segah» üçün hər qəzəl yaramır. Xanəndənin seçdiyi qəzəllərin əksəriyyəti intim-lirik mahiyyətli, son dərəcə kədərli sözlərdən ibarət olmalıdır. Məsələ bununla bitmir. Qəzəli dinləyiciyə düzgün çatdırmaq üçün xanəndədə mütləq aydın diksiya olmalıdır. Məhz İslamın bir üstünlüyü də oxuduğu, qəzəllərin hər misrasını, hər kəlməsini aydın və səlis tərzdə tələffüz etməsində idi.

Məlumdur ki, bizim muğam musiqisində üç «Segah» növü məşhurdur. Bunlar: «Zabul-segah»ı və yaxud «Orta segah», «Mirzə Hüseyn segahı», bir də «Yetim segah»dı (bəzən buna «Xaric segah» da deyirlər). İslam Abdullayev bu segahların üçünü də özünəməxsus fərdi ustalıqla oxumuşdur. Bir segah ustası kimi İslamın oxuduğu «Yetim segah» daha məşhurdur. Onu da demək istərdim ki, «Yetim segah»ın kədərli səslənməsinin bir səbəbi də bu muğam üçün seçilən qəzəllərin mətninin bədbin və qüssəli olmasıdır. Şübhəsiz ki, burada «Segah»ın

qəmli səslənməsi xanəndənin həm səs tembrindən, həm də ifaçılıq manerasından çox asılıdır. «Yetim segah»ı oxuyan xanəndənin səsi son dərəcə məlahətli olmaqla, eyni zamanda həddindən artıq yumşaq və həzin olmalıdır. Məhz belə bir səs keyfiyyətləri olan İslam özünəməxsus qəşəng xallar, nisgilli nəfəslər və incə xırdalıqlarla «Yetim segah»ına melodik bəzəklər vurur, muğamın daha şirin, daha kədərli və həzin səslənməsinə nail olurdu. Buna görə də dinləyicilər onun segahından doymazdılar.

İslamın oxuduğu segahlar dinləyiciləri elə ovsunlardı ki, onlar İslam olmayan məclislərdə xanəndələrdən məhz İslamın oxuduğu «Segah»ı təkrar etməyi tələb edirdilər.

Seyid Şuşinski xatirələrində belə bir maraqlı əhvalat söyləyir: «Bir gün mən Ağdaşda toy məclisində olarkən məndən «Segah» oxumağı xahiş etdilər. Mən camaatın xahişini yerinə yetirərək «Mirzə Hüseyn segah»ı oxudum. Mən «Segah»ı oxuyub qurtaran kimi dinləyicilərdən biri mənə müraciət etdi:

- Ağa, biz «Segah» istəyirik.

Mən belə güman etdim ki, o, «Zabul Segah»ı oxumağımı istəyir. Mən onu da oxudum. Lakin gördüm ki, tamaşaçılar yenə razı qalmadılar. Vəziyyəti belə görən tarzən Rzabala mənə dedi:

- Ağa, yəqin bunlar «Yetim Segah»ı istəyirlər.

Mən:

- Neynək onda tarı köklə.

Mən «Yetim Segah»ı da oxuyub başa vuranda məclisdə əyləşən bir ağsaqqal dilləndi:

- Ağa, sən nə cür «Segah» oxuyursan ki, orada «Keçər qürbətdə ömrüm ah ilə, bir həmzəbanım yox» sözlərini eşitmirik?

Mən həmin dəqiqə dərk etdim ki, məclis hamılıqla İslamın «Segah»ını oxumağımı istəyir. Təzədən «Yetim Segah»ı başladım və İslamın həmişə oxuduğu şair Qumrinin məşhur qəzəllərindən istifadə etdim... Məclisi görünməyən alqış və razılıq sədaları bürüdü... Onda mənə aydın oldu ki, nə təhər deyərlər: «Qara qızın dərdi var imiş», yəni tamaşaçıların dərdi adicə «Segah» yox, məhz İslamın «Segah»ını dinləmək dərdi imiş...»

İslamın «Segah sərgüzəştləri» çoxdur. Bütün bunlar onun nəticəsi idi ki, İslamın oxuduğu «Segah» xalqa daha yaxın, onun ürəyinə yol tapan, onun kədərinə də, sevincinə də şərik olan, bir sözlə, xalqın ruhunu oxşayan «Segah» idi. Xalq da həmişə İslamın «Segah»ını dinləməyi tələb edirdi... Bu tələb isə haqlı tələb idi.

İslam «Segah»ı bir neçə formada - özü də təkrara yol vermədən oxumuşdur. Bunu sübut etmək üçün bizim əlimizdə İslamın 70-75 il bundan əvvəl qrammofon vallarına oxuduğu segahların yazısı vardır. Bu segahları səsləndirdikdə, diqqətlə dinləyib melodik xüsusiyyətlərini təhlil etdikdə, istər quruluş, istərsə xaraktercə bir-birinə bənzəməyib xeyli fərqləndiyini görmək olar.

Bu segahların hamısı üslub və ifadə etibarı ilə bir təməl üzərində, yəni Qarabağ vokal məktəbinin təməli üzərində qurulmuşdur. Bu isə təsadüfi deyildir. Çünki «Segah» oxumaqda Qarabağ xanəndələri öz məharət və ustalıqları cəhətdən seçilmişlər. Əbəs yerə deməyiblər: «Segah»ı oxuyan qarabağlı olmalıdır».

1905-ci ilin axırlarında Cabbar Qaryağdı oğlu Gəncəyə toy məclisinə dəvət olunur. Böyük sənətkarın buraya gəlməsi musiqi həvəskarlarını sevindirir. Cabbar Qaryağdı oğlunun zəngin səsini eşitmək üçün həmin toya başqa sənətkarlarla birlikdə gənc tarzən Qurban və İslam da gəlmişdilər. Məşhur xanəndə bir neçə muğam və təsnif oxuduqdan sonra İslamın «Segah» oxumasını xahiş edir. Sonralar İslam Abdullayev bu əhvalatı belə nəql edirdi: «Mən Cabbarın xahişini eşidəndə elə bil bütün aləmi mənə bağışladılar. Mən sevincimdən, həm də həyəcanımdan bilmirdim nə edəm. Gözəl insan və qayğıkeş bir müəllim olan Cabbarın qarşısında oxumaq mənim üçün böyük bir imtahan idi. Mən Qurbanın qulağına pıçıldadım:

- Ə, Gülablı balası, özünü yığışdır ha... Gör kimin qarşısında çalırsan.

Doğrudan da, Qurban bir qədər özünü itirmişdi. Mən «Segah»ı oxuyub qurtarandan sonra Cabbar Qurbanın çalmağını tərifləyib, axırda mənə dedi:

- Eloğlu, gəlsənə, Qurban bugündən mənimlə çıxış etsin. Mən Cabbarın xahişini yerə salmadım. Beş il yoldaşlıq etdiyim Qurbandan ayrıldım».

Bu hadisədən sonra İslam Abdullayev uzun illər məşhur tarzənlərdən Məşədi Zeynal, Məşədi Cəmil Əmirovla, sonralar isə Şirin Axundov, Tatevos Arutunyan, kamançaçı Moses və Levon Qaraxanovla birlikdə çalıb-oxumuşdur.

1910-1915-ci illərdə «Sport-Rekord» və «Ekstrafon», «Primer-Rekord» aksioner cəmiyyətlərinin dəvəti ilə İslam Abdullayev öz səsini qrammofon valına yazdırır. O, «Yetim Segah», «Bayatı-Kürd», «Kürdü-Şahnaz», «Bayatı-Qacar», «Şüştər», «Mahur-hindi», «Şikəsteyi-fars», «Çalpapaq», «Səttarxan», «Süsən sünbül», «Axşam oldu», «Yeri, dam üstə yeri», «Hər nə oldu, mənə oldu» və sair muğam, təsnif və el mahnılarını son dərəcə orijinal, lirik tonla oxumuşdur.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra İslam Abdullayev geniş zəhmətkeş kütlələrinə daha yaxından xidmət etmək imkanı qazanır. O, ayrı-ayrı rayonlarda aparılan təbliqat işlərində fəal çalışır, əhali qarşısında tez-tez konsertlər verir.

İstedadlı xanəndə uzun illər Azərbaycan Dövlət Estradasının səlisti olur. O, eyni zamanda Şuşa, Ağdam musiqi məktəblərində muğamatdan dərs deyərək, gənc müğənnilərin yetişməsinə böyük qayğı göstərir. Bu gün onun yetişdirmələrindən Mahmud İmamqulu oğlunun, Xan Şuşinskinin, Qənbər Zülalovun, Sahib Şükürovun, İldırım Həsənovun, Yaqub Məmmodovun adlarını böyük iftixar hissilə çəkirik.

Azərbaycan xalqının milli mədəniyyəti sahəsində uzun müddət fəaliyyət göstərən İslam Abdullayev Azərbaysan SSR əməkdar artisti kimi şərəfli ada layiq görülmüş, bir neçə medalla təltif olunmuşdur.

İstedadlı sənətkar İslam Abdullayev 1964-cü ildə 88 yaşında Bakıda vəfat etmişdir.

## Hüseynqulu Sarabski



AZƏRBAYCAN musiqi mədəniyyətinin görkəmli nümayəndələri cərgəsində özünə layiqli yer tutan istedadlardan biri olan Hüseynqulu Sarabski səhnəmizin tarixində gözəl aktyor, rejissor və eyni zamanda mahir bir müğənni kimi fəxri yer tutur. O, özünün parlaq istedadı və vokal sənəti ilə xalqın dərin hörmətini qazanmışdır.

Hüseynqulu Məlik oğlu Sarabski 1879-cu ildə Bakıda anadan olmuşdur. O, iki yaşında ikən atasını itirmiş, çox acınacaqlı və ağır həyat keçirərək, kiçik yaşlarından ağır işlərdə çalışmağa məcbur olmuşdur. Balaca Hüseynqulu əvvəllər papaqçı şagirdi, sonralar isə daşyonan, palçıq daşıyan və nəhayət su satmaqla məşğul olmuşdur. Onun pulu olmadığından mədrəsədə cəmi il yarım oxuya bilmişdir. Lakin bu qısa müddətdə yazıb-oxumağı öyrənmişdi. Əsrimizin əvvəllərində başqa müğənnilər kimi Sarabski də bir müddət şəbihgərdanlıq etmişdir. Onun məlahətli səsini eşidən mollalar məscidə çağırıb məhərrəmlik mərasimində ona dini havalar oxudardılar. Gənclik illərini xatırlayan Sarabski sonralar yazırdı:

«...Mənim oxumağa o qədər həvəsim var idi ki, həm mərsiyə deyər, həm də minacat çəkərdim.

Məhərrəmlik qurtarıb məscidlər bağlandıqdan sonra gedib oxuyan-çalana qulaq asıb çoxlu el mahnıları və muğamat öyrəndim. Bakıda o vaxtlar çox çayçı və dəllək dükanları var idi. Bekar adamlar, cahil uşaqlar işsizlikdən dəllək dükanına, çayxanaya yığışardılar. Gecələr fincan oynar, çalıb-oxuyardılar Mənim də oxumağa həvəsim olduğundan gedib onlara qoşular, onlar üçün oxuyardım. Bakıda toylarda, qonaqlıqlarda, aşıq və dərviş oxutmaq bir adət idi. Mən də harada aş, orada baş idim».[212]

Hüseynqulunun gənclik illəri Bakıda kapitalizmin dirçəliş dövrünə təsadüf edir. O, köhnə Bakının avam və mürtəce mühitində böyüməsinə baxmayaraq hələ gənc çağlarından oxumaq, təhsilini davam etdirmək istəyirdi.

O vaxtlar Bakı milyoneri Hacı Zeynalabdın Tağıyev Balaxanski (indiki Basin) küçəsində gecə kursu açmışdı. Burada Bədəlbəy Bədəlbəyəv, Həbibbəy Mahmudbəyov və Şükürbəy Əfəndiyev kimi qabaqcıl xalq müəllimləri dərs verirdilər. On səkkiz yaşlı Hüseynqulu da həmin kursda oxuyaraq, özünü çalışqan

[212] Bax: H. Sarabski. Bir aktyorun xatirələri, Azərnəşr, Bakı, 1930, səh. 21-22.

bir tələbə kimi göstərmişdi. Sarabski hələ tələbə olarkən dərk edirdi ki, xalqı ayıltmaq, onu avamlıqdan və cəhalətdən qurtarmaq üçün onunla teatr, yalnız teatr vasitəsilə danışmaq lazımdır. Lakin burasını da demək lazımdır ki, o dövrdə teatr oynamaq çox çətin idi. Mürtəce qüvvələr tərəqqipərvər ziyalıların hər cür mədəni-maarif tədbirlərinə qarşı müqavimət göstərirdilər. Lakin bu çətinliklərə baxmayaraq hələ keçən əsrin axırıncı illərində Bakıda yerli ziyalılar ayda-ildə bir-iki dəfə güc-bəla ilə teatr tamaşaları göstərirdilər. O dövrdə milli səhnədə H. Zərdabi, N. Nərimanov, N. Vəzirov, Ə. Haqverdiyev, M. Muxtar, S. M. Qəniyev, S. Zeynalov, B. Bədəlbəyli, H. Mahmudbəyov, M, Muradov, Alma xanım Safrazyan, Abelyan kimi teatr həvəskarları fəaliyyət göstərirdilər.

Azərbaycan xalqının böyük oğlu Nəriman Nərimanov ictimai, siyasi və pedaqoji fəaliyyətilə yanaşı teatr sənətinin də inkişafı üçün böyük əmək sərf edirdi. O, hələ 1891-ci ildə Bakıda teatr tamaşaları göstərmək üçün «həvəskarlar dərnəyi» təşkil etmişdi. Gənc Hüseynqulu ilk dəfə «Xan Sərabı»[213] adlı tamaşaya baxır. Tamaşa ona böyük təsir bağışladığından 1902-ci ildə həmin dərnəyə qəbul olunur. Şübhəsiz ki, N. Nərimanov Hüseynqulunu məlahətli səsinə görə dərnəyə cəlb etmişdi. Lakin göstərilən teatr tamaşalarında Hüseynqulu özünü bir müğənni kimi göstərə bilmirdi. Amma buna baxmayaraq o, bir çox tamaşalarda müxtəlif rollarda çıxış edərək getdikcə səhnəyə alışırdı. Hüseynqulu ilk dəfə 1902-ci ildə N. Nərimanovun «Dilin bəlası» komediyasında Rəsul rolunda çıxış etmişdi.

Biz kitabın əvvəllərində Mirzə Muxtardan bəhs edəndə qeyd etdik ki, XIX əsrin axırlarında teatr tamaşaları göstərmək, artistlik etmək hər adamın işi deyildi. Şuşada olduğu kimi, Bakıda da dindarlar, cəhalətpərəstlər səhnədə çıxış edənlərə gəc baxaraq onları «hoqqabaz», «oyunbaz», «bığsız arsız» adlandırıb lağa qoyur, üstəlik tədib belə edirdilər. Hüseynqulu da Mirzə Muxtar kimi ruhanilər, avam qohum-əqraba tərəfindən hədə-qorxuya məruz qalmışdı. O, bütün təhqir və iftiralara dözüb, dərdini N. Nərimanova deyərək dərnəyi tərk etmək istərkən böyük ədib ona demişdir: «Bizim teatrımız belə qalmayacaq, bizim səhnəmiz yüksələcəkdir. Bir gün gələcək ki, səni vurub, döyüb-söyən camaat səni alqışlayacaq. Buna inan və məsləkində möhkəm dur».

Şübhəsiz ki, H. Sarabskinin bir aktyor kimi püxtələşməsində N. Nərimanovun böyük rolu olmuşdur. O, gənc aktyorun məlahətli səsini və səhnəyə sonsuz həvəsini nəzərə alıb daim ona diqqət yetirmiş, mənəvi arxa olmuşdur.

H. Sarabski səhnədə təkcə aktyor deyil, eyni zamanda bir dramaturq kimi də qələmini sınamışdır. O, N. Vəzirov, Ə. Haqverdiyev, S. S. Axundov və N. Nərimanov kimi görkəmli ədib və dramaturqlarla yaxından dostluq edib və onların təsiri altında hələ 1906-cı ildə «Axtaran tapar», «Səhalət», «Nə doğrarsan aşına, o da çıxar qaşığına» adlı üç dram əsəri yazmışdır. Bu pyeslər bir müddət teatr səhnələrində tez-tez oynanılırdı. H. Sarabski bu pyeslərində dövrün mənəvi

[213] M. F. Axundovun «Sərgüzəşti-vəziri-xani-Lənkəran» komediyasının ilk adı – red.

qüsurlarını, ədalətsizliyi, nadanlığı, Bakı qoçularının vəhşiliyini, bir sözlə, köhnə cəmiyyətin eybəcərliyini tənqid atəşinə tutmuşdu.

Lakin mürtəce qüvvələr tərəqqipərvər ziyalıların hər cür mədəni tədbirlərinə qarşı müqavimət göstərərək ayda bir-iki dəfə oynanılan tamaşaların qarşısını almaq üçün təzyiq göstərir, artistləri hədələyir, hər vasitə ilə əngəl törədirdilər. H. Sarabski sonralar xatırlayırdı: «...Millətin ziyalıları teatr tamaşası vermək üçün çox çətinliklər qarşısında qalırdılar. Belə ki, repertuar yox, artist yox, aktrisa yox, səhnə yox, teatr belə yox, amma düşmən çox.

Bir tərəfdən mollalar, bir tərəfdən çar hökuməti, bir tərəfdən də beli tapançalı müsəlmanlar. Bir tamaşa vermək üçün bizim üstümüzdə üç senzura vardı: hökumət, sonra mollalar və bir də qoçular. Mən zəhmət və məşəqqətlə onlardan icazə aldıqdan sonra tamaşa vermək üçün səhnə axtarırdıq».[214]

Bütün bu məhrumiyyət və çətinliklərə baxmayaraq sənət adamları, xüsusilə dərnək həvəskarları yeni tamaşalar göstərməyə müvəffəq olurdular. Onlar nəinki, Bakıda, hətta Lənkəran, Dərbənd və başqa şəhərlərdə də tamaşalar göstərirdilər.

Hüseynqulu Sarabskinin opera səhnəsinə qədəm qoymağının maraqlı bir tarixçəsi vardır. 1907-ci ildə həvəskarlar Henrix Heynenin «Əlmənsur» tamaşasını göstərirdilər. Bu tamaşada ərəb rolunu oynayan H. Sarabski axırıncı pərdədə «Hicaz» oxuyur.

O zaman tamaşa zalında əyləşən gənc müəllim Üzeyirbəy Hacıbəyov H. Sarabskinin lirik-tenor səsi və muğamı incə bir tonda məharətlə oxumasından çox xoşlanır. Tamaşadan iki gün sonra Üzeyirbəy Hüseynqulu ilə tanış olur. H. Sarabski bu tanışlığı belə xatırlayır: «Bir gün Qubernski (indiki Nizami) küçədə, «Nicat» cəmiyyətinə getdiyim yerdə Üzeyirbəy mənə rast gəldi və dedi: «Nə gözəl «Hicaz» oxudun, çox xoşuma gəldi. Mən bir «Leyli və Məcnun operası başlamışam». Dedim: «Oynaram». O vaxtlar Üzeyirbəy sabiq «İslamiyyə» otelində yaşardı. Adresini mənə verib dedi: «İki gündən sonra yanıma gələrsən». İki gün sonra getdim. Yazdığı əsərin havalarından mənə oxutdurdu. Mən də çox asanlıqla oxudum. Üzeyir daha da həvəsləşdi. Ondan sonra hər gün onun yanına gedir. Məcnun roluna hazırlaşırdım».[215]

Məcnun rolunu oynamağa hazırlaşan Hüseynqulu Sarabski tez-tez Üzeyirbəylə görüşür, onun yaradıcılıq göstərişlərinə və məsləhətlərinə diqqətlə qulaq asırdı. Nəhayət, bir çox maneə və çətinliklərdən sonra «Leyli və Məcnun» operası 1908-ci il yanvarın 12-də tamaşaya qoyuldu. İlk tamaşanın rejissoru Hüseyn Ərəblinski, dirijoru Əbdürrəhimbəy Haqverdiyev idi. Üzeyirbəyin özü orkestrdə skripka çalırdı. Qur ban Pirimov isə sədəfli tarı ilə tamaşanı müşayiət edirdi.

[214] H. Sarabski. Göstərilən xatirələri, səh. 47.
[215] Bax: H. Sarabski. Xatirələri, səh. 53-54.



İlk opera tamaşası haqqında xəbər hələ xeyli qabaq hər yana yayılmışdı. Operaya bir çox şəhərlərdən teleqraf vasitəsilə bilet üçün sifariş verirdilər. Hətta Tiflis, İrəvan, Şamaxı, Gəncə və digər şəhərlərdən dəstə-dəstə tamaşaçılar Bakıya gəlmişdilər. «Leyli və Məcnun» operasının ilk tamaşasını Sarabski belə xatırlayır: «Axşam teatra gələndə gördüm qapının qabağında o qədər adam var ki, içəri keçmək mümkün deyil. Dal qapıya keçdim, gördüm ora bundan bədtəhərdir. O gecə binanın dörd tərəfi camaatla dolu idi. Teatr qapılarında və foyedə səs-küydən qulaq tutulurdu. Biletlər saat 4-də qurtardığına görə camaat biletsiz içəri dolmuşdu».[216]

«Leyli və Məcnun» operasının ilk tamaşası böyük müvəffəqiyyətlə keçmişdi. Ağzına qədər dolu olan salon qarşısında Məcnun rolunu oynayan H. Sarabski və başqa ifaçılar elə məharət göstərmişdilər ki, tamaşaçılar arası kəsilməyən alqışlarla onları səhnənin qabağına çağırırdılar. Tamaşaçılar bir ağızdan «Məcnun» deyib H. Sarabskini səhnədən buraxmaq istəmirdilər. İlk tamaşanın suflyoru Ə. Rzayev «Teatr və Ərəblinski» adlı xatirəsində yazır ki, xor «Şəbu-hicran»ı oxuyub qurtarandan sonra pərdə düşəndə zaldan gurultulu alqış qopdu. Pərdə dübarə qalxanda Məcnun - H. Sarabski «Mahur-hindi» muğamı üstündə Məhəmməd Füzulinin «Yandı canım hicr ilə vəsli-ruxi yar istərəm» qəzəlini elə məharətlə oxudu ki, mən suflyor budkasında özümü unutmuşdum. Opera gözlənilməz müvəffəqiyyət qazandı.

Həqiqətən Məcnun rolunu böyük məharətlə oynayan və gözəl oxuyan H. Sarabski hamını heyran etmişdi. O, son dərəcə təsirli, yüksək temperamentli oyunu ilə Məcnun surətinin daxili aləmini, ruhi sarsıntılarını olduqca təbii göstərir, nakam məhəbbətli bir gəncin faciəsini tamaşaçılara ustalıqla çatdırırdı. Vokal sahətinə gəldikdə o, bir mahir xanəndə kimi muğamı Məcnunun ürək çırpıntıları, hiss və həyəcanları ilə üzvi surətdə bağlaya bilirdi.

H. Sarabski Məcnun rolu ilə opera tariximizdə özünə fəxri yer tutmuşdur. «Leyli və Məcnun» operasının ilk tamaşasından sonra H. Sarabskinin şöhrəti hər yana yayıldı. Onun adı dillər əzbəri oldu: onu görənlər ayaq saxlayıb «Məcnun-Məcnun» deyə onu bir-birinə göstərirdilər. Vaxtı ilə onu barmaqla hədələyən camaat indi artıq H. Sarabskini hörmət və məhəbbətlə qarşılayırdı.

O zaman Bakı dövri mətbuatında «Leyli və Məcnun» operasının təntənəli keçməsi haqqında, xüsusilə Məcnun rolunu şövq və ilhamla oynayan, məlahətli səsi ilə ürəkləri məftun edən Sarabski haqqında təqdiredici rəylər yazılmışdı.[217] Şübhəsiz ki, Sarabski haqqında yazılan rəylər içərisində ən qiymətlisi operanın

---

[216] Yenə orada, səh. 55.

[217] Bax: Qəzetlər: «Tərəqqi», 1908, 5 yanvar, № 4, «İrşad», 1908, 4 və 15 yanvar: № 6 № 7, «Kaspi», 1908, 9, 10 və 12 yanvar, № 7, 8, 10, «Baku» 1909, 4 yanvar, № 3.

yaradıcısı Üzeyirbəyin böyük sənətkarın Məcnun roluna, ümumiyyətlə onun sənətinə verdiyi qiymətdir.

Üzeyir Hacıbəyov öz dostunun məzarı başında çıxış edərkən demişdir: «...Aktyorluq dərsi oxumamış, obraz yaratmaq sənətini keçməmiş, məktəb və darülfünun bitirməmiş olan Hüseynqulu Sarabski olduqca çətin və mürəkkəb bir faciə təmsil edən Məcnun obrazını yaratmaq sahəsində öz-özündən elə bir məharət göstərdi ki, sair artistlər üçün bir nümunə, tam bir məktəb oldu».

İlk Azərbaycan operasının yaradılmasında Ü. Hacıbəyova H. Sarabskidən başqa məşhur artist-müğənni Mirzə Muxtarın da qayğısı olmuşdur. O, bir mahir muğam ustası, həm də klassik ədəbiyyata, xüsusilə Füzuli lirikasına dərindən bələd bir sənətkar kimi, böyük bəstəkarın yaratdığı operaların məsləhətçisi olmuş, eyni zamanda ilk tamaşadan Məcnunun atası rolunu misilsiz surətdə ifa etmişdir. Burada Əhmədbəy Ağdamskinin (Bədəlbəylinin) də xidmətlərinə göz yummaq olmaz. Məlumdur ki, «Leyli və Məcnun» operasının" ilk tamaşasında Leylinin rolunu çayçı şagirdi Əbdürrəhim Fərəcov oynamışdır. Lakin Leylinin ən gözəl ifaçısı Əhmədbəy Ağdamski olmuşdur. Sarabskinin Məcnunu kimi, Ağdamskinin də Leyli; obrazı dövri mətbuatın diqqət mərkəzində olmuşdur. «İqbal» qəzeti yazırdı: «Ağdamski cənabları bu gün qəribə bir məharət göstərirdi.. Ağdamski cənablarının övrət və o dərəcə rolunu yüngüllüklə aparması təqdirəlayiqdir».[218]

«Sovqat» qəzetində yazılan məqalədə isə deyilirdi: «Leyli rolunda Ağdamski də Məcnuna layiq bir məşuqə kimi, ələlxüsus Məcnunun eşqi yolunda etmək xeyri üçün əlləri ilə çap çəkişdirərkən göstərdiyi halət Şayan-təqdirdir».[219]

«Leyli və Məcnun» operasının ilk tamaşasının müvəffəqiyyətlə keçməsinin bir neçə səbəbi vardı. Əvvəla, o gün (12 yanvar 1908-ci il) milli opera sənətinin təməli qoyulmuşdu. İkincisi, operanın bütün melodiyaları musiqimizin bünövrəsi, xalqa ən yaxın olan klassik muğam və təsniflərdən ibarət olması, üçüncüsü isə tamaşada füsunkar Üzeyir musiqisinin və ölməz Füzuli şerinin əzəmətini, vəhdətini və təsir gücünü qat-qat artıran Sarabskinin müğənnilik məharəti idi. Elə ilk tamaşadan sonra o, haqlı olaraq «Səhnəmizin Məcnunu» adına layiq görülmüşdü. Yeri gəlmişkən, elə buradaca bir haşiyə çıxmaq istərdim. Bəzi müəlliflər H. Sarabskini «Səhnəmizin ilk Məcnunu» adlandırırlar. Məncə məsələnin bu cür qoyuluşu bir o qədər də düzgün deyildir. Lakin xatırladım ki, biz, heç də H. Sarabskinin opera teatrımızın tarixində oynadığı mühüm rolu inkar etmək fikrində deyilik. H. Sarabski Azərbaycan opera sənətinin yaradıcılarından biridir. Onu da yaxşı bilirik ki, H. Sarabski Ü. Hacıboyovla birlikdə milli opera sənətimizin beşiyi başında durmuş və operamızın «boya-başa» çatmasında misilsiz xidmətləri olmuşdur. Məhz buna görə də biz onu opera teatrımızın ilk qaranquşlarından biri adlandırsaq, heç də səhv etmiş olmarıq.

[218] Bax: «İqbal» qəzeti, 1908-ci il, № 64, səh. 3.
[219] Bax: «Sovqat» qəzeti. 1908-ci il, № 92, səh. 4.

Lakin burasını da inkar etmək olmaz ki, hələ H. Sarabskidən 11 il qabaq, yəni 1897-ci ildə Şuşada «Xandəmirovun teatrı»nda qoyulan «Məcnun Leylinin qəbri üstündə» adlı musiqili səhnəcikdə məşhur-müğənnimiz Cabbar Qaryağdı oğlu Məcnun rolunda böyük müvəffəqiyyətlə çıxış etmişdir. Həmin tamaşada on üç yaşlı Üzeyir Hacıbəyovun özü belə tamaşanın əvvəlində, xorun tərkibində «Şəbi-hicran» mahnısını oxumuşdur. Bu ilk tamaşanın quruluşçu rejissoru Əbdürrəhimbəy Haqverdiyev, musiqi tərtibatçısı isə məşhur tarzən Sadıqcan olmuşdur. Həmin bir pərdəli musiqili səhnəcik 1902-ci ildə Bakıda verilən «Şərq konserti»ndə təkrar olunmuş və tamaşaçılara böyük təsir bağışlamışdı. Həmin konsertdə bir tamaşaçı kimi iştirak edən H. Sarabski Qaryağdı oğlu Cabbarın Məcnun rolunda çıxışına maraqla tamaşa etmiş, hətta öz xatirələrində bu tamaşanın, ümumiyyətlə konsertin təntənə ilə keçdiyini belə qeyd etmişdir. Bu konsert-tamaşa Bakının musiqi həyatında əlamətdar bir hadisə olduğundan o dövrün qəzetləri konsert haqqında, xüsusilə Cabbarın Məcnun rolunu oynaması haqqında yaxşı rəylər dərs etmişlər. Məgər bu ilk musiqili tamaşanı milli operanın əlamətləri adlandırmaq olmazmı?! Əgər bir pərdəlik tamaşanı milli operanın ilk təməli kimi qəbul etsək, onda operamızın tarixini 11 il geriyə, 1897-ci ilə çəkmək olar. Beləliklə Cabbar Qaryağdı oğlunu ilk Məcnun obrazının yaradıcısı adlandırmaq mümkündür. Mən öz fikirlərimi bir kimsəyə təhrik etmək niyyətində deyiləm, ancaq istərdim ki, opera tariximizlə məşğul olan mütəxəssislər məni düzgün başa düşsün. Bundan əlavə, operamızın təşəkkülü tarixini 1897-ci ildən başlamaq fikrini irəli sürməklə, böyük Üzeyirbəyin opera teatrımızın banisi kimi ölməz tarixi xidmətlərini inkar etmək deyil, opera teatrımızın tarixini dəqiqləşdirməkdir.

Nədənsə, dram teatrının meydana gəlməsi tarixi də dəqiqləşdirilməmişdir. Teatrımızın tarixini 1873-cü ildən başlayan teatrşünaslar unudurlar ki, Azərbaycanda ilk teatr tamaşası 1848-ci ildə Şuşada, sonra isə 1859-cu ildə Şamaxı şəhərində göstərilmiş, hətta bu barədə «Qafqaz» qəzetində məlumat verilmişdir. Bu barədə vaxtı ilə görkəmli teatrşünas alim Səfər Səfərovla danışarkən, o da Şamaxıda 1859-cu ildə teatr tamaşasının olmasını təsdiqlədi və dedi ki, hələlik əlimizdə o illərin afişası yoxdur.

Zənnimcə, hələlik əlimizdə teatrın afişa və proqramı olmasa da, milli teatrın tarixini ya 1848-dən, ya da 1859-cu ildən başlamaq düzgün olardı. S. Səfərovun bu fikiri ilə bir də ona görə razılaşmaq olmaz ki, o dövrdə mətbəə olmadığına görə afişa və proqram çap edilməmişdi.

Görkəmli sənətkar Mirzə Muxtarın xatirələrindən də məlum olur ki, hələ o, 1870-ci ildə Şuşada «Hacı Qara» tamaşasını qoyarkən mətbəə olmadığından 30 afişanı əl ilə yazıb küçələrə yapışdırmışdı. Bunlardan əlavə, məgər biz istər operamızın, istərsə də dram teatrımızın tarixini şəbihgərdanlığın meydana çıxması

ilə başlaya bilmərikmi?! Hətta, teatr tarixini erməni və gürcü teatrlarının tarixi kimi, daha qədimdən müəyyənləşdirmək olar.

* * *

Hüseynqulu Sarabski ömrünün 40 ilini teatr sənətinə həsr etmişdir. O, bu illər ərzində obrazlar silsiləsi yaratmaqla Azərbaycan teatr səhnəsinin xəzinəsini zənginləşdirmişdir. Opera sənətinin fədailərindən biri olan H. Sarabski təkrarolunmaz məharətlə yaratdığı Məcnun obrazından sonra Azərbaycan musiqili teatrının bütün sonrakı tamaşalarında Şeyx Sənan, Şah Abbas, Söhrab, Kərəm, Aşıq Qərib, Şah İsmayıl, Mərcan bəy, Sərvər, Əsgər kimi baş qəhrəmanların maraqlı obrazlarını yaratmışdır.

H. Sarabski opera tamaşaları ilə yanaşı dram teatrında da yorulmadan çalışmışdır. O, Azərbaycan Dram Teatrının səhnəsində aktyor kimi müvəffəqiyyətlə çıxış etmiş, bir sıra pyeslərə isə rejissorluq etmişdir. Lakin H. Sarabski hər şeydən əvvəl bir opera artisti kimi məşhur idi. Xüsusilə, onun Məcnun rolu əfsanəyə çevrilmişdi. Şübhəsiz ki, o dövrdə hamı «Leyli və Məcnun» operasına baxmaq imkanına malik deyildi. Xüsusilə Azərbaycanın uzaq kənd və şəhərlərində yaşayanların Bakıya gəlib operaya tamaşa etməsi müşkül idi. Odur ki, bir çox yerlərdən arası kəsilmədən məktub və teleqramlar gəlir, hamı «Leyli və Məcnun» tamaşasına baxmaq arzusunda olduğunu bildirir, acizanə surətdə xahiş edirdi ki, Sarabski Lənkəran, Şəki, Gəncə, Şutpa və Tiflis şəhərlərinə qonaq gəlsin. Məhz buna görə Sarabski 1913-1918-ci illərdə öz sənət dostları ilə Qafqazın bir çox şəhərlərinə qastrol səfərinə çıxmışdı. Hər yerdə sonsuz məhəbbət və hörmətlə qarşılanan sənətkarın Şuşada olan ilk çıxışı daha təntənəli keçmişdi. «Leyli və Məcnun» operasının Şuşadakı tamaşası haqqında Sarabski öz xatirələrində belə yazır: «1913-cü ildə birinci dəfə Qarabağa qastrola getdim. Şəhərin (Şuşanın - F. Ş.) ziyalıları, tələbələri mənim istiqbalıma çıxmışdılar. Tamaşaya bir neçə gün qalmış iki tamaşanın biletləri satılıb qurtarmışdı. Tamaşadan yarım saat qabaq salonda və ətrafında adam əlindən yer yox idi. Hər kəsdən bilet sorduqda bilet əvəzinə 5-lik və 10-luq göstərirdilər. Dedikdə ki «yerlər satılıb» cavab verirdilər.

- Biz heç nə bilmirik. Teatr oynayırsınız, bu da sizin pulunuz...

...Müdir gəldi ki, «nə etməli, aləm biletli-biletsiz dolub teatra».

- Dedim gedin zalın pəncərələrini açın, hamı eşitsin. Tamaşanı başladıq... Pərdə açıldı. «Şəbu-hicran» xor ilə oxundu. Camaat sakit oldu. Mən səhnəyə çıxdım. Oxumaq istədim. Bu zaman camaatın gurultulu alqışları altında səhnəyə gül-çiçək dəstələri töküldü. Mən təzimdən sonra alqışın kəsilməsini gözləyirdim. Amma alqış davam edirdi... Nəhayət, pərdə salındı və camaat sakit oldu.

O gecə («7 avqust» - F. Ş.) oynadığım Məcnunu deyə bilərəm ki, nə oynamışam. Nə də oynayacağam. Qarabağda üç tamaşa verdikdən sonra Bakıya qayıtdıq».[220]

---

[220] H. Q. Sarabski. Xatirələri, səh. 59-60.

Onu da qeyd edək ki, o zaman Şuşada «Leyli və Məcnun» tamaşasından sonra Sarabski yerli həvəskarların iştirakı ilə «Əsli və Kərəm», «Ər və arvad» operettalarını da müvəffəqiyyətlə tamaşaya qoymuşdur.

Şuşadan qayıtmaq ərəfəsində yerli ziyalılar Sarabskinin şərəfinə xüsusi gecə düzəltmişlər. Şuşa səfərindən yadigar olaraq Sarabskiyə, Leyli rolunu təkraredilməz sənətkarlıqla oynamış Əhməd bəy Ağdamskiyə qızıl suya çəkilmiş gümüş çay dəstgahı hədiyyə verərək təntənə ilə yola salmışlar.

Sarabskinin Şuşa səfəri o dövrün mətbuatında geniş işıqlandırılmış və Şuşada verdiyi tamaşaların müvəffəqiyyətlə keçməsi qeyd olunmuşdur.[221]

Sarabskinin Qarabağ səfəri müvəffəqiyyətlə başa çatdıqdan sonra o, 1914-cü ildə bir qrup Bakı artistləri ilə Tiflis şəhərinə qastrol səfərinə çıxır. «10 aprel 1914-cü ildə «Gürcü dvoryan teatrı»nın binasında, «Leyli və Məcnun» tamaşası göstərilir. Tiflis tamaşaçıları bu günü səbirsizliklə gözləyirdilər. Onlar Şərqdə ilk opera yazmış Ü. Hacıbəyovun «Leyli və Məcnun» operası və Məcnun rolunun təkrarolunmaz ifaçısı Sarabski haqqında çox eşitmişdilər. Nəhayət, onlar öz arzularına çatdılar. Şuşada olduğu kimi Tiflisdə də tamaşa böyük müvəffəqiyyətlə keçdi. O zaman zalda tamaşaçılar arasında olan Əziz Şərif, Sarabskinin Məcnun rolunu belə xatırlayır: «Sarabskinin oyunu misilsiz idi. Onun nəğmələri bulaq kimi axır... Ağlaya-ağlaya, inildəyə-inildəyə öz məhəbbətindən, öz Leylisindən Füzulinin qəzəlləri ilə ölməz muğam üstündə danışır, insan qəlbinin ən incə damarlarına işləyən musiqi mənə o qədər təsir edirdi ki, hönkürtümü çətin boğa bilirdim. Lakin göz yaşlarım durmadan axırdı. Qəlbimi isə qəribə hisslər doldururdu.

...Zavallı, uğursuz, divanə Məcnun! Sarabski öz rolunu böyük məharətlə oynadı.

O, Məcnun surətini səhnədə tam mənası ilə canlandırdı».[222] «Leyli və Məcnun»dan sonra Üzeyirbəyin ikinci məşhur operası olan «Əsli və Kərəm» yenə də «Gürcü dvoryan teatrı» binasında tamaşaya qoyuldu. O dövrdə çap olunmuş rəylərdən aydın olur ki, tamaşa yüksək səviyyədə keçməmişdir. Lakin Sarabskinin oyunu tamaşaçıları valeh edərək riqqətə gətirmişdir. Əziz Şərif «Əsli və Kərəm» tamaşasında Sarabskinin Kərəm obrazını belə xatırlayır: «Mənə ən artıq təsir edən son məclisdə Kərəmin ölüm səhnəsi oldu. Sarabski doğrudan da istedadlı artist olduğunu isbat etdi. Demək olar ki, opera aləmində onun misli bərabəri yoxdur».[223]

Doğrudan da Sarabski «Əsli və Kərəm» tamaşasının son pərdəsində Kərəmin ölüm səhnəsini təkrarolunmaz bir məharətlə ifa etmişdir.

İllər ötdükcə, yeni-yeni əsərlər yarandıqca Sarabskinin də coşğun yaradıcılıq fəaliyyəti daha da parlayıb çoşurdu. Getdikcə onun pərəstişkarlarının

---

[221] Bax: «Kaspi» qəzeti, 13 iyul 1913-cü il, № 171. «Baku» qəzeti, 14 avqust 1913-cü il, № 181.
[222] Bax: Ə. Şərif. Keçmiş günlərdən. Bakı, 1981, səh. 197.
[223] Yenə orada, səh. 202.

sayıq artır, aktyorluq şöhrəti daha da ucalırdı. Sarabskinin müvəffəqiyyətlərinin sirri onun bir opera artisti kimi həm məlahətli səs, həm də obrazların mənəvi aləmini açmağı bacaran, psixoloji dərinliyi duyub ifa etmək məharətinə malik olmasında idi. O, Ü. Hacıbəyovun fikri istedadından və çox-şaxəli yaradıcılığından ilham alaraq, opera teatrımızın inkişafı uğrunda var qüvvəsilə çalışaraq sənət xarüqələri göstərirdi. O, Məcnun və Kərəm obrazları kimi, Zülfüqar Hacıbəyovun «Aşıq Qərib» operasında Qərib, Müslüm Maqomayevin «Şah İsmayıl» operasında Şah İsmayılın obrazlarını böyük müvəffəqiyyətlə yaratmışdır. Vokal musiqimizin lad sisteminə və rəngarəng ritmlərinə dərindən bələd olan müğənni-aktyor, Aşıq Qərib və Şah İsmayılın ariyalarını müxtəlif muğamlar üzərində məharətlə ifa etməklə dərin lirizmlə, emosional çalarla səciyyəvi olan bu obrazların səhnə təcəssümünü özünün vokal sənətkarlığı ilə zənginləşdirmişdi.

Sarabski bir çox illər sənət dostları ilə Qafqazın, İranın, Volqaboyu və Orta Asiyanın bir çox şəhərlərində qastrol səfərlərinə çıxmış, verdiyi muğam konsertlərində, göstərdiyi teatr tamaşalarında Azərbaycan mədəniyyətini nümayiş etdirməkdə silinməz iz qoyub getmişdir.

Xalq içərisindən çıxmış Hüseynqulu Sarabski gözəl sənətini, mənalı həyatını doğma xalqına, onun maariflənməsinə həsr etmişdir. O, Sovet hakimiyyətinin qələbəsini ürəkdən alqışlamış, Azərbaycanda sosialist mədəniyyətinin təşəkkül tapmasına parlaq səhifə yazmışdır.

H. Sarabski opera və operetta teatrlarında baş rollarda çıxış etməklə bərabər ictimai həyatda da geri qalmırdı. O, hələ 1919-cu ildə Nəriman Nərimanovun tapşırığı ilə Bakı mərkəzi fəhlə klubu nəzdində dram dərnəyi təşkil edib rejissorluq edirdi. O dövrdə mərkəzi fəhlə klubunda, tez-tez konsert-mitinqlər keçirirdilər. Bu konsertlərdə H. Sarabski sənət dostları Cabbar Qaryağdı oğlu və Seyid Şuşinski ilə birlikdə yaxından iştirak edərdi.

H. Sarabski bir sənətkar kimi yalnız Sovet hakimiyyətinin qələbəsindən sonra həqiqi qiymətini aldı.

1922-ci ildə H. Sarabskinin səhnə fəaliyyətinin 20 illik yubileyi keçirildi və ona respublikanın əməkdar artisti adı verildi. Mərhum Mirzə Cəlil (Molla Nəsrədddin) H. Sarabskiyə yazdığı təbrikdə onu «səhnəmizin yaraşığı» adlandırmışdı. Məşhur sənətkar ona göstərilən yüksək etimaddan ruhlanaraq, öz xalqının mədəni yüksəlişi uğrunda daha əzmlə çalışmış, geniş tamaşaçı kütləsinin qəlbində özünə yurd sala bilmişdir.

1920-1940-cı illər H. Sarabskinin mədəni quruculuq sahəsindəki fəaliyyəti çoxcəhətli olmuşdur. O əvvəllər Xalq Maarif Komissarlığının incəsənət işləri idarəsində[224] baş təlimatçı vəzifəsində çalışmış, xalqın mədəni quruculuq işlərində əməli fəaliyyət göstərmişdir. O, təbliğat briqadaları ilə Azərbaycanın bir çox şəhər

[224] Bu idarənin rəisi yazıçı Əbdürrəhimbəy Haqverdiyev, musiqi şöbəsinin müdiri isə Üzeyirbəy Hacıbəyov olmuşdur - müəllif.

və kəndlərinə gedib Sovet hakimiyyətinin vəzifələri haqqında əməkçilər qarşısında çıxış etmiş, konsertlər vermişdir.

Biz qeyd etdik ki, H. Sarabski, hər şeydən əvvəl, musiqi mədəniyyətimizin tarixində bir opera artisti-müğənnisi kimi məşhurdur. Onun incə səsi 40 il Azərbaycan operasında səslənmişdir. Lakin bununla yanaşı H. Sarabski bir xanəndə kimi də görkəmli fəaliyyət göstərmişdir. Doğrudur, bir müğənni kimi Sarabskinin çox da zil səsi olmamışdır. Lakin onun olduqca həzin və yumşaq səsi var idi. O, heç bir zaman əlinə qaval almamış və müstəqil olaraq muğam konsertləri verməmişdir. Lakin biz onun yaradıcılığının ikinci dövrü (1920-1940) vokal sənətinə daha çox meyl etdiyini müşahidə edirik. Belə ki, görkəmli sənətkar 1920-ci ildən sonra Bakıda verilən «Şərq konsertləri»ndə yaxından iştirak etmiş, konsert briqadaları yaradıb Azərbaycanın və qonşu respublikaların şəhərlərində zəhmətkeşlərə mədəni xidmət göstərmişdir. O, 1925-ci ildən 1932-ci ilə kimi həkim Avanes İoanesyanın yaratdığı məşhur «Şərq orkestri»nin tərkibində muğam və mahnı ifaçısı kimi dinləyicilərin rəğbətini qazanmışdı. Onun repertuarında əsasən «Şüştər», «Hicaz», «Bayatı-Şiraz», «Segah», «Şikəsteyi-fars» kimi minər muğamlar, «Qalalı», «Üç telli durna», «Sona bülbüllər», «Ləbuləb», «Qalanın dibində» xalq mahnıları idi. Müğənni öz şirin və nisgilli oxumaqları ilə dinləyiciləri valeh edərdi. H. Sarabski eyni zamanda bir çox mahnılar bəstələmişdi ki, bunlardan «Muğan», «Dağlar», «Layla» və s. göstərmək olar.

H. Sarabski muğam musiqisinə dərindən bələd olan mahir ifaçı idi. O hələ gənclik illərində İçərişəhərdə qurulan toy və məclislərdə Bülbülcan, Mirzə Muxtar, Seyid Mirbabayev kimi ustad xanəndələri dinləmiş, Bakıda verilən ilk «Şərq konsertləri»ndə bir dinləyici kimi Cabbar Qaryağdı oğlunun çoşqun zəngulələrini eşitmiş, onun Məcnun, Keçəçi oğlu Məhəmmədin Leyli roluna tamaşa etmişdi. Şübhəsiz ki, H. Sarabskinin mahir bir müğənni kimi formalaşmasında adlarını çəkdiyimiz ustadların həlledici təsiri olmuşdur.

Təsadüfi deyildir ki, əsrimizin hələ 20-ci illərində ilk Şərq orkestrinin bədii rəhbəri həkim A. İoanesyan H. Sarabskini orkestrin konsertlərində çıxış etməyə dəvət etmişdi. H. Sarabski bir çox illər bu orkestrlə Zaqafqaziyanın konsert salonlarında çıxış etmiş, hər yerdə muğam və xalq mahnılarının mahir ifaçısı kimi qarşılanmışdır.

H. Sarabski səsinin diapazonuna görə oxuduğu muğamları düzgün və olduqca təsirli oxuyardı. Bunun səbəblərindən biri də onun opera müğənnisi olmasında idi. Məlumdur ki, inqilaba qədər bəstələnən operaların əksəriyyəti muğam operaları idi. Buna görə də opera tamaşalarında oynayan artist istər-istəməz muğamları dərindən bilməliydi. Məsələn, təkcə Məcnun rolunu oynayan aktyor «Mahur», «Çahargah», «Rast», «Segah» muğamlarını ifa etməyə məcburdur. Şübhəsiz ki, burada ifaçının improvizə elementlərini nümayiş etdirməsi

də ümdə şərtlərdən biridir. H. Sarabski poeziyanı yaxşı bildiyinə görə Füzulinin qəzəllərini səlis və aydın bir dildə dinləyiciyə çatdırırdı.

1926-cı ildə H. Sarabski Şərq orkestri ilə birlikdə Moskva, Leninqrad, Minsk şəhərlərində konsertlər verərək rus dinləyicilərini füsunkar Azərbaycan musiqisi ilə tanış etmişdi. O dövrün qəzetləri orkestr, istərsə də onun ayrı-ayrı səlistləri, birinci növbədə H. Sarabski haqqında yazılar dərs edirdi. «Pravda» qəzeti yazırdı: «Azərbaycan SSR əməkdar artisti H. Q. Sarabski orijinal türk xalq mahnılarını ifa etməkdə böyük sənətkarlıq məharəti göstərdi».[225] «İzvestiya» qəzetində isə musiqişünas S. Boqoslovskinin məqaləsində deyilirdi: «Orkestr həmahəng səslənirdi. Xanəndə Sarabski Avropa müğənnisinə səsi necə idarə etmək və ifaçılıq priyomlarını necə işlətmək yollarını məharətlə göstərdi».[226]

Qastrol səfərindən uğurla qayıdan H. Sarabski yeni qüvvə və yeni ehtirasla müğənnilik fəaliyyətini genişləndirərək tez-tez Azərbaycan radiosunda, konsert salonlarında, fəhlə klublarında, mədəniyyət evlərində və əskəri hissələrdə konsertlər vermişdi. Bundan əlavə o, tarzən Qurban Pirimov, kamançaçı Seryoja Oqanezaşvili, müğənni Xurşid xanım Qacar, pianoçu Xədicə xanım və komik artist Rza Darablıdan ibarət «Türk konsert truppası» təşkil edib Azərbaycanın bir çox şəhərlərində, eyni zamanda qonşu Dərbənd, Teymurxan-Şurada, Vladiqafqaz və Minvod şəhərlərində konsertlər vermişdir. Hər yerdə onu hərarətlə qarşılamışlar. H. Sarabskinin özünəməxsus ifaçılıq repertuarı var idi. O, xalq musiqisilə yanaşı, konsertlərdə Məcnunun, Kərəmin, Qəribin və Şah İsmayılın muğamlarla oxunan ariyalarını ifa edəndə dinləyicilər heyran qalırdılar. Çünki, onun olduqca yumşaq və həzin səsi var idi. Həm də ürəklə oxuyardı. O səs ki, ürəkdən gəlir, həm məlahətli, həm də təsirli olur. Şübhəsiz ki, burada improvizasiya üsullarını işlətməkdən də çox şey asılıdır. Bu cəhətdən H. Sarabski mahir usta idi.

1928-ci ildə Bakıda Azərbaycan aşıqlarının birinci qurultayı çağırıldı. Qurultayda müzakirəyə qoyulan əsas məsələlərdən biri də musiqi folkloruna münasibət və onun qorunub saxlanılmasında xalq xanəndələrinin, aşıqların rolu məsələsi idi. H. Sarabski qurultayın işində yaxından iştirak etmişdi. Onda qəti bir inam yaranmışdı ki, xalqın mənəvi xəzinəsi olan folkloru qoruyub saxlamaq üçün mütləq xalq yaradıcılıq evi yaradılmalıdır.

1932-ci ildə Respublika xalq yaradıcılıq evinin təşkilində onun da əməyi olmuşdur. H. Sarabski ömrünün sonunadək xalq yaradıcılığı evinə rəhbərlik etmişdir.

1932-ci ildə Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə ona Azərbaycan SSR xalq artisti fəxri adı verilmişdir. 1933-cü ildə isə respublika ictimaiyyəti H. Sarabskinin səhnə fəaliyyətinin 30 illik yubileyini təntənə ilə qeyd etmişdir.

---

[225] Bax: «Pravda» qəzeti, 27 may 1926-cı il.
[226] «İzvestiya» qəzeti, 25 may 1926-cı il.

Böyük sənətkar aktyorluq və müğənniliklə yanaşı, səmərəli pedaqoji fəaliyyət də göstərmişdir. O, uzun illər Azərbaycan Dövlət Konservatoriyasında muğamatdan dərs demiş, Asəf Zeynallı adına Bakı Musiqi Məktəbində isə vokal sinfinə başçılıq etmişdir. Hüseynağa Hacıbababəyov, Məmmədtağı Bağırov, Əlövsət Sadıqov və Həqiqət Rzayeva kimi məşhur opera müğənniləri H. Sarabskidən təlim almışlar. Eyni zamanda, Şövkət Ələkbərova, Sara Qədimova və Tükəzban İsmayılova da onun muğam sinfində oxumuşlar.

H. Sarabski 1930-1940-cı illərdə daha gərgin işləmiş, Dövlət Filarmoniyasında, Opera teatrında Seyid Şuşinski, Zülfü Adıgözəlov, Yavər Kələntərli və Sürəyya Qacar kimi məşhur müğənnilərlə muğam və etnoqrafik konsertlərdə bir xanəndə kimi fəaliyyət göstərmişdir. Sarabski eyni zamanda rayon xalq teatrlarının yaradıcılıq məsələləri ilə yaxından məşğul olmuş, qızıl əsgərlərdən ibarət 30 nəfərlik xor təşkil etmişdi. O, 1938-ci ildə Moskvada keçirilən Azərbaycan incəsənəti dekadasının iştirakçısı olmuş, Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir. O, 1934-cü ildə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin üzvü, 1938-ci ildə isə Respublika Ali Sovetinin deputatı olmuşdur.

Böyük Vətən müharibəsi illərində o, döyüşçülər qarşısında, hərbi qospitallarda verilən konsertlərdə yaxından iştirak edərək əsgərləri ruhlandırmışdır.

Təəssüf ki, H. Sarabskinin səsi qrammofon vallarına yazılmamışdır. Lakin bizə yeganə yadigar qalan müğənninin 1940-cı ildə «Səbuhi» kinofilmində məşhur xanəndə Səttar rolunda çalıb-oxumasıdır.[227]

O bir opera müğənnisi kimi sonuncu dəfə 1941-ci ildə Məcnun rolunda oynamışdır. Tamaşanın sonuncu pərdəsində Məcnunun ariyasını son dərəcə kədərli oxuması onun mehriban tamaşaçıları ilə vida mahnısı kimi səslənmişdir.

Böyük aktyor və nəğməkarın qəlbi ömrünün son dəqiqələrinədək sənət eşqi ilə döyünmüşdür. 1945-ci il fevralın 16-da ölüm yatağında olarkən sənət dostları Qurban Pirimov və Leyli rolunun ifaçısı müğənni Həqiqət Rzayevanı yanına çağırmış və gözlərini Qurbana dikərək titrək səslə demişdir:

- Qurban çal, son dəfə Leylini dinləmək istəyirəm.

Qurbanın tarını, Həqiqətin səsini eşidən müğənni əbədi olaraq gözlərini yummuşdu...

Azərbaycan opera səhnəsinin ulduzlarından biri olan Hüseynqulu Sarabski ifaçılıq sənətimizin tarixində silinməz iz qoyub getmişdir. Çoxcəhətli fəaliyyəti, məlahətli şirin səsi, böyük səhnə mədəniyyəti ilə parlayan, ölməzlik qazanan H. Sarabski Azərbaycan opera sənəti tarixində fəxri yer tutur. Onun dolğun yaradıcılığı və fitri istedadı həmişə dövrünün məşhur mədəniyyət və incəsənət xadimlərinin diqqət mərkəzində olmuşdur. Onlar H. Sarabskinin sənətkarlıq qabiliyyətinə yüksək qiymət vermişlər. H. Sarabskinin ölməz sənətinin vurğunu və

[227] "Səbuhi" filmində xanəndə Səttarı səhv olaraq "Aşıq Səttar" adı ilə veriblər. Azərbaycanda Səttar adlı aşıq olmamışdır - müəllif.

onun artistlik məharətindən ilham alan böyük opera müğənnimiz Bülbül demişdir: «Sarabski, bu ad Azərbaycan xalqı üçün əzizdir. O, Azərbaycan opera teatrının görkəmli banilərindən biridir. Məcnun obrazının yaradıcısıdır. Öz səsindən məharətlə istifadə etməyi bacaran Sarabski, hərarətli, səmimi və təsirli oxuması ilə tamaşaçıları həmişə məftun edirdi. Musiqi mədəniyyətimizin irəliyə atdığı hər addım bu böyük sənətkarın qəlbini sevindirirdi, həyəcanlandırırdı. O haqlı olaraq hamımızı öz şagirdi hesab edirdi. Mən onu birinci dəfə 1913-cü ildə Gəncədə «Leyli və Məcnun» tamaşasında gördüyüm zaman onun oyunu və oxuması mənə çox güclü təsir etmişdi».

Azərbaycan opera sənətinin bünövrəsini qoyanlardan biri olan məşhur mədəniyyət xadimi, dramaturq Əbdürrəhimbəy Haqverdiyev 1933-cü ildə H. Sarabskinin səhnə fəaliyyətinin 30 illiyi bayram edilərkən «Bənna» adlı kiçik pyes yazmış və onu istedadlı artistə hədiyyə vermişdir.

Hüseynqulu Sarabskinin xidmətləri böyükdür. O, aktyor, dramaturq, rejissor və müğənni kimi Azərbaycanın mədəniyyət tarixində silinməz iz qoyub getmişdir. Sarabski hərtərəfli istedad sahibi idi. O, ədəbi yaradıcılıqda da qələmini sınamışdır. Onun «Bir aktyorun xatirələri» və «Köhnə Bakı» əsərləri bu gün də sevilə-sevilə oxunur. Lakin əfsus ki, böyük sənətkarın çoxşaxəli yaradıcılıq yolları istər teatrşünaslıq, istərsə də musiqişünaslıq baxımından ətraflı öyrənilməmişdir.

## Səlyanlı Şirin



TARZƏN Səlyanlı Şirin klassik muğam musiqisinin görkəmli nümayəndələrindən biridir. Azərbaycan milli musiqisinin yorulmaz təbliqatçısı, istedadlı tarzən kimi tanınmış Şirin Axundovun adı Məşədi Zeynalın, Bala oğlu Qrikorun, Lazarın və Qurban Pirimovun adı ilə yanaşı çəkilir.

Şirin Məşədi Hüseyn oğlu Axundov 1878-ci ildə Səlyanda anadan olmuşdur. O, kiçik yaşlarından musiqiyə həvəs göstərmiş, yeddi yaşında qarmon, on üç yaşında saz, on beş-on altı yaşlarında isə tar çalmağı öyrənmişdir.

Şirinin atası Məşədi Hüseynin əsas məşğuliyyəti bağçılıq olmuşdur. Məşədi Hüseyn kişi fanatik dindar idi. Oğlu Şirinin musiqiyə meyl etməsi onu əsəbiləşdirər, evdə narazılığa səbəb olardı. Hətta bir gün bərk qəzəblənən Məşədi Hüseyn kişi Şirinin tarını «şeytan əməlidir» deyə sındırıb peçə atır, özünü isə evdən qovur. Deyilənə görə, ata elə oğul arasında inciklik baş verdiyi günlər Cabbar Qaryağdı oğlu öz dəstəsi ilə Səlyana toy məclisinə gəlibmiş. Məclis qurtarandan sonra musiqi həvəskarları Cabbardan xahiş edirlər ki, o, Şirinin çalğısına qulaq assın. Şirinin məharətlə tar çalması sənətkara xoş gəlir. O, Şirinə

Bakıya gəlib, orada tarzənlik sənətini davam etdirməyi məsləhət görür. Böyük xanəndənin məsləhəti gənc tarzəni ruhlandırır. O, anası Zərəfşan xanımla Bakı şəhərinə gəlir, burada Cabbar Qaryağdı oğlunu tapır. O zaman Cabbar Bakı məclislərində tarzən Arsen Yaramışev və kamançaçı Avanes ilə çıxış edirdi. Qaryağdı oğlu gənc tarzəni də öz dəstəsinə qoşur. O, məclislərdə Cabbarın gözəl guşələrinə, Arsen və Avanesin şirin barmaqlarına diqqət verər, evə gələn kimi həmin guşə və barmaqları tarda təkrar edərdi.

1901-1902-ci illərdə gənc tarzən bakılı xanəndələrdən Məşədi Məmmədlə Əli sahibi tarda müşayiət etmişdir. Bir gün Bakı məclislərindən birində Şirin, Məşədi Hüseynqulu adlı varlı bir tacirlə tanış olur. Həmin tacirin vasitəsi ilə Bakı milyonçusu Hacı Zeynalabdın Tağıyevin «Güzgülü zalı»nda qurulan məclislərdə tez-tez çıxış edir. Tağıyevin məclislərində Şirin o dövrün ən məşhur tarzənlərindən Mərdinka (Mərdi Canıbəyov) ilə yaxından tanış olur. Mərdinka ona sənətkarlıq bacarığını artırmaq üçün kömək edir.

Məlum olduğu kimi, Mərdinka xanəndə Şəkili Ələsgər və kamançaçı Moses ilə əməkdaşlıq edərdi. Bir gün Ələsgər Mərdinkagilə gələrkən həmişəki kimi evdən tar səsi eşidir. Lakin bu dəfəki tarın səsi, həm də vurulan şirin barmaqlar onu heyrətləndirir. Ələsgər ayaq saxlayıb açıq pəncərədən gələn tar səsini heyrətlə dinləyir. Bu səs onu həm təəccübləndirir, həm də düşündürür. Ələsgər nə qədər fikirləşirsə, tarçalanın kim olduğunu müəyyənləşdirə bilmir. Çünki bu çalğı nə Mərdinkanın, nə də Qrikorun çalğısına oxşamırdı. Ələsgər otağa daxil olanda burada təxminən 25 yaşlarında cavan bir oğlanın tar çaldığını görür. Təbiət Sadıqcan kimi Şirinə də iki keyfiyyət bəxş etmişdi: musiqi istedadı və sima gözəlliyi. Ələsgərin:

- Bu incini hansı bazardan tapmısan? - Sualından xoşlanan Mərdinka:
- Tağıyevin məclisindən, - deyə Şirini onunla tanış edir.

Şirin 1903-cü ildən Ələsgərlə sənət dostluğu edir. Levon Qaraxanov bu dəstəyə qoşulandan sonra trio yaranır.

Xanəndə Ələsgər, tarzən Şirin və kamançaçı Levondan ibarət olan trio uzun illər Zaqafqaziyanın şəhərlərində çıxış etmişdir. O zaman bu dəstə Bakıda Qaryağdı oğlunun triosundan sonra ikinci bir musiqi üçlüyü kimi şöhrət qazanmışdı. Ələsgərin məlahətli səsi, Şirinin xoş tərənəli barmaqları, Levonun ustalığı dinləyiciləri vəcdə gətirərdi.

Səlyanlı Şirinin Azərbaycan milli teatrının inkişafında da müəyyən xidmətləri olmuşdur. 1905-ci ilin dekabr ayında Bakıda M. F. Axundovun «Sərgüzəşti-vəziri-xani-Lənkəran» əsəri tamaşaya qoyularkən Şirin və dostu - xanəndə Ələsgər həmin tamaşanı musiqi ilə müşayiət etmişlər. «Kaspi» qəzeti tamaşa haqqında verdiyi rəyin bir yerində yazırdı: «Tamaşanın bədii cəhətdən gözəl keçməsinə sazəndələrdən Ələsgər və Şirin çox çalışdı. Onlar bir neçə musiqi

havalarını ifa etdilər».[228] Bundan əlavə Şirin uzun illər H. Z. Tağıyevin teatr binasında göstərilən teatr tamaşalarının fasilələrində tar çalmış, çox hallarda isə teatrın sazəndələr orkestrinə rəhbərlik etmişdir. 1905-1926-cı illərdə dövri mətbuatda, teatr afişa və proqramlarında Şirinin adına tez-tez rast gəlirik.

Bunlardan əlavə Şirinin Azərbaycan opera sənətinin inkişafında da müəyyən rolu olmuşdur. Ü. Hacıbəyovun «Leyli və Məcnun» operasının ilk tamaşasında (12 yanvar 1908-ci il) orkestrin tərkibində əsas tarçalanlardan biri məhz Şirin olmuşdur. Yeri gəlmişkən burada bir dolaşıq məsələni aydınlaşdırmaq istərdim.

Nədənsə Azərbaycan opera sənətinin tarixindən, Ü. Hacıbəyovun «Leyli və Məcnun» operasından və bu operanın musiqi orkestrinin rəhbəri olmuş tarzən Qurban Pirimov haqqında yazılan monoqrafiyalar və əlyazmalarında belə səhv bir fikir yürüdülür ki, guya «Leyli və Məcnun» tamaşasının son məşqi zamanı tarzənlər arasında mübahisə baş verib və həmin gün orkestrin heyətində olan bütün tarzənlər, Qurban Pirimovdan başqa, açıq edib tamaşaya gəlməyiblər. Həqiqətən tarzənlər arasında nə isə ixtilaf baş vermişdir. Lakin tamaşa axşamı yalnız Qurban Pirimovdan başqa heç kəsin gəlməməsi fikri düzgün deyildir. Əldə olan arxiv materiallarına əsasən deyə bilərik ki, «Leyli və Məcnun» operasının ilk tamaşasında Qurbanla yanaşı Şirin də tar çalmışdır. Müəlliflər Şirinin ilk opera tamaşasında bir tarzən kimi iştirakını inkar etməklə səhvə yol vermişlər. Bu düzgün olmayan müddəanı hətta Üzeyirbəyin özü belə «Bakinski raboçi» qəzetinin 1938-ci il 16 mart tarixli nömrəsində çap etdirdiyi «Leyli və Məcnun»dan «Koroğluyadək» adlı məqaləsində təkrar etmişdir. Bəstəkar yazmışdır:

«Yadımdadır, hansı bir havanı necə çalmaq lazımdır məsələsi üstündə tarzənlər arasında qızğın münaqişə başlandı və bu münaqişə elə bir ciddi hal aldı ki, operanın birinci tamaşasına Qurban Pirimovdan başqa heç bir tarzən gəlmədi».

Üzeyirbəyin yaddaşı onu yanıltmışdır. Çünki o, 1908-ci ilin yanvar ayında «İrşad» qəzetinin redaktoruna yazdığı məktubunda ilk opera tamaşasında Qurban Pirimovla yanaşı Şirin Axundovun da tamaşada çaldığını şəxsən etiraf etmişdir. «İrşad» qəzeti özünün 15 yanvar 1908-ci il tarixli nömrəsində belə bir məlumat vermişdir:

«...Həmin gün (12 yanvar 1908-ci il - F. Ş.) teatrda opera musiqisinin cümləsindən, tarzən Qurbanın təhti-idarəsində çalanlar cümləsindən məşhur tarzən Şirin xüsusunda müsənnif Hacıbəyov cənablarının bir məktubu gəlmişdir ki, eynilə bura da dərc edirik:

«Müdiri-möhtərəm! Bu bir neçə gəlməyə qəzetinizdə yer verməyinizi rica edirəm.

---

[228] "Kaspi" qəzeti, 15 yanvar 1905-ci il.

Tarzəni-millimiz olan məşhur Şirinə artıq təşəkkürlər edirəm ki, teatr günü nümayişkaranə bir surətdə çıxıb gedən sazəndələrə qoşulmayıb kəmali-nəcabət ilə öz vədinə əməl etdi və gözəl çalğısı ilə bizim orkestrimizə kömək yetirdi».

Burada oxucu haqlı olaraq soruşa bilər: «İndi biz Üzeyirbəyin hansı məktubuna, birinci məktubunamı inanaq, yoxsa ikinci məktubuna!?»

Şübhəsiz ki, bizim üçün daha inandırıcı birinci məktubdur ki, Üzeyirbəy onu yuxarıda göstərdiyimiz kimi «Leyli və Məcnun» operasının ilk tamaşasından sonra yazmışdır və məlum olduğu kimi həmin tamaşada Şirin bir kamil tarzən kimi çıxış etmişdir. İkinci məktub (məqalə) isə 1938-ci ildə, həmin hadisədən 30 il sonra yazılmışdır. Belə hallar sənətkarlar arasında tez-tez baş verir. Bəzən sənətkar hissiyyata qapılıb nəinki müasirləri haqqında, hətta özü haqqında belə əsl həqiqətdən uzaq olan məlumatlar verir.

Beləliklə, Ü. Hacıbəyovun birinci məktubuna əsaslanaraq qəti deyə bilərik ki, ilk milli operanın tamaşasında təkcə Qurban Pirimov yox, Səlyanlı Şirin də bu nəcib və xeyirxah işdə Üzeyirbəyə kömək etmişdir...

Şirin bütün muğamları tarda gözəl ifa etməkdə, xanəndə oxutmaqda usta idi. Təsadüfi deyildir ki, o, Ələsgərdən başqa, müxtəlif vaxtlarda, Seyid Mirbabayevi, İslam Abdullayevi, Cabbar Qaryağdı oğlunu, Bülbülü, son illərdə isə Seyid Şuşinskini tarda müşayiət etmişdir. Şirin olan məclisdə iştirak edən xanəndələr onun tarda müşayiəti ilə oxumağı arzu edərmişlər. Şirinlə uzun illər yoldaşlıq etmiş qocaman kamançaçı Levon Qaraxanov öz xatirələrinin birində deyir:

«1913-cü il idi. Bakının Maştağa kəndində bir məclisdə idik. Həmin məclisə Cabbar, Qurban, Saşa, Keçəçi oğlu Məhəmməd, Zeynal, Moses, Ələsgər, Şirin və mən dəvət olunmuşduq. Şirin toydan əvvəl həmişə tarı döşünə basıb bir neçə hava çalardı. Bu dəfə də Şirin çalanda Cabbar qapının ağzında qəlyan çəkirdi. Şirinin çalğısını eşidib dedi:

- Bəh-bəh çalmaq belə olar, sağ ol, Səlyanlı balası...»

Səlyanlı Şirin istər inqilabdan əvvəl, istərsə də sonra Bakıda, Tiflisdə, İrəvanda təşkil olunan konsertlərdə, musiqi gecələrində yaxından iştirak etmiş, həmişə dinləyicilərin hüsn-rəğbətini qazanmışdır. O, həqiqi xalq sənətkarı kimi həmişə, hər yerdə xalqın içərisində olmuş, öz şirin çalğısında xalqın istək və arzularını tərənnüm etmişdir. Təsadüfi deyildir ki, Şirin mədəni, sadə, həssas bir insan kimi tanınmışdı. Şirin sənətkar tarzən olduğuna görə, onu Zaqafqaziyanın və İranın bir çox şəhərlərinə dəfələrlə dəvət etmişlər. O, iki dəfə Ələsgər və İslam ilə bir yer də İrana səfər etmiş, hər dəfə İranın görkəmli tarzənləri ilə müsabiqədə qızıl medala layiq görülmüşdür.

1914-cü ildə Macarıstanın «Premer-Rekord» firması Qafqaz musiqiçilərindən bir qrupunu Bakıya dəvət edib, onların çalıb-oxumaqlarını qrammofon vallarına yazmışdır. Firma Şirin Axundovu da tarzən kimi dəvət etmiş, onun ifasında «Çahargah», «Mirzə Hüseyn Segahı», «Hasar» və «Müxalif»

muğamlarını qrammofon valına yazmışdır. Bunlardan əlavə, Şirin kamançaçı Levonla xanəndə İslamın oxuduğu 16 muğam, təsnif və el nəğmələrini tarda müşayiət etmişdi.

Azərbaycanda Sovet hakimiyyətinin qurulduğu ilk günlərdən Şirin xalq musiqisi sahəsində səmərəli fəaliyyət göstərir. Şirin 1920 və 1921-ci illərdə Bakıda Şərq konservatoriyasında tar müəllimi sifəti ilə çalışır, təbliğat qatarı ilə Azərbaycanın bir sıra dəmiryol stansiyalarını və şəhərləri gəzərək zəhmətkeşlər qarşısında çıxış edir. O, 1923-1926-cı illərdə Lenin adına fabrikdə, Qaraşəhərdə, fəhlə klublarında tar dərnəyi açmış, öz təcrübəsini həvəskar fəhlə-gənclərə öyrətmişdir.

Səhhətinin pis olmasına baxmayaraq Şirin bir an belə musiqidən ayrılmamışdır. O, tarı, muğamatı, milli musiqini «avropalaşdırmağa» cəhd edənlərə qarşı amansız mübarizə aparmışdır.

Adı Şirin, çalğısı şirin və ürəyəyatan olan istedadlı sənətkar çox yaşamadı. 1927-ci il oktyabrın 29-da 49 yaşlı Şirin gözlərini əbədi yumdu. Azərbaycan musiqisi görkəmli bahadırlarından birini vaxtsız itirdi.

Səlyanlı Şirin Azərbaycan musiqisinə 30 il xidmət etmişdir. Onun adı virtuoz tarzən kimi hörmətlə çəkilirdi. Məşhur musiqişünaslar: Cabbar Qaryağdı oğlu, Məşədi Süleyman Mənsurov, Seyid Şuşinski, Mirzə Mənsur Şirinin tar çalmaq qabiliyyətini yüksək qiymətləndirirdilər. Görkəmli tarzən Qurban Pirimov söyləyirdi ki, «Cabbar Qaryağdı oğlu böyük məclislərə gedəndə Şirini də özü ilə aparardı. Şirin tar çalanda mən bir dinləyici kimi ona qulaq asmaqdan yorulmazdım. Hələ də onun «Mahur»da vurduğu şirin barmaqların, samballı mizrabların sədası qulağımdadır. Ona tarçı Şirin yox, «Şirin tarçı» desək daha doğru olar».

Şirinin sənətinə və şəxsiyyətinə yaxından bələd olan kamançaçı Levon Qaraxanov yazırdı: «Mən 65 ildir kamança çalıram. İndiyə kimi mənə iki tarçalanın çalğısı xoş gəlib. Biri Məşədi Zeynal, o birisi isə Qara Təti idi. Ustalıqda Şirin bunlardan geri qalmazdı. Cabbar həmişə deyərdi ki, Şirin böyük Lazarın barmaqlarını vurur. Tar çalmaqda qlissando (səsdən səsə keçmək) Şirindən yadigar qalıb. İndikilər onu təqlid edirlər. Mənim bir sənətkar olmağımda Şirinin əməyi çox böyükdür. Şirin mənim müəllimim olmuş, həm də mənə atalıq etmişdir».[229]

Şirinin həyatı və musiqi irsi böyük bir məktəbdir. Onun qrammofon valları musiqi inciləri kimi mühafizə olunur. Görkəmli tarzən Şirin Axundovun musiqiçilik fəaliyyətinin dərindən öyrənilməsi Azərbaycan milli musiqi mədəniyyətinin tədqiqi üçün çox faydalıdır.

---

[229] Levon Qaraxanovun xatirələrindən (Xatirə kitabın müəllifindəndir). – Red.

# Avanes İoanesyan



HƏKİM Avanes İoanesyan Azərbaycanda mahir dirijor, istedadlı bəstəkar, həm də gözəl bir müəllim kimi tanınır.

Avanes Ayrapetoviç İoanesyan 1881-ci ildə Şuşa şəhərində anadan olmuşdur. O, 1900-cü ildə realnı məktəbi bitirib qadın gimnaziyasında nəğmə müəllimi vəzifəsində çalışmışdır.

A. İoanesyan 1905-ci ildə Novorossiysk universitetinin tibb fakültəsinə daxil olur. Buranı müvəffəqiyyətlə bitirən gənc Avanes doğma Şuşaya qayıdır. O, Şuşada həkimlik edir, eyni zamanda çox sevdiyi musiqi ilə məşğul olur.

Azərbaycanda Sovet hakimiyyəti qurulduğu ilk illərdən A. İoanesyan özünü musiqiyə həsr edir. O, 1920-ci ildə Şuşa şəhərində hərbi orkestrə başçılıq edir. Elə həmin il Bakıya köçür, burada 65 nəfərdən ibarət birinci Azərbaycan Dövlət Şərq Orkestrinin yaradılmasına təşəbbüs göstərir. Orkestrə rəhbərlik etməyi ona tapşırırlar.[230] İoanesyan ömrünün sonunadək bu vəzifədə çalışır. İoanesyanın rəhbərlik etdiyi orkestrin tərkibi Şərq musiqi alətlərində çalan musiqiçilərdən ibarət idi. Burada Azərbaycan xalq musiqi alətlərindən (tar, kamança, yastıbalaban, tütək, qara zurna, qoşa-nağara, dəf və s.) istifadə edilmişdir.

A. İoanesyan Azərbaycan musiqi həyatına bələd idi. Bu, ona orkestr heyətini təşkil etməkdə kömək etdi. A. İoanesyan orkestrə Azərbaycanın ən bacarıqlı, sənətkar musiqiçilərini dəvət etmişdi. Maraqlı burasıdır ki, orkestrə dirijorluq edən A. İoanesyan və onun musiqi heyətinin üzvləri notdan istifadə etmirdilər. Onlar muğamı, təsnifi, rəngləri və oyun havalarını notsuz çalırdılar. Bu dördsəsli orkestr Azərbaycan musiqi mədəniyyətinin inkişafına faydalı təsir göstərdi.

1923-cü ildə birinci Şərq orkestrinin ifaçılıq məharətinin sorağı bütün Azərbaycana yayılmışdı. Orkestr Bakı fəhlə klublarında, mədəniyyət evlərində və Dadaş Bünyadzadə adına Azərbaycan Dövlət Türk Dram Teatrının binasında zəhmətkeşlər qarşısında tez-tez çıxış edirdi. Dövri mətbuat orkestrin və onun rəhbəri həkim İoanesyanın fəaliyyətini yüksək qiymətləndirirdi.[231]

1925-ci ildə Əbilov adına klubda əlli nəfərdən ibarət heyətdə ilk Azərbaycan qadın xalq çalğı alətləri orkestrinin yaranması da A. İoanesyanın adı ilə bağlıdır. A. İoanesyan Krupskaya adına klubda (1927), Azərbaycan qadını

---

[230] Bax: “Рабочи зрител” jurnalı, 1930-cu il, № 19.
[231] Bax: «Бакински рабочи» qəzeti, 1923-cü il, № 35.

sarayında (1932) xalq çalğı alətləri ansamblı və qadın orkestrləri yaradılmasında da böyük əmək sərf etmişdir.

Avanes İoanesyanın rəhbərlik etdiyi orkestrin fəaliyyəti nəinki Azərbaycanda, hətta bütün Zaqafqaziyada təqdir olunurdu. Bu orkestr Zaqafqaziya üzrə keçirilən bütün baxış və olimpiadalarda həmişə birinci mükafata layiq görülmüşdür. Orkestrin heyəti tərkibinə Qurban Pirimov, Arsen Yaramışev, Bala Məlikov, Levon Qaraxanov, Lazar Qabrielyan, Simon Kasparov, Paşa Əliyev, Armenak Şuşinski, Soqomon Seyranov, Karo Çarğoqlyan kimi virtuoz musiqiçilər, Albert Teryan, Səfərova və Xaçaturov kimi istedadlı rəqqaslar daxil idilər. Cabbar Qaryağdı oğlu, Keçəçi oğlu Məhəmməd, Ələsgər Abdullayev, Seyid Şuşinski, Zülfüqar Sarıyev, Zülfü Adıgözəlov, H. Sarabski və Xan Şuşinski kimi görkəmli müğənnilər A. İoanesyanın dəvəti ilə orkestrin konsertlərində çıxış edirdilər.

Məlum olduğu kimi, Zaqafqaziya xalqlarının mahnı və rəqsləri orkestrin repertuarında geniş yer tuturdu. Odur ki, orkestr hər yerdə hörmət və məhəbbətlə qarşılanırdı. 1926-cı ilin yazında ilk dəfə Moskva və Leninqrad tamaşaçıları qarşısında çıxış edən orkestr böyük müvəffəqiyyət qazanır. «Pravda», «İzvestiya», «İskusstvo» və digər mərkəzi qəzet və jurnallar öz səhifələrində orkestrin ümumi heyəti və onun rəhbəri A. İoanesyan haqqında qiymətli rəylər dərc edir.M. İppolitov-İvanov, Qsenovski, A. Fevralski, s. Buqoslovski və başqa görkəmli rus musiqi xadimləri öz rəylərində musiqi mədəniyyəti nöqteyi-nəzərindən orkestrin böyük əhəmiyyət qazandığını etiraf etmişlər. Professor A. Fevralski «Pravda» qəzetində çap olunan «Qafqaz simfonik orkestri» adlı məqaləsində yazmışdı: «Qafqaz orkestri ilə yalnız Sovet İttifaqının mərkəzi şəhərlərində deyil, Avropanın paytaxtlarında da müvəffəqiyyətlə çıxış edə bilərik. Bu orkestr ilə bizim fəxr etməyə haqqımız vardır».[232]

Moskvada böyük müvəffəqiyyət qazanan orkestr 1926-cı ilin iyun ayında Leninqrada getmiş və orada on konsert vermişdir. Bundan sonra Azərbaycan musiqiçiləri Ukrayna və Belorusiya zəhmətkeşləri qarşısında da çıxış etmişlər.

Azərbaycan Dövlət Şərq Orkestrinin Moskva və Leninqrada ikinci qastrol səfəri 1936-cı ilin mart ayında olmuşdur. Ay yarım müddətində Moskva və Leninqrad konsert salonlarında, fabrik və zavod klublarında çıxış edən orkestr 41 konsert vermişdir. Bu konsertlərdə 50 minə yaxın tamaşaçı iştirak etmişdir. Birinci səfərdə olduğu kimi bu dəfə də Moskva və Leninqrad mətbuatında A. İoanesyanın dirijorluq və təşkilatçılıq məharəti, ayrı-ayrı ifaçıların, solistlərin çıxışları haqqında maraqlı rəylər, məqalələr yazılmışdır.[233]

İllər bir-birini əvəz etdikcə, A. İoanesyanın rəhbərlik etdiyi orkestrin tərkibi də dəyişir və cavanlaşırdı. Çünki A. İoanesyan gənc musiqiçi istedadlara

---

[232] "Правда" qəzeti, 1926-cı il, № 120.

[233] Bax: "Вечернјаја Москва" qəzeti, 24 mart 1936-cı il, № 46; "Советскаја музыка" jurnalı, 1936-cı il, № 6; "Правда" qəzeti, 25 mart 1936-cı il, № 84.

həssaslıqla yanaşır, onları orkestrə cəlb edir, sənətdə püxtələşmələri üçün böyük qayğı göstərirdi.

Hacı Məmmədov, Vaqo Melkumov, Ənvər Mənsurov, Rəşid Əfəndiyev, Məryəm Nəcəfzadə, Tərlan Əlizadə, Məmmədağa Muradov, Ruxsarə Paşayeva, hökümə Nəcəfzadə kimi istedadlı gənclər orkestrdə sənətin incəliklərini öyrənmiş, ustad musiqiçilər olmuşlar.

1938-ci ilin yazında Moskvada keçirilən Azərbaycan incəsənəti dekadasında A. İoanesyanın orkestri böyük müvəffəqiyyətlə çıxış etmişdir.[234] Görkəmli musiqişünas Georgi Xubov «Xalq ruhunda və ustalıqla» adlı məqaləsində bu barədə yazmışdı: «...İoanesyan Azərbaycan musiqi folkloruna yaxşı bələddir. O, muğamatı simfonikləşdirmək sahəsində çox maraqlı təcrübə həyata keçirmişdir. Xalq instrumentləri orkestrinin ifa etdiyi «Çahargah», «Şur», «Bayatı-Şiraz» gözəl simfonik əsərlər kimi səslənərək... incə, ahəngdar nəğmələrlə və səsin gözəlliyi ilə dinləyiciləri valeh edir».[235]

Görkəmli dirijor, istedadlı bəstəkar, həkim A. İoanesyanın Azərbaycan musiqi mədəniyyətinin inkişafı sahəsindəki xidmətləri yüksək qiymətləndirilmişdir: o, Azərbaycan SSR əməkdar incəsənət xadimi adına layiq görülmüş və «Şərəf Nişanı» ordeni ilə təltif edilmişdir.

A. İoanesyan 1938-ci il iyul ayının 29-da gündüz saat 4-də orkestrin məşqində dirijorluq edərkən qəflətən ürək iflicindən vəfat etdi. Görkəmli musiqiçinin vaxtsız ölümü incəsənəti, musiqini sevən yüz minlərlə adamı kədərləndirdi. Bu münasibətlə "Бакински рабочи" qəzeti verdiyi nekroloqda yazırdı: «Azərbaycan incəsənəti İoanesyanın şəxsində istedadlı insanı, təşkilatçını, bəstəkarın Azərbaycan musiqisini bilən yaxşı dirijoru itirdi. Onun ölümü Azərbaycan incəsənəti üçün böyük itkidir».[236]

* * *

Avanes İoanesyan XX əsrin əvvəllərində inkişaf etmiş nadir istedadlar içərisində ən fərdi ifaçılıq qabiliyyəti olan musiqiçilərdən biri idi. Yüksək musiqi mədəniyyətinə malik olan dirijorun fərdi yaradıcılıq priyomları və maneraları başqalarına bənzəmirdi. Onun orkestri milli musiqi formalarına və nümunələrinə ciddi riayət etməklə çaldığı hər havanın milli xarakterik xüsusiyyətlərinə sadiq idi. Məhz bu keyfiyyətlərinə görə orkestri bəzən etnoqrafik orkestr kimi də qələmə verirdilər.

Doğrudan da, həkim İoanesyan son dərəcə işgüzar, ağıllı musiqiçi olmaqla əla da dirijor idi. Bir bədii rəhbər kimi onun istər melodik, istərsə də harmonik imkanları olduqca geniş idi. Bu orkestrin bir üstünlüyü də onda idi ki, burada

---

[234] Bax: "Советскоje искусство" qəzeti, 1938-ci il, № 49; "Советскаjа музыка" jurnalı, 1938-ci il, № 4.

[235] "Правда" qəzeti, 16 aprel 1938-ci il, № 105.

[236] "Бакински рабочи" qəzeti, 30 iyul 1938-ci il, № 175.

Avropa musiqi alətlərindən (hətta pianodan) belə istifadə olunmurdu. Orkestr sırf milli orkestr idi. Repertuarı isə olduqca geniş və rəngarəng idi. Bizim çalğı musiqimizin tarixində bir çox orkestrlər olmuşdur. Lakin bu orkestrlərin heç biri ifaçılıq məharətinə görə, həkim İoanesyanın orkestrinin səviyyəsinə qalxa bilməmişlər. Maraqlı burasıdır ki, orkestr repertuarında olan havaları notsuz, yəni eşitmə, qavrama yolu ilə çalırdı. Adama elə gəlirdi ki, tərkibində yüzdən yuxarı musiqiçisi olan böyük bir simfonik orkestr səslənir. Təsadüfi deyildir ki, orkestrin ifaçılıq məharəti haqqında rəylər yazan musiqi tənqidçiləri orkestri: «Qafqaz simfonik orkestri», «Azərbaycan xalq çalğı alətlərindən ibarət olan simfonik orkestr» və yaxud «Azərbaycan Dövlət Şərq simfonik orkestri», «Caz Banda»[*] və s. adlandırmışlar. Musiqişünasların orkestrə belə adlar vermələri heç də təsadüfi deyildir. Çünki orkestrin çalğısı son dərəcə temperamentli, qüdrətli və əzəmətli idi. Orkestrin ifaçılıq məharəti böyük musiqi alimi, akademik Üzeyirbəyi də düşündürmüşdü... O, orkestr haqqında yazmışdı: «İoanesyanın rəhbərlik etdiyi Şərq xalq çalğı alətlərindən ibarət olan Azərbaycan Dövlət Orkestri böyük maraq doğurur. Bu orkestr çox məşhurdur».[237]

Əfsus ki, Azərbaycan xalq musiqi incilərini təbliğ edən bu qüdrətli orkestr on səkkiz il yaşadı. Lakin onun fəaliyyəti böyük mədəni hadisəyə çevrildi. Çünki mahir dirijor, böyük musiqi xadimi olan A. İoanesyan Azərbaycan milli ifaçılıq ənənələrinə sadiq idi. Onun şöhrətli orkestri həm virtuoz ifaçılarına, həm də zəngin repertuarına görə bütün Qafqazda birinci orkestr sayılırdı. Odur ki, bu xoş tərənələr «Banda»sı - dəstəsi milli musiqi xəzinəmizin qızıl fondunda özünə layiqli yer tutmuşdur. Həkim Avanes İoanesyanın adı isə musiqi mədəniyyəti tarixinə qızıl hərflərlə həkk olunmuşdur.

---

[*] "Banda" italyanca "dəstə" deməkdir.

[237] Ü. Hacıbəyov. Köhnə və yeni Azərbaycanda. "Советскаја музыка" jurnalı, Moskva, 1938-ci il, № 2, səh. 58.

# Qurban Pirimov

Qurbana göndərin xəbəri gəlsin,
Sənət ordusunun yavəri gəlsin.
Qurduğum məclisə etsin tamaşa,
Kimin sənətdə var hünəri gəlsin.

*Məmməd Rahim*



AZƏRBAYCAN incəsənəti tarixində Sadıqcan, Məşədi Zeynal, Şirin Axundov, Bala oğlu Qrikor kimi sənətkarlarla yanaşı adı iftixarla çəkilən Qurban Pirimov öz sədəfli tarı ilə yetmiş il doğma xalqına xidmət etmişdir.

Qurban 1880-cı ilin oktyabr ayında Qarabağın Gülablı kəndində dünyaya gəlmişdir. Gülablı kəndi aşıqlar yurdudur. Valeh, Abbasqulu, Nəcəfqulu tək görkəmli aşıqlar bu kənddə doğulmuşlar.

Qurbanın atası Bəxşəli kişi XVIII əsrin məşhur sənətkarı aşıq Valehin nəvəsi idi. Bəxşəli kişi balabançı, onun böyük oğlu Ağalar isə saz aşığı idi.

Qurban hələ kiçik yaşlarından xalq musiqisini sevmişdir. O, əvvəlcə balaban, sonra isə nağara, zurna və saz çalmağı öyrənmişdir. Çox sonralar Qurban Pirimov uşaqlıq illərini xatırlayaraq deyirdi: «Mənim bütün həvəsim tara idi. Tardan başqa heç bir şey məni maraqlandırmırdı».

Açıqfikirli kəndli olan Bəxşəli kişi oğlu Qurbanı Ağdamda rus-tatar məktəbinə qoymuşdu.

Qurban hələ məktəbdə oxuyarkən dəfələrlə Şuşa şəhərinə gedərdi. O zamanlar Şuşada Hacı Hüsü, Məşədi İsi, Keştazlı Həşim, Şahnaz Abbas kimi məşhur xanəndələr, Sadıqcan, Lazar, Cavadbəy, Zeynal kimi tarzənlər, Qosti, Mirzə, Avanes kimi kamançaçılar məclislərdə və şəhərin səfalı yerlərində çıxış edirdilər. Şuşa bazarına zoğal, armud satmağa gedən balaca Qurban bu məşhur sənətkarları dinləməyə can atardı. Şuşanın musiqi həyatını görən və ona heyran olan Qurban bir daha kəndə qayıtmaq istəmirdi. O, on üç yaşında ikən məktəbi tərk edib aşıq Abbasquluya qoşulub Şuşaya gedir, iki səbət də Gülablı armudu aparıb satır, özünə tar alır. Aşıq Abbasqulu Qurbanı tarzən Sadıqcanın yanına aparır. Sadıqcan öz dostunun xahişi ilə gənc Qurbanın tar çalmağını dinləyir. Onun iri əlləri, uzun barmaqları,güclü biləyi məşhur tarzənə yaxşı təsir bağışlayır. Sadıqcan qısa müddət ərzində Qurbana zəngin muğam yollarını öyrədir. Müəllimin səyi hədər getmir. On beş yaşlı gənc Qurban bütün Qarabağda tanınmağa başlayır. O,

Qarabağın kənd toylarında xanəndə Əkbər Xamuş oğlunu müşayiət edir. Sonralar gözəl xanəndə İslam Abdullayevlə tanış olur, onun dəstəsinə qoşulur.

Daha bir neçə il keçir. 1905-ci ilin payızında böyük müğənni Cabbar Qaryağdı oğlu Gəncəyə toy məclisinə dəvət edilir. Bu hadisə şəhərin musiqi həvəskarlarının hədsiz sevincinə səbəb olur. Gənc tarzən xanəndə İslam Abdullayevlə Qaryağdı oğlunun görüşünə gedir. S. Qaryağdı oğlu bu görüş barəsində öz xatirələrində belə yazmışdır: «Qurban İslam ilə bizim görüşümüzə gəlmişdi. Mən Qurbana bir qədər tar çaldırdım. Qurbanın gözəl çaldığını görüb onu İslamın razılığı ilə özümlə Bakıya gətirdim».[238]

Həmin vaxtdan Cabbar Qaryağdı oğlu, Qurban Pirimov və Saşa Oqanezaşvilidən ibarət musiqi üçlüyü yaranır. Bu trio yalnız Azərbaycanda və Qafqazda deyil, hətta Orta Asiya ölkələrində tanınmağa başlayır. Bu üç məşhur sənətkarın dostluğu 20 ildən artıq davam etmiş və Azərbaycan milli incəsənəti tarixində görkəmli rol oynamışdır.

Azərbaycan musiqi tarixində tanınan musiqi üçlüklərinin demək olar ki, hamısı Qafqaz, Yaxın və Orta Şərqin bir çox ölkələrində məşhur idilər. Onların hər birinin öz üslubu, gözəlliyi, məziyyəti vardı. Lakin etiraf etmək olar ki, xanəndə Cabbar Qaryağdı oğlu, tarzən Qurban Pirimov və kamançaçı Saşa Oqanezaşvilidən ibarət olan ifaçılıq ansamblı daha mütəşəkkil, qüdrətli, çalıb-oxuduqları muğam və el havaları isə daha səlis və təsirli idi. Cabbar Qaryağdı oğlunun insanı vəcdə gətirən səsi, texniki ustalıqla səsə» dinamik boyalar verməsi, bir neçə forma və mərtəbədə surəkli və şaqraq zəngulələr vurması, ustad tarzənin uzun və güclü barmaqları, istedadlı kamançaçının özünəməxsus orijinal bir üslubla gözəl çalğısı böyük bir yaradıcılıq vəhdəti təşkil edirdi. Təsadüfi deyildir ki, bu üçlüyün ifaçılıq məharəti bir çox məşhur musiqişünasların nəzər-diqqətini cəlb etmişdi. Görkəmli Sovet musiqişünası V. Vinoqradov bu ansamblın üzvləri haqqında yazmışdır:

«Azərbaycan musiqi tarixində hələ inqnlabdan əvvəlki illərdə ortaya çıxmış görkəmli sazəndələrin adları yaşamaqdadır. Onların çaldıqları mahnılar hələ o zaman qrammofon vallarına yazılmışdır. Xanəndə Cabbar Qaryağdı oğlu, tarzən Qurban Pirimov və kamançaçı Saşa Oqanezaşvilidən ibarət olan gözəl trio on illər boyunca Qafqazda və onun hüdudlarından xaricdə konsertlə)r vermişdir. Tutduğu mövqeyə və bədii təsirinə görə bu trionu birinci dərəcəli Avropa ansamblları ilə müqayisə etmək olar. Qurban Pirimovun ifasında isə klassik bir kamillik və tənasüb hiss olunur».[239]

Bu ansamblın şöhrəti görkəmli Sovet musiqişünası Georgi Xubovu da düşündürmüşdü, K. Xubov yazırdı: “Məşhur” Azəbaycan müğənnisi Qaryağdı oğlu Cabbarın ansamblının şöhrəti nəinki Zaqafqaziyaya, hətta bütün Orta Asiyaya belə

---

[238] Cabbar Qaryağdı oğlu. Keçmiş Azərbaycan musiqisi haqqında xatirələrim əlyazmaları), Azərbaycan SSR Mədəniyyət Nazirliyi Memarlıq və İncəsənət İnstitutunun arxivi, qovluq № 75.

[239] V. Vinoqradov. Üzeyir Hacıbəyov və Azərbaycan musiqisi. Moskva, 1938, səh. 25-26.

səs salmışdı».[240] Azərbaycan bəstəkarı Əfrasiyab Bədəlbəyli isə bu trionu: «ƏzəmƏtli bir orkestr» adlandırmışdır.[241]

Qaryağdı oğlu Cabbarın uzun illər Qurban Pirimov və Saşa Oqanezaşvili ilə çalıb-oxuması yaşlı nəsildən olanların yaxşı yadındadır. Bu üçlüyün qrammofon vallarına yazılmış «Bayatı-Qacar», «Dəşdi», «Çahargah», «Heyratı», «Kürdü-Şahnaz» və sair muğamları dinləyicnin diqqətini cəlb etməklə, onda belə təsəvvür yaradır ki, oxuyan təkcə xanəndə deyil, bütün üçlükdür. Məsələn, bunların ifa etdikləri «Mahur»u götürək muğamın başlanğıcında Qurban Pirimov ilə Saşa Oqanezaşvilinin çalğısını dinləyərkən adama elə gəlir ki, böyük bir orkestr uvertüra çalır. Bir qədər sonra Qaryağdı oğlunun əzəmətli səsi və parlaq zəngulələri bu orkestrə qoşulduqda, elə bil ki, yüzlərlə rəngarəng səslər, nidalar həyatın gözəlliklərinin məlum olmayan sirləindən bəhs edir.

«Mahur»un «Vilayəti» şöbəsinə qulaq asanda da eyni əzəmət və vüsəti, eyni dərinlik və incəliyi hiss edirsən. Burada Cabbarın hələ musiqi tarixində görünməyən guşə və xalları, xüsusilə özünəməxsus sürəkli zəngulələri, Qurbanın vurduğu alt-üst mizrablar, Saşanın iti barmaqları insanı həyəcana gətirirdi.

Qurban Pirimov öz söhbətlərində həmişə Cabbar və Saşanın adını böyük hörmət və iftixar hissi ilə çəkər, özünü onların tələbəsi adlandırardı. Bir dəfə bu sətirlərin müəllifi ondan Cabbar ilə Saşanın sənətkarlığı haqqında soruşduqda o, dərindən köksünü ötürüb dedi:

«Cabbar ilə Saşanı analar doğmayıb. Mən Hacı Hüsünü, Məşədi İsini, Keştazlı Həşimi eşitmişəm. Əbdülbaqini, Mirzə Məhəmmədhəsəni, Dəli İsmayılbəyi, Şahnaz Abbası, Ələsgəri, Keçəçi oğlunu çox oxutmuşam, Avanes, Qosti, Sevn, Moses, Levon, Ruben kimi məşhur kamança çalanların çalğısına da çox qulaq asmışam. Amma Cabbar ilə Saşadan olmazdı. Bunlar kimi sənəti sevən, öyrənən, çalışan sənətkar görməmişəm. Mənim kamil bir tarzən olmağımda onların əməyi çoxdur. Mən xoşbəxt sənətkaram. Ona görə ki, iyirmi il Cabbarın solunda, Saşanın isə sağında oturub çalmışam. Onlar həm qayğıkeş müəllim, həm də gözəl insanlardı».

Məlum olduğu kimi, Cabbar Qaryağdı oğlu, Qurban Pirimov və Saşa Oqanezaşvilidən ibarət olan ansambl, əsasən Bakı məclislərində çıxış edirdi. Lakin bu ansamblın şöhrəti, nəinki Qafqazda, hətta Yaxın Şərqin bir çox ölkələrində məşhur idi.

Qurban Pirimov təkcə xalq şənliklərində çıxış etməmişdi. O, Bakıda verilən teatr tamaşalarının fasilələrində, Şərq konsertlərində məşhur xanəndələri tarda müşayiət etmiş, eyni zamanda bir çox muğamları tarda solo çalmışdır.

---

[240] K. Xubov. Aram Xaçaturyan. Moskva, 1962, səh. 20.
[241] Ə. Bədəlbəyli. Qurban Pirimov. Bakı, 1965, səh. 22.

Azərbaycan dövri mətbuatında, teatr afişa və proqramlarında Qurban Pirimovun adına tez-tez rast gəlirik. «Kaspi» qəzetində verilən məlumatların birində deyilirdi:

«1916-cı il mart ayının 9-da Bakıda «Nicat» cəmiyyəti tərəfindən «Şərq gecəsi» keçiriləcək.

Gecədə artistlərdən Hüseyn Ərəblinski, Hacıağa Abbasov çıxış edəcək, şair Səməd Mənsur isə köhnə və yeni ilə həsr etdiyi şerlərini söyləyəcəkdir.

Gecənin konsert şöbəsində tarda Qurban Pirimov, kamançada Ter-Qriqoryants, neydə isə Mirzə Abdulla çalacaqdır».[242]

Qurban Pirimov Azərbaycan opera sənətinin banisi Üzeyir Hacıbəyovun ən yaxın dostlarından biri kimi opera sənətinin meydana gəlməsində və inkişafında görkəmli rol oynamışdır. Qurban Pirimov ilk Azərbaycan operası «Leyli və Məcnun»da səlist-tarzən kimi çıxış etmişdir. Həmin tarixi mədəni hadisədən sonra Qurban Pirimovun ifaçılıq sənəti Azərbaycan opera sənəti ilə yaxından bağlı olmuşdur.

XX əsrin əvvəllərində bütün Zaqafqaziyada bir tarzən kimi şöhrət qazanmış Qurban Pirimov, Cabbar Qaryağdı oğlu və Saşa Oqanezaşvili ilə birlikdə (1910-1912-ci illərdə) «Sport-Rekord» firması tərəfindən Moskva, Kiyev və Varşava şəhərlərinə dəvət edilmişdir. Qurban Pirimov Varşavada olarkən Qaryağdı oğlunun. Keçəçi oğlu Məhəmmədin, Məşədi Məmməd Fərzəliyevin və Davud Səfiyarovun, Kiyevdə isə Şəkili Ələsgərin, İslam Abdullayevin, Zabul Qasımın və Əkbər Xamuş oğlunun qrammofon valları üçün oxuduqları muğam, mahnı və təsnifləri tarda müşayiət etmişdi. Bunlardan əlavə, Qurban Pirimov bir neçə muğamı tarda solo çalmışdı. Onun «Çoban bayatı»sında xüsusi bir zövqlə vurduğu incə və şirin barmaqlar dinləyicilərin qəlbini həyəcana gətirir, onda xoş duyğular oyadırdı. Xanəndəni oxudan sazəndədir. Xanəndənin avazını ustalıqla müşayiət etmək onun oxumasını dinləyiciyə daha parlaq bir tərzdə çatdırmaq üçün nəğməkarı ruhlandırmaq, ilhama gətirmək, onun ifaçılıq sənətini zinətləndirmək - bütün bu məsələlər Azərbaycan xalq musiqi yaradıcılığında xüsusi əhəmiyyətə malikdir. Siz bunu Qurban Pirimovun və Saşa Oqanezaşvilinin müşayiəti ilə qrammofon vallarında oxumuş xanəndələrin, xüsusilə Cabbar Qaryağdı oğlunun ifasında aydın görürük.

Məsələn, bunların ifa etdikləri «Heyratı»nı götürək. Cabbarın vurduğu surəkli zəngulələr, gözəl nəfəslər dinləyicini, doğrudan da, heyran edirdi. Lakin bu xoş avazın dinləyicidə oyatdığı böyük təsiri qat-qat artıran və bu mahnı ustadın ifaçılıq nailiyyətini daha da zənginləşdirən bir qüdrətli amil vardı, o da Qurban Pirimovun bir orkestr qədər əzəmətlə səslənən sədəfli tarından, bu istedadlı sənətkarın mizrabı altından qopan səslərdi.[243] Doğrudanda, Cabbar Qaryağdı

---

[242] Bax: «Kaspi» qəzeti, 1916-cı il, № 57.
[243] Bax: Ə. Bədəlbəyli. Qurban Pirimov. Bakı, 1955, səh. 22.

oğlunun «Heyratı»sını müşayiət edən Qurban Pirimov və Saşa Oqanezaşvili hər vasitə ilə çalışmışdır ki, xanəndənin səsi dinləyiciyə asan çatsın.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Qurban Pirimovun qarşısında geniş yaradıcılıq üfüqləri açılır. O ilk təşəkkül illərində təşkil olunmuş təşviqat briqadalarında fəal iştirak etmişdi. Qurban Pirimov 1921-ci ildə Əliheydər Qarayevin rəhbərlik etdiyi təşviqat briqadası ilə Azərbaycanın bir çox rayonlarına gedərək konsertlər vermişdi.

Qurban Pirimov Azərbaycan Dövlət Opera və Balet Teatrı yarandığı ilk gündən teatrın səlisti olmuş, tam qırx il yorulmadan çalışmışdır.

O, təkcə orkestrdə səlist olmamışdır. Qurban Pirimov opera əsərlərinin daha da təkmilləşməsində bəstəkarlara və dirijorlara faydalı məsləhətlər verir, onlara yeni opera əsərlərinin yaranmasında yaxından kömək edirdi.

Qurban Pirimov məşhur Azərbaycan bəstəkarı Müslüm Maqomayev və görkəmli Sovet bəstəkarı, SSRİ xalq artisti Qliyerin ən yaxın dostu idi. M. Maqomayevin «Şah İsmayıl» və R. Qliyerin «Şahsənəm» operasının meydana çıxmasına Qurban Pirimovun böyük yardımı və köməyi olmuşdur. Bəstəkarlar mətbuat səhifələrində Qurban Pirimova öz minnətdarlıqlarını dəfələrlə bildirmişlər. Azərbaycanın görkəmli bəstəkarları Fikrət Əmirov və Qara Qarayev də böyük tarzənin yaradıcılığından istifadə etmişlər. Fikrət Əmirov «Şur» və «Kürd-Ovşarı» simfopik muğamlarını bəstələyərkən bəzi musiqi materiallarını Qurban Pirimovun çalğısından yazmışdır. Qara Qarayev isə «Yeddi gözəl» baletində vals mövzusunu onun «Çahargah»ından almışdır.

1929-cu ildə respublika ictimaiyyəti Qurban Pirimovun fəaliyyətinin 25 illiyini bayram etdi. Çox keçmədən ona respublikanın əməkdar artisti kimi fəxri ad verildi.

Azərbaycanın dövri mətbuatı Qurban Pnrimovun sənətini və ifaçılıq qabiliyyətini həmişə yüksək qiymətləndirmişdir. 1929-çu ilin aprel ayının 28-də «Gənc işçi» qəzeti yazmışdı: «Qurbanı tanımayanlar çox azdır. O, Şərqin doğma musiqiçisi - tarın atasıdır. Qurban operalarımızda və konsertlərimizdə tamaşaçılarımızın ruhuna qida verir. Qurban istedadlı, yaradıcı bir musiqişünasdır».

1934-cü ilin may ayında Tbilisi şəhərində keçirilən Zaqafqaziya xalqları incəsənəti olimpiadasında Qurban Pirimov birinci mükafata layiq görülmüş, Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin birinci dərəcəli Fəxri Fərmanı ilə təltif edilmişdir.

Bu münasibətlə «Kommunist» qəzeti yazmışdı: «64 il yorulmadan oxuyan məşhur Cabbar Qaryağdı oğlunun zəngulələrini, pərdədən-pərdəyə keçməsini sədəfli tarının simləri üzərində incə, lakin çox möhkəm və quruluşlu barmaqlarını

asanlıqla gəzdirən, oxuyana, dinləyənə ruh verən xalq artisti Qurbana kim göz yetirməmişdir».[244]

Qurban Pirimov 1938-ci ildə Azərbaycan incəsənəti Dekadasında, 1939-cu ildə xalq çalğı alətlərində çalan ifaçıların birinci Ümumittifaq baxışında, nəhayət, 1940-cı ilin mayında Azərbaycan ədəbiyyatı ongünlüyündə, habelə digər sınaq mərasimlərində həmişə qalıb çıxmış, ən yüksək mükafata layiq görülmüşdür. «Правда» qəzetində çap edilmiş məqalələrin birində Qurban Pirimov «Azərbaycan musiqisinin atası» adlandırılmış, onun böyük sənəti yüksək qiymətləndirilmişdir.

Qurban Pirimov təkcə Azərbaycanda deyil, bütün Qafqazda, Orta və Yaxın Şərqdə böyük tarzən kimi məşhur olmuşdur. Onun sədəfli tarının sehirli səsi dinləyicinin qəlbini fəth edirdi. Yazıçı İlyas Əfəndiyev «Tarzən» adlı məqaləsində yazmışdır: «Mən Qurbanı birinci dəfə Bakı filarmoniyasının yay binasında görmüşəm. Ulduzlu bir gecə idi. Biz sükut içində oturub səhnədə «Çahargah» çalan Qurbanı dinləyirdik. Mənə elə gəlirdi ki, bu səslər tardan deyil, tarzənin qəlbinin dərinliklərindən qonub gəlir...

Qurban dərin və həssas qəlbə malik orijinal bir sənətkardır. Musiqidən az-çox başı çıxan adam radioda adını eşitməsə belə çalanın Qurban olduğunu dərhal təyin edir. Onun özünəməxsus üslubu vardır. Onun vurduğu rənglər, xallar, nida və intonasiyalar zəngin, incə və orijinaldır.

Bütün həqiqi sənətkarlar kimi o, da mərd və ləyaqətli insan duyğularını tərənnüm edir».[245]

Qurban Pirimov son dərəcə zəhmətsevən, sənətə ciddi yanaşan bir ustad idi. O, həmişə deyərdi: «Sənətkar olmaq istəyən, hər şeydən əvvəl xalqa namusla xidmət etmək üçün öz sənətinin bütün «sirlərini» öyrənməlidir. Ancaq, öyrənmək, ustad olmaq da ümdə şərtdir. Bir də gərək öz barmağın olsun. Gərək özgələri yamsılamayasan. Tarzənlik də şairlik kimi bir şeydir. Gərək ürəkdən gəlsin. Yoxsa heç nə çıxmaz».

Klassik Şərq və Azərbaycan muğamlarını gözəl bilən Qurban Pirimov öz ifaçılıq məharəti ilə Azərbaycan tar çalmaq sənətinin ən gözəl ənənələrini inkişaf etdirmiş və daha da zənginləşdirmişdir. Qurban Pirimovun orijinal yaradıcılığı vardır. O, həqiqi səpətkar idi. Məlumdur ki, Qurban Pirimov hər hansı bir muğamı və yaxud rəngləri çalırsa-çalsın, o heç vaxt ifa etdiyi musiqi əsərini xırdalamır, onu aydın və ifadəli bir şəkildə dinləyiciyə çatdırardı. Bir dəfə mən Seyid Şuşinskidən soruşdum ki, nə üçün Cabbar Qaryağdı oğlu kimi böyük bir xanəndə Lazar Ter-Vartanesov, Məşədi Zeynal, Bala oğlu Qrikor, Cavadbəy Xanəzəyski, Arsen Yaramışev, Bala Məlikov kimi məşhur tarzənləri qoyub o zaman gənc Qurbanı özünə sənət yoldaşı seçmişdi? Seyid Şuşinski əvvəlcə dinmədi, fikrə getdi, xeyli düşünüb, nəhayət dedi:

---

[244] Bax: «Kommunist» qəzeti, 3 iyun 1934-cu il, № 129.

[245] İ. Əfəndiyev. Tarzən. «Ədəbiyyat və incəsənət» qəzeti, 30 oktyabr 1965-ci il, №44.

- Sənə zarafat gəlməsin. Cabbar kimi cəngavər bir xanəndəni müşayiət etmək hər tarzənin işi deyildi. Çünki Cabbar ən azı bir muğamı üç-dörd saata oxuyardı. Yaxşı yadımdadır. Bir gün Bakı məclislərinin birinə Cabbarı, Ələsgəri və məni dəvət etmişdilər. Tarçalanımız Qurban idi. Cabbar axşam saat 8-də «Mahur»u başlayıb, gecə saat 1-ə yaxın qurtardı. Deməyim odur ki, hər tarzən buna tab etməzdi.

Qurban Pirimov yarım əsrdən artıq bir vaxtda müəllimi, görkəmli tarzən Sadıqcanın tar məktəbini davam və inkişaf etdirib zənginləşdirmişdi. O, onlarca istedadlı tarzən yetişdirmişdir. Qurban Pirimovun Soqomon Seyranov, Zərif Qayıbov, Hacı Məmmədov, Məmmədağa Muradov, Əliağa Quliyev, Əhsən Dadaşov, Həbib Bayramov, Sərvər İbrahimov, Xosrov Fərəcov və b. yetirmələri respublikanın hüdudlarından uzaqlarda da tanınırlar.

Görkəmli tarzən bir çox illər klassik xanəndələrimizin bütöv bir nəslini Saşa Oqanezaşvili ilə birlikdə öz sədəfli tarında müşayiət etmişdir. Maraqlı burasıdır ki, o dövrün xanəndələri qrammofon şirkətləri tərəfindən səslərini vala yazdırmaq üçün dəvət olunarkən onların əksəriyyəti yalnız Qurban Pirimov və Saşa Oqanezaşvilinin müşayiətilə oxumaq arzusunda olduqlarını bildirərdilər. Bu isə təsadüfi deyildi. Çünki, xanəndə oxutmaqda başqa çalğıçılara nisbətən Qurban ilə Saşa daha məşhur idilər. Bu faktı köhnə qrammofon valları təsdiq edir. İstər Qaryağdı oğlunun, istər Şəkili Ələsgərin və istərsə də Segah İslamın Qurban və Saşa ilə oxuduqları muğamlar öz keyfiyyəti, məziyyəti və təsir gücü ilə digər çalğıçıların müşayiətilə oxuduqlarından tamamilə seçilir. Məhz buna görə də bütün xanəndələr, Qurban ilə Saşanın müşayiəti ilə oxumağa can atırdılar. Ona görə ki, xanəndənin avazını dinləyiciyə olduğu kimi çatdırmaq, ona dinamik boyalar, melodik bəzəklər vurmaqda sazəndədən çox şey asılıdır. Bütün bunlar ifaçılıq sənətində xüsusi əhəmiyyətə malikdir. Biz bunu Qurban Pirimovun və Saşa Oqanezaşvilinin müşayiətilə məşhur xanəndəmiz Məşədi Məmməd Fərzəliyevin inqilabdan əvvəl qrammofon valına yazdırdığı «Şüştər» muğamında aydın görürük. «Şüştər»ə qulaq asanda adama elə gəlir ki, azadlıq eşqi ilə çırpınan bir insan ürəyinin son dərəcə dərdli hönkürtülərini eşidirsən. Bu kədər və qəmli muğamı öz həzin və qüdrətli səsilə şikayət və yalvarış tərzində oxuyan Məşədi Məmməd dinləyicini həyatın min-bir çətinlikləri, dövrün ədalətsiz qanunları və dünyada olan haqsızlıqlarla qarşılaşdırır. Lakin dinləyicidə insan hüquqsuzluğuna qarşı həm kədər, həm də nifrət oyadan bu həzin və son dərəcə nisgilli avazın təsirini qat-qat artıran və bu mahir ifaçının oxumaq məharətinin daha da zənginləşməsinə səbəb olan Qurban Pirimovun sehirli tarından, istedadlı kamançaçı Saşa Oqanezaşvilinin inləyən kamanından qopan səslərdir. Hər iki müşayiətçi çalışmışlar ki, xanəndə muğamın öhdəsindən asanlıqla gəlsin və dinləyicini heyran etsin.

Musiqi məclislərində Seyid Şuşinski, Zülfü Adıgözəlov, Mütəllim Mütəllimov, Xan Şuşinski, Əbülfət Əliyav kimi mahir xanəndələri öz sədəfli

tarında müşayiət edən Qurban Pirimovun çalğısına çox qulaq asmışam. Onun xanəndənin yanında oturuşu, biləklərini çirmələməsi, tarı vüqarla tutması adamı heyran edərdi... Özü də son dərəcə təmiz və səliqə ilə geyinər, tarına xüsusi olaraq qulluq edərdi. Çalmazdan qabaq əllərini mütləq sabun ilə yuyardı. Hətta uzaq yol gedəndə belə tarı heç kəsə verməzdi. Qurban Pirimovun tarı, ondakı pərdələrin quruluşu başqa tarzənlərin tarına bənzəmirdi. Maraqlı burasıdır ki, başqaları onun tarını çala bilmirdilər. İstər musiqili məclislərdə, istərsə də səhnədə xanəndələrin hamısı Qurbanla oxumağa can atardı. Qoca tarzən xanəndəni nəinki öz gözəl rəvan çalğısı ilə ruhlandırar, eyni zamanda dəstgahın öhdəsindən gəlmək üçün xanəndəyə hər cür köməklik göstərərdi... O, xanəndəyə «rəhbərlik» etsə belə, heç bir vaxt özünü ön plana çəkməz, xalq musiqi üçlüyündə tarın və özünün mövqeyini artırmağa cəhd göstərməzdi... Özünü heç bir zaman öyməz, çoxbilən hesab etməz və sənətdə «mənəm-mənəm» deməzdi. Yaxşı xatırlayıram. 1960-cı ilin yay günlərinin birində bizi Şuşada toy məclisinə dəvət etmişdilər. Oxuyan Seyid Şuşinski, tar çalan isə Qurban Pirimov idi. Məclisin «masa bəyliyi» mənə həvalə olunmuşdu. Seyid bir qədər xəstəhal idi... Lakin məclis əhli bir ağızdan onun «Çahargah» oxumağını xahiş edirdi... Bunu görən Seyid dilləndi:

- Camaat, çoxdandır mənim Firiduna borcum var. Hərçəndi xəstəyəm. Lakin neynəmək, dünyanın işini bilmək olmaz. Qoyun onun borcun verim.

Hamı yer-yerdən:

- Ağa, borcun nədir?

- «Məsnəvi».

Seyid Şuşinski «Məsnəvi» deyəndə hamı susdu və qonaqlar arasında bədgüman olanlar bir-birinin üzünə təəccüblə baxdılar. Seyidə sual verənlər də oldu. Kimsə dedi:

- Ağa, «Məsnəvi» nədir?

Qoca xanəndə gülümsəyib başını buladı:

- Eh, adınızı qoymusuz qarabaqlı, özü də həmişə deyərsiniz musiqi bizimdir, oxumağı biz yaratmışıq. Amma «Məsnəvi» nədir, onu bilmirsiniz.

Sonra üzünü Qurban əmiyə çevirib dedi:

- hə, qoca şir, başla görək.

- Əşi, nəyi?

- «Məsnəvi»ni.

Qurban əmi bir qədər duruxdu, amma özünü itirmədi:

- Ay ağa, vallah mənim də yadımdan çıxıb - dedi. Seyid əsəbiləşdi:

- Necə, yadından çıxıb?! Qurban:

- Ay ağa, daha niyə hirslənirsən. Cabbar oxumayıb, Saşa da çalmayıb. Mən hardan bilim?

Seyid qəlyanı tütünlə doldurub üzünü camaata tutub dedi: - «Məsnəvi» «Mahur» dəstgahının axırında «Şüştər» ilə «Suzi-güdaz» arasında olan bir şöbədir. Əbülhəsən Xan İqbal bunu ayrıca bir muğam kimi oxuyardı.

Seyid qəlyanı yandırıb ağır-ağır sümürdü, tüstünü havaya üfürüb tarzənə şən, amiranə bir səslə:

- Hə, Qurban, dalımca gəl - deyib oxumağa başladı. Məclisdən sonra mən Qurban əmiyə dedim:

- Ağa səni yaman imtahana çəkdi ha, dostum. O, heç bir şey olmamış kimi dilləndi:

- Əşi, yaxşı qurtardım. Bir də belə şeylərə fikir vermə. Mənim özüm onun oxumağının xəstəsiyəm. Seyidi oxudanda mən dincəlirəm. Özü də çox ustadır. Muğamatda elə bir çətin şey yoxdur ki, o bilməsin. Görmədin mənə dedi «dalımca gəl». Bunu hər xanəndə edə bilməzdi. Rəhmətlik Cabbarın özü Seyidə böyük qiymət verərdi. Özü də həmişə onunla hesablaşardı.

Qurban Pirimov bu kitabın müəllifinə Azərbaycan musiqi tarixi haqqında qiymətli materiallar verib, klassik xanəndələrimiz haqqında son dərəcə maraqlı xatirələr söyləmişdir. Bir gün mən ondan soruşdum:

- Qurban əmi, xanəndələr arasında Cabbardan sonra ən çox kimi müşayiət etmək arzusunda olmusan?

O, fikirləşmədən tez cavab verdi:

- Ən əvvəl Zülfünü xoşlamışam. - Bir az fikrə gedib yenidən dilləndi: - Niyə Mütəllim də pis deyil.

- Bəs Xan? - Mən bu sualı verdikdə Qurban əmi bir qədər duruxdu, sonra zarafatyana dedi:

- Əşi, məni işə salmaq istəyirsən?

- Heç də yox. Amma sənin fikrini bilmək istərdim. Bu çox vacibdir - dedim.

- Firidun can, əvvəla Xandan yazanda onu heç kəslə müqayisə etmə. Bu səsdən olmaz. Mən belə gözəl, şirin, nə təhər deyim, ipək kimi yumşaq səsi, təkcə Hacı Hüsüdə eşitmişəm. Çox zərif, həm də güclü səsdir. Özü də rezin kimi çəkdikcə uzanır. Nə olsun, həmişə məni yorur. Oxumaq istəmir. Cabbara dörd saat «Mahur» çalmışam, yorulmamışam. Amma Xana cəmi vur-tut otuz dəqiqə «Zabul» çalanda yoruluram.

Mən burada özümü saxlaya bilməyib tez soruşdum:

- Niyə?

Qurban əmi daha da ciddiləşib dedi:

- Xan bir balaca tənbəldir, özünə qıymır. Bir də onun evini qardaşı Allahyar yıxıb. Onu neçə lazımdır oxutmur. Əşi, görmürsən o günü radioda danışıb deyir ki, «bu yaxınlarda gedəjəm Qarabağa, «Mahur» oxuyajam, «Şüştər» oxuyajam, «Çahargah» oxuyajam, «Mənsuriyyə»si ilə». Heç gör bu da sözdü? Əşi, bu hələ

indən belə «Mənsuriyyə» oxuyacaq? Onda Cabbarın anası ölsün. 83 yaşında belə tarın «do» kökündə «Heyratı» oxuyardı.

Mən gördüm ki, qoca tarzən getdikcə əsəbiləşir, onu sakitləşdirmək məqsədi ilə dedim:

- Qurban əmi, əsəbiləşmə, bu tənbəllik bütün xanəndələrdə var.

Bu dəfə Qurban əmi mənimlə razılaşıb əlavə etdi.

- Əşi, düz deyirsən. Xana min şükür. Amma, Firidun can, onu da bil ki, atalar yaxşı deyib: «Uman yerdən küsərlər». Mən də Xandan umuram. Çünki, Xanda olan səs, qabiliyyət, istedad heç kəsdə yoxdur.

Bəs belə olduqda allah ondan niyə alıb? Axı, indi Cabbar yoxdur, Seyid də qocalıb. Bəs Xan da oxumayıb kim oxuyacaq?! Ondakı səs deyil, allah vergisidir! Bəs adam da belə vergiyə göz yumarmı? Bilirsənmi, onun oxumağının necə həsrətindəyəm. O səs Zülfüdə olsaydı «Dəlidağı» yerindən oynadardı. Bax, buna görə də Xandan küsürəm...

Qurban əminin bu sadə və mənalı sölərində bir həqiqət vardı: Doğrudan da, nədənsə Xan Şuşinski Cabbara, Seyidə nisbətən çox az oxudu. Beləliklə də milyonlarla dinləyicini intizarda qoydu. Lakin bütün bunlara baxmayaraq muğamları müasir xanəndələr içərisində Xan məharətində, Xan incəliyində və Xan qabiliyyətində heç kəs oxumamışdır.

XX əsr hələlik ikinci bir Xanı yetirməmişdir. Xanın ecazkar səsindəki keyfiyyətləri yaxşı duyan Qurban, ondan bütün muğamları tamam-dəstgah oxumağı tələb etməkdə haqlı idi. Çünki, Qurban bir tarzən kimi yaxşı bilirdi ki, Xanın səsi kimi səs hər zaman dünyaya gəlmir...

Qoca tarzən müasir xanəndələr içərisində ən çox Əbülfət Əliyevi bəyənərdi və h'mişə deyərdi ki, bu Əbili-bala* ki var yaman şeydir. Təsirli oxuyur. Səsinin ölçüsündən xaricə çıxmır, Qaval çalmaqda və təsnif oxumaqda da əvəzi yoxdur.

Mən ayrı bir xanəndə haqqında da onun fikrini öyrənmək istədikdə o, yaman əsəbiləşdi:

- Əşi, heç səndən gözləməzdim, - dedi. - Ayıbdır. O adam xanəndə deyil.

Mən həmin adamın muğamata dərindən bələdliyini, əruzu yaxşı bildiyini söylədim.

Qurban əmi narazı halda qəlyanı təmbəki ilə doldurdu, başını buladı, sonra ciddi tonla dedi:

- Əşi, sən nə danışırsan. Nə muğam, nə əruz. Xanəndəyə birinci səs lazımdır. Səsi olmayan xanəndə susuz balığa bənzər. Mən İranda o qədər muğamat bilən dərvişlərə rast gəlmişəm ki, nə olsun, amma səsləri yox idi. Oxumaq da səsdən ibarətdir. səsin olmayandan sonra, istər əruzun, istərsə də muğamatın allahı ol, bir şey çıxmaz.

---

* Qocaman tarzən Əbülfətə "Əbili" və ya "Əbili-bala" deyə müraciət edərdi - müəllif.

Qaldı ki, sən deyən, xanəndə deyil: mərsiyəxandır. Nə zənguləsi var, nə də guşəxanlığı. Özü də onun oxumağından sidr-kafir iyi gəlir.

O oxuyanda adama elə gəlir ki, kimsə ölüb aparırlar basdırmağa.

Özü də oxuyanda alt dodağını dişinin üstünə qoyub o qədər «və-və-və» edir ki, adamın lap zəhləsini tökür. Hələ bu harasıdır. səsi olmadığına görə o qədər boğazına güc verir ki, az qalır gözləri çıxsın kəlləsinə. Özü də zəngüləsi olmadığına görə salır çənəsinə, elə bil «Qala qoyunu» gövşəyir.

Burada gülmək məni tutdu. Bunu görən Qurban əmi tərs-tərs baxıb dedi:

- Əşi, gülmək yox, ağlamaq lazımdır. Belə qondarma, özü də zor ilə xanəndə olmaq istəyənlər gör bizim gül kimi muğamlarımızı nə günə qoyurlar. Bunların qabağını almaq lazımdır, yoxsa sonrası gec olar.

Qurban Pirimov zərif duyğular, nikbin ideyalar tərənnümçüsü, şair qəlbli tarzən idi. O, olduqca təvazökar, mehriban, qayğıkeş bir insan kimi hamının hörmətini qazanmışdı. Qurban Pirimov gənc sənətkarlara həssaslıqla yanaşan, onların gələcəyi ilə maraqlanan gözəl müəllim idi.

Qurbanı musiqimizin cəngavəri adlandırsaq heç də səhv etmərik. Çünki o, ömrünün son günlərinədək öz sədəfli tarından ayrılmamışdı. O, 85 yaşında səhnəyə çıxanda dinləyicini yeni-yeni guşələr, xallar, rənglərlə qidalandırırdı. Bu yaşda tar çalmaq, iti barmaqlar işlətmək, samballı alt-üst mizrablar vurmaq, musiqi tariximizdə ən böyük cəsarət və hünər idi.

Böyük tarzənin sehirli tarında yetmiş il Gülablı bülbüllərinin səsi əks-səda vermişdi. Onun özü kimi qoca tarı da eyni eşq, eyni həvəslə səslənmiş, məclislərimizi bəzəyərək bizə füsunkar Şərq musiqisindən qəribə hekayətlər söyləmişdir. İstedadlı şair İslam Səfərli «Yetmiş il bir sinədə» adlı şerində qocaman tarzənin sədəfli tarına belə müraciət edir:

Yetmiş il bir sinədə,
Yurdumuza car oldun.
Sədəf tarlar içində
Sən Qurbana yar oldun.

Soruşur el-elatın
- Hanı «Çoban bayatı»n?

Qoca tarzən susanda,
Simin siminə dəydi.
Haray saldı Qarabağ,
Kəpəz başını əydi.

Sarı simin həzindi,

Sahibini gəz indi...

Barmağının istisi,
Pərdələrdə qalıbdır.
Görən son dəfə səndə,
Hansı muğam çalıbdı?

Kaş tozunu siləydim,
Onu bircə biləydim.

İncə pərdə, zərif xal,
Həzin mizrab hardadı?
Qaryağdının, Bülbülün
Xoş səsi bu tardadı.

Susma danış barı sən,
Azərbaycan tarı sən.

Qəm eləmə qoca tar,
Bəmin-zilin cavandı.
Hansı tar şura gəlsə,
Bil ki, sənin havandı.

Ey fikrə dalan tarım,
Qurbansız qalan tarım.

Azərbaycanda ilk musiqi məktəblərinin və mədəniyyət ocaqlarının təşkilində, dövlət konservatoriyası və filarmoniyasının yaranmasında, klassik muğam musiqimizin və gözəl musiqi alətimiz olan tarın yad təsirlərdən müdafiə edilməsində onun xidmətləri unudulmazdır. O, nadir istedad sahibi olmaqla bərabər, həm də yüksək mənəviyyatlı, nəsib, xoşxasiyyət və baməzə bir insan idi. İti yaddaşı və dərin hafizəsi var idi. Çox danışmağı sevməzdi. Bütün sə nət qələbələrini Qaryağdı oğlunun adı ilə bağlayırdı. Cabbarı həm müəllim, həm də qayğıkeş ata kimi minnətdarlıqla yad edərdi.

Qurban Pirimovun tar çalmağında təbii bir asanlıq, sərbəstlik, dəqiqlik, texniki zənginlik, nəsib və dərin lirizm vardı. O, tarı çox sadə, asan, sərbəst çalardı. Onun çalğıya verdiyi məna həmişə aydın, sadə və ən başlıcası xalq musiqisinin təbiətinə uyğun olurdu. Klassik Şərq və Azərbaycan muğamlarını dərindən bilən Qurban Pirimov öz ifaçılıq məharəti ilə Azərbaycan tarçalma sənətinin ən yaxşı

ənənələrini inkişaf etdirib zənginləşdirmişdir. Onun özünəməxsus orijinal yaradıcılıq məktəbi vardır.

Qurban Pirimov novator sənətkar olmuşdur. O, həmişə ilhamla çalırdı. Böyük sənətkar ömrünün son günlərinə qədər öz sevimli tarından ayrılmamışdı.

Mən Qurban Pirimovu son dəfə 1965-ci ilin avqust ayının 10-da Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında çıxış edərkən görmüşəm. Konsertdə gənc çalğıçılarla birlikdə 85 yaşlı Qurban Pirimov da iştirak edirdi. O, «Rahab» çalırdı. Sənət yollarında saç ağartmış qocaman tarzən öz sədəfli tarını sinəsinə sıxıb, barmaqlarını simlərə gənclik ehtirası ilə toxundurduqca, tellərdən qopan xoş, ürəkoxşayan səda dinləyicilərin ruhunu oxşayırdı. Qurban Pirimov «Rahab»ı 23 dəqiqə çaldı. Dinləyicilər hərarətli təbrik sədaları altında qocaman tarzəni üç dəfə səhnəyə dəvət etdilər. Tarzən öz pərəstişkarlarının xahişi ilə «Çoban bayatı»sını da çaldı. Qocaman tarzən dinləyicilərin qəlbini öz sehirli sənəti ilə fəth etdi. Bu yaşda tükənməz gənclik ehtirası ilə tar çalmaq musiqi tarixində hər tarzənə nəsib olmamışdır. Bu, Azərbaycan çalğı musiqisi tarixində böyük ustalıq, hünər və məharət idi.

Məlum olduğu kimi, Qurban Pirimov öz yaradıcılığı ilə Azərbaycanda ifaçılıq sənətini yüksək pilləyə qaldırmış, milli musiqimizin təbliği yolunda böyük xidmətlər göstərmişdir.

Zərif duyğular tərənnümçüsü, şair ürəkli ustad tarzən Qurban Pirimovun sənətini, uzunmüddətli səmərəli ifaçılıq məharətini və Azərbaycan musiqisinin inkişafında xidmətlərini nəzərə alaraq Sovet hökuməti onu Azərbaycan SSR xalq artisti fəxri adına layiq görmüş, Qırmızı Əmək Bayrağı, «Şərəf Nişanı» ordenləri və bir neçə medalla təltif etmişdir.

Böyük tarzən Qurban Pirimov 1965-ci il avqust ayının 29-da Bakı şəhərində vəfat etmişdir.

# Bahadır Mehralı oğlu



ONU el arasında Mehralı oğlu Bahadır deyə çağırardılar. Görkəmli xanəndə, gözəl müəllim kimi tanınmışdı. Bahadır 1883-cü ildə Şuşa şəhərinin «Çuxur məhəlləsi»ndə dabbaq ailəsində dünyaya göz açmışdı. Mehralı kişi musiqi həvəskarı idi, yaxşı qarmon çalardı. Odur ki, Bahadırın musiqiçi olmasını istəyirdi. səkkiz yaşında atası onu Molla İbrahimin məktəbinə qoyur. Molla İbrahim öz məktəbinə yalnız gözəl səsi olan cavan uşaqları qəbul edib onlara fars, türk dillərini öyrətməklə bərabər klassik muğamlardan dərs də keçirdi, şəbihgərdanlıq öyrədərdi. Qarabağın bir çox görkəmli muğam ustaları Molla İbrahimin məktəbində təlim almışdılar.

Bahadırın olduqca zil səsini və şəxsi istedadını nəzərə alan müəllimi onun ilə xüsusi məşğul olurdu. Onun zəhməti hədər getmədi. Gənc Bahadır musiqi elminə kamil yiyələndi, fars dilini mükəmməl öyrəndi. Molla İbrahim dəfələrlə tələbələrinə deyərdi:

- Muğam musiqisinə yiyələnmək üçün, xüsusilə Sədi, Hafiz, Ömər Xəyyam, Nizami kimi böyük şairlərin qəzəllərini oxumaq üçün fars dilini, Füzuli, Zakir, Seyid Əzim, Tofiq Fikrəti dərindən başa düşmək, anlamaq üçün ana dilinin incəliklərini öyrənməliciniz. Bunları bilmədən musiqiçi olmaq müşküldür.

Bahadırın bir xanəndə kimi püxtələşməsində atasının da müəyyən təsiri olmuşdur. Mehralı kişi öz oğluna dabbaqlıq sənətini öyrədirdi. Bahadır məktəbdən evə qayıdandan sonra atasının dükanına gedər, orada gön aşılayardı. Nahar vaxtı qonşu sənətkarlar Mehralı kişinin dükanına yığışardılar... Mehralı kişi isə dostlarının xahişi ilə qarmon çalar, Bahadırsa «Segah» üstündə züm-zümə edərdi.

Mehralı kişi musiqi məclislərinə, el şənliklərinə dəvət olunarkən gözəl səsli oğlunu da özü ilə aparardı. Bu məclislərdə Bahadır özünün incə və zil səsi, şirin nəfəsilə nəinki atasını, həm də bütün məclis əhlini xoşhal edərdi.

Bahadır öz üzərində ciddi çalışar, məhəllə toylarında yerli xanəndələrin oxumaqlarına diqqət yetirər, Füzulinin, Seyid Əzimin, Zakirin, Natəvanın qəzəllərini əzbərləyərdi. Onu xanəndələrdən ən çox Şərqin böyük müğənnisi Cabbar Qaryağdı oğlunun sənəti maraqlandırardı.

Bahadırın iyirmi yaşı tamam olanda artıq Qarabağda bir xanəndə kimi məşhur idi. O, tarzən Məşədi Cəmil və Balaca Qrikorla tez-tez şəhər yoxsullarının məclislərinə dəvət olunurdu.

XX əsrin əvvəllərində isə Mehralı oğlunu Şəki, Şirvan, Gəncə, İrəvan və Tiflis məclislərinə, toy şənliklərinə dəvət edərdilər. İstedadlı xanəndə hətta İran məclislərinə də dəvət olunmuşdu. Bahadır harada çıxış etmişsə, Azərbaycan musiqisinin qızğın təbliğatçısı olmuşdur. O, eyni zamanda Şuşada və Ağdamda

verilən teatr tamaşalarının fasilələrində və «Şərq konsertləri»ndə müvəffəqiyyətli çıxışları ilə dinləyicilərin hörmətini qazanmışdır.

Azərbaycanda Sovet hakimiyyətinin qurulması bütün sənətkarlar kimi Bahadırın da həyatında dönüş yaratdı. O, tarzənlər Abbasquluağa, Allahyar Cavanşirov və məşhur qarmonçu Abutalıb Kərbəlayı Muxtar oğlu, sonralar isə oğlu tarzən Məşədi Nəriman ilə uzun illər xalq şənliklərində, dram teatrlarında, mədəniyyət evlərində, Qızıl Ordu hissələrində və kolxoz çöllərində zəhmətkeşlərə mədəni xidmət göstərirdi.

Bahadır Mehralı oğlu sözün tam mənasında usta xanəndə idi. O, bütün muğamları pəsdə və zildə asanlıqla oxuyurdu. Musiqini nə xırdalamaz, nə də parçalamazdı, həm də artıq xallar vurmazdı. hər şeyi necə deyərlər, ölçüb-biçərdi. Oxuduğu muğamın bir guşəsini nə qədər şirin nəfəslərlə, duzlu xallarla vursa belə, onu iki dəfədən artıq təkrar etməzdi.

Şərq musiqisində belə bir ciddi qanun var: Müğənni oxuduğu musiqi parçasını və yaxud muğamın guşəsini nə qədər xoşagələn, şirin nəfəslərlə vurursa-vursun onu iki dəfədən artıq təkrar etməməlidir. Ona görə ki, artıq xallar, guşələr nə qədər xoş səslənsə belə, musiqinin təravətini azaldır. Əgər müəyyən bir guşə, nəfəs və yaxud zəngulə dinləyicini vəcdə gətirərsə, istər-istəməz yerindən xanəndəyə müraciət edər:

- Nənəm qurban, onu bir də, bir də!

Bu hala ən çox İran musiqi məclislərində təsadüf etmək olar. Farsların bir guşə və nəfəsdən xoşları gələndə dərhal yerlərindən qışqırarlar:

-Mükərrər, mükərrər* və yaxud: «Qurban eşqət»** və s.

Təəssüf ki, bəzi müasir xanəndələr etika, qayda gözləmirlər. Bir nəfəsi, boğazı və guşəni tez-tez, yerli-yersiz təkrar etməklə dinləyicini yorur, muğamı bayağılaşdırırlar.

Mehralı oğlu Bahadır əsl milli müğənni idi. «Qarabağ məktəbi» bütün ifaçılıq qanunlarına bir xanəndə kimi riayət etməkdə son dərəcə ehtiyatlı idi. O, bütün varlığı, düşüncəsi ilə xalq musiqisinə bağlı idi, musiqidə yad elementlərdən xoşlanmazdı. O, Azərbaycan musiqisinə xas olmayan «İran zənguləleri» vurmazdı.

Bahadır guşəxanlıqda, söz seçməkdə, qəzəlxanlıqda belə usta idi. O, muğamı tamam-dəstgah oxuyanda yalnız bir qəzəldən istifadə edərdi. sözçülüyə, meyxanəçiliyə və qəsidəçiliyə yol verməzdi.

Mehralı oğlunun repertuarı geniş və rəngarəng idi. Müğənni həmişə məclis əhlinin zövqünə uyğun mahnı və söz seçərdi. O, xalqın ruhuna, mənəvi aləminə bağlı olmayan, dövrün tələblərinə cavab verməyən bayağı, şit, intim meyxana «mahnıları» oxumazdı.

---

* Bir də, bir də.

** Eşqinə, həvəsinə qurban.

Bahadır dəfələrlə Zaqafqaziya miqyasında keçirilən musiqi və xalq yaradıcılığı olimpiadalarında iştirak etmiş, həmişə fəxri yerlərə layiq görülmüşdür.

1934-cü ildə may ayının 30-da Tiflisdə Zaqafqaziya xalqları incəsənətinin olimpiadası başlandı. Həmin olimpiadada 1.900 nəfər iştirak edirdi. Zaqafqaziyanın ən məşhur xanəndələri, çalğıçıları və rəqs ustaları buraya dəvət olunmuşdular. Böyük müvəffəqiyyətlə çıxış edən Mehralı oğlu Bahadır olimpiadanın ikinci mükafatına və Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin ikinci dərəcəli Fəxri Fərmanına layiq görüldü. Dövri mətbuatda onun haqqında yaxşı rəylər dərc edildi.

Mehralı oğlu Bahadırın səsi, zənguləsi o qədər cingiltili və qaltanlı idi ki, 3-4 kilometr məsafədən eşidilirdi. O, «Heyratı», «Qatar», «Kürdü-Şahnaz» kimi zil səs, coşğun zəngulə tələb edən muğamları sərbəst oxuyardı.

Mən Bahadırın səsini ilk dəfə 1931-ci ildə eşitmişəm. O zaman xanəndə Bahadır öz dəstəsi ilə Şuşanın «Çanaxtala» adlı seyrangahında çalıb-çağırardı. Mənim altı yaşım olardı. Hər axşam mən, atam, çox vaxt əmim qəssab Şəmillə öz qoyun-quzu sürümüzü və Xanlıq atlarını qarşılamaq üçün «Çanaxqala»ya çıxar, oradan da «Yel dəyirmanı»na enərdik. Məhz həmin yay aylarında Şuşaya istirahətə gələn yüzlərlə adam «Çanaxqala»ya seyrə çıxar, cıdıra tamaşa edər, «Çanaxqala»da Əvəz bəyin qəhvəxanasında çay-kofe içib dincələrdilər. Bir çoxları da ancaq Mehralı oğlu Bahadırı dinləmək üçün hər axşam buraya toplaşardılar. Təsadüfi deyildir ki, görkəmli ədib Mirzə Cəlil Məmmədquluzadə (Molla Nəsrəddin) də «Çanaxqala»nın havasını çox xoşladığından hər axşam uşaqları ilə buraya gəzməyə çıxardı. 1931-ci ilin yay fəsli Mirzə Cəlil arvadı Həmidə xanım və uşaqları ilə bizim evə düşmüşdü.[246] Mənim əmim arvadı Abıhəyat Həmidə xanımın qohumu idi.

Mirzə Cəlil «Çanaxqala»nı Şuşanın bütün seyrəngahlarından daha çox xoşlardı. O, hekayələrinin birində bu yerlərin mənzərəsini, gördükləri qələbəliyi qələmə almışdı.

Qəhvəxana sahibi Əvəz bəy Mirzə Cəlilə xüsusi ehtiram və hörmət bəslədiyindən kənarda tək armud ağasının altında masa qoydurmuşdu. Mirzə Cəlil burada təkcə əyləşərdi... Mirzə Cəlilli «Çanaxtala»nın ab-havasının şairanəliyindən savayı Bahadırın gözəl oxumağı da riqqətə gətirirdi. O, əmimə deyirdi:

- Bu kişinin oxumağı məni valeh edir. Həm ustadır, həm də təsirli oxuyur.

Əmim də onun sözünü təsdiq edərdi:

- Düz buyurursunuz, Mirzə, çobanlar deyirlər ki, Bahadırın səsi Xəlifəli çayına, hətta Qaybalı kəndinə belə çatır.

Doğrudan da Mehralı oğlu Bahadır «Qarabağ şikəstəsi» oxuyanda onun səsini uzaqlardan eşitmək olardı. O vaxtlar Xan Şuşinski «Şəhər bulvarında» oxuyardı. Bahadırın səsini eşidəndə o da «Qarabağ şikəstəsi»ni başlardı. Hər iki

[246] Bax: Həmidə xanım Cavanşir. Mirzə Cəlil haqqında xatirələrim. Bakı, 1967, səh. 183.

xanəndə aralarındakı 2 verstlik məsafəni qət edib, sanki, bir-birilə Qarabağ bülbülləri kimi yarışardılar.

Mehralı oğlu Bahadırın səsini mən «Çanaxqala»dan başqa məhəlləmizdə olan toylarda və şəhər klubunda verilən konsertlərdə belə çox eşitmişəm. 30-cu illərin yay aylarında Şuşada bir canlanma olardı: Hər yandan istirahətə gələn mədəniyyət xadimləri - şairlər, bəstəkarlar, yazıçılar, rəssamlar, xanəndələr, bnr sözlə, incəsənət xadimləri buraya tonlaşar, istirahət edər, həm də yerli əhaliyə və gəzməyə gələn qonaqlara mədəni xidmət edər, ədəbi-bədii gecələr, Şərq konsertləri və teatr tamaşaları göstərərdilər. Sənət dostları kimi Mehralı oğlu Bahadır da xalqa mədəni xidmətin təşkilində yaxından iştirak edərdi. O, müntəzəm olaraq teatr tamaşalarının fasilələrində və «Şərq konsertləri»ndə Seyid Şuşinski, Zülfü Adıgözəlov, Xan Şuşinski, Pəsxan Cəlil (Aşıq Cəlil), Kamrabəyim, tarzən Abbasquluağa, İsi Əliyev, Allahyar Cavanşirov, qarmonçu Lətif Əliyev, Abutalıb Kərbəlayı Muxtar oğlu, Yusif Yusifov və başqaları ilə çalıb-çağırardı.

Mehralı oğlu Bahadır el arasında mahir bir xanəndə kimi tanınmaqla, eyni zamanda qayğıkeş bir müəllim kimi də şöhrət qazanmışdı. Onu gənc nəslin musiqi təhsili yaxından maraqlandırırdı. Gözəl səsi olan uşaqların gələcəyi onu düşündürür, narahat edirdi. Odur ki, müğənni Ağdamda şəhər pionerlər evinin nəzdində «Səs dərnəyi» təşkil edir. Bundan sonra kəndbəkənd gəzib məktəblərdən səsi olan uşaqları soraqlaşıb tapır, dərnəyə dəvət edir.

Beləliklə, Bahadır müəllim 1940-cı ilə kimi Ağdam şəhər pionerlər evində çalışmaqla, səsi olan gənclərə Azərbaycan xalq musiqisinin sirlərini öyrədirdi. Hətta qonşu rayonlardan belə Bahadırın yanına gəlib ondan dərs alardılar.

İstedadlı sənətkar Qarabağda bütöv bir musiqiçilər nəslini yetişdirib, tərbiyə etmişdir. Əbülfət Əliyev, Yaqub Məmmədov, Sahib Şükürov kimi adlı-sanlı müğənnilər Mehralı oğlu Bahadırdan dərs almışdılar.

Mehralı oğlu Bahadır 1940-1945-ci illərdə Azərbaycan Dövlət Filarmoniyasında çalışmış, tarzən Məmmədxan Bakıxanov və kamançaçı Vaqo Melkumovun müşayiəti ilə çıxış etmişdir.

Ömrünün son 16 ilini yenidən gənc musiqiçi kadrların tərbiyəsinə həsr etmiş Mehralı oğlu Bahadır 1946-1962-ci illərdə Üzeyirbəy Hacıbəyov adına Ağdam musiqi məktəbində muğamatdan dərs demişdir. Hazırda konsert salonlarında dinləyicilərin hörmətini qazanmış bir çox müğənnilər ondan dərs almışlar.

Ömrünün 60 ilini Azərbaycan milli musiqisinin tərəqqisinə həsr etmiş görkəmli xanəndə Mehralı oğlu Bahadır 1962-ci ildə Ağdamda vəfat etmişdir.

# Qarmonçu Abutalıb



ZƏRGƏR Kərbəlayı Muxtar axır vaxtlar dükana gec, həm də yorğun gələrdi. Bunu görən şagirdlər bir-birilə pıçıldaşardılar:

- Yəqin usta gecəni yenə də toy məclisində keçirib. Ona görə də yorğundur...

Lakin şagirdlər yanılırdılar. Kərbəlayı Muxtarı xanəndə kimi toylara, mərsiyəxan kimi yas məclislərinə tez-tez dəvət edərdilər. Ancaq bu məclislərin heç birində o, yorulmazdı. Ustanın işə gec, yorğun halda gəlməyinin ayrı bir səbəbi vardı...

Zərgər Muxtarın ikinci oğlu beş-altı ay idi ki, anadan olmuşdu. Lakin uşaq yatmaq bilməzdi, hey qışqırıb ağlardı. Bunu görüb eşidənlər deyərdilər: yəqin bir yeri ağrıyır...

Kərbəlayı Muxtar şəhərdə həkim qalmır ki, uşağı göstərməsin. Hətta Kərim bəy Mehmandarovun səyi, həkim Mirzə Hüseynin verdiyi həblər uşağı sakitləşdirə bilmir...

Bir gün Kərbəlayı Muxtar evdə tək olan zaman, ağlayan oğlunu ovundurmq istəyir. Bir şey çıxmadığını görüb, onu qucağına alır və yavaş-yavaş «Segah» üstündə layla çalmağa başlayır... Çox keçmir ki, atasının laylasından, daha doğrusu, oxumağından xoşhallanan körpə Abutalıbı yuxu aparır.

Kərbəlayı Muxtar sevindiyindən bilmir nə etsin. Arvadı evə gələn kimi onu səsləyir:

- Arvad, muştuluğumu ver, uşağın dərdinə çarə tapıldı.
- A kişi, uşağın dərdi nədir? Həkimlər nə deyirlər?
- Heç nə, çarəsi «Segah»dır.

Arvad təəccüblə kişini süzüb dillənir:

- A kişi, «Segah» nədir?

- Rəhmətliyin qızı, bilmirsən «Segah» nədir?! Bax, bu «Segah» oğlumun dərdinə dərmandır... - Sonra Kərbəlayı Muxtar gülümsəyərək başını bulayıb sözünə davam edir: - Son eşiyə çıxan kimi gədə qəfildən yenə çığırıb ağlamağa başladı. Nə qədər yüyrüyü tərpətdim, yellədim, bir şey çıxmadı. Axırda layla çala-çala oxumağa başladım. Bir az keçmiş uşaq gözlərini yumub yatmağa başladı. Həmin gündən uşağın «dərdinə» çarə tapıldı. Gecələr körpə ağlayan kimi Kərbəlayı Muxtar «Segah» üstündə layla çalardı. Bunun nəticəsində də yuxusuz qalan zərgər Muxtar çox vaxt işə gecikər, iş vaxtı mürgüləyərdi.

O zamanlar heç kəsin ağlına gəlməzdi ki, «Segah»la yuxuya gedən 6-7 aylıq uşaq, gələcəkdə «Segah» ustası kimi bütün Qafqazda məşhur musiqiçi olacaqdır.

Abutalıb Kərbəlayı Muxtar oğlu Yusifov 1884-cü ildə Şuşa şəhərində anadan olmuşdur. Abutalıb xalq musiqisinə hələ kiçik yaşlarından həvəs göstərmişdir. Bu isə təsadüfi deyildi. Abutalıbın atası Kərbəlayı Muxtar uzun illər məşhur mərsiyəxan və xanəndə olmuş, tarzən Əli Əsgər ilə birlikdə Qarabağ-İran məclislərində çıxış etmişdir.

Abutalıbın böyük qardaşı Behbudun gözəl səsi var idi. Bunu nəzərə alan Kərbəlayı Muxtar Abutalıba qarmon alır. Beləliklə, qardaşın biri əldə qaval, digəri isə qarmonu tutub yavaş-yavaş xalq havalarını çalıb oxumağa başlayırlar. Zərgər Muxtar xalq şənliklərinə dəvət olunarkən oğlanlarını da özü ilə bu məclislərə aparardı. Behbudun zərif və məlahətli səsi, balaca Abutalıbın şirin çalğısı dinləyiciləri heyran edər, onları dinləməkdən doymazdılar. O vaxtlar Şuşa şəhərində qurulan məclislərdə çıxış edən Məşədi İsi, Dəli İsmayıl, Cabbar Qaryağdı oğlu, Sadıqcan, Məşədi Zeynal və məşhur qarmonçalan İsi bəy kimi böyük sənətkarların tükənməz yaradıcılıqlarından ilham alan gənc Abutalıb gecə-gündüz öz üzərində çalışaraq sənətin sirlərini əxz etməyə can atardı. Şübhəsiz ki, onu birinci növbədə qarmonçu İsi bəyin qeyri-adi çalğısı maraqlandırardı. Abutalıb İsi bəyin iştirak etdiyi musiqi məclislərinin birini də buraxmazdı, saatlarla onun yanında oturub gözlərini bir anlığa belə İsi bəyin barmaqlarından çəkməzdi. O, İsi bəyin barmaqlarının «izini» yadında saxlayıb evə gələn kimi onları dəfələrlə təkrar edərdi... İsi bəy də bu istedadlı gəncin sənətə hədsiz həvəsini nəzərə alıb toy zamanı qarmonunu Abutalıba verib bəzi oyun havalarını çaldırardı. Gənc qarmonçu oyun havaları içərisində «Mirzəyi», «İnnabı», «Vağzalı», xüsusilə ən qədim milli hava sayılan «Tərəkəmə»ni bütün havalardan gözəl, oynaq və rəvan çalardı.

Artıq Abutalıb iyirmi yaşında kamil bir qarmonçu knmi xalq şənliklərində şöhrət qazanır. Eyni zamanda o, tar çalmağı da öyrənir. Beləliklə, istedadlı çalğıçı toylarda qarmonda oyun havalarını çalmaqla, xanəndəni də sədəfli tarında müşayiət edərdi. Bunu görən o dövrün gənc müğənniləri məhz Abutalıb ilə məclislərdə çıxış etməyi özləri üçün şərəf bilədi. Abutalıb gözəl tar çalmağı bacarsa da xalq arasında əvəzsiz virtuoz qarmonçu kimi daha məşhur idi.

Atası vəfat etdikdən sonra Abutalıb məşhur xanəndə Məşədi Məmməd Fərzəliyevlə birlikdə Gəncəyə, oradan Tiflis şəhərinə gedir. Orada musiqiçilərlə dostlaşır, bir qədər sonra Tiflisdə yaşayıb yaradan bir çox azərbaycanlı ziyalıları ilə, o cümlədən Eynəli Sultanov, Cəlil Məmmədquluzadə, Həmidə xanım Cavanşir, Zülfüqarbəy Hacıbəyov, Hüseyn Cavid, İbrahim İsfahanlı, Mustafa Mərdanov, Mirzağa Əliyev, Seyid Şuşinski, Məşədi Zeynal, Məcid Behbudov və başqaları ilə yaxından tanış olur. Abutalıb onlarla əməkdaşlıq şəraitində Azərbaycan milli mədəniyyətinin tərəqqisinə çalışır, bu yolda əlindən gələni əsirgəmir. O, Tiflisdə verilən teatr tamaşalarında, «Şərq konsertləri»ndə, ədəbi gecələrdə yaxından iştirak edir, çoxmillətli Tiflis tamaşaçılarının hədsiz hörmət və rəğbətini qazanır. Heç

təsadüfi deyil ki, teatr afişa və proqramlarında Abutalıbın adına tez-tez təsadüf edilirdi. «Qafqaz» qəzeti 1911-ci il 2 avqust tarixli nömrəsində teatr elanlarının birində yazırdı: «3 mart 1911-ci ildə «Gürcü dvoryan teatrı»-nın binasında Zülfüqarbəy Hacıbəyovun «Əlli yaşında cavan» operettası tamaşaya qoyulacaqdır. Tamaşada ilk dəfə olaraq Münəvvər xanım Məmmədquluzadə[247] və opera artisti Mirzağa Əliyev iştirak edəcəklər. Tamaşanın musiqisini qarmonçu Abutalıbın iştirakı ilə Şərq çalğı alətləri orkestri ifa edəcəkdir».

Son əlli ildə qarmon Azərbaycanda geniş intişar tapmışdır. Yaxşı yadımdadır, 30-cu illərdən bəri Azərbaycan toylarında gündüzlər qadın məclislərinə qarmonçalan, axşamlar kişi məclislərinə isə üçlük (tar, kaman, qaval) dəvət edərdilər. Bəzən tar və kamançanın yanında qarmonçuya da yer verərdilər. Qarmonda çalınan «Mirzəyi», «Tərəkəmə», «Azərbaycan», «14 nömrə», «İnnabı», «Qəşəngi», «Ənzəli», «Dilican», «Beşaçılan», «Sürüşdüm-düşdüm» və başqa havalar daha oynaq, daha şirin səslənirdi. Təsadüfi deyildir ki, qızlar və gəlinlər toya dəvət olunanda qarmonçalanın kim olacağı ilə maraqlanardılar. Qarmonçu Abutalıbın toya dəvət olunması qız və gəlinləri xüsusilə maraqlandırardı. Nədənsə onun çalğısı rəqqasələrin sümüyünə daha çox düşürdü. Bu isə təsadüfi deyildi. Onun «Tərəkəmə»sinə və yaxud «Segah»ına qulaq asan hər kəs yerində rahat dura bilməzdi.

Dərin lirizm, zərif duyğu, incə zövq, zəngin xallar, şirin barmaqlar Abutalıbın çalğısı üçün ən səciyyəvi cəhətlər idi. Abutalıbı həmkarlarından ayıran cəhətlərdən biri də onun xalq musiqisinin ən incə nöqtələrini dərk etməsi, şirin və duzlu çalğısı ilə dinləyicini məsti-xumar etməsi, səhnə mədəniyyəti idi.

Abutalıb həm də milli muğam ifaçılığı üsuluna möhkəm yiyələnmiş sənətkar idi. Özünəməxsus fərdi yolu, ədası, vərdişi olan virtuoz çalğıçı idi. Abutalıb «Segah», «Bayatı-Qacar», «Şikəsteyi-fars» muğamlarını, bütün oyun havalarını, xüsusilə «Tərəkəmə»ni çalanda elə gəzişmələr, incə xırdalıqlar, elə şirin barmaqlar işlədərdi ki, adamlar onu dinləməkdən doymazdılar. Cəsarətlə demək olar ki, çalğı musiqimizin tarixində Abutalıb kimi «Tərəkəmə» çalan ikinci bir qarmonçu olmamışdır. Təəssüflə demək olar ki, bəzi müasir qarmonçular böyük sənətkarın ənənəsini davam etdirmirlər, ona görə də «Tərəkəmə» kimi qədim el havasını düzgün çala bilməyib başına min bir oyun açırlar.

Kərbəlayı Muxtar oğlu milli çalğı ifaçılığı üsuluna möhkəm yiyələnmiş sənətkar olmaqla klassik irsə də hörmət və ehtiramla yanaşan qarmonçu idi. O, muğam çalarkən ürəkləri oxşamağa çalışar, bəzən həzin, bəzən də şən çalğısı ilə dinləyicini həm kədərləndirər, həm də sevindirərdi. Bir sözlə, dinləyicini ələ alıb ona hər şeyi unutdurmağı bacarırdı. Lakin Abutalıb heç bir vaxt çaldığı musiqini artırıb əskiltməz, eyni nərdəni, eyni guşəni bir neçə dəfə təkrar etməzdi. Musiqinin

---

[247] Münəvvər Məmmədquluzadə görkəmli ədib Mirzə Cəlil Məmmədquluzadənin qızıdır (1897-1966) – müəllif.

təravətini pozan yersiz titrəyişlərə yol verməzdi. Əksinə, çaldığı havanın bitkinliyə və yetkinliyinə fikir verməklə, onun təsir gücünü, emosionallığını daha da artırardı.

Mən dəfələrlə İslam Abdullayev, Qurban Pirimov, Seyid Şuşinski, Levon Qaraxanov və Xan Şuşinski kimi qocaman sənətkarlar ilə söhbət zamanı qarmonçalanlar haqqında söz salanda onların hamısı Abutalıbı musiqi qabiliyyətinə, çalğı texnikasına və ifaçılıq məharətinə görə yüksək qiymətləndirərdilər. Abutalıbı yaxından tanıyan və onunla uzun illər dostluq etmiş Seyid Şuşinski onun haqqında öz xatirələrində yazır:

«Bir gün Üzeyirbəy konservatoriyanın rektoru olanda məni çağırıb dedi:

- Ağa, bu qarmonçalanlar məni cana gətiriblər. O deyir «məndən olmaz», bu deyir «Mən hamıdan yaxşı çalıram». Ona görə bu hay-küyə son qoymaq üçün konkurs keçirmək lazımdır. - Mən Üzeyirbəyin məqsədini başa düşüb elan verdim və elanda göstərdik ki, respublikada qarmonda birinciliyi qazanmaq üçün filan ayda, filan gündə öz qarmonları ilə konservatoriyanın klubunda hazır olsunlar.

Nəhayət, konkurs elan olan günü Azərbaycanın hər yerindən əlliyə qədər qarmonçu yığışmışdı.

Üzeyirbəy çıxdı səhnəyə, oturacaq stulun üzərinə 14 dilli bir qarmon qoyub dedi:

- Konkursun bircə şərti var. Kim bu qarmonda «Orta mahur» çala bilərsə, xahiş edirəm səhnəyə çıxsın.

Üzeyirbəyin bu elanından sonra zalda qarmonçular arasında bir növ çaxnaşma düşdü. Bir çoxları da təəccüb edib bir-birinin üzünə baxıb mat qaldılar.

Nəhayət, Abutalıbdan başqa səhnəyəçıxan olmadı...

Bunu görən Üzeyirbəy təzədən səhnəyə çıxıb əli ilə bığını tumarlayıb dilləndi:

- Hə, qocaqlar, necəsiniz? Tısa-bısanız yatdımı?!

Sonra üzünü mənə tutub dedi:

- Ağa, məsələ aydındır, yığıncağı bağla.

Mən Üzeyirbəyi yaxşı başa düşməyib ondan soruşdum:

- Ay bəy, bəs Abutalıb çalmayacaq?

O, başını bulayıb narazı halda dilləndi:

- Ağa, Abutalıbın çalğısına ehtiyac yoxdur. Məni, özlərindən razı qalıb «mənəm-mənəm» deyənlərin çalğısı maraqlandırırdı. Onların da qeyrəti bu gün aydın oldu.

O günü mən də bir daha: «Abutalıbdan başqa qarmon çalan tanımıram» qənaətinə gəldim. Bax Abutalıb belə Abutalıb idi. Analar bir daha onu doğmaz».

Abutalıbın mahir çalğısı qocaman müğənni Xan Şuşinskinin də diqqət mərkəzində olmuşdur. Abutalıbı həmişə hörmət və ehtiramla yad edən xanəndə həsrətlə dillənərdi:

- Mən əlli il musiqi məclislərində çalıb-çağırmışam. Bu müddət ərzində tanıdığım ən istedadlı və kamil musiqiçilərdən biri də Abutalıb idi. Bu adamın xəmiri musiqi ilə yoğrulmuşdu. Mən onun çalğısından doymazdım. Abutalıb bir havanı yüz dəfə çalsa belə adama xoş gələrdi. Çünki, o hər çalğısında dinləyiciyə yeni hiss aşılayardı. Onun «Segah»da vurduğu barmaqlar yadıma düşəndə ürəyim titrəyir.[248]

Abutalıb musiqi tariximizdə mahir tarçalan kimi də məşhurdur. O, ömrünün son on ilini əsasən tar çalmağa həsr etmişdir. Abutalıbın kiçik qardaşı Yusif (1907) də qardaşının yolu ilə gedərək qarmon çalmaq sənətini öyrənirdi. Yusifin gələcəkdə mahir qarmon ustası olacağına şübhə etməyən Abutalıb öz qarmonunu qardaşına verib, özü tar çalmaqla məşğul olmuşdur. Onu da deyim ki, Abutalıb heç də səhv etməmişdi. Hərçəndi o dövrdə Abutalıbın pərəstişkarları onun bu işindən mütəəssir oldularsa da, lakin həyat Abutalıbın uzaqgörənliyini sübut etdi. Öz qardaşının sənət məktəbini davam etdirən Yusif sonralar Zaqafqaziyada tanınmış ustad qarmonçu kimi şöhrət qazandı...

Abutalıb bir tarzən kimi uzun illər öz sədəfli tarında Segah İslam, Seyid Şuşinski, Mehralı oğlu Bahadır və Xan Şuşinski kimi məşhur xanəndələri müşayiət etmişdir. O dəfələrlə musiqi müsabiqələrində iştirak etmiş, həmişə fəxri yerlərə layiq görülmüşdür. Onun böyük müvəffəqiyyətlə verdiyi konsertlər hələ da yaşlı dinləyicilərin yadından çıxmamışdır.

Abutalıb otuz il öz gözəl çalğısı ilə Azərbaycan mədəniyyətinə xidmət etmişdir. Onun xalq arasında bir çox istedadlı şagirdləri olmuşdur. Azərbaycan çalğı musiqisi tarixində Abutalıb qədər xalq musiqisini dərindən bilən, onu son dərəcə gözəl, şirin və əzəmətlə ifa edən ikinci bir qarmonçu olmamışdır. Kor Əhəd, Kərbəlayı Lətif, Kamrabəyim, Məşədi Əli və Teyyub Dəmirov kimi görkəmli qarmonçular Abutalıb sənətindən çox şey öyrənmişlər.

İstedadlı sənətkar Abutalıb Kərbəlayı Muxtar oğlu 1937-ci ildə Ağdamda vəfat etmişdir.

---

[248] Bax: "Bakı" qəzeti, 6 sentyabr 1969-cu il.

# Armenak Əsriyev



GÖRKƏMLİ kamançaçalan Armenak Əsriyevin adı Azərbaycan musiqi mədəniyyəti tarixinə daxil olmuşdur. heç təsadüfi deyildir ki, onun adı Bağdagül oğlanları - Ata və Qosti, Avanes, Sevi, Saşa Oqanezaşvili və Levon Qaraxanov kimi məşhur kamançaçıların adı ilə birlikdə çəkilir. O, ömrünün əlli ilini xalq musiqisinin yüksəlişinə həsr etmişdir.

Armenak Qrikoroviç Əsriyev (Şuşinski) 1885-ci ilin fevralında Şuşa şəhərində dərzi ailəsində doğulmuşdur. Dərzi Qrikorun ailəsi böyük idi; onun üç qızı yeddi oğlu vardı.

Armenak səkkiz yaşında ikən atası onu şəhər seminariyasına qoyur. Lakin üç ildən sonra ailənin ağır vəziyyəti onun seminariyanı tərk etməsinə səbəb olur. Dərzi Qrikor oğlunun köməyinə bel bağlayırdı. O, istəyirdi ki, oğluna öz sənətini öyrətsin. Lakin 12 yaşlı Armenakı musiqi aləmi kəhrəba kimi özünə doğru çəkir, bütün varlığına hakim kəsilirdi. Sonralar Armenak ötən günləri xatırlayaraq deyirdi:

- Uşaqlıqdan məndə musiqiyə həvəs oyanmışdı. Gecə-gündüz kamança çalmaq arzusu məni narahat edərdi. Bizim qonşuluqda Serkey adlı gənc bir oğlan yaxşı kamança çalırdı. Mən həmişə həyətimizin hasarı üstündə oturub saatlarla onun çalğısına qulaq asardım. Nədənsə Sergey birdən-birə xəstələnib vəfat etdi. Onun kamançası qaldı. Bir müddət keçdikdən sonra mən qonşumuzdan kamançanı istədim. Sergeyin atası mənə dedi ki, 6 abbası gətir, kamançanı apar. O vaxtı mən qəpik-qəpik yığaraq 4 abbası pul toplamışdım. Atamdan 2 abbası istədim mənə vermədi, ağladım. Sonra anama nə qədər yalvardım, bir şey çıxmadı. Axırda kamançanın dərdindən evdən bir mis qazan götürüb xəlvətcə 4 abbasıya satıb Serkeyin kamançasını aldım. Atamın qorxusundan kamançanı aparıb bir qohumgildə gizlətdim. Mən evdən tez-tez qaçardım qohmumgilə, orada başlardım yavaş-yavaş kamança öyrənməyə. İlk dəfə «Uzundərə» havasını və «Qarabağ şikəstəsi»ni öyrəndim.

Armenak ilk gənclik illərindən taleyini musiqi aləminə bağlamışdı. Gözəl Şuşanın musiqi mühiti başqa sənətkarlar kimi gənc Armenakın da musiqi sənətinə yiyələnməsində həlledici rol oynamışdı. O zaman Armenak məhəllə uşaqları ilə şəhərin səfalı yerləri olan «İsa bulağı»na, «Şəmilin bağı»na, «Səkili bulağı»na tut, böyürtkən və çırpı yığmaq bəhanəsi ilə gedər, bu yerlərə gəzməyə gələn xanəndə, tarzən və kamançaçıların çalıb-oxumalarını dərin bir ehtirasla dinlərdi.

O, məhz burada Məşədi İsi, Keştazlı Həşim, Cabbar Qaryağdı oğlu, Sadıqcan, Lazar Ter-Vartanesor, Ballıcalı Baxşı, Avanes, Bağdagül oğlu Qosti, Mirzə kimi sənətkarların sənəti ilə tanış olmuşdu. Xüsusilə, yay aylarında Qafqazın hər yerindən Şuşaya istirahətə gələn sənətkarların «Xandəmirovun teatrı»nda

verdikləri konsertlər, şəhərin səfalı yerlərində xalq şənliklərindəki çıxışları onu əfsunlayardı. Armenak burada Keçəçi oğlu Məhəmmədin səsini, tarzən Şüşülü (Balaca) Qrikorun və kamançaçı Mirzənin çalğısını da tez-tez eşidərdi.

Qoca kamançaçı Mirzə Armenakın musiqiyə olan hədsiz həvəsini, uzun və iti barmaqlarını görüb ona kamança çalmağı öyrətməyi qərara alır. O, üç il Armenaka təlim keçir, kamançanın sirlərini öyrədir, onu özü ilə bərabər musiqi məclislərinə aparır. Burada Armenak usta musiqiçilərin çalğısına diqqət yetirər, sonra onların vurduğu barmaqları, nida və intonasiyaları yerli-yerində evdə təkrar edərdi. Armenak 14 yaşında məşhur müğənni Keştazlı Həşim və tarzən uzun Mərdi ilə Şuşanın erməni kəndi Müxətərdə toy məclisində çıxış edir. Onun ilk debütü müvəffəqiyyətlə keçir.

Armenakın sənətkar kimi püxtələşməsində məşhur tarzən Şüşülü Qrikorun əməyi böyükdür. Təsadüfi görüş onların dostluğuna səbəb olmuşdur. Bir gün şəhərin erməni hissəsində qəssab Avetisin evində böyük bir məclis olur. Həmin məclisə xanəndə Dabbax Məmmədqulu, tarzən İsak, kamançaçı Bağır, oxuyan Çarıqçı Bahadır, Şüşülü Qrikor və kamançaçı Mirzədən ibarət iki sazəndə dəstəsi dəvət edilir. Kamançaçı Mirzə məclisə şagirdi Armenakı da aparır. Məşhur tarzən Şüşülü Qrikor Armenakın adını çoxdan eşitmişdi. Məclisin sonunda Armenak Qrikorun xahişi ilə kamançada «Çahargah» muğamını solo çalır. Bu çətin muğamın gənc kamançaçının incə bir məharətlə tamam-dəstgah çalması məclisdə əyləşənləri valeh edir. Tarzən Qrikorun sevincinin həddi-hüdudu yox idi. O, Armenakı bağrına basıb alnından öpür:

- Bu gündən sən mənimlə yoldaşlıq etməlisən - deyib yarıciddi, yarızarafatla əlavə edir. - Sənətdə ya sən məni, ya da mən səni keçməliyəm.

Bu hadisədən sonra Armenak tarzən Qrikor ilə on il əməkdaşlıq edir. Bu müddət ərzində onlar çəkməçi Məhəmməd, Əli Cavad oğlu, Davud Səfiyarov, Çarıqçı Bahadır kimi məşhur xanəndələri müşayiət edərək bütün Zaqafqaziyada bir sənətkar kimi şöhrət qazanır.

1908-ci ildə 23 yaşlı gənc Armenak Keçəçi oğlu Məhəmməd ilə Bakı şəhərinə gedir. Burada Cabbar Qaryağdı oğlu, Şəkili Ələsgər, Məşədi Zeynal, Qurban Pirimov, Şirin Axundov, Moses və Saşa Oqanezaşvili kimi görkəmli sənətkarlarla şəxsən tanış olur. Armenak Bakı məclislərində Keçəçi oğlu Məhəmməd və tarzən Tatevos Arutunovla birgə çıxış edir. Sonralar Armenak özü bu barədə deyirdi:

«Mənim kamil bir kamançaçı olmağımda rəhmətlik Keçəçi oğlu Məhəmmədin əməyi az olmamışdır. Xanəndələr içərisində ən çox yoldaşlığı Keçəçi oğlu ilə etmişəm. Onun çox zil səsi var idi. O, həm də muğamata dərin bələd idi. Qəzəlləri düzgün oxuyardı. Onun «Çoban bayatı» və «Mani» muğamlarında vurduğu uzun və sürəkli zəngulələrinin sədası hələ də qulağımda səslənir».

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Armenak Əsriyev xanəndə Keçəçi oğlu Məhəmməd ilə birlikdə «Təbliğat briqadası» ilə Bərdə, Yevlax və Ağcabədi rayonlarında zəhmətkeşlər qarşısında çıxış etmişdir.

1922-ci ildə Armenak məşhur musiqi xadimi doktor A. İoanesyanın rəhbərlik etdiyi birinci Şərq orkestrinə səlist kimi işə dəvət edilir. Orkestrdə işlədiyi illər məşhur kamançaçı Azərbaycan muğam və mahnılarını, xüsusilə oyun havalarını məharətlə ifa etməklə nəinki dinləyicilərin, hətta məşhur sənətkarların rəğbətini qazanır.

Armenak Əsriyev öz sənəti ilə Zaqafqaziyanın hüdudlarından uzaqlarda da tanınırdı. 1926-cı ildə doktor İoanesyanın orkestri Moskva şəhərinə konsert vermək üçün dəvət edilir. Orkestrin səlisti Armenak öz gözəl çalğısı ilə paytaxt dinləyicilərinin rəğbətini qazanır.

Məlum olduğu kimi, tar və kamança çalanları iki hissəyə ayırırlar: səlist və akkompaniator. Lakin Armenak Şuşinski həm gözəl səlist, həm də xanəndəni məharətlə müşayiət edən akkompaniator idi. Təsadüfi deyildir ki, o, orkestrdə və filarmoniyanın səlisti olan illərdə zəmanəmizin Cabbar Qaryağdı oğlu, Seyid Şuşinski, Keçəçi oğlu Məhəmməd, Bülbül, Xan Şuşinski, Zülfü Adıgözəlov kimi görkəmli xanəndələrini kamançada müşayiət etmişdi. Armenak Əsriyev onlarca böyük konsertlərdə, olimpiadalarda və baxışlarda iştirak etmiş, həmişə yüksək qiymətə layiq olmuşdur. O, 1931-ci ildə tarzən Lazar Qabrielyan və sevimli müğənnimiz Bülbül ilə Orta Asiyanın Aşqabad, Daşkənd, Səmərqənd və s. şəhərlərində konsertlər vermiş, türkmən və özbək dinləyicilərini Azərbaycan musiqisinin insanı valeh edən sirləri ilə bir daha valeh etmişdi.

1938-ci ildə Azərbaycanda mahir kamançaçı kimi məşhur olan Armenak Əsriyev Moskva şəhərinə dəvət olunaraq gözəl çalğısını qrammofon vallarına yazdırır. O həm də məşhur müğənnimiz Sürəyya Qacarın qrammofon vallarına yazdırdığı muğam və mahnıları kamançada müşayiət edir.

1939-cu ildə Moskva şəhərində xalq çalğı alətlərində çalanların Ümumittifaq baxışında iştirak edən Armenak tərifnamə ilə mükafatlandırılır.

Böyük Vətən müharibəsinin ağır illərində Armenak sənət dostları - Xan Şuşinski və Qəmbər Zülalovla birlikdə Bakı, Kislovodsk, Jsleznovodsk, Pyatiqorsk və digər şəhərlərin hərbi xəstəxanalarında yaralı döyüşçülər qarşısında çıxış etmişdir. 1944-cü ildə isə Armenak, xanəndə Xanlar Haqverdiyev, tarzən Məmmədxan Bakıxanov və qarmonçu Teyyub Dəmirovla bir yerdə İkinci Pribaltika cəbhəsində sovet əsgərlərinə konsertlər vermiş, onları döyüşlərdə qəhrəmanlıq göstərməyə ruhlandırmışdır.

SSRİ Nazirlər Soveti yanında İncəsənət işçiləri İdarəsi, Sovet Ordusunun baş qərargahı, hərbi Dairə komandanları Böyük Vətən müharibəsi illərində Sovet Ordusu döyüşçüləri qarşısında səmərəli fəaliyyətinə görə Armenak Əsriyevi Fəxri Fərmanla və bir neçə medalla təltif etmişdir.

Gözəl sənətkarın təbii istedadı, şirin çalğısı dövrünün məşhur musiqi xadimlərinin nəzər-diqqətini cəlb etmişdir. Qaryağdı oğlu, İslam Abdullayev, Seyid Şuşinski, Qurban Pirimov, Mirzə Mənsur Mənsurov kimi sənətkarlar Armenakın çalğıçılıq qabiliyyətinə yüksək qiymət vermişlər.

Armenakın oyun havalarını misilsiz, təkrarolunmaz ustalıqla çalması Qaryağdı oğlunun həmişə diqqət mərkəzində olmuşdur. Bir "hadisəni xatırlatmaq bu cəhətdən maraqlıdır: Deyilənə görə Şuşada, Aydınov Gevandın toy məclisinə Cabbar Qaryağdı oğlu da öz dəstəsi ilə dəvət olunur. Cabbar məclisə daxil olan vaxt xanəndə Çarıqçı Bahadır, tarzən Şüşülü Qrikor və kamançaçı Armenakdan ibarət ayrı bir sazəndə dəstəsi də çalıb-çağırırmış. Bu zaman toyxanada kimsə «Bənövşə» havasına oynayırmış. Üçlüyün bu gözəl Azərbaycan havasını son dərəcə oynaq, şirin və ritmlə çalmaları, "Cabbarı valeh edir. Oyun havası çalınıb qurtaranda sazəndələri tərifləyən Cabbar Qaryağdı oğlu deyir:

«Qrikor can, bu havanı bir də çalın. Mən belə çalğıya birinci dəfə rast gəlirəm».

«Bənövşə» bir də çalınandan sonra məclis sahibi Aydınov Gevand qonaqlara müraciət edir:

- Əziz qonaqlar! Bu gün biz dünyanın ən xoşbəxt adamlarıyıq. Ona görə ki, bizim məclisimizə canımız, gözümüzün işığı Cabbar gəlmişdir. Biz Qarabağ erməniləri Cabbarın məftunuyuq. Cabbarsız bir toyumuz, məclisimiz olmasın. İndi gəlin xahiş edək Cabbar bizim üçün bir şey oxusun.

Toy sahibinin bu sözləri məclisdəkiləri ruhlandırır:

- «Oxusun», «Xahiş edirik», «Yaşasın Cabbar kirvə», «Bizim Cabbara eşq olsun» - məclis əhlinin bu alqış və xahişini eşidən Cabbar Qaryağdı oğlu soyuqqanlıqla cavab verir:

- Mənim əzizlərim. Mən bu gün öz dəstəmlə Bakıdan, şəhərimizin hörmətli və xeyirxah sakini Gevand kirvənin məclisinə gəlmişəm. Bu bizim üçün xoşdur. Amma xahiş edirəm, bu gün mənimlə işiniz olmasın. Mən bu gün heç cürə oxuya bilmərəm. Elə zənn etməyin ki, uzaq yol bizi yorub, heç də yox! Əksinə, özümüzü çox yaxşı hiss edirik.

Amma inciməyin, Qrikor ilə Armenakın «Bənövşə» sindən sonra bütün Qarabağı mənə bağışlasanız da oxuya bilmərəm. İnsafdırmı, bu cür gözəl çalğıdan sonra oxuyasan? Mənə inanın, Qrikorun, xüsusilə Armenakın bu cür şirin çalğısı məni elə məftun edib ki, mən Cabbar yox, rəhmətlik Hacı Hüsü də burada olsaydı, bir şey edə bilməzdi.

Mən bu gecə yalnız Qrikor ilə Armenakın çalğısını dinləyəcəyəm.

Sabah axşam mən sizin qulluğunuzda.

Qurban Pirimov söyləyirdi ki, «Mən Cabbarın bu gözlənilməz sözlərinə fikir verməyib tarı «Mahur» üstündə kökləyəndə hamı əl çaldı. Lakin bunu görən rəhmətlik Cabbar mənə tərs-tərs baxıb yarıciddi, yarızarafatla dedi:

- Ə, dəli Baxşalının oğlu, yenə də cızığından çıxdın?! Tarı yığışdır!

Mən ömrümdə Cabbarın sözündən çıxmamışdım və Cabbarı atamdan da çox istəyirdim. Çünki o, mənlə, Saşaya atadan da artıq olub. Biz yalnız onun sayəsində pis-yaxşı sənətkar olmuşuq. Amma o günkü məclisi və burada əyləşən adlı-sanlı qonaqları nəzərə alıb mən də özümü saxlaya bilməyib zarafata salmaq istədimsə də bir şey çıxmadı. O, əsəbiləşdi, ciddi tonla dedi:

- Qurban, əgər Saşa ilə o «Bənövşə»ni bunlar kimi çala bilsəniz, mən sizin qulluğunuzda hazıram. - Sonra üzünü Qrikora tutub dedi:

- Qrikor kirvə, indi bir «Tərəkəmə» çalın. Qoyun Qurbanla Saşa oynasınlar. Görsünlər ki, oyun havasını necə çalarlar.

Mən bir də gördüm yazıq Saşa qollarını qaldırıb mənim qabağımda oynayır.

- Çəkin Qurbanı ortalığa! - deyə Cabbar səsləndi. Onun hökmünü eşitsək mən də qoşuldum Saşaya. Tərəkəmə, nə tərəkəmə, deyiləsi deyildi. O gecə səhərəcən Cabbar Qrikor ilə Armenakın çaldıqları oyun havalarına tamaşa etdi... Biz yatanda artıq xoruzlar banlayırdı».[249]

Qurban Pirimovun bu maraqlı xatirələrinin qiymətli cəhətindən biri də odur ki, Azərbaycanda sənətə və sənətkara böyük hörmət olmasını aydın nümayiş etdirir. Bu milli ənənə musiqiçilər arasında yaşayırdı.

Seyid Şuşinski də Armenakın sənəti haqqında yüksək fikirdə olmuşdur:

“Mən Armenakın çalğısını ilk dəfə 1907-ci ildə Qaryakində (indiki Füzuli rayonu – red) bir məclisdə Keçəçi oğlu Məhəmmədi müşayiət edərkən eşitmişəm. Hələ o dövrdən Armenakın gözəl və virtuoz çalğısı məni valeh etmişdir.

Bizim Avanes, Saşa, Sevi kimi böyük kamançaçalanlarımız olmuşdur. Mən cəsarətlə deyə bilərəm ki, Armenak sənət nümunələri göstərməkdə heç də bu ustad sənətkarlardan geridə qalmamışdır. Armenakı həm yaxşı insan, həm də zəhmətkeş bir sənətkar kimi  tanıyırdım”.[250]

Mahir kamançazən olan Armenak Əsriyev 1967-ci ildə Bakı şəhərində vəfat etmişdir.

---

[249] Qurban Pirimovun xatirələri (xatirə kitabın müəllifindəndir) – red.
[250] Bax: “Azərbaycan gəncləri” qəzeti, 9 sentyabr 1964-cü il.

# Mirzə Mənsur



MİRZƏ Mənsur musiqi tariximizdə həm gözəl tar müəllimi, həm də muğamların mahir bilicisi kimi tanınır. Son dərəcə sadə, təvazökar və şair ürəkli sənətkar olan Mirzə Mənsur 60 il musiqi sənəti ilə məşğul olmuşdur.

Mənsur Məşədi Məlik oğlu Mənsurov 1887-ci ildə Bakı şəhərində doğulmuşdur. Valideynləri onu oxutmaq niyyətində idi. Bu məqsədlə Mənsuru 11 yaşında mədrəsəyə qoyurlar. Burada o, fars dilini mükəmməl öyrənir. Lakin kiçik yaşlarından musiqi Mənsurun qəlbini fəth etmiş, sehrləmişdi. Bir gün dərs zamanı Mənsur taxta parçasını tar kimi tutub, ağzında «Uzundərə» havasını yamsıladığına görə molla onu falaqqaya saldırmışdı. Bu hadisədən sonra Mənsur mədrəsədən qaçır və bir daha geri qayıtmır. Həmin vaxtdan Mənsur taleyini musiqiyə bağlayır. Əlbəttə, bu təsadüfi deyildi. Atası Məşədi Məlik musiqi aləmi ilə sıx bağlı olmuşdur. Mənsur kiçik yaşlarından atasının tar, kamança, tütək, böyük qardaşı Məşədi Süleymanın tar, anası Soltan Bəyimin isə saz çaldığını görmüşdü. Belə bir mühitdə böyüyən Mənsurun musiqiyə coşğun həvəsi təbii idi. Qocaman tarzən Mirzə Mənsur ötən uşaqlıq illərini xatırlayarkən deyirdi:

«Mənim 15 yaşım olanda atam mənə bir qoltuq sazı aldı. Mən öz-özümə saz çalmağı öyrənir, qardaşım Süleymanın tarını da götürüb hərdən bir oyun havalarını çalardım. Atam musiqişünas, həm də qonaqpərəst olduğundan Bakıya gələn musiqiçilər bizim evimizə düşərdilər. Hacı Hüsü, Məşədi İsi, Mirzə Sadıq (Sadıqcan), Əbdülbaqi kimi məşhur sənətkarlar Bakıya toy məclislərinə dəvət olunanda həftələrlə bizdə qalardılar. Bizim evə Bakıda yaşayan xanəndə Baladadaş, tarzən Zeynal, Lazar, Mirzə Fərəc, kamançaçı Qosti və başqaları da tez-tez gələr, çalıb-çağırardılar. Mən hələ uşaq yaşlarından bu görkəmli sənətkarların çalıb oxumağını dinlərdim, bu getdikcə məndə musiqiyə olan həvəsimi artırardı. Mənim ilk tar müəllimim Mirzə Fərəc olmuşdu. Doğrudur, Mirzə Fərəc Sadıq, Lazar, Zeynal kimi məşhur çalan deyildisə də, musiqi elminə dərindən bələd idi. O, mənə tar çalmağı öyrətməklə, həm də muğamların adları, onların mənası, hissə və şöbələri haqqında maraqla danışardı. Mənim ikinci tar müəllimim Lazar idi. Atam Lazarın xətirini çox istəyirdi. Lazar bizdə tar çalanda mən onun barmaqlarına baxar, sonra həmin barmaqları Lazar üçün vurardım. Beləliklə, mən 20-25 yaşlarında kamil bir tarzən kimi tanış-qohum məclislərində çalardım».

Mirzə Mənsur professional bir tarzən kimi musiqi məclislərində, teatr tamaşalarında və «Şərq konsertləri» ndə çıxış etməmişdi. Lakin o, el şənliklərində həvəskar xanəndə olan tacir Ağa Səid oğlu Kəblə Ağa Balanı tarda müşayiət etmişdi.

1920-ci ildən sonra Mirzə Mənsur Şərq konservatoriyasında, 1923-cü ildə isə Üzeyir Hacıbəyovun təşkil etdiyi Azərbaycan Dövlət Türk Musiqi Məktəbində tar dərsi demişdir. 1926-cı ildə musiqi texnikumu konservatoriya ilə birləşəndən sonra Mirzə Mənsur konservatoriyaya dəvət edilmiş, burada 20 il (1926-1946) müəllimlik etmişdir. O, istedadlı bir tar müəllimi kimi konservatoriyada Üzeyir Hacıbəyovun ən yaxın köməkçisi və dostu kimi musiqi kadrlarının tərbiyəsində və hazırlanması işində ona çox yaxından kömək edərdi.

Mirzə Mənsur qayğıkeş bir müəllim, bacarıqlı tar ustası kimi məşhur idi. O, tarın quruluşunda (pərdələrin qoşulmasında, tar aşıqlarının möhkəmləndirilməsində və s.) bəzi dəyişiklik etmiş, hətta yeni quruluşda bir tar da hazırlamışdı. Onun 1934-cü ildə yeni quruluşda hazırladığı iki tardan biri Parisdə, digəri isə İstambulda incəsənət alətləri sərgisində müvəffəqiyyətlə nümayiş etdirilmişdi.

1934-cü ildə Üzeyir Hacıbəyovun Mirzə Mənsura verdiyi xasiyyətnamə onun pedaqoji və musiqiçilik fəaliyyəti haqqında aydın təsəvvür yaradır. Üzeyir Hacıbəyov yazırdı: «Bununla mən təsdiq edirəm ki, Mənsur Mənsurov 1926-cı ildən indiyə kimi Azərbaycan Dövlət Konservatoriyasında tar müəllimi vəzifəsində çalışır.

Bu dövr ərzində yoldaş Mənsurov bnr tar müəllimi kimi özünü ən işgüzar, ən yüksək ixtisas sahibi kimi göstərmişdir. Bundan əlavə, o, tələbələr tərəfindən muğamların bədii cəhətdən düzgün çalınmasına, kamil öyrənilməsinə böyük əmək sərf etmişdir. Yoldaş Mənsurov eyni zamanda xalq çalğı alətləri üçün proqram tərtib edilməsində, tarın və başqa alətlərin yenidən qurulmasında, onların gözəl səslənməsi tədbirlərində fəal iştirak etmişdir. Bütün müəllimlik fəaliyyəti illərində yoldaş Mənsurov özünü fəal və hörmətli bir pedaqoq kimi göstərmişdir».[251]

Sovet hökuməti qocaman tarzən Mənsur Mənsurovun pedaqoji fəaliyyətinə və incəsənət sahəsindəki xidmətlərinə görə ona 1940-cı ildə Azərbaycan SSR əməkdar incəsənət xadimi adını verdi.

Azərbaycanda bir çox istedadlı bəstəkarlar və musiqiçilər - Səid Rüstəmov, Xurşid xanım Ağayeva, Ənvər Mənsurov (Mirzə Mənsurun oğlu), Rəşid Əfəndiyev və b. Mirzə Mənsurun yetirmələridir.

Mirzə Mənsur şair ürəkli sənətkar idi, onun bir çox qəzəl və qoşmaları da vardır.

Qocaman tarzən Mirzə Mənsurun İçərişəhərdəki otağı musiqi muzeyini xatırladırdı. Otağın divarlarını adlı-sanlı sənətkarların şəkilləri bəzəmişdi. Son dərəcə mehriban, qonaqpərəst olan sənətkarın qapıları hamının üzünə açıq olardı. Gənc tarzənlər tez-tez onun yanına gələrdilər. Mirzə Mənsur gənclik illərində olduğu kimi, qoca vaxtında da «Rast», «Bayatı-İsfəhan» muğamlarını özünəməxsus ustalıqla çalar, öz təcrübəsini gənclərə öyrədər, onlara məsləhətlər

---

[251] Ü. Hacıbəyovun M. Mənsurov haqqında yazdığı xasiyyətnamənin orijinalı qocaman tarzəni öz şəxsi arxivində saxlanılır – müəllif.

verərdi. O, «Mahur-hindi» muğamını çalanda adama elə gəlirdi ki, tarı 30-35 yaşlarında olan bir tarzən samballı mizrabları, iti barmaqları ilə dindirir. Xüsusilə, tarın singənə simlərində Sadıqcanın mizrablarını vuranda adamı məftun edərdi.

Mirzə Mənsurun sənəti elməzdir. Onun irsi milli musiqi mədəniyyətimizi zənginləşdirir. Bu baxımdan böyük ustadın həyat və fəaliyyətinin tədqiqi vacibdir.

Görkəmli tarzən və qayğıkeş müəllim olan Mirzə Mənsur 1967-ci ildə vəfat etmişdir.

## Bala Məlikov



AZƏRBAYCAN musiqi mədəniyyəti tarixində adı hörmətlə çəkilən tarzənlər sırasında Bala Məlikov xüsusi yer tutur.

Bala Qrikor oğlu Məlikov 1888-ci ildə Şuşa şəhərində musiqiçi ailəsində doğulmuşdur. Bala atasının tərbiyəsi altında boya-başa çatmışdır. Tarzən Qrikor oğlu Balanı da musiqiçi görmək arzusunda idi.

Şuşa realnı məktəbində təhsil alan Bala hələ tələbəlik illərində tar çalmağa başlamışdı. O, ilk musiqi təhsilini atasından almış, musiqiçilərin arasında böyümüşdür. Atası Qrikor Qarabağda tanınmış sənətkar tarzən olduğundan onların evinə dövrünün görkəmli musiqiçiləri tez-tez yığışar, çalıb-çağırardılar. Bala ustaların sənət və sənətkarlıq haqqında söhbətlərinə, mübahisələrinə qulaq asardı. Bütün bunlar onun qarşısında yeni aləm açar, musiqiyə onda sonsuz həvəs oyadardı.

Bala realnı məktəbin ikinci kursunda olarkən artıq bir tarzən kimi tanınmışdı. O, məktəbin musiqi səhərciklərində çıxış edirdi. Bala 17 yaşında ikən ilk dəfə Şuşada atası Qrikor və xanəndə Çarıqçı Bahadırla məclisdə çıxış etmişdi. Uzun barmaqları, möhkəm biləyi Balaya samballı, məharətli mizrab vurmağa imkan verirdi. Onun tar çalmaq bacarığı tamaşaçıları, hətta məşhur tarzənləri belə heyrətə salırdı. Gənc Bala Qarabağ, Gəncə, Şamaxı, Şəki və Bakı şəhər məclislərində Keçəçi oğlu Məhəmməd, Davud Səfiyarov, Çəkməçi Məhəmməd, Şəkili Ələsgər kimi məşhur xanəndələri tarda müşayiət etmişdi.

1913-cü ildə Bala təhsilini davam etdirmək arzusu ilə Petroqrada gedir, orada iqtisadiyyat institutuna daxil olur. Bala tələbəlik illərində də öz sevimli tarından ayrılmırdı. O, qafqazlı tələbələrin məclislərində öz «ecazkar» tarı ilə həmyerlilərini əyləndirirdi. Belə məclislərin birində Bala böyük rus müğənnisi F. Şalyapinlə (1913-cü ilin noyabr ayının 24-də) tanış olur. Bala, F. Şalyapipin vasitəsi ilə Petroqradın musiqi ictimaiyyətinə yol tapır.

1914-cü ildə Birinci dünya müharibəsi başlanır. Bala təhsilini yarımçıq qoyub Tiflisə qayıtmağa məcbur olur . Burada Zubalov adına Tiflis şəhər Xalq Evinin müdiriyyəti onu teatr tamaşalarında və Şərq konsertlərində çıxış etməyə dəvət edir. Bala Xalq evində Musa Şuşinski, Məşədi Məmməd Fərzəliyev, Çəkməçi Məhəmməd və Məcid Behbudov kimi ustad xanəndələri tarda müşayiət etməklə, Tiflis dinləyicilərinin rəğbətini qazanır... Onun «Hasar», «Çahargah», «Xaric Segah» və s. muğamları qeyri-adi bir üslubda çalmağı hələ indi belə Tiflisin qoca musiqi həvəskarlarının yadından çıxmamışdır. Bala gözəl, temperamentli çalğısı ilə 20 il (1914-1934) Tiflis - İrəvan - Bakı tarzənlərinə meydan oxumuşdur. Onun alt-üst mizrablarına, cəld barmaqlarına, texniki ustalığına böyük tarzənlər belə həsəd aparmışlar.

Balanın ustalığı böyük xanəndə Seyid Şuşinskinin də nəzərini cəlb etmişdi. O, 1914-cü ildə «Ekstrafon» aksioner cəmiyyəti tərəfindən Kiyev şəhərinə ikinci dəfə dəvət edilərkən Balanı da özü ilə aparmışdı. Seyid Kiyev şəhərində tarzən Balanın və kamançaçı Rubenin müşayiəti ilə oxuyub səsini vala yazdırmışdı. O, Kiyevdə konsert verərkən Bala tarda solo «Mahur-Hindi» çalmışdı. Onun çalğısına qulaq asan məşhur tarzən Lazar Ter-Vartanesov Balanın gələcəkdə böyük sənətkar olacağını söyləmişdi.

Kiyevdən böyük müvəffəqiyyətlə qayıdan Bala Bakıya dəvət edilir. Bakılılar ilk küpdən Balanın çıxışlarını səmimiyyətlə qarşılayırlar.

Tarzən Bala 1916-1918-ci illərdə Bakıda Şərq konsertlərində, teatr tamaşalarının fasilələrində və xeyriyyə cəmiyyətlərinin təşkil etdikləri gecələrdə həm solo çalmış, həm də Şəkili Ələsgər, Davud Səfiyarov, Keçəçi Məhəmməd kimi görkəmli xanəndələri tarda müşayiət etmişdi.

Gürcüstanda Sovet hakimiyyəti qurulduqdan sonra Bala Tiflisdə yeni qüvvə və həvəslə fəaliyyət göstərir. O, radio komitəsində, teatr orkestrlərində tar çalır. 1922-ci ildə Balanın şəxsi təşəbbüsü ilə Tiflisdə Şərq ansamblı təşkil olunur. 1926-cı ilədək fəaliyyət göstərən ansamblda müxtəlif vaxtlarda Məşədi Məmməd, Fərzəliyev, Məcid Behbudov, Musa Şuşinski, Karo Tatos kimi xanəndələr, Arşak, Mirzə kimi aşıqlar, Levon Qaraxanov, Arşo, Saşa Oqanezaşvili kimi məşhur kamançaçılar çıxış etmişlər. Balanın ansamblı Tiflisdə, İrəvanda, Leninakanda, Şimali Qafqazın və Orta Asiyanın bir çox şəhərlərində böyük müvəffəqiyyətlə çıxış etmişdir. Ansamblın repertuarı geniş, rəngarəng olduğundan konsertləri maraqlı keçirdi. 1926-cı ilin əvvəllərində Birinci Şərq orkestrinin rəhbəri A. İoanesyan Balanı Bakıya dəvət edir. A. İoanesyanın orkestrində Bala bir səlist-tarzən kimi fəxri yer tutur.

1926-cı ildə ölkəmizdə qastrol səfərinə çıxan Şərq orkestri bir sıra yerlərdə müvəffəqiyyətlə çıxış etdikdən sonra Moskvaya gəlir, Vsevolod Meyerxold adına teatrın binasında, may ayının axırlarında dörd gün maraqlı proqramla konsert verir. Moskvanın tələbkar dinləyiciləri orkestrin çıxışlarını böyük rəğbətlə qarşılayırlar.

Mərkəzi mətbuatda orkestrin fəaliyyəti, onun ayrı-ayrı ifaçıları haqqında qiymətli rəylərə rast gəlirik. Professor A. Fevralski «Правда» qəzetində «Qafqaz simfonik orkestri» sərlövhəli məqaləsində tarzən Balanın çalğısına yüksək qiymət verir. O yazır: «Tarda və kamançada solo çalanlar arasında Balanın incə və məharətli çalğısı xüsusilə seçilirdi».[252] «Известиjа» qəzetində çıxış edən musiqişünas Serkey Buqoslavski isə Balanın böyük texniki ustalığa malik olduğunu söyləmişdir.

Orkestr Leninqrad şəhərində də 10 konsert vermişdir. Burada da dövri mətbuat orkestrin məharətli çıxışını yüksək qiymətləndirmişdir. 1928-ci ilin mayında Bala ikinci dəfə Moskva və Leninqradda qastrol səfərində olur.

Şərq ansamblının konsertlərində bir mühazirəçi kimi çıxış edən leninqradlı musiqişünas L. Vaynkop «Рабочи и театр» jurnalının səhifələrində tarzən Bala haqqında yazır: «Bala Məlikyan temperamentli artist olmaqla özünün virtuoz çalğısı ilə dinləyiciləri məftun etdi».[253]

«Жизн и искусство» jurnalının səhifələrində də Balanın mahir sənəti haqqında yaxşı rəylərə rast gəlmək olur.

İki ilə yaxın İrəvanda işlədikdən sonra Bala 1930-cu ildə yenidən Tiflisə qayıdır. Burada musiqi üçlüyü - trio yaradır. Onu Zaqafqaziyanın böyük şəhərlərində olan konsertlərə və musiqi gecələrinə ustad səlist tarzən kimi dəvət edirlər. 1930-cu il iyunun 28-də Bakıda kənd və şəhər rabitə cəmiyyətinin yay salonunda A. İoanesyanın rəhbərlik etdiyi Şərq simfonik orkestrinin konserti olmuşdu. Bu konsertdə Bala da iştirak edirdi. O zaman «Yeni yol» qəzetində «Böyük Şərq konserti» başlığı altında yazılmış məqalədə Balalın məharəti haqqında deyilirdi: «...Konsertə xüsusi olaraq Tiflisdən məşhur tarçı Bala Məlikov çağırıldığı üçün tamaşaçılar daha artıq gəlmişdir.

Orkestronun çalğısında yenilik nəzərə çarpırdı. Bu yenilik Məlikovun tarda son dərəcə məharətlə və gözəl çalması və beləliklə mahnıların əsl düzgünlüyünü itirməməsi idi».[254]

Bundan sonra Bala 1931-ci ilin iyun ayında yenidən Bakı şəhərinə konsert vermək üçün dəvət olunur.

Bakıdakı son çıxışından sonra istsedadlı tarzən Ağdamda Xan Şuşinskinin konsertində və doğma vətəni Şuşa şəhərində xanəndə Seyid Şuşinski, Mehralı oğlu Bahadır, qarmonçu Kərbəlayı Lətif kimi sənət dostları ilə həmyerliləri qarşısında çıxış edir. Bu, Balanın öz doğma vətənində son çıxışı idi.

1932-ci ildə Bala Tiflisdə yenidən Şərq ansamblı yaradır və ansambla özü rəhbərlik edir. Ansamblın tərkibi xanəndə Məşədi, etnoqraf A. Qazancyan, müğənni Lazaraşvili, kamançaçı X. Doşoyan və Balanın qardaşı tarzən Aşot Məlikovdan ibarət idi. Bu kvintet (beşlik) bir ansambl kimi bütün Zaqafqaziyada

---

[252] «Правда» qəzeti, 1926-cı il, № 120.

[253] «Рабочи и театр» jurnalı, 1928-ci il, № 21.

[254] Bax: "Yeni yol" qəzeti, 1930-cu il, № 147.

şöhrət qazanmışdı. Ansamblın o zamankı afişalarında və yerli qəzetlərin elanlarında: «Ansamblın rəhbəri, Qafqazın məşhur virtuozu tarzən Bala Məlikovdur» sözlərinə tez-tez rast gəlirik.

Şərq xalqlarının musiqisinə dərindən bələd olan Bala, hərtərəfli biliyə, iti musiqi yaddaşına və gözəl səhnə mədəniyyətinə malik bir sənətkar idi. Onun çalğısına qulaq asanda adama elə gəlir ki, o, dünyanın qabaqcıl konservatoriyalarını bitirmiş, yüksək təhsil almış bir musiqiçidir. Həqiqətdə isə Bala heç bir musiqi təhsili görməmişdi. Yalnız fitri istedadı sayəsində, gənclik çağlarından musiqi aləminə qədəm qoymuş, öz zəhməti sayəsində Qafqazın ən yüksək ifaçıları sırasında yer tutmuşdu. Buna görə də Qafqazda elə bir böyük Şərq konserti, musiqi məclisi və müsabiqəsi olmamışdır ki, Bala öz gözəl çalğısını orada nümayiş etdirməmiş olsun.

1934-cü ilin mayında SSRİ Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutu, Dövlət Ermitajı və Dövlət İncəsənət Akademiyası böyük fars şairi Firdovsinin 1000 illiyinə həsr olunmuş xüsusi elmi sessiya çağırmışdı. Həmin sessiyada çıxış etmək üçün Bala Məlikov da dəvət olunmuşdu. Sessiyada istedadlı tarzən klassik Şərq musiqisindən ayrı-ayrı parçaları, xüsusən muğamları ilham və məharətlə ifa etmişdi. Şərqşünaslıq institutunun rektoru Orbeli, Balanın çıxışı haqqında səmimi rəylər yazmışdı. Mayın 31-də isə Dövlət İncəsənət Akademiyasının və Musiqişünaslıq İnstitutunun rektorluğu Balanın iştirakı ilə İran musiqisinə həsr olunmuş konsert təşkil etmişdi. Konsertdə Bala öz hərarətli çalğısı ilə Leninqradın məşhur musiqi xadimlərini riqqətə gətirmişdi. Dövlət İncəsənət Akademiyasının prezidenti M. Suifyanov bu münasibətlə yazmışdı: «Yoldaş Bala Məlikyan! Dövlət İncəsənət Akademiyasının Rəyasət heyəti və Musiqişünaslıq İnstitutu 31. V. 34-cü il tarixdə klassik İran musiqisinə həsr olunmuş gecədə sizin iştirakınıza görə, sizə dərin təşəkkürünü bildirir. Konsertin xüsusi olaraq bədii və elmi əhəmiyyətini, habelə sizin böyük ifaçılıq ustalığınızı nəzərə alaraq, Musiqişünaslıq institutu belə hesab edir ki, sizin çaldığınız musiqini mühafizə edib saxlamaq üçün Zaqafqaziya Federativ Sovet Sosialist Respublikasında xüsusi kurslar yaratmaq lazımdır».

Leninqradda sessiya qurtardıqdan sonra Ermənistan SSR-nin Mədəniyyət Evi tərəfindən Moskvaya dəvət olunan Bala burada Şərq musiqisindən ibarət konsert verir. Konsertdə yüksək ifaçılıq məharəti göstərən Bala «Mahur-hindi», «Hasar», «Xaric segah» və bir neçə Şərq xalqlarının mahnılarını çalır. Moskva musiqişünasları da öz rəylərində Balanın tarzənliyinə yüksək qiymət verirlər.

Leninqrad-Moskva səfərindən müvəffəqiyyətlə qayıdan Bala Kislovodskda, Pyatiqorskda və Tiflisdə bir neçə konsert verir. Qafqazlıların sevimlisi olan bu sənətkar bu dəfə də öz dinləyicilərini vəcdə gətirir. Bu isə Balanın son çıxışı olur...

1935-ci ilin yanvarında Bala ağır xəstələnir, qısa müddətli xəstəlikdən sonra Tiflisdə vəfat edir.

Bala Məlikov 30 illik tarzənlik fəaliyyətində istedadlı sənətkar kimi Azərbaycan, erməni və digər Şərq xalqları musiqisinin ən yaxşı nümunələrini təbliğ etmiş, beləliklə ümumxalq hörməti qazanmışdır.

«Зарja Востока» qəzetinin Bala Məlikov haqqında yazdığı nekroloqda deyilir: «...Şərq musiqi aləmi ən istedadlı ifaçılarından birini itirdi... Bala Məlikov yalnız Zaqafqaziyada deyil, onun xaricində də məşhurdur. Bala öz çalğısında yüksək ifaçılıq texnikasını musiqi duyğusu ilə birləşdirirdi».[255]

* * *

Bala Məlikov virtuoz tarzən, eyni zamanda öz sənətinə tam yiyələnən yaradıcı artist idi. Bu təkrarolunmaz sənətkar bütün muğamları böyük ehtiras və atəşin temperamentlə çalardı. Kimsə onun konsertlərinə və istərsə də qrammofon vallarına çaldığı havalara qulaq asıbsa, həmin şəxsin Balanın yanar ürəkli bir sənətkar olmasına şübhəsi olmaz.

Şərq musiqisini ehtirassız, hissiyyatsız və temperamentsiz düşünmək qeyri-mümkündür. Əgər kamança kədər-qüssə motivləri ilə dolu olan qəmli nəğmə üçün yaranıbsa, tar isə coşğun ehtirasları hərəkətə gətirən, incə hissləri oyadan, həm də bədbinliyi, şənliyi və mərdliyi eyni bir qüvvə ilə ifadə etmək üçün yaranmışdır. Bir sözlə, tar insan əhvali-ruhiyyəsini Şərq musiqi alətlərinin hamısından daha dəqiq, rəvan və dolğun əks etdirə bilən alətdir. Bu alətdə melodiyanın oynaqlığı, xarakteri, ifadə gücü, daha əzəmətli səslənir. Tar sözün həqiqi mənasında adamı hər şeyi unutmağa, səs və xəyal aləminə çəkilməyə məcbur edir.

Tarzənlik sənətini yeni və son dərəcə yüksək bir mərhələyə qaldıran Bala Məlikov ifa etdiyi musiqi parçalarını nəinki gözəl bilirdi, eyni zamanda onların arasındakı ən kiçik və incə fərqləri belə sərrafcasına ayırır və duyurdu. O öz çalğısında insan taleyinin bütün sirlərini açaraq onun qəm-qüssəsini, şikayətini, sevinc və şadlığını tərənnüm edirdi. Bala sadəcə olaraq çalmırdı. O, elə bil hər bir muğamın, təsnifin, rəngin canlı obrazını yaradırdı. Onun qeyri-adi ustalıq və özünəməxsus virtuozluğu ilə çaldığı «Xaric segah»a qulaq asanda adam hər şeyi unudur. Çünki tar onun əlində dil açır. Biz Şərq həyatı haqqında bütöv bir hekayəti dinləməyə başlayırıq. Xüsusilə o, sarı simlərdə gəzişəndə bizi heyran edir. Biz, Balanın iti, şirin barmaqlarının «izinə» düşüb onun tarının sarı simlərindən qonan «nağıl» aləminə düşürük. Buna görə də Balanın çalğısına həyəcansız qulaq asmaq qeyri-mümkündür.

Sadıqcan məktəbinin yetirmələri arasında Balanın xüsusi yeri vardır. İstər fitri istedad, istər incə zövq, istərsə də ifaçılıq məharətinə görə Bala əvəzedilməzdir. O, bir sözlə, fenomendir. Buna şübhələri olanlar onun 1913-cü ildə 25 yaşında qrammofon valına çaldığı «Mahur-hindi» muğamını dinləsələr onda bilərlər ki, tarzənlik nə deməkdir və tarı necə çalarlar. Bizim fonotekamızda olan 300-ə qədər qrammofon valları içərisində bir çox məşhur tarzənlərin, hətta Balanın

---

[255] «Зарja Востока» qəzeti, 17 yanvar 1935-ci il.

atası Bala oğlu Qrikorun belə «Mahur-hindi» valları vardır. Lakin bunların çalğısı Balanın çalğısına bənzəmir. Çünki Balada olan texniki ustalıq, dərin lirizm daha üstündür.

Onun «Mahur-hindi»sinə qulaq asanda adama elə gəlir ki, burada melodiyanı təkcə bir tarzən yox, böyük bir orkestr səsləndirir. Muğamın «Əraq» şöbəsində nadir priyomlar, çətin üsullar işlədən bu cəngavər tarzənin qeyri-adi ustalıqla cingənə simlərdə gəzişməyi adamı məftun etməklə heyrət içərisində qoyur. Doğrudan da, Balanın cingənə simlərdə gəzişməyi misilsizdir. Təəssüf ki, müasir tarzənlərin əksəriyyəti cingənə simlərdə gəzişə bilmirlər.

Azərbaycan xalq musiqisinin tarixində ilk dəfə tarla solo konsert verən Bala olmuşdur. Şübhəsiz ki, xanəndəsiz, kamançasız fərdi olaraq konsert vermək hər musiqiçinin işi deyildi. Lakin Bala dəfələrlə Qafqazın böyük şəhərlərində, Moskva və Leninqradda sədəfli tarını döşünə alıb konsertlər vermişdir. Buna görə də onun afişalarında: «Qafqazın məşhur virtuozu Bala Məlikovun konserti» sözlərini yazardılar. Onun fitri istedadı, temperamentli çalğısı haqqında bir çox musiqi alimləri və musiqiçilər dəyərli fikirlər söyləmişlər. Bunların içərisində bizim üçün ən maraqlısı böyük Qurbanın ən istedadlı şagirdi, sənətkarlıqda heç də Baladan geri qalmayan bizim məşhur virtuoz tarzənimiz Soqomon Seyranovun Bala haqqında dedikləridir... Mərhum Soqomon (1907-1974) axır illər İrəvandan Bakıya dincəlməyə gələndə bu kitabın müəllifinin tez-tez qonağı olardı. Şübhəsiz ki, Soqomonun hər gəlişi bütün Bakı musiqiçiləri üçün bayrama çevrilərdi. Buna görə də o, hər dəfə bizə gələndə, başda Xan Şuşinski olmaqla, Soqomonun sənətinə pərəstiş edən musiqiçilər bizə toplaşardılar. Söz-söhbətimiz əsasən keçmiş xanəndə və tarzənlərdən gedərdi... Soqomon yaxşı bilirdi ki, bir musiqişünas kimi mən tarzənlər arasında Balaya xüsusi münasibət bəsləyirəm. Məhz bunu nəzərə alan Soqomon qrammofonu işə salmağı xahiş edərdi... O, birinci olaraq Cabbar Qaryağdı oğlunun «Heyratı»sına qulaq asandan sonra Balanın «Mahur-hindi»sini səsləndirməyi arzu edərdi. O, Balanı həm sonsuz həsrətlə dinlər, həm də qəhərlənərdi... Qurban Pirimov, Simon Kasparov, dünyadan vaxtsız köçmüş gözəl tarzən Hacı Məmmədov və digər tarzənlər haqqında çox söhbətdən sonra axırda Balanın çalğısı üzərində dayanardıq. Soqomon Balanın çalğısı haqqında çox danışar və həmişə onu «əvəzolunmaz virtuoz» adlandırardı...

Bəlkə biz yazışmalarımızda da Baladan söhbət açardıq. Soqomon Seyranov 1971-ci il 24 dekabr tarixli məktubunda Bala Məlikov haqqında yazırdı: «Bala Qrikor oğlu həyatdan tez getdi... Lakin o qısa müddətli ömründə böyük, həm də əvəzolunmaz bir musiqiçi kimi çox iş gördü. Mən onun çalğısını, xüsusilə texniki ustalığını heç cürə unuda bilmirəm... Bir tarzən kimi Balanı heç kəsə bərabər tutmaq olmaz. Onun insanı vəcdə gətirən çalğısını eşidənlər onu heç bir vaxt unuda bilməzlər. Təsadüfi deyildir ki, həkim İoanesyan orkestrdə muğamların solo

çalğısını yalnız Balaya etibar edərdi... Mənim özüm Baladan çox şey öyrənmişəm. Çünki, Bala Məlikov Qafqazda yeganə, həm də misli-bərabəri olmayan ifaçı idi».

Azərbaysan milli musiqi mədəniyyəti tarixində Bala Məlikovun xidmətləri son dərəcə böyükdür. O da Qurban Pirimov kimi Azərbaycan tarının şöhrətini hər yerdə ucaltmışdı... Balanı kimlərlə müqayisə etmək, onun adını musiqi tarixində kimlərlə yanaşı çəkmək musiqi tədqiqatçıları üçün heç də asan olmamışdır. Lakin bunu əlavə edə bilərik ki, Azərbaycan vokal sənəti tarixində Xan Şuşinski hansı yerdə dayanırsa, çalğı musiqimizin tarixində Bala Məlikov da həmin yerdə dayanır.

## Seyid Şuşinski

Seyid Şərq musiqisinin incisidir

*Cabbar Qaryağdı oğlu*



MİR Möhsün ağa Seyid İbrahim oğlu Şuşinski 1889-cu ildə aprel ayının 12-də Şuşa qəzasının Horadiz kəndində anadan olmuşdur. Mir Möhsün uşaq yaşlarında ikən atası vəfat edir. Balaca Möhsünün tərbiyəsi ilə xalası Məşədi Hürzad məşğul olur. Dövrünün savadlı və açıqfikirli qadını olan Məşədi Hürzad Qarabağın qadın toylarında xanəndəlik edərdi. Seyid Şuşinski çox sonralar xalasını böyük minnətdarlıq hissi ilə xatırlayaraq deyərdi: «Atamın vəfatından sonra məni xalam saxlayıbdır. Xalamın çox incə və şirin səsi vardı. Xalam səsimi eşidəndən sonra məni də özü ilə toylara aparardı. Xalam bütün muğamlara dərindən bələd olmaqla «Orta mahur»u çox gözəl oxuyardı».

Gənc Seyid ilk təhsilini Horadizdə mədrəsədə almışdır. O, burada fars və ərəb dillərini müəyyən dərəcədə öyrənir. Seyid xalq ədəbiyyatı ilə daha ciddi məşğul olar, aşıq havalarını və el mahnılarını həvəslə oxuyardı. Seyidin uşaqlıq illəri və incə səsi haqqında Horadiz kəndində bu vaxta qədər gözəl xatirələr yaşamaqdadır. Horadizli Əsəd Mirzalı oğlunun xatirəsi də bu cəhətdən maraqlıdır. O, ötən günləri xatırlayaraq deyirdi: «Mən, Seyid, bir də Qoçəhmədli Heydər Heydərov bir sinifdə oxuyurduq. Müəllimimiz Molla Həmzə idi, onu «Pişik həmzə» deyə çağırırdılar.

Seyid dərsə çox fikir verərdi, həm də gözəl yaddaşı vardı. Məktəbə həmişə təmiz gələr və səliqə ilə geyinərdi. Olduqca gözəl yoldaşlığı var idi. Biz tez-tez kəndimizin ətrafındakı «İmam yalı»na oynamağa çıxardığ. O, həmişə hamıdan tez yalın başına çıxar və bizi çağırardı. Seyid zil və cingiltili səsi ilə o yalın təpəsindən: «Ay Mirzalı, ay Heydər, hey...» deyə, çağıranda bütün kənd eşidərdi.

Seyid «İmam yalı»nda elə oxuyardı ki, o zaman zalımların əlindən qaçaq düşmüş Qaçaq Süleyman onun səsini Əhmədallar kəndində eşidib öz dəstəsilə «İmam təpəsi»nə gələr və Seyidi oxudardı. Seyid Qaçaq Süleymana həmişə Mirzə Ələkbər Sabirin şerlərini muğam üstündə deyərdi. Xüsusilə, Sabirin «Neylərdin ilahi» və Məmmədəli şahı ifşa edən şerlərini həvəslə oxuyardı».

1904-cü ilin payız fəsli idi. Məşhur tuğlu Aşığ Aleksan öz dəstəsi ilə Horadiz kəndinə toy məclisinə dəvət edilmişdi. həmin toyun qadın məclisinə isə Məşədi Hürzad çağırılmışdı. Məclisdə kəndin ağsaqqalları Aşıq Aleksandan 15 yaşlı Seyidi dinləməsini xahiş edirlər. Seyid xoş səslə oxuyur. Gəncin çox zil səsinə və uzun nəfəsinə heyran olan Aşıq Aleksan Seyidi öz dəstəsinə qəbul edir. Seyid Aşıq Aleksanı həmişə hörmətlə yad edərdi: «Mən ilk dəfə Qarabağın Qoçəhmədli kəndində məşhur inqilabçı Məmmədxan Məmmədxanovun toyunda Aşıq Aleksanla birlikdə oxudum. Aşıq Aleksanın dəstəsi 8 nəfərdən ibarət idi. Aşıq Aleksanın oğlu Lazar həm oxuyar, həm də çalardı. Üç-dörd il onlarla birlikdə Qozluqçay dərəsi, Qarğabazar, Horadiz və Araz sahillərində yerləşən kənd toylarında və el şənliklərində çıxış etdim.

Aşıq Aleksan el havalarına, həm də muğamlara dərin bələd idi. O, Vaqifin, Zakirin qəzəllərini, müxəmməslərini çox düzgün oxuyardı. Aleksan «Arazbarı»nı elə zövqlə oxuyardı ki, hamı heyran qalardı».

Gənc Seyid kənddə mədrəsəni müvəffəqiyyətlə bitirdikdən sonra dərzilik sənəti ilə məşğul olur. Lakin buna baxmayaraq, arabir dini mərasimlərdə və xalq şənliklərində çıxış edirdi. Seyidin peşəkar bir xanəndə kimi tanınmasında Azərbaycanda xanəndəlik sənətinin beşiyi olan Şuşa mühitinin həlledici rolu olmuşdur.

* * *

1907-ci ilin yay günlərinin birində Qaryakində (indiki Füzuli rayonu - Red.) qapançı Məşədi Qulunun oğlu Bəhramın toyu idi. Həmin məclisə Qarabağın bir çox yerlərindən, o cümlədən Şuşa şəhərindən də çox qonaq dəvət edilmişdi. Qonaqların içərisində Seyidin əmisi Məşədi Seyidəli də var idi. Seyid söyləyirdi ki, mən də həmin məclisə əmimlə getmişdim. Biz məclisə girəndə xanəndə Keçəçi oğlu Məhəmməd «Sarəng» oxuyurdu. O, əmimi, Məşədi Məhəmmədi,[256] Məşədi Dadaşı[257] və başqa qonaqları görəndə:

Xoş amədi ke, xoş aməd məra ze amədənət,
Hezar çane-gerami fədaye hər qədəmət.[*]

[256] Məşədi Məhəmməd (Qaryağdı oğlu Cabbarın böyük qardaşı) XIX əsrin sonu və XX əsrin əvvəllərində yaşamış həvəskar xanəndə və şair idi - müəllif.
[257] Məşədi Dadaş XIX əsrin sonu və XX əsrin əvvəllərində yaşamış həvəskar xanəndə idi - müəllif.
[*] Sizin gəlməyiniz mənə xoş gəldi. Min canım olaydı ki, hər qədəm atanda sizin yolunuzda qurban edəydim.

- Sözləri ilə bizi qarşıladı. Keçəçi «Sarəng»i oxuduqdan sonra toyda əyləşənlər mənim oxumağımı tələb etdilər. Bu hadisə əmimi həm təəccübləndirdi, həm də sevindirdi. Çünki o naxta kimi əmim mənim səsimi eşitməmişdi. söhbətə qarışan Ərəb oğlu İsmayıl əmimə dedi:

- Məşədi Seyidəli! Qoy qardaş balası Keçəçinin yanında otursun.

Tarzən Ballıçalı Baxşı tarı, kamançaçı Armenak Şuşinski isə kamançanı «Qatar» üstündə köklədilər. Keçəçi mənə qavalını verəndə doğrusu mən özümü itirmişdim. Bunu görən böyük xanəndə mənə toxtaqlıq verib dedi:

- Qorxma, ürəklə oxu!

Mən «Qatar»ı «üzzal» pərdəsində sürəkli zəngulələrlə bitirdikdə məclisi alqış sədaları bürüdü. Hamı əmimi və məni təbrik etdilər. Xüsusilə Məşədi Məhəmməd ilə Məşədi Dadaşın sevincinin həddi yox idi. Onlar əmimə məsləhət gördülər ki, Şuşaya qayıdanda məni də özü ilə şəhərə aparsın. Bir neçə gündən sonra əmim Seyidəli məni Şuşaya apardı.

XIX əsrdə Şuşa şəhəri bütün Qafqaz üçün bir konservatoriya idi. Buraya Zaqafqaziyanın hər yerindən şairlər, dramaturqlar, bəstəkarlar, məşhur artistlər və musiqiçilər tez-tez gələr, teatr tamaşaları göstərər, toy şənliklərində və Şərq konsertlərində iştirak edərdilər.

Təsadüfi deyil ki, təkcə XIX əsrdə istedadlar məskəni olan bu şəhərdə 95 şair və ədib, 22 musiqişünas, 38 xanəndə, 12 nüsxəbənd, 19 xəttat, 16 nəqqaş, 18 memar, 5 astronom, 16 həkim, 42-yə qədər müəllim və sair peşə sahibləri olmuşdur.[258] Bu böyük ziyalı dəstəsi Şuşa şəhərini mədəniyyət mərkəzinə çevirməkdə və inkişaf etdirməkdə böyük rol oynamışdır. Gözəl Şuşanın zəngin musiqi mühitini nəzərə alan Seyidəli kişi də qardaşı oğlu Seyidi Şuşaya gətirmişdi.

Məşədi Seyidəli dövrünün tərəqqipərvər adamı olmuş, həm də mahir musiqişünas kimi ad-san çıxarmışdı. Məşədi Seyidəli gənc xanəndənin musiqi təhsili ilə şəxsən məşğul olar, Sədinin, Hafizin, Füzulinin və Zakirin şerlərini Seyidə əzbərlədib, muğam üstündə oxudardı.

Lakin etiraf etməliyik ki, gənc Seyidin bir xanəndə kimi yetişməsində böyük müğənni Cabbar Qaryağdı oğlunun həlledici təsiri olmuşdur. Məşədi Seyidəlinin evi Cabbarın evinə yaxın olduğundan, gənc Seyid məşhur xanəndənin oxumağını tez-tez eşidərdi. Qocaman xanəndə sonralar bu barədə deyirdi: «Əmim Cabbar ilə dost idi. Məni özü ilə Cabbar oxuyan məclislərə aparardı. Cabbara qulaq asanda ürəyimdə arzular oyanırdı. Cabbar kimi bir usta xanəndə olmaq üçün öz üzərimdə həvəslə çalışırdım. Odur ki, saatlarla Cabbarın qrammofon vallarına qulaq asar, həmişə onun oxumağını eşitməyə can atardım».

Seyid Şuşinskinin şuşalılar qarşısında ilk çıxışı 1908-ci ildə «Yay klubu»nda olmuşdur. Məşhur müğənni İslam Abdullayev həmin konsertdə Seyidin

[258] Bax: «Kommunist» qəzeti, 8 avqust 1945-ci il.

necə oxuduğunu belə xatırlayır: «Bir gün şəhərin «Yay klubu»nda böyük konsert oldu. Bu konsertə Qarabağın məşhur xanəndələri ilə birlikdə mən də dəvət olunmuşdum. Klubun ətrafına mindən artıq adam toplaşmışdı. Biletlər bir həftə qabaq satılıb qurtarmışdı... Bilet tapa bilməyənlər konsertin başlanmasına hələ bir saat qalmış klubun ətrafındakı böyük evlərin damına, «Üç mıx»ın başına və «Kavur qalası»nın ətəyinə yığışaraq konsertin başlanmasını səbirsizliklə gözləyirdilər. Axşam saat 9-da konsert başlandı. Cabbar, Qasım, Məşədi Məmməd, Həmid və Keçəçi oxuduqdan sonra konserti idarə edən Azadbəy Əmirov gənc Seyidin «Mani» oxuyacağını elan etdi. Tarzən Balaca Qrikor mizrabı tarın simləri üstündən götürməmiş klubun səhnəsindən elə bir səs ucaldı ki, bütüp musiqiçilər yerlərində quruyub qaldılar. Salonu alqış səsləri bürüdü. Seyidə ikinci dəfə «Bayatı-Şiraz» oxutdular. Seyid «Bayatı-Şiraz»ın «Xavərən» şöbəsindən «Qatar»a keçəndə nəinki dinləyiciləri, hətta konsertdə iştirak edən məşhur musiqiçiləri belə heyran etdi. Çünki «Xavərən»dən «Qatar»a keçmək xanəndədən zil səsdən başqa, həm ustalıq, həm də cəsarət tələb edir. 19 yaşlı gəncin belə bir ustalıqla bir muğamdan başqa bir muğama keçməsi doğrusu mənə möcüzə kimi görünürdü. Seyid tarın son pərdələrindən aşağı enərək təkrar zəngulələr vuranda Cabbar əlindəki qavalı kənara tullayıb böyük bir heyrət içərisində Seyidə tamaşa edirdi. Bu zaman gördüm ki, Keçəçi oğlu əllərini yuxarı qaldıraraq deyir: «Bari İlahi, bu nədir? Bu nə aləmdir? Şükür sənin yaratdığına. İndi bildim ki, həzrət Davud doğru imiş». Söhbətə qarışan Malıbəyli Həmid özünü saxlaya bilməyib başını buladı: «Əşi, nə danışırsan? Həzrət Davud sağ olsaydı, onun özü belə bu səsə heyran qalardı».

Seyid dəstgahı qurtarıb ayağa qalxdıqda salondakı tamaşaçılar uzun zaman gənc xanəndəni alqışladılar. Azadbəy nə qədər çalışdısa camaatı sakitləşdirə bilmədi. Nəhayət, salonun ortasında əyləşən Xanlıq Muxtar[259] iki dəfə göyə güllə atdıqdan sonra tamaşaçılar sakit oldular. Seyidə üçüncü dəfə «Şəkər oğlunun şikəstəsi»ni oxutdular. Seyid şikəstəni oxuyub qurtarandan sonra rəhmətlik Cabbar səhnəyə qalxıb Seyidi bağrına basaraq gözləri yaşarmış halda dedi: «Camaat! İndi mən ölsəm də, daha qəmim yoxdur, çünki məndən sonra Seyid vardır».[260]

Həmin hadisədən sonra Seyidin şöhrəti artır, onun cazibəli səsini dinləməyə nəinki dinləyicilər, hətta musiqiçilər belə can atırdılar. Deyirlər ki, hər gün tar və kamança çalanlar gənc xanəndəni özləri ilə el şənliklərinə dəvət etmək üçün Məşədi Seyidəlinin darvazası ətrafına toplaşarmışlar. Məşədi Seyidəli Seyidin toylarda oxumasına icazə verməsini xahiş edən tarzənlərə həmişə deyərmiş: «Seyid hələ uşaqdır, ona xanəndəlik etməkdən əvvəl musiqi aləminin sirlərini öyrənmək lazımdır». Məşədi Seyidəli haqlı idi, çünki Seyid musiqi elmində hələ çox şey bilmirdi. Seyid xanəndəlik sənitinə tam yiyələnmək üçün klassik Şərq muğamlarını

[259] Xanlıq Muxtar Xan sarayında xidmət etmiş, şəhərdə hörmətli şəxslərdən biri olmuşdur – müəllif.
[260] İ. Abdullayevin xatirələrindən (Xatirə kitabın müəllifindədir) - Red.

və xalq musiqisini dərindən öyrənməli idi. Bunu nəzərə alan Seyidəli gənc Seyidi Nəvvabın yanına aparır.

Seyid Nəvvabın hücrəsində iki ildən artıq musiqi təlimi alır. Nəhayət, 1910-cu ildə Nəvvab gənc xanəndənin xalq şənliklərində, musiqi məclislərində oxumasını məsləhət görür.

1911-ci ilin yayında Şuşa taciri Kevand Aydınov öz müştərilərinin şərəfinə şəhərin ən səfalı yerlərindən biri olan «Buzxananın həyəti»ndə qonaqlıq təşkil etmişdi. Həmin qonaqlığa şəhərin müsəlman, həm də erməni hissəsindən 150-yə yaxın adam dəvət olunmuşdu. Bu ziyafət əslində hər iki qardaş xalqın dostluq bayramı idi. Qonaqlıqda xanəndə İslam Abdullayev, tarzən Balaca Qrikor, kamançaçı Mirzə, xanəndə Qaragöz Zülfüqar və Gülablı aşıqları Abbasqulu və Nəcəfqulu da öz dəstəsi ilə iştirak edirdi. İyirmi bir yaşlı Seyid də əmisi Seyidəli ilə həmin məclisə qonaq gəlir. Məclisin axırında Seyidəli masabəyi Xanlıq Səlimdən Seyidin oxumasına icazə verməsini xahiş edir. Seyid usta tarzən Qrikorun və qocaman kamançaçı Mirzənin müşayiəti ilə «Bayatı-İsfahan» muğamını oxuyur. Gənc xanəndənin əzəmətli və incə səsi, muğamı tamam-dəstgah oxuması dinləyiciləri heyran edir.

Qaş qaralanda 150 atlı İrəvan qapısından şəhərə daxil olarkən «Qarabaq şikəstəsi»ni duet şəklində oxuyan İslam ilə Seyidin incə səsi küçələrə, evlərin eyvanlarına çıxan minlərcə şəhər əhlinin ürəklərini riqqətə gətirirdi. Deyilənə görə, atlı dəstəsi şəhərin mərkəzi hissəsi olan «Kilsə meydançası»na daxil olduqda, Seyidin məlahətli səsini eşidib onu görməyə can atan minlərlə şəhər sakini Seyidə «Qarabaq şikəstəsi»ni yenidən oxumağı xahiş etmişlər.

Bu hadisədən sonra Seyidin şöhrəti bütün Qarabağa yayılır. Demək olar ki, Şuşada qurulan bütün məclislərə onu dəvət edirlər. O dövrün Məşədi Zeynal, Mərdi Canıbəyov, Balaca Qrikor, Malıbəyli Həmid, Məşədi Cəmil Əmirov və Tatevoe Arutyunov kimi məşhur tarzənləri Seyidlə məclisə çıxmağı özləri üçün şərəf bilirdilər. Bu isə səbəbsiz deyildi. Çünki Seyiddə yüksək diapazona malik səs olmaqla, həm də muğamları düzgün və səlis oxumaq qabiliyyəti var idi. Onun oxumağı nəinki dinləyiciləri, hətta o dövrün sənət yollarında saç-saqqal ağartmış məşhur xanəndələri belə valeh edirdi.

***

Seyid Şuşinski xüsusi musiqi məktəbi bitirməmişdir. Lakin o öz fitri istedadı və bacarığı sayəsində gənclik illərində dövrünün məşhur musiqişünaslarından, özündən yaşlı xanəndə və tarzənlərdən musiqi elminin sirlərini öyrənmişdi. O, artıq 20 yaşlarında Qarabağın «Ürəfa» məclislərində, «Əsnaf» toylarında çıxış edən birinci dərəcəli xanəndə kimi el arasında məşhur olmuşdu.

1911-ci ilin payızında Şuşada allahverənli Kərbəlayı Şirinin məclisində Seyid Şuşinski məşhur musiqiçi tarzən Məşədi Cəmil Əmirovla birlikdə çıxış edir.

Məclisin sonunda Məşədi Cəmil Məşədi Seyidəlidən icazə alıb Seyidi Gəncə şəhərinə aparır. O zaman Gəncə şəhəri Yelizavetpol quberniyasının mərkəzi olduğundan burada da tez-tez xalq şənlikləri və musiqi məclisləri keçirilərdi. Bu məclislərdə Malıbəyli Həmid, Əsgər Qurbanov, Musa Şuşinski, Əli Cavad oğlu, tarzən Rzabala, kamançaçı Böyükkişi Əliyev, məşhur qarmonçalan Abutalıb Yusifov və xanəndəlik sənətinə yenicə qədəm qoyan Bülbül kimi sənətkarlar çıxış edirdilər.

Seyid Şuşinski Gəncə şəhərində «Tehran mehmanxanası»nda yaşayırdı. Gəncə musiqiçiləri tez-tez bura toplaşar və Şərq musiqisindən söhbət açardılar. Mehmanxananın sahibi qarabağlı Bala Seyid də musiqi həvəskarı olduğundan bu məclislərin təşkili üçün əlindən gələni əsirgəməzdi. Çox keçmədən «Tehran mehmanxanası» musiqi salonuna çevrilir. Şəhərə gələn qonaqlar Seyidin gözəl səsini dinləmək xatirinə «Tehran mehmanxanası»na axışırdılar. Az bir vaxt içərisində Seyid gəncəlilərin ən sevimli bir xanəndəsi, Gəncə məclislərinin bəzəyi və yaraşığı olur.

Gəncədə elə bir toy və ürəfa məclisi olmazdı ki, Seyidi ora çağırmasınlar. Seyidə tələbat o qədər çox idi ki, bunu nəzərə alan məclis sahibləri onun günlərini öz aralarında bölürdülər. Çox keçmədən Seyid öz sənət dostları tarzən Məşədi Cəmil və məşhur qarmonçu Abutalıb Kərbəlayı Muxtar oğlu ilə nəinki Gəncə, Şamxor, Tovuz və Qazax mahalında, hətta Tiflis şəhərində belə şöhrət tapır. Nəhayət, 1911-ci ilin axırlarında «Обшественноје собраније» adlı erməni klubu Seyid Şuşinskini çıxış etmək üçün Tiflis şəhərinə dəvət edir.

* * *

XX əsrin əvvəllərində Zaqafqaziyanın mərkəzi Tiflisdə bir sıra mədəniyyət ocaqları açılmışdı: «Артистическоје обшество», «Казјонны театр», «Тифлисскоје собраније», «Дворјански клуб» adlı teatr binaları və «Обшественноје собраније», «Народны дом» klubları fəaliyyət göstərirdi. Tiflis mühiti Seyid Şuşinskinin peşəkar bir xanəndə kimi tərbiyə almasında Şuşadan heç də az əhəmiyyətli olmamışdır.

Seyid Şuşinskinin həyat və yaradıcılıq dövrünü üç yerə bölmək olar: Şuşada Nəvvabın məclisində iştirak etdiyi ilk gənclik illəri (1907-1911); Gürcüstanda keçirdiyi dövr (1911-1919) (Seyid Şuşinskinin vokal sənətinə yiyələnməsi, bədii zövqü, həm də səhnə ustalığı burada cücərməyə başlamışdı. Elə burada da Şərqin məşhur tenoru Əbülhəsən xan İqbal-Soltanın məktəbi ilə tanış olmuşdu); lakin Seyidin bir müğənni kimi formalaşmasında Azərbaycan vokal məktəbinin banisi Cabbar Qaryağdı oğlunun böyük təsiri olmuşdur.

Məhz Seyid muğam aləminin sirlərinə böyük Cabbarın təlimlərində yiyələnmişdi. Təsadüfi deyildir ki, o, həmişə Qaryağdı oğlunun tələbəsi olması elə

fəxr etmiş və sənət sahəsində nə qədər qələbə əldə etmişsə, hamısını Cabbarın adı ilə bağlamışdı.[261]

Seyid Tiflisə gələn ili (1911) Tiflis məclislərində, klublarda və teatr tamaşalarının fasilələrində Çəkməçi Məhəmməd, Məcid Behbudov, Məşədi Məmməd Fərzəliyev, Məşədi Qafar, Mərdi Canibəyov, Məşədi Zeynal, Bala oğlu Qrikor, Levon Qaraxanov, Sevi, Kevork, Ruben Qaraxanov kimi görkəmli musiqiçilər çalıb-oxuyurdular.

Seyidin Tiflisdə ilk dəfə rəsmi çıxışı 1911-ci ilin dekabrın da «Обшественноје собраније» adlı erməni klubunda məşhur tarzən Bala oğlu Qrikor və kamançaçı Sevinin iştirakı ilə olmuşdu. Konsert gecəsi Tiflisin bütün oxuyan və çalanları «Şur» muğamını böyük məharətlə oxuyan gənc xanəndəni qızğın alqışlarla təbrik etmişlər. Seyidin birinci konsertindən sonra onun şöhrəti ildırım sürəti ilə şəhərə yayılır. Deyilənə görə, Seyidin afişası ikinci dəfə vurulduqda klubun ətrafına iki mindən artıq tamaşaçı toplaşmışmış. İkinci konsert gecəsində Seyidi müşayiət edən qocaman tarzən Mərdinka onun məlahətli səsindən və musiqi biliyindən heyrətlənərək tamaşaçılara müraciətlə demişdir: - Belə məlahətli bir səslə oxuyanın olmasını çoxdan arzulayırdım.

Çox keçmir ki, Seyid bütün Tiflisdə istedadlı xanəndə kimi tanınır. Onun konsertlərinə təkcə azərbaycanlılar deyil, ermənilər, gürcülər və ləzgilər də axışıb gəlirdilər. O zaman Seyidin konsertləri yerli qəzetlərdə elan edilirdi. Xüsusilə, erməni dilində çıxan «Horizon» qəzetində Seyidin şəkilləri vurulur və onun xanəndəlik fəaliyyəti haqqında tez-tez rəylər yazılırdı. Seyidin Tiflis dinləyiciləri qarşısında son dərəcə müvəffəqiyyətli çıxışlarını nəzərə alan teatr və klub sahibləri onu görkəmli bir xanəndə kimi teatrlara dəvət edib tamaşaların fasilələrində oxudardı Bu isə teatra gələn tamaşaçıların sayının gündən-günə artmasına səbəb olurdu.

Seyid K. Y. Zubalov adına «Народны дом»da da çıxış edirdi. «Parodnı dom» Tiflisin ən böyük mədəniyyət ocaqlarından biri idi. 1909-cu ilin mart ayının 24-dən fəaliyyətə başlayan «Народны дом»un zəngin kitabxanası, böyük tamaşa və mühazirə salonu var idi. Xalq evində 12 dildə mühazirə keçirilir və tamaşa göstərilərdi. Təkcə 1912-ci ildə xalq evinin 12 bölməsində 11 dildə 233 tamaşa göstərilmişdir.[262]

Zubalov adına «Parodnı dom» teatrının binasında ayda iki dəfə Azərbaycan Dram Teatrı trunpası tamaşa göstərirdi. Başqa teatrlarda olduğu kimi burada da Seyid Şuşinski tamaşaların fasilələrində oxuyardı.

1912-ci ildə Tiflisdə «Molla Nəsrəddin» jurnalının redaktoru Cəlil Məmmədquluzadənin, Əlimirzə Nərimanovun, Yusifbəy Tahirovun təşəbbüsü və Seyid Şuşinskinin şəxsən yaxından köməyi ilə Tiflisin azərbaycanlılar yaşayan

---

[261] Bax: F.Şuşinski. Cabbar Qaryağdı oğlu. Azərnəşr, Bakı, 1964, səh. 97.
[262] Bax: «Городскоj Народны дом» имени K. Y. Zubalova, Tiflis, 1913-cu il.

hissəsində (Şeytanbazarda) «Luditoriya» adlı yeni klub açılır. Həmin klubda təkcə konsertlər deyil, eyni zamanda teatr tamaşaları da verilərdi. Klubun açılışı günü Seyid Şuşinskinin rəhbərliyi ilə Tiflis sazəndələrinin böyük «Şərq konserti» olmuşdur. Konsertdə tamaşaçılar tərəfindən məhəbbətlə qarşılanan Seyid tarzən Məşədi Zeynalın müşayiəti ilə «Mahur» oxumuşdur.

Seyid Şuşinski konsertdən əldə edilən pulun hamısını kluba vermişdir. «Auditoriya» klubu da Seyid Şuşinskinin maddi yardımı nəticəsində açılmışdır. Seyid bir «messenat» kimi həm teatra, həm də teatrda iştirak edən artistlərə maddi yardım göstərirdi.

Bu klubun ətrafında Hüseyn Ərəblinski, Mirzəağa Əliyev, Əli Qurbanov, Sidqi Ruhulla, İbrahim İsfahanlı, Mirzəli Abbasov, Mirzəxan Ruliyev, S. M. Kirmanşahlı, Aliya xanım, Tərlan xanım, P. Tanalidi və Mustafa Mərdanov kimi məşhur sənətkarlar toplaşaraq Azərbaycan dramaturqlarının, xüsusilə Üzeyir Hacıbəyovun operalarını və musiqili komediyalarını tamaşaya qoyardılar. Bu əsərlərdə Seyid Şuşinski baş rollarda oynayar və teatrdan bir qəpik pul almazdı. Tiflisdə çıxan qəzetlərdə Seyidin çıxışları xüsusi elan edilər, onun səhnə fəaliyyəti haqqında yaxşı rəylər yazılardı. Məsələn, onun çıxış etməsi haqqında «Qafqaz» qəzeti elanlarının birində yazırdı: «Noyabrın 4-də müsəlman dram cəmiyyətinin idarə heyətinin yığıncağında qərara alınmışdır ki, 1913-cü il noyabrın 15-də «Грузинскоје дворјанство» teatrında məşhur müsəlman xanəndəsi Seyidin və gənc opera artisti Aliya xanımın iştirakı ilə tamaşa göstərilsin».[263]

Həmin gün Üzeyir Hacıbəyovun «O olmasın, bu olsun» operettası tamaşaya qoyulur. Əsərdə Məşədi İbad rolunda Mirzəli Abbasov, Gülnazı Aliya xanım, Sərvər rolunu isə Seyid Şuşinski oynamışdı. Müvəffəqiyyətlə keçən tamaşa haqqında yazılmış rəydə deyilirdi: «Ümumiyyətlə tamaşa öz ansamblı ilə yaxşı keçdi. Tamaşanın müvəffəqiyyətinə sazəndələr kömək etdi. Teatr ağzınacan dolu idi».[264]

Seyid Şuşinskinin Tiflisdəki səhnə fəaliyyətindən və onun Azərbaycan teatr və musiqi mədəniyyətinin inkişafındakı rolundan bəhs edən görkəmli səhnə xadimi, Azərbaycan SSR xalq artisti Mustafa Mərdanov öz xatirələrində yazır:

«Hər dəfə onu (Seyid Şuşinskini - F. Ş.) gördükdə, ya səsini radioda eşitdikdə gəncliyim, Tiflis şəhərində keçirdiyim ilk yaradıcılıq illərim kino lenti kimi gözümün qarşısından gəlib keçir. Seyid Şuşinski Tiflisdə şöhrət qazanmış əsl xalq xanəndələrindən idi. Mən onunla Tiflisdə tanış olmuşam. Seyid Şuşinski qabaqlar səhnəyə çıxmazdı, ancaq tamaşadan əvvəl və fasilələrdə pərdə qabağında oxuyardı. Tamaşaçılar onu sevirdilər.

[263] «Kavkaz» qəzeti, 6 noyabr 1913-cü il, № 252.
[264] “Kavkaz” qəzeti, 1913-cü il, № 263.

Seyid teatrdan ayrılmazdı, boş saatlarını teatr məşqələlərinə həsr edirdi. Teatr işçiləri Seyidin inkişaf etməsi üçün ona kömək göstərirdilər. Beləliklə, o, get-gedə opera və operettalarda çıxış etməyə başladı.

Seyid Şuşinski Tiflis səhnəsində böyük müvəffəqiyyətlə İbn Salam («Leyli və Məcnun»), Əsgər («Arşın mal alan»), Sərvər («O olmasın, bu olsun») rollarını özünəməxsus orijinallıqla ifa edirdi.

Bir dəfə Seyid Şuşinski Tiflis şəhərinə məşhur aktyor A. Avetisyanın rejissorluğu ilə erməni dilində tamaşaya qoyulan «Arşın mal alan» operettasında Əsgər rolunu (Azərbaycan dilində) çox gözəl ifa etdi (baş rolları ifa edənlər isə erməni dilində danışırdılar). O, gürcü aktyorları ilə də «O olmasın, bu olsun» operettasında Sərvər rolunda məharətlə çıxış etmişdir.

Qeyd etməliyik ki, Seyid öz çıxışlarında bizdən pul almazdı. Əksinə, tamaşa göstərmək üçün lazım olan xərclərin bnr hissəsini həmişə öz boynuna götürərdi. O, kasıb tələbələrə də maddi yardım edərdi. Qəzet və jurnal redaksiyalarına da Seyidin az köməyi dəyməmişdi. (Mən burada «Molla Nəsrəddin» jurnalına və onun əməkdaşlarına Seyidin köməyini nəzərdə tuturam). İncəsənət və ədəbiyyat xadimlərinə yaxın olan Seyidi sözün əsl mənasında həqiqi bir «messenat» adlandırmaq olardı».[265]

1912-ci ildə Tiflis «Müsəlman cəmiyyəti-xeyriyyəsi» məşhur Azərbaycan artisti Hüseyn Ərəblinskini Tiflis şəhərinə dəvət edir. H. Ərəblinskinin Tiflisə gəlməsi xəbəri ildırım sürəti ilə şəhərə yayılır. Tiflisin bütün teatr və musiqi xadimləri onun ətrafına toplaşır. O zaman H. Ərəblinskinin rejissorluğu və şəxsən iştirakı ilə Tiflisdə yaşayan Azərbaycan artistləri bir çox teatr tamaşaları göstərmişdilər. Tiflis tamaşaçıları böyük aktyorun özünəməxsus bir məharətlə oynadığı rollara baxmaq üçün can atırdılar. Onun başqa bir zövqlə yaratdığı Nadir şah, Nəcəfbəy və Ağaməhəmməd şah Qacar obrazları tamaşaçıları vəcdə gətirərdi.

H. Ərəblinskinin Tiflisdə qastrol səfəri başqa sənət dostları kimi Seyid Şuşinskinin də hədsiz sevincinə səbəb olardı. H. Ərəblinski Seyid Şuşinskinin həm səsinə, həm də sənətkarlıq qabiliyyətinə böyük qiymət verərdi. Təsadüfi deyildir ki, H. Ərəblinski Tiflis teatrlarında hazırladığı tamaşaların fasilələrində oxumaq üçün həmişə Seyidi dəvət edərdi. Hətta bir dəfə «Казјонны театр»ın binasında Hüseyn Ərəlinski Seyid Şuşinskinin iştirakı ilə Tiflis musiqiçilərini toplayıb Şərq konserti təşkil etmişdi. Qeyd etməliyik ki, bu konsert Hüseyn Ərəblinskidən qabaq Ə. Haqverdiyevin təşkil etdiyi ilk Şərq konsertlərindən bir qədər seçilirdi. Konsertdə böyük müvəffəqiyyətlə çıxış edən Seyid Şuşinski H. Ərəblinskinin təşəbbüsü və məsləhəti ilə Azərbaycan səhnəsində ilk dəfə olaraq əynində frak kostyum, ağ ipək köynək, əllərində ağ əlcək, cibdə ağ ipək dəsmal, döşündə qızıl medalyon, boynunda qara bant səhnəyə çıxarkən tamaşaçıları heyrət bürümüşdü. Şərq musiqisinin ifaçılıq adətinə görə xanəndə oxuyanda tarın və kamançanın

[265] M. Mərdanov, Xatirələrim. Bakı, 1964, səh. 80-81.

müşayiəti ilə oxuyardı. Lakin Şərqin bu adətini «pozan» ilk dəfə Seyid olmuşdur. O, səhnəyə tar və kamançasız çıxaraq o zaman İtaliyada musiqi təhsilini yenicə bitirib Tiflis şəhərinə gələn İran konsulu Məcid əl-Səltənənin qızının fortepianoda müşayiəti ilə ayaq üstündə «Bayatı-İsfahan» muğamını oxumuşdu. Seyiddən sonra səhnəyə çıxan H. Ərəblinski Hamletin «Olum, ya ölüm» monoloqunu söyləmişdi. Teatrın salonunda əyləşən min beş yüzdən artıq dinləyici ayağa qalxıb Seyid Şuşinskini və Hüseyn Ərəblinskini dəfələrlə səhnəyə dəvət edib səmimi alqışlarla onlara öz minnətdarlıqlarını bildirmişdilər.

Qeyd etməliyik ki, Seyid ilə Hüseyn Ərəblinski sənət dostluqundan əlavə həyatda belə səmimi dost idilər. H. Ərəblinski Tiflis qastrollarına gələndə həmişə Seyidlə bir yerdə olar, ona teatr sənətindən danışar, Seyid isə böyük aktyora Şərq musiqisinin sirlərindən qəribə hekayətlər söyləyərdi. Bu iki böyük sənətkarın dostluğu on ilə yaxın (1911-1919) davam etmişdi. 1919-cu ilin mart ayında böyük sənətkar Hüseyn Ərəblinskinin həyatına qəsd edildi. H. Ərəblinskinin ölümü Azərbaycan incəsənəti üçün ağır itki idi. Bu xəbərdən mütəəssir olan Seyid, Tiflis artistləri və musiqiçiləri adından mərhumun ailəsinə aşağıdakı məzmunda teleqram vurmuşdu:

"Biz Tiflis şəhərinin Şərq musiqiçiləri, milliyətlərindən asılı olmayaraq bütün xanəndə və artistləri mənfur qatilin əli ilə vaxtsız həlak olmuş sənətkar yoldaşımız Hüseyn Ərəblinskinin ailəsinə dərin hüznlə başsağlığı veririk.

*S. Şuşinski".*[266]

Sonralar Seyid Şuşinski görkəmli aktyor Hüseyn Ərəblinskinin adını həmişə böyük hörmət və iftixarla çəkərdi:

«Hər dəfə Hüseyni xatırladıqda, onun yaratdığı unudulmaz obrazlar haqqında düşündükdə istər-istəməz Tiflisin əlli il bundan əvvəl teatr aləmi, musiqi həyatı gözlərimin önündə canlanır. Ərəblinski Tiflisə qonaq gələndə «Гречсски пасаж»da olardı (mənzili orada idi). Biz hər səhər görüşərdik. Hüseyn olduqca mədəni, alicənab və təvazökar bir insan idi. O, çox səliqəli geyinərdi. Hüseyn ütüsüz paltar geyinməzdi. Buna görə də otaqda həmişə onun ütüsü hazır olardı. Mən teatr sənətinin nə olduğunu yalnız onun oyununda dərk etmişəm. Hüseynin adı afişalarda yazılanda teatr salonları ağzı-naçan adam ilə dolu olardı. Hüseyn səhnəyə çıxanda nəinki tamaşaçılar, hətta Tiflisin ən məşhur erməni, rus, gürcü aktyorları, xüsusilə rus rejissorları gəlib heyrətlə tamaşa edərdilər».

Mollanəsrəddinçi Əliqulu Qəmküsar Seyid Şuşinskini «Molla Nəsrəddin» jurnalının redaktoru Cəlil Məmmədquluzadə ilə tanış etmişdi. Sonralar Mirzə Cəlil Seyidin ən yaxın dostlarından biri olmuşdu. O, tez-tez Seyidi, tarzən Məşədi

---

[266] "Azərbaycan" qəzeti, 1919-cu il, № 55.

Zeynalı evinə dəvət edib onun gözəl, məlahətlə oxuduğu muğamları dinləməkdən doymazdı.

Məlum olduğu kimi, Mirzə Cəlil Şərq musiqisini, onu təbliğ edən xalq xanəndələrini və el aşıqlarını çox sevirdi. O, özü həm də həvəskar musiqiçi idi. Mirzə Cəlil gözəl ney çalardı. Hətta kamança çalmağı belə öyrənmişdi. Qardaşı Mirzə Ələkbərin də səsi vardı. Həmidə xanımın xatirələrindən məlum olur ki, Qarabağın Kəhrizli kəndində olan bir toyda camaatın xahişi ilə Mirzə Cəlil tütəkdə «Segah» çalmış, qardaşı Mirzə Ələkbər isə oxumuşdur.

Şübhəsiz ki, Mirzə Cəlilin Şərq musiqisinə olan həvəsi və musiqi alətlərində çalmağı bacarması onun Seyid Şuşinski kimi məşhur bir xanəndə ilə dostluğuna müsbət təsir etməyə bilməzdi. Eyni zamanda dinə, cəhalətə, avamlığa və nadanlığa qarşı mübarizə aparan «Molla Nəsrəddin» jurnalının mənəvi və siyasi əhəmiyyətini dərk edən Seyid, jurnalın vaxtlı-vaxtında çıxması üçün əlindən gələn köməyi əsirgəməmişdi. Məhz buna görə də Seyid Tiflisin kübar ailələrinin toy şənliklərindən əldə etdiyi gəlirdən «Molla Nəsrəddin» jurnalının nəşrinə sərf edirdi.

Seyid Şuşinskinin «Molla Nəsrəddin» jurnalına etdiyi yardımı haqqında Azərbaycan teatr tarixinin canlı ensiklopediyası olan böyük sənətkar Hacağa Abbasov belə danışırdı: «1913-cü ildə mərhum Hüseyn Ərəblinski ilə birlikdə Tiflis şəhərinə artist Mirzağa Abbasovun benefisinə getmişdik. Tiflisdə yazıçı dostumuz Cəlil Məmmədquluzadə (Molla Nəsrəddin) ilə görüşdük. O, bizi evinə qonaq dəvət etdi. O zaman Tiflis şəhərində Mirzə Cəlilin rəhbərliyi altında «Molla Nəsrəddin» jurnalı nəşr edilirdi. Söhbət əsnasında Mirzə Cəlil dedi:

- Hacağa, son iki ayda jurnalımız çıxmırdı, çünki pulumuz olmadığına görə mətbəə nəşr etmirdi. Yaxşı ki, bu günlərdə Seyid Şuşinski Batumdan gəldi və jurnalın hər iki nüsxəsinin pulunu verdikdən sonra dübarə mənə 200 manat qızıl pul göndərdi.

Onu demək istəyirəm ki, Seyid Şuşinski şəxsi mənafeyini güdən sənətkar olmamışdır. O, həmişə Azərbaycan teatrına və artistlərinə maddi yardım etmişdi. Seyidin Azərbaycan mədəniyyəti tarixində xidmətləri unudulmazdır.[267]

Seyid Şuşunski istər Tiflisdə, istərsə də Bakıda yaşayıb yaradan həmsənətləri ilə adicə dostluq etməmişdi. O, eyni zamanda onların dərdinə qalmış və hər cür maddi yardım göstərmişdi. Hacağa Abbasov yenə də öz xatirələrində söyləyir ki, bəzən maddi vəziyyətimiz ağır olanda bir qrup artist yığışıb Tiflisə, Seyidə qonaq gedərdik. Ağa bizi çox məmnuniyyət və mehribanlıqla qəbul edər, bizim yol xərcimizi, mehmanxana haqq-hesabımızın hamısını ödədikdən sonra paltarı olmayan aktyorlara kostyum tikdirər, hətta iştirak etdiyi teatrdan bir qəpik belə almazdı. Üstəlik Bakıya qayıdanda hər birimizə hədiyyələr və yol xərcliyi belə verərdi...

---

[267] Hacağa Abbasovun xatirələrindən.

Seyidə adi musiqiçi demək düzgün olmazdı. O öz millətinin tərəqqisi, gələcəyi haqqında düşünən, onun incəsənətini şöhrətləndirən mədəniyyət xadimi idi. Şübhəsiz ki, Seyid başqalarına nisbətən varlı idi. O, Qafqaz canişinin «saray müğənnisi» olmaqla yanaşı, həm də şəxsi restoran, mehmanxana sahibi idi, hətta «Mersedes» markalı avtomobili belə vardı.

Seyid öz dövrünün dəbdə olan xanəndəsi idi. Ona bəslənən qayğı, diqqət və hörmət özgə xanəndələrə olmamışdı. Qurban Pirimov Seyidin Tiflis dövrü xanəndəliyini yadına salanda həmişə «ah» çəkib» deyərdi:

- Əşi, bilirsən Ağaya neçə hörmət edirdilər.

Mən özümü bilməməzliyə qoyub soruşardım:

- Yəni çox pul verərdilər?

- Əşi, sən nə danışırsan, başın xarabdır? Pul nədir, zad nədir? Əşi, sən brilyantdan danış, qaş-daşdan danış.

Sonra Qurban əmi sağ əlini açıb barmaqlarını yüngülcə üzünə toxundurub sözünə davam edərdi:

- Əşi, bu ölsün, onun varlı erməni tacirlərinin, ədabaz gürcü knyazlarının məclislərində oxumağını görüb eşitsəydin, dəli olardın. Firidun can, ona pul verməzdilər ha...

- Bəs nə verərdilər?

Onun başına o qədər qaş-daş tökərdilər ki, gəl görəsən. hətta gözəl qadınlar barmaqlarındakı brilyant üzükləri çıxardıb Ağanın qavalına tökərdilər. Yaxşı yadımdadır, bir dəfə mən, Saşa və Seyid Şuşada Mirzalıbəylikdə kiminsə toyunu edirdik. Hava bir qədər isti idi. Seyid oxuyandan sonra üstündə rus çarının şəkli olan bir neçə palazqulaq beşyüzlükdən ona şlyapa düzəldib papağın əvəzinə-başına qoyub dedilər:

- Ağa, hava istidir. Bu kağız şlyapanı qoy ki, sərin olsun. Sonra Qurban əmi bir qədər fikrə gedib qəlyanını tənbəki ilə doldurduqdan sonra sözünə davam edərdi:

- Əşi, sənə zarafat gəlməsin. Ağa belə ağa idi. Mən də, yazıq Saşa da, Ağa ilə məclisdə çalıb-oxumağın həsrətində idik. Amma Cabbardan keçə bilmirdik.

Qurban Pirimovun Seyid haqqında söylədiyi belə əhvalatlardan çox misallar çəkmək olar. Lakin burada bir həqiqəti etiraf etmək lazımdır ki, Seyid Şuşinski istər saray müğənniliyindən, istər sahibi olduğu restoran və mehmanxanadan, istərsə də saysız-hesabsız toy məclislərindən gələn gəlirinin hamısını teatr tamaşalarının təşkilinə, qəzet-jurnal nəşrinə, ehtiyacı olan sənətkarlara və yoxsul tələbələrə, bir sözlə, millətin mədəni ehtiyaclarına sərf etmişdir. Hətta o, inqilaba qədər Tiflis bolşevik təşkilatına və inqilabçılara belə maddi yardımını əsirgəməmişdi. Bunlardan əlavə səxavətli sənətkar, Antantanın agenti olan cəllad Andronikin əlindən zərər çəkmiş kəndlilərin və qaçqınların xeyrinə konsertlər verərək onlara maddi yardım etmişdi.

O dövrdə Tiflisdə yaşayan azərbaycanlı ziyalılar və mədəniyyət xadimləri Seyidlə görüşmək, gözəl səsini dinləmək üçün onun şərəfinə tez-tez gecələr təşkil edər və qəbullar düzəldərdilər. Həmin gecələrdə Mirzə Cəlil, Əbdürrəhimbəy Haqverdiyev, xüsusilə Hüseyn Cavid Seyidi dinləməkdən doymazdılar. Seyidin iştirakı ilə düzələn məclislərdə yaxından iştirak edən Əziz Şərif bu gecələrdən birini belə xatırlayır:

«...1914-cü il 14 mart tək günü, dostum İsmayıl həqqi bir çox dostlarını, o cümlədən də Ərəblinskini evinə nahara dəvət etmişdi. Həqqigilə gələndə Hüseyn Cavid, Mirzəli Abbasov və yenə iki nəfər qonaq orada idi. Bir azdan sonra Nadir İbrahimov[268] və xanəndə Seyid gəldilər.

...Ərəblinski də gəldi... Təfsilatı yazmağa imkanım yoxdur. Burada otuz beşə, qırxa qədər adam yığılmışdı. Qabaqca Nadir tar çaldı, qızlar oynadı. Sonra Seyid oxudu... Seyidin «Şur» muğamına heç söz ola bilməzdi. Onun oxumağı hamını valeh eləmişdi.

...Gecə yarıya işləyəndə biz böyük dəstə ilə evdən çıxdıq. Seyid Şikəstəni başladı, nə başladı! Tarı da Nadir çalırdı. Bu musiqidən adamın ruhu təzələnirdi... O gecə çox şairanə gecəydi. Çünki gənc Seyidin səsi və məktəbli Nadirin xüsusi ilhamla dindirdiyi tarı hamının qəlbini oxşayır, hamıya sonsuz estetik ləzzət verirdi...».[269]

Şübhəsiz ki, gənc Seyidin Mirzə Cəlil, Əbdürrəhimbəy, Hüseyn Cavid və Hüseyn Ərəblinski kimi böyük sənətkarlarla durub-oturması onun görkəmli bir mədəniyyət xadimi kimi inkişaf edib tanınmasında müsbət təsiri olmuşdur. Mərhum xanəndə qoca vaxtları ömrünün Tiflis dövrünü, sənət dostlarını, xüsusilə Hüseyn Cavidi və Ərəblinskini tez-tez yad edərdi. Həmişə Hüseyn Caviddən ağızdolusu danışardı və deyərdi ki, mən Hüseyn Cavid istedadda, qabiliyyətdə və mütəfəkkirdə ikinci bir şair tanımıram. Doğrudur, mən muğam oxuyanda şerləri əsasən Hafizdən, Füzulidən, Seyid Əzimdən oxuyuram. Lakin nədənsə Hüseyn Cavidə meylim daha çoxdur. Çünki, Cavidin şerlərindəki hikmət, məntiq, məna dərindir. Mən Tiflis məclislərində və konsertlərdə Hüseyn Cavidin şerlərini çox oxumuşam, xüsusilə onun:

«Çıx buludlardan ey əfsanəvi qız»

rədifli məşhur şerini tez-tez oxuyardım. Sonra Cavidin özü şerlərindən parçalar toplayıb mənə verərdi ki, o olan məclislərdə oxuyum.

---

[268] Nadir İbrahimov məşhur tarzən, eyni zamanda gözəl kamança, piano və qarmonçalan olmuşdur. sonralar Moskva İqtisadiyyat institutunu bitirən Nadir vətəni Azərbaycana qayıtmışdı. Əvvəllər Maliyyə Xalq komissarı, sonralar isə ticarət komissarı vəzifələrində işləmişdir - müəllif.

[269] Əziz Şərif. Keçmiş günlərdən. Səh. 184-185.

Onu da deyim ki, Cavidin qəzəlləri, şerləri hər muğamın ruhuna uyğun gəlmirdi. Məsələn, onun şerlərini lirik-aşiqanə motivlərlə dolu olan «Segah» üstündə və yaxud şadlıq rəmzi olan «Şur» üstündə oxumaq olmaz.

Cavidin şerləri də özü kimi üsyankar, dövründən narazı, xalqı mübarizəyə, ədalətə çağırandır. Buna görə də mən həmişə onun şerlərini ən çox üsyankar «Çahargah»da, döyüş ruhlu «Mahur» üstündə oxuyardım: mən, «Çahargah»ı zildən bərdaşt etdikdən sonra muğamın «mayə»sinə enəndə Cavidin bu məşhur şerini;

Rəqsi təlim ediyor axsaqlar,
Əzəmət düşgünüdür alçaqlar.
Hər gülər üzdə ölüm, qan görürəm,
Pək yaxın dostları düşmən görürəm.
Yurdu sarımış qabalıq, yaltaqlıq,
Yüksəliş varsa səbəb alçaqlıq.

aram-aram oxuduqdan sonra muğamın «Bəstə-Nigar» şöbəsinə keçəndə:

Əski dahilər «iştə həqq» dedilər,
Çırpınıb bir həqiqət izlədilər.
O həqiqət bu gün xəyal oluyor,
Dün ki, şən baxışlar bu gün soluyor.

- şerini oxuyardım.

Sonra xanəndə söyləyirdi ki, Cavidin şerlərini ən çox «Çahargah»ın «Hasar-müxalif» şöbələrini oxuyanda istifadə edərmiş. Xüsusilə, «Hasar» oxuyanda şairin bu şeri elə bil «Hasar» üçün deyilmişdir:

Hər günəşə girdim ləkəli gördüm,
Hər vicdana girdim kölgəli gördüm,
Parlaq imanları şübhəli gördüm,
Məgərsə hər cilvə bir xülya imiş.

«Müxalif»ə keçəndə isə Seyid tələsmədən özü də aram-aram bu şerə müraciət edərmiş:

Altun əsridir həp izzü namus,
Yoxsullara gün yox, ya məhv ol, ya sus!
Hər kəs insanlıqdan dəm vurur, əfsus!
Həp yalan təməlsiz bir sevda imiş.
Yaralı könlümü tikanlar deşdi.

Kimdən vəfa umdum qapımı içdi.
Cavan ömrüm fəryad içində keçdi,
«Səadət» əməli bir röya imiş.

Böyük müğənni «Müxalif»dən «Çahargah»ın son şöbəsi olan «Mənsuriyyə»yə keçəndə yenə də Cavidə müraciət edərdi:

Dedilər: «Zülmə qarşı durma, əyil!»
Dedilər: «Hərbə qoş, ya əz, ya əzil.
Çalış, parla, yüksəl, unutma ancaq,
Yaşamaq bir halsa, yaşatmaq da haqq.

Seyid oxuduğu bu şerlərdə insanları mərd, sədaqətli, namuslu olmağa çağırardı. O, «Osmani» muğamını oxuyanda yenə də Hüseyn Cavidə müraciət edərdi:

Çalış həm qalib ol, mərd ol.
Bu aydın bir həqiqətdir.
Cahan bir nazənin dilbər ki,
Yalnız mərdə qismətdir.

Seyid öz oxumalarında böyük Sabirin də ictimai məna daşıyan qəzəl və şerlərindən istifadə etmişdir. O, «Zabul» dəstgahında «Müxalif» oxuyarkən Sabirin:

Millət necə tarac olur olsun, nə işim var,
Düşmənlərə möhtac olur olsun, nə işim var.

- misraları ilə başlayan şerindən istifadə etmişdir.[270]

Ümumiyyətlə, Azərbaycan xanəndələri arasında ilk dəfə siyasi-ictimai məzmunlu şer və qəzəl oxuyan yalnız Seyid Şuşinski olmuşdur. Bunlardan əlavə xanəndə xalqı mübarizəyə çağıran, ona öz haqqını tələb etməyi təlğin edən «Ayıl ey millət», «Mən bir türkəm», «Millət istərsə», «Məzlumların marşı» kimi mübariz ruhlu mahnılar da ifa etmişdir.

1914-cü ildə Əbülhəsən xan İqbal Azər öz dəstəsi ilə Tiflisdə olarkən Seyid Şuşinski Zubalov adına xalq evində bütün Şərqdə tanınan bu muğam ustasının qarşısında ifası böyük məharət, sənətkarlıq, güclü səs, cəhcəhli zəngulələr tələb edən «Çahargah» və «Mahur» muğamlarını tamam-dəstgah oxumuşdur. Konsertdən sonra ziyafətdə çıxış edən Əbülhəsən xan həmkarı Seyidin sənətinə

[270] Bax: «Ekstrafon» şirkətinin buraxdığı qrammofon valları. 1913-cü il, № B - 14554.

yüksək qiymət vermişdi. Tarzən Dərviş xan isə Seyidi Tehrana dəvət edərək demişdir: «Sənin yerin Tehrandır. Sən nəinki orada, hətta bütün Şərqdə əvvəlimci oxuyan olarsan».

İrandan gələn sənətkarlar Tiflisdə qaldıqları müddət ərzində onlarla tez-tez görüşən Seyid qonaqlardan Şərq musiqisinə dair az şey öyrənməmişdi. Tiflis görüşündən sonra Əbülhəsən xan ömrünün axırına kimi Seyid Şuşinskinin adını hörmətlə yad etmiş, onu Qafqazda Cabbar Qaryağdı oğlundan sonra ikinci böyük xanəndə hesab etmişdir.

1913-1914-cü illərdə Seyid Şuşinski «Ekstrafon» aksioner cəmiyyəti tərəfindən iki dəfə Kiyev şəhərinə dəvət edilir. O, burada öz sənət dostlarının – tarzən Bala oğlu Qrikorun və kamançaçı Sevinin, sonrakı səfərdə isə Qrikorun oğlu məşhur virtouz tarzən Bala Məlikov və kamançaçı Ruben Qaraxanovun müşayiəti ilə səsini vala yazdırır. Seyid Şuşinskinin qrammofon vallarına oxuduğu muğamlar («Çahargah», «Nəva», «Bayatı-İsfahan», «Humayun», «Rast», «Mahur», «Zabul», «Kürdü-Şahnaz», «Mirzə Hüseyin segahı»), ritmik muğamlar («Mani», «Arazbarı», «Mənsuriyyə») xalq tərəfindən həmişə böyük rəğbətlə qarşılanmışdır. Onun oxuduğu muğamlar içərisində «Çahargah» xüsusi yer tutur. Çünki bu muğamda döyüş ruhu vardır.

Seyid «Çahargah»ın müqəddiməsini başlayarkən başqa xanəndələrdən fərqli olaraq muğamı «mayə»sindən, yəni «Cövhəri» hissəsindən yox, məhz muğamın səkkizinci hissəsi olan «Mənsuriyyə» üstündə zildə 10-15 dəqiqə bərdaşt etdikdən sonra muğamın «mayə»sinə qayıdırdı.

Mən bunun səbəbini bir dəfə qocaman xanəndədən soruşdum. O dedi:

- «Çahargah» çox ağır muğamdır, həm də oxuyan üçün ciddi imtahandır. «Çahargah»ı səsi geniş diapazona malik olmayan xanəndə oxuya bilməz. «Çahargah»ın bəzəyi nə təhər deyərlər, qaymağı «Mənsuriyyə»dir. Buna görə də böyük konsertlərdə və məclislərdə «Çahargah»ı «mayə»dən başlasan dinləyicini tez yora bilərsən. Məclisi ələ almaq üçün xanəndə gərək «Mənsuriyyə»dən başlasın. «Mənsuriyyə»siz «Çahargah» isə günəşsiz torpağa bənzər».

Böyük sənətkar qoca yaşlarında da «Çahargah» ifa edəndə muğamın «Mənsuriyyə» şöbəsini məharətlə oxuyurdu. Bu faktı Seyid Şuşinskinin 1963-cü ildə 74 yaşında Azərbaycan radiosunda oxuduğu «Mənsuriyyə»nin lent yazıları bir daha təsdiq edir. Bu yaşda «Mənsuriyyə» oxumaq XX əsr musiqi tariximizdə Cabbar Qaryağdı oğlundan başqa heç bir xanəndəyə müyəssər olmamışdır. Doğrudur, «Mənsuriyyə» olduqca zil səs və şaqraq zəngulələr tələb edir. Lakin onu da qeyd etmək lazımdır ki, «Mənsuriyyə»ni ifa etmək üçün zil səsdən başqa böyük ustalıq da, yəni bu çətin muğamın texnikasına dərindən bələd olmaq da lazımdır. Təcrübə göstərmişdir ki, bizim elə xanəndələrimiz olmuşdur ki, onların səs diapazonu üç oktavaya yaxın olduğuna baxmayaraq, «Mənsuriyyə»ni Cabbar Qaryağdı oğlu və Seyid Şuşinski kimi məharət və ustalıqla oxuya bilməmişlər.

1916-cı ilin əvvəllərində Seyid Şuşinski Cəlil Məmmədquluzadənin «Ölülər» əsərinin tamaşaya hazırlanmasında iştirak etmək məqsədi ilə tarzən Məşədi Zeynal və yazıçı Əliqulu Qəmküsarla birlikdə Bakıya gəlmişdir. Bu barədə qəzet elanlarında xəbər verilmiş, şəhərin izdihamlı yerlərinə afişalar vurulmuşdu. Həmin afişalarda «Seyid Bakıya xoş gəlmişdir» sözləri də yazılmışdı. «Kaspi» qəzetindəki elanların birində deyilirdi: «29 aprel 1916-cı ildə Hacı Zeynalabdin Tağıyevin teatrında müsəlman artistlərinin iştirakı ilə Molla Nəsrəddinin «Ölülər» əsəri tamaşaya qoyulacaqdır. Tamaşanın fasilələrində məşhur Seyid Qarabaği-Şuşinski oxuyacaqdır».[271]

Seyid Şuşinski Bakıda ancaq teatr fasilələrində oxumur, ayrıca konsertlər də verirdi. Azərbaycan SSR əməkdar artisti, mərhum Cəlilbəy Bağdadbəyov bu konsertlərin birindən aldığı təəssüratı sonralar xatırlayaraq yazmışdı:

«Seyid Şuşinskinin Bakıda ilk dəfə oxumağını Tağıyevin teatrında eşitdim. O zaman teatrda qoçular xuliqanlıq edib çox şuluqluq salırdılar. Seyid səhnədə oxumağa hazırlaşarkən, tamaşaçılar onu tanımadıqları üçün səs-küy saldılar. Lakin Seyid «Qatar» üstündə ağzını açıb şerin bir sətrini oxumamışdı ki, salonda görünməyən sakitlik olub, milçək uçuşu belə eşidilirdi. O, nadir hallarda tapılan və tamaşaçıları bir saniyədə özünə məftun edən səs və ahəngə malik olub, bütün məclis əhlini özünə cəlb etməklə, diqqətlə qulaq asmağa məcbur edirdi.

Tənəffüs zamanı tamaşaçılar bir-biri ilə söhbət edib deyirdilər:

«Pa atonnan, adə, cavan olasan, bu ustalıqla oxuyasan». Bir başqası:

«Bəh-bəh, halal olsun Qarabağ torpağına. Kişidə böyük sənət var».[272]

Seyid Şuşinski, dediyimiz kimi, həm də istsdadlı bir səhnə ustası idi. O, 1916-1919-cu illərdə Bakıda, Şuşada, Tiflisdə, Vladiqafqazda, Batumda, Mahaçqalada və Dərbənddə verilən opera tamaşalarında müvəffəqiyyətlə çıxış etmiş, tamaşaçıların rəğbətini qazanmışdır.

Seyid Şuşinski hərtərəfli istedada malik xanəndə idi. Onun olduqca zil, məlahətli səsi və uzun nəfəsindən başqa xanəndəlik sənəti sahəsində gözəl fitri istedadı və orijinal xüsusiyyətləri olmuşdur. Nikbin ruhlu, təmtəraqlı muğamların mahir ifaçısı olan Seyid Şuşinski çox vaxt öz dəstəsi ilə çıxış edirdi. O, məşhur sənətkar Bala oğlu Qrikor və kamançaçı Sevi ilə uzun illər əməkdaşlıq etmişdir. Seyid Şuşinskinin, Bala oğlu Qrikorun və Sevinin təşkil etdikləri üçlük (trio) gözəl bir ansamblı andırırdı. Bu üçlüyün şöhrəti, nəinki Qafqazda, hətta İranın bir sıra şəhərlərində belə məşhur idi.

Seyid Şuşinski ayrı-ayrı illərdə Azərbaycan musiqisi tarixində müstəsna xidmətləri olan Məşədi Zeynal, Şirin Axundov, Qurban Pirimov kimi tarzənlər,

---

[271] «Kaspi» qəzeti, 29 aprel 1916-cı il, № 95.

[272] Cəlilbəy Bağdadbəyov. Qarabağ xanəndələri haqqında xatirə (Əlyazması). Azərbaycan SSR Mədəniyyət Nazirliyi Memarlıq və İncəsənət İnstitutunun elmi arxivi, qovluq № 149.

Levon Qaraxanov, Saşa Oqanezaşvili və Ruben Qaraxanov kimi məşhur kamançaçılar ilə də çalıb oxumuşdur.

* * *

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan dərhal sonra Dadaş Bünyadzadə, Həmid Sultanov, Əliheydər Qarayev, Ruhulla Axundov, Yusif Məlikov, Əli Bayramov, Həşim Əliyev və Mir Fəttah Müsəvi yoldaşların təşkil etdikləri təşviqat briqadaları ilə fabrik-zavodlara, fəhlə qəsəbələrinə və kəndlərə getmiş, öz gözəl sənəti ilə kütlələrə xidmət etmişdir. Seyid Şuşinski bolşeviklər partiya sının üzvü olmamışdır. Lakin öz dediyi kimi, o, bolşeviklərə dərin məhəbbət və inam bəsləmiş, Azərbaycan xalqının böyük oğlu Nəriman Nərimanovla və onun silahdaşları Ağamalı oğlu, Əliheydər Qarayev, Dadaş Bünyadzadə, Həmid Sultanov kimi bolşeviklərlə dostluq etmiş, onların nəsib əməllərinə yaxından kömək etmişdir. Seyid Şuşinskini inqilabi-təbliğat işlərinə köhnə dostu Əliheydər Qarayev cəlb etmişdir. Qocaman xanəndənin dediyinə görə, onu Əliheydər Qarayevlə ilk dəfə şair Abbas Səhhət tanış etmişdir. Bu hadisə 1911-ci ildə Seyid Şuşinski Şamaxıda olarkən olmuşdur. Sonralar Seyid Əliheydər Qarayevlə 1913-cü ildə Tiflisdə «Molla Nəsrəddin» jurnalının redaksiyasında görüşmüşlər. Əliheydər Qarayev o vaxtlar Çerkassk universitetində oxuyur, həm də gizli partiya təşkilatının üzvü kimi fəaliyyət göstərirdi: Əliheydər Qarayev Tiflisə gəldiyi zaman Seyid Şuşinskinin mənzilində yaşayardı.

1919-cu ilin əvvəllərində Bakıda əksinqilabçı qüvvələrə qarşı mübarizənin şiddətləndiyi bir dövrdə Seyid Şuşinski Əliheydər Qarayevdən teleqram alır. Teleqramda Seyid Şuşinskinin təsili surətdə Bakıya gəlməsi təklif olunurdu. Seyid Şuşinski həmin ilin fevralında Bakıya gəlir, burada dərhal bolşevik təbliğatında səmərəli fəaliyyət göstərir. O, dəfələrlə İçərişəhərin hasarları yaxınlığındakı fəhlə klubunda çıxış etməyə başlayır. Bolşeviklər fəhlə klublarında, kapitalist Tağıyevin fabrikində (indiki Lenin adına fabrik - F. Ş.) konsert-mitinqlər təşkil edirdilər. Mitinqlərdə Ə. Qarayev, R. Axundov, H. Əliyev, M. F. Müsəzi, Ə. Yüzbaşıyev və başqa bolşeviklər çıxış edir, Bakı proletariatını müsavatçılara qarşı mübarizəyə çağırırdılar. Mitinqin sonunda Seyid Şuşinski inqilabi ruhlu mahnılar oxuyardı. Məlumdur ki, fəhlə klublarında təşkil edilən konsert-mitinqlər bir çox qəzetlərin səhifələrində qabaqcadan elan edilərdi. Məsələn «Azərbaycan füqərası» qəzeti səhifələrində olan elanların birində oxuyuruq: «Yanvar ayının 23-də Mərkəzi fəhlə klubunun salonunda konsert-mitinq olacaqdır. Konsert-mitinqdə iştirak edəcəklər; Sarabski, Seyid (Şuşalı), Qarayev, Ruhulla Axund oğlu, Bünyadzadə və qeyriləri».[273]

Seyid Şuşinski konsert-mitinqlərdən başqa bolşeviklərin gizli yığıncaqlarında da çıxış etmişdi. Gözətçilər «polislərdən gələn var» deyə xəbər

---

[273] «Azərbaycan füqərası» qəzeti, 1920-ci il, № 37.

verdikdə, o, qavalını əlinə alıb oxumağa başlayardı. Bu mənzərəni görən xəfiyyələr kor-peşman geri qayıdardılar.

Seyid Şuşinski geniş xalq kütlələrinə bağlı sənətkar idi. 1919-cu ilin yayında Bakı tamaşaçıları qarşısında onun tarzən Şirin Axundov və kamançaçı Saşa Oqanezaşvili ilə birgə çıxışları da bunu sübut edir.

O zaman yerli mətbuatda Seyid Şuşinskinin çıxışları haqqında qiymətli rəylər yazılmışdı: «Azərbaycan» qəzeti 12 iyul 1919-cu il nömrəsində: «Seyid Şuşinskinin Şərq konserti» başlığı ilə verdiyi rəy məqaləsində yazırdı: «Üç gün bundan qabaq Dövlət teatrında Şərq melodiyalarının mahir ifaçısı, bütün Qafqazda məşhur olan Seyid Şuşinskinin Şərq konserti olmuşdu.

Havanın isti olmasına baxmayaraq, teatra çoxlu tamaşaçı toplaşmışdı. Onlar xanəndənin ifa etdiyi bütün mahnıları böyük diqqətlə dinləyir və onu sürəkli alqışlarla mükafatlandırırdılar. Son illərdə Şuşinskinin səsi daha yaxşı, daha məlahətli olmuşdur».[274]

Sonra qəzet konsertdə iştirak edən başqa ifaçıların çıxışlarını da tərifləyərək yazır: «Konsertin digər nömrələri arasında A. M. Şərifovun deklamasiyaları, Anaplının və R. Daraplının kupletləri daha maraqlı idi.

Kasparov tarda, Saşa Oqanezaşvili isə kamançada çox gözəl və ahəngdar çalırdılar.

Xanəndə İslam Abdullayev «Yetim segah»ını gözəl oxudu. Tamaşaçılar onu dəfələrlə səhnəyə çağırdılar».[275] Bu konsertdən sonra Seyidin şöhrəti daha da artır. Toy sahibləri onu öz məclislərinə dəvət etməyə can atırlar. Lakin Seyid Şuşinski pullu toylara aludə olan xanəndələrdən deyildi. O, həmişə ictimai yerlərdə geniş tamaşaçı kütləsi qarşısında çıxış etməyi hər şeydən üstün tuturdu. Buna görə də Seyid Şuşinski Bakıya gələn gündən Azərbaycan milli mədəniyyətinin görkəmli nümayəndələri Cabbar Qaryağdı oğlu, Keçəçi Məhəmməd, Şəkili Ələsgər, İslam Abdullayev, Məşədi Zeynal, Abbas Mirzə Şərifzadə, Hacağa Abbasov, Sidqi Ruhulla, H. Sarabski, Cəlilbəy Bağdadbəyov, Əhmədbəy Ağdamski və başqaları ilə birlikdə Şərq konsertlərində və teatr tamaşalarında yaxından iştirak etmişdir. Məlumdur ki, Bakı teatrlarında Seyid Şuşinskinin iştirakı ilə tez-tez «Şərq konsertləri» təşkil olunurdu. Yerli mətbuatda onun çıxışı ayrıca qeyd edilirdi. Qəzetlərdə Seyid Şuşinskinin iştirakı ilə «Şərq konserti» olacağı qabaqcadan xəbər verilirdi. Həmin ilin sentyabr ayının 3-də Seyid Şuşinskinin üçüncü böyük çıxışı olmuşdur. Mayılov teatrında (indiki M. F. Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrının binası - Red.) böyük Azərbaycan artisti Abbas Mirzə Şərifzadənin rəhbərliyi altında verilən həmin tamaşa və konsertdə Seyid Şuşinskinin oxuduğu muğam və el mahnıları dinləyicilər tərəfindən səmimiyyətlə qarşılanmışdır.

---

[274] «Azərbaycan» qəzeti, 12 iyul 1919-cu il, № 145.
[275] Yenə orada.

Seyid Şuşinski Bakıda yaşadığı illərdə (Tiflisdə olduğu kimi) xalqın xeyriyyə işlərində yaxından iştirak etmiş, yoxsul tələbələrin və açlıq çəkən Azərbaycan kəndlərinin mənafeyinə çoxlu konsertlər vermişdir. Məsələn, 1920-ci ilin aprel ayının 9-da Bakıda student komitəsi Qarabağda aclıq çəkən kəndlilərə yardım etmək məqsədi ilə Dövlət teatrı binasında gecə keçirmişdi. Student komitəsi belə bir xeyirxah işdə iştirak etmək üçün Seyid Şuşinskini də dəvət etmişdi. Gecədə Seyid Şuşinski Aşıq Qərib rolunda oynamış, həm də muğam oxumuşdur. Yığılan pul aclıq çəkənlərə göndərilmişdir.[276]

Azərbaycanda Sovet hakimiyyətinin qurulması Seyid Şuşinskinin yaradıcılığının hərtərəfli inkişafına gözəl şərait yaratdı. Qurulduğu gündən mədəniyyətə və incəsənətə fikir verən, yeni teatrlar, musiqi məktəbləri yaradan Sovet hökuməti Seyid Şuşinski kimi istedadları axtarıb tapmış, onları qiymətləndirmiş və geniş xalq kütlələri içərisində tanınmasına imkan yaratmışdır...

Seyid Şuşinski Azərbaycan SSR Maarif Komissarlığı nəzdində yaranan «Təşviqat qatarı»nın fəal iştirakçılarından biri idi».[277]

Təşviqat qatarında radio qovşağı, mətbəə, kinematoqrafiya, qiraətxana və sairə vardı. Bu qatarı təşkil etməkdə əsas məqsəd Azərbaycanda Sovet hakimiyyətinin vəzifə və məqsədlərini dəmiryol ətrafındakı, dəmiryoluna yaxın rayon və şəhərlərin əhalisinə başa salmaq və gənc Sovet hakimiyyətinin qələbəsini möhkəmlətmək idi. Bu xeyirxah və nəsib tədbirin həyata keçirilməsi üçün Azərbaycanın ən yaxşı incəsənət nümayəndələri cəlb edilmişdi. Seyid Şuşinski həmin təşviqat qatarı ilə Azərbaycanın bir sıra yerlərində olmuş və aparılan təşviqat işlərində öz sənəti ilə səmərəli fəaliyyət göstərmişdir.

Görkəmli müğənni klassik Azərbaycan xalq musiqisinin və mahnılarının qardaş xalqlar arasında yayılmasında da ciddi fəaliyyət göstərmişdir. O, 1921-1922-ci illərdə xanəndə Keçəçi Məhəmməd və məşhur kamançaçı Levon Qaraxanovun yaxından iştirakı ilə Azərbaycanlı, erməni və gürcü musiqiçi dəstəsi təşkil edib Qafqazın bir sıra şəhərlərində konsertlər vermişdir. Maraqlı burasıdır ki, verilən konsertlərin proqramları rəngarəng olmaqla, həm də beynəlmiləl idi. Həmin konsertlərdə Seyid nəinki Azərbaycan muğam və mahnılarını, hətta erməni və gürcü mahnılarını oxumaqla. Zaqafqaziya xalqlarının hüsn-rəğbətini qazanmışdır.

Seyid Şuşinski 1924-1926-cı illərdə Azərbaycan Dövlət Akademik Dram Teatrının artisti olmuşdur. O, teatr tamaşalarında bir çox rollarda çıxış etməklə, səhnə sənətinin inkişafına yardım etmişdir. 1926-cı ildə Bakı şəhərində «Böyük Şərq konserti» olmuşdu. Bu konsertdə Cabbar Qaryağdı oğlu, Bülbül, Əli Zülalov, Qurban Pirimov, Saşa Oqanezaşvili Eloğlu İsmayıl ilə birlikdə Seyid Şuşinski də çıxış etmişdi. Konsertdə «Mahur» və «Mani» muğamlarını böyük məharətlə ifa edən Seyid Şuşinskini dinləyicilər dəfələrlə səhnəyə çağırmış, onu qızğın alqışlarla

---

[276] «Azərbaycan» qəzeti, 1920-ci il, № 67.

[277] Bax: «Azerbaydjanskaya bednota» qəzeti, 17 avqust 1920-ci il, № 21.

təbrik etmişlər. Həmin konsertdə Seyid Şuşinskinin, Cabbar Qaryağdı oğlunun, Bülbülün və gənc xanəndə Eloğlu İsmayılın birgə oxuduqları «Qarabağ şikəstəsi» dinləyiciləri riqqətə gətirdiyindən onları üç dəfə oxumağa təhrik etmişdilər.

Seyid Şuşinski 1926-cı ilin sonunda böyük bəstəkar Üzeyir Hacıbəyovun təşəbbüsü ilə Azərbaycan Dövlət Konservatoriyasına dəvət olunur. O, Cabbar Qaryağdı oğlu və Keçəçi oğlu Məhəmməd ilə birlikdə yeni açılmış xanəndəlik sinfində müəllimlik etməyə başlayır.

Azərbaycan xalq musiqisinin əsrlərdən bəri zəngin təcrübəsi sübut edir ki, dövrün tələbatına uyğun milli musiqi əsərlərini ancaq klassik muğam xəzinəsindən yaradıcı şəkildə istifadə etməklə yaratmaq olar. Lakin təəssüflə demək lazımdır ki, vaxtı ilə bir sıra musiqi tənqidçiləri muğam musiqisinə «primitivlik» damğası vurmaq, muğamlar əsasında yaradılmış operaları qadağan etmək, bir sözlə, muğamatı «köhnəlik» kimi qələmə vermək təşəbbüsündə olmuşlar. Başabəla «tənqidçilər» Şərq musiqisinin tükənməz xəzinəsi olan muğamları ləğv etməklə kifayətlənməyərək, Şərq musiqi alətləri içərisində ən qiymətli olan tarın aradan qaldırımasını belə tələb edirdilər. O zaman Üzeyir Hacıbəyov, Cabbar Qaryağdı oğlu, Müslüm Maqomayev, İsrafil Cahangirov, Mikayıl Müşfiq, Əfrasiyab Bədəlbəyli və s. Sənətkarlarla birlikdə Seyid Şuşinski də muğamatı və tarı ləğv etməyə çalışan bu nihilist-inkarçı təşəbbüslərə qarşı amansız mübarizə aparmış, klassik muğamları və gözəl musiqi aləti olan tarı haqsız hücumlardan müdafiə etmişdilər.

Seyid Şuşinski Azərbaycan Dövlət Konservatoriyasında müəllimlik etdiyi illərdə (1926-1933) gənc sənətkarların musiqi təhsili ilə yaxından məşğul olmaqla bərabər, həm də Bakının musiqi həyatında da səmərəli fəaliyyət göstərmişdir.

O, Avropa və Şərq musiqisindən ibarət konsertlərdə yaxından iştirak edərək başqa millətlərdən olan dinləyiciləri, Azərbaycan musiqisinin xoş tərənələri ilə qidalandırırdı. Şübhəsiz ki, o dövrdə beynəlmiləl proqramdan ibarət olan konsertlərin təşkili çoxmillətli Bakı şəhərinin zəhmətkeşlərinin istər estetik, istərsə də beynəlmiləl tərbiyəsində böyük əhəmiyyət kəsb edirdi. Bakıda ilk dəfə Şərq və Avropa musiqisindən ibarət olan konsert 1927-ci ildə dekabr ayının 22-də türk mədəniyyət sarayında (indiki Azərbaycan SSR Elmlər Akademiyasının Kommunist küçəsində yerləşən binasında-Red.) təşkil edilmişdir.[278] Konsertdə Veys-Nino, Sona xanım, Jixaryev, Hüseynağa Hacıbababəyov. Arkaşa Arkadiyev, Əhməd Anatollu, Orlova, Sobolevskaya, Yefimova, Andiriasov, tarzən Simon Tiflisski, xanəndə Qafar və Seyid Şuşinski iştirak edirdi. Bu konsert ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılandı.

Seyid Şuşinski qüdrətli sənətkardı. Onun adı ölkəmizin hüdudlarından kənarlarda da məşhur idi. Seyid Şuşinski öz gözəl səsi ilə İranın, Şimali Qafqazın,

[278] «Бакински рабочи» qəzeti, 1927-ci il, № 298.

Orta Asiyanın, Ukraynanın və Rusiyanın bir çox şəhərlərində dinləyicilərin ürəyini fəth etmiş, onların dərin rəğbətini qazanmışdı.

Azərbaycan musiqisini və xalq mahnılarını təbliğ etmək sahəsində Seyid Şuşinskinin xidməti böyükdür. 1933-cü ildə «Şərq musiqi ansamblı» təşkil edildiyi zaman Seyid Şuşinski, Cahan Talışinskaya, Naxçıvanski, tarzən Simon Kasparov, kamançaçı Armenak Şuşinski, Qureviç (royal) və başqaları bu ansamblın tərkibinə daxil olmuşdur. İyul ayının əvvəllərində Sovet İttifaqına qastrol səfərinə çıxan ansambl Moskva, Leninqrad, Xarkov, Kiyev kimi böyük şəhərlərdə, sonra isə Qazaxıstan SSR-nin bir çox yerlərində onlarca konsert tamaşaları göstərmişdir. Hər yerdə Azərbaycan musiqiçilərini böyük məhəbbət və hörmətlə qarşılamışlar. Qastrol səfərindən müvəffəqiyyətlə qayıdan xanəndə Azərbaycan Radio Verilişləri Komitəsinin təşkil etdiyi ilk notlu Şərq orkestrinə dəvət olunur. Bu orkestrin təşkilatçısı böyük bəstəkar Üzeyir Hacıbəyov idi. O, ən yaxşı musiqiçiləri və xanəndələri orkestrə cəlb etmişdi. Məlum olduğu kimi, notlu orkestr Azərbaycan milli musiqi mədəniyyətinin inkişafında muhüm rol oynamışdı.

«Kommunist» qəzeti Şərq orkestrinin musiqi ictimaiyyəti üçün əhəmiyyətindən bəhs edərək yazırdı: «Şərq nəğmələrinin nota salınması və notlu Şərq orkestrinin prinsip etibarı ilə tutduğu yol düzgün yoldur. Bu yol musiqi mədəniyyətimizin həqiqi inkişaf yoludur».[279]

S. Şuşinskinin iştirakı ilə notlu Şərq orkestrinin konserti 1933-cü il avqust ayının 4-də Bakıda, Müdafiə evində (indiki Azərbaycan Dövlət Filarmoniyası yerləşən binada olmuşdur). Konsertdə Seyid Şuşinski və Qarabağdan dəvət edilmiş məşhur el xanəndəsi Əfətli Əkbər[*] («Heyratı» oxumuş), Cahan Talışinskaya, Bikə Səmədzadə və başqaları iştirak etmişlər. Dövri mətbuatda notlu Şərq orkestrinin konserti və onun ifaçıları haqqında yaxşı rəylər verilmişdi.

Seyid Şuşinski milli incəsənətimizin bir çox sahələrində fəaliyyət göstərmişdir. Böyük sənətkar 1933-1938-ci illərdə Füzuli Rayon Dövlət Dram Teatrının bədii rəhbəri vəzifəsində işləmişdir. Onun teatra istedadlı aktyor qüvvələrinin cəlb olunmasında, istərsə də gənc artistlərin ideya sənətkarlıq səviyyəsinin yüksəldilməsində misilsiz xidmətləri olmuşdur. Seyid Şuşinski Füzuli rayonunda işlədiyi illərdə dəfələrlə Bakıya konsert verməyə dəvət olunmuşdur. Onun adı mərkəzi qəzet elanlarında, istərsə də konsert afişalarında tez-tez çəkilirdi. Seyid Şuşinski Bakıda sənət dostlarından Cabbar Qaryağdı oğlu, Zülfü Adıgözəlov, Yavər Kələntərli, Zülfüqar Sarıyev, Həşim Kələntərli, Lazar Qabrielyan, Paşa Əliyev, Soqomon Seyranov, Serkey Oqanezaşvili ilə birlikdə çıxış edərdi.

---

[279] "Kommunist" qəzeti, 1933-cü il, № 181.

[*] Əfətli Əkbər (1888-1961) məşhur Qarabağ xanəndəsi idi. 30-cu illərdə konsert vermək üçün dəfələrlə Bakıya dəvət edilmişdir - müəllif.

Mil-Muğan düzlərinin pambıqçılarına, Bakı neftçilərinə öz sənəti ilə mədəni xidmət etməklə yanaşı, müğənni doğma yurdunu, qoynunda boy atdığı səfalı meşələri, sərin bulaqları, zümrüd yamacları, kəklikli qayaları və gözəl ab-havası ilə şöhrət tapan Şuşanı da yaddan çıxarmırdı. O, hər il yay aylarında öz dəstəsi ilə Şuşaya gələr, şəhərdə keçirilən mədəni tədbirlərdə yaxından iştirak edərdi.

1936-cı ilin yayında Şuşada Azərbaycan Yazıçıları İttifaqının yaradıcılıq evi açıldı. Bu münasibətlə avqust ayının 19-da yazıçıların və yerli təşkilatların təşəbbüsü ilə böyük ədəbi-bədii gecə keçirildi. Ədəbi gecəni görkəmli ədəbiyyatşünas professor Həmid Araslı giriş sözü ilə açdı. Məruzədən sonra yazıçılardan Süleyman Rüstəm, Məmməd Rahim, Səfər Xəndan, Əvəz Sadıq öz əsərlərindən parçalar oxudular.

Ədəbi hissədən sonra klassik Azərbaycan ədəbiyyatına (Füzuli, Seyid Əzim Şirvani, Nəbati, Natəvan və başqalarına) həsr olunmuş bədii hissədə məşhur xanəndə Xan Şuşinski, Zaqafqaziya incəsənət olimpiadasında mükafat almış qarmonçu Kərbəlayı Lətif Əliyev, xanəndə Mehralı oğlu Bahadır, məşhur qarmonçu Abutalıb Yusifov, Seyid Şuşinski və başqa sənətkarlar çıxış etdilər.[280]

Gecədə Füzulinin və Seyid Əzimin qəzəllərindən sənətkarlıqla istifadə edən Seyid Şuşinski, tarzən İsi Əliyevin və kamançaçı Rasim Şirinovun müşayiəti ilə «Çahargah» muğamını özünəməxsus ustalıqla oxudu.

Şuşanın «İsa bulağı», «Şəmilin bağı», «Çanaxqala» və «Səkili bulaq» kimi mənzərəli seyrəngahlarında istirahət edənlər Seyid Şuşinskini öz məclislərinə dəvət edib onun məlahətli səsindən, incə guşələrindən, cəhcəhəli zəngulələrindən doymazdılar.

Seyid Şuşinski 1939-1960-cı illərdə M. Maqomayev adına Azərbaycan Dövlət Filarmopiyasında və radioda səlist işləmiş, ömrünün son illərində isə opera və balet teatrında muğam operalarının: məsləhətçisi olmuşdur.

Böyük sənətkar həm də görkəmli pedaqoq idi. Azərbaycan xanəndələrinin bütöv bir nəsli ondan təlim almışdır. Vokal sənətinin Zülfü Adıgözəlov, Xan Şuşinski, Mütəllim Mütəllimov, Cahan: Talışinskaya, Sürəyya Qacar, Yavər Kələntərli, Həqiqət Rzayeva, Yaqub Məmmədov və Rübabə Muradova kimi görkəmli nümayəndələri ona borcludurlar. Bunlardan əlavə, hazırda konsert salonlarında, televiziya və opera teatrında çıxış edən yaşlı və cavan xanəndələrin; əksəriyyəti Seyid Şuşinskinin yetirmələridir.

Seyid Şuşinskinin Azərbaycan musiqi mədəniyyətinin inkişafı tarixindəki xidmətlərini nəzərə alan Sovet hökuməti ona Azərbaycan SSR xalq artisti adını vermiş, «Şərəf Nişanı» ordeni və bir sıra medallarla təltif etmişdi. Böyük xanəndə Azərbaycan SSR əməkdar müəllimi fəxri adına da layiq görülmüşdür. Seyid Şuşinski ömrünün son günlərinədək öz gözəl sənəti ilə xalqına sədaqətlə xidmət

[280] Bax: «Kommunist» qəzeti, 21 avqust 1936-cı il.

etmişdir. O, 1965-ci ilin noyabr ayının 1-də vəfat etdi. Azərbaycan xalqı Seyid Şuşinskinin şəxsində milli vokal sənətinin ən qocaman və ən istedadlı nümayəndələrindən birini, daha doğrusu klassik xanəndələrin sonbeşiyini itirdi. Bu itki müasir Azərbaycana və Şərq musiqisi üçün ağır itki idi. «Kommunist» qəzeti böyük sənətkarın vəfatı münasibəti ilə çap etdiyi nekroloqda yazmışdı: «Qocaman xanəndəmiz, qayğıkeş müəllim, son dərəcə tərazökar bir insan - Seyid Şuşinski vəfat etmişdir. O, ömrünün 60 ilini Azərbaycan musiqi mədəniyyətinin inkişafına həsr etmiş, gözəl səsi ilə xalqımızın sevimli müğənnisi olmuş, Yaxın və Orta Şərqdə şöhrəq tapmışdır».[281]

* * *

Seyid Şuşinski klassik Şərq və Azərbaycan muğamlarının incəliklərinə dərindən bələd olan sənətkarlardan idi. Azərbaycan opera sənətinin banisi Üzeyirbəy Hacıbəyov onun müstəqil və orijinal yaradıcılıq yoluna malik olduğunu dəfələrlə qeyd etmişdir. Böyük müğənni Cabbar Qaryağdı oğlu da Seyid Şuşinskinin adını həmişə fəxrlə çəkmiş, hətta Bakı məclislərinin birində öz qiymətli qavalını ona bağışlamışdır. Onun gözəl və şaqraq zəngulələri, qünnələri (burunda və dişdə oxumaq) və uzun nəfəsləri dinləyiciləri həmişə valeh etmişdir.

Seyid Şuşinskinin bir xanəndə kimi həmsənətlərindən ayıran əsas cəhət fərdi yaradıcılıq üslubuna malik olması idi. Üzeyirbəy Hacıbəyov Seyid Şuşinskini nadir rə istedadlı xanəndə adlandırmışdır.

Məlum olduğu kimi, Seyid Şuşinski opera və simfonik muğamlar yaradan bəstəkarlara az kömək etməmişdir. Fikrət Əmirovun dünyanın bir çox ölkələrində böyük müvəffəqiyyət qazanmış «Şur», «Kürd-ovşarı», «Niyazinin «Rast» simfonik muğamlarının yaranmasında görkəmli xanəndənin müəyyən köməyi olmuşdur.

Seyid Şuşinskinin gözəl səsi və sənətkarlıq məharəti Azərbaycanın bir çox mədəniyyət xadimlərinin diqqətini cəlb etmişdir. 1915-ci ilin ilk yay günlərinin birində Şamaxıda Azərbaycanın görkəmli şairi Abbas Səhhət, öz dövrünün qabaqcıl ziyalıları olan Camo Cəbrayılbəyli, Məmmədəlibəy Veysov və Ağalarbəyli iştirakı ilə Dədəgünəş kəndinin gözəl bir bağında qurulan məclisə Seyid Şuşinski və məşhur qarmonçalan Abutalıb Yusifov (səfər) ilə dəvət edilmişdi. Camo Cəbrayılbəyli öz xatirələrində «Dədəgünəş» məclisini belə təsvir etmişdir:

«1915-ci ilin yayında Şamaxıya gəlmişdim... Bir şənbə günü yığılıb Dədəgünəşə getdik. Vaxtımızı gözəl keçirmək üçün hər cür tədarük görmüşdük. O zaman Şamaxıya gələn və artıq məşhur xanəndə kimi tanınan Seyid Şuşinskini və səfər adlı qarmonçunu da dəvət etdik.

Hər tərəfdən gül-çiçəyin cürbəcür rayihə saçdığı yaşıl meşəlikdə vaxt o qədər gözəl keçdi ki, bazar gününün gecəsini də Dədəgünəşdə qalmalı olduq. Gecə necə deyərlər, süd kimi aydınlıq idi. Hər kol, hər bir ağac kölgəsi və başı dumanlı

[281] "Kommunist" qəzeti, 3 noyabr. 1965-ci il.

dağlar o qədər qəribə idi ki, hamımız özümüzü əfsanəvi bir aləmdə hiss edirdik. Qarmonun səsi və Seyidin şaq-şaq şaqqıldayan fərəhli nəğmələri bizə həyatın yalnız gözəllik və nəşədən ibarət olduğunu pıçıldayırdı».[282]

Aydınlıq gecə, Dədəgünəşin füsunkar mənzərəsi, Seyidin gözəl səsi Abbas Səhhətin şanı ürəyini dilə gətirir. Şair istedadlı nəğməkarın şərəfinə bu şeri söyləyir:

Dədəgünəş piri bir gün mənə məkan oldu.
Yerim mübaliğəsiz rövzeyi-çinan oldu.
Rəisi-məclisimiz həqqi bəy, Məmmədəli,
Ağalarbəy, Camo idi o məclisin gözəli,
Səfər[283] çalır, oxuyurdu Ağaseyid qəzəli.
Görən deyərdi ki, cənnət yəqin əyan oldu.
Qovaqların arasından baxırdı ay, gecələr.
Gülüb ay üzlü səfər də çalırdı nay[284] gecələr.
Olarmı bir də görəydim səni mən ay gecələr.
Səninlə qəmli könül şadü kamran oldu.

Seyid Şuşinski qüdrətli sənətkardır. Fikrət Əmirov öz çıxışlarından birində böyük xanəndənin milli mədəniyyət tarixində tutduğu mövqeyi müəyyənləşdirməyə çalışmışdır. O, demişdir: «Xalqımızın musiqi tarixində elə sənətkarlar vardır ki, onların adını böyük iftixar hissi ilə, qürurla çəkirik. Məgər Azərbaycan professional musiqisinin banisi Üzeyirbəyi, vokal sənətinin ən böyük nümayəndəsi Cabbar Qaryağdı oğlunu, güllü bağçamızın şən Bülbülünü unutmaq olarmı? Şübhəsiz ki, yox! Bu məşhur, unudulmaz sənətkarlar ilə birlikdə qocaman xanəndəmiz və bizim hamımızın hörmətli müəllimi Seyid Şuşinskinin də adı çəkilir.

Doğrusu, mən Seyid Şuşinski haqqında fikir söyləməyə çətinlik çəkirəm, çünki mədəniyyət xəzinəsinin nadir incilərinə layiq söz söyləmək hamı üçün asan olmamışdır. Ancaq onu deyə bilərəm ki, klassik musiqimizin elə bir sahəsi yoxdur ki, Seyidin orada xidməti olmasın. Obrazlı desək, əgər Cabbar Qaryağdı oğlu xalq musiqisinin düşünən beyni idisə, Seyid Şuşinski bu musiqinin çırpınan ürəyi idi. Mən fəxrlə deyə bilərəm ki, «Şur» və «Kürd-ovşarı» simfonik muğamlarını yazarkən Seyid Şuşinskinin mənə yaxından köməyi olmuşdur. Seyid Şərq musiqisinə dərindən bələd olmaqla, həm də qayğıkeş müəllim və gözəl insan idi.

---

[282] C. Cəbrayılbəyli. Xatirələrim. Bakı, 1966-cı il, səh. 102-103.
[283] Abbas Səhhətin «Səfər» adlandırdığı şəxs məşhur qarmonçu Abutalıb Yusifovdur (1884-1937). – müəllif.
[284] Şamaxılılar qarmona «Nay» deyirlər.

Seyid xoşbəxt bağbandır. Onun istedadlı tələbələri hazırda opera teatrında və filarmoniyamızda öz gözəl səsləri ilə bizi heyran edirlər.

Seyid Şuşinskinin irsi böyük bir məktəbdir. Müasir xanəndələrimiz və bəstəkarlarımız ondan çox şeylər öyrənə bilərlər və zənnimcə öyrənməlidirlər. 1963-cü ildə onun 74 yaşında «Heyratı», «Mani» və «Arazbarı»nı zil səslə oxuması hörmətli professorumuz Bülbülün: «Qoca xanəndələr bulağın gözüdür, bunlarda xəzinə vardır» məşhur sözlərini bir daha təsdiq edir.

Məncə qocaman müğənnimiz Seyid haqqında elmi monoqrafiyalar, kitablar yazmaq vaxtı gəlib çatmışdır. Seyidin həyatı Azərbaycan musiqi mədəniyyəti tarixinin ən parlaq səhifələrindən biridir».[285]

Seyid Şuşinski Azərbaycan musiqi mədəniyyəti tarixinə həqiqi xalq xanəndəsi kimi daxil olmuşdur. Onun sənəti Cabbar Qaryağdı oğlunun, Əbülhəsən xan İqbal Azərin və Bülbülün sənəti kimi tükənməz xəzinədir. Seyid Şuşinskinin yaradıcılığı Azərbaycan milli musiqi mədəniyyətinin nadir incisidir. Böyük xanəndənin oxuduğu muğamlar, təsniflər və qədim el mahnıları o qədər orijinal, o qədər duzlu, o qədər mənalıdır ki, belə bir ifaçılıq məharətinə yalnız qüdrətli istedad sahibləri malik ola bilər. Bəziləri deyirlər ki, gözəl səsi olan hər bir xanəndə istənilən muğam və mahnıları məharətlə oxuya bilər. Doğrudur, xanəndəlik sənətində əsas şərt səsdir. Lakin xalq musiqisini dərindən bilmədən, klassik muğamlarımızın texnikasına yiyələnmədən dinləyicilərin tələbi səviyyəsində, zövqlü oxumaq mümkün deyildir. Bizim xanəndəlik sənəti tarixində gözəl səsə malik olan xanəndələrimiz az olmamışdır. Lakin onların bəziləri musiqimizin bünövrəsi və dayaq sütunu olan muğamları mükəmməl surətdə öyrənmədiklərinə görə sənət meydanında davam gətirə bilməmişlər.

Seyid Şuşinski yalnız gözəl səsinin qüdrətinə arxalanmamışdı. O, 60 illik yaradıcılıq dövründə həmişə axtarışlar aparmış, klassik irsi dərindən öyrənmişdi. Böyük müğənninin fitri istedadının mahiyyətinn gözəl səslə birlikdə sənəti sevmək, öyrənmək və ona şüurlu münasibət təşkil edir. Seyid Şuşinskinin sənəti dünya musiqisinin ən gözəl nümunələri ilə yanaşı duracaq yüksək səviyyəyə malikdir.

Görkəmli sənətkar əsl muğam ustası idi. Klassik Şərq musiqisinin repertuarında elə bir muğam tapmaq çətindir ki, Seyid Şuşinski onu ifa etməkdə aciz olsun. Muğamlar onun əsl yaradıcılıq meydanı idi. Bu meydanda onun istedadı «Çahargah», «Mahur», «Nəva», «Məsnəvi», «Mani», «Arazbarı», «Heyratı» kimi mürəkkəb muğamların ifasında parlamışdır. Seyid Şuşinski hansı muğamı oxuyursa-oxusun öz sənətkarlıq mövqeyini itirmirdi. O, daim düşünür qız düşündürürdü, dinləyicinin incə və şirin guşələri ilə ruhlandırırdı. Onun oxuduğu və xalq tərəfindən sevilə-sevilə dinlənilən «Çahargah» muğamı bütün Şərq aləmində böyük şöhrət qazanmışdır. Cəsarətlə demək olar ki, musiqimizin son 50 illik tarixində «Çahargah» muğamını Seyid kimi ilhamla, böyük ustalıq və zövqlə

---

[285] F. Əmirov. Musiqimizin çırpınan ürəyi, «Ədəbiyyat və incəsənət» qəzeti, 1965-ci il, № 46.

oxuyan ikinci bir xanəndəmiz olmamışdır. Bizim musiqi mədəniyyətimizin tarixində Kosa Mərdanbəy, Bülbülcan, Mirzə Məhəmmədhəsən, Əkbər Xamuş oğlu, Şəkili Ələsgər və Cabbar Qaryağdı oğlu kimi məşhur xanəndələr «Çahargah» muğamını özlərinəməxsus bir məharətlə oxumuşlar. Bu ustad sənətkarlar «Çahargah»ı ustalıqla oxumaqla bərabər, həm də bu mürəkkəb muğamın təklikdə ayrı-ayrı şöbələrini oxumaqda daha məşhur olmuşlar. Məsələn, xanəndə Bülbülcan «Hasar» və «Müxalif» şöbələrini, Şəkili Ələsgər «Cövhəri»ni və «Kəbutər»i, Mirzə Məhəmmədhəsən «Bəstə-Nigar»ı, Cabbar Qaryağdı oğlu isə «Mənsuriyyə»ni bütün şöbələrdən daha məlahət və ilhamla oxuyardılar. Seyid Şuşinski bu ustad və zəngin yaradıcılıq yolu keçmiş sənətkarların ənənələrini davam etdirmiş, «Çahargah» muğamını tamam-dəstgah ifa etməklə öz sələflərindən fərqlənmişdir. Onun oxuduğu «Çahargah» xanəndələr üçün örnək olmuşdur. Seyid Şuşinskinin «Çahargah»ı musiqi xadimlərini həmişə düşündürmüşdür. Xan Şuşinski adını həmişə hörmət və iftixarla çəkdiyi Seyid Şuşinski ilə ilk dəfə tanış olmasını və onun «Çahargah» oxumasını belə xatırlayır: «1919-cu il yayın axır günləri idi. Ağdaşlı Məmmədəlibəy məni atamla birlikdə öz toyuna dəvət etmişdi. Tarzən Gülablı Məhəmmədlə birlikdə Ağdaşa getdik. Böyük bir salonda məclis qurulmuşdu. Onu da deyim ki, mən hələ belə böyük məclis görməmişdim. Toyda bizimlə üzbəüz başqa bir sazəndə dəstəsi əyləşmişdi. Məni istər-istəməz xanəndənin kim olduğu maraqlandırırdı. Bu xanəndə görkəmindən və geyimindən nə İslama, nə də gördüyüm xanəndələrə oxşamırdı. Onun əynində Avropa qaydasında tikilmiş qara hindikodan kostyum, boğazında qara bant, barmaqlarında brilyant üzüklər, ayağında burnu şiş lak çəkmə, döşündə qızıl medalyon, əllərində ağ əlcək var idi. Qavalı isə tamam sədəf və qiymətli qaş-daşla bəzənmişdi. Mən heyrət içərisində qalmışdım və öz-özümə sual verirdim: «Görəsən, bu oxuyan kimdir?» Məclis qızışdı, toybəyi elan etdi ki, məclisin xahişi ilə hörmətli xanəndəmiz Seyid Şuşinski «Çahargah» oxuyacaq. Seyidin adını eşidəndə çox sevindim. O zaman Seyid Tiflisdə yaşadığına görə mən onu görə bilməmişdim. Lakin o günü mənə xoşbəxtlik nəsib oldu. Onu da deyim ki, mən sevinirdimsə də, həm də bu böyük xanəndə ilə bir məclisdə olduğuma görə həyəcanlanırdım.

"Tarzən Məşədi Cəmil mizrabı simlərə toxundurdu. Seyid «Çahargah»ı «Mənsuriyyə» pərdəsi üstündə bərdaşt etdikdə mən yerimdə quruyub qaldım. O, muğamın başlanğıcını zildə on-on beş dəqiqə gəzişdikdən sonra «Çahargah»ın «Maye»sinə elə ustalıqla endi ki, hamı heyran qaldı. Mən cəsarətlə deyə bilərəm ki, bu xanəndəlik aləmində misli-bərabəri görünməmiş bir ustalıq idi. Seyidin uzun nəfəsləri, coşğun zəngulələri, xüsusilə burnunda zəngulə vurmağı və boğazındakı xırda qaynatmaları məni bihuş etdi. Seyid «Çahargah»ı iki saata qədər oxudu. Mən onda bildim ki, xanəndəlik nə deməkdir və xanəndə necə olar».[286] Seyid Şuşinski

[286] Bax: F. Şuşinski. Seyid Şuşinski. Azərnəşr, Bakı, 1966, səh. 98.

nadir istedada, geniş musiqi hafizəsinə və yüksək ifaçılıq mədəniyyətinə malik xanəndə idi. Onun sənəti ehtiraslı, əhatəli, rəngarəng və canlıdır. Seyid Şuşinskinin klassik musiqi irsimizə daxil olan böyük və sönməz sənəti gənc ifaçılar üçün bir məktəbdir, xalqa, vətənə namusla xidmət etmək nümunəsidir.

Seyid Şuşinski fədakar və zəhmətsevər sənətkarlar cərgəsində özünə şərəfli bir mövqe qazanmış, musiqi mədəniyyəti tarixinə xanəndələrin böyük ustadı kimi daxil olmuşdur.

Bu qüdrətli müğənni geniş diapazonlu sənətkar, şair qəlbli insan idi. Seyid bütün varlığı və qəlbi ilə dinləyicilərin dərin məhəbbətini qazanmış, onların qəlbinə hakim kəsilmişdi.

Seyid Şuşinski novator sənətkar idi. O bir çox muğamlara yeni guşələr, xallar, nəfəslər, hətta hissələr belə əlavə etmişdir. «Rast» və «Kürdü-Şahnaz» muğamlarının «Dilkeş» hissəsini dinləyicilərimizə ilk dəfə çatdıran Seyid olmuşdu. Böyük sənətkar həm də bir çox muğamları birləşdirib oxumuşdur. Bunlardan «Rast-humayun», «Qatar-Bayatı», «Şur-Şahnaz» və s. dəstgahları göstərmək olar. Bunlardan əlavə Seyid Şuşinski sənətdə Cabbar Qaryağdı oğlunun yolunu - muğamdan muğama keçmə (modulyasiya) üsulunu öz yaradıcılığında müvəffəqiyyətlə davam etdirmişdir. Şübhəsiz ki, bir muğamdan digərinə keçmək hər xanəndə üçün asan olmamışdır, çünki xanəndə bir muğamdan digər muğama elə ustalıqla keçməlidir ki, Cabbar Qaryağdı oğlu dediyi kimi, istiliyi və soyuqluğu hiss olunmamalıdır. Seyid nəinki muğamlardan muğama keçməyi cəsarətlə bacarmış, hətta ritmsiz muğamdan ritmli muğama da bacarıq və ustalıqla keçmişdir. Məsələn, o, «Şur» dəstgahını oxuyarkən muğamın «Hicaz» şöbəsindən ritmik muğam olan «Mani»yə elə ustalıqla keçir ki, muğamata dərin bələd olan bəzi dinləyicilər belə bunu nəinki hiss edir, əksinə, Seyid Şuşinskinin ustalıqla oxumağı qarşısında susur, sanki ahəngi pozar deyə danışmağa cəsarət etmirdi.

Seyid Şuşinski xoşbəxt sənətkar idi. O, ilk dəfə musiqi aləminə qədəm qoyarkən Şərq musiqisinin bahadırları olan Cabbar Qaryağdı oğlunu, Əbülhəsən xan İqbalı, Bülbülcanı, Keçəçi Məhəmmədi,. Şəkili Ələsgəri çox eşitmiş, onların sənət bağçasından ətirli güllər çox dərmişdi. Seyid Şuşinski bu güllü-çiçəkli bağçanın bir bülbülü kimi onu yad təsirlərdən qeyrətlə qorumuşdur. Altmış ildir ki, onun zəngin səsi, böyük sənəti haqqında şirin mahnılar, qiymətli xatirələr söylənməkdədir. Şərq musiqisinin ən görkəmli nümayəndələrindən biri olan Levon Qaraxanov bu sətirlərin müəllifinə Azərbaycan musiqisi və onun görkəmli nümayəndələri haqqında qiymətli materiallar, sənədlər vermiş və maraqlı xatirələr söyləmişdir: 1964-cü ilin yayında Tiflisdə olarkən Levon Qaraxanovla görüşlərimizin birindo o, məni Tiflisin ən səfalı guşələrindən biri olan «Müctehid bağı»na dəvət etdi. Biz bağın yaşıl xiyabanlarında gəzərkən qoca sənətkar bağın tarixindən, burada olmuş məclislərdən həvəslə danışdı. Sonra sözünün axırında dedi:

- Bu bağa «Musiqiçilər bağı» da deyirlər. - Mən bunun səbəbini soruşduqda qoca sənətkar fikrə getdi, sonra sözünə davam edərək dedi: - Bu bağa ona görə musiqiçilər bağı deyirlər ki, hələ qədimdən gözəl Tiflisə qonaq gələn hər bir musiqiçi öz sənətkarlıq qabiliyyətini burada nümayiş etdirmişdir. Gördüyün bu qocaman bağ kimləri yola salmamışdır? Hansını deyim. Bu bağda on ildən yuxarı ərdəbilli Səttar tarzən Məlik Ağamal ilə tiflislilərə Şərq musiqisindən şirin dastanlar söyləmişdir. Bu bağda Hacı Hüsünün, Bülbülcanın gözəl səsi, Sadıqcanın şirin barmaqları sarı bülbülləri əfsunlamışdı.

Levon Qaraxanov «Müctehid» bağının keçmişindən çox danışdı. Bir çox sənətkarların adını hörmətlə yad etdikdən sonra söhbətinin axırında dedi:

- «Bu bağın sonuncu bülbülü Tiflis camaatının sevimlisi, köhnə sənət dostum Seyid olmuşdur. Səttar, Hacı Hüsü, Bülbülcan bu bağdan köçüb getdikdən sonra bağın bəzəyi və yaraşığı Seyid idi. Mən 70 ilə yaxındır ki, Tiflisdə yaşayıram. Bu dövr ərzində Tiflisə gələn bir çox məşhur xanəndələri eşitmiş, həm də onların bir çoxunu kamanla müşayiət etmişəm. Amma mən həm bir dinləyici, həm də bir musiqiçi kimi cəsarətlə deyə bilərəm ki, Tiflis Bülbülcandan sonra ikinci bir böyük xanəndə yalnız Seyidi görmüşdür. Doğrusu, məndə elə bir qabiliyyət yoxdur ki, Seyidin sənəti haqqında söz deyəm. Amma onu deyə bilərəm ki, Seyid Tiflisdən gedəndən (1919) bəri, Tiflis ikinci bir Seyidə hələ rast gəlməmişdir. Mən Tiflis, Bakı, Gəncə, Şuşa məclislərində Seyidi kamançada çox müşayiət etmişəm. Bax, bu «Müctehid bağı»nda onun üçün çox çalmışam. Seyidin oxumağı yadıma düşəndə ürəyim titrəyir, istər-istəməz öz-özümə sual verirəm: «Görəsən, bir də belə sənətkara rast gələcəyəmmi?» Əgər Seyidin «Çahargah»da vurduğu xalları, guşələri mənə ikinci bir xanəndə vura bilsə, sənət aləmində qazandığım nə qədər qələbəm varsa, hamısını ona bağışlayaram. Bax, buna görə də deyirəm ki, «Müctehid bağı» özünün Şeyda bülbülünü itirmişdi. Biz, Tiflisin qocaman musiqi həvəskarları 46 ildir Şərq musiqisinin bahadırı olan unudulmaz Seyidi eşitmirik. Buna görə çox mütəəssir oluruq».[287]

Seyid Şuşinski alicənab, son dərəcə sadə və təmiz bir insan idi. Onun insani keyfiyyətləri sənətkarlığı ilə üzvi surətdə bağlı idi. O, eyni zamanda yüksək tərbiyəli ziyalı idi. Mən hələ uşaqlıq illərindən bir çox adlı-sanlı musiqiçiləri tanımışam və onların çalıb-çağırdıqları məclislərdə iştirak etmişəm, sonralar isə bəziləri ilə yaxın dost olmuşam. Lakin açığını deyim ki, Seyiddə gördüyüm insanlığı, nəsibliyi, təvazökarlığı, mərdliyi, qonaqpərvərliyi, incəliyi, bir sözlə, kişiliyi başqalarında görməmişəm. Seyid həm də olduqca savadlı, hərtərəfli biliyə malik ziyalı idi. O, klassik Şərq ədəbiyyatına, xüsusilə Sədi, Hafiz və Füzulinin irsinə dərindən bələd idi. Fars dilində şer oxuyanda adamı valeh edərdi. Bir ziyalı kimi o, olduqca səliqəli, həm də təmiz geyinərdi. Mənə Azərbaycan teatrının «kərpiclərini» çiynində daşımış böyük aktyorumuz Hacağa Abbasov söyləyirdi ki,

[287] Levon Qaraxanovun xatirələri kitabın müəllifindədir. - Red

mən bu 90 illik həyatımda iki sənətkarı səliqə ilə geyinən görmüşəm: biri Hüseyn Ərəblinski, biri də bizim Ağa (yəni Seyid Şuşinski) idi. Yaxşı yadımdadır, o, yay ayları Şuşaya gələndə hamı onun qulluğunda olardı. Şəhər əhli onu çox istədiyindən hörmət əlaməti olaraq onu sadəcə olaraq «Ağa» deyib çağırardılar. Doğrudan da, Seyid ağa idi. Onun yerişindən, oturuşundan, sənətindən «ağalıq» yağırdı. Seyid bizim evdə çox olub. Atam ilə çox mehriban dost idilər. O, oxuyanda hamı bizim evin ətrafına toplaşardı. Seyidi qarşılamaq üçün bir həftə qabaq hazırlıq görülərdi. Bizim heç bir ailə şənliyimiz və toy məclislərimiz Seyidsiz keçməmişdir.

İlk dəfə mən Seyid Şuşinskinin səsini 1938-ci ildə eşitmişəm və indi də o səsdəki gözəllik, məlahət, əzəmət qulaqlarımdan getməmişdir. Həmin ilin sentyabr günlərinin birində Şuşanın «Köçərli məhəllə»sində Ağca xanım oğlu Keymah Qacara toy edirdi. Toya iki xanəndə dəstəsi dəvət olunmuşdu. Gündüzlər - qadın məclisində Xan Şuşinski öz dəstəsilə (qardaşı tarzən Allahyar və kamançaçı Rasim ilə) gecələr - kişi məclisində isə Seyid öz dəstəsilə Tatevos və Armenak ilə çalıb-çağırırdılar.

İndiki kimi yadımdadır. O gecə tam sakit və aydın bir gecə idi... Hərdən bir İsaq-Musaq quşlarının intizarlı səsləri ətrafdakı sakitliyi pozurdu... Biz Ağca xanımın evinə yaxınlaşdıqda ətrafı bürüyən şən musiqi sədaları eşidilirdi. Getdikcə qarmonun və çəpiyin səsi daha da güclənirdi...

O gecə toy məclisinə məni əmim oğlu Qara aparmışdı. Toy mərasimi geniş və yaraşıqlı bir zalda vurulurdu. Altı arşın uzunluqda Qarabağ xəli-gəbələri və dəllək Kəblə Nəsibin otuzluq qaz lampaları zalı daha yaraşığlı göstərirdi. Hamı milli geyimdə idi.

O dövrdə Şuşadakı «Toy padşahları»nın içərisində Seyid Həsən Ağa[288] xüsusi yer tuturdu. O, məclisi çox təmtəraqlı aparırdı. Ümumi qayda üzrə toyun «padşahı» məclisin yuxarı başında əyləşərdi. Özü də hər iki tərəfində, yəni sağında və solunda əllərində uzun çubuqlu fərraşlar hazır dayanardılar. Bu toyda Uzun İsfəndiyarla, Məşədi Muxtar oğlu Şəmil fərraşlıq edirdilər.

Zalın aşağı başında Seyid öz dəstəsilə əyləşmişdi. Məclisin ortasında isə qarmonçu Yusif (Abutalıbın qardaşı) qavalçalan Çopur Xanlar ilə hazır vəziyyətdə idilər. Məclis yenidən qızışdı. «Toy padşahı»nın əmri ilə şəhərdə ən yaxşı rəqs etməyi bacaranlar bir-bir oynamağa başladılar.

---

[288] Seyid Həsən Ağa (1860-1953)) Xan qızı Xurşid Banu Bəyim Natəvanın oğulluğu idi. Xan qızı 13 yaşlı sevimli oğlu Mir Həsəni itirdikdən sonra balaca Mir Həsəni (Seyid Həsəni) oğulluğa götürmüş, onun tərbiyəsi ilə şəxsən özü məşğul olmuşdur. Seyid Həsən Ağa ömrünün uşaqlıq və gənclik illərini Xan qızı Xurşid Banu Bəyimin sarayında keçirmiş, «Məclisi-üns»ün yığıncaqlarında və Natəvanın başqa məclislərində yaxından iştirak etməklə dövrünün görkəmli ədib, şair və xanəndələrini çox dinləmişdir. Seyid Həsən Ağa klassik şerə, xüsusilə Füzulinin, Vaqifin, Zakirin yaradıcılığına dərindən bələd idi. O, həm də mahir musiqişünas idi. Onun yanında hər şair, müğənni ağzını açmazdı. Bu adam bilici, həm də hazırcavab idi. Səməd Vurğunun dostu idu. - müəllif.

Artıq gecə saat on radələri idi. Söz xənəndəyə verildi. Hamının diqqəti məclisin aşağı başına dikildi. Mən Seyidi birinci dəfə idi ki, görürdüm. Onun əynində ağ hindikodan tikilmiş don, qara ipək köynək, başında gümüşü papaq (heyva çiçəyi), əlində ağ əlcək və fil sümüyündən qayırılmış gözəl çəliyi var idi.

Seyid Həsən Ağa xanəndəyə müraciət etdi:

- Ağa, çoxdandır sizi eşitmirik, bizə elə bir şey oxu ki, tamam feyziyab olaq, dərdi-qəmimiz ürəyimizdən silinsin...

Seyid ayağa durub camaata ədəb-ərkanla baş əydikdən sonra üzünü «padşaha» tutdu:

- Camaatın ürəyi nə istəyir. Mən onu da oxuyacam.

«Padşah»:

- Onda bizim üçün «Çahargahi-Ruzgari».

Tarzən Tatevosla kamançaçı Armenak simləri köklədilər. Seyid «Çahargah» muğamını başladı.

Hamı Seyidin gözəl, təsirli səsindən, ehtiraslı və mənalı sözlərindən, bir sözlə, böyük sənətindən məftun oldu. Mən də o gecə aldığım xoş təəssüratdan səhərəcən yata bilmədim... O vaxt kimin ağlına gələrdi ki, məclisdə - pəncərə qabağında oturub Seyidi dinləyən 12-13 yaşlı bir uşaq (bu sətirlərin müəllifi) iyirmi beş ildən sonra böyük sənətkar haqqında kitab yazacaq...».[289]

Seyid Şuşinski öz böyük ustalığı sayəsində milli musiqi mədəniyyəti tarixində özünə şərəfli bir yer tutmuşdur. O, musiqi aləminə yeni rənglər, yeni orijinal musiqi formaları əlavə etmişdir. Geniş məlumata, aydın dünyagörüşə malik olan sənətkarın yaradıcılıq inkişafı çox ardıcıl olmuşdur.

Seyidin dalınca getmək üçün hərtərəfli musiqi təhsilinə malik olmaq lazımdır. Onun yolu ilə getmək istəyən musiqiçi Azərbaycan musiqisini mükəmməl bilməli, onun incəliklərini qavramalı, muğamatın texnikasına dərindən yiyələnməlidir.

O, gözəlliyi, səmimiyyəti və azadlığı tərənnüm edən böyük müğənni idi.

Azərbaycan milli musiqi mədəniyyətinin inkişafında Seyid Şuşinski çox mühüm rol oynamışdır. Bütün ictimai fəaliyyətinin və yaradıcılığının məndəricəsi ilə xalq mədəniyyətinə, musiqisinə möhkəm bağlı olan Seyid Şuşinski 60 ilin ərzində bütün yaradıcılıq səylərini milli vokal repertuarını yaratmağa yönəltmişdir.

Seyid Şuşinski Azərbaycan musiqi mədəniyyəti tarixində haqlı olaraq get-gedə daha yüksək qiymətləndirilən, daha çox sevilən böyük müğənnidir. Şübhəsiz, xalqımızın gələcək nəsilləri də onu ehtiramla yad edəcək, ona öz milli musiqisinin tarixində fəxri yer verəcəkdir.

---

[289] Bax: F. Şuşinski. Seyid Şuşinski. Azərnəşr, Bakı, 1966.

# Saşa Oqanezaşvili

Uzun səsli, telli musiqi alətlərinin yeganə nümayəndəsi kamançadır. Kamançada çalınan musiqi səscə daha mükəmməl və insanın səsinə daha yaxındır. Kamança melodik alətlərdən ən gözəlidir.

*Üzeyir Hacıbəyov.*



Saşa Oqanezaşvili Azərbaycan musiqi tarixində virtuoz kamançaçı, bəstəkar, dirijor, görkəmli musiqişünas, tədqiqatçı və həm də yazıçı kimi şöhrət tapmışdır.

Aleksandr (Saşa) Arkadyeviç Oqanezaşvili 1889-cu ilin may ayında Tiflis şəhərində yoxsul ailədə anadan olmuşdur. Saşanın atası Arkadi Tiflisin soğanlıq kəndindən olub qoşanağara çalan idi. Anası isə (Sona Kuxianidze) kutaisli gürcü knyazının qızı idi. Kiçik yaşlarından musiqiyə böyük həvəs göstərən Saşa Oqanezaşvili heç bir məktəbdə oxumamışdır. O öz fitri istedadı sayəsində özünə yol açmış, atasından oxumağı və nağara çalmağı öyrənmişdi. Saşa musiqi fəaliyyətinə 7 yaşından başlamışdır. O əvvəlcə nağara, qaval çalıb gözəl səslə oxumuş, 10 yaşında isə tar çalmağı öyrənmişdi. Bu zaman Saşanın anası vəfat etmişdi. Analığı balaca Saşanı Xeço adlı bir nəfər tarzənə bağışlamışdı. Saşa Xeçonun dəstəsində həm qoşanağara, tar çalmaqla, həm də oxumaqla bir neçə il Gürcüstanın şəhər və kəndlərini gəzib dolaşmışdıy). O illər Saşa olmazın iztirablar çəkmiş, hər cür məşəqqət və əziyyətlərə düçar olmuşdu. Lakin Saşa musiqiçi olmaq naminə ruhdan düşməmişdi. On üç yaşında kamança çalmağa başlayan Saşa iki il sonra Gürcüstanda mahir kamançaçı kimi şöhrət qazanmışdı.

1905-ci ilin yayında Saşa tarzən Samsonla Gəncədə olarkən böyük müğənni Cabbar Qaryağdı oğlu ilə tanış olur. Qaryağdı oğlu Saşanın gözəl istedadını nəzərə alıb, onu özü ilə Bakıya gətirir. Beləliklə, Cabbar Qaryağdı oğlu, tarzən Qurban Pirimov və Saşa Oqanezaşvilidən ibarət musiqi üçlüyü yaranır. Azərbaycan musiqi tarixində son 50 ildə hərtərəfli keyfiyyətə malik olan belə bir musiqi üçlüyü tapmaq çətindir.[290]

Saşa Oqanezaşvili Bakıya gələndən bir qədər sonra Cabbar Qaryağdı oğlunun vasitəsi ilə ustad kamançaçı Avanes ilə tanış olur. O, Avanesdən üç il kamança dərsi alır. Tezliklə Bakının musiqi aləmində Saşa Oqanezaşvili Avanesin

[290] Musiqi üçlüyü haqqında «Qurban Pirimov» oçerkində ətraflı bəhs olunur - Red.

layiqli varisi kimi şöhrət tapır. O, son dərəcə gözəl və mahir çalğısı ilə başqalarından fərqlənirdi. Onun ifaçılıq məharətindəki nadir məziyyətləri Avanesin özü belə etiraf etmişdir. Avanes ölümündən (1909) əvvəl kamançasını Saşaya bağışlayarkən demişdir: «Mən əvvəllər vəsiyyət etmişdim ki, öləndə bu kamançanı da mənim qəbrimə qoysunlar. Lakin indi görürəm, sən olduqca gözəl çalırsan, ona görə vəsiyyətimi geri götürüb bu kamançanı sənə bağışlayıram».

Saşa Oqanezaşvili adicə kamançaçı deyildi, sözün əsl mənasında hərtərəfli biliyə malik olan böyük musiqiçi idi. Saşa virtuoz kamançaçı olmaqla, həm də not savadına yiyələnmiş, simfonik orkestr sənətini mənimsəmişdi.

O, 1910-1911-ci illərdə sənət dostu Cabbar Qaryağdı oğlunun köməyi ilə «Fərhad və Şirin» operasını bəstələyir. Operanın librettosunu Mirzə Cəlal Yusifzadə Nizami Gəncəvinin «Xosrov və Şirin» poeması əsasında yazmışdır.[291] Opera ilk dəfə 1911-ci il martın 6-da Bakıda «Nikitin qardaşları teatrı»nda tamaşaya qoyuldu. Fərhad rolunu Cabbar Qaryağdı oğlu böyük məharətlə oynamışdı. O dövrün mətbuatında opera haqqında və xüsusilə Fərhad rolunu ifa etmiş Cabbar Qaryağdı oğlu haqqında maraqlı rəylər yazılmışdır.[292]

1912-ci ildə «Sport-Rekord» aksioner cəmiyyətinin dəvəti ilə Saşa Oqanezaşvili Varşavaya gedir. Burada Saşa Qurban Pirimovla təkcə Cabbarı deyil, Keçəçi oğlu Məhəmmədi, Məşədi Məmməd Fərzəliyevi, Davud Səfiyarovu da səslərini qrammofon valına yazdırmaq üçün müşayiət edir. Bundan əlavə Saşa kamançada çaldığı bir necə musiqi əsərini də vala yazdırır.

Varşavadan qayıtdıqdan sonra Saşa Oqanezaşvili Şərq muğamları ilə daha ciddi məşğul olmaq və gənc musiqiçilərə muğamların qayda və yollarını dürüst öyrətmək məqsədi ilə Bakıda «Şərq musiqisi kursları» açır. O özü də burada muğamatdan dərs deməyə başlayır.

1914-cü ildə erməni yazıçıları «Mayılov teatrı»nda Azərbaycan mədəniyyətinə həsr olunmuş ədəbi-musiqili gecə keçirmişdi. Gecənin proqramı Şərq ədəbiyyatı, musiqisi haqqında məruzə və konsertdən ibarət idi. Gecədə ən

---

[291] Operanın qısa süjeti belədir: İran şahı Xosrov Pərviz Bərdə hakiminin qızı Şirini sevir. Şirin isə gözəllikdə bütün Yaxın Şərqdə ad qazanmışdır. Xosrov evli olmasına baxmayaraq Azərbaycan ilə İran sərhəddində «Qəsri-Şirin» mülkünü tikdirib, Şirini ora dəvət edir. Həmin vaxt Şirin məşhur bənna Fərhad da sevir. Xosrov Fərhadın Şirini çox sevdiyini eşidib, onu yanına çağırtdırır və deyir: «Mən Şirini sənə bir şərtlə verərəm: gərək Bisütun dağını yarasan». Şirinin eşqi ilə yaşayan Fərhad şahın bu təklifini qəbul edir. Gecə-gündüz dağın «köksünü» külüng ilə yarır. Bu hadisəni eşidən Şirin öz yaxın adamları ilə Fərhadın yanına gəlir və onu tərifləyir, Fərhad öz sevgilisi üçün ölümə belə hazırdır. Nəhayət, Xosrova xəbər çatır ki, Fərhad dağı yarıb qurtarmaq üzrədir. Xosrov çox narahat olur. O, nə edəcəyini bilmir. Nəhayət, bir «küpəgirən» qarını tapıb Fərhadın yanına göndərir və ona Şirinin ölüm xəbərini söyləməyi əmr edir. Qarı Fərhadın yanına gəlib deyir: «Yazıq Fərhad, bu qədər əzab və əziyyət nə üçündür? Artıq sənin sevgilin Şirin torpağın altındadır». Bu dəhşətli xəbəri qəfildən eşidən Fərhad külüngünü başına vurur və ölür. Bu hadisədən sonra Şirin ikinci dəfə Fərhadın yanına gəlir. Lakin Fərhadı görmür, hadisədən xəbərdar olub ağlayır-müəllif.

[292] «Kaspi» qəzeti, 8 mart 1911-ci il, № 53.

məşhur Azərbaycanlı və erməni musiqiçiləri iştirak edirdilər. Gecənin bədii hissəsində bir neçə muğam və romansları son dərəcə böyük ustalıqla ifa edən Oqanezaşvili dinləyiciləri məftun etdi. Gecənin təşkilatçılarından biri olan görkəmli erməni yazıçısı Ovanes Tumanyan «Dinləmək lazımdır» adlı məqaləsində gecədən, xüsusən Saşanın çalğısından aldığı təəssüratı belə ifadə etmişdir: «Biz Şərqdən söhbət salanda S. Oqanezaşvilinin inildəyən kamanı gözlərimizin önündə canlanır. O, doğma Şərq musiqisinin böyük məharətlə və özünəməxsus ustalıqla ifa edir. Biz ahəngdar bir musiqi eşidirik. S. Oqanezaşvilinin ifaçılıq məharəti Hafizin, Ömər Xəyyamın yaradıcılıqları ilə sıx əlaqədardır desək, yanılmarıq. Bəli, onlar bir-birini tamamlayır və hər bir şərqli üçün mənəvi zövq verirlər.

Axırıncı musiqi gecəsində o qədər məşhur musiqiçi və xanəndə çıxış etdi ki, daha mühazirəyə ehtiyac qalmadı. Həmin gecədə iştirak edən və Şərq musiqisindən yaxşı baş çıxaran kübar azərbaycanlı ziyalıları bu və ya digər bir artistin çıxışına müxtəlif qiymətlər verir, bəzilərini tərifləyir, bəzilərini isə tənqid edirdilər.

Oqanezaşvilinin çıxışından sonra mən onlardan soruşdum: Bəs bu necədi?

Onlar belə cavab verdilər:

- Bu tam kamil çıxışdı. İndiyədək belə bir ustalıq görməmişik. Nə qədər də məharətlə çalır. Biz hiss və həyəcan keçirir, həm də onu çox yaxşı başa düşürdük.

Mən də öz növbəmdə deməliyəm ki, azərbaycanlıların hələ heç vaxt musiqini bu qədər maraqla dinlədiyini görməmişdim. Onlar həyəcan keçirirdilər. Bütün varlıqları ilə musiqiyə bağlanmışdılar. Adama elə gəlirdi ki, salondakılar nəfəs almırdılar, əlbəttə, belə bir xalq bu cür musiqi yaratmağa, musiqini bu cür başa düşüb qiymətləndirməyə qadındır.

Elə istedadlar var ki, hətta ən intizamsız tamaşaçıları belə məftun etməyə, onları heyrətləndirməyə, təəccübləndirməyə və qulaq asmağa məcbur edə bilirlər. Oqanezaşvili də məhz belə istedadlardandır. Lakin bunu yəqin etmək üçün onu dinləmək lazımdır. Musiqi şer deyil ki, eyni məzmunda yazılmış bir əsərin mütaliəsi zamanı həmişə məhz eyni bir zövq ala biləsən. Yox, musiqidə ən başlıca amil ifaçılıqdır, artistin əli və səsidir, gözəllik də əldən və səsdən doğur.

Atası erməni, anası isə gürcü olan Oqanezaşvili tamaşaçıların qarşısında durarkən biz bunu yəqin edirik. Bu böyük gənc ustad ən yüksək ada belə layiqdir.

Oqanezaşvili haqqında danışmaq çətindir. Onu ancaq dinləmək lazımdır».[293]

1915-ci ildə Saşa ordu sıralarına çağırılır. O, orduda xidmət edərkən (1915-1917) hərbi orkestrə dirijorluq etmişdi.

1918-ci ildə Saşa Bakıya qayıdır. O, yenidən qayğıkeş ata və böyük müəllim kimi hörmət bəslədiyi Cabbar Qaryağdı oğlunun dəstəsinə qoşulur. O zaman Saşa Bakının musiqi həyatında hərtərəfli fəaliyyət göstərir, «Şərq musiqi studiyası»nda müəllimlik edir.

---

[293] Ovanes Tumanyan. Əsərləri, ikinci cild, Moskva, 1960, səh. 155-156.

Saşa Oqanezaşvili 1920-ci ildə Bakıda Şərq Konservatoriyasının (xalq konservatoriyası) əsasını qoyanlardan biri və ilk rektoru olmuşdu. Konservatoriyada əsas diqqət Şərq musiqisinə verildiyindən Saşa konservatoriyada dərs demək üçün Şərq musiqisinin, Cabbar Qaryağdı oğlu, Əbdülbaqi Zülalov (Bülbülcan), Şəkili Ələsgər, Keçəçi oğlu Məhəmməd, Zabul Qasım, Mirzə Fərəc, Şirin Axundov, Məşədi Süleyman Mənsurov, Arsen Yaramışev, Məmmədxan Bakıxanov, Həsən Əliyev, Qurban Pirimov kimi görkəmli nümayəndələrini dəvət etmişdi. Saşa konservatoriyanın nəzdində xalq çalğı alətlərindən ibarət orkestr yaratmışdı. O, musiqi mədəniyyəti sahəsində müəyyən tədqiqat aparmış, xalq çalğı alətlərinin diapazonlarını öyrənmiş və alətlər üzərində qurulan qammaları müəyyən etmişdi. Həmin il Bakının musiqi ictimaiyyəti Saşanın musiqi fəaliyyətinin 25 illik yubileyini qeyd etmişdi. O, eyni zamanda «Rabis»in (İncəsənət İşçiləri İttifaqının) sədri seçilmişdi. Saşanın gözəl müəllimlik fəaliyyəti nəzərə alınır və ona Şərq musiqisinin professoru kimi yüksək ad verilir.[294]

Saşa Oqanezaşvili Azərbaycan operasını yeni qaydada təşkil etmək, onu texniki cəhətdən Avropa musiqisinə yaxınlaşdırmaq üçün əməli fəaliyyət göstərmişdir. O, görkəmli Azərbaycan yazıçısı və mədəniyyət xadimi Məmməd Səid Ordubadi ilə birlikdə «Əxbar» qəzetində bir sıra məqalələr də çap etdirmişdir.

1921-ci ilin əvvəllərində Tiflisə köçən Saşa şəhərin bir çox məktəblərində musiqi dərsi demiş və buradakı erməni musiqi studiyasında çalışmış, daha sonra isə Tiflis Türk Akademik Dram Teatrı orkestrinin dirijoru olmuşdur. O, teatrda işlədiyi müddətdə mahir bir dirijor kimi musiqi ictimaiyyətinin və tamaşaçıların dərin məhəbbətini qazanır. 1923-cü il aprelin 12-də Tiflisdə Türk Akademik Dram Teatrı Üzeyir Hacıbəyovun «Arşın mal alan» əsərini tamaşaya qoyur. O vaxtlar «Зарjа Востока» qəzetində əməkdaşlıq edən gənc jurnalist Əziz Şərif (hazırda Moskva Dövlət Universitetinin professoru) «Arşın mal alan» sərlövhəli məqaləsində tamaşanın musiqi hissəsinə rəhbərlik edən Saşa Oqanezaşvilinin fəaliyyəti haqqında yazmışdı: «Saşa Oqanezaşvilinin rəhbərlik etdiyi orkestrə heç bir irad tutmaq mümkün deyildir. Orkestr Şərq melodiyalarını çox gözəl dərk edir və onları məharətlə dinləyicilərə çatdırırdı. Tamaşa çox müvəffəqiyyətlə keçdi».[295]

1926-cı ilin avqust ayında İrəvan konservatoriyasında Şərq musiqi alətləri sinfi yaradılır. Saşa dərs demək üçün buraya dəvət olunur. Burada ona xoreoqoafiya studiyasının müdiri vəzifəsi də taşpırılır. Saşa Oqanezaşvili erməni incəsənət ustaları yetirmək işinə xüsusi diqqət yetirir. O, konservatoriyada 150-dən artıq türk və erməni xalq mahnısını nota köçürür.

Professor Oqanezaşvili 1927-ci ildə Ümumdünya musiqi sərgisində iştirak etmək üçün Almaniyanın Mayn çayı üzərində yerləşən Frankfurt şəhərinə dəvət olunur. Burada o, professor Y. Braudo ilə birlikdə səs arxivində axtarışlar aparır. O

[294] Bax: Az. SSR OİAMDA. f. 57, qovluq № 14.
[295] «Зарjа Востока » qəzeti, 17 aprel 1923-cü il, № 81.

zamanlar professor Braudo ilə Saşa Oqanezaşviliyə SSRİ xalqlarının musiqisinin yazılmasının təşkili və metodologiyasının hazırlanması işləri həvalə olunmuşdu.

Saşa Oqanezaşvili Frankfurtda olarkən Çin musiqisi institutunun direktoru, professor Vilhelmin dəvəti ilə Şərq musiqisinə dair mühazirə oxumuş və məşhur alman professoru Daqen ilə yaxından tanış olmuşdu. Saşa alman ictimaiyyətini Şərq musiqisi, onun: tarixi və nəzəriyyəsi ilə tanış etmək məqsədi ilə Almaniyanın bir çox böyük şəhərlərində konsertlər vermiş və mühazirələr oxumuşdu.

Beynəlxalq musiqi sərgisinin sonuncu həftəsində ən yaxşı ifaçıların musabiqəsi elan edilmişdi. Müsabiqədə iştirak edən Saşa Oqanezaşvili böyük müvəffəqiyyət qazanır və Beynəlxalq Musiqi Birliyinin laureatı adına layiq görülür.

Saşa Oqanezaşvili xarici səfərdən qayıtdıqdan sonra məşhur tarzən Bala Məlikov ilə Şərq ansamblının yaranmasına kömək edir. 1928-ci ilin may-iyun aylarında həmin ansamblın Moskva və Leninqrad şəhərlərində qastrol konsertləri müvəffəqiyyətlə keçir. Mərkəzi mətbuatda Şərq ansamblı haqqında yazılan məqalələrdə Saşa Oqanezaşvilinin gözəl ifası təqdir edilirdi. Musiqişünas Y. Vaynkon yazırdı: «Hazırda Leninqradda olan Azərbaycan-erməni musiqiçiləri kollektivinin çıxışları gözlədiyimizdən daha yaxşı oldu. Bu ifaçıların arasında keçən il Frankfurtda keçirilən beynəlxalq musiqi sərgisinin laureatı S. Oqanezaşvili özünü mahir bir sənətkar kimi göstərə bildi».[296]

1929-cu ilin sonunda Saşa Oqanezaşvili ağır xəstələnir, həkimlərin məsləhəti ilə doğma vətəni Tiflisə qayıdır. Müalicədən sonra səhhəti tam yaxşı olmasa da, Saşa Oqanezaşvili Tiflisdəki Nəriman Nərimanov adına texnikumda və M. F. Axundov adına türk məktəbində pedaqoji fəaliyyətini davam etdirir. O, eyni zamanda Tiflisdə Azərbaycan dilində çıxan «Dan yıldızı» (1926-1931) jurnalında Qafqaz xalqlarının musiqi tarixinə və onun öyrənilməsinə dair məqalələr çap etdirir.

Saşa Oqanezaşvili 1932-ci il may ayının 31-də, Tiflis şəhərində 43 yaşında ikən vəfat etdi. Böyük sənətkarın vaxtsız ölümü Zaqafqaziya xalqlarının musiqi mədəniyyəti üçün ağır itki idi.

***

Saşa Oqanezaşvilinin adı dünyanın görkəmli musiqiçilərinin adları ilə bir sırada durur. Onun zəngin musiqi irsi dərindən öyrənilməyə və tədqiq olunmağa layiqdir. Saşa Oqanezaşvilinin yaradıcılığındakı orijinal xüsusiyyətlərdən biri də xalq musiqisi incilərini - muğamları özünəməxsus poetik bir üslubda ifa etməsi idi. Demək lazımdır ki, o, sözün həqiqi mənasında ustad kamançaçı idi. Saşa Oqanezaşvilinin ifasında hər hansı bir musiqini dinləyən adam, qəlbin ən incə hisslərinin inikasını olan musiqi təranəsində fərəhi də, kədəri də bütün varlığı ilə duyar, həyəcanlanardı.

---

[296] Bax: «Рабочи и театр» jurnalı, 1928-ci il, № 21.

Rus və Avropa musiqişünasları Saşa Oqanezaşvilinin geniş erudisiyalı sənətkar olduğunu dəfələrlə söyləmişlər. Görkəmli sovet musiqişünası V. Vinoqradov yazmışdı: «Saşa Oqanezaşvilinin çalğı sənəti öz təsir gücü, düşüncə dairəsi və incəliyi ilə şübhəsiz ki, dünya şöhrəti qazanmış skripkaçıların sənətinə bərabərdir».[297] Məşhur musiqi alimi İqor Qlebov (akademik Asafyev) Saşanın musiqi qabiliyyətinə heyran olmuş, onun adını dünya musiqisinin nəhəng nümayəndələri olan Debyüssi və Skryabinlə yanaşı çəkmişdi.[298] Professor Y. Braudo isə Saşanı «Qafqaz musiqisinin mahir bilicisi» kimi qiymətləndirmişdi.[299]

V. Karqanov, Qumeretsi, M. İppolitov-İvanov, Z. Paliaşvili, Q. Xubov kimi görkəmli musiqi xadimləri də Saşa Oqanezaşvilinin ifaçılıq məharətindən bəhs etmişlər.

Saşa Oqanezaşvili kamil çalğı texnikası və ifa etdiyi əsəri dərindən duyması ilə insanı valeh edirdi. Moskvada, Leninradda, Varşavada və Frankfurtda müvəffəqiyyətlə konsertlər verməsi Saşanın yüksək intellektual səviyyəli musiqiçi olduğunu bir daha sübuta yetirdi.

Saşa Oqanezaşvili də Sadıqcan kimi novator sənətkar idi. O, kamançanın və muğamatın təkmilləşməsi sahəsində gərgin işləmişdir. Saşa Oqanezaşviliyə qədər kamança üç simli olmuşdur. O, 1909-cu ildə kamançaya dördüncü simi əlavə etmişdir.[300]

Saşa Oqanezaşvili kamançaya yeni sim əlavə etməklə bu melodik alətdə ifaçılıq mədəniyyətini yüksək bir mərhələyə qalırdı. Bu yenilikdən sonra kamançada musiqi parçaları daha rəngarəng səslənməyə başladı.

XX əsrin birinci yarısında kamançaçılar arasında muğamları çalmaq, istərsə də, xanəndəni müşayiət etmək sənəti sahəsində Saşa Oqanezaşvili kimi məharət göstərən ikinci bir kamançaçı olmamışdır.

Məşhur kamançaçı Levon Qaraxanov öz dostunun ifaçılıq məharətini yüksək qiymətləndirərək demişdi ki, Saşa Oqanezaşvili xalq musiqisindən və bir sıra romanslardan tərtib edilirdi. O, bunların hamısını ustalıqla çalırdı. Tamaşaçılar elə bil ki, onun qəlbinin səsini eşidirdilər. Saşa Oqanezaşvili gözəl musiqi hafizəsinə malik idi. O, hər şeyi əzbərdən çalırdı, çalğıda daim inkişaf edən yüksək bir texnika, gözəl ritmik hisslər özünü büruzə verirdi. Görkəmli müğənnimiz Seyid Şuşinski demişdir: «Oqanezaşvili elə nadir istedadlardandır ki, onu nə qədər çox dinləsən bir o qədər də həzz almış olarsan».

Saşa Oqanezaşvili son dərəcə gözəl, təbii keyfiyyətlərə malik sənətkar idi. Barmaqlarının mütənasib quruluşu, təbii çevikliyi, biləyinin möhkəmliyi - bütün bu

---

[297] V. Vinoqradov. Üzeyir Hacıbəyov və Azərbaycan musiqisi. Moskva, 1939-cu il, səh. 26.

[298] Bax: «Жизнь и искусство» jurnalı, Leninqrad. 1928-ci il, № 10.

[299] Bax: «Огонjок» jurnalı, 1927-ci il, № 48.

[300] Bax: Ermənistan SSR Ədəbiyyat və incəsənət muzeyi. Saşa Oqanezaşvilinin şəxsi arxivi, fond № 329.

keyfiyyətlər onun musiqi həyatında böyük əhəmiyyət kəsb etmişdi. O, gözəl musiqi mədəniyyətinə malik idi. Musiqi formalarını, harmoniyanı və orkestri yaxşı bilməsi, ifa etdiyi melodiyanın xalq koloritinə xüsusi diqqət yetirməsi, onu ifaçı-musiqiçilərin ən görkəmli nümayəndələrindən biri etmişdi. Saşa Şərq musiqi alətlərinin hamısında çalmağı bacarırdı. Lakin onun kamançada incə və mahiranə çalğısı daha məşhur idi. Saşa kamançanı bütün alətlərdən daha çox sevirdi. Bunu onun ölümündən bir az əvvəl bacısı Ninaya yazdığı mənzum məktubundan da görmək olar: «Bu dünyanı qoyub gedirəm, gözüm qaldı sarı simlərdə».

Saşa Azərbaycan muğamlarını, mahnılarını və oyun havalarını ilk dəfə nota salanlardan biri olmuşdur. O, hələ 1911-ci ildə «Çahargah» muğamını nota köçürmüş, bir çox mahnıların not yazılarını (1926) Tiflisdə çıxan «Dan yıldızı» jurnalının səhifələrində çap etdirmişdi. Onun Səttar xana ithaf olunmuş «Səttar xan şərqisi» jurnalın 1926-cı il 3-cü nömrəsində çap edilmişdir. Saşa həmin jurnalda Azərbaycan el mahnılarından: «Maralım axçik», «Tirmə şal», «Canlar içində canan», «Evlərinin altı qaya», «Ey nigari-mən», «Rüstəm», «Nəbi» və s. mahnıların not yazılarını çap etdirmişdi.[301]

Saşa eyni zamanda Azərbaycan rəqs havalarından bir qismini nota salıb çap etdirmişdir. Bunlardan: «Zibəndə», «İnnabı», «Keçi məməsi», «Soltanı», «Ceyranı», «Tərəkəmə», «Mirzəyi» və s. göstərmək olar.[302]

Saşa Oqanezaşvili xüsusi musiqi məktəbi bitirməmiş, heç bir konservatoriya və ali məktəbdə dərs almamışdır. Lakin o öz fitri istedadı və gərgin əməyi sayəsində musiqi elminə dərindən bələd olmuşdu. O, musiqi tariximizdə görkəmli musiqişünas və tədqiqatçı kimi də şöhrət qazanmışdı. Saşa hələ 1911-ci ildən başlayaraq Qafqazda və Rusiyada çıxan bir çox qəzet-jurnallarda əməkdaşlıq edərək Şərq musiqisinə, xüsusilə zəngin Azərbaycan musiqisinə aid elmi-tədqiqi məqalələri ilə çıxış etmişdi. Onun ilk məqaləsi «Yeni həqiqət» qəzetinin 1911-ci il tarixli 18-ci nömrəsində çap olunmuşdu. Bundan əlavə, Saşanın Azərbaycan musiqisinə aid yazıları (1915-1930) «Театр и жизн», «Трибуна», «Грузинскоjе-слово» jurnallarında. «Qafqaz», «Правда», «Зарjа Востока» və «Известиjа» qəzetinin səhifələrində çap olunmuşdu.

«Dan yıldızı» jurnalında onun Azərbaycan musiqisi haqqında mülahizələri nəşr edilmişdi.[*]

Saşa Oqanezaşvili «Şərq musiqi alətlərini öyrənmək qaydaları» və «Fars musiqisi nəzəriyyəsi» kimi son dərəcə qiymətli əsərlərin müəllifidir. O, əsərlərində

---

[301] Bax: "Dan yıldızı" jurnalı, 1926-cı il, № 4, səh. 16-17.

[302] Bax: "Dan yıldızı" jurnalı, 1929-cu il, № 1-2, səh. 42.

[*] Bax: Azərbaycanda xalq musiqisinin vəziyyəti, «Dan yıldızı», 1926-cı il . № 93, «Tar», orada, 1928-ci il, № 10; «Tцrk operası», orada, 1928-ci il, № 12, «Şərq musiqisinin məsələləri və Bakı Dövlət konservatoriyası», Yenə orada, 1929-cu il, № 5; «Şərq musiqisi qammaları . Yenə orada, 1929-cu il, № 9; «Azərbaycan musiqi əlifbası». Yenə orada, 1929-cu il, № 11-12; Santur», yenə də orada, 1930-cu il, № 6.

Şərq musiqisinin ən gözəl təbliğatçısı kimi çıxış edərək Şərq musiqisinə böyük yer verir və bu musiqini Avropa musiqisinin təməl daşı hesab edir. Saşanın fikrinə görə, «Şərq musiqisi Avropa musiqisinin bünövrəsidir. Avropalılar öz musiqilərini yenidən qurmaq və inkişaf etdirmək üçün Şərq musiqisini əsaslı surətdə öyrənməlidirlər. Musiqinin öz dili var, o, heç bir dilə tərcümə olunmur. Kim bu və ya digər xalqın musiqisini öyrənmək istəyirsə, əvvəlcə o xalqın dilini öyrənməlidir». Saşa Şərq musiqisini Avropa alətlərində çalmağın əleyhinə idi. O yazırdı. «İran musiqisini fortepianoda çaldıqda bu yalnız pis tərcüməyə bənzəyir. Bu özünü aldatmaqdır. Doğrudur, biz Avropa musiqisini və onda olan mədəniyyəti inkar etmirik. Bununla belə biz doğma musiqimizi yaddan çıxarmamalıyıq. Gürcü konservatoriyasında Şərq musiqisinə yer verilməlidir».

Saşa şair təbli sənətkar idi. O, ədəbi gecələrdə çıxış edəndə ədəbiyyat həvəskarları ona qibtə edirdilər. Onun gürcü dilində yazdığı bir çox şerləri məlumdur. O, ilk dəfə Sayat Novanın gürcü əlifbası ilə nəşr olunmuş şerlərini fars dilinə tərcümə edib çapa hazırlamışdı. Bunlardan əlavə Saşa ədəbi məsələlərlə də maraqlanırdı. O, «Pələng dərisi geymiş pəhləvan» əsəri və «Qədim erməni yazısı» haqqında bir sıra maraqlı mülahizələr irəli sürmüşdür. Onun çap olunmamış bir çox əsərləri, sənətə, musiqiyə aid zəngin kitabxanası və musiqi alətləri kolleksiyası qalıbdır.[303]

Şərq musiqisinin ən gözəl bilicisi və təbliğatçısı olan professor Saşa Oqanezaşvilinin həyatı, fəaliyyəti, zəngin irsi Qafqaz musiqişünasları üçün parlaq nümunədir. Azərbaycan, erməni və gürcü musiqi tədqiqatçıları bu böyük sənətkarın musiqi irsini ətraflı öyrənməklə öz milli musiqi mədəniyyətlərinə layiqli xidmət etmiş olarlar.

[303] Saşa Oqanezaşvilinin çap olunmamış əsərlərinin bir hissəsi Yerevan İncəsənət muzeyində, bir hissəsi isə sənətkarın Tbilisidə yaşayan qızı Sona Sərdaryandadır - Müəllif.

# Məmmədxan Bakıxanov



AZƏRBAYCAN çalğı musiqisinin görkəmli nümayəndələrindən biri olan Məmmədmirzə (Məmmədxan) Məmmədrza oğlu Bakıxanov 1890-cı ildə Bakıda anadan olmuşdur.

Məmmədxanın uşaqlıq və gənclik illəri İranda keçmişdir. O, hələ 7 yaşında ikən atası İranın Rəşt şəhərinə köçmüş və orada ticarətlə məşğul olmuşdur. Balaca Məmmədxan ilk təhsilini Rəştdə almışdır. O, gənc yaşlarından başlayaraq xalq musiqisinə böyük həvəs göstərmişdir. Bu isə təsadüfi deyildi. Məmmədxanın atası Məmmədrza kişi tacir olmasına baxmayaraq musiqi həvəskarı idi. Deyilənə görə Məmmədrza kişi tar, saz çalar, hərdən bir pəsdən zümzümə edərdi. Məmmədrza kişinin evində tez-tez qonaqlıq olardı. Balaca Məmmədxan atasının təşkil etdiyi ziyafətlərdə çalıb-oxuyanları dinləyərkən ürəyində min bir arzu oyanardı.

Məmmədxan ilk musiqi təhsilini İranda almışdır. O, bir tarzən kimi 1916-cı ildən başlayaraq xalq məclislərində çıxış etmişdir.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Məmmədxan Bakıya gəlmiş və burada musiqi təhsilini davam etdirmişdir. O, 1920-ci ildə Şərq Konservatoriyasına daxil olub burada məşhur tarzən Şirin Axundov və Məşədi Həsəndən dərs almışdır.

Məmmədxan konservatoriyaya daxil olduğu ilk günlərdən özünü yaxşı tələbə, istedadlı bir tarzən kimi göstərmişdi. Məmmədxanın xalq musiqisinə yaxşı bələd olmasını və məharətlə çalmasını görən konservatoriyanın direktorluğu 1921-ci ilin martında onu konservatoriyanın inspektoru vəzifəsinə təyin etmişdi.

1923-cü ildə Bakıda istedadlı tarzən və bacarıqlı bir təşkilatçı kimi tanınan M. Bakıxanov Əli Bayramov adına əməkçi türk qadınlarının Mərkəzi Mədəniyyət sarayına işə dəvət edilir. O, qadınlar klubunda 13 il tar müəllimi vəzifəsində çalışmış və Azərbaycan qızlarına musiqidən dərs demişdir.

Bu zəhmətkeş tarzən təkcə tar dərsi deməklə məşğul olmamışdı. Onun yaxından iştirakı və rəhbərliyi ilə Azərbaycan qızlarından ibarət gözəl bir musiqi orkestri yaradılmışdı. 1923-1936-cı illərdə M. Bakıxanovun «Qızlar ansamblı» Bakının mədəniyyət saraylarında, fəhlə klublarında və hərbi hissələrdə konsert tamaşaları verməklə zəhmətkeşlərin dərin məhəbbətini qazanmışdı.

Bakıxanovun müəllimlik fəaliyyəti dövründə Əli Bayramov klubu bir musiqi ocaqı kimi respublikada daha da məşhurlaşdı. Burada Məmmədxan Bakıxanov gənc musiqi kadrlarının yetişdirilməsi, Azərbaycan qadınlarına xalq mahnı və rəqslərinin öyrədilməsi işinə böyük qüvvə sərf edirdi. Onu Azərbaycan

qızlarından ilk musiqi kadrları yetişdirən musiqiçilərin pioneri adlandırsaq səhv etmərik. Çünki bu sahədə Bakıxanov əvəzsiz xidmət göstərmişdi.

M. Bakıxanovun Əli Bayramov adına əməkçi türk qadınlarının Mərkəzi Mədəniyyət sarayındakı fəaliyyəti milli musiqi mədəniyyətimizin inkişafı üçün olduqca faydalı olmuşdur. Sənətkarın şəxsi arxivində bu barədə son dərəcə qiymətli sənədlər vardır.

Məlum olduğu kimi, 1934-cü ilin iyun ayında Tiflis şəhərində keçirilən Zaqafqaziya olimpiadasında. M. Bakıxanovun rəhbərlik etdiyi «Şərq orkestri» də iştirak etmişdi. Olimpiadada böyük müvəffəqiyyətlə çıxış edən orkestr birinci yer tutduğuna görə Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin Fəxri Fərmanı ilə təltif edilmiş və pul mükafatı almışdır.



Üçlük: (soldan) Cabbar Qaryağdı oğlu, Məmmədxan Bakıxanov və kamançaçı Asatur (Bakı, 1937-ci il).

Zaqafqaziya olimpiadasından böyük qələbə ilə qayıdan «Şərq orkestri» 1936-cı ilin may ayında Moskvaya bədii özfəaliyyət kollektivlərinin konsert-tamaşasında çıxış etmək üçün dəvət edilmişdi. Burada tikinti işçilərinin mərkəzi klubunda çıxış edən orkestr bu dəfə də qiymətli mükafatlarla Bakıya qayıtmışdır.

Görkəmli musiqi xadimi kimi məşhur olan Bakıxanov respublikamızın mədəni quruculuq işlərində fəal çalışmışdı. O, ömrünün sonlarınadək Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında estrada şöbəsində işləmişdi.

Məmmədxan Bakıxanov eyni zamanda gözəl bir akkompaniator kimi xanəndələr içərisində xüsusi hörmətə malik idi. Bu mahir tarzən klassik muğamlarımızın texnikasına dərin bələd olmaqla, onları solo ifa etməkdə, həm də xanəndələri müşayiət etməkdə belə usta idi.

Məmmədxan bir çox illər musiqi məclislərində Cabbar Qaryağdı oğlu və Seyid Şuşinski kimi məşhur müğənniləri müşayiət etməklə, özünün bacarıqlı tarzən olduğunu bir daha sübut etmişdi.

Böyük Vətən müharibəsi illərində Məmmədxan Bakıxanov bədii briqadalarda, müxtəlif cəbhələrdə Sovet Ordusu döyüşçüləri üçün verilən konsertlərdə dəfələrlə çıxış etmişdir. Döyüşçülərə mədəni xidmət göstərdiyinə görə, bir neçə dəfə Sovet Ordusunun Fəxri fərmanları ilə təltif olunmuşdur. O, dövrün bir çox qəzetlərində görkəmli tarzənin ictimai fəaliyyətindən və ölməz sənətindən bəhs edən neçə-neçə yazılara rast gəlirik.[304]

Məmmədxan Bakıxanovun Azərbaycan xalq musiqisi sahəsindəki xidmətləri layiqincə qiymətləndirilmişdir. O, 1943-cü ildə Azərbaycan SSR əməkdar artisti fəxri adına layiq görülmüşdür. Məmmədxan Bakıxanov «Əmək igidliyinə görə», «Qafqazın müdafiəsinə görə» medalları və bir sıra fəxri fərmanlarla təltif olunmuşdur.

Görkəmli sənətkar Məmmədxan Bakıxanov 1957-ci il fevral ayının 20-də Bakıda vəfat etmişdir.

## Levon Qaraxanov



KAMANÇAÇI Levon Qaraxanovun adı çəkiləndə istər-istəməz Avanes, Bağdagül, oğlanları - Ata, Qosti və Saşa kimi ölməz sənətkarlar yada düşür. Onlar bütün ömür boyu Şərq musiqisini, xüsusən Azərbaycan milli musiqisini təbliğ etmişlər.

Levon Qaraxanov 1889-cu ilin mart ayında Şuşanın Sığanax kəndində qulluqçu ailəsində anadan olmuşdur. Levonun ailəsində nə oxuyan, nə çalan vardı, lakin o, hələ 7 yaşında ikən musiqiçilər dəstəsinə qoşulmuş, onların arasında boya-başa çatmışdı. Levon Qaraxanov çox sonralar uşaqlıq illərini yada salaraq yazmışdı: «Atam Şuşa seminariyasını bitirib ticarət kontorunda işləyirdi. Evdar qadın olan anam Tiflis ermənilərindən idi. Mənim 4 yaşım tamam olanda atam qəflətən vəfat etdi. Anam Tiflisə qayıtdı. Suliko adlı bir gürcüyə (kor tarçalana) ərə getdi. Bu vaxt 7 yaşında idim. Həmin gürcü mənə qoşanağara çalmağı öyrətdi. O zaman atalığım məni də öz dəstəsi ilə bərabər Gürcüstanın şəhər və kəndlərinə aparardı. Tarzən Sulikonun dəstəsində mən qoşanağara, tiflisli Baxşı kamança çalırdı, oxuyanımız isə Saşa

---

[304] Bax: «Qızıl əsgər» qəzeti, 1942-ci il, № 21; «Ədəbiyyat qəzeti», 1943-cü il, № 4; «Bakinski raboçi» qəzeti 1944-cü il, № 148.

Oqanezaşvili idi. Saşanın çox yağlı və incə səsi vardı, həm də yaxşı qaval vurardı. Bizim dəstəmiz Kutaisi, Qori, Çiaturi və başqa şəhərlərdə çalıb oxuyardı».

Levon hələ on yaşında ikən Tiflis musiqiçiləri arasında mahir bir nağaraçı kimi tanınmışdı. Təsadüfi deyildir ki, böyük xanəndə Əbdülbaqi (Bülbülcan) balaca Levonu özü ilə bərabər bir neçə məclisə, hətta Aşqabad şəhərinə qastrol səfərinə aparmışdı.

Levon 1904-cu ilə qədər əsasən atalığının dəstəsində nağara çalmışdır. Lakin sonralar Levon kamança öyrənməyə xüsusi həvəs göstərir. Onun ilk kamança müəllimi Kevork Seyranov gənc musiqiçiyə öz sənətinin sirlərini öyrədir. Levon on yeddi yaşında ikən sərbəst surətdə kamança çalır, xalq məclislərinə bir sənətkar kimi tez-tez dəvət olunurdu.

1907-ci ildə Levon Qarabağ xanəndəsi Aslan və tarzən şəkili Şirin ilə birlikdə Mancuriyanın Xarbin şəhərinə dəvət olunur. Bu trio Xarbindəki «Qafqaz» qəhvəxanasında altı ay çaldıqdan sonra Tiflisə, oradan isə Bakıya gəlir. Levon Bakıda Saşa Oqanezaşvilinin vasitəsilə kamançaçı Avanse ilə yaxından tanış olur və ondan musiqi təlimi alır. Levon öz ustadından təkcə muğamları öyrənməklə kifayətlənməyib tədricən not savadına yiyələnir.

Levonun Bakıda bir kamançaçı kimi məşhur olmasında xanəndə Ələsgərin və tarzən Şirin Axundovun böyük xidmətləri olmuşdur. Çünki Levon bu dəstəyə qoşulduqdan sonra xalq arasında istedadlı sənətkar kimi tanınmışdır: Levon bu barədə deyirdi: «Bir gün dayım Ələsgəri qonaq çağırdı. Mən Ələsgər üçün «Bayatı-Şiraz» çaldım. Mənim çalğım Ələsgərin çox xoşuna gəldi. Sonra Ələsgər ikinci dəfə bizə tarzən Şirin ilə gəldi. Mən bu dəfə bir-iki muğam, həm də Avropa romansları çaldım. Şirin də mənim çalğıma heyran oldu. Bu hadisədən sonra Ələsgər məni öz dəstəsinə qəbul etdi».

Bu üç görkəmli sənətkar on beş il əməkdaşlıq etmiş və Azərbaycan musiqi mədəniyyətinin inkişafı sahəsində görkəmli fəaliyyət göstərmişlər.

1907-1918-ci illərdə Levon sənət yoldaşlarından - İslam Abdullayev, Keçəçi oğlu Məhəmməd və Davud Səfiyarovla birlikdə əməkdaşlıq etmişdir.

Levon Qaraxanov bakılıların qarşısında ilk dəfə 1914-cü il fevral ayının 13-də musiqili dram gecəsində çıxış etmiş, tamaşaçılar tərəfindən məhəbbətlə qarşılanmışdı. Həmin ilin dekabrında Mayılov teatrında müharibədə yaralanıb gələnlərin xeyrinə verilən konsertdə Cabbar, Ələsgər, Keçəçi oğlu, Arsen, Tatevos, Qurban və Saşa ilə birlikdə Levon da iştirak edir. Burada Levon «Çahargah» kimi çətin bir muğamı elə ustalıqla çalır ki, tamaşaçılar onu ikinci dəfə səhnəyə çağırırlar.

1914-cü ildə «Primer-Rekord» firması xanəndə İslam və tarzən Şirinlə birlikdə Levon Qaraxanovu da dəvət edib, onların çalıb-oxumalarını qrammafon vallarına yazır. O zaman Levon kamançada İslamı müşayiət etməklə, özü də bir neçə muğam, təsnif və erməni mahnılarını solo çalmışdı.

Levon Qaraxanov dəfələrlə İranın Rəşt, Ənzəli, Təbriz və Tehran şəhərlərinə xanəndə Ələsgər və Keçəçi oğluyla dəvət olunmuş, öz gözəl çalğısı ilə bu yerlərin dinləyicilərini heyran qoymuşdu. İran səfərindən qayıdandan sonra o, xanəndə Mərkərə oğlu Baxış və tarzən Samson ilə üç il (1918-1921) Həştərxan, Saritsın, Rostov və Krasnodar şəhərlərində, Şimali Qafqazın bir çox yerlərində konsertlər vermiş və toy şənliklərində çalıb-çağırmışdır. Gürcüstanda Sovet hakimiyyəti qurulduqdan sonra Levon Tiflis şəhərinə qayıdır. O, burada 26 nəfər musiqiçidən ibarət Şərq ansamblı yaradır. Ansamblın tərkibinə xanəndə Məcid Behbudov, Zərgər Məhəmməd, gürcü xanəndəsi Tarxinisşvili (öz baçısı ilə) və başqaları vardı. Levon Qaraxanov Tiflisdə Şərq musiqiçiləri kollektivinin sədri seçilir. O, bir təşkilatçı kimi Şərq ansamblını genişləndirir, məşhur xanəndə Məşədi Məmməd Fərzəliyevi, Məcid Behbudovu, tarzən Bala Məlikovu, gürcü xanəndələrindən Vano Abuladzeni, Mixail Mikeladzeni, tarzən Saşa Tarxanovu (məşhur tarzən Avak Tarxanovun oğlu) və başqalarını ansambla dəvət edir. 1921-ci ildə Şərq ansamblı, demək olar ki, Gürcüstanın bütün kənd və şəhərlərini gəzib əhaliyə mədəni xidmət göstərir...

1923-cü ildə İran səfərindən qayıdan Levon Qaraxanov Bakıya gəlir, burada Üzeyir Hacıbəyovla görüşür. Üzeyir Hacıbəyov onu Bakı konservatoriyasına dəvət edir. Levon Qaraxanov 1923-1925-ci illərdə konservatoriyada Əbdülbaqi Zülalov, Cabbar Qaryağdı oğlu, tarzənlərdən Şirin Axundov, Qurban Pirimov və Mənsur Mənsurov ilə birlikdə dərs verir. 1926-cı ilin əvvəllərində Levon Qaraxanov ailəsi Tiflisdə yaşadığından Bakını tərk etməli olur.

Görkəmli sənətkar Tiflisə qayıtdıqdan sonra xanəndə Məşədi Məmməd Fərzəliyev, tarzən Saşa Tarxanov ilə birlikdə yeni bir musiqi üçlüyü yaradır. Bu musiqi üçlüyü iki-üç ay müddətində bütün Gürcüstanda elə bir hörmət və şöhrət qazanır ki, Gürcüstan İncəsənət İttifaqının (RABİS) İdarə Heyəti bu üçlüyü Avropa ölkələrinə qastrol səfərinə göndərir. Martın axır günlərində trio Tiflisdən Moskvaya gəlir, burada Petrovkada, Mozayka teatrının binasında bir neçə konsert verdikdən sonra Varşava şəhərinə yola düşür. Levon Qaraxanov Avropa ölkələrinə 60 il bundan əvvəlki səfərini belə xatırlayırdı:

«Biz Varşavada üç dəfə konsert verdik. Bizimlə Varşavaya gedən Tatiko Arsenaşvili (Hazırda Moskva teatr muzeyində işləyir) Avropa dillərini yaxşı bildiyinə görə konsert zamanı dinləyicilərə izahat verirdi.

Varşavadan sonra Berlinə getdik. Biz orada olarkən bütün Berlin qəzetləri bizim şəkillərimizi və elanlarımızı vermişdilər. Bundan əlavə şəhərin görkəmli yerlərinə reklamalar vurulmuşdu. Müvəffəqiyyətli çıxışlarımızı nəzərə alıb bizi Berlin radiosuna dəvət etdilər. Orada konsert verdik. Sonra bizi «Skala» teatrının sahibi dəvət etdi. Həmin teatrın binasında on beş gün çıxış etdik. Berlinlilər bizim konsertlərimizə böyük maraq göstərirdilər. Yaşadığımız mehmanxananın qabağında yüzlərlə adam dayanıb gəlişimizi gözləyərdilər. Bizim milli

geyimimizdən çox xoşları gəlirdi. Onlar bizimlə mehriban söhbət edir, musiqi alətlərimiz ilə maraqlanırdılar. Dəfələrlə konsertdən sonra səhnə arxasına gəlib Məşədi Məmmədin ağzına və boğazına baxardılar, inanmırdılar ki, insanda belə güclü nəfəs, gözəl səs olar. Xüsusilə Məşədi Məmməd «Heyratı», «Qarabağ şikəstəsi» oxuyanda almanlar heyran qalardılar. Bəzi musiqiçilər bizimlə mübahisə edirdilər. Onlar inanmaq istəmirdilər ki, Məşədi Məmmədin 56 yaşı var. Təəccüblənirdilər: insanın 56 yaşında bu cür zil səsi olarmı? Berlində çıxan «Rot Front», «Rote Fane» və sairə qəzetlər bizim konsertlərimiz haqqında müsbət rəylər vermişdi.

Konsertlərimiz haqqında verilən afişalarda yazılırdı: «Şərq konserti - Qafqaz - Şuşalılar». Biz eyni zamanda türk, İran və əfqan səfirlərinin düzəltdikləri qəbulda da çıxış etdik. Məşədi Məmməd ritmik muğamları, türk və İran təsniflərini çox oxuyurdu.

Berlində iki ay qaldıqdan sonra Belçikanın Brüssel şəhərinə getdik. Belçikada Sovet səfirinin köməyi ilə həm konsertlər verir, həm də fəhlə klublarında çıxış edirdik. Brüsseldə olarkən Amerikadan Maqalyan Setrakın rəhbərlik etdiyi erməni artistləri London şəhərinə qastrola gəlmişdilər. Onlar Londonda Üzeyir Hacıbəyovun «Arşın mal alan» operettasını ingilis dilində oynayırdılar. Həmin truppanın rəhbəri bizim Berlin və Brüsseldəki müvəffəqiyyətlərimizi eşidərək görüşümüzə gəldi. Bizi «Arşın mal alan»da çalmaq üçün Londona apardı.

Londonda Üzeyir Hacıbəyovun ürəkləri oxşayan musiqisini çaldıq. Birinci tamaşa elə müvəffəqiyyət qazandı ki, təzədən üç dəfə «Arşın mal alan»ı oynadıq. Londonun küçələrinə vurulan afişalarda. yazılırdı:

«Azərbaycan operettası «Arşın mal alan» ingilis dilində».

Londondan sonra Parisdə, Vyanada, Budapeştdə, Buxarestdə çıxış etdikdən sonra İstambula gəldik. İstambulda iki həftə konsert verdik. Teatr və klub sahibləri bizi rahat buraxmırdılar. Bu konsertlərdə Məşədi Məmmədi bəzən altı-yeddi dəfə oxudurdular. Axırda çıxış etməyə bizdə nə halət, nə də qüvvə qalmadı. Gecələrin birində xəlvət paroxoda

minib Batuma qaçdıq. Bizim xaricə səfərimiz altı ay çəkdi. Bu müddət ərzində yüzə qədər konsert verdik.

Olduğumuz ölkələrin tamaşaçıları bizi böyük hörmətlə qarşılayırdılar. Avropaya səfərimiz dövründə qazapdığımız nailiyyət Şərq musiqisinin, xüsusilə Azərbaycan musiqisinin qələbəsi idi».

1927-ci ildə Tiflis konservatoriyasında xalq çalğı alətləri sinfi, açılır. Konservatoriyanın rektoru, məşhur gürcü bəstəkarı Zaxar Paliaşvili Levon Qaraxanovu konservatoriyaya dəvət edir. Levon Qaraxanov Tiflis konservatoriyasında kamança dərsi verməklə bərabər, filarmoniya və radioda səlist sifəti ilə çalışır. O zaman Gürcüstanda elə bir kənd, elə bir şəhər yox idi ki, Levon Qaraxanov orada çıxış etməsin. Onu hər yerdə tanıyır və sevirdilər. L.

Qaraxanovun gözəl çalğısı hamıdan əvvəl görkəmli bəstəkar Zaxar Paliaşvilinin diqqətini cəlb etmişdi. O, çıxışlarının birində Levon Qaraxanovun sənətkarlığına yüksək qiymət verərək demişdir: «Kamançaçı Qaraxanov musiqiçilər içərisində ən istedadlı kamançaçılardan biridir. Məncə, Şərq musiqi motivlərini ustalıqla ifa etməkdə Levona bərabər olan yoxdur».[305] 1929-cu ildə dirijor-konstruktor Vartan Buni polofonik (çox-səsli) orkestr təşkil edir. O, orkestri qüvvətləndirmək üçün Levon Qaraxanovu dəvət edir. Məşhur erməni bəstəkarı Spendiarovun adını daşıyan bu kvintet Zaqafqaziyanın fəhlə klublarında böyük müvəffəqiyyət qazanır. Bu orkestrin repertuarı fars, əfqan, türk, kürd və erməni bəstəkarlarının mahnı və melodiyalarından ibarət idi. O, dövrun mətbuatında kvintetin fəaliyyəti, xüsusilə onun solisti Levon haqqında qiymətli rəylərə təsadüf olunur. «Зарја Востока» qəzeti yazırdı: «Kvintetin solistlərindən Levon Qaraxan (Prima-kamança) öz virtuoz texnikası və incə məharəti ilə başqalarından seçilir».[306]

Spendiarov adına kvintet Tiflisdə, Kiyevdə və Moskvada müvəffəqiyyətlə konsert vermişdir. O zaman «Moskva» axşam qəzetində çıxış edən məşhur musiqi alimi, professor Y. M. Braudo Levon haqqında yazmışdır: «Şərq instrumental musiqisinin ən gözəl nümunələrini kamançaçı Qaraxanovun çalğısında görürəm. Şərq mahnıları ilə tanış olmayan adamlar belə Levonun çalğısına qulaq asanda Şərq musiqisinin rəngarəngliyinə, milli mündəricəsinə heyran olar.

Eşitdiyimiz Qafqaz musiqiçiləri arasında Qaraxanov insanın diqqətini özünə cəlb edən böyük sənətkardır».[307]

Məşhur bəstəkar-musiqişünas M. İppolitov-İvanov da Levonun ifaçılıq məharətinə heyran qaldığını etiraf etmişdi: «Yoldaş Qaraxanovun ifasında bir neçə Şərq bayatısına və rapsodiyilarına qulaq asanda onun birinci dərəcəli kamançaçı olduğu dərhal aydın olur. Çünki sənətkarın çalğısında böyük hissiyyat, aydın ritm və intonasiya vardır».[308] Q. Lyubimov, Ü. Hacıbəyov, D. Arakişvili, İ. Borozdin kimi məşhur musiqişünaslar da Levon Qaraxanovun sənətkarlıq məharətinə yüksək qiymət vermişlər.

1931-ci il oktyabr ayının 20-də Bakıda Şərq xalqlarının musiqi gecəsi keçirilirdi. Bu musiqi gecəsində iştirak etmək üçün Yerevandan, Tiflisdən bir çox məşhur musiqiçilər dəvət edilmişdi. Həmin gecədə çıxış etmək üçün Levon Qaraxanov gəlmişdi.[309] Konsertdə böyük müvəffəqiyyət qazanan Levon kamançada «Çahargah», «Vilayəti» muğamlarını ustalıqla çalmışdı.

1936-cı ilin əvvəllərində Gürcüstan Maarif Komissarlığının incəsənət işləri idarəsi Levon Qaraxanora Şərq musiqi alətləri ansamblı yaratmağı təklif edir.

[305] «Veçerni Tbilisi» qəzeti, 1961-ci il, № 129.
[306] «Зарја Востока», 17 dekabr 1929-cu il.
[307] Bax: «Вечерпјаја Москва». qəzeti, 13 yanvar 1930-cu il.
[308] «Известија» qəzeti, 1930-cu il, № 299.
[309] Bax: «Yeni yol» qəzeti, 20 oktyabr 1931-ci il.

Gözəl təşkilatçılıq qabiliyyətinə malik olan sənətkar bir qrup Azərbaycanlı, erməni, və gürcü musiqiçilərindən ibarət ansambl yaradır. Ansamblın repertuarı Azərbaycan, gürcü, erməni, türk, fars mahnı və oyun havalarından ibarət idi. Aprelin axırlarında ansambl Tiflisin fəhlə klublarında və mədəniyyət saraylarında çıxış etmişdi.

Levon Qaraxanovun rəhbərlik etdiyi ansambl 1937-ci ilin əvvəllərində Orta Asiyaya qastrol səfərinə çıxmışdı. Ansamblın ilk konserti Aşqabad şəhərində olur. O zaman yerli qəzetlərin birində Mele imzalı bir nəfər «Gürcüstan artistləri Aşqabadda» sərlövhəli məqaləsində (qəzetdə Levon Qaraxanovun şəkli də verilmişdir) ansamblın rəhbəri Levon Qaraxanovun yüksək səviyyəli, gözəl çıxışından bəhs edərək yazmışdı: «...Kamançaçı Qaraxan Gürcüstanın ən yaxşı kamançaçılarından biridir. Qaraxan «Tbilisinin eskizinin, özü bəstələdiyi «Canyergir can» mahnısını və Spendiarovun romanslarını çox gözəl ifa etdi. Tamaşaçılar onu gurultulu alqışlarla qarşıladılar».[310]

Ansambl Aşqabadda altı dəfə çıxış etdikdən sonra Tacikistanda, Özbəkistanda, Qırğızıstanda, həmçinin Orenburq, Moskva və Kiyev şəhərlərində konsertlər vermişdi.

Qastrol səfərindən qayıtdıqdan sonra Levon Qaraxanor Yerevanda birinci erməni incəsənəti dekadasında fəal iştirak etmiş, yüksək mükafata layiq görülmüşdü. İstedadlı sənətkar 1939-cu ilin oktyabr ayında Moskvada keçirilən xalq musiqi alətləri çalğıçılarının müsabiqəsində fərqlənmə diplomu almışdır.

1940-1950-ci illərdə Tiflis və Kutaisi şəhərlərində fəaliyyət göstərən Levon Qaraxanov Tiflis radiosunun Şərq çalğı alətləri ansamblının rəhbəri olmuş, eyni zamanda teatrların orkestrlərində işləmişdir.

Levon Qaraxanov təkcə kamança çalmaqla məşğul olmamışdır. Şərq musiqisinin sirlərinə yaxından bələd olan bu görkəmli sənətkar bir çox teatr tamaşalarına musiqi də yazmışdır. Onun İ. Qrişaşvilinin «İkinci İrakli» dramına yazdığı musiqi çox məşhurdur. Bundan əlavə onun bir sıra mahnıları məlumdur. Bunlardan: «Tbilisinin eskizləri», «Xırdaca qız», «O qara qaşların», «Azərbaycan», erməni dilində isə: «Loriivi yerk» (Qaranquş), «Du axçikes te yeraz (Sən qızsan, yoxsa yuxu), «Yerevan» və s göstərmək olar.

Ömrünün son illərində Levon Qaraxanov Tbilisi Dövlət Radiosunda Şərq alətləri orkestrinə rəhbərlik edir, gənclik ehtirası ilə işləyirdi.

Qocaman kamançazən Levon Qaraxanov 1979-cu il avqustun 20-da 90 yaşında Tbilisi şəhərində vəfat etmişdir.

---

[310] Bax: «Sovet Türkmənistanı» qəzeti, 28 yanvar 1937-ci il, № 22.

# Lazar Qabrielyan



TARZƏN Lazar Ayrapetoviç Qabrielyan Azərbaycan çalğı musiqisinin görkəmli nümayəndələrindən biri idi. O, 1890-c ildə Şuşa şəhərində anadan olmuşdur.

Kiçik yaşlarından musiqiyə güclü meyl edən Lazar 8 yaşında qarmon, 12 yaşında isə tar çalmağı öyrənir. Onun tar müəllimi məşhur tarzən Balaca Qrikor olmuşdu. Bir gün Lazar tarını anasına verib-deyir ki, apar usta Qrikor köklәsin. Qrikor tarı yoxlayanda görür ki, tarın pərdələri yerindədir, həm də düz köklənib. Ustad tarzən tar sahibi ilə maraqlanıb evinə dəvət edir. O gündən 14 yaşlı Lazar Qrikorun şagirdi olur.

Lazar Şuşa seminariyasında oxuyarkən bir tarzən kimi ilk dəfə ədəbi-bədii gecələrdə, sonralar isə şəhər klublarında verilən konsertlərdə xanəndələrdən Dabbaq Məhəmmədqulu, Qaragöz Zülfüqar və Musa Şuşinski ilə birlikdə çıxış edərdi.

1920-ci ilin martında Şuşada yanğın baş verərkən ailəsini itirən Lazar Bakı şəhərinə köçməli olur. 0, burada Şərq konservatoriyasında tar müəllimi işləyir. 1921-ci ildə isə tarzən «Təbliğat qatarı» ilə Azərbaycanın bir çox yerlərində olur və zəhmətkeşlər qarşısında əlvan repertuarla çıxış edir.

1922-ci ildən Lazar Qabrielyan A. A. İoanesyanın rəhbərlik etdiyi orkestrdə səlist-tarzəm kimi işləyir, Zaqafqaziyanın bir çox şəhərlərində konsertlər verir. 1926-cı ildə isə həmin orkestrin tərkibində Moskva, Leninqrad şəhərlərinə qastrol səfərinə çıxır.

Məlum olduğu kimi, orkestr böyük şöhrət qazanmışdı. Dövri mətbuatda orkestrin solistləri, o cümlədən Lazar haqqında da rəylər dərc edilmişdi. Musiqişünas Serkey Boquslavski (Moskva) Lazarı «İncə musiqiçi, böyük virtuoz», professor Xeyfets (Leninqrad) isə onu «Böyük musiqi ustadı» kimi qiymətləndirmişlər.

Lazar Qabrielyan Azərbaycan radiosunun ilk solist tarzənlərindən biri idi. O, hələ 1925-ci ildə radioda konsertmeyster olmuş, həm, də burada orkestr təşkil etmişdi. O zaman radionun orkestrində Qurban Pirimov, Qrişa Babalov, Aşot Ayranetov, sonralar isə Qılman Salahov, Səid Rüstəmov, Firidunbəyli, Ağası Məşədibəyov, Adil Gəray çıxış edirdilər. Lazar həmin orkestrə 1932-ci ilə kimi rəhbərlik etmiş və radioda ilk dəfə Cabbarı, Ələsgəri tarda müşayiət etmişdi.

1931-ci ildə bəstəkar Üzeyirbəy Hacıbəyov «Notlu Şərq orkestri» yaradarkən Lazarı da bir mahir tarzən kimi orkestrin tərkibinə qəbul etmişdi.

Üzeyirbəyin rəhbərliyi altında çalışan tarzən az vaxt içərisində not savadına yiyələnmiş, beləliklə digər qardaş xalqların da musiqisini repertuarına salmışdı.

Lazar Ayranetoviç 1932-ci ildən Bakının bir çox fəhlə klublarında tar dərsi demiş. Dövlət Filarmoniyasında isə Cabbar Qaryağdı oğlunu, Zülfü Adıgözəlovu və Yavər Kələntərlini tarda müşayiət etmişdi.

Məharətli tarzən bacarıqlı dirijor və təşkilatçı kimi də ad-san çıxartmışdı. O, 1933-cü ildə Serqo Orçonikidze adına Azərbaycan diviziyasının nəzdində hərbiçi-musiqiçilərdən ibarət «Şərq orkestri» yaratmışdı. Lazarın orkestri 1934-cü ildə birinci Zaqafqaziya olimpiadasında məharətlə çıxış etmişdi. Həmin orkestr Qızıl Ordunun hərbi hissələrində böyük müvəffəqiyyətlə konsertlər vermişdi.

Lazar Qabrielyan Bakı zabitlər evində hərbi qulluqçuların ailə üzvlərindən ibarət (22 nəfər qadın) «Şərq ansamblı» da yaratmışdı. Ansambl hərbi hissələrdə verdiyi konsertlərlə şöhrət qazanmışdı.

Lazar Qabrielyan bacarıqlı bir bəstəkar kimi də musiqi ictimaiyyəti arasında şöhrət qazanmışdı. Onun bir çox mahnıları məşhurdur. Onlardan «Çiçəklənən Azərbaycan», «Bizim kənddə», «Bahar», «Komsomolçu qız», «Bülbül» və s. xatırlatmaq olar.

Böyük Vətən müharibəsinin ağır illərində Lazar Qabrielyan sədəfli tarını döşünə basıb Qızıl Ordu hissələrində, hərbi xəstəxanalarda yaralı döyüşçülər qarşısında konsertlər vermişdi. O, «Cəbhə təbliğat briqadası»nın tərkibində Azərbaycanın xalq şairi səməd Vurğun, xanəndələrdən Zülfü Adıgözəlov və Cavahir Şuşinskaya ilə birlikdə Döyüşən Ordu hissələrində çıxış etmişdi. O, sənət ordusu hissələrində və hərbi xəstəxanalarda yüzlərlə konsert verməklə bərabər maddi və mənəvi köməyini də əsirgəməmişdir. 1943-cu ilin dekabr ayında incəsənət işçilərinin yardımı ilə Bakıda «Tank kolonnası» yaradılarkən Lazar Qabrielyan 10000 manat yardım etmişdi.

Azərbaycan musiqi mədəniyyəti sahəsində görkəmli xidmətlərinə görə, o dəfələrlə fəxri fərmanla, medallarla təltif edilmişdir.

...Mən Lazarın çalğısını ilk dəfə 1948-ci il 17 avqustda «İsa bulağı»nda, Şuşa sakini Məmmədalı oğlu İsinin məclisində eşitmişəm. O zaman Lazar məclisə xanəndə Zülfü Adıgözəlov, kamançaçı Vaqo Melkumovla dəvət olunmuşdu. Məmmədalı oğlu İsi təbiətən səxavətli, əliaçıq, qonaqpərvər və musiqiyə, şerə qiymət qoyan açıq-fikirli şəxslərdən biri idi. Qardaşı Bahadır isə son dərəcə baməzə, məzəli, əhli-kef və zarafatcıl idi. O, həmin məclisdə masabəyi idi.

İndiki kimi yadımdadır. Məclis düz-üç gün davam etdi... Sərin meşə, təmiz hava, göz yaşı kimi şəffaf soyuq bulaq suyu adamı riqqətə gətirirdi. Bir yandan da Zülfünün insanın ruhunu oxşayan məlahətli səsi, nəinki dinləyiciləri, hətta meşədə cəh-cəh vuran bülbülləri belə valeh etmişdi.

Zülfünün öz dəstəsilə «İsa bulağı»nda olmasından xəbər tutan musiqi azarkeşləri nəinki Şuşadan, hətta Ağdam və Bərdədən belə, «İsa bulağı»na axışıb gəlirdilər.

Maraqlı burasıdır ki, avqust günlərində «İsa bulağı»na gələn xanəndələrik heç biri çalıb-oxumağa sürət etməyərək, yalnız Zülfünü dinləmək, onun təkrarolunmaz guşə və xallarını qavramaq üçün bizim məclisin ətrafındakı «səkilərə» toplaşmışdılar. Zülfü yorulmaq bilmirdi. Hərdənbir tənəffüs elan edildikdə Lazar tarını götürürdü. Axırda masabəyi Bahadır Məmmədalı oğlu narazı halda:

- Hinker* Lazar, Zülfüdən sonra nə etmək istəyirsən?!

Lazar masabəyinin baməzə olduğunu yaxşı bilirdi. Ona görə də özünü itirməyib dedi:

- Zülfü «segah»ı ilə İsa bulağının bülbüllərini yatırtdı, mən isə onları oyatmaq istəyirəm.

.

Masabəyi:

- Nə ilə oyadacaqsan?

- «Orta mahur»la.

- Onda başla!

Məlumdur ki, tarzənlər üçün «Orta mahur» ciddi imtahandır. Hər tarzən «Orta mahur»u olduğu kimi çala bilmir. Lazar isə «Orta mahur»u olduqca temperamentlə çalırdı. Xüsusilə çingənə simlərdə gəzişməyi misilsiz idi... Lazar muğamın «Vilayəti» şöbəsində gəzişəndə, məclisin hər tərəfindən: «Əhsən, belə barmaqlara eşq olsun» sədaları ucalırdı.

Lazar muğamı başa vuranda hamı onu alqışladı... Məclis sahibi hamının adından Lazarı təbrik edib mükafatlandırdı...

Son vaxtlar qoca tarzən Bakının «Şərq» və «Tbilisi» restoranlarında çalırdı. Onun pərəstişkarları hər axşam həmin restoranlara yığışar, qoca tarzəni dinləməkdən doymazdılar... O, yenə də cavanlıq ehtirası ilə çalırdı.

Mahir tarzən Lazar Qabrielyan 1965-ci ildə Bakıda 75 yaşında vəfat etdi.

---

* Hinker – ermənicə «yoldaş» deməkdir.

# Musa Şuşinski



İSTEDADLI xanəndə Musa Fərhad oğlu Şuşinski Azərbaycan musiqi mədəniyyətinin görkəmli nümayəndələrindən biridir. O, 1893-cü ildə Şuşa şəhərində dabbaq Fərhad Məmi oğlunun ailəsində anadan olmuşdur. Fərhad kişi öz sənətini oğluna öyrətmək arzusu ilə onu şəhər məktəbinin ikinci sinfindən çıxarıb öz yanında işlətmişdi. Sonralar öz gənclik illərini xatırlayan Musa Şuşinski deyirdi: «Mənim 10 yaşım tamam olanda məktəbə getmişəm. Lakin cəmi iki il oxuduqdan sonra atam məni məktəbə qoymadı.

- Bəsdir, oxudun, - dedi - molla olmayacaqsan ki, gəl mənə kömək et, həm də sənət öyrən!

Mən 20 yaşına qədər atamdan dabbaqlıq sənətini öyrənir, həm də dabbaqlıq edirdim. Bütün bunlara baxmayaraq mənim həvəsim musiqiçi olmaq idi. Mən gözümü açıb ilk dəfə məhəllə toylarında Cabbar Qaryağdı oğlunu, Keçəçi oğlu Məhəmmədi eşitmişəm. Onların gözəl oxumaları məni də xanəndəlik sənətinə sövq edirdi. Mən əvvəllər Cabbarın, Ələsgərin və Keçəçinin qrammofon vallarına saatlarla qulaq asar və dükanda dəri aşılayarkən öz-özümə zümzümə edərdim.

Bir gün dükanda heç kəs yox idi. Mən özüm üçün oxuyanda, demə dayım xanəndə Məmmədqulu dükanın yanında durub mənim oxumağımı eşidirmiş. Bu hadisə mənim xanəndə olmağıma səbəb oldu. Dayım evdə bir qədər mənimlə məşğul olduqdan sonra özü ilə şəhərin «Erməni hissəsi»ndə olan toy məclislərinə apardı. Mən ilk dəfə toyda məşhur tarzən Balaca Qrikor və kamançaçı Makiç ilə çıxış etmişəm. Mən o vaxtları Cabbarın qrammofon vallarından öyrəndiyim «Heyratı», «Kürdü» və «Arazbarı»nı, Keçəçidən «Bayatı-Qacar»ı, Şəkili Ələsgərdən «Rahab»ı oxuyardım. Sonra bir neçə vaxt məşhur qarmonçalan Abutalıb və Ağalar ilə şəhərin gəzməli yerlərində qurulan məclislərə gedərdim».

1912-ci ildə Musa «Qarğa» ləqəbi ilə məşhur olan qarmonçu Məşədi Müseyib ilə Gəncə şəhərinə gedir. Orada gənc xanəndə Məşədi Müseyibin vasitəsi ilə Əbdülbaqi (Bülbülcan), Malıbəyli Həmid, Məşədi Cəmil Əmirov kimi dövrünün görkəmli musiqiçiləri ilə dostluq əlaqəsi yaradır. Musa Şuşinskinin ustad xanəndə kimi inkişafında Malıbəyli Həmidin böyük xidməti olmuşdur. Musa Şuşinski özü də bunu etiraf edir: «Mənim bir xanəndə kimi tanınmağımda və bu sənətə yiyələnməyimdə hörmətli müəllimim Həmidin əməyi çoxdur. Mən Həmiddən «Rast», «Orta segah», «Humayun», «Şüştər» muğamlarını tamam-dəstgah öyrəndim. Onu da deyim ki, Həmiddən sonra mənim ikinci müəllimim

tarzən Məşədi Zeynal olmuşdur. Məşədi Zeynal ilə Həmidin öyrətdiyi muğamları çalıb, oxumaqla get-gedə muğam musiqisinə yiyələndim».

Musa Şuşinski 1915-ci ilin sonuna kimi əvvəllər Məşədi Cəmil, sonralar tarzən Mədrüs və kamançaçı şuşalı Böyükkişi ilə Gəncə, Qarabağ, Şəki mahallarında çalıb-çağırmışdır. Musanın məlahətli səsi, şirin guşələri; boğazda qaynatmaları, həm də Həmidin yolu ilə oxumağı dinləyiciləri valeh edərmiş.

Çox keçmədən istedadlı musiqiçinin şöhrəti Gürcüstana da yayılır. 1916-cı ildə Musa Şuşinski «Auditoriya» klubu tərəfindən Tiflis şəhərinə dəvət edilir. O, burada məşhur müğənni Seyid Şuşinski ilə birlikdə konsert verir. Konsertdə Musa Şuşinski tarzən Rzabala və kamançaçı Ruben Qaraxanovun müşayiəti ilə «Rast» muğamını məharətlə ifa edir və dinləyicilərin rəğbətini qazanır.

Musa Şuşinski də, bəzi görkəmli xanəndələrimiz kimi, Azərbaycan teatr sənətinin inkişafında böyük rol oynamışdır. O, Tiflisdə yaşadığı illərdə (1916-1920) «Auditoriya» klubunda Əli Qurbanov, Ələkbər Seyfi, İbrahim İsfahanlı, Olya və Asya xanım kimi məşhur artistlərlə opera və operetta tamaşalarında Kərəm, Sərvər, Əsgər rollarında çıxış etmişdir. O dövrün teatr afişalarında Musa Şuşinskinin adına tez-tez rast gəlirik. Məsələn, 1919-cu il 26 iyunda Tiflis müsəlman dram cəmiyyəti olan İttihad (birlik) ittifaqı Ü. Hacıbəyovun «O olmasın, bu olsun» musiqili komediyasını tamaşaya qoyarkən Sərvər rolunu Musa Şuşinski oynamışdır. Musa Şuşinski teatr tamaşalarının fasilələrində tarzən Balaca Qrikor və kamançaçı Ruben ilə birlikdə çıxış da etmişdir.

1920-ci ildə Azərbaycanda Sovet hakimiyyətinin qələbəsindən sonra Musa Şuşinski Gəncə şəhərinə qayıdır, burada təzəcə yaradılmış xalq teatrında Məşədi Cəmil Əmirov, Malıbəyli Əsgər və Bülbül ilə birlikdə çalışır. O, 1921- 1922-ci illərdə «Təbliğat qatarı» ilə Gəncə mahalını gəzib, zəhmətkeşlər qarşısında zəngin repertuarla çıxış edir.

Musa Şuşinski Gəncənin mədəni həyatında görkəmli rol oynamışdır. O, həm şəhər xalq teatrında bir opera artisti kimi çıxış edir, həm də təzəcə açılmış musiqi məktəbində muğamatdan dərs deyirdi.

1932-ci ilin yayında Musa Şuşinski Üzeyir Hacıbəyov tərəfindən Bakıya dəvət edilir. O zaman məşhur bəstəkarın rəhbərliyi ilə şəhərin Rote-Fane (indiki Nizami adına) parkında «Şərq konsertləri» təşkil olunurdu. Həmin ilin iyul ayında Musa Şuşinski də Bakı tamaşaçıları qarşısında çıxış etmişdi».[311]

Şərq muğamlarını və qədim el nəğmələrini böyük ustalıqla ifa edən xanəndə dinləyicilərin hörmətini qazandığından ikinci dəfə həmin ilin iyul ayında Müdafiə Evinin (indiki Dövlət Filarmoniyası) binasında tarzən Lazar Qabrislyan və kamançaçı Armenak Şuşinskinin müşayiəti ilə «Bayatı-Şiraz», «Zabul», «Çahargah» muğamlarını özünəməxsus incəliklə oxumuşdur.

---

[311] Bax: «Yeni yol» qəzeti, 16 iyul 1932-ci il, № 163.

Görkəmli müğənni Bakıya ikinci dəfə 1947-ci ildə Dövlət Radio Verilişləri Komitəsi tərəfindən dəvət olunmuşdu. O, radioda tarzən Hacı Məmmədovun müşayiəti ilə bir neçə muğam və təsnif oxumuşdur.

Musa Şuşinski harada olursa-olsun Azərbaycan musiqisinin mahir bir təbliğatçısı kimi çıxış edərdi. O uzun illər Gəncə Dövlət Filarmoniyasında və teatrında bir xanəndə-artist kimi çalışmışdı. O, 1957-ci ildən ömrünün axırına kimi Gəncə Musiqi məktəbində səs sinfində müəllimlik edir, gənc xanəndələr nəslinin tərbiyəsi ilə məşğul olurdu.

Musa Şuşinski klassik Azərbaycan xanəndələrinin gözəl ənənələrini davam etdirən sənətkarlarımızdan biri idi. O, milli musiqi mədəniyyətimizin tarixində şirin ləhcəli, incə guşəli bir sənətkar kimi məşhurdur. Onun muğamları ifa edərkən vurduğu incə guşəxanlıq Əbdülbaqi Zülalov, Cabbar Qaryağdı oğlu kimi böyük müğənnilərin nəzər-diqqətini cəlb etmişdi. Musa Şuşinski «Rast» və «Segah» kimi xalq arasında çox yayılmış muğamları ifa edərkən özünü Həmidin və İslamın ənənələrinin ən görkəmli davamçısı kimi göstərmişdi.

Görkəmli xanəndə Musa Şuşinski 1971-ci il yanvar ayının 25-də Gəncə şəhərində vəfat etmişdir.

## Kor Əhəd



QARMONÇALAN Kor Əhədin adı Azərbaycanın çalğı musiqisi tarixində hörmət və milli iftixar hissilə çəkilir. O öz dövrünün istedadlı sənətkarlarından biri idi.

Əhəd Fərzəli oğlu 1893-cü ildə Bakı şəhərində yoxsul bir ailədə dünyaya gəlmişdir. Əhədin nə ailəsində, nə də qohum-əqrabasında musiqi aləmi ilə bağlı adam olmamışdır. Onun musiqi aləminə gəlişi təsadüfən, özü də fasiəli bir hadisə ilə əlaqədardır. Balaca Əhəd hələ iki yaşında olarkən göz xəstəliyinə tutulur. Həkimlərin səyi, ciddi müalicələr bir nəticə vermir. Üç yaşlı Əhədin gözləri tamam tutulur. Bu, ailədə böyük fəlakətə çevrilir. Əhədin altı yaşı tamam olanda anası ona 7 dilli balaca bir qarmon alır. Anasının bu tədbiri balaca Əhədin hədsiz sevincinə səbəb olur. Şikəst uşaq gecə-gündüz kiçik barmaqlarını qarmonun dillərinə toxundurduqca, hədsiz dərəcədə sevinərdi. Çünki qarmon onun üçün yeganə təsəlli, həmsöhbət idi.

Balaca Əhədin musiqi müəllimi olmamış, heç kəs ona «bu barmağı belə vur» deyib kömək etməmişdi... Onun yeganə «məktəbi» məhəllə toyları, bir də qrammofon valları idi. Qonum-qonşuda toy olanda anası Əhədi də özü ilə qadın toylarına aparardı. O dövrdə Bakıda qadın toylarında musiqiçi dəstələri əsasən qarmonçalandan və zurna-balabançıdan ibarət olardı. Qadınların əksəriyyəti qarmonla çalınan havaları oynamağa daha çox meyl edərdilər. Qarmonda daha

şirin və rəvan səslənən «Mirzəyi», «Tərəkəmə», «Vağzalı», «Qızılgül», «İnnabı», «Uzundərə» kimi oyun havaları daha çox dəbdə idi. Balaca Əhəd də qarmonçalana yaxın yerdə oturar, sonsuz həvəs və məhəbbət hissilə çalınan havaları dinləməkdən doymazdı. Gözlərini itirmiş uşaqda ətraf mühiti duymaq hissi güclü idi. Bu, ona dərin musiqi yaddaşı, çalınıb-oxunan mahnı və havaları qavramaq imkanı verirdi. O, toydan evə qayıdan kimi qarmonu ələ alıb eşitdiyi, həm də xoşladığı yeni havanı çalıb öyrənərdi. Şübhəsiz ki, Əhədin tədricən qarmonçu olmağında məşhur qarmon ustası Kərbəlayı Lətifin qrammofon vallarının da az-çox təsiri olmuşdur. Əhəd saatlarla qrammofonda Lətifin çalğısına qulaq asar, onun sənətinin sirrini öyrənməyə çalışardı.

Əhəd 13-15 yaşlarında 14 dilli qarmonda çalmağa başlayır. Onu tez-tez qonum-qonşu yığıncaqlarına, ailə şənliklərinə dəvət edirlər. Əhədin oyun havalarını sərbəst, özünəməxsus məharətlə, həm də təsirli çalması onu dinləyənləri valeh edirdi.

Bakı toylarında Cabbar Qaryağdı oğlunu, Seyid Mirbabayevi, Keçəçi oğlu Məhəmmədi, İslam Abdullayevi sonsuz həvəs və maraqla dinləyən gənc qarmonçu bu klassik xanəndələrin guşə və xallarını qarmonda yerli-yerində vurmaqla dinləyicidə belə bir duyğu oyadırdı ki, onun sehrli barmaqları altında qarmon dil açıb oxuyur. Əhəd 16 yaşından mahir bir çalğıçı kimi qadın toylarına dəvət edilir. Bu toylarda Əhədin gözəl çalğısını Zeynəb adlı bir qadın dəfdə müşayiət edərdi. Əhəd bir neçə il dəfçi Zeynəb ilə Bakı-Abşeron toylarında çıxış etdikdən sonra artıq 20 yaşında kişi toylarına dəvət olunur. Az bir vaxt içərisində Əhəd elə şöhrət qazanır ki, onu hətta Şirvan-Muğan məclislərinə belə dəvət edirlər. Əhəd başqa bir şəhərə və ya kəndə dəvət olunduqda çox çətinliklə Bakıya qayıdardı. Çünki onun çalğısından doymazdılar. Hamı onun qeyri-adi, şirin, duzlu çalğısından vəcdə gələrdi. Onu dinləyən bir də dinləmək istərdi. Çünki Əhəd qarmonun ecazkar, məlahətli səsi ilə dinləyiciləri məftun edər, sehirləyib kədər, sevinc və anlaşılmaz duyğular aləminə çəkib aparardı.

Əhəd təkcə qarmonçalan olmamışdır. O, eyni zamanda saz, piano, tar və tütək alətlərində el havalarını məharətlə çalırdı. Əhəd bir saz ustası kimi bütün Azərbaycanda məşhur idi. Bir çox xanəndələr toy məclislərinə dəvət olunarkən mütləq Əhəd ilə çalıb-çağırmağı münasib bilirdilər. Çünki Əhəd həm xanəndəni tarda müşayiət edər, həm də qarmonda oyun havalarını çalardı. Təsadüfi deyildir ki, Əhədin istər qarmonda, istərsə də tarda və sazda virtuoz çalğısı böyük müğənni Cabbar Qaryağdı oğlunun diqqətini belə cəlb etmişdi. O, Əhədi də özü ilə toylara aparırdı. Əhədin «Segah» muğamını qeyri-adi zövq və hünərlə, özünəməxsus incəliklə çalması Cabbar Qaryağdı oğlunu valeh edərdi.

Məşhur sənətkarlar kimi Əhədin də öz dəstəsi vardı: tar, qarmon, dəf və qoşanağara alətlərində çalan musiqiçilər bu dəstəyə daxil idilər. Əhədin şagirdi

məşhur qarmonçu Teyyub Dəmirov əvvəllər onun dəstəsində uzun illər dəfçalan olmuşdur.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Əhədin qarşısında geniş inkişaf perslektivləri açıldı. İstedadlı qarmonçu fəhlə klublarında, mədəniyyət evlərində, geniş konsert salonlarında öz gözəl çalğısı ilə xalqın mənəvi-estetik zövqünün inkişafına xidmət göstərir.

Görkəmli bəstəkar Müslüm Maqomayev onu radioda çalmaq üçün dəvət edir. 1927-1933-cü illərdə Əhədin sehrli qarmonunun xoş səsi efirlə bütün Azərbaycana yayılır, kənd və şəhərlərdə minlərlə dinləyicini məftun edərdi… Əhədin Azərbaycan rayonlarına qastrol səfəri musiqi həvəskarlarının hədsiz sevincinə səbəb olardı. Hamı təkrarolunmaz sənətkarın ecazkar çalğısını dinləməyə can atardı. Əhədin konsertləri olduqca təmtəraqlı keçərdi. Hətta bəzi rayonlarda yerli radio qovşağı vasitəsilə onun konsertlərini təşkil edərdilər.

Əhədin gözəl qarmon, tar, saz çalmağını və istedadlı bir musiqiçi olduğunu nəzərə alan Üzeyirbəy Hacıbəyov onu 1931-ci ildə Azərbaycan radiosunun «Notlu Şərq orkestrinə» dəvət edir. O zaman Qurban Pirimov, Lazar Qabrielyan, Tutu Kərimova, Xosrov Məlikov, Səid Rüstəmov, Qılman Salahov, Xalıq Babayev kimi məşhur musiqiçilər bu orkestrə cəlb olunmuşdular. U. Hacıbəyov Əhədin sənətkarlıq qabiliyyətini yüksək qiymətləndirərdi. Təsadüfi deyildir ki, belə bir orkestrdə «Şur» muğamının «Bayatı-Qacar» şöbəsi, «Rast»ın «Şikəsteyi-fars», «Çahargah»ın «Bəstə-nigar» şöbələri ifa ediləndə solo çalmaq Əhədə həvalə edilərdi. Əhəd bütün muğamları özünəməxsus fərdi xüsusiyyətlə çalardı. Lakin «Bayatı-Qacar»ı son dərəcə şirin, oynaq və təsirli çalardı... Muğamlar içərisində «Bayatı-Qacar»ın xüsusi yeri var. Bu muğamda incə nəvaziş, ürək çırpıntıları, kədər və qüssə motivləri daha çoxdur. Təsadüfi deyildir ki, böyük müğənnimiz Seyid Şuşinski deyərdi ki, «Bayatı-Qacar» sonsuz dərd aləmini ifadə edən muğamdır. Xanəndə onu həzin ifa etməlidir.

«Bayatı-Qacar» insanın ruhi aləminin həyəcan və iztirabları ilə yanaşı, onun sevincini də ifadə və tərənnüm edir. Bu muğamda incə notlar, lirik ahənglər, titrək tellər, bir sözlə, dinləyicinin qəlbini oxşayan psixoloji duyğular daha çoxdur.

«Bayatı-Qacar» muğamında improvizə elementləri daha çox olduğuna görə ifaçıya geniş meydan açır. «Bayatı-Qacar»ı istər oxuyan, istərsə də çalan musiqiçinin son dərəcə həm texniki ustalığı, həm də bədii ifaçılıq məharəti olmalıdır. Gözəl ifaçılıq üslubuna, həm də çalğı texnikasına tam yiyələnmiş Kor Əhəd bu muğamın xarakterik xüsusiyyətlərini mükəmməl duyaraq öz təkrarolunmaz çalğısı ilə rəngarəng melodik bəzəklər, dinamik naxışlar vurur, onun daha gözəl, şirin və duzlu səslənməsinə nail olurdu.

Musiqi alətlərində, xüsusilə qarmonda çalınan muğam o zaman dolğun səslənə bilər ki, orada xanəndə nəfəsi, guşə və xalları hiss olunsun. Bu əlamətlər olmadıqda çalğı öz şirinliyini itirir. Buna görə də çalğıçı texniki üstünlüyü

unutmamaqla, həm də havanın melodikliyini, bədiiliyini də nəzərə almalıdır. Məhz Əhədin çalğısında bu iki keyfiyyət həmişə özünü göstərmişdir.

Əhədin çalğısı bir də ona görə seçilirdi ki, onun çalğı texnikası bədii ifaçılıqla məharətlə birləşərək çalınan havanın melodik imkanlarını artırırdı. Buna görə də onun çalğısı təsirli olurdu. Cəsarətlə demək olar ki, Əhəd Bakının musiqi tarixində ilk sanballı qarmonçudur. Doğrudur, Bakıda az-çox bacarıqlı qarmon çalanlar olmuşdur. Lakin heç kəs Əhəd qədər Azərbaycan musiqisini dərindən bilməmiş və onu geniş xalq kütlələri arasında təbliğ etməmişdir. Əhəd bütün hissi, varlığı ilə Azərbaycan xalq musiqisinin vurğunu idi. Onun xəmiri, necə deyərlər, musiqi ilə yoğrulmuşdu. Əhəd məsum uşaqkən gözlərini itirdisə, musiqi ona yeni bir «göz» bəxş etdi. O, ətraf mühiti, həyatı, insan münasibətlərini, musiqi duyğusu ilə dərk edir, görürdü. Məhz Əhədin fikir və düşüncələrini, ürək çırpıntılarını qarmonu ifa edirdi. Onu dinlədikcə adamlar həyəcanlanır, özünü unudur, eyni zamanda gah kədərlənir, gah da sevinirdi. Beləliklə, Əhəd öz məftunedici çalğısı ilə onu dinləyənlərin iztirablarını yüngülləşdirərək qəmdən, qüssədən xilas etməyə çalışardı.

Əhəddə təşkilatçılıq bacarığı da var idi. O, 1934-1935-ci illərdə Əbilov adına klubda ansambl təşkil etmişdi. Azərbaycan Dövlət Filarmoniyasında «sazçı qızlar ansamblı»nın əsas təşkilatçılarından biri də Əhəd olmuşdu. O, həm qızlara



Şəkildə: Kor Əhəd (soldan birinci) öz dəstəsi ilə. (Bakı, 1940-cı il).

saz çalmağı öyrədir, həm də ansamblın solisti kimi fəaliyyət göstərirdi.

1938-ci ildə Azərbaycan musiqiçilərindən bir qrup ifaçının, o cümlədən Əhədin qarmonda «Segah»ı, sazda «Çahargahı» qrammofon vallarına yazıldı. Təəssüf ki, bu cür kamil və son dərəcə virtuoz qarmonçunun təkcə «Segah»ı vala köçürülmüşdür. Bu gün bizə yeganə-təsəlli olan bu val musiqi xəzinəmizin ən nadir incilərindən biridir. Öz şirin, təsirli və həzin çalğısı ilə qəlbləri əsir edən Əhəd «Segah»ı ilə Azərbaycan çalğı sənətini bir daha yüksəklərə qaldırmışdır. Əhədin «Segah»ının üstünlüyü bir də onunla izah olunur ki, onun çalğısı başdan-ayağa xanəndə guşə və nəfəsləri ilə doludur. Son dərəcə improvizə elementlərinə malik olan qarmonçu, texniki üstünlüklərə uymayaraq, bədii çalğı formalarını daha üstün tutaraq «Segah»ın bütün sirlərini açıb dinləyiciyə çatdıra bilmişdir, Məhz buna görə də dinləyici Əhədin çalğısından doymur, onu dönə-dönə dinləmək istəyir. Əhədin «Segah»ı insanı həm düşündürür, həm də yaşamaq, yaşatmaq meyllərini gücləndirir. Bir sözlə, Əhədin sehrli barmaqları dinləyicini ovsunlayıb onun qəlbini titrədir, ürəyində qəribə həyəcanlı hisslər oyadırdı...

Əhədin saz çalmağı da məşhur idi. O, saz havalarını elə məharətlə çalardı ki, virtouz saz aşıqları belə onun saz çalmağına həsəd aparardılar. Əhəd sazda bütün aşıq havalarını, həm də muğamları özünəməxsus ustalıqla ifa edərdi. Xüsusilə, onun sazda çaldığı «Yanıq Kərəm»i dillərdə dastan idi.

«Yanıq Kərəm» böyük bir əsərdir. Cəsarətlə demək olar ki, «Yanıq Kərəm»də xalq musiqisinin, aşıq yaradıcılığının ən incə, dolğun, zəngin nümunələri toplanmışdır. «Yanıq Kərəmi» havasının xarakterik xüsusiyyətlərini bütün incəliyinə qədər duyan Əhəd bu qədim el havasını sazda elə məharətlə çalardı, ona elə melodik bəzəklər vurardı ki, dinləyicilər heyrətə gələrdilər.

Böyük konsertlərə və musiqi məclislərinə tez-tez dəvət olunan Əhəd özü ilə sazını da aparardı. Çünki o, yaxşı bilirdi ki, dinləyicilər qarmonda onun «Segah»ına qulaq asdıqdan sonra sazda da «Yanıq Kərəmi» çalmağı tələb edəcəklər.

Əhəd qarmonda klassik muğamları nə qədər gözəl və məharətlə çalırdısa, oyun havalarını da bir o qədər sənətkarlıqla ifa edərdi. Onun özünəməxsus əda ilə çaldığı «Tərəkəmə» havası daha məşhur idi. Əgər muğamlar içərisində «Segah» bizim üçün nə qədər yaxın və əzizdirsə, oyun havaları içərisində də «Tərəkəmə» bir o qədər əzizdir. Əhədin virtuoz çalğısını, xalq musiqisini gözəl bilməsini nəzərə alan Ü. Hacıbəyov onu opera teatrına işləməyə dəvət etmişdi. Əhədin qızı Leyla xanım bu hadisəni belə nəql edir:

«Atamın xətrini Üzeyirbəy çox istəyirdi. Bizim evə Cabbar Qaryağdı oğlu, Müslüm Maqomayev, Qurban Pirimov, Zülfü Adıgözəlov tez-tez gələrdilər. Rəhmətlik Cabbar əmi atamın «Bayatı-Qacar» çalmasını çox xoşlardı. Zülfü üçün isə o, həmişə «Segah» çalardı. Maraqlı burasıdır ki, atam «Segah»da vurduğu barmaqları sonra tarda vurardı, bu da Qurban əmini çox təəccübləndirərdi. Qurban

əmi çox mehriban, həm də zarafatcıl kişi idi. Atam «Segah»ı çalıb qurtaran kimi tarı atama uzadıb deyərdi:

- Əşi, sən mənim canım o barmaqları tarda da vur.

Sonra atamı qucaqlayıb zarafatyana deyərdi:

- Əşi, bu ərəbi-qiblə haqqı sən məndən yaxşı çalırsan.

Bir gün Teyyub gəlib atama dedi ki, ustad, bəs Üzeyirbəy sizi evinə dəvət edir.

Axşam mən atamın qolundan tutub Üzeyirbəygilə apardım. Üzeyirbəy bizi çox mehribanlıqla qəbul etdi. Süfrəyə çay gəldi.

Üzeyirbəy bir qurtum çay içib sağ əli ilə bığını tumarlayıb atama dedi:

- Oğlan, dünən radioda «Tərəkəmə» çalırdın, çox xoşuma gəl-

din. Sənin «Tərəkəmə»n başqalarınkına bənzəmir. Ona görə belə qərara gəldim ki, səni opera teatrına dəvət edəm. Hə, qoçaq, razısanmı?

Atam bir qədər tərəddüd etdikdən sonra dilləndi:

- Ay Üzeyirbəy, mən qarmon ilə operada nə edəcəm?

Üzeyirbəy bir də bığını tumarlayıb dilləndi:

- Heç nə. «Arşın mal alan»ın axırıncı toy pərdəsində oyun havalarını, daha doğrusu, «Tərəkəmə»ni sən çalmalısan. Bir bunun xatirinə səni operaya dəvət edirəm. - Sonra Üzeyirbəy ayağa durub sağ əlini atamın çiyninə qoyub sözünə davam etdi:

- Hə, qoçaq, razısanmı?

Atam Üzeyirbəyə öz təşəkkürünü bildirib, axırda zarafatla dedi:

- Neynək, bəyin sözündən çıxmaq olmaz.

Sabahı maşın gəldi, atamı apardılar operaya».

1930-1940-cı illər Əhədin yaradıcılığı üçün ən məhsuldar dövr olmuşdur. İstedadlı sənətkar son on il ərzində Azərbaycan Dövlət Filarmoniyasında, opera teatrında, radioda və digər musiqi müəssisələrində yorulmadan fəaliyyət göstərmiş, Azərbaycan çalğı musiqisinin inkişafına var qüvvə ilə kömək etmişdir. Əhəd onlarca bacarıqlı qarmonçu yetirmişdir. Onun şagirdlərindən Teyyub Dəmirov, Fatma, Səfərəli Vəzirov, Məmmədağa Ağayev və başqaları sonralar bir qarmonçu kimi məşhur oldular. Onlar Əhəd sənətinin ləyaqətli davamçıları idilər.

İstedadlı musiqiçi Əhəd Fərzəli oğlu 1942-ci ildə Bakıda 49 yaşında vəfat etmişdir.

# Pəsxan Cəlil



1938-ci ilin yay günləri idi... Aran rayonlarının istisindən qaçanlar səfalı Şuşa qalasının sərin ab-havasına pənah gətirmişdilər. Şəhərdə adam əlindən tərpənməyə yer yox idi. Yüzlərlə ailə kərayə ev tapa bilmədiklərindən şəhərin ətraf seyrəngahlarında alaçıqlar qurmuşdular. Şuşanın «Çanaxqala» seyrəngahı daha tünlük idi. Axşamçağı dəstə-dəstə qız-gəlinlər, yüzlərlə qonaq dincəlmək, təmiz hava almaq, xüsusən bülbültək cəh-cəh vuran xanəndələri dinləmək üçün buraya axışardılar. Axşamlar burada böyük canlanma olardı. Bu yerə xalq arasında bəzən «Ərim gəldi» də deyirlər. Ona görə ki, hər şənbə-bazar axşamları qız və gəlinlər buraya toplaşıb Aşağı Qarabağdan gəlməli olan nişanlılarının, ərlərinin yollarını gözləyirdilər... Bir çoxları da at «çıdırına» tamaşa etmək üçün toplaşardılar. Bu gün də burada böyük izdiham vardı...

Birdən «Çanaxqala»nın şimal-qərbində, Laçın yolunun «Erməni qəbiristanlığı» ilə kəsişdiyi dolayıda atlı dəstəsi göründü. Bunlar şəhərin «İsa bulağı», «Şəmilin bağı» və «Səkili bulaq» seyrəngahlarından qayıdanlar idi... Hamının nəzəri onlara tərəf yönəlmişdi. İndi atlılar «Çanaxqala» yolunda at çapacaqdılar. Bu atlılar içərisində Qarabağ cinsli xallı boz at seçilirdi. Boz at yerində oynaqlayır və ağzındakı yüyəni çeynəyib fınxırırdı. Boz at nə qədər gözəl idisə, onun üstündə şəst ilə oturan cavan daha yaraşıqlı idi. Əynində göy diaqanaldan şalvar, ayağında parıldayan şevro dərisindən uzunboğaz çəkmə, belində qızıl kəmər, başında qələmi gümüşü papağı olan 22 yaşlı ortaboylu, qonur gözlü, sərt baxışlı, enlikürəkli cavan oğlan şəhərin adlı-sanlı sakinlərindən birinin - Qəssab Şəmirin oğlu Qara idi. O, boz atı bir qədər oynatdıqdan sonra yüyəni buraxdı. Bütün «Çanaxqala»ya yığışan izdiham bir anlığa baxışlarını boz atın qaçışına dikdilər. Hətta qəhvəxanada işləyənlər, musiqiçilər belə «Çanaxqala»nın gədiyinə çıxıb boz atın ildırım sürətli qaçışına, Qaranın at belində göstərdiyi oyun və hünərə tamaşa edirdilər. Qabaqda qaçan boz at «Çapaxqala»nın qaşına çatanda xanəndə Cəlil boz atın qabağına yüyürüb qorxmaz sürüsünü bağrına basdı, boz atın gözündən öpdü. Bu isə təsadüfi deyildi. Çünki Cəlil Qaranın böyük qardaşları və özü ilə çox yaxın dost idi. Bir də bu dostluğu birə-beş artıran Qaranın gözəl tar çalmağı idi...

Həmişə xudmani məclislərdə Qara şirin çalğısı ilə Cəlili müşayiət edərdi... Bundan əlavə Cəlil yay ayları Şuşaya qonaq gələndə Qaragilin evinə düşərdi. O zaman Qaragilin evi şəhərin qərbində yerləşən «Köçərli məhəlləsi»ndə idi. Bu ikimərtəboli, səkkiz otaqlı, iri və yaraşıqlı zalı olan əzəmətli bir mülk idi. Ona Qəssab Şəmirin qardaşı, «qızıllı Məhəmmədin evi» də deyərdilər. Evin küçə

tərəfindən balaca bir eyvanı vardı. Xanəndə Cəlil burada yatıb dincələrdi... Hər gecə Qara ilə Cəlil gəzməkdən qayıdandan sonra çalıb-çağırardılar.

Yadımdadır, Qara tarı «Segah» üstündə kökləyən kimi Cəlil ağzını açıb:

Mən oxuyuram yar yuxudan oyansın.

Məndə olan məhəbbətə inansın –

sözlərini təkrar edən kimi ətraf evlərdən: «Ay can, ay can», «Sənə nənəm qurban» sədaları eşidilərdi.

Cəlil kim idi? Niyə ona «Pəsxan Cəlil» deyirdilər? Cəlil Məşədi Süleyman oğlu 1895-ci ildə Şuşa şəhərində anadan olmuşdur. Cəlilin atası Süleyman kişinin yaxşı səsi olduğundan hərdən bir qonum-qonşu məclislərində oxuyardı. Cəlilin böyük qardaşı Mürsəlin də olduqca zil səsi vardı.[312]

Balaca Cəlil 10-12 yaşlarında mədrəsədə yazıb-oxumağı öyrəndikdən sonra məktəbi tərk etmişdi.

Cəlil hələ uşaq ikən qardaşı Mürsəllə bir xanəndə kimi toy məclislərində iştirak edərdi. Qardaşı öndə olmayanda onun qavalını götürüb özü üçün çalıb-oxuyardı. O dövrdə Şuşada ildə bir yeni hava, təsnif dəbdə olduğundan gənc xanəndələr təzə havanı öyrənməyə can atardılar. Cəlil də həmin havaları hamıdan əvvəl oxumağa cəhd edərdi. Onun öyrəndiyi ilk hava «Qarabağda bir dənəsən» mahnısı? idi:

Qarabağda bir dənəsən,
Tovuz kimi məstanəsən,
Olum gözlərin qurbanı,
Etmə məni divanə sən.

Balaca Cəlil bu oymaq, şirin el havasını oxuyanda qonum-qonşu onun başına toplaşar: «Bir də oxu, bir də» - deyib onu təkrarən: oxudardılar. Cəlil olduqca sakit, mehriban, əliaçıq olduğundan məhəllə uşaqları onun xətrini çox istərdilər. Onlar çalışardılar ki, Cəlil ilə dostluq etsinlər. Buna görə də onların hər biri səhər-səhər qoyun-quzularını örüşə çıxardanda Cəlilgilin qapısı ağzında dayanıb onu çağırardılar... Cəlil öz kiçik dostları ilə şəhərin «Yel dəyirmanı», «Xəlfəli çayı» ətrafında quzu otarar və axşamlar evə qayıdanda yol uzunu dostları üçün oxuyardı. Cəlil yoldaşları ilə qoyun-quzu sürülərini ən çox «Səkili bulaq»

---

312 Mürsəl Məşədi Süleyman oğlu (1885) Qarabağda tanınmış xanəndələrdən biridir. O uzun illər qarmonçu Kərbəlayı Lətif ilə Şuşa məclislərində çalıb-çağırmışdır. Lakin bir xanəndə kimi Mürsəlin daimi oxuduğu yer «İsa bulağı»dır. Havaxt getsən Mürsəli orada görə bilərsən. Düz 75 ildir bu qocaman xanəndə «İsa bulağı»nda Qarabağ bülbülləri ilə yarışır... Yaşının 100 olmasına baxmayaraq qoca xanəndə sənət dostu kamançaçı Usta Şirinin müşayiəti ilə indi də cavanlıq ehtirası ilə oxuyur. Məşədi Mürsəl hər gün sübh tezdən piyada «İsa bulağı»na gedib, bir də axşam düşəndə qayıdır evinə. O, bu 75 ildə nə ata, nə də maşına minməmişdir - müəllif.

ətrafında otarardılar. Çünki yay-payız ayları bu məşhur bulağın üstündə Şuşanın çalıb-oxuyanları məclislər qurardılar. Cəlil də öz kiçik dostları ilə bulağın ətrafında olan «Əliksan bəyin bağı»ndakı tut ağaclarına çıxıb sonsuz həvəslə oxuyan xanəndələri dinləməkdən doymazdı. O zaman onun ən çox xoşladığı və sevdiyi xanəndələr Malıbəyli Həmid ilə Zabul Qasım idi. Xüsusilə, Həmidin «Yetim segah»ı onu hədsiz dərəcədə valeh edərdi... «Balaca xanəndə» gecə-gündüz öz üzərində çalışaraq Həmidin guşə və xallarını yerli-yerində vurmağa cəhd edər, gələcəkdə Həmid kimi xanəndə olmaq arzusu ilə yaşardı.

Artıq Cəlil 15-16 yaşlarında olanda atası onu özü ilə teatr tamaşalarına və toy məclislərinə aparırdı... Cəlilin ən böyük arzusu Cabbar Qaryağdı oğlunu görmək, bu məşhur sənətkarı dinləmək idi. Bir gün atası ona:

- Hazırlaş, axşam səni böyük bir toya aparacam. Oxuyan da sənin həsrətində olduğun Qaryağdı oğlu Cabbardı. Hələ deyirlər Seyid Şuşinski də gələcəkdir...

Cəlil Seyid adını eşidəndə təəccüblə soruşdu:

- Ata, Seyid yaxşı oxuyur, yoxsa Cabbar əmi? Məşədi Süleyman kişi gülümsəyib dilləndi:

- Oğul, Cabbardan dünyaya gəlməyib. Bunu rəhmətlik Hacı Hüsü də təsdiq edirdi. Amma Seyiddən də olmaz. Gör Seyid necə qabil xanəndədir ki, Cabbar Bakı məclislərinin birində onun oxumağından elə feyziyab olub ki, öz qavalını ona bağışlayıb. İndi gör sən nə qədər xoşbəxtsən ki, hər iki ulu xanəndəni dinləyəcəksən.

Atasının bu sözlərindən sonra axşamın düşməyini səbrsizliklə gözləyirdi...

1922-ci il payızın sərin günlərinin birində Şuşanın «Qurdlar»[313] məhəlləsində Qara Yasəmənin oğlu baqqal Həsənin qızı Səyyarənin toyu idi.[314] Bu toy yeddi gün davam etmişdi. Qara Yasəmən (Xan qızı Xurşidbanu Bəyim Natəvanın yaxın rəfiqələrindən biri) Qarabağda adı hörmətlə çəkilən qadınlardan biri idi. Bu təkəbbürlü, kişi vüqarlı qadın vaxtı ilə «tacirbaşı» olduğundan böyük hörmət sahibi idi. Dörd oğlu da ticarətlə məşğul olmaqla şəhərdə hörmət sahibi idilər. Buna görə də bunların toy məclisi adi məclislərə bənzəmirdi. Bu toyda demək olar ki, bütün Qarabağ iştirak edirdi. Baqqal Həsən son dərəcə xeyirxah, alicənab və əliaçıq adam olduğundan onun bütün Qarabağda hədsiz hörməti var idi.

Bunu demək kifayətdir ki, uzaqdan gələn qonaqların atları üçün şəhərin «Cıdır düzü»ndə - Dik Xanımın həyətində 500 axur düzəldilmişdi. Onlarca qulplu qazanlar yan-yana düzülmüş, yüzə qədər qoyun-quzu kəsilmiş, yüzlərlə turac-qurqovulun tükü yolunub təmizlənmişdi. Şəhərin Kəblə Məhərrəm, Balış kimi məşhur aşpazları, Məşədi Bəylər və sövdəgər İsmayıl kimi qabiliyyətli çayçıları

[313] «Qurdlar» Qarabağda yaşayan qədim türk tayfalarından birinin adıdır - müəllif.
[314] Qarabağda toy şənlikləri çox təmtəraqlı keçərdi. Toylar adi qayda üzrə üç. Yeddi, on dörd, bəzən isə 40 gr çəkərdi. Şübhəsiz, toyun çox çəkməsi toy sahibini maddi vəziyyətindən asılı idi - müəllif.

gələn qonaqlara xidmət üçün dəvət olunmuşdular. Bunlardan əlavə papiros kağızı qədər nazik lavaşlar bişirən məşhur Molla oğlu Hüseyn, paxlavasının şirinliyi adamın boğazını qovuşduran Kəblə Mehdi və dondurmaçı Təmbəki İbrahim də burada öz işləri ilə məşğul idilər.

Baqqal Həsənin məclisinə nəinki Qarabağ, hətta Şəki, Şirvan, Gəncə və Tiflisdən belə saysız-hesabsız qonaqlar dəvət olunmuşdu. Bunların arasında Əbdürrəhimbəy Haqverdiyev, Mirzə Cəlil, Həmidə xanım, Kərimbəy Mehmandarov, Süleyman Sani Axundov, Məhəmməd Ağa Müctehidzadə, Şelli Əsəd, həkim Mirzə Hüseyn, Çəmənli Məşədi Səfər, şair Nəriman əmi nə başqa mədəniyyət xadimləri də vardı.

Axşamdan bir az keçmiş Qara Yasəmənin güzgülü zalında məclis qızışmışdı. Cəlil də atası ilə qonaqların arasında idi.

Bir qədər keçmiş çalıb-oynamaq qurtarandan, camaatı mütrüb «Ceyran Salman» əyləndirib güldürdükdən sonra qonaqlara meyvə və şirniyyat paylanıldı. Toyun «padşahı» Əllaf Kərbəlayı Şükür sözə başladı:

- Camaat, çoxdandır Ərəb qardaşımızı* dinləmirik. Bu gün bizə böyük xoşbəxtlik nəsib olub. Qaryağdı oğlu bizi dünyanın dərdi-təmindən qurtarıb, feyziyab edəcəkdir. Qurban ilə Saşa həmişəki kimi yarışacaqlar. Hələ bu harasıdır. Sabahkı məclisimiz daha şən olacaq. Çoxdan həsrətində olduğumuz Ağa da (Seyid Şuşinski) ustadı Cabbar ilə «Əfşarı» üstündə deyişəcəklər. Buna görə də qabaqcadan xəbərdar edirəm.

- Sabahkı məclisimiz: «Ye gəl axşamı»dır.**

Kərbəlayı Şükür sözlərini qurtarandan sonra Qaryağdı oğlu dəstəsi ilə məclisə daxil oldu, hamı hörmət əlaməti olaraq ayağa qalxdı. Qaryağdı oğlu camaatın hörmət-izzətinə musiqi sədası ilə cavab verdi: yəni «Heyratı» üstündə cəhcəhli zəngulə ilə zalı bir neçə dəfə dövrə vurub yerində oturdu. Toyun «padşahı» xanəndəyə üz tutub dilləndi:

- Əziz qardaşımız. Ey gözümüzün nuri-didəsi. Sən qədim Qarabağ torpağına xoş gəlib, səfa gətirmisən. Görəsən bu gün dünyada bizdən xoşbəxt adam varmı?! Səni dinləmək cənnətin huri bağında məsti-xumar olmaq deməkdir. Göz yaşlarımla sənə yalvarıram: Hacı Hüsünün sönməmiş ocağını daha da alovlandır ki, biz də əsən bu payız ruzigarında daha da qızışaq. - Kərbəlayı Şükür bu sözləri deyib gözləri yaşarmış halda Qaryağdı oğlunu qucaqlayıb bağrına basdıqdan sonra üzünü Qurban ilə Saşa tərəfə çevirib əmr etdi:

- «Orta mahur»!

---

* Cabbar Qaryağdı oğlunun sifəti çox qara olduğundan bəzən ona «Ərəb qardaş» da deyərdilər – müəllif.

** Keçmiş Şuşa toylarında «Ye gəl axşamı» sırf muğam gecəsi olardı. Toya gələnlər vaxt itirməmək xatirinə evlərində yeyib sonra məclisə gəlməli idilər. O gecə yalnız muğam dəstgahına qulaq asardılar. Qonaqlara ancaq meyvə və şərbət paylayardılar – müəllif.

O gecə Cəlilin sevinc və şadlığını təsvir etmək qeyri-mümkün idi. Böyük müğənnini dinlədikcə onu heyrət bürüyür, özünü tamam unudurdu. Həmin gecə Cəlil Cabbarın sürəkli-zəngulələrindən vəcdə gələrək səhərəcən yata bilməmişdi. Səhərisi gün Seyidin «Çahargah» oxumağı Cəlili bihuş etmişdi.

Yeddi gün, yeddi gecə təmtəraqla keçən məclis Cəlil üçün böyük bir məktəb oldu; onun həyatında əbədi dərin iz buraxdı. Cəlil xalq arasında deyilən «hər zəngulə vuran Cabbar Qaryağdı oğlu, hər mizrab tutan Sadıqcan olmaz» məşhur məsəlin doğru olmasının şahidi oldu.

...Qarabağda toy adətinə görə gündüz məclisinə qadınlar, gecə məclisinə isə kişilər dəvət olunardı. Gündüz məclisində qadınların da öz xanəndə dəstəsi var idi. Bunların içərisində xanəndə Kamrabəyimin qəmli oxumağı, həm də şirin qarmon çalması toyu daha da şənləndirirdi. Hər gün gəliri oynadırdılar. Adətə görə, gəlin toyun axırıncı günü oynamalı idi. Lakin cəyyarənin həddindən artıq gözəl olması toya gələn qız və gəlinləri çox maraqlandırırdı. Səyyarə 18 yaşlı, ucaboylu, ağappaq, pambıq kimi sifəti, qələm qaşları, iri və ala gözləri, nazik əlləri olan xalis Qarabağ gözəli idi. Buna görə də təbiətin bu nadir vergisinə göz yetirmək, onun boy-buxununa, uzun sarışın saçlarına tamaşa etmək üçün onu hər gün oynadırdılar.

Toyun yeddinci axşamı qaş qaralan zaman gəlini, üç yüzə yaxın atlının, yüzə qədər faytonun müşayiəti ilə «Qurdlar» məhəlləsindən «Dərə qırağı» - «Şahlıq körpü»yə - Qəssab Şəmirin evinə tərəf apardılar. «Özündənbəy» Qəssab Şəmirin qardaşı Qızıllı Məhəmməd idi.

«Dədə Qırağı» məhəlləsində də toy vurulurdu. Oxuyan da Keçəçi oğlu Məhəmməd idi. Amma bu toy qız toyuna nisbətən "bir o qədər də təmtəraqlı deyildi.

Gəlini gətirən atlı dəstəsi və dəstənin qabağında at belində oturan sazəndələr şəhər meydanına daxil olanda minlərlə şəhər əhli - «Meydan Bazarbaşı» və «Şahlıq Körpü» arasında səkilərə-düzülüşərək Cabbar Qaryağdı oğlu ilə Seyid Şuşinskinin oxuduqları «Qarabağ şikəstəsi»ni sonsuz həvəslə dinləyirdilər.

Gəlini gətirən dəstə «Dərə qırağı»nda - Hacı Pənahlıların evi qabaqında dayananda Seyid «Qarabağ şikəstəsi»ni bu sözlərlə bitirdi:

Əzizim, aydın olsun,
Ay doğsun, aydın olsun.
Eşit sən, yarın gəlir
Gözlərin aydın olsun.[315]

---

[315] Səyyarə ilə Qızıllı Məhəmmədin bu toy əhvalatını mənə xanəndə Cəlil 1947-ci ildə Bərdə şəhərində söyləmişdir – müəllif.

Bütün təfsilatı ilə təsvir olunan hadisə Cəlildə elə təsir oyatmışdı ki, o özünü musiqi aləmindən kənarda təsəvvür edə bilmirdi. İllər keçdikcə, o sənətə daha möhkəm, qırılmaz tellərlə bağlanırdı.

Cəlil məlahətli səsə malik pəsxan xanəndə idi.

Muğam ifaçılarını adətən iki hissəyə ayırırlar: zilxan və pəsxan oxuyanlar.

Elə xanəndələr olur ki, əvvəlləri zil səsə malik olurlar, bəzi səbəblərə görə (xəstəlik və yaxud səsi qorumadıqlarına görə) pəsxan olurlar. Səsin qədrini bilmək, onu qorumağı bacarmaq lazımdır. Xan Şuşinski bu cəhətdən nümunə olmuşdur. Hər xanəndə səsini qoruya bilmir. Yaxşı qorunmuş və silalanmış səs öz qüdrətini, yəni zilliyini, saflığını 70-80 yaşlarına qədər saxlaya bilir. Cabbar Qaryağdı oğlu 80 yaşına qədər zil pərdələrdə oxunan «Heyratı» muğamını sərbəst, özü də («də» kökündə) oxumuşdur. Şərq xanəndəsinin Avropa müğənnisindən üstünlüyü odur ki, Şərq nəğməkarı qocalanda səsin zilliyi batmır, əksinə yüksək reqistrlərdə[316] sərbəst gəzişir. Cəlil isə anadangəlmə pəsxan olsa da, muğamların zil pərdələrdə oxunan şöbə və hissələrini pəsdən elə rəvan, şirin, ustalıqla oxuyardı ki, dinləyicini riqqətə gətirərdi.

Cəlil xanəndəlik sənətinə bir qədər gec - 30 yaşında qədəm qoymuş və cəmi 20 il xanəndəlik etmişdir. Lakin bu qısa müddətdə o, gözəl oxumağı, zəngin repertuarı ilə xanəndəlik sənəti tarixində özünə layiq yer tuta bilmişdir.

Mən son 30 ildə Azərbaycanın bir çox məşhur xanəndə və musiqiçiləri ilə durub-oturmuşam. Hətta onların bəziləri ilə yaxın dostluq etmişəm. Lakin bu məşhur sənətkarlar içərisində ən yaxın tanıdığım və şirin, duzlu kədərli oxumağına aludə olduğum Pəsxan Cəlil olmuşdur.

Cəlil bir çox illər bizim evdə yaşamışdır. Xanəndə qış-yaz ayları Bərdə şəhərində, yay-payız fəsilləri isə Şuşada olardı... O illər, xüsusilə 1935-1940-cı illər yadıma düşəndə həm sevinirəm, həm də kədərlənirəm. Sevinirəm ona görə ki, o illər gözəl səslər daha çox idi. Hər evin eyvanından, hər bulağın başından oxumaq sədası gələrdi... Hamı şən, hamı mehriban... Bircə «dərd» var idi: o da daha yaxşı məclis qurmaq, ən yaxşı xanəndəni dinləmək dərdi idi.

O vaxtlar Bakıdan ən məşhur teatr və musiqi xadimləri - Abbas Mirzə Şərifzadə, Ülvi Rəcəb, Sidqi Ruhulla, Mərziyə xanım, Kazım Ziya, Mustafa Mərdanov, Seyid Şuşinski, Zülfü Adıgözəlov, Mütəllim Mütəllimov, Qurban Pirimov və Xan Şuşinski Şuşaya toplaşar, teatr tamaşaları və Şərq konsertləri verərdilər. Pəsxan Cəlil də bu məşhur sənətkarlarla dostluq edər və onların konsertlərində yaxından iştirak edərdi. Onların teatr tamaşaları və konsertləri istirahətə gələnləri şənləndirər, mənəvi zövq verərdi.

Cəlil geniş konsert salonlarında çalıb-oxumağa aludə deyildi. Onu ən çox xırda məclislər, ailə şənlikləri və gəzməli seyrəngahlar maraqlandırırdı. Çünki o,

---

[316] Reqistr - latın sözüdür, səs düzülüşünün növü deməkdir.

kiçik auditoriyada öz müğənnilik məharətini daha qabarıq biruzə verərdi. Cəlil klassik ədəbiyyata yaxından bələd olduğundan söz deməkdə, qəzəl seçməkdə misilsiz usta idi. Bir də Cəlil həmişə məclis əhlinin tərkibinə, əhvali-ruhiyyəsinə uyğun qəzəllər oxuyardı. Onun necə deyərlər, «öz qəzəlləri və qoşmaları» var idi. Cəlil olduqca həzin, yanıqlı oxuyardı. Guşə-xanlıqda, səsi oynatmaqda, xırda xallar vurmaqda misilsiz usta idi. Olduqca səlis və aydın diksiyası olan bu xanəndə sözləri elə aydın, rəvan tələffüz edərdi ki, elə bil ədəbiyyat müəllimi imla deyirdi.

Hər axşam gəzintidən qayıdandan sonra əmim oğlu Qara tarı döşünə basıb dilləndirəndə Cəlilin xoş səsi havalanaraq «Köçərli məhəlləsi»nə yayılardı. Xanəndənin pərəstişkarları hər axşam onun oxumağını intizarla gözlərdilər... Bəzən Cəlil keçələr oxumayanda qonum-qonşu bizim qapıdan keçəndə Qaranın anasından tez-tez soruşardılar:

- Ay Şəkər xala, bəs bu gecə Qara niyə çalmadı?
- Bu gecə səhərəcən gözlərimizin kökü saraldı. Cəlil niyə oxumadı?..

Digəri isə:

- Şəkər xala, sən həzrət Abbas, oğluna de ki, bu gecə «Ay ayağında məsi var» mahnısını çalsın...

Hamı Cəlili öz ailə şənliyində, məclis başında görmək istəyirdi. Elə olurdu ki, Cəlil gündə bir neçə məclisi yola verirdi. Oxumaqdan nə doymaz, nə də yorulmazdı. Xan Şuşinski, Zülfü Adıgözəlov, Mütəllim Mütəllimov kimi məşhur müğənnilər toy və ziyafətlərə dəvət olunarkən mütləq Cəlili də özləri ilə aparardılar. Xüsusilə Xan Şuşinski onun pəsdən oxumağının vurğunu idi.

Yaxşı yadımdadır. Bizim məhəllədə böyük bir toy vurulurdu. Oxuyan da Xan Şuşinski idi.

Axşam çalıb-oynamaq qurtarandan sonra toyun «padşahı» Seyid Həsən Ağa sözə başladı: - Camaat bu gün muğam mülkünün Xanı bizim əziz qonağımızdır. Ona görə əvvəlcədən 15 dəqiqə tənəffüs elan edirəm. Kim papiros çəkəcək çəksin, kim su içəcək içsin, bir sözlə, hamı Xanı dinləməyə hazır olsun!

Sonra Seyid Həsən Ağa üzünü toyun fərraşı Sallax İsfəndiyara tutub qışqırdı:

Qapılar bağlansın! Səhərəcən buradayıq.

- Baş üstə! - deyə fərraş qapıları möhkəm bağladı.

Sonra «padşah» musiqiçilərə tərəf dönüb:

- Xan, xahişimiz «Şur»dur - deyərkən, Xan ayağa durub dilləndi:
- Ağa, mənim üçün də xoşdur bu cür gözəl məclisi feyziyab etmək. Amma mənim də bir xahişim var.

Seyid Həsən Ağa:

- A babam qurban, xahişin nədir?

Xan:

- Heç nə, istərdim ki, dəstgahı başlamazdan əvvəl Cəlil mənim üçün pəsdən bir-iki ağız «Segah» oxusun.

Xanın bu sadə sözləri bir çoxlarını, eyni zamanda «padşahı» təəccübləndirdi. Hövsələsiz olan Seyid Həsən Ağa başını buladı:

- Xan, nə danışırsan. Sən olan məclisdə Cəlil oxumaz.

Xan gülümsəyərək yarıciddi halda:

- Ağa, iş buna qalsa gərək mən də Cəlil olan məclisdə oxumayam. Çünki, əvvəla o məndən yaşda böyükdür. İkincisi, Cəlil kişi muğamatı bizim hamımızdan yaxşı bilir... Bu gün siz məni dinləmək istədiyiniz kimi mən də Cəlili dinləmək istəyirəm. Ona görə də əgər istəyirsinizsə mən bu gün daha yaxşı oxuyum, onda əvvəl Cəlil bir-iki ağız «Segah» desin, sonra mən başlayım.

Xanın bu xoş sözləri hamının ürəyindən oldu. Cəlil Xanın qavalını əlinə alıb qarmonçalan Yusifin (Abutalıbın qardaşı) sağ tərəfində oturdu. Bir qədər sonra Cəlilin şirin, yanıqlı səsi məclisi riqqətə gətirdi. Cəlilin oxuduğu «Segah» başqalarına bənzəmirdi. Bunun səbəbini ondan soruşduqda deyərdi:

- Əmi qurban, mən oxuduğum «Segah»a «Həmid segah»ı deyərlər.

Bu o deməkdir ki, Cəlil də Malıbəyli Həmid kimi «Segah»ı əvvəl tarın sarı simlərində «Müxalif» üstündə başlar, bir qədər gəzişdikdən sonra keçərdi «Hasara».

Yadımdadır, o, «Hasar» üstündə aramaram, özü də tələsmədən oxuduğu sözləri adamın qəlbinə «yeridərdi».

Cəlil qəzəli aydın diksiya ilə oxuyarkən incə guşəxanlıq etdikcə hər yandan: «Ay can, ay can», «Yaşa» deyib onu hərarətlə alqışlardılar. Xanəndə «Hasar»ı başa vurduqdan sonra «Segah»a keçəndə müəllifi yadımda qalmayan bir qəzəli deyərdi:

Gözəlim, gəl nə qədər qəlbimdə eşq atəşi var
Mənə yaklaşma bu gün çün sabahın göz yaşı var.

Nə ki, arzu edərəm qəlb onu firsətdə yapar,
Vaxtımız ötərsə də hər gecənin bir hökmü var.
Qorxuram vaxtın ötə, qönçə yanaqlar sarala,
Düşə gözlər çuxura, baş ağara, gün qarala
Çəkəsən gəncliyə həsrət o da keçmişdə qala.

Dinləyicinin ruhunu oxşayan, onun ürəyinə gözəl oxumağı ilə yol açan Cəlil muğamın «Şikəsteyi-fars» şöbəsinə keçəndə:

Nə qədər eşq alovu dalğalanır durma sakın,
Al dodaqları uzat odlu dodaqlara yakın.
Tərs qızı, insafa gəl, susma nə lazım utanax,

Eşqimə saxta demə, söylə, zarafatı burax.
Qorxuram söndürəsən məndəki atəş nəfəsi,

Onda ki, sən gələsən olmaya eşqin həvəsi -
bu şeri deyib tarın «Şah pərdə»si ətrafında xeyli gəzişdikdən sonra muğamı təsniflə bitirərdi.

İncə ritmli səslənən təsnifi dinləyicilər «çırtıq» ilə müşayiət etdikcə, Seyid Həsən Ağa da ucadan qışqırardı:

- Yatma! Çırtıq malinki!

Pəsxan Cəlil klassik xalq musiqisini dərindən bilirdi. Onun ən çox oxuduğu «Rast» və «Segah» muğamları idi. O eyni zamanda xalq mahnılarını və təsniflərini oxumaqda da mahir idi. Cəlil «Rast» təsniflərini elə zövqlə, elə ehtirasla oxuyardı ki, ona həyəcansız qulaq asmaq qeyri-mümkün idi:

Gözəlim, baxma, gözəlim, baxma qıyqacı,
Sən baxanda ürəyim olur axmacı,
Bircə sənsən bu dərdimin əlacı.

**Nəqarət**

Gedərəm qürbət elə,
Tərk etmərəm mən Vətəni.
Aman-aman ölürəm axı,
Gözəl qız sevirəm səni.

**Nəqarət**

Səni çoxdan istərəm.
Qış gələndə şəhəriniz bütün qar olur,
Küçənizdən keçdikcə bağrım qan olur.
Yar sevənin ürəyi bitab olur.

**Nəqarət**

Qurban olum səni doğan anaya
Səni doğdu, məni saldı bəlaya
Qismət olsun bir də gələk Qalaya[317]

[317] Qala - Şuşa şəhəri deməkdir.

Pəsxan Cəlil qəzəlxanlıqda olduğu kimi təsnifxanlıqda da misilsiz usta idi. Onu xanəndələrdən fərqləndirən əsas əlamətlərdən biri də o idi ki, Cəlil çeynənmiş şablon şerlər oxumazdı. Həmişə xalqı düşündürən, onun mərifətini artıran, gəncliyin tərbiyəsinə müsbət təsir edən qəzəl və qoşmalar oxuyardı. Başqalarının oxuduğu qəzəl və qoşmaları Cəlil oxumazdı. Özü də çox zaman qavalsız oxuyardı. Qarmonçalanın böyrünə sıxılaraq sol əlini çənəsinin altına qoyub sözləri inci kimi bir-birinə düzüb guşəxanlıq edərdi.

Mən Cəlildə olan xırdalıqları, guşəxanlığı heç bir xanəndədə görməmişəm. Şərq musiqisində oxunan havanın axırını düzgün gətirmək, onu xırdalamadan, əzib-büzmədən, çeynəmədən dinləyiciyə çatdırmaq ümdə şərtdir. Bu barədə də Cəlilin misli-bərabəri yox idi. O, «Yetim segah»ı oxuyarkən vurduğu nəfəslərin axırında «Sənə nənəm qurban» deyərkən dinləyiciləri bihuş edərdi. Özü də deyərdi ki, bu, «Sənə nənəm qurban» nəfəsini Malıbəyli Həmiddən eşidib öyrənmişəm.

Cəlilin qadın toyları üçün də xüsusi repertuarı var idi. Məsələn, o, «Novruz bayramı»nda qadın toylarına dəvət ediləndə «Mübarək» rədifli şeri təsnif üstündə oxuyardı:

Keçib fəsli-zimistan cəfası,
Gəlir fəsli baharın xoş havası.
Çəmənlə gülzarın var səfası.
Sizin bu təzə bayramınız mübarək.
Ayız, iliz, günüz, həftəz mübarək.

Geyin təzə libas, əllər xınalı,
Gəlin xərc eyləyin bayramda malı,
Verin pul, şad qılın əhli-əyalı,
Sizin bu təzə iliniz mübarək.
Ayız, iliz, günüz, həftəz mübarək.

Qızlar, gəlinlər onun oxumağından, şirin ləhcəsindən, hikmətli sözlərindən doymazdılar. Onlar Cəlilə ən çox «Kəsmə şikəstə» və yaxud «Şəkər oğlu Kərəmin şikəstəsi»ni[318] oxudardılar. Xanəndə bu şikəstələri ifa edərkən insanlarda sədaqət, dostluq, məhəbbət, mətanət, mərdlik hissləri aşılayan bayatılar oxuyardı:

Mərd anadan mərd oğul,
Namərd olmaz mərd oğul,

[318] Şəkər oğlu Kərəm (XIX əsr) məşhur Qarabağ xanəndəsidir. Uzun illər tarzən Mirzə Əli Əsgər ilə yoldaşlıq etmiş, tez-tez Türküstan, İran məclislərinin qonağı olmuşdur. - müəllif.

Qorxaq töhmət artırar,
Baş ucaldar mərd oğul.

Qapıya daş qoymuşam,
Qaş üstə qaş qoymuşam.
Ölləm, səndən dönmərəm,
Yolunda baş qoymuşam.

Başın nədən ağarmış,
Saçın dən-dən ağarmış.
Sənə güvəndiyim dağ,
Sənə də qar yağarmış?!

Cəlil pəsxan olduğuna görə minor muğamları daha çox oxuyardı. O, nəinki «Segah»ı, «Şikəsteyi-fars»ı, «Hicaz»ı, həm də zil səs tələb edən «Bayatı-Qacar»ı belə həzin-həzin, özü də son dərəcə kədərli oxuyardı. Cəlil «Bayatı-Qacar»ı bəmdə oxuyardı. Özü də necə oxuyardı... Bunu olduğu kimi təsvir etmək müşküldür. Cəlilin «Bayatı-Qacar»ına qulaq asanda ağlamamaq qeyri-mümkün idi. Nə qədər daş-ürəkli, qəddar adam olsa belə Cəlil onu nəinki yumşaldardı, hətta qəhərləndirərdi... O, bu muğam üçün həmişə kədərli, intim, sentimental ruhlu qəzəllər seçərdi. Çox vaxt Natəvanın «Yoxdur» rədifli qəzəlini oxuyardı:

Fələk mən tək bu dünyada qəmu-möhnət çəkən yoxdur,
Bu qədri səhfeyi-ruxsarə göz yaşı tökən yoxdur.
Nə bədbəxtəm xudavəndə ənisi-qəmu-kusarım yox,
Cigərxun olmuşam billah, bu dərdimi bilən yoxdur.
Mərizi-eşqinəm cana, ürəyimdə iztirabın çox,
Təbiblər bəd güman olmuş mənə dərman verən yoxdur.

Pəsxan Cəlilə el arasında «Aşıq Cəlil» də deyərdilər. Çünki o da Cabbar, Seyid və Bülbül kimi aşıq yaradıcılığına, aşıq musiqisinə dərindən aşina idi.

Qeyd etdiyimiz kimi, o şikəstə oxuyanda aşıq qoşmalarına, müxəmməs və təcnislərinə müraciət edərdi. Özü də şerin hər bəndini əzbər deyib, sonra da şikəstə üstündə oxuyardı. Cəlilin özünün də qəzəl və qoşmaları vardı. Təəssüf ki, onları hələlik əldə edə bilməmişik.

Hələ o vaxtdan onun oxuduğu bir neçə qəzəl və qoşmaları yadımda qalmışdır. Yadımdadır, o, «Bayatı-Qacar»ın əvvəlində təsnif oxuyardı. Təsnifdə bu sözləri deyərdi:

Gəlin gedək Xan bağına xəzələ
Gözum düşdü eyvandakı gözələ.

və yaxud:

Gəlin gedək Daş altına gəzməyə,
Ördək olaq o göllərdə üzməyə.

Bəzi hallarda o məclisə qədəm qoyan kimi hər tərəfdən ona: «Aşıq Cəlil, hardasan, görükmürsən?» sualları verilərkən Cəlil həmin dəqiqə qoltuğundan qavalı əlinə alıb:

Heç demirsən aşıq Cəlil hardadır?
Mənim gözüm qoynundakı nardadır –

deyə məclisi dövrə vurardı. Dinləyicilər nəinki onu alqışlardı, həm də onun başına - qavalına qızıl beşlik və onluğu dolu kimi yağdırardılar...

Aşıq Cəlilin xüsusi dəstəsi olmamışdır. Çünki onun buna ehtiyacı yox idi. O, bəzən bir xanəndə kimi dəvət olunmasa da onu məclislərdə oxudurdular. Elə məclis olmazdı ki, Cəlili oxutmasınlar. Lakin Cəlil əksər hallarda tarzən Abasqulu Ağa, qarmonçu Kərbəlayı Lətif və Yusif ilə çalıb-çağırardı.

Pəsxan Cəlili son dəfə 1948-ci ilin payızında Bərdə şəhərində gördüm. O zaman mən universitetdə oxuyurdum. Bərdəyə «Şuşanın tarixi» haqqında mühazirə oxumağa gəlmişdim. Cəlil də Seyid Həsən Ağa ilə dinləyicilər arasında idi. Mühazirədən sonra onunla görüşdüm. O, xəstə idi... İkinci dəfə (1950) Bərdəyə gələndə artıq bir daha onu görmədim. Seyid Həsən Ağanı tapdım, Cəlili sordum. Qoca, gözləri yaşarmış halda dilləndi:

- Aşıq Cəlil keçən il dünyadan köçdü... Özü də son dəqiqələrində anamın* bu qəzəlinin iki misrasını:

Varımdı sinədə dərdü qəmi-nihan ölürəm.
Fəda olum sənə gəl eylə imtahan, ölürəm.

deyib gözlərini yumdu...

---

* Burada «Ana» Xan qızı Natəvana işarədir. Çünki Seyid Həsən Ağa Xan qızı Natəvana həmişə ana deyərdi - müəllif.

# Bülbül



AZƏRBAYCANIN xalq yazıçısı, akademik Mirzə İbrahimov öz məqalələrinin birində yazmışdır: «Bülbül sözün tam mənasında böyük, ölməz sənətkardır. Onun qranit heygəli xalqın ürəyindədir».

Bu sözlərdə dərin bir həqiqət vardır. Bülbül həqiqətən ümumxalq məhəbbəti qazanmışdır.

Məşhur xalq müğənnisi Bülbül (Murtuza) Məşədi Rza oğlu Məmmədov 1897-ci ilin iyun ayında Şuşa şəhərində dabbaq ailəsində anadan olmuşdur.

Bülbülün uşaqlıq və gənclik günləri ağır keçmişdir. O, dindar ailədə tərbiyə almışdır Bülbülün atası Məşədi Rza kişi gecələr öz evində Quran surəsi oxutdurmaqdan xoşlanardı. Gənc Bülbül bu «surələri» atasının tələbi ilə «Hicaz» və «Zəmin-xarə» üstündə oxuyardı. Aydındır ki, belə bir həyat Bülbülün mənliyini sıxır, onu incidirdi.

Bülbül hələ uşaq ikən gözəl vətəni Şuşanın füsunkar təbiətindən ilham almışdı. Onun qəlbini təkcə təbiətin gözəlliyi deyil, o dövrün məşhur xanəndələrinin ürəkaçan, məlahətli səsi fəth etmişdi. Bülbül «Qayabaşı»nda, «Qırx pilləkan»da və «Cıdır düzü»ndə öz məlahətli səsini «Topxana» bülbüllərinin incə nəğməsinə qoşaraq oxumağı sevərdi. Onun incə bir məharətlə sarı bülbülləri yamsılamasını görən şəhər əhli elə o zamandan balaca Murtuzaya Bülbül adı vermişdi.

Bir gün Şuşanın «Çuxur məhəlləsi»ndə toya dəvət olunan tarzən Məşədi Cəmil qonşuları 13 yaşlı Bülbülü də bu məclisə aparmışdı. Toyun son gecəsində Məşədi Cəmilin xahişi ilə məclisin «padşahı» Əllaf Kərbəlayı Şükür Bülbülün oxumasına icazə verdi. Məşədi Cəmilin müşayiəti ilə «Mahur» oxuyan Bülbülün qeyri-adi səsindən vəcdə gələn dinləyicilər ona «Qarabağ şikəstəsi»ni də oxutdurdular. Məclisdəki adamlar onu uzun zaman hərarətlə alqışladılar. Bülbülün əmisi oğlu isə bunu alçaqlıq hesab edib «gənc xanəndəni» danlayır və camaatın arasında onun üzünə bir sillə vurur. Bülbül dindar qohum-əqrabasının həqarətinə dözməyib, «Qarğa» ləqəbi ilə məşhur olan qarmonçu Çolaq Məşədi Müseyiblə birlikdə Gəncə şəhərinə qaçır.[319]

Bülbül Gəncəyə gələn gündən çayxanalarda, karvansara və mehmanxanalarda «Qarğa»nın müşayiəti ilə çalıb-oxuyurdu. Bu zaman Gəncə şəhərinin toy məclislərində məşhur xanəndələr Bülbülcan, Malıbəyli Həmid və Musa Şuşinski çıxış edirdilər. Odur ki, Bülbül bu görkəmli sənətkarlarla yaxından tanış olur, hətta onlarla birlikdə Gəncə mahalında məclislərdə çıxış edir. Xalq

[319] Bax: "Komsomolskaya pravda" qəzeti, 2 aprel 1938-ci il, № 75.

məclisləri Bülbülün ilk musiqi məktəbi olur. Bülbül özü də məqalələrinin birində yazırdı: «O dövrün mədəniyyət evləri xalq toyları idi».

Gənc xanəndə ilk illərdə oxuduğu muğamlarda Cabbar Qaryağdı oğlunu təqlid edirdi. Hətta bu barədə xalq arasında qəribə rəvayətlər də vardır.

Bir gün Cabbar Qaryağdı oğlu Gəncə şəhərinə-məclisə çağırılır. Ev sahibi Bülbülü də həmin məclisə dəvət edir. Lakin onu Cabbar Qaryağdı oğlu olan məclisdə oturtmurlar, camaxatanda gizlədirlər. Camaxatanın pərdəsi qabağında qrammofon qoyulur. Ev sahibi Cabbarın «Mahur»unu oxudur. Qrammofon susduqdan sonra Bülbül camaxatandan «Mahur» valının o biri üzünü - «Vilayəti» şöbəsini oxumağa başlayır. Cabbar Qaryağdı oğlu heyrətlə qrammofona baxır. Lakin səsin haradan gəldiyini anlaya bilmir. Nəhayət, bu sirr açıldıqda böyük müğənni çox sevinir. O, Bülbülə məsləhət görür ki, onunla Bakıya gedib orada xanəndəlik sənətini öyrənsin. Lakin böyük şəhər həyatı gənc Bülbülü qorxutduğundan Bakıya getməkdən imtina edir.

1915-ci ildə «Xeyriyyə cəmiyyəti»nin dəvətilə Bülbül Tiflisə gedir. Onun birinci çıxışı cəmiyyətin yay binasında olur. Tələbkar Tiflis dinləyiciləri qarşısında ilk dəfə çıxış edən gənc müğənni tarzən Balaca Qrikorun müşayiəti ilə bir neçə muğam və el mahnılarını incə bir zövqlə ifa edir. Bülbülün müvəffəqiyyətli çıxışı, gözəl səsi, bülbül kimi cəh-cəh vurmağı hamıdan əvvəl Gürcüstanın məşhur müğənnisi Vano Saracaşviliyə xoş gəlir. O, konsertdən sonra Bülbülün şərəfinə verilən qəbulda Bülbülün səsinə və istedadına yüksək qiymət verir.[320]

1916-cı ildə Bülbul bütün Zaqafqaziyada artıq peşəkar bir xanəndə kimi məşhur idi. Lakin həmin ilin yayından Bülbül istedadlı bir opera artisti kimi də tamaşaçıların hörmətini qazanır. Onun opera səhnəsinə çıxmağına tarzən Məşədi Cəmil səbəb olmuşdur. O, «Seyfəl-Mülük» operasını tamaşaya qoyarkən məşhur xanəndələri, o cümlədən yaxın dostu Bülbülü də dəvət etmişdi. SSRİ xalq artisti Sidqi Ruhulla Bülbülün teatr səhnəsində ilk çıxışını belə xatırlayırdı: «...Gənc xanəndənin (Bülbülün - F. Ş.) səhnəyə, artistliyə sonsuz həvəs və arzusunu görüb çox sevindik. Mən onunla əlavə məşğul olmağa başladım. O, məşqlərə çox həvəslə gəlir və öz məlahətli səsi ilə bizi valeh edirdi... səadət[*] rolunu oynayan Bülbül öz artistlik məharəti və ifaçılıq qabiliyyəti ilə hamını sevindirdi.

[320] Bax: A. Məmmədova. Bülbül (rusca). Bakı, 1965, səh. 14.

[*] Burada Sidqi Ruhulla nədənsə yanılır. “Seyfəl-Mülük” operasında Bülbül həm vəzirin oğlu Səid, həm də Məleykə xanım rollarında çıxış etmişdi – müəllif.



Bülbül Gəncə məclislərinin birində. (1913-cü il).

Həmin ildən sonra Bülbül tamaşaya qoyduğumuz opera və operettalarda iştirak edərdi. Bülbül öz səhnə fəaliyyətini inamla davam etdirdi, öz üzərində yorulmadan çalışdı və xalqımızın sevimli artisti, gözəl müğənnisi oldu».[321]

Məşədi Cəmilin «Seyfəl-Mülük» operasında müvəffəqiyyətlə çıxış edən Bülbül bir neçə il Zaqafqaziyanın şəhərlərində verilən tamaşalarda opera artisti knmi çıxış edərək əhalinin rəğbətini qazanır. Bülbül həm də Azərbaycan teatrının ağır vaxtlarışda ona kömək əlini uzatmış, teatr tamaşalarının müvəffəqiyyətli keçməsi üçün əlindən gələni əsirgəməmişdi. Bülbül də Seyid Şuşinski kimi oynadığı teatrlardan zəhmət haqqı almamış, əksinə artistlərə maddi yardım göstərmişdi. Bülbülün səhnə fəaliyyəti haqqında Mustafa Mərdanov öz xatirələrində yazmışdır: «O vaxt (1916-cı ildə) xanəndə Bülbül və məşhur tarzən Məşədi Cəmil Əmirov Yerevan şəhərində idilər. Mən və M. S. Kirmanşahlı gedib Bülbüldən «Arşın mal alan» və «Əsli və Kərəm» tamaşalarında bizimlə çıxış etməyə razılıq verməsini xahiş etdik.

Bülbül əvvəlcə bir az tərəddüd etdi, sonra vəziyyətimizi və Məşədi Cəmilin xahişini nəzərə alıb razı oldu. Yerevanda Bülbülün iştirakı ilə verdiyimiz tamaşalar böyük müvəffəqiyyət qazandı. Bu, Bülbülün operettalarda ilk çıxışı idi. Onun şöhrəti daha da artdı, bizim maddi vəziyyətimiz isə bir qədər yaxşılaşdı. Bülbülə bu

[321] Sidqi Ruhulla, Bülbül haqqında xatirələrim. "Kommunist" qəzeti, 1957-ci il, № 304.

zəhmətinə görə biz pul təklif etdik, o, almadı və bizə dedi ki, pula ehtiyacı yoxdur».[322]

Bülbül adi xanəndəlik çərçivəsində qalmamışdır. O, sənətdə yenilik axtarmış, musiqi elminin ən yüksək zirvələrinə qalxmaq arzusu ilə yaşamışdır. Bu arzu Bülbülü Azərbaycan Dövlət Konservatoriyasına gətirib çıxartdı.

Azərbaycanda ilk dəfə konservatoriya 1920-ci ildə Bakıda yaradılmışdı. Bu konservatoriya «Şərq konservatoriyası» adlanırdı. 1921-ci ilin oktyabr ayında həmin Şərq konservatoriyası Azərbaycan Dövlət Konservatoriyasına çevrildi.[323] Konservatoriyada Azərbaycan şöbəsi açıldı. Burada ilk Azərbaycanlı tələbə Bülbül Məmmədov idi.

Tələbəlik illərində (1921-1927) Bülbül Azərbaycan vokal sənətinin əsasları ilə daha yaxından məşğul olmağa imkan tapır. O, konservatoriyada böyük həvəslə təhsil alır, yaradıcılıq təcrübəsini daha da artırırdı. Bülbül Azərbaycan milli musiqisinin bütün sahələrində fəaliyyət göstərir. Şərq konsertlərində, opera tamaşalarında öz gözəl çıxışları ilə hamını valeh edir. Bülbül «Satir-Agit» teatrının verdiyi tamaşaların fasilələrində də oxuyurdu. Hələ 1921-ci ilin fevralında Süleyman Sani Axundovun «Məşədi İbadın Parijdə toyu» və Hacağa Abbasovun «Sabir üzərində məhkəmə» əsərləri oynanılarkən Bülbül tamaşaların fasilələrində tarzən Şirin Axundovla çalıb-oxumuşdu. «Бакински рабочи» qəzeti yazırdı: «Artist Bülbülün çıxışları böyük müvəffəqiyyətlə keçir. Teatra gələn tamaşaçıların sayı həddindən artıq çoxdur».[324]

Bülbül eyni zamanda professor Polyayev, V. Nikolski və N. Speranskinin vasitəsi ilə klassik rus və Avropa vokal musiqisi ilə yaxından tanış olurdu. O, istər Azərbaycan, istərsə də rus və Avropa musiqisinin təbliğində böyük ifaçılıq məharəti göstərirdi. 1924-1927-ci illərdə Bülbül bir neçə dəfə Sovet İttifaqının müxtəlif şəhərlərinə tarzən Simon Kasparov və kamançaçı Qrişa Babalov ilə qastrol səfərinə çıxmış, hər yerdən yeni-yeni sənət qələbələri ilə qayıtmışdı.[325] Bülbül Moskva və Leninqrad şəhərlərində konsert verərkən boş vaxtlarında rus teatrlarına, konsertlərə getməkdən qalmırdı. O, hər dəfə rus müğənnilərini dinləməklə, onların ifaçılıq sənətinin incəliklərini və müvəffəqiyyətlərinin sirrini öyrənməyə çalışırdı. O, bu illərdə məşhur rus müğənnisi Leonid Sobinov və Azərbaycan musiqisini böyük məhəbbətlə Sevon bəstəkar-R. Qliyer ilə tanış olmuş, onlarla sənət dostluğu etmişdi. Bülbül xatirələrində yazır ki, Sobinov Bakıya konsertə gələndə (1924) mən onu dinləməkdən doymurdum. Sobinov

---

[322] M. Mərdanov. Xatirələrim. Bakı. 1964, səh 86.
[323] Bax: "Kommunist" qəzeti (rusca), 1921-ci il № 217.
[324] Bax: «Бакински рабочи» qəzeti, 16 fevral, 1922-ci il, № 36.
[325] «Бакински рабочи» qəzeti, 1926-cı il, № 138.

Bakıda olan günlərdə bir dəfə də olsa onun məşqlərini, tamaşalarını buraxmazdım.[326]

Bülbül İtaliya səfəri ərəfəsində Bakıda bir neçə konsert vermişdi. Onun 1926-cı il dekabrın 26-da Dadaş Bünyadzadə adına Dövlət Türk Akademik Teatrında verdiyi konsert xüsusilə maraqlı keçmişdi. Həmin konsertdə Bülbül Qarabağdan gəlmiş 14 yaşlı Eloğlu İsmayılla[327] birlikdə oxumuşdu. O zaman «Yeni yol» qəzetində çap olunmuş: «Bülbülün konserti» adlı məqalədə deyilirdi: «...Xalqın hüsn-rəğbətini qazanan Eloğlu səhnə qarşısına çıxaraq surəkli alqışlarla qarşılandı. Həmin konsertin ikinci dəfə verilməsinə baxmayaraq camaatın gözü doymamış kimi səhnədən əsla çəkilmirdi.

Konsertin birinci nömrəsində hökumət Türk teatrosu opera aktyoru Bülbül yoldaş el mahnıları oxumaqla, bütün tamaşaçıları maraqlandırdı.

14 yaşında gözəl səsə malik Eloğlu Qarabağın ən əski el mahnılarından tutmuş bugünkü havalarına kimi oxudu. Bundan başqa böyük şairlərin bir çox qəzəllərini dəxi oxudu».[328]

1927-ci ildə Bülbül öz ixtisasını artırmaq məqsədi ilə böyük müğənnilər vətəni İtaliyaya yola düşdü. O, İtaliyada yaşadığı illərdə (1927-1931) Anselma, Delliponti və Rafael Qrani kimi dövrünün məşhur musiqi xadimlərindən dərs almış, İtaliya vokal musiqisi məktəbini on istedadlı şagirdlərindən biri olmuşdur. Bülbül Milanda olarkən dünyanın məşhur müğənnilərini «La skala» teatrının səhnəsində dinləmişdir. Xüsusilə, böyük rus müğənnisi F. İ. Şalyapinin çıxışları Bülbülün vokal yaradıcılığına böyük təsir bağışlamışdır. Həmişə Şalyapinin adını böyük hörmətlə yad edən Bülbül ilk dəfə məşhur müğənnini necə dinlədiyini belə xatırlayır: «...Bir dəfə eşitdim ki, Şalyapin «La skala» teatrına gəlmişdir: «Boris Qodunov» tamaşasında oxuyacaqdır. Borisin partiyasını Şalyapin həm rus, həm də italyan dillərində oxuyurdu. Bu xəbəri eşidəndə mənim əhvalım dəyişdi... Elə bil mənə yeni bir qüvvə verildi. Bu gözəl artisti yaxından dinləmək və görmək üçün mən bahalı yerə bilet aldım. O gecə Şalyapin olduqca məlahətlə oxudu. Tamaşadan sonra bütün gecəni yata bilmədim. Şalyapinə qulaq asmaqla başa düşdüm ki, oxumaq necə olar. Onda mən yəqin etdim ki, yalnız vokal texnikasına tam yiyələnən xanəndə bu sənətin ustası ola bilər. Həmin gecədən sonra mən Şalyapinin Milan şəhərində verdiyi tamaşa və konsertlərinin birini də buraxmadım. 14 dəfə onu dinlədim. Hər dəfə də Şalyapin elə bil yeni bir «aləm» yaradırdı. Mənim yaradıcılığım üçün, gələcək fəaliyyətim üçün onun çıxışlarının böyük xeyri

---

[326] Bax: A. Məmmədova. Bülbül, Bakı, 1964-cü il, səh. 30.

[327] Eloğlu İsmayıl (1912-1957) Azərbaycan vokal sənətinin istedadlı nümayəndələrindən biri, həm də məşhur opera müğənnisi olmuşdur – müəllif.

[328] Bax: “Yeni yol” qəzeti, 28 dekabr 1926-cı il, № 299.

oldu. Böyük rus artistinin iştirakı ilə verilən tamaşalar mənim üçün sənət aləmində olan çətinliklərə necə qalib gəlməyi mənə öyrətdi».[329]

Bülbül Avropa xalqlarının musiqisini öyrənməklə Azərbaycan-klassik və xalq musiqisindən uzaqlaşmadı. Əksinə o, İtaliyadan vətənə döndükdə bütün varlığı ilə milli incəsənətə bağlandı. Onun: heyranedici səsi ölkəmizin böyük teatr salonlarında eşidildi.

İtaliyadan doğma vətəninə qayıdan sevimli müğənni həmyerliləri qarşısında çıxış etdi. «Kommunist» qəzeti 1931-ci il 25 oktyabr-tarixli nömrəsində yazır: «Oktyabrın 26-da dörd il İtaliyada musiqi təhsili aldıqdan sonra Bakıya qayıdan türk opera artisti Bülbülün konserti olacaqdır.

Bülbül İtaliyanın Milan şəhərində ən yaxşı professorlarla məşğul olan və hazırda tam musiqi təhsilli yeganə türk opera artistidir. Bülbül Azərbaycana gəlmək istərkən Milanda qalması ona təklif olunursa da, Bülbül bu təklifdən vaz keçərək Azərbaycana qayıdır.

Ayın 26-da olacaq konsertdə (Böyük teatrda) Bülbül «Traviata», «Şahsənəm», «Cokonda», «Karmen», «Afrikanka», «Luiza Miller»,. «Toska» və başqa operalardan ariyalar oxuyacaqdır. Bundan əlavə Bülbül İtaliya və türk mahnılarını oxuyacaqdır».

Bülbülün bu konserti çox böyük müvəffəqiyyətlə keçmişdi. Maraqlı burasıdır ki, Avropa operalarının ariyalarını Bülbül İtaliya dilində aydın və səlis oxuyurdu. Ona qulaq asanda belə təsəvvür yaranırdı ki, oxuyan italiyalıdır.

1931-ci il dekabrın 11-də Bülbül Azərbaycan Konservatoriyasında «Səsin diafraqma üsulunun türk xalq mahnısının ifadəsində tətbiqi»nə dair məruzə etmişdir. Bülbülün İtaliyadan qayıtdıqdan sonra verdiyi konsert və maraqlı məruzəsi hamıdan əvvəl dahi bəstəkar Ü. Hacıbəyovun diqqətini cəlb etmişdi. O öz çıxışlarının birində demişdir:

«...Bülbülün bugünkü (1931-ci ilin dekabr ayının 14-ü nəzərdə tutulur - F.Ş.) məruzəsi olduqca qiymətlidir, ona görə ki, məsələn, şəxsən mən konservatoriya tələbələrinə ümumiyyətlə necə tərbiyə verəcəyim haqqında müəyyən bir qənaətə gəldim.

Məni Bülbülün məruzəsi ilə yanaşı, oxuması maraqlandırır. Çox şadam ki, özünün ilk addımlarından Avropa vokal mədəniyyətinə yiyələnmiş, Avropa vokal mədəniyyətinin tamamilə əksi olan bir mühitdə tərbiyələnmiş Bülbul İtaliyada dörd il ərzində öz qabiliyyəti, öz arzusu sayəsində dəyişə bilmişdir.

Mən Bülbülün oxuması haqqında nə deyə bilərəm? Müğənninin ilk konsertini dinləyərkən mən məftun oldum, teatrdan son dərəcə məmnun çıxdım.* Teatra gələrkən qorxurdum ki, konsert maraqsız keçə. Lakin o zaman ki, sənətkar vokal mədəniyyətini ciddi öyrənir və bu qədər gözəl oxuyur, ondan əsl zövq

[329] Bax: A. Məmmədova. Bülbül. Bakı, səh. 40.
* Burada söhbət Bülbülün 1931-ci il oktyabrın 26-da verdiyi konsertdən gedir - müəllif.

alırsan. Bülbülün Avropa üslubunda oxumasının kimə nə dərəcədə xoş gəldiyini deyə bilmərəm, lakin mənim xoşuma gəlir; o, Şərq üslubunda da çox gözəl oxuyur. Lakin belə bir sual ortaya çıxır: Bülbül Avropada olduğu üçünmü belə gözəl oxuyur, yoxsa ona Şərq mahnılarını yaxşı oxumağa imkan verən başqa səbəblər vardır? Əgər Bülbüllə yanaşı, muğamatla heç bir əlaqəsi olmayan hər hansı bir şəxs də Avropada təhsil alsaydı, zənnimcə o, ancaq Avropa havalarını çox yaxşı oxuya bilərdi. Deməli, Bülbülün üstünlüyü ondadır ki, o, hələ sinədən, boğazdan oxuması bir yana qalsın, hər şeydən əvvəl, ifaçılıq mədəniyyətinə yiyələnmişdir... Bülbül kimi mədəni tərbiyə alan, Şərq üslubunda oxumağı bacaran ifaçılar opera və konsert üçün qiymətli kadr olar».[330]

Lakin Bülbülün Azərbaycan və İtaliya dillərində ariya və romanslar oxuması o zaman bir çox musiqiçiləri qane etmirdi. Onlardan bəziləri hətta hücuma keçərək, Bülbülün guya «Şərq oxumaq qaydalarını pozduğunu», «milli musiqidən uzaqlaşdığını» iddia edirdilər. Əlbəttə, ilk dövrlərdə Bülbül «milli musiqi» tərəfdarlarının haqsız hücumlarına qarşı, çətinliklə də olsa, mübarizə aparmalı olur, bəzən də oxuduğu yeni mahnılar ilə onlara əks zərbə endirirdi.

1933-cü ilin yayında «Müdafiə evi»ndə (Dövlət Filarmoniyasında) Bülbülün konsertləri oldu. Konsert gecəsi musiqi həvəskarları, artistlər, musiqişünaslar salona toplaşmışdılar. Həmişə olduğu kimi bu dəfə də Bülbül əvvəlcə bir neçə rus və Qərbi Avropa operalarından ariyalar oxuduqdan sonra Azərbaycan musiqisinə keçdi. Bülbül bir neçə klassik muğam və qədim el mahnılarını elə ustalıqla oxudu ki, nəinki dinləyicilər, hətta Bülbülə qarşı çıxan mühafizəkar «musiqiçilər» belə qeyri-iradı olaraq ona əl çaldılar. O zaman mətbuatda Bülbülün son dərəcə müvəffəqiyyətlə keçən konsertləri haqqında qiymətli rəylər yazılmışdı. «Kommunist» qəzeti yazırdı: «Bülbülün ən böyük xüsusiyyətlərindən birisi onda olan son dərəcə aydın və düzgün intonasiyadır. Bülbül oxuduğu mahnıların sözlərini o qədər aydın, düzgün, məntiqi vurğuları unutmadan deyir ki, tamaşaçı onun oxuduğu bəzi parçaların musiqisindən xoşlanmamış olsa da, sözləri ilə cəlb olunur. Bülbül Şərq havalarını oxuyarkən tamaşaçı ixtiyarsız olaraq onun oxuduğu parçalardakı sözlərə aludə olur».[331]

İstedadlı müğənni qədim Azərbaycan mahnı və təsniflərini böyük ilham və məhəbbətlə oxuyurdu. O, «Süsən sünbül», «Yaxan düymələ», «Qalada yatmış idim», «Mehribanım» mahnılarını, xüsusilə «Rast», «Segah» və «Şur» təsniflərini elə incəliklə ifa edirdi ki, görkəmli sənətkarlar belə «onların üstündə Bülbülün möhürü var» - deyə musiqi parçalarını oxumağa cəsarət etməzdilər. Bülbülün məlahətli səsi ölkəmizin hüdudlarından xeyli uzaqlara da yayılmış,, özünə saysız-hesabsız pərəstişkarlar tapmışdı.

[330] Bax: Ü. Hacıbəyov. Əsərləri, 2-ci cild. Bakı, 1965, səh. 161.
[331] «Kommunist» qəzeti, 26 avqust 1933-cü il, № 197.

Məlum olduğu kimi, Bülbül təkcə xalq müğənnisi deyildi. O, həm də opera artisti kimi tanınmışdı. 1937-ci ildə Azərbaycan opera tarpxində böyük bir hadisə baş verdi. Ü. Hacıbəyov şah əsəri olan «Koroğlu» operasını teatra təqdim etdi. Bu əsərin meydana çıxması musiqi mədəniyyəti tarixində böyük dönüş yaratdı. Qəhrəmanlıq operası olan «Koroğlu»da Üzeyir Hacıbəyov klassik və xalq musiqi ənənələrini davam etdirərək zənginləşdirmişdir. Bu opera əvvəldən axıra qədər tamaşaçıların hisslərini, duyğularını oxşayır, onları həyəcanlandırır, onlarda milli iftixar və ruh yüksəkliyi oyadırdı.

Muğam əsasları üzərində qurulmuş, xalq mahnı və rəqsləri, aşıq yaradıcılığı və novatorluqla zəngin olan bu operada baş rolda qüdrətli, sənətdə xəlqiliyi yüksək qiymətləndirməyi bacaran sənətkar çıxış edə bilərdi. Belə bir sənətkar isə Bülbül idi.

Azərbaycan xalqının qəhrəman oğlunun surətini yaratmaq şərəfi ilk dəfə Bülbülə qismət oldu. Bu isə təsadüfi deyildi. Üzeyir Hacıbəyov dəfələrlə qeyd etmişdi ki, «Koroğlu»nu yazarkən Bülbülü nəzərdə tutmuşdur. Bülbülün yaratdığı Koroğlu obrazının emosional təsiri misilsizdir. Koroğlunun simasında Bülbül Azərbaycan xalqının qüdrət və iradəsini, zülmkarlara qarşı nifrətini ifadə edirdi. Onun ifasında Koroğlu yoxsulların, köməksizlərin dayağı olan, işğalçılara qarşı amansız mübarizə aparan bir qəhrəman olmaqla bərabər, həm də bəşəri hisslərlə yaşayan, sevən, incə qəlbə malik olan gözəl bir xalq aşığıdır. İndi «Koroğlu» operasından söhbət düşəndə göz önündə Bülbül dayanır. Onun yaratdığı Koroğlu obrazı əsrlər boyu dillərdə söylənəcəkdir.

Bülbül yalnız öz vokal sənəti ilə məşhur deyildir. O, görkəmli müəllim, milli musiqini dərindən bilən alim, mahir təşkilatçı idi. O, uzun illər boyu Azərbaycan Dövlət Konservatoriyasının professoru olmuş, bir çox istedadlı müğənnilər yetişdirmişdir. Bülbül Sovet Azərbaycanının vokal sənətinin tam bir məktəbini yaratmışdır. Elmlər Akademiyasının Memarlıq nə İncəsənət İnstitutunun bünövrəsini qoyanlardan biri də Bülbül olmuşdur. Onun bir sıra elmi əsərləri vardır ki, bu əsərlər Azərbaycan musiqi mədəniyyətinin tarixini öyrənən tədqiqatçılar üçün qiymətli mənbədir.

Bülbül Azərbaycan milli musiqi alətlərinin orijinallığını həmişə qorumuşdur. «Tar məktəbi», «Kamança məktəbi» və «Balaban məktəbi» kimi tədris kitablarının çapa hazırlanmasında və görkəmli xanəndə Cabbar Qaryağdı oğlunun 300 mahnı və təsnifinin fonavalikə yazılmasında Bülbülün böyük xidmətləri olmuşdur.

Bülbül 1932-ci ildən başlayaraq Azərbaycan Dövlət Konservatoriyası yanında təşkil edilmiş elmi-tədqiqat musiqi kabinəsinə başçılıq etmişdir. Bu kabinə Azərbaycan xalq musiqisi və şifahi yaradıcılığı nümunələrinin toplanması ilə məşğul idi. Bülbülün qayğı və rəhbərliyi kabinənin işində dönüş yaratmışdı. Burada mindən çox muğam nümunəsi, xalq oyun havası, mahnı nota yazılmışdı.

Yüz çap vərəqindən artıq xalq nağıl və dastanları, klassik aşıqların əsərləri, musiqi xadimlərinin əlyazmaları və xatirələri toplapmışdı. Aşıq və xanəndə yaradıcılığına dair 25 çap vərəqi həcmində xülasə tərtib edilmişdi. Azərbaycan milli mədəniyyəti tarixini öyrənmək üçün bu materialların misilsiz əhəmiyyəti vardır.

Bülbül Azərbaycanın milli mədəniyyət incilərini toplamaqla bərabər, xalq musiqisi irsini öyrənir, eyni zamanda onların gözəl nümunələrini təbliq edirdi.

Bülbül təsnif oxumaqda və gözəl qaval vurmaqda xanəndələrdən fərqlənirdi. Təsnifxanlıqda və qaval vurmaqda onun adını Məşədi İsi, Cabbar Qaryağdı oğlu və Məşədi Məmməd Fərzəliyev ilə birlikdə çəksək heç də yanılmarıq. Çünki istedadlı müğənni Bülbül də təsnifləri bu böyük sənətkarlar kimi xüsusi bir ilhamla oxumuşdur. Onun təsniflərini dinləyən hər kəs özünü xoş bir aləmdə hiss edir, elə bil dünyaya yenidən gəlir. Bülbülün məlahətli səsi bütün kədər və qüssəni unutdurur, adamda yeni arzular oyadır, insan yaşayıb yaratmaq arzusu ilə çırpınır.

Bülbülün xanəndəlik sənətinə yaxından bələd olan və onun sənətkarlıq qabiliyyətini həmişə yüksək qiymətləndirən Mirzə İbrahimov yazmışdır: «...Bülbül Azərbaycanda əsrlər boyu davam etmiş xanəndə və aşıq sənətinin ən yaxşı cəhətlərini klassik vokal məktəbinin nailiyyətləri ilə birləşdirərək təkrarolunmaz, cazibədar bir sənət yaratmışdır. Azərbaycan xalq havalarını, muğamatı və müasir operalardan ariyaları Bülbül müstəsna bir ustalıqla ifa edir. Onun səsindəki məlahət və gözəllik insanın ürəyində nəhayətsiz xoş duyğular oyadır».[332]

1938-ci ildə Azərbaycan incəsənətinin Moskvada keçirilən birinci ongünlüyündə Bülbül böyük müvəffəqiyyət qazanmışdır. Mərkəzi mətbuatda Azərbaycan bülbülünün gözəl səsi, artistlik məharəti haqqında maraqlı rəylər yazılmışdı. Sovet incəsənətinin Stanislavski, Nejdanova, Kozlovski, Prokofyev, Şostakoviç, Xaçaturyan kimi görkəmli xadimləri Bülbülün vokal istedadına yüksək qiymət verir, onun haqqında dərin hörmət və rəğbətlə danışırdılar.

Məlum olduğu kimi, 1940-cı ilin may ayının 15-dən 25-dək Moskvada Azərbaycan ədəbiyyatı dekadası keçirilmişdi. Mayın 15-də Sovet Yazıçılar İttifaqı klubunda incəsənət ustalarının çıxışı olmuşdu. Gecədə çıxış edən Bülbül tələbkar Moskva dinləyiciləri tərəfindən hərarətlə qarşılandı. Görkəmli Sovet yazıçısı Marietta Şakinyan gecə haqqında öz təəssüratını belə ifadə etmişdi:

«Mayın 15-də Sovet Yazıçılar İttifaqı klubunda Azərbaycan və Moskva yazıçılarının görüşü yoldaşlıq cəmimiyyətinin atəşin bayramına çevrildi.

...Arasıkəsilməz musiqi səsləri eşidilir... Biz Azərbaycan xalqının Bülbül tərəfindən icra olunan gözəl mahnılarını dinləməkdən həzz alırdıq».[333]

Bundan əlavə Bülbül mayın 17-də P. İ. Çaykovski adına Moskva Konservatoriyasının böyük salonunda Sona Bağırova Mustafayeva ilə birlikdə

---

[332] M. İbrahimov. Böyük sənət ocağı. «Kommunist» qəzeti, 1958-ci il, № 99.
[333] «Azərbaycan» Ədəbiyyatı Dekadası» Bakı. 1940, səh. 8-9.

«Aşıq Qərib» operasından və «Arşın mal alan» operettasından duetlər, «Koroğlu» və «Şahsənəm» operalarından ariyalar ifa etdi.

Moskvadan yeni sənət qələbələri ilə qayıdan Bülbül vokalistlərin müşavirəsinə hazırlaşır. 1941-ci ilin mart ayında Bakıda vokal kadrlarının hazırlanması məsələsinə aid Ümumittifaq konfransı çağırılmışdı. Bülbül konfransda məruzə ilə çıxış etdi.

Konfrans iştirakçıları Azərbaycan Dövlət Konservatoriyasının vokal fakültəsinin işini bir səslə bəyənmiş və ona rəhbərlik edən professor Bülbülün pedaqoji fəaliyyətinə yüksək qiymət vermişdilər. Bülbül Azərbaycanda yeni xanəndələr nəsli yetişdirmək arzusunda idi. Lakin alman-faşist işğalçılarının doğma vətənimizə xaincəsinə hücumu böyük sənətkara arzusunu həyata keçirməyə imkan vermədi.

Böyük Vətən müharibəsinin ağır günlərində Bülbül xalqın ümumi işinə fədakarlıqla kömək etdi. O, Sovet Ordusu hissələri ilə İranda, Qafqaz və Bryansk cəbhələrində, eyni zamanda ölkənin hərbi xəstəxanalarında öz konsertləri ilə adamları mübarizəyə, döyüşçüləri fədakarlıqa ruhlandırmışdır.

1943-cü ildə Bülbülün bədii rəhbərliyi ilə bir qrup Azərbaycan artistləri Bryansk cəbhəsinin hərbi hissələrinə göndərilmişdi. Truppa cəbhədə ay yarım qalaraq 38 konsert vermişdi. Bu konsertlərdən əksəriyyəti Bryansk meşəsində, cəbhənin ön xəttində böyük müvəffəqiyyətlə keçmişdir. Bryansk cəbhəsinin siyasi idarəsi truppanın konsertləri haqqında yazırdı: «Truppanın verdiyi konsertlərin proqramı öz milli koloriti, yüksək mədəniyyəti və ifaçılıq ustalığı ilə diqqəti cəlb edir. Truppanın çıxışları Hitler Almaniyasına qarşı apardığımız azadlıq müharibəsində SSRİ xalqlarının böyük birliyini və qardaşlığını göstərən nümayişlərə çevrilirdi. Səhrada iş aparmağın çətinliklərinə baxmayaraq, truppa kollektivi ona tapşırılmış vəzifənin öhdəsindən yaxşı gəldi».[334]

Bülbül döyüşçülər qarşısında oxuduğu mahnılarda həyatımızın gözəlliyini, zəhmətkeş xalqın qəhrəmanlığını tərənnüm edirdi. Bu, döyüşçüləri yeni qələbələr uğrunda mübarizəyə ruhlandırırdı.

Bülbülün rəhbərlik etdiyi artist truppası cəbhədən Moskvaya qayıtdı. Müharibənin ağır günləri olmasına baxmayaraq moskvalılar Azərbaycan artistlərini həmişəki kimi hərarətlə qarşıladılar. Bülbül İttifaqlar Evinin sütunlu salonunda böyük proqramla çıxış etdi.

Moskvadan doğma vətənə qayıdan Bülbül yeni bir konsert truppası yaradıb Azərbaycanın rayonlarına səfərə çıxdı. Bu truppa müxtəlif şəhər və kəndlərdə üç ay zəhmətkeşlərə xidmət etdi. Konsertdən yığılan 60 min manat pulu Bülbül Müdafiə fonduna göndərdi.

Qastrol səfərindən sonra Bülbülü Ermənistan SSR-nin paytaxtı Yerevan şəhərinə dəvət edirlər. Bülbül Yerevanda erməni bəstəkarı A. Tiqranyanın «Anuş»

---

[334] Bax: "Бакински рабочи" qəzeti, 12 oktyabr 1943-cü il.

operasında (6 dəfə) Saro, Ü. Hacıbəyovun «Koroğlu» operasında isə (6 dəfə) Koroğlu rolunda çıxış etmişdir. Müğənni Yerevan şəhərinin ayrı-ayrı müəssisələrində konsertlər vermiş, hərbi xəstəxanalarda çıxış etmişdi. Bülbül unudulmaz çıxışları ilə qardaş erməni dinləyicilərini heyran qoymuşdu. Əlbəttə, bütün bunlar Ermənistanın mərkəzi mətbuatında öz ifadəsini tapırdı; mətbuat Bülbülün sənətkarlığına yüksək qiymət verirdi. SSRİ xalq artisti Hayqanuş Danilyan Bülbülə göndərdiyi məktubunda yazırdı:

**«Əziz qardaşım Bülbülcan.**

Sənətkar üçün ən böyük mükafat - xalqın ona olan məhəbbətidir. Siz bu məhəbbətə maliksiniz. Siz xalqın içərisindən çıxaraq, onun böyük ürəyinə olan yolu tanıyırsınız. Bu sizin ən böyük artistlik keyfiyyətinizdir. Ermənistana gəldiyinizə görə və həqiqi bir sənətkar kimi ürəyinizi erməni xalqına açdığınıza görə mən sizə dərin minnətdarlığımı bildirirəm. Sizi təkcə Yerevan yox, Ermənistanın ən uzaq rayonlarından gəlmiş tamaşaçılar dinləmişlər. Onlar ürəklərinə yaxın olan əfsanəvi qəhrəman Koroğlunun obrazını sizin oyununuzda görüb eşitməyə gəlmişdilər. Onlar bir dəfə sizə baxmaqla doymurdular. Hər dəfə sizi görüb eşidəndə könülləri şad, ürəkləri açıq qayıdırdılar. Öz istedadını bütünlüklə xalqına bəxş etmiş belə bir namuslu oğula eşq olsun! Mən xoşbəxtəm ki, sizinlə birlikdə «Anuş» və «Koroğlu»da çıxış etdnm. Bunu mən bütün ömrüm boyu unutmayacağam. Sizi öz doğma bülbülü kimi qəbul edən Ermənistanı yaddan çıxarmayın. Siz bütün insanlar üçün yaranmışsınız. Sizin sənətiniz insan ürəyindən gələn böyük sənətdir. Mənim əziz qardaşım, böyük Sovet Vətənimizin və onun xalqlarının xoşbəxtliyi naminə daha da ucalın.

**Tezliklə görüşə qədər».**[335]

1944-cü ilin dekabr ayının 24-də Tiflisdə Zaqafqaziya xalqlarının Sovet musiqisi ongünlüyündə Azərbaycan musiqi ustalarının çıxışı oldu. Müsamirənin birinci hissəsində SSRİ xalq artisti Bülbül «Gözləyirəm», «Sevgili canan» nəğmələrini, habelə salondakıların xahişi və təkidi ilə «Koroğlu» operasından parçalar oxumuşdu. Gürcü dinləyiciləri həmişəki kimi bu dəfə də Bülbülün çıxışını böyük hörmət və alqışlarla qarşılamışdılar.[336]

Bülbül də böyük müğənnilərimiz Cabbar Qaryağdı oğlu, Seyid Şuşinski kimi gənc bəstəkarlara yaradıcılıq köməyi göstərmişdir. O, bir çox Azərbaycan bəstəkarlarına gözəl məsləhətlər vermiş, eyni zamanda onların əsərlərnni təbliğ etmişdir. Niyazinin, Qara Qarayevin, Tofiq Quliyevin, Səid Rüstəmovun və bir çox başqalarının vokal əsərlərinin gözəl səsdənməsində Bülbülün müstəsna

---

[335] Bax: A. Məmmədova. Bülbül. Bakı, 1965, səh. 73.
[336] «Ədəbiyyat» qəzeti, 2 yanvar 1945-ci il, № 1.

xidmətləri olmuşdur. Qara Qarayev yazmışdır: «Azərbaycan bəstəkarları gözəl sənətkarımız Bülbülə çox borcludurlar. Bülbül bizim əsərlərimizin yorulmaz təbliğatçısı, musiqimizin carçısı, həm də döyüşçüsü idi. Bülbül bizim nəinki ağıllı məsləhətçimiz, müəllimimiz, həm də bir çox əsərlərimizin təşəbbüskarı olmuşdur. O, eyni zamanda bizim işimizə böyük tələbkarlıq hissi ilə yanaşmaqla yaradıcılığımızdakı nöqsanlar ilə barışmazdı».

Bülbül görkəmli bəstəkar Fikrət Əmirova atalıq qayğısı göstərmişdir. Fikrətin simfonik muğamlarının yaradılmasında Bülbülün böyük köməyi olmuşdur. Bunu Fikrət Əmirov mətbuat səhifələrində dəfələrlə etiraf etmişdir. O, məqalələrinin birində yazırdı:

«Mənim də yaradıcılıq həyatım demək olar ki, ən çox Bülbüllə bağlıdır.

Bülbülü Azərbaycan musiqisi haqqında yazılmamış dərin mənalı, çanlı bir kitaba bənzətmək olardı. Azərbaycan musiqisinin incəliklərini öyrənmək üçün mən tez-tez bu kitaba müraciət edirdim. Bu vaxtadək az-çox yazdığım əsərlərin ən yaxın dostu və məsləhətçisi bizim Bülbül olmuşdur. «Şur» və «Kürd-ovşarı» simfonik muğamlarının yaranmasında Bülbülün mənə çox köməyi dəymişdir. «Ürək-çalanlar» və «Gözün aydın» musiqili komediyalarını da mənə yazdıran Bülbül olmuşdur».[337]

1957-ci ilin dekabrında Azərbaycan xalqı Bülbülün anadan olmamasının 60, səhnə fəaliyyətinin isə 40 illiyini böyük təntənə ilə qeyd etdi. Ölkəmizin hər yerindən incəsənət xadimləri, adlı-sanlı musiqiçilər, müğənnilər, artistlər və musiqişünaslar böyük nəğməkarı təbrik etmək üçün Bakıya toplaşmışdılar. Azərbaycan Dövlət Konservatoriyası, M. F. Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı, Memarlıq və İncəsənət İnstitutu görkəmli müğənninin yaradıcılığına dair birgə elmi sessiya keçirmişdi.

Yubiley gecəsində tamaşaçıların uzun zaman sakitləşmək bilməyən hərarətli alqışları ilə qarşılanan Bülbül heyranedici səsi ilə opera teatrına yığışan tamaşaçıları bir daha məftun etdi. O gecə yubilyarın adına ölkəmizin hər yerindən yüzlərlə təbrik teleqramları gəlmişdi. Sovet incəsənətinin Sergey Lemeşev, Vano Muradeli, İvan Kozlovski, Akaki Xorava, David Oystrax, Leonid Utyosov, Şara Talyan, Veriko Ancaparidze, Tatevik Sazandaryan kimi görkəmli nümayəndələri Bülbülü - Sovet xalqlarının böyük nəğməkarını, istedadlı Azərbaycan müğənnisini alqışlayır, ona ən gözəl arzularını bildirirdilər.

1959-cu ildə ölkəmizin paytaxtında Azərbaycan incəsənəti ongünlüyü zamanı Bülbül - Koroğlu Qıratın belində yenidən səhnəyə çıxdı. Moskvalı tamaşaçılar bu zaman təəccüblənmişdilər. Çünki 62 yaşlı nəğməkarın oxuduğu ariyalar, 21 il əvvəl (1938) Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündə oxuduğu vaxtdan heç də seçilmirdi. Çünki, Bülbülün səsindəki məziyyət, şirinlik,

---

[337] F. Əmirov. Sənətkar müəllim. «Ədəbiyyat və incəsənət» qəzeti, 30 sentyabr 1961-ci il, № 38.

əzəmət heç bir zaman dəyişməmişdir. Bu isə bir çox musiqiçiləri haqlı olaraq heyran etmişdi. Görkəmli rus bəstəkarı Solovyov-Sedoy demişdir:

«Koroğlu» ilə mənim tanışlığım birinci Azərbaycan dekadasında olmuşdur. SSRİ xalq artisti Bülbül məni son dərəcə heyran etdi. İndi də o, Koroğlunun ariyalarını 20 il bundan əvvəlki kimi məharətlə ifa edir. Onun gözəl səsi, sənətkarlıq ustalığı heç də dəyişməmişdir.[338]

1961-ci ilin yayında Bülbül doğma vətəni Qarabağa səfərə çıxır. Onun Bərdə, Ağdam, Stepanakert və Şuşa şəhərlərində kütlələr qarşısında çıxışları böyük müvəffəqiyyətlə keçir. Bülbülü konsertlərdə onun 15 yaşlı oğlu Polad (pianoda) müşayiət edirdi. Bülbülün Şuşada verdiyi konsertlərin proqramı əsasən muğam və təsniflərdən ibarət idi. «Qarabağ şikəstəsi», «Qalada yatmış idim», «Gəlin gedək Daşaltına gəzməyə», «Qarabağda bir dənəsən» kimi qədim xalq mahnılarını, «Şur» və «Rast» təsniflərini yüksək zövqlə oxuyan müğənnidən dinləyicilər bilmərrə əl çəkmək istəmirdilər. Bülbülün son konserti Şuşanın keçmiş Realnı məktəbi adlanan binasının geniş salonunda oldu. Burada Şuşanın uzaq kəndlərindən belə yüzlərlə tamaşaçı toplaşmışdı. Bülbül oğlu Polad ilə səhnədə görünəndə tamaşaçılar ayağa qalxıb sevimli müğənnini sürəkli alqışlarla qarşıladılar. O gecə Bülbülün şirin nəğmələrini dinləmək bu sətirlərin müəllifinə də qismət olmuşdu.

Mən Bülbülü 20 ildən artıq idi ki, dinləyirdim. Lakin o gecəki kimi ilhamla oxuduğu xatırıma gəlmir. Bülbül çox oxudu. O, öz ellidərinin arzuladıqları mahnıları dönə-dönə, böyük həvəslə oxuyurdu: Bülbülün səsində «Daşaltı» çayının şırıltısı, «Topxana» bülbüllərinin cəh-cəhi, «Qaya başı»ndakı kəkliklərin qaqqıltısı, «İsa bulağı»nın pıçıltısı eşidilir, doğma yurdun nəfəsi duyulurdu. Doğma yurd elə bil ki, Bülbülə yeni ruh, yeni qüvvə, yeni nəfəs vermişdi. Bülbül oxuyur, ürəkləri həyəsana gətirirdi. Bu konsert böyük nəğməkarın öz doğma vətənində son çıxışı oldu. Şübhəsiz, o gecə heç kəsin ağlına belə gəlməzdi ki, iki aydan sonra Qarabağ bülbülü əbədi olaraq susacaqdır...

1961-ci il sentyabrın 26-da amansız ölüm Bülbülün məhəbbətlə çırpınan böyük ürəyini döyünməkdən qoydu. Azərbaycan bülbülü əbədiyyətə qovuşdu. Bülbülün vaxtsız vəfatı Azərbaycan mədəniyyəti üçün böyük itki idi. Bülbülün tabutu önündə həyəcanla oxuduğu şerində Süleyman Rüstəm milyonların kədərini ifadə edirdi:

Getdin niyə dostum belə erkən aramızdan,
Var odlu ürəklərdə yerin, ey gözəl insan.
Ey mahnıların şairi, ey hər sözü göyçək,
Torpaq ananın qoynuna girsən də oğul tək,
Hər an səni xatırlayacaq bil ki, könüllər.

[338] Bax: A. Məmmədova. Bülbül. Bakı, 1965-ci il, səh. 102.

Haqqında sənin söyləyəcək şanlı nəsillər:
Elçin uzun illər, yeni bülbül kimi ötdün,
Bülbül kimi gəldin, yenə bülbül kimi getdin!

* * *

Azərbaycan vokal sənəti tarixində Bülbülün zəngin və təkrar-olunmaz yaradıcılığı xüsusi yer tutur. O, 50 il xalq şənliklərində, musiqili məclislərdə, konsert salonlarında, radioda insanın qəlbində ən ülvi hisslər oyadan nəğmələri ilə ürəklərdə ölməz heykəl ucaltmışdı. Böyük müğənniyə ümumxalq hörmətini yazıçı, Süleyman Rəhimov belə ifadə etmişdir:

«Bülbül Azərbaycan xalq musiqisi ilə müasir, mürəkkəb musiqi sənətinin mahir ifaçılarındandır. Bülbül professordur, xanəndədir. Bülbülün sənəti hamıya çatır. Onu fəhlə də, kolxozçu da, alim də, tələbə də, uşaq da, böyük də, kiçik də dinləyir... Çünki Bülbül öz dinləyicilərinin hamısının ürəyinə yol açmağı, burada yuva salmağı bacarır. Elə bir adam tapmaq olmaz ki, o, Bülbülün sənətini sevməsin, ona heyran olmasın!

Bülbül deyəndə, gözümüz dolanıb axtaranda, Bülbülü kim, ya kimlərlə müqayisə etmək istəyəndə gözümüzün qabağına Üzeyirbəy gəlir, Səməd Vurğun gəlir... Mənim mülahizəmə görə Üzeyirbəy musiqi aləmində hansı bir yeri tutursa, Səməd Vurğun müasir şerdə hansı bir mövqedə dayanırsa, Bülbül də vokal-səhnə sənəti aləmində belə bir yeri tutur, belə bir mövqedə dayanır».[339]

Bülbül Azərbaycan xalq ədəbiyyatını, klassik şerimizi dərindən bilən, duyub sevən bir sənətkar idi. Bülbül oxuduğu təsnif və muğamlarda Füzuli, Zakir, Seyid Əzim, Vaqif şerinin məna və gözəlliyini dinləyiciyə ustalıqla çatdırırdı. O, qəzəllərin seçilməsinə tələbkarlıqla yanaşar, oxuduğu mahnılara olduqca mənalı, oynaq və gözəl sözlər seçərdi. Mahnıları musiqi obrazları vasitəsi ilə ifa etməkdə, sözləri doğru-düzgün tələffüz edib dinləyiciyə rəngarəng boyalar, bədii ifadələr - nəhayət aydın nidalarla çatdırmaqda Bülbül ilə heç bir müğənni ayaqlaşa bilməmişdi. Azərbaycan folkloruna, bayatı və qoşmalarına tanışlığa gəldikdə isə hər bir ədəbiyyatçı ona həsəd apara bilərdi.

Xalq musiqisindəki məzmunu, forma xüsusiyyətlərini və intonasiya gözəlliklərini duymaqda, hər bir muğamın şöbələrini məzmun və formasına görə müxtəlif tərzdə, özü də hər dəfə zövqlə, ürəklə, ustalıqla oxumaqda Bülbüllə yarışmaq asan deyildi.

Bülbül öz səsini istədiyi kimi idarə edirdi. O, vokal texnikasını işlətməkdə, səsini oynatmaqda mahir usta idi. Bülbüd muğam operalarında çıxış edərkən böyük ustadı Cabbar Qaryağdı oğlunun ifaçılıq məharətindən də bacarıqla istifadə edirdi.

Bülbülün sənəti çoxcəhətli, rəngarəng bir sənətdir. O, Azərbaycan xalqının havaları ilə yanaşı, qardaş xalqların mahnılarını və dünya musiqisinin gözəl

---

[339] S. Rəhimov. Fəxrimiz. «Ədəbiyyat və incəsənət» qəzeti, 1957-ci il, № 52.

nümunələrini də böyük sənətkarlıqla ifa edirdi. Bülbül öz ana dilindən başqa erməni, gürcü, kumık, fars, rus, İtaliya dillərində sərbəst oxuyurdu.

O, dünya vokal sənətinin ən gözəl ənənələrinin yaradıcı bir surətdə mənimsəmişdi. Karuzo, Silo, Şalyapin, Nejdanova, Sobinov kimi ölməz Avropa və rus müğənnilərinin yaradıcılıqlarını məhəbbətlə sevirdi. O, Şərqin böyük müğənnisi, Azərbaycan vokal sənətinin banisi Cabbar Qaryağdı oğlunun sənətinə valeh idi. Təsadüfi deyildir ki, Bülbül Azərbaycanda xanəndəlik sənətindən danışanda həmişə birinci olaraq Cabbar Qaryağdı oğlunun adını iftixarla çəkmiş, onu «xanəndələrin atası», «nəğmələrimizin banisi», «musiqimizin canlı tarixi» adlandırmışdı.

Bülbülün təkrarolunmaz sənəti, zəngin və təravətli səsi bir çox məşhur musiqiçilərin, musiqişünasların diqqət mərkəzində olmuşdur. Bülbülün ifaçılıq məharətinə heyran olan SSRİ xalq artisti B. Mordvinov yazmışdı: «Azərbaycan operasının istedadlı artistləri içərisində görkəmli səhnə ustası olan Bülbül xüsusi olaraq qeyd olunmalıdır. O, son dərəcə məharətlə oxuyur, hərəkətləri isə olduqca ritmikdir.

Bülbül nadir hallarda təsadüf edilən, böyük mədəniyyət sahibi olan aktyordur».[340]

Görkəmli erməni musiqişünası A. Şahverdiyan da Bülbül sənətinə yüksək qiymət vermişdir. O yazırdı: «Müğənnilər içərisində ən birinci yerlərdən birini Bülbül tutur. Bu istedadlı müğənninin tərcümeyi-halı olduqca maraqlıdır. 12 yaşından xanəndəliyə başlayan Bülbül, bütün Azərbaycanı dolaşaraq öz gözəl səsi və məharəti sayəsində xalq kütlələrinin böyük hörmətini qazanmışdır, hələ gənc yaşlarından Avropa oxumaq üslubuna malik olmaq məqsədini öz qarşısında qoyan Bülbül bir çox illər İtaliyada təhsil almaqla öz arzusuna çatdı. Nəticədə Bülbül Azərbaycan operasının görkəmli aktyoru oldu».[341]

Bülbül Milanda təhsil alarkən onun geniş diapazonlu səsi, şaqraq zəngulələri İtaliyanın musiqi ictimaiyyətinin nəzərini özünə cəlb etmişdi. Hələ 1931-ci ilin əvvəllərində «Arte-Nostra» adlı məşhur musiqi jurnalı öz nömrələrinin birində Bülbülün şəkli ilə birlikdə onun həyatı və yaradıcılığı haqqında məqalə də vermişdir. Bu məqalədən sonra Bülbül bütün Milanda tanınır. Bundan sonra «Kolumbiya» qrammofon firması onun səsini vala yazmış, dünyanın bir çox ölkələrindən ona dəvətnamələr göndərilmişdi.

Azərbaycan bülbülünün gözəl səsinə mahnılar, şerlər qoşulmuş, bir çox şairlər, o cümlədən Səməd Vurğun, Rəsul Rza, Mikayıl Rəfili, Dmitri Şostakoviç, Vano Muradeli, Şara Talyan, Veriko Ancaparidze, Seyid Şuşinski, Qurban Pirimov, Sidqi Ruhulla, Mehdi Məmmədov və digər görkəmli sənətkarlar dəfələrlə

---

[340] "Советскаjа музыка" jurnalı. Moskva, 1938-ci il, № 4, səh. 321.

[341] A. Şahverdyan. Музыкалны театр Азербаjджана. Искусство азербаjджанского народа. Москва-Ленинград, 1938-ci il, səh. 25-26.

öz çıxışlarında Bülbül sənətinə yüksək qiymət vermişlər. Bülbülü yaxından tanıyan və yaradıcılığını hədsiz dərəcədə sevən görkəmli dirijor, SSRİ xalq artisti Niyazi yazmışdır: «Mən F. Şalyapipi rus operasının novatoru, Bülbülü isə Azərbaycan operasının novatoru hesab edirəm.

Əgər biz Şalyapinin ifaçılıq qabiliyyətini, onun ifa etdiyi musiqinin ruhuna necə nüfuz etdiyini, oradakı mənanı və dərinliyi incə axtardığını, obrazlarla qaynayıb qarışaraq öz qəhrəmanlarının taleyi ilə necə yaşadığını dərk ediriksə, demək Bülbülün də sənətkarlığının dinləyicilərə qüdrətli təsirinin səbəblərini özümüz üçün aydın etmiş oluruq. Bülbülün professional ifaçılıq məktəbi yaratmaq sahəsindəki böyük xidmətlərini qiymətləndirmək çox çətindir.

Mən elə hesab edirəm ki, Bülbülün Azərbaycan vokal sənəti sahəsindəki xanəndələrimiz üçün göstərdiyi xidmət, Üzeyir Hacıbəyovun bəstəkarlarımıza göstərdiyi xidmət qədər qiymətlidir.

Biz fəxr edirik ki, Bülbül xalqımızın bülbülüdür: Bülbül bizimdir».[342]

Bülbül Azərbaycan xalqının iftixarıdır. Onun bütün çağırışlarda Azərbaycan SSR Ali Sovetinə deputat seçilməsi də böyük sənətkara ümumxalq məhəbbətinin ifadəsi idi. O, bütün həyatı boyu Azərbaycan milli mədəniyyətinin inkişafı uğrunda çalışmışdır. Bülbülün xidmətlərini yüksək qiymətləndirən Kommunist Partiyası və Sovet hökuməti onu SSRİ Dövlət mükafatına, orden və medallara layiq görmüşdür.

Bülbül Koroğlu rolunda (1950-ci il).



Azərbaycan vokal incəsənətinin ən görkəmli nümayəndələrindən biri olan Bülbül böyük müğənni idi. O, opera artistliyini (musiqili-dram ustalığını) yüksək pilləyə qaldırmışdı. Bülbül çox nadir müğənni olmaqla, səhnəmizdə ilk xanəndəlik sənəti arasında möhkəm vəhdət yaratmışdı. Onun səhnədə canlandırdığı surətlər istər vokal ustalığı, istərsə də səhnə mədəniyyəti cəhətdən təkrarolunmazdır. Bülbülün son dərəcə incə və yumşaq tembrli səsi var idi. Eyni zamanda bu səsdə hərarətli temperament, yüksək əzəmət və nikbinlik keyfiyyətləri də həddindən artıq zəngin idi. Bülbül iki oktava yarım səs diapazonu olan lirik-dramatik tenordur. Səsə dinamik naxışlar vurmaqda, onu istədiyi kimi rəndələməkdə, cilalamaqda, eyni zamanda səsi bütünlüklə özünə tabe edib idarə etməkdə Bülbül misilsiz usta idi.

Azərbaycan səhnəsi istər Bülbülə qədər, istərsə də ondan sonar gözəl səsli tenorlar çox görmüşdür. Lakin onların heç biri vocal ustalığında Bülbül səviyyəsinə qalxa bilməmişlər. Bülbülün səsinin bir sirri də ondadır ki, bu məlahətli səs insan qəlbinə asanlıqla yol tapır. Görünür təbiət Bülbülə səs

[342] Niyazi. Gözəl insan və yoldaş. “Kommunist” qəzeti, 1957-ci il. № 304.

verərkən heç nəyi ondan əsirgəməmişdir. Daha doğrusu, Bülbülün səsi müsəlmanlar demişkən: «Allah vergisi» idi.

Bülbülün səsində böyük bir cazibə qüvvəsi vardı. Mən Bülbülün konsertlərində dinləyicilərin cürbəcür hallara düşdüyünü, özünü unutduğunu, qəribə həyəcan və hisslər keçirdiyini dəfələrlə müşahidə etmişəm. Bülbülü sonsuz ehtirasla dinləyən tamaşaçının şadlığından az qala qanadlanıb uçmaq istədiyini, onun üzündə, gözlərində qeyri-adi sevinc əlamətlərinin oynadığını, bəzən də kədərlənib dərin xəyala daldığını çox görmüşəm. Çünki, Bülbülün nəğmələri insanda yaşamaq, yaratmaq duyğuları oyadır, onu nəsib işlərə sövq edir, mərd, mübariz, sədaqətli olmaq hissləri aşılayırdı.

Bülbül qədim xalq nəğmələrini və təsnifləri özünəməxsus ustalıqla oxuyardı. Onun xüsusi bir məharətlə oxuduğu: «Yaz gəlir», «Çal oyna», «Süsən-sünbül», «Yaxan düymələ», «İnnabı», «Qalada yatmış idim», «Xumar oldum» kimi mahnılar, «Rast», «Şur», xüsusilə «Füzuli təsnifləri» milli repertuarımızın nadir inciləridir.

Bülbüldə ifaçılıq mədəniyyəti son dərəcə üstün idi. Xüsusilə, onun səhnə mədəniyyətinə söz ola bilməzdi. Bülbülün səhnə ədası, incə hərəkətləri, xoş təbəssümü bir sözlə səhnə davranışı həddindən artıq gözəl idi. Üzeyirbəy Hacıbəyov xanəndənin istər səhnə, istərsə də oxumaq mədəniyyəti ilə ciddi maraqlanardı və həmişə oxuma mədəniyyətindən söz düşəndə birinci növbədə Bülbülü misal çəkərdi: «...Bülbülün üstünlüyü ondadır ki,... Hər şeydən əvvəl ifaçılıq mədəniyyətinə yiyələnmişdir».[343]

Bülbülün müğənnilik fəaliyyəti, hər şeydən əvvəl Azərbaycan opera teatrı ilə bağlı olmuşdur. Məhz burada onun gözəl istedadı özünü göstərmiş və şaxələnmişdir. Bülbül Azərbaycan vokal, həm də opera teatrı tarixində böyük, lakin az öyrənilmiş sərvətdir. Bülbül deyiləndə opera səhnəmizin keşməkeşləri yada düşür, Sərvər, Əsgər, Əlyar, Koroğlu kimi yaratdığı unudulmaz surətlər canlanır. O, Azərbaycan opera səhnəsinə yeni forma, yeni məzmun, yenn aləm gətirən ilk tenorlardan biridir. Bülbül tamaşaçını elə birinci pərdədən aludə edirdi. Çünki Bülbüldə həm nadir hallarda təsadüf edilən incə səs, həm də böyük artistlik məharəti güclü idi. Buna görə də onun adı nəinki Azərbaycan, eyni zamanda Sovet opera sənəti tarixinə qızıl hərflərlə həkk olunmuşdur.

Bülbüldə böyük ürək var idi. Mənsəbdən, şöhrətdən uzaq idi. Onun mükafatı xalqın alqışı, xalqın məhəbbəti olmuşdur. O, geniş xalq kütləleri üçün oxumaqdan həzz alar, xoşlanardı. Bülbül konsertlərdən gələn gəliri xalqın xeyriyyə işlərinə sərf edərdi.

Bülbül yüksək mədəniyyətli müğənni, gözəl natiq idi. Onun danışığı da oxumağı kimi aydın, şirin və dolğundu. Son dərəcə təmizkar, səliqəli, həm də

---

[343] Bax: Ü. Hacıbəyov. Oxuma mədəniyyəti haqqında. Əsərləri, II cild, Bakı, 1965. səh. 163.

qonaqpərvər idi. Yeməklər içərisində ən çox xoşladığı plov idi. Həmişə nahar masasının üstündə cürbəcür konfet, mütləq təzə meyvə olardı... Özü də olduqca təvazökar, sadə və mehriban idi.

Bülbül Azərbaycan vokal sənəti tarixində mövqeyinin böyük olduğunu bilirdi. Lakin bununla belə özünü çəkməz və sənətdə «Mənəm-mənəm» deməzdi. Sənətdən söz düşəndə o həmişə öz böyük müəllimi Cabbar Qaryağdı oğlunun adını çəkərdi... Eyni zamanda Şəkili Ələsgərin, segah İslamın, Seyid Şuşipskinin adlarını da hörmətlə yad edərdi.

Bir dəfə mən ondan Xan Şuşinski haqqında fikrini öyrənmək istədim. Bülbül çox qısa və aydın cavab verdi:

- Xan gözəl sənətkardır. Mən onun xətrini çox istəyirəm...

Bu böyük sənətkar 50 il gözəl, incə və şəfalı səsi ilə ürəklərə, ocaqlara, vətən torpağına sevinc gətirmişdir. Onun milyonlarla pərəstişkarı vardır.

Bülbülün təkrarolunmaz vokal sənətini, onun unudulmaz xidmətlərini tam qiymətləndirmək heç də asan deyildir. Lakin bircə onu əlavə etmək olar ki, Bülbül öz böyük sənəti ilə 50 il barlı, «meyvəli» muğam bağımızı, «gül-çiçəkli» mahnı bağçamızı bəzəmiş və beləliklə mənəvi sərvətimizi daha da zənginləşdirmişdir.

Bütün ömrü boyu xalqa, vətənə ilhamla xidmət etmək nümunəsini Bülbül ölməz sənəti ilə sübut etmişdir. Onun gözəl, misilsiz sənəti, xalqa son dərəcə yaxın və əzizdir. Bülbülün məlahətli səsi xalqın qəlbində heç zaman susmayacaqdır. Onun mahnıları bu gün də insan ömrünə bol-bol həyat sevinci bəxş edir.

## Zülfü Adıgözəlov



1924-cü ilin sentyabr ayının son günü idi. Qədim Gəncənin əhalisi şəhərin ən səfalı istirahət ocaqlarından olan «Sərdar bağı»na tərəf axışırdı. Gəzməyə gələnlər arasında əyninə çit arxalıq, zoğalı çuxa, yaşıl şalvar geyinmiş, qızıl toqqalı, gümüşü papaqlı iki nəfər hamının diqqətini cəlb edirdi. Bunlar Azərbaycanın məşhur sənətkarları – xanəndə Məşədi Məmməd Fərzəliyev və tarzən Məşədi Cəmil Əmirov idi. Onlar bağa girərkən həzin-həzin «Segah» oxuyan xanəndərin səsi ətrafa yayılırdı. Yüzlərlə adam gözlərini bağın ortasında əyləşən musiqi üçlüyünə dikərək dərin sükuta dalmışdı. Xanəndə «Hasar»da bir qədər gəzişdikdən sonra ustalıqla «Müxalifə» keçəndə Məşədi Cəmil sevincək dostunu qucaqladı. Gözləri yaşarmış halda dedi:

- Məşədi Məmməd! Gözün aydın olsun, Həmid dirilib, sən bir yaxşı qulaq as!

Xanəndə «Orta segah»a keçəndə şair Əliş bəy Kəsəmənskinin «İstər» rədifli qəzəlini oxudu:

Könlüm bu cahan içrə bir mahi-camal istər,
Nə dövləti, nə izzəti, nə cahü cəlal istər.

Xanəndə qəzəlin hər bir sözünü aydın surətdə dinləyiciyə çatdırırdı, nəfəsin axırında isə Həmidin ən çox işlətdiyi «Sənə nənəm qurban» sözlərini incə guşəxanlıqla ifadə edirdi. Onun səsindən heyrətə gələn dinləyicilər «Sağ ol, Malıbəyli Həmid» deyə onu hərarətlə alqışladılar.

Xanəndə «Segah»ı «Mənsuriyyə» ilə bitirdi. Bu zaman Məşədi Cəmil dərin sükuta dalmışdı: nazik qaşları çatılmış, gözləri dolmuşdu. Onun qüssəli vəziyyətini görən Məşədi Məmməd dedi:

- Bilirəm, Həmidin həsrətini çəkirsən... Həmidi analar doğmaz.

Amma onu da demək istəyirəm ki, bu Qaradolaq balası heç də Həmiddən geri qalmayacaq. Çox şirin nəfəsi, gözəl qabiliyyəti var...

Məşədi Cəmil «Qaradolaq» sözünü eşitcək təəccübləndi:

- Necə?! Qaradolaqdan belə oxuyan?

Məşədi Məmməd dedi:

- Bəli, oxuyan oğlan Qarabağın Qaradolaq kəndindəndir. Adı da Zülfüqardır.

...Tarzən Məşədi Cəmil gənc xanəndə ilə tanış olub onu evinə dəvət edir.

Bir neçə gündən sonra Gəncə şəhərinin «Zərrabilər məhəlləsin»də Məşədi Cəmilin evində Zülfüqarın şərəfinə gözəl bir məclis düzəlir. Buraya şəhərin adlı-sanlı oxuyub-çalanları dəvət edilir.

Məclisdə xanəndələrdən Məşədi Məmməd Fərzəliyev, Musa Şuşinski, Malıbəyli Əsgər, Əli Cavad oğlu, hərəsi bir dəstgah oxuduqdan sonra Məşədi Cəmil tarçı Tatevos Arutyunova tarı kökləməyi işarə edir. Kamançaçı Böyükkişi də öz yerini tutur. Məclisdəkilərin xahişi ilə Zülfüqar «Şikəsteyi-fars» oxuyur.

Gənc xanəndə muğamın «Əşiran» hissəsini bitirdikdən sonra otağı alqış səsi bürüyür, yer-yerdən «sağ ol», «əhsən» deyirlər. Ev sahibi deyir:

- Oğlum, oxumağın xoşuma gəldi. Gələcəkdə kamil bir xanəndə olmaq üçün səndə qüdrət var, özün də Malıbəyli Həmidin yolu ilə gedirsən. Bu çox gözəldir. Lakin bu yolu genişləndirib bəzəmək lazımdır. Nə qədər ki, Gəncədəsən mənim evimin və musiqi məktəbimin qapıları üzünə açıqdır. Yaxşı sənətkar olmaq üçün səs ilə kifayətlənmək olmaz. Xanəndə muğamları əzbər bilməklə yanaşı, savadlı qəzəlxan olmalıdır.

Bundan sonra Məşədi Cəmilin evindəki musiqi məclisləri gənc xanəndənin məktəbinə çevrildi. Bu musiqi mühiti onun həyatında böyük dönüş yaratdı. Zülfüqar aylarla Məşədi Cəmilin yanına gəlib ondan və qocaman xanəndə Musa Şuşinskidən muğamatın sirlərini öyrəndi. Hər dəfə Məşədi Cəmil tarda Həmidin barmaqlarını, Musa Şuşinski isə onun zərif guşələrini vurur, beləliklə, Zülfüqara

hər şeyi yerli-yerində öyrədirdilər. Bir qədər keçdikdən sonra Zülfüqar «Rast»da Həmidin, «Mahur»da Cabbarın; «Çahargah»da Seyidin, «Segah»da İslamın guşələrini olduğu kimi təkrar etməklə, özü də bəzən yeni nəfəslər işlədirdi.

Beləliklə, Zülfüqar 1926-cı ilin axırlarından bir xanəndə kimi Gəncə toylarında çıxış etməyə başlayır.

Unudulmaz müğənni Zülfüqar Səmədbəy oğlu Adıgözəlov 1898-ci ildə keçmiş Şuşa qəzasının Qaradolaq kəndində köçəri ailəsində doğulmuşdur. İlk təhsilini Ağcabədidə almışdır. Zülfüqarın atası bütün Qafqazda «qaradolaq cinsli» qoyunları ilə məşhur olan. Hacıməhəmməd Hüseynin formasında çalışmış, bütün ömrü boyu köçəri həyat sürmüşdür.

Məlum olduğu kimi, yaz gələndə tərəkəmə obaları Kürdüstanın «Çalbayır», «Gəlin qayası», «Basar-keçər» yaylaqlarına köçərdi. Balaca Zülfüqar da uşaqlıq illərində bu yerlərdə quzu otarmış, gözəl yaylaqların ətirli çiçəklərindən dəstə bağlamış, göz yaşı kimi şəffaf, buz kimi soyuq sularından doyunca içmişdi. Təbiətin gözəlliyi balaca çobanda unudulmaz təəssürat oyatmış, onun mənəvi estetik inkişafına müəyyən təsir göstərmişdi. Heç təsadüfi deyildir ki, Zülfüqar Adıgözəlovun şirin səslə «oxuduğu muğamlarda «Gəlin qayası»nın rəngarəng, əlvan, təzə-tər çiçəklərinin xoş ətri gəlir, «Çalbayır»ın sərin bulaqlarının pıçıltısı eşidilirdi.

Xanəndə öz təkrarolunmaz sənəti ilə dinləyicilərin qəlbini oxşadığına, onların istək və arzularını şirin oxumaqları ilə tərənnüm etdiyinə görə onu sadəcə «Zülfü» deyə çağırmışlar. Burada incəlik, doğmalıq və səmimiyyət ifadə olunurdu. Zülfü öz gözəl səsi ilə xalqın qəlbinə yol tapmışdı. Bir çox valideynlərin öz uşaqlarına «Zülfü» adını verməsi də xalqın sənətkara dərin hörmət və məhəbbətini göstərirdi.

1927-ci ilin yayında Zülfünün həyatında əlamətdar hadisə baş verir. Həmin ilin avqust ayında böyük müğənni Cabbar Qaryağdı oğlu Şuşa məclislərinin birində Zülfünü dinlədikdən sonra ona Bakıya gəlib «Müdafiə evi»ndə (indiki Dövlət Filarmoniyasında) işləməyi təklif edir. Böyük sənətkarın atalıq qayğısını hiss edən Zülfü ailəsi ilə Bakıya köçür. Gənc xanəndə «Müdafiə evi»ndə Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Avanes İoanesyan, Qurban Pirimov, Keçəçi Məhəmməd, Seyid Şuşinski kimi sənətkarların qarşısında: müvəffəqiyyətlə imtahan verir.

Zülfü «Çahargah»ı oxuduqdan sonra onun «Müdafiə evi»ndə səlist sifəti ilə çıxış etməsini məsləhət görürlər. Zülfü işə başladığı ilk günlərdən dinləyicilərin hüsn-rəğbətini qazanır.

Müslüm Maqomayev Zülfünü radioda çıxış etməyə dəvət edir. Radiodakı çıxışları Gənc xanəndənin şöhrətini birə-min artırır.

Azərbaycan Dövlət Filarmoniyası Zülfü Adıgözəlovun inkişafında əsl sənət məktəbi olur. Qurban Pirimov deyirdi ki, Zülfü filarmoniyaya işə girəndə hələ kamil deyildi. Lakin zəhməti çox sevən idi. O, mənim yanıma tez-tez gələr və hər

şeyi öyrənməyə can atardı. Rəhmətlik Cabbara çoxlu suallar verərdi və həmişə xahiş edərdi ki, Cabbar onun suallarına oxumaq ilə cavab versin. Seyid oxuyanda o, bir dinləyici kimi salonda oturub diqqətlə qulaq asardı. Zülfünün zəhməti hədər getmədi. Çox çəkmədi ki, onun pərəstişkarlarının sayı artdı. Zülfü sevimli və istedadlı xanəndə kimi böyük şöhrət qazandı.

Zülfü Adıgözəlov təkcə xanəndəlik sənəti ilə məşğul olmamışdır. O, 1929-1932-ci illərdə Mirzə Fətəli Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrının səlisti olmuş, bir sıra rollarda müvəffəqiyyətlə çıxış etmişdir.

Klassik muğamları milli çərçivədə inkişaf etdirməkdə və onu yad təsirlərdən qorumaqda Zülfü Adıgözəlovun xidməti böyükdür. Görkəmli bəstəkar Səid Rüstəmov bu barədə yazır:

«Zülfü Adıgözəlov xanəndəliyə başladığı birinci günlərdən məhəbbətlə qarşılanmışdı... O, gözəl ifası ilə dinləyicini düşündürür, həyəcanlandırır, onda böyük insani hisslər aşılayırdı.

Muğam ifaçılarını adətən iki hissəyə ayırırlar. Zilxan və pəsxan oxuyanlar. Zülfü pəsxan idi. O, muğamları pəsdən elə məlahətlə, elə ustalıqla oxuyurdu ki, adam heyran qalırdı. Xanəndə dinləyiciləri məharətlə ələ alır, onları musiqinin təsiri ilə sehirləyirdi. İndi onun fəaliyyəti barədə düşündükcə, pəsdən oxuduğu mahnılar muğamlar, elə bil qulaqlarımızda təzədən səslənir. Onu yenə də həmişəki kimi heyran-heyran dinləyirəm.

Zülfü Adıgözəlov muğamlarda oxuduğu şerlərin mətninə xüsusi diqqət yetirirdi. Xanəndə haqlı olaraq bu fikirdə idi ki, söz musiqiyə uyğun gəlməli, musiqinin təsir gücünü artırmağa xidmət etməlidir. Musiqi hissləri hərəkətə gətirməli, sözlər şüurumuzu məşğul etməlidir. Klassik şerdən nümunələr seçməkdə Zülfü xüsusilə usta idi. O, dahi şair Füzulinin qəzəllərini böyük ehtirasla oxuyurdu.

Mən «Azərbaycan xalq mahnıları» məcmuəsində «Bir cüt sona», «Nəbi», «Dedim, bir busə ver», «Kəklik» və sair mahnıları Zülfünün ifasında nota yazmışam».[344]

Zülfünün diksiyası olduqca şirin, təmiz və aydın idi. O, həqiqi bədii sözü saxta boyalardan tez ayıra bilirdi. Mənalı və ehtiraslı sözün gözəlliyinə bütün varlığı ilə valeh olurdu. Bu məftunluq, təbiidir ki, sözün deyilişində, tələffüzündə, ahəngində dərhal özünü bildirirdi. Zülfü sözə yaradıcı münasibət bəslər, hər muğamın xarakterik xüsusiyyətini nəzərə alıb ona uyğun qəzəl seçər və təsnif oxuyardı. Zülfünün sənətində romantik vüsət vardı. Çünki çox düzgün, ürəkdolusu, təsirli oxuyardı. Onun «Gedirəm axı» təsnifindəki ustalığı, xüsusilə nitqinin aydınlığı adamı valeh edirdi. Zülfü bu təsnifi oxuyanda sözləri elə aydın, elə dolğun tələffüz edirdi ki, elə bil müsahibi ilə söhbət edirdi:

Mən gedirəm Zəngilana,

[344] S. Rüstəmov. Gözəl xanəndə, mehriban müəllim. «Ədəbiyyat və incəsənət» qəzeti, 1963-cü il, № 23.

Ay ana, ay ana.
Günləri sana.
Gedirəm axı,
Gedirəm axı...

Mən aşiqəm bir ceyrana,
Ay ana, ay ana.
Günləri sana.
Gedirəm axı,
Gedirəm axı...

Elçilərin yol üstədir,
Hər nə desən göz üstədir,
Ana, yarım gözəl-göyçək
Dodaqları gül-püstədir.

Ay ana, ay ana.
Günləri sana
Gedirəm axı,
Gedirəm axı...

Mən gedirəm qəm eyləmə
Kirpiklərin nəm eyləmə
Ay ana, ay ana,
Günləri sana,
Gedirəm axı,
Gedirəm axı...

Şirin dilli elçilərim
Deyər yara can sözlərim
Gərək bəxtim etsin mədəd
Puç olmasın ümidlərim.
Ay ana, ay ana
Günləri sana.
Gedirəm axı,
Gedirəm axı...

Mənim iki gözüm ana,
Xeyir-dua ver balana
Ay ana, ay ana

Günləri sana.
Gedirəm axı,
Gedirəm axı...

Atlarımız yəhərlidir,
Qızıl-gümüş kəmərlidir.
Ana məndən arxayın ol
Sənin oğlun hünərlidir.
Ay ana, ay ana
Günləri sana.
Gedirəm axı,
Gedirəm axı...

Bu gözəl, son dərəcə oynaq və şirin təsnifi Zülfüdən başqa heç kəs oxumamışdır. Təsnifin musiqisi kimi mətni də olduqca ahəngdar və mənalıdır.

Zülfü bu təsnifi sadəcə oxumurdu. Elə bil ki, şirin bir nağıl söyləyirdi... Təsnifə elə naxışlar, elə melodik bəzəklə vururdu ki, sanki mahir bir rəssam ipək parça üzərində böyük bir sənət əsəri yaradırdı... Mahir nəğməkarın bu təsnifi qrammofon valı üçün oxuması milli musiqi xəzinəsini zənginləşdirən misilsiz sərvət sayıla bilər. Biz onu hər dəfə səsləndirdikdə bir daha Zülfü sənətinə, onun təsnifxanlığına heyran oluruq.

1941-ci ilin may ayının ortalarında Azərbaycan Dövlət Filarmoniyasının xalq çalğı alətləri orkestri bəstəkar Səid Rüstəmovun rəhbərliyi altında Özbəkistana qastrol səfərinə getdiyi zaman Səmərqənd, Əndisan, Mərkilanu, Daşkənd və s. şəhərlərdə konsertlər vermişdi. Qardaş özbək xalqı Azərbaycan artistlərinin çıxışlarına böyük maraq göstərmişdilər. Orkestrin solistləri, xüsusilə Zülfü Adıgözəlov haqqında özbək mətbuatında səmimi rəylər yazılmışdı.[345]

Məşhur tacik şairi Əbülqasım Lahuti Azərbaycan incəsənət ustalarının çıxışlarını yüksək qiymətləndirmiş, bu münasibətlə yazdığı şerində təəssüratını belə ifadə etmişdi:

Azərbaycan güllərinin gecəsi,
Bülbüllərin nidasını eşitdim.
Dəfin, tarın, kamançanın səsində.
Ürəklərin sədasını eşitdim.
Oğlan qızla, qız oğlanla üz-üzə,
Şən dillərin vəfasını eşitdim.
Qəlbə qanad verən, ruhu oxşayan,

[345] Bax: "Правда Востока" qəzeti, 6 iyun 1941-ci il.

Gözəl elin havasını eşitdim.[346]

Böyük Vətən müharibəsinin ağır illərində Zülfü ön cəbhədə öz mahnıları ilə döyüşçüləri alman faşist işğalçılarına qarşı mübarizəyə ruhlandırmışdı. Sovet Ordusunun Vaş Qərargahı bu münasibətlə onu Fəxri Fərmanla təltif etmişdi. 1943-cü ildə Zülfü Adıgözəlova Azərbaycan SSR əməkdar artisti adı verilmişdir.

Zülfü bütün qüvvə və istedadını xalq musiqisinin inkişafına həsr etmişdi. O, klassik xanəndələrin ənənələrinin davamçısı idi. Zülfü «Rast» muğamını gözəl oxumaqla müasirlərini heyran qoymuş, onların hörmətini qazanmışdı. Bu cəhətdən onun oxuduğu «Rast»ın, musiqi tarixində ayrıca qeyd edilməsi təsadüfi deyildir. Əlbəttə, Zülfüdən əvvəl də bu muğam ifa olunurdu. XX əsrin əvvəllərində Malıbəyli Həmid, Rövşənin nəvəsi Şükür, Məşədi Cəmil, Çəmənli Məşədi Səfər «Rast» ifaçıları kimi şöhrət qazanmışdılar. Onların hər biri «Rast» muğamını özünəməxsus tərzdə oxuyurdular; bəziləri isə bu muğamı dəstgah şəklində məharətlə başa vururdular. Dəstgahdakı «Mayeyi-rast», «Hüseyni», «Vilayəti», «Şikəsteyi-fars», «İraq», «Pəncgah» hissələrini dürüst oxumaq hamıya müyəssər olmurdu. Zülfü isə bu muğamın əsas hissələrini şirin bir üslubda, məharətlə oxumaqda müasirlərindən fərqlənirdi.

Zülfü «Rast»ın üzərində zərgər ustalığı ilə işləyərdi. O, Qurban Pirimovla dəfələrlə götür-qoy etdikdən sonra muğamın hər şöbəsini ayrı-ayrılıqda təkrar etməklə dəstgah şəklində oxuyardı. Muğamın bütün xarakterik xüsusiyyətlərini əla duyan müğənni, çalışardı ki, «Rast» həqiqətən mərdlik, düzgünlük simvolu kimi səslənsin. Əgər Zülfü muğamın mayəsində dinləyicini səfərbər edib ona təmiz fikirlər, pak duyğular aşılayırsa, muğamın «Vilayəti» şöbəsində mərdlikdən, insan ləyaqətindən söz açaraq dinləyicinin ürəyini sevinclə doldururdu. «Şikəsteyi-fars»da isə müğənni insan mənəviyyatının gözəlliyini, incəliyini təlqin etməklə dinləyicinin gələcəyə olan inamını qüvvətləndirirdi. «Əraq-pəncgah» şöbələrində isə Zülfü insanı qətiyyətli, mübariz olmağa çağırırdı. Beləliklə, Zülfü öz təkrarolunmaz ifaçılıq məharəti ilə «Rast» muğamına melodik bəzəklər vurmaqla muğama romantik vüsət vermişdir.

Hər bir muğamın doğru-düzgün oxunması xanəndənin şəxsi yaradıcılığından və onun ifaçılıq fantaziyasının zəngin olmasından asılıdır.

Məsələ muğamları kamil bilməklə bitmir. Musiqiçinin dərin musiqi yaddaşı, həm də yüksək bədii zövqü olmalıdır. Onun ifa etdiyi melodiya təbii, təsirli və ilhamla səslənməlidir. Bütün bu keyfiyyətlərə malik olan Zülfü «Rast» muğamına öz məlahətli səsiq həzin nəfəsi, qəşəng xırdalıqları və incə xalları ilə yeni bir forma, yeni bir məna verməklə onu gəlin otağı kimi bəzəmişdir. Onun naxışlarını, əlvan boyalarını nə leysan yağışları, nə qasırğalı küləklər, nə də zaman soldura bilməz. Çünki ona Zülfü kimi sənətkar bəzək vurmuşdu. Cəsarətlə demək olar ki,

[346] "Kommunist" qəzeti, 1941-ci il, № 143.

əgər Cabbar Qaryağdı oğlu muğam mülkünün baş memarı idisə, Zülfü isə bu mülkün əvəzolunmaz rəssamı idi.

Hər dəfə Qurban Pirimovun müşayiətilə Zülfünün oxuduğu «Rast» valını dinləyəndə belə bir qənaətə gəlirik ki, son 50 ildə bu muğamı Zülfü kimi oxuyan ikinci bir xanəndə olmamışdır.

Böyük Cabbar «Mahur»a, İslam «Segah»a, Seyid «Çahargah»a öz möhürlərini vurduqları kimi Zülfü də «Rast» muğamına öz silinməz möhürünü vurmuşdur.

Azərbaycan vokal sənətinin inkişafında da Zülfü Adıgözəlovun xidmətləri böyükdür. O, xalq musiqisini geniş yaymaq üçün uzun müddət Qurban Pirimov, sonralar isə Paşa Əliyev, Hacı Məmmədov, Əlağa Quliyev, Məmmədağa Muradov, Qulam Qasımov, Sərvər İbrahimov kimi tarzənlərlə dostluq və əməkdaşlıq etmişdir.

Zülfü Adıgözəlov erməni sənətkarları ilə də illər boyu əməkdaşlıq etmişdir. O, ilk dəfə məclisə tarzən Tatevos Arutyunov ilə çıxmışdır. Zülfü tarzənlərdən Soqomon Seyranov, Lazar Qabrielyan, kamançaçılardan Vaqo Melkumov, Nefton Qriqoryan və başqaları ilə uzun illər bir yerdə çalıb-çağırmışdır.

Azərbaycanda görkəmli xanəndə kimi tanınan Zülfü Azərbaycan-film studiyası tərəfindən «Səbuhi», «Bakılılar» və «Kəndlilər» filmlərinin çəkilişinə dəvət olunmuşdur. Bu məşhur filmlərdə onun məlahətli səsi eşidilir. Zülfünün səsi qrammofon vallarına da yazılmışdır.

Zülfü «Segah»da da usta idi. Azərbaycan musiqi tarixində «Segah»ın atası İslamdan sonra bir çox «Segah» ustası olmuşdur. Lakin Zülfü «Segah»ının ayrı bir məziyyəti vardı. Zülfü özündən əvvəlki «Segah» ustalarının hər birinin guşə və xallarını yenidən işləyib öz «Segah»ını yaratmışdı. Zülfü «Segah» oxuyanda insanın ruhunu, onun həyəcan və iztirablarını təbii, dolğun təcəssüm edirdi. Onun «Segah»ı yanan qəlblərə elə bil ki, sərinlik gətirirdi. «Zabul»a keçəndə həzin nəfəslər, nisgilli guşələr vurmaqla insan xəyalını sonsuz səhralara çəkər, sərgərdan gəzdirərdi. Lakin onu tənha, ümidsiz, pərişan qoymaz, qaranlıq səhranın işıqlı sabaha açılacağına əmin edərdi.

Zülfü haqqında az-çox yazmışam... İndi onun insanı vəcdə gətirən, bir-birindən şirin, təsirli oxuması haqqında nə demək olar? Heç bilmirəm Zülfünün sənətkarlığını necə təqdim edim ki, oxucuda müəyyən dərəcədə təsəvvür yaransın. Ancaq onu əlavə edə bilərəm ki, Zülfü kimi insana xoş səsilə ruh verən, onu nalədən, qəmdən qurtaran ürəkdən dərdini silən, ona nikbin bir əhvali-ruhiyyə verən bir nəğməxan haqqında söz demək heç də asan deyildir. Zülfü bir çoxları kimi səsinin gücünə arxalanmırdı. O, hər şeydən əvvəl öz ifaçılıq məharəti ilə dinləyicinin ürəyində nəcib duyğular oyadan, xəyalına qol-qanad verən böyük ehtirasla qanını coşduran, əsəblərini sakitləşdirən, bir sözlə, insan zövqünü oxşayan bir sənət yaratmağa çalışırdı. Belə bir təsirli sənət isə yalnız gərgin əməklə fitri

istedadın sayəsində yarana bilərdi. Şübhəsiz, burada sənətkarın fantaziyasından, xüsusilə, muğam sənətində ən başlıca amil olan improvizə elementlərindən də çox şey asılıdır. Zülfü isə həm təkrarolunmaz məlahət, həm kamil istedad, həm də geniş fantaziyası olan dolğun sənətkar idi.

Zülfü bütün varlığı ilə musiqiyə bağlı idi. O, sənəti ecazkar bir qüvvəyə çevirirdi. Zülfüyə qulaq asanda həyat minqat şirin və mənalı olurdu. Ürəkdə yaşayıb-yaratmaq həvəsi artır, hər şey gözəl görünürdü. İnsanlara münasibətini dəyişirdi. Həyatı dərindən dərk etməklə, dünyada yalnız yaxşılıq etmək, insanların qayğısına qalmaq, əliaçıq, xeyirxah, səxavətli olmaq istəyirdin. İyirmi beş il ərzində hər dəfə Zülfüyə qulaq asanda musiqili məclislərdən, konsert salonlarından mən bu duyğularla çıxmışam, minlərlə dinləyicinin nurlu çöhrəsində və qaynar gözlərində bu duyğuları görmüşəm.

Zülfü həm də mahir qəzəlxan idi. Lakin o, bir çoxları kimi dinləyicinin başını şer və qoşma ilə qatmazdı. Bir muğamı başa vuranacan yalnız bir qəzəldən istifadə edərdi. Çünki, xanəndə guşə-xanlıqda o qədər usta idi ki, sözçülüklə məşğul olmaqa vaxt qalmır dı. Özü də söz seçməkdə, xüsusilə klassik şairlərin qəzəllərinə müraciət etməkdə usta idi. O, Füzuli, Seyid Əzim Şirvani, Nəbati, Vaqif, Zakir və Natəvanın şerlərinə tez-tez müraciət edərdi. Lakin Zülfünü ən çox cəlb edən Füzuli ənənəsinin layiqli davamçılarından olan, istedadlı şair Əliağa Vahidin yaddançıxmaz qəzəlləri idi. Zülfü dəfələrlə deyərdi ki, Vahidin qəzəlləri məni o qədər ruhlandırır ki, muğam ifaçılığında heç bir çətinlik hiss etmirəm. Vahid də yaxın dostu Zülfü haqqında yüksək fikirdə idi. Mən Zülfü ilə Vahidin iştirak etdikləri məclislərdə çox olmuşam. Hətta Zülfü üçün tar belə çalmışam. Mərhum Əliağa Vahid Zülfünün oxumasından, xüsusilə «Segah»ından böyük zövq alardı və həmişə deyərdi:

- Məni qəzəl yazmağa ən çox təhrik edən Zülfünün şirin oxumasıdır. Buna görə də çalışıram ki, yazdığım təzə qəzəli birinci növbədə Zülfü oxusun. Mən qəzəllərimin bədii ruhunu, qüdrətini və təsir gücünü yalnız Zülfünün oxumağında görürəm.

Zülfünün repertuarı əsasən muğam və təsniflərdən ibarət idi. O, bütün muğamları böyük ustalıq və həvəslə oxumuşdur. Onun «Zabul»una, «Mahur-Hindi»sinə, xüsusilə «Orta segah»ına söz ola bilməzdi. Zülfünün «Segah»ını həyəcansız dinləmək qeyri-mümkün idi. Mən dəfələrlə məclis və konsertlərdə onu dinləyənlərin sevinc və ya qüssədən doğan göz yaşlarını çox görmüşəm.

Yadımdadır, 1951-ci il sərin payız axşamlarının birində Bakıda Dövlət Filarmoniyasında verilən konsertdə Qurban Pirimov ilə zalda oturub Zülfünü dinləyirdik... O, şirin-şirin «Segah» üstündə Əliağa Vahidin:

Ey gül, axır bildim səni öyrədən oldu,
Saldın məni hicranə, bu bilməm nədən oldu.

rədifli qəzəlini oxuyurdu... Birdən zalın orta sıralarından qadın hönkürtüsü eşidildi. Ağlayan son dərəcə gözəl bir qadın idi. Onun vəziyyəti yaxşı deyildi: direktorun kabinetinə gətirdib təcili yardıma müraciət etdilər... Həkimlər qadını sakitləşdirə bilmirdilər. Nəhayət, onu tanıyan Qurban Pirimov müraciətlə dedi:

- Qızım, sənə bir şey olmayıb ki?
- Xeyr...
- Bəs niyə ağlayırsan, yoxsa Zülfü dərdini təzələdi?
- Yox, Qurban əmi, mənim heç bir dərdim yoxdur.
- Əşi, bəs onda niyə göz yaşı axıdırsan?

Qadın bir qədər sakitləşdi... Lakin az keçməmiş dərindən ah çəkib yenidən ağlaya-ağlaya dedi:

- Qurban əmi, mən Zülfüdən ötəri ağlayıram.

Qurban əmi gülümsəyib qadının başını tumarlayaraq onu sakitləşdirmək üçün səmimi tonla dedi:

- Əşi, allaha şükür Zülfüyə nə olub ki, sən ağlayırsan.

Lakin qadın təzədən hönkürtü ilə dilləndi:

Qurban əmi, mən ona görə ağlayıram ki, gec-tez belə bir sənətkar dünyadan gedəcək. Bir də ikinci Zülfü olmayacaq. Bax məni kədərləndirən də budur. Ona görə ağlayıram...

Qurban əmi gülümsədi, başını bulayıb həm mülayim, həm də bir qədər narazı halda dilləndi:

- Əşi, vallah, sən lap dəlisən. Məgər bilmirsən hamı öləcək.
- Axı mən istəmirəm Zülfü ölsün...

Qurban əmi bir qədər əsəbi və düşüncəli halda dedi:

- Qızım, sən nə danışırsan. Cabbara qalmayan dünya heç kəsə qalmayacaq. Bəs onda gör bu qoca əmin nələr çəkib... Bəs sən dağı-daşı dilə gətirən İslamı, ağacdan bülbülü aşağı saldıran Ələsgəri, daş ürəkləri quymaq kimi yumşaldan Həmidi dinləsəydin nə edərdin?! Eh, qızım, dünyanın işi belədir, gələn bir gün gedəcək...

Qurban əmi cib dəsmalını çıxarıb qadının göz yaşlarını silə-silə mehriban səslə ona təsəlli verdi:

- Qızım, sənin Zülfün heç bir vaxt ölməyəcək. Onun səsi «Segah» yaşadıqca səslənəcək. Əgər istəyirsənsə Zülfünün həmişə səsini eşidəsən. Onda sabah bizə təşrif buyur. Ona çaldığım «Rast» qrammofon valını sənə bağışlayım...

Qurban əminin bu xoş sözlərini eşidən qadın yerindən sıçrayıb iki qollarını qoca tarzənin boynuna salaraq üzündən öpdü, sevincək halda dedi:

- Qurban əmi, çox sağ olun, hörmətinizə görə son dərəcə minnətdaram, bir daha ağlamaram, - deyib xudahafizləşib getdi...

Mənə elə gəlir ki, Zülfünü sağ ikən ağlayan qadın haqlı idi. Sənətkara ölüm yaraşmır. Əslində əbədiyyətə qovuşan Zülfü kimilər öz böyük sənəti ilə ölməzdir. Buna baxmayaraq nadir sənətkarların istər sağlığında, istərsə də ölümündən sonra irsini arayıb-axtarmaq, toplamaq, hifz etmək və öyrənmək, onu yaşatmaq demək olardı. O dünya gözəli haqlı idi. Çünki onun hönkürtüləri bizi bir daha sənətə, sənətkara qiymət qoymaq, onları qorumaq, onların hər cürə nazını çəkməyə çağırırdı... Özü də haqlı olaraq çağırırdı. Bəzən biz xalq yolunda canını, sənətini fəda etmiş sənətkara qarşı laqeydlik edirik, onu lazımi qədər qiymətləndirmirik. Lakin onu itirdikdən sonra dizimizə döyüb, pencəyimizin ətəyini gəmirib heyifsilənirik. Hər şey əldən çıxandan sonra onun qədr-qiymətini başa düşürük...



Zülfü Adıgözəlovu öz sədəfli tarında uzun illər müşayiət etmiş məşhur tarzən Soqomon Seyranov

Mən dəfələrlə demişəm, bir daha demək istəyirəm. Biz bəzən necə nadir sənətkarlarla müasir olduğumuzu, yanaşı addımladığımızı unuduruq.

Zülfü kimi muğam ustadlarını unutmamaq, onların adını əbədiləşdirmək üçün köhnə qrammofon vallarının üzünü köçürmək, təzələmək lazımdır. Musiqi irsimizi öyrənmək xatirinə bu işləri görmək vacibdir. Bu məsələ musiqi ictimaiyyətini, habelə dinləyiciləri düşündürməli, narahat etməlidir.

* * *

Ürəkdən gəlməyən səs nə məlahətli, nə də təsirli ola bilməz. Zülfünün ürəklə oxumağı, aydın diksiyası və gözəl qəzəlxanlığı onu bir nəğməkar kimi məşhur etmişdir. O, hələ 1930-cu illərdə həkim A. İoanesyanın rəhbərlik etdiyi Şərq Orkestrinin tərkibində İrəvan, Tiflis, Kiyev, Minsk şəhərlərində çıxış edərkən özünün böyük sənəti, zəngin səsi ilə dinləyiciləri məftun etmişdi. Zülfü harada çıxış edirsə etsin, onun konsertləri böyük müvəffəqiyyətlə keçirdi. O, hər yerdə hörmət və məhəbbətlə qarşılanardı. Tamaşaçılar onu dinləməkdən doymaz, səhnədən buraxmaq istəməzdilər.

Zülfü öz sənətinə münasibətində son dərəcə tələbkar idi. O, məclislərdə, konsertlərdə çıxış ərəfəsində həmişə daxilən narahatlıq keçirmiş, həyəcanlı olmuşdur. Təsadüfi deyildir ki, o, 60 yaşında da cavanlıq həvəsi, yaradıcılıq ehtirası ilə oxuyur, hamını heyran qoyurdu.

Zülfü əsl milli muğam ənənələrini sənətkar kimi yaşadar, öz sənətində yad ünsürlərə yol verməzdi. O, muğam ifaçılığında milli musiqiyə xas olan improvizasiya və variasiya elementlərini ifaçılıq priyomları ilə birləşdirməklə muğamları zənginləşdirərdi. Bununla belə Zülfü muğamları ifa edərkən Şərqin zəngin musiqi irsinə də biganə qalmazdı. Bu isə ona muğamlara melodik bəzəklər vurmaq imkanı verirdi.

Zülfü öz təkrarolunmaz sənəti, qabiliyyəti ilə insana dərin hisslər, böyük fikirlər aşılamaqla, eyni zamanda insanda bədii həyəcan belə oyadırdı.

Zülfü oxumurdu, şirin nağıl söyləyirdi. Ona qulaq asanda elə bil ustad bir şair ilham məhsulu olan şer oxuyur və yaxud mahir bir rəssamın fırçasından çıxmış ifadəli bir tablonu seyr edirsən.

Zülfü oxumağının gücü təkcə ariflər məclisini şənləndirmək olmamışdır. O, özünün böyük sənəti ilə hətta «Emosional savadsızları», yəni ədəbiyyata, şerə, musiqiyə biganə, həm də laqeyd olanları belə ehtirasa gətirib onları musiqini dinləməyə təhrik edərdi.

Zülfünün xalq içərisində populyar olmağının bir səbəbi də başqa müğənnilərə nisbətən daha sərbəst oxuması, insanın mənəvi aləmini əks etdirməsi, eyni zamanda özünün fikir aydınlığı, intonasiyası və oxumağının sadəliyi ilə xalqa yaxın olması idi.

Zülfü klassik xanəndələrin zəngin təcrübəsini öyrənməklə onu yaradıcılıqla dərk edib, eyni zamanda doğma musiqi folkloruna əsaslanmışdı.

Zülfünün sənəti əsl sənətdir, böyük sənətdir, mənalı və son dərəcə gözəl sənətdir, bir sözlə həqiqi xalq sənətidir. Böyük sənət isə insanları öz qüdrətli və sehirkar təsiri altına almaya bilməz.

Böyük sənətkar ömrünün son illərində musiqi məktəblərində muğam dərsi verirdi. Onun bir çox istedadlı şagirdləri vardır. Hətta Mütəllim Mütəllimov, Qənbər Zülalov, Həşim Kələntərli, Cahan Talışinskaya, Sürəyya Qacar, Sahib Şükürov, İldırım Həsənov, Əbülfət Əliyev, Yaqub Məmmədov kimi mahir müğənnilər Zülfü sənətindən çox şey öyrənmişlər. Lakin heç kəs Zülfü sənətini, xüsusilə onun muğamlarda işlətdiyi nadir və çətin priyomları təkrar edə bilməmişdir.

Burada yeri gəlmişkən bir haşiyə çıxmaq istərdim. Son zamanlar səsi-səmiri olmayan, lakin zor ilə xanəndəlik eşqinə düşən bəzi «nağaraçılar» Zülfünü hələ onun sağlığında belə guya «yamsılaya» bildiklərini və bundan Zülfünün guya «əsəbiləşdiyi» kimi dərviş bayatıları söyləməklə özlərini gülünc vəziyyətdə qoyurlar. Sənətdə «mənəm-mənəm» deyən bu cılız «xanəndələrin» nəzərinə çatdırmaq istərdim ki, pişik balası şirə necə bənzəyirsə onlar da Zülfüyə elə bənzəyirlər...

Zülfünün sənəti rəngarəng və çoxcəhətli idi. O, qardaş xalqların mahnılarını da böyük sənətkarlıq məharətilə oxuyurdu. Biz həmişə onun ətirli, məlahətli, xoş səsini eşidəndə milli iftixar hissi ilə düşünürdük ki, belə gözəl, qüdrətli və cazibədar xanəndəmiz var. Özümüzü bəxtəvər sayırdıq ki, Zülfü bizim müasirimizdir, onun ilə durub-oturur, tez-tez həm nurlu sifətini görür, həm də gözəl səsini eşidirdik və belə ümid edirdik ki, hələ o, uzun illər öz gözəl, şirin oxumaqları ilə məclislərimizi bəzəyəcək, toy-düyünlərimizi şənləndirəcəkdir. Lakin biz yanılırdıq. Görünür, atalar haqlı demişlər: «Sən saydığını say, gör fələk

nə sayır». Heç ağlımıza belə gətirməzdik ki, 1963-cü il 31 may axşamı tarzən Hacı Məmmədovun evində qurulan məclisdə öz köhnə sənət dostunun müşayiətilə oxuyan Zülfünün şirin səsi iyunun 1-nə keçən gecəsi qəflətən susacaqdır...

## Xan Şuşinski



«QARABAĞ gözəldir. Onun keçilməz dağlarını, qayalarını, qalın və ayaq dəyməmiş meşələrini, dağ sellərini, şəffaf bulaqlarını Azərbaycan şairləri öz şerlərində az tərənnüm etməmişlər. Uca dağlar döşündə Şuşa şəhəri düşmüşdür.

Şuşa nəinki özünün gözəl təbiəti, yüksək ahəngdar və poetik mədəniyyəti ilə də şöhrət tapmışdır. Şuşanı əbəs yerə musiqi və poeziyanın beşiyi adlandırmırlar. Demək olar ki, Azərbaycanın bütün məşhur oxuyanları və çalanları Şuşada doğulmuşlar».[347]

Ölməz xalq şairi Səməd Vurğunun «musiqimizin beşiyi» adlandırdığı Şuşanın milli mədəniyyətimizə bəxş etdiyi nadir incilərdən biri də sevimli müğənni Xan Şuşinskidir.

Xan Şuşinski 1901-ci il avqust ayının 20-də Şuşada andan olmuşdur. Xanın əsil adı İsfəndiyar, atasının adı Aslan ağa, familiyası isə Cavanşirdir. Oxucu haqlı olaraq soruşa bilər: bəs nə üçün İsfəndiyar Cavanşirə Xan Şuşinski deyirlər? Bu sualın cavabı maraqlı bir hadisə ilə əlaqədardır.

1918-ci ilin payız fəsli idi. Qarabağın bağlı-bağatlı kəndlərindən biri olan Novruzluda güllü-çiçəkli bir həyətdə gözəl məclis qurulmuşdu. Məlahətli səsi, kədərli guşə və xalları ilə «Segah» muğamını incə bir zövq ilə ifa edən məşhur müğənni İslam Abdullayev öz şagirdi 16 yaşlı İsfəndiyarla məclisə dəvət olunmuşdu. Toy başlanmazdan əvvəl qonaqlar kölgəlikdə dincəlirdilər. Xanəndə İslam məclis sahibinə dedi:

- Bacıoğlu, pəncərədə gözümə qrammofon dəyir. Gəlsənə biz çayımızı içənə kimi bir-iki val oxudasan. Ev yiyəsi:

- Baş üstə, - deyərək qrammofonu işə saldı. Təbrizli Əbülhəsən xanın «Kürd-Şahnaz»da vurduğu sürəkli zəngulələr qonaqları valeh etdi.

Gənc İsfəndiyar hələ 12-13 yaşlarında olarkən Cabbar Qaryağdı oğlunun, Seyid Şuşinskinin və Əbülhəsən xanın qrammofon vallarını oxudardı. O, qrammofon vallarında Cabbarın «Mahur»una, Seyidin «Çahargah»ına və xüsusilə Əbülhəsən xanın «Kürd-Şahnaz»ına saatlarla qulaq asar, bu böyük sənətkarların vurduqları guşə və xalları olduğu kimi təqlid edərdi.

---

[347] Səməd Vurğun. X.B.Natəvan. “Правда” qəzeti, 23 may 1940-cı il.

Xanəndə İslam şagirdinin Əbülhəsən xanın sənətinə olap meylini bildiyindən üzünü İsfəndiyara tutub:

- İsfəndiyar, gəlsənə sən də bizim üçün bir «Kürd-Şahnaz» oxuyasan, - deyə qavalı ona verdi. İslamın bu sözü sanki qonaqların ürəyindən oldu. Hamı bir səslə: - Bu çox gözəl olar - dedi.

İsfəndiyar məclis əhlinin sözünü yerə salmayıb tarzən Tatevosun sağ tərəfinə keçdi. Makiç də kamançasını kökləyib çalmağa başladı. İsfəndiyar Əbülhəsən xanın oxuduğu «Kürd-Şahnaz»ı son dərəcə zil səslə ifa edib qavalı İslama verdi. Hamı heyrətə gəldi: «Əsl Xan bu imiş ki?» - deyə qonaqlar bir-birini mənalı baxışlarla süzdülər. Vəziyyəti belə görən İslamın şadlığının həddi-hüdudu yox idi. O, qürurla dilləndi:

- İsfəndiyar! Bu gündən sənin adın oldu Xan Şuşinski.

Bu məclisdən sonra Xanın şöhrəti uzaqlara yayılır. O, İslam Abdullayevlə 1919-cu ilin yayına qədər əməkdaşlıq edir və öz müəllimindən «Mirzə Hüseyn segahı»nı, «Rast»ı, «Şüştər»i, «Qatar-bayatı»nı və bir çox el mahnılarını öyrənir. Qeyd etməliyik ki, İslamdan sonra Xanın bir müğənni kimi yetişməsində böyük xanəndələrimiz Cabbar Qaryağdı oğlunun və Seyid Şuşinskinin böyük təsiri olmuşdur.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Xan Şuşinskinin inkişafı üçün gözəl şərait yarandı. Bir zamanlar çayxanalarda, toy mağarlarında eşidilən Xanın səsi geniş və işıqlı konsert salonlarından, fəhlə klublarından, pambıq çöllərindən, radiodan, bir sözlə, xalq şənliklərindən gəldi. Çox keçmədən onu Azərbaycanın kənd və şəhərlərində tanıdılar.

1920-ci ilin axırlarında Bakıdan Qarabağa Qızıl Ordu hissələri ilə bir təşviqat briqadası gəlmişdi. Həmin briqadanın tərkibində Azərbaycanın xalq xanəndəsi Cabbar Qaryağdı oğlu da var idi. Xan Şuşinski bu briqadaya qoşularaq bir çox rayon və kəndlərdə verilən təşviqat konsertlərində çıxış etmişdi.

Xan Şuşinskinin neft Bakısında ilk çıxışı 1923-cü ildə olmuşdur. O zaman şəhərdə yay konsertləri yenicə başlamışdı. Bir gün bakılılar şəhərin küçələrinə vurulmuş afişalarda o vaxtadək əsla tanımadıqları bir xanəndənin adına rast gəldilər: «Xan Şuşinski».

Şuşadan gəlmiş 22 yaşlı xanəndəni dinləmək üçün axşam şəhərin bütün mədəniyyət və incəsənət xadimləri, musiqi həvəskarları «Müdafiə evi»nin (indiki Dövlət Filarmoniyası) binasına toplaşdılar. O vaxtadək Cabbar Qaryağdı oğlunu, Şəkili Ələsgəri, Keçəçi oğlu Məhəmmədi və Seyid Şuşinskini dəfələrlə dinləmiş olan Bakı tamaşaçıları qarşıdakı konsertə böyük maraq göstərirdilər. Adlarını çəkdiyimiz məşhur xanəndələr oxuduqdan sonra konferansye səhnədə yenidən göründü.



Şuşa. XIX əsrin əvvəlləri

- «Heyratı». Oxuyur Xan Şuşinski!

Salonu tam sakitlik bürüdü. Lakin bu sakitlik tarzənin vurduğu son mizrabadək davam etdi:

Xanəndə oxuyub qurtardı, yerindən qalxdı və tərəddüd içində bir neçə dəfə tamaşaçılara tərəf baş əydi. Elə bu an salon təlatümə gəldi: «Sağ ol! Afərin!», «Halal olsun!» səsləri sürəkli alqış sədalarına qarışdı. İsfəndiyar yerində donub qaldı, nə edəcəyini bilmədi. Onun bu vəziyyətini görən təcrübəli tarzən Qurban Pirimov İsfəndiyar tərəfə əyilib gülərüzlə dedi: Şəki. XX əsrin əvvəllərində.

- Di durma, bir mahnı da oxu.

İsfəndiyar yalnız bundan sonra özünə gəldi. O, tamaşaçılara bir daha baş əyəndən sonra «Qatar» muğamını, daha sonra «İrəvanda? xal qalmadı» mahnısını ifa etdi.

Respublika qəzetləri Xan Şuşinskinin bu gözəl çıxışları haqqında rəylər dərs etmişdi.

Bakı səfərindən müvəffəqiyyətlə qayıdan Xan Şuşinski 1924-1928-ci illərdə Stepanakertin və başqa şəhərlərin hərbi hissələrində qızıl əsgərlər qarşısında dəfələrlə konsert verir.

İstedadlı müğənni Xan Şuşinski 1928-ci ilin avqust ayında Gürcüstan İncəsənət İttifaqı (RABİS) tərəfindən Tiflis şəhərinə dəvət edilir. Xanın ilk dəfə Tiflisə gəlişi şəhərin musiqi? həvəskarlarının hədsiz sevincinə səbəb olur. Xan tarzən Bala Məlikov və kamançaçı Levon Qaraxanovun iştirakı ilə Nəriman Nərimanov adına klubda konsert verir. O, son dərəcə müvəffəqiyyətli çıxışları ilə

çoxmillətli Tiflis tamaşaçılarını heyran edir. Xanın gözəl səsinin sədası Ermənistan respublikasına yayılır. Sentyabrın əvvəllərində Xan tarzən Bala Məlikov və kamançaçı Karo ilə İrəvan Şəhər Maarif Evində bir neçə dəfə oxuyur. O zamankı afişaların birində yazılmışdı: «Birinci dəfə şəhərimizdə məşhur oxuyan Xan Şuşinskinin konserti olacaqdır».

Xanın incə səsindən doymayan dinləyicilər hər dəfə ona «Heyratı», «Arazbarı», «Mahur-Hindi», «Bayatı-Qacar» muğamlarını və «İrəvanda xal qalmadı» mahnısını dönə-dönə oxutdurmuşlar. İrəvandakı çıxışlardan sonra Naxçıvan şəhərinə dəvət edilən Xan burada da zəhmətkeşlər qarşısında böyük proqramla çıxış edir.

1930-1934-cü illərdə Xan dəfələrlə Bakı şəhərinə dəvət edilmişdi. Bu illər Xanın konsertləri daha maraqlı və müvəffəqiyyətli olmuşdu. O dövrün mətbuatında Xanın Bakıya gəlməsi xəbəri qəzetlərin səhifələrində xüsusi elanlarla xəbər verilmiş, nəğməkarın çıxışları haqqında maraqlı rəylər yazılmışdı. O zaman «Yeni yol» qəzetində «Xalq mahnılarının böyük ustası» adlı məqaləsi ilə çıxış edən jurnalist İsrafil Cahangirov yazmışdı:

«Qarabağdan dəvət olunmuş məşhur xanəndə Xanın konsertləri böyük müvəffəqiyyətlə keçdi.

Artıq Xan bir xanəndə deyil, bəlkə də xalq mahnılarının böyük ustası olduğunu isbat etdi. Xanın çıxışları tamaşaçıların sürəkli alqışları ilə qarşılanırdı.

Xan incə və şirin tenor səsinə malik olmaqla oxumaq sahəsində misli görünməmiş ustalıq göstərdi.

Xanın zəngulələri (koloratura) onun oxumaq sənətinə yüksək dərəsədə çatdığını göstərir».[348]

«Kommunist» qəzeti isə yazmışdı:

«Son dərəcə müvəffəqiyyətli çıxışları ilə Bakı tamaşaçılarını heyrətə gətirən Xan heç bir musiqi təhsili görmədən Qarabağda özbaşına əmələ gəlib yetişən qüvvələrdəndir.

Xan... qardaşı Allahyarın müşayiəti ilə insanı həyəcana gətirən və tarda çalınan havalara uyğun, sərbəst halda, hər bir muğamı bəmdən başlayıb sonradan orta səsə keçir və nəhayət çıxışını zildə oxumaqla bitirir. Xanın zildəki zəngulələri misilsiz və unudulmazdır.[349]

Bütün Zaqafqaziyada bir xalq sənətkarı kimi məşhur olan Xanı 1934-cü ildə Tiflis şəhərində keçirilən Zaqafqaziya xalqlarının birinci incəsənət olimpiadasına dəvət edirlər. Həmin olimpiadada üç qardaş respublikanın ən məşhur oxuyanları çıxış edirdi. Konsertlərdə Xan böyük müvəffəqiyyət qazanaraq birinci mükafata layiq görülmüş və Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin birinci dərəcəli Fəxri Fərmanı ilə təltif edilmişdi.

[348] Bax: "Yeni yol" qəzeti, 4 noyabr 1930-cu il, № 255.
[349] "Kommunist" qəzeti, 9 oktyabr 1932-ci il.

Zaqafqaziya olimpiadasından doğma vətəni Qarabağa qayıdan Xan Ağdamın kolxoz tarlalarında kənd zəhmətkeşlərinə konsertlər vermişdi. Bu münasibətlə Ağdam şəhərində çıxan «Lenin yolu» qəzəti 5 iyul 1935-ci il tarixli nömrəsində yazmışdı:

«Cümhuriyyətimizin ən məşhur və Zaqafqaziya olimpiadasında birinciliyi qazanmış xalq xanəndəsi Xan Şuşinski yoldaş kolxozçularımıza bədii zövq vermək üçün rayonun pambıq kolxozlarına getmişdi».

Xan Şuşinski eyni zamanda hərbi hissələrdə tez-tez konsertlər verirdi. 1935-ci ildə öz dəstəsi ilə Stepanakert şəhərində yerləşən hərbi hissəni hamiliyə götürən Xan dörd il bu hissələrdə konsert vermişdi.[350] Yeri gəlmişkən qeyd edək ki, Azərbaycan musiqiçiləri arasında Xan qədər hamilik konsertləri verən ikinci sənətkar olmamışdır.

Xan Şuşinski 1944-cü ildə Azərbaycanın bir qrup incəsənət nümayəndələri ilə birlikdə İrana getmiş, Tehran, Təbriz, Ərdəbil, Qəzvin, Rəşt və başqa şəhərlərdə verilən konsertlərdə müvəffəqiyyətlə çıxış etmişdi.[351]

Xan həmin vaxt Tehranın Şimran qəsrinə, şahın sarayına dəvət edilmişdi. Şah məclisində tarzən Allahyar Cavanşirovun və kamançaçı Hafiz Mirzəliyevin müşayiəti ilə «Mirzə Hüseyn segahı» və «Qarabağ şikəstəsi»ni böyük məharətlə oxuyan müğənnimiz şah tərəfindən qiymətli hədiyyələrlə mükafatlandırılmışdı. O zaman Xanın müvəffəqiyyətli çıxışları haqqında Tehranın bütün qəzetlərində müsbət rəylər yazılmışdı.

1944-cü il dekabrın 17-dən 27-dək Tbilisidə Zaqafqaziya respublikalarının musiqi dekadası keçirilmişdi. Həmin dekadada Azərbaycanın bir çox məşhur incəsənət ustaları ilə birlikdə Xan Şuşinski də iştirak etmişdi.

Ongünlüyün üçüncü konserti dekabrın 26-da Z. Paliaşvili adına Tbilisi Dövlət Opera və Balet Teatrında oldu. Konsertdə Xan Şuşinski «Qatar» və «Yeri dam üstə yeri» mahnısını oxudu. Xanın özünəməxsus xüsusi bir ustalıqla oxuduğu «Simayi-şəms» muğamı böyük müvəffəqiyyət qazandı.[352] Həmin konsertdə Xanın, Bülbülün, Qurban Pirimovun çıxışlarını yüksək qiymətləndirən bəstəkar Üzeyir Hacıbəyov yazmışdı: «Azərbaycanın üçüncü konsertinin proqramına klassik musiqinin (muğamlar) və xalq musiqisinin nümunələri daxil idi. Bunlar milli melodiyalarımızın bütün gözəllik və cazibədarlığını dinləyicilərə çatdırmışdır.

Həmin konsert Azərbaycan musiqisində xalq yaradıcılığının nə qədər dərin kök saldığını bir daha aydın surətdə göstərdi.

Dekada təkcə «Azərbaycan musiqisi yaradıcılığının» nailiyyətlərini deyil, həm də bizdə ifaçılıq məharətinin xeyli artdığını nümayiş etdirdi. Bunu SSRİ xalq

---

[350] Bax: Qızıl nişançı» qəzeti, 1 may 1936-cı il.
[351] Bax: "Şəfəq" jurnalı, Təbriz, 1945-ci il, № 3.
[352] Bax: "Zarya Vostoka" qəzeti, 27 dekabr 1944-cü il; "Bakinski raboçi" qəzeti, 29 dekabr 1944-cü il.

artisti Bülbül, Azərbaycan SSR xalq artistləri Qurban Pirimov, Xan Şuşinski və başqa görkəmli səhnə ustalarının çıxışları göstərdi».[353]

Azərbaycan klassik muğamlarının gözəl təbliğatçısı olan sevimli müğənnimizin adı və sənəti qardaş erməni dinləyicilərinə də geniş məlumdur. 1957-ci ilin yanvar ayında Yerevanda 15-ə qədər konsert verən Azərbaycan müğənnisini erməni dinləyiciləri alqışlarla qarşılamışdı. Yerevanda çıxan «Kommunist» qəzeti 19 yanvar 1957-ci il tarixli nömrəsində yazmışdı: «Muğamların ifaçısı Azərbaycan SSR xalq artisti Xan Şuşinski bizim dinləyicilərə yaxşı tanışdır. Xanı dinlərkən virtuoz ifaçılığına, səsinə aydın və rəngarəng boyalar verməsinə heyran qalırsan.

Xan Şuşinski məşhur muğamlardan «Zabul-segah»ı, «Qarabağ şikəstəsi», «Qara tellər» nəğməsini və başqa Azərbaycan mahnı və duetlərini, həm də erməni mahnılarını müvəffəqiyyətlə ifa etdi».

Xanın iştirakı ilə verilən konsertlərdən bəhs edən «Avanqard» qəzeti də məşhur müğənninin ifaçılığını yüksək qiymətləndirmişdi.[354]

1959-cu il Vətənimizin paytaxtı Moskvada keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündə Xan Şuşinskinin incə və gözəl səsi Moskva tamaşaçılarını da valeh etmişdir. O, Çaykovski adına konsert salonunda, fabrik və zavodlarda Füzulinin, Vaqifin və Səməd Vurğunun şerlərini «Kürd-şahnaz» və «Heyratı» üstündə oxumuşdu. Onun xüsusi bir zövqlə ifa etdiyi «Qarabağ şikəstəsi» nəinki Böyük Teatrda toplaşan tamaşaçıları, hətta görkəmli musiqiçiləri belə heyran etmişdi. O zaman paytaxt qəzetlərinin, xüsusilə «Pravda» və «İzvestiya»nın səhifələrində Xanın konsertləri, onun məlahətli səsi və xalq mahnılarını ustalıqla ifa etməsi haqqında yaxşı rəylər yazılmışdı.[355]

Xanın xalq arasında böyük müvəffəqiyyət qazanmasına səbəb onun yalnız geniş səs diapazonuna malik olması deyil, eyni zamanda Azərbaycan klassik musiqi və mahnı mədəniyyəti ilə geniş xalq kütlələrini tanış etməsidir. O, xalq xanəndəliyini yüksək sənət dərəcəsinə çatdırmışdır.

Xan uzun illər xanəndəlik təcrübəsi nəticəsində Azərbaycan milli musiqisini dərindən öyrənmək, ifa və təbliğ etmək yolunda görkəmli nailiyyətlər əldə etmişdi. O, saysız-hesabsız el havalarının, zəngin və mürəkkəb muğamatın mahir bilicisi idi. Qədim xalq mahnılarını, təsnifləri və xüsusilə muğamları ustalıq və şövqlə ifa etməkdə Xan ilə yarışmaq başqa xanəndələr üçün asan olmamışdır.

Xan sözün tam mənasında vokal texnikasına yiyələnmişdi. O, nadir hallarda təsadüf edilən güclü səsə malik idi. Səsini istədiyi kimi və istənilən tərzdə idarə etməkdə, texniki ustalıqda, cəhcəhli, zəngulələr vurmaqda bir çox məşhur xanəndələr Xana həsəd aparmışlar. O, səsini elə oynadır ki, sanki fəvvarə vuran

[353] Ü.Hacıbəyov. Əsərləri, ikinci cild, Bakı 1965, səh. 349.
[354] Bax: "Avanqard" qəzeti, 19 noyabr 1957-ci il, № 9.
[355] Bax: "Pravda" qəzeti, 3 iyun, 1959-cu il, № 154; "İzvestiya" qəzeti, 23 may 1959-cu il, № 121.

bulaq gözünü andırır. Cəsarətlə demək olar ki, musiqi mədəniyyəti tariximizdə Cabbar Qaryağdı oğlu və Seyid Şuşinskidən sonra ritmik muğamları Xan kimi yüksək zövqlə oxuyan ikinci bir xanəndə hələlik yoxdur.

Xan Şuşinski həmişə muğamların ruhuna, mahiyyətinə uyğun qəzəl və qoşmalar tapıb seçirdi. O, klassik şairlərimizdən Füzulinin, Vaqifin, Zakirin, Seyid Əzim Şirvaninin, Səməd Vurğunun əsərlərindən nümunəllri parlaq surətdə ifa edirdi. «Şur» muğamında Füzulinin:

Saqiya, cam tut ol aşiqə kim qayğuludur,
Qayğu çəkmək nə üçün, cam ilə aləm doludur.

rədifli qəzəlini, yaxud «Rast» muğamında isə:

Heyrət, ey büt, surətin gördükdə lal eylər məni,
Surəti halım görən surət xəyal eylər məni.

rədifli qəzəlini, xüsusilə zövqlə oxuyurdu.

O, istər klassiklərin, istərsə də müasir şairlərin lirik əsərlərini böyük həvəslə, eyni hərarətlə ifa edirdi.

Xan Şuşinski zəngin və çoxcəhətli yaradıcılığa malik bir xanəndə idi. Onun oxuduğu muğamlar təkcə Azərbaycanda deyil, bütün Yaxın Şərqdə məşhurdur. Xanəndələrimiz arasında Xan Şuşinski görkəmli yer tutur. Onu başqa xanəndələrdən fərqləndirən cəhətlərdən biri parlaq təbii istedada malik olmaqla öz xanəndəliyini yüksək sənət zirvəsinə qaldırmasında idi.

Xanın sənətində şablonluq meylləri yoxdur. O, muğam oxuyanda bəzi xanəndələr kimi sözçülüklə məşğul olmurdu. Muğamları səsinin diapazonuna görə oxuyurdu. Ölçüdən xaricə çıxmır, uzun, yorucu, duzsuz «çənə zəngulələri» vurub dinləyicini yormurdu. Hər dəfə yeni, şirin oynaq və həzin guşələr, xallar və nəfəslər vururdu. Məhz buna görə də dinləyici Xanın məlahətli səsindən doymazdı. Onun konsertlərinə gələn yüzlərlə tamaşaçı nikbin əhvali-ruhiyyə ilə salonu tərk edərdi.

Xan olduqca təvazökar, sadə, mehriban bir sənətkar idi. O, həmişə Cabbar Qaryağdı oğlunun, Şəkili Ələsgərin, Bülbülün, İslam Abdullayevin və Seyid Şuşinskinin adlarını hörmətlə çəkər, sənətkarlığı onlardan öyrəndiyini söyləyirdi.

Xanın ürəkaçan, insana zövq verən məlahətli səsini xalq şairi Səməd Vurğun öz şerində məhəbbətlə tərənnüm etmişdir:

Könlüm keçir Qarabağdan,
Gah bu dağdan, gah o dağdan.
Axşam üstü qoy uzaqdan,

Havalansın Xanın səsi,
Qarabağın şikəstəsi!..

Səməd Vurğun Xan Şuşinskinin səsinə, sənətinə məftun idi. Onun Bakıda, istərsə də Qarabağda qurduğu məclislər Xansız keçməzdi. Səməd hara dəvət olunsa idi çox vaxt Xanı özü ilə aparardı. Bu iki dostun son görüşləri 1955-ci il iyulun 18-də Şuşada, İsa bulağında olmuşdur. Səməd məni Xanın dalınca Ağdama göndərdi...

Mən Səmədin 09-61 nömrəli «Pobeda» markalı maşını ilə Ağdama getdim...

Ağdamda mənə dedilər ki, Xan Əhmədavar kəndindədir. Kəndə gələndə gördüm ki, Xan, tut ağacının altında oturub tut yeyir, qardaşı Allahyar isə çay içir. Xan məni görcək təəccüblə:

- Bəy, ə, Firi bala (Xan çox vaxt nəvazişlə məni belə çağırardı), sən hara, bura hara?

- Yol azmışam, - dedim.

- Ay canım, sən bicin birisən, yol azmazsan, - sonra yarıciddi halda səsləndi:

- Xeyir ola?

- Dostun gəlib, səni İsa bulağında gözləyir. Çox maraqlıdır ki, Xan soruşmadı ki, hansı dostum. Dərhal bildi ki, söhbət Səməd Vurğundan gedir.

Sonra başını bulayıb çiyinlərini çəkdi və gülümsəyərək dilləndi:

- Ay canım, Səməd ovcunun içini iyləmişdi? Nə bildi ki, mən buradayam?

- Xan, maşın gözləyir, vaxt da keçir. Tərpənmək lazımdır - deyib, onun qolundan tutdum, kənddən çıxdıq...

«İsa bulağı»nda bu iki dost elə səmimi, elə mehriban qucaqlaşdılar ki, elə bil uzun illər bir-birinin həsrətində olan doğma qardaşlar görüşürdülər...

Məclis qızışdı. Xan Səmədin ən çox sevdiyi «Mirzə Hüseyn» segahı»nı oxudu. Özü də Səmədin «Dünya» rədifli şerini muğam üçün mətn seçmişdi:

Ulduzlar havanın bağrını dəlir,
Qayalı dağlardan duman yüksəlir,
Xəyalım gecəni salama gəlir,
Çapdırır atını birbaşa dünya.

Yerlərə baxıram - bağçalı-bağlı,
Göylərə baxıram - qapısı bağlı.
Kainat ixtiyar, sirli-soraqlı,
Əzəldən yaranıb tamaşa dünya.

Bir də görürsən ki, açılan solur,
Düşünən bir beyin, bir torpaq olur,

Bir yandan boşalır, bir yandan dolur,
Sirrini verməyir sirdaşa dünya.

Əzəldən belədir çünki, kainat,
Cahan daimidir, ömür amanat.
Əldən-ələ keçir vəfasız həyat,
Biz gəldi-gedərik, sən yaşa, dünya!

Buludlar dağılır uzaqda lay-lay,
Yenə öz yerində yuvarlanır ay,
Fəqət nə Cəlal var, nə də ki, humay,
Nə ömrə acıyır, nə yaşa dünya.

Şer misra-misra səsləndikcə meşənin hər yanından «Ay can, ay can», «Min yaşa», «Sənə nənəm qurban», «Şairə eşq olsun» sədaları ucalırdı. O günü «İsa bulağı»nın başqa hüsnü var idi. Sərin meşə... Soyuq bulaq... Xanın gözəl səsi, Səməd Vurğunun şair nəfəsi «İsa bulağı»na başqa gözəllik verirdi. Məclisin axırında Xan Səməd Vurğundan xahiş etdi ki, bir-iki ağız desin. Yaxşı yadımdadır, Səməd Vurğun tarzənə müraciət etdi:

- Ayə, Allahyar, o tarı «Yetim segah» üstündə köklə, bəri ver.

Səməd Vurğun tarı döşünə basıb sarı simlərdə gəzişdi. Bir qədər keçməmiş meşəni yanıqlı və həzin bir səs bürüdü... Bulaq ətrafındakı səkilərdə dincələn yüzlərlə adam bizi dövrəyə aldı. Hamı heyrətlə Səməd Vurğunu dinləyirdi. Səməd Vurğun son dərəcə aydın diksiya ilə Aşıq Ələsgərdən oxuyurdu...

Səməd «Segah»ı pəsdən oxuyub qurtaranda meşəni alqış bürüdü. Xanın:

- Əmi oğlu, axı sən Vaqifi çox sevirsən, bəs niyə Vaqifdən yox, Ələsgərdən oxudun? - sualını eşidən Səməd dərindən ah çəkib dedi:

- Ay xan, Vaqif də bizimdir, Ələsgər də. Hər ikisi böyük sənətkardır. Amma nədənsə xəyalımı gəzdirən Qarabağ dağlarını seyr etdikcə istər-istəməz Ələsgərin «Dağlar» şeri yadıma düşdü. Xüsusilə böyük ustadın bu sözləri ürəyimi titrədir:

...Nə oldu səndəki qurğu-büsatlar?!
Ariflər görsələr tez bağrı çatlar;
Mələşmir sürülər, kişnəmir atlar,
Niyə pərişandır halların, dağlar!

Hanı səndəki o yaylayan ellər?!
Görəndə gözümdən car olur sellər..
Nə oldu səndəki türfə gözəllər

Sancılmır buxağa güllərin, dağlar!

İyitlikdə Eldar nurələn-nurdu,
Gəlmədi gözəllər boş qalıb yurdu
Ərkək kəsib, ağır məclis qururdu,
Şulən çəkilirdi malların, dağlar!

...Həsəndədə, Həsənbaba qocadı,
Xaçbulaq yaylağı xoş tamaşadı,
Arsız aşıq elsiz nəyə yaşadı!?
Ölsün Ələsgər tək qulların, dağlar!

Səməd Vurğun aşıq Ələsgərin «Dağlar» qoşmasını əzbərdən deyəndə Allahyar tarı ondan alıb «Kəsmə şikəstə» çalmağa başladı. Xan isə həmin sözləri şikəstə üstündə oxudu...

O günü Səməd Vurğunun «İsa bulağı»nda qurduğu məclis gecədən xeyli keçənədək davam etdi... Artıq dan yeri sökülürdü... Meşənin bülbülləri yuxudan oyanmışdılar... Bunu görən Səməd üzünü Xana çevirdi.

- Ay Xan, ayə, eşidirsənmi səhər bülbülləri yuxudan oyanıblar. Xan mehribancasına gülümsəyərək başını buladı:

- Əmi oğlu, indi nə demək istəyirsən, nə qayıraq? Səməd Vurğun yarıciddi, yarızarafatla:

- Necə yanı nə qayıraq? Niyə, görmürsən bu səhər bülbülləri səni yarışa çağırır?

Sonra Səməd daha ciddi halda:

- Onları susdurmaq lazımdır.

- Nə ilə? - Xan gülümsər halda dilləndi. Səməd hökmüranə tərzdə:

- «Qarabağ şikəsti» ilə! Sonra Səməd Vurğun vüqarla əlavə etdi:

- Qoy bu sərin meşələr, əzəmətli dağlar, hətta bizə həsrəti-həsrəti baxan o nurlu dan ulduzu belə Qarabağ bülbüllərinin deyişmələrini eşitsinlər.

Səmədin bu sözləri hamının ürəyindən oldu. Məclisdəkilər, hamı birağızdan «Qarabağ şikəstəsi» deyib Xanı alqışladılar.

Şübhəsiz ki, Xanın başqa çarəsi yox idi. Səmədin və məclisdəkilərin xahişini nəzərə alıb Allahyara dedi:

- Qardaş, başla görək.

Bir qədər keçməmiş Xanın cazibədar səsi və cingiltili zəngulәsi meşəni yenidən rövnəqə gətirdi... Nədənsə bu dəfə Xan şikəstə üstündə çox dərdli-kədərli sözlər oxuyurdu:... Elə bil hiss edirdi ki, bir də Səməd ilə görüşməyəcək... və təsadüfi deyildir ki, şikəstəni bu sözlərlə qurtardı:

İsa bulağının meşəsi,
Sındı qəlbimin şişəsi.
Dostundan ayrı düşənin
Ağlamaq olar peşəsi.

Xan qavalı yerə qoyar-qoymaz yenə də meşəni alqış sədaları bürüdü.

Səməd Vurğun da son dərəcə məyus idi. Dostunu kədərli görən Xan dilləndi:

- Əmi oğlu, yenə nə olub? Niyə pərişansan?

Səməd Xana yaxınlaşıb onu bərk qucaqladı. Sonra ətrafdakılara nəzər salıb bir daha Xanı bağrına basıb vaxtı ilə sevdiyi bir qıza yazmış olduğu qəzəlin bu misralarını gözləri yaşarmış halda əzbərdən dedi:

Sus ey bülbül, kəs ey tufan, məramım istirahətdir,
Bu yerlərdə payım yoxumuş, əlacım bir səyahətdir;
Ölüm!.. Ey vah, o nemətdir, o bir şanlı səadətdir.
Əgər vaxtsız ölərisəm rəqibim bəxtiyar olsun.

Çox qəribə, həm də maraqlı idi ki, niyə həmin dəqiqələrdə Səməd Vurğunun yadına məhz onun intim qəzəlinin kədərli sözləri yadına düşdü.

Dünyada nələr olmur?.. Doğrudan da o gün heç kəsin ağlına gəlməzdi ki, bugünkü məclis Xan Şuşinski ilə Səməd Vurğunun son məclisi idi... Bir də bu iki nəğməkar görüşməyəcəklər... Bu hadisədən doqquz ay sonra Səməd Vurğun dünyadan vaxtsız köçdü...

* * *

Xanın səsini eşitdikdə istər-istəməz Qarabağın 30-cu illərinin insanı vəcdə gətirən şən məclisləri, toy-düyünləri yadıma düşür... Xanı ilk dəfə əmim qızı Fatmanın toyunda dinləmişəm. O zaman toylar çox təmtəraqlı, həm də mənalı keçirilərdi. Məclisə gündüzlər qadınlar, gecələr isə kişilər dəvət olunardı... Nə yeşiyə pul salardılar, nə də toy sahibinə paket verərdilər. Rəqs zamanı verilən şabaş isə yalnız musiqiçilərə çatardı. Özü də məclisdə hamını yox, ən gözəl rəqs etməyi bacaranları oynadardılar. O zaman ən dəbdə olan oyun havalarından məşhuru «Qəşəngi» havası idi ki, qız və gəlinlərin əksəriyyəti bu havaya, özü də Xanın iştirak etdiyi toylarda oynamağa can atardılar. Yaxşı yadımdadır, əmim qızının toyunda bizim qonşuluqda olan Şirniçi Yusifin qızı Qəməri oynatdılar. Onu da deyim ki, Qəmər «Qəşəngi»ni oynamaqda birinci olduğu kimi, gözəllikdə də Qarabağda birinci sayılırdı... Deyim ki, elə 35 yaşlı Xan da son dərəcə gözəl bir oğlan idi. Görünür, Xan anadan olan gün təbiət çox səxavətli olub: ona həm gözəl səs, həm də gözəl camal bəxş etmişdi. Xanın uca boyu, nurlu sifəti, çatma qaşları, qapqara şəvə kimi saçları, xüsusilə saçının ortasındakı ağ «xalı» nəinki cavan

gəlin-qızları, hətta qocaları belə riqqətə gətirirdi. Üstəlik onun qəlbləri əsir edən, insanın ruhunu oxşayan, onun əsəblərini sakit edən, bir sözlə, dinləyicini məsti-xumar edən yumşaq səsi məclisi daha da şənləndirirdi. «Qəşəngi» havasını oynayanda Qəmərin gözəlliyindən, onun şirin-şirin süzməsindən ruhlanan Xan bədahətən Qarabağ gözəlinə bu sözləri qoşub mahnı üstündə oxudu:

Saçın ucun hörməzlər,
Səni mənə verməzlər,
Əyil üzündən öpüm,
Qaranlıqda görməzlər.

**Nəqərat**

Ay Qəmərim, Qəmərim,
Körpəcə Qəmərim, Qəmərim.
Şirin Qəmərim, Qəmərim,
Qəşəng Qəmərim, Qəmərim.
Denən gəlsin, balam gəlsin.
Yarım gəlsin, Qəmər gəlsin, hey...

Bu dərə uzun dərə
Yar baxdıqca uzun dərə
Burda bir bağ salmışam
Qəmər gələ üzüm dərə.

Xanın gözəl səsindən, onun şirin sözlərindən vəcdə gələn Qəmər özünün bütün məharətini büruzə verirdi... Bir yandan da məşhur qarmon ustası Abutalıbın həm duzlu, həm də şirin çalğısı Qəmərin rəvan və oynaq rəqs məharətini birə-beş artırırdı... Yadımdadır, Xanın gözəl oxumağından, Qəmərin sındıra-sındıra süzməsindən doymayan tamaşaçılar «Qəşəngi»ni bir neçə dəfə çaldırdılar. O zamanlar bizim «Köçərli məhləsi»ndə Xanın iştirakı ilə elə bir toy olmazdı ki, Qəməri oynatmasınlar.

Xan yay ayları Şuşaya istirahətə gələrdi. Onun hər gəlişi şəhər əhli üçün bir qələbəliyə çevrilərdi. Hamı sevinərdi... Camaatda elə bir şadlıq əhvali-ruhiyyəsi oyanardı ki, guya Xan özü ilə xəstə könüllərə şəfa gətirirdi. Hamı çalışardı ki, Xan dəvət olunan məclisdə, qonaqlıqda iştirak etsin. O vaxtları Xan gündüzlər şəhər bulvarında, gecələr isə Ağkişi oğlu Cəmilin restoranında oxuyardı. Buna görə gündüzlər bulvarda, gecələr isə restoranda yer tapmaq müşkül idi. Bəzən də Xan şəhərin «Çanaxqala» və «Cıdır düzü» kimi məşhur seyrəngahlarında oxuyanda bütün şəhər əhli buralara axışardı. Xanın insanı bihuş edən oxumağı, xüsusilə onun

vokal tarixində təkrarolunmaz bir məharətlə oxuduğu «Qarabağ şikəstəsi»nin təravəti Şuşanın romantik axşamlarının mənzərəsi ilə uyuşaraq göydə bir-birinə məhəbbətdən dəm vuran ulduzları belə hərəkətə gətirirdi. Bu sehirli səs pərdə-pərdə, dalğa-dalğa havalandıqca dinləyicini riqqətə gətirirdi. Qarabağın bu ülkər şikəstəsini zərif bir ahənglə, özü də qürurla oxuyan müğənninin səsindəki ülviyyətdən, pərvazlanan dinləyici sanki qartal qanadları üzərində əzəmətli Kirs və Qırxqız dağlarının zirvələrinə qalxıb gözəl Qarabağın təbiət zənginliyini övlad məftunluğu ilə seyr edirdi.

Müharibədən qabaqkı illərdə Qarabağda belə bir gözəl adət də var idi. Xanəndə dəstələrini nəinki toy şənliklərinə, həm də ailə qonaqlığına və şadlığına dəvət edərdilər. Burada yalnız qohum-əqraba, yaxın tanış və dostlar iştirak edər, xanəndəni dinləmək, çalıb-oynamaq imkanı daha çox olardı. Bizim ailənin də daimi xanəndəsi Seyid Şuşinski idi. Atam müğənnilər içərisində ən çox Seyidi bəyənərdi. Ona görə də həmişə ailə şənliyinə Seyidi dəvət edərdi... Əmim oğlu Qara isə Xanın kamança çalanı Rasim ilə yaxın dost olduğundan həmişə çalışardı ki, Xanın dəstəsi məclislərimizi şənləndirsin. Yeznəmiz Əbülfət isə Mütəllimdən başqa heç kəsə qulaq asmaq istəməzdi... Bəzən bizim ailə şənliklərində yay ayları vətəni Şuşaya qonaq gələn məşhur opera müğənnisi Eloğlu İsmayıl, Cahan Talışinskaya, Kamrabəyim, Məşədi Səfər oğlu Zeyniş, tarzən Abbasqulu ağa və öz məlahətli, pəsxan oxumağı ilə dağı-daşı dilə gətirən xanəndə Cəlil də iştirak edərdilər. Hərdənbir əmim oğlu bu sənətkarları şəhərin ən səfalı seyrangahı olan məşhur «İsa bulağı»na dəvət edərdi.

Yay vaxtları qalın meşənin içindən axan «İsa bulağı»nda həyat qaynayardı. Yüzlərlə ailə bulağın ətrafındakı «səkilər»ə düşər, istirahət edərdi... Bir yandan sarı bülbüllərin cəh-cəhi, tar, qarmon səsi, digər tərəfdən quzu kababının xoş iyli tüstüsü, Xanın unudulmaz «Qarabağ şikəstəsi» meşəni başına götürərdi. Hamı çalışardı ki, heç olmasa 15-20 dəqiqəliyə Xanı öz məclisinə dəvət etsin. Çoxları bunu özü üçün böyük səadət və fəxr bilərdi. Bəzən də Xanı dəvət etmək üçün növbəyə durardılar. Hərdən növbəyə duranlar arasında mübahisə, ciddi çəkişmə baş verərdi. Vəziyyət kəskin hal aldıqda Xan məsələyə qarışar, hamını razı salmaq üçün çox aram və mülayim səslə deyərdi:

- Ay canım, dava-şava nə lazım. Qoyun hərə getsin öz səkisinə, mən də çıxaram bulağın başına, oradan hamınız üçün oxuyaram...

Doğrudan da belə vəziyyət yarananda Xan öz dəstəsi ilə bulağın başında əyləşib hamının eşitməsi üçün xüsusi bir məharətlə «Qatar», «Heyratı», «Şahnaz» kimi zil səs tələb edən muğamlar oxumaqla meşənin bülbüllərini susdurardı...

Xanın şəhərdəki konsertləri daha izdihamlı olardı. Onun şirin səsini, duzlu nəfəsini dinləmək üçün nəinki şəhərə gələn minlərlə qonaqlar, hətta Qarabağın uzaq erməni kəndlərindən belə dinləyicilər şəhər teatr binasına tərəf axışardılar. Bilet tapmaq müşkül olardı. Hamı konsertlərə düşə bilməzdi. Getdikcə narazılıq,

şikayət artardı. Bunu nəzərə alaraq bəzən Xanın konsertlərini şəhər bulvarında, açıq havada təşkil edərdilər. Belə hallarda bulvara girmək üçün xüsusi bilet satılardı. Xan oxuyanda şəhərin küçələrində bütün hərəkət dayanardı... Hamı bulvara daxil olmağa can atardı. Bura daxil olmağa bilet tapmayanlar bulvarın ətrafındakı evlərin eyvan və damına yığışardılar ki, heç olmasa Xanın səsini eşidə biləlр...

Xanın Bakıdakı konsertləri daha təmtəraqlı, daha qələbəlik olardı. Hələ Xan Bakıya gəlməmişdən bir ay qabaq şəhərin görkəmli yerlərinə, küçə və meydançalara iri afişalar vurulardı. Qəzetlərdə qabaqcadan elanlar verilərdi. Bir sözlə, şəhərdə böyük bir canlanmaya, hərəkətə səbəb olardı. Lakin bu konsertlərə bilet tapmaq heç də asan deyildi. Filarmoniyanın kassası qabağında bilet üçün növbəyə duranların iki sərgəsindən biri Azneft meydanına, o biri isə Bakı sovetinə çatardı. Qayda-qanun yaratmaq üçün atlı milisə müraciət edərdilər. Hamı çalışardı ki, bu qeyri-adi səsi dinləsin, Xanın təkrarolunmaz camalına tamaşa etsin.

Şərqin böyük mütəfəkkiri Şeyx Sədidən soruşublar:

- Gözəl səs qiymətlidir, yoxsa gözəl camal? Böyük şair fikirləşmədən cavab verib:

- Gözəl səs gözəl camaldan üstündür.

Şübhəsiz ki, Şeyx Sədi bir anlığa qəbirdən başını qaldırıb Xanın hüsn-camalına baxsaydı, mütləq belə deyərdi:

- Gözəl camal heç də gözəl səsdən əskik deyildir.

Bax, Xan belə Xan idi. O, həm muğamatın, həm də gözəlliyin Xanı idi.



Xan Şuşinski, 1955-ci il.

Dünyaya çox xanlar gəldi-getdi... Lakin bircə Xan qaldı. O da bizim muğamatın Xanıdır. Hacı Hüsü: «Dünyada səs də, sənət də mənimdir» dedisə, lakin bu sənəti daha yüksəklərə qaldıran Xan oldu. Əgər Cabbar Qaryağdı oğlu vokal sənətinin bünövrəsini qoydusa, bu əzəmətli binanın kərpiclərini çiyinlərində daşıyan Xan oldu. Əgər Seyid Şuşinski muğamatın camını doldurdusa, onu başına çəkən Xan oldu. Segah İslam ürəkləri titrədən segahları ilə səhər bülbüllərini yuxudan oyatdısa, bu bülbülləri öz sehirli, incə cəhcəhi, zəngulələri ilə susduran da Xan oldu...

Xanın ifaçılıq məharətindən və fitri istedadından danışarkən onun son dərəcə zil, məlahətli və nikbin səsinin qüdrəti gözlərimiz qarşısında canlanır. Ona görə ki, Xanı digər sənətkarlardan ayıran əsas amil başqalarında olmayan səs gözəlliyidir. Çünki Xanın səsində olan təravət, şirinlik, yumşaqlıq bir sözlə, gözəl səs tembrliyi heç kəsdə olmamışdır.

Şübhəsiz ki, xanəndəlik sənətində əsas şərt səsdir. Əsil xanəndənin səs diapazonu ən azı iki oktava olmalıdır. Xanın səsi isə iki oktava yarım idi. Xanəndələrin səsi dörd: bəm, orta, yüksək və nəhayət zil reqistrə ayrılır. Daha

doğrusu, aşağı səsə, sinə səsinə, orta səsə və zil səsə bölünür. Həm də səslər mütləq tenor tipli səs olmalıdır. Tenor səslərin özü belə iki hissəyə ayrılır: lirik tenor və lirik-dramatik tenor. Xan lirik tenor idi. Aşıqlara nisbətən xanəndələrin səs diapazonu daha genişdir. Bülbülün qeyd etdiyi kimi, xanəndə çox vaxt kiçik oktavanın si-be-mol və ikinci oktavanın Do pərdəsindən, üçüncü oktavanın Fa pərdəsinədək qalxıb enə bilər.

Şübhəsiz ki, xanəndələrin səs keyfiyyəti eyni, yəni standart olmur. Hər xanəndə öz səsinin tembrinə görə fərqlənir. Təsadüfi deyildir ki, xalq arasında «gözəl səs», «məlahətli səs», «yağlı səs», «zil səs», «cır səs», «acı səs», «quru səs», və yaxud «duzsuz səs» ifadələrini tez-tez eşitmək olur. Eyni zamanda musiqi elmini dərindən bilənlər, xanəndəlik sənətindən baş çıxaranlar bədii gözəlliyi olmayan yekrəng «duzsuz» səsi «acı səs», aydın tembri olmayan səsi isə «qara səs» adlandırırlar. İşlənməmiş səsə isə «xam səs» deyilir. «Lakin ahəngdar səsi «yağlı səs» adlandırırlar. Xüsusi yumşaqlığı və tembr gözəlliyi ilə fərqlənən, dinləyicini məftun edən səsə isə «məlahətli səs» deyilir və yüksək qiymətləndirilir. Lakin Bülbül qeyd edir ki, səsləri təksə onların tembrinə və növlərinə görə deyil, həm də emosional səslənmə çalarına görə fərqləndirirlər və buna «dəyərli səs» deyirlər. Sonra Bülbül səslərin gözəlliyindən bəhs edərkən yazırdı: «Səsdə tembr gözəlliyindən başqa eyni zamanda həyatilik, emosiya, təsir və texniki cəhətlər (cəldlik, elastiklik, hamarlıq, yumşaqlıq) olmalıdır. Bu texniki əlamətlər bütün səslərdə, xüsusilə... yumşaq tenorda və lirik-dramatik tenorda olmalıdır».[356]

Bülbülün göstərdiyi bu texniki cəhətlərlə yanaşı xanəndə səsi üzərində işləməyi bacarmalıdır. Onu, hər şeydən, əvvəl, rəndələməli, silalamalı, hamarlamalıdır. Şübhəsiz burada ustalıq, muğamların texnikasını dərindən bilmək də ümdə şərtdir. Çünki texniki ustalıq xanəndəyə muğamların öhdəsindən müvəffəqiyyətlə gəlməkdə imkan verir. Səsi rəndələməkdə, istədiyi vaxt yumuşaltmaqda, cilovlamaqda, daha doğrusu, səsə dinamik boyalar verməkdə Bülbül, Xan Şuşinski, Zülfü Adıgözəlov, xüsusilə Cabbar Qaryağdı oğlu misilsiz usta idilər. Xanın səsi həm yağlı, həm məlahətli, həm də dəyərli idi. Xanın ilk dəfə dinləyən məşhur xanəndə Şəkili Ələsgər haqlı olaraq demişdir: «Çətin ağlım kəsir, Xandan sonra belə gözəl səsli xanəndə dünyaya gələ».

Xanın səsi son dərəcə zil və qaltanlı idi. Bu səsi azı iki-üç verstlikdən eşitmək olardı. Xanın səsinin qüdrəti haqqında Bülbülün dedikləri çox maraqlıdır. Bülbülün rəhbərlik etdiyi bir ekspedisiya 1932-ci ildə Şuşa qalasına gəlmiş və burada o, Gənc bəstəkar Asəf Zeynallı ilə birlikdə, Xana «Cıdır düzündə» rast gəlmişlər. Bülbül həmin görüşü belə xatırlayır:

«...1932-ci il yayın əvvəllərində Qarabağa yola düşdük. Şuşada bizi çox yaxşı qarşıladılar. Biz qoca tarzənlər və xanəndələr ilə söhbət etdik.

---

[356] Bülbül. Seçilmiş məqalə və məruzələri. Bakı, 1968, səh. 131.

...İstirahət günü idi. Böyük bir qayanın üstünə çıxdıq. Biz göz qaraldan dərəyə, dərədən nazik bir lent kimi axıb gedən çaya, o taydakı meşələrə baxır, təbiətin bu ecazkar gözəlliyindən zövq alırdıq. Birdən qulağımıza bir səs gəldi. Diqqətlə fikir verdik. Kimsə «Bayatı-kürd» oxuyurdu. Oxuyanın səsi yavaş-yavaş aşkar eşidilirdi. Xanəndə zəngulə vuran kimi onu tanıdım. Gənc xanəndə Xan Şuşinski idi. Xanın məlahətli səsi qayalarda əks edir, Cıdır düzü boyu yayılırdı. Asəf Xanın yalnız adını eşitmişdi. Onunla tanış olmadığını söylədi. Mən Asəfi arxayın edib, bu saat onu buraya gətirəcəyimə söz verdim.

- Necə gətirərsən? - deyə Asəf təəccüb etdi.
- İndi görərsən - deyib, «Çoban bayatı» oxumağa başladım...

Doğurdan da «Çoban bayatı» Xanı və onun dəstəsini bizim yanımıza gətirdi. Görüşdük. Hal-əhval tutduq. Xan bizim üçün «Rast» oxudu. Həmin günün səhərisi Xanın ifasında «Alma almaya bənzər», «Əlində sazın qurbanı» mahnılarını vala yazdıq.

«Alma almaya bənzər» mahnısı Asəfin çox xoşuna gəldi. O, mahnının sözlərini yazıb onu bir daha oxumağı Xandan xahiş etdi. Bu həmin mahnıdır ki, Xan Şuşinski onu indi də oxuyanda adama ləzzət verir».[357]

Bülbül məruzə və məqalələrində istər vokal və istərsə də ifaçılıq sənətindən bəhs edərkən Xanın adını böyük ehtiramla çəkmiş, onu istedadlı sənətkar kimi qiymətləndirmişdi. Bülbül həmişə Xanın dərin hiss və zövqlə oxumağına heyran olmuşdur.

Böyük Füzuli irsinin sonbeşiyi olan şair Əliağa Vahid də Xanın qeyri-adi səsini təqdir etmişdi.

Oxunsun elimin zəfər nəğməsi,
Vahidin qəzəli, Xanın xoş səsi...

Xanın geniş səs diapazonu ona bütün muğamları istər bəmdə, istərsə də zildə tam, sərbəst oxumağa imkan vermişdir. Qeyd etdiyimiz kimi Xan bütün muğamları özünəməxsus ustalıqla oxumuşdur. Xüsusilə onun «Mahur-Hindi» muğamının ifasında göstərdiyi təkrarolunmaz priyomları misilsizdir...

Məlum olduğu kimi, müasir Azərbaycan musiqisində «Mahur» muğamının iki növü mövcuddur. Biri «Mahur-Hindi», digəri isə «Orta mahur». Şübhəsiz ki, «Mahur» dəstgahının «Mahur-Hindi» forması «Orta mahur»dan əvvəldir. Böyük musiqişünas Cabbar Qaryağdı oğlunun yazdığına görə «Mahur-Hindi» muğamını Azərbaycan tarının atası məşhur tarzən Sadıqcan bəm səsli xanəndələr üçün yaratmışdı. Görünür Sadıqcan hələ keçən əsrin ortalarında Tiflisdə yaşayarkən Tiflisə gələn hind müğənnilərindən «Mahur»un necə oxunmasını eşitmiş və onların

---

[357]Bülbül. Seçilmiş məqalə və məruzələri. Bakı, 1968-ci il. səh. 97-98. 458

oxumağına uyğun bu muğamı yaratmış və onu «Mahur-Hindi» adlandırmışdı. Bu muğam xanəndədən ən azı iki oktava yarım, yəni yüksək tesseturalı güclü səs, bir neçə forma və mərtəbəli coşğun zəngulələr, ən yüksək reqistrdə stakkato, mürəkkəb passajlarda tembr səlisliyi, eyni zamanda vokal ustalığı və temprament tələb edir. Şübhəsiz ki, «Mahur»u hər xanəndə oxuya bilməz.

Vaxtı ilə, yəni orta əsrlərdə bu muğam 58, XIX əsrin axırlarında isə 14 şöbə və hissədən ibarət olmuşdur. Hazırda isə bu muğam əsasən bu şöbələrdən, yəni: «Bərdaşt», «Maye», «Üşşaq», «Hüseyni», «Vilayəti», «Şikəsteyi-fars», «Əraq», «Pəncgah» və «Qərai»dən ibarətdir. Müasir İran musiqisində isə «Mahur» dəstgahı 21 şöbə və guşədən ibarətdir.

«Dügah» və «Bayatı-Qacar» kimi «Mahur-Hindi» də «Rast» muğamının tərkibinə daxildir. Çünki qədim musiqişünaslar «Rastı» muğamların anası adlandırmışlar. Təsadüfi deyildir ki, «Mahur-Hindi» muğamı istər melodik quruluşuna və istərsə də şöbələrinin xüsusiyyətlərinə görə «Rast»ın xarakterinə uyğun gəlir. «Rast»da olan bir çox şöbə, guşə və hissələr eynilə «Mahur-Hindi»də də mövcuddur. Yalnız bunların əsas fərqi odur ki, «Mahur-Hindi» «Rast»a nisbətən bir oktava yuxarıda ifa olunur. Şübhəsiz ki, «Mahur-Hindi» Rast muğamına nisbətən bir qədər yığcamdır və onun şöbələri melodik cəhətdən «Rast»ınkına nisbətən bir qədər fərqlənsə də, lakin onların məqam əsasları tamamilə eynidir. Bu muğamların yeganə fərqi onların müxtəlif tonallıqda ifa olunmasıdır. Əgər «Rast» muğamı kiçik oktavadakı sol mayəsilə oxunursa, «Mahur-Hindi» muğamı isə yalnız birinci oktavada ki, Do mayəli «Rast» tonallığında oxunur. Deməli onların hər ikisi avaz etibarı ilə bir-birinə oxşar olduğu halda tonallıq etibarı ilə müxtəlifdir.

«Mahur-Hindi» muğamı ilə yanaşı bizim musiqimizdə «Orta mahur» muğamı da məşhurdur. Bu muğam tarın orta reqistrində çalınıb oxunduğuna görə ona «Orta mahur» deyirlər. «Orta mahur» «Mahur» dəstgahının başqa bir növüdür. İstər «Mahur-Hindi», istərsə də «Orta mahur» oxşar, daha doğrusu, qohum muğamlardır. Hər ikisi «Rast» məqamında qurulur. Lakin bunların yeganə fərqi odur ki, «Orta mahur», «Mahur-Hindi»yə nisbətən bir qədər zildə oxunur. Yəni əgər «Mahur-Hindi» Do mayəli rast məqamında qurulursa, «Orta mahur» ondan bir kvarta yuxarı, yəpi Fa mayəli «Rast» tonallığında ifa olunur. Bunlar hər ikisi oxşar muğamlar olsalar da, lakin «Orta mahur»u oxumaq, xüsusilə çalmaq hər xanəndə və tarzənin işi deyildir.

Bəzi «musiqişünaslar» «Mahur-Hindi»ni, «Rast»a qarşı qoyaraq «Mahur-Hindi»nin «Rast»ın variantı olmasını dərk etmirlər. Bu da ondan irəli gəlir ki, bu başabəla «musiqişünaslar» məqamla muğam məfhumunu qarışdırmaqla «Mahur-Hindi»nin Do mayəli «Rast» məqamında qurulduğunu bilmirlər. Lakin biz heç də iddia etmirik ki, bu muğamların hamısı eynidir. İstər «Mahur-Hindi» və istərsə də

«Orta mahur» mayə ucalığı ilə bir-birindən fərqlənməklə hər biri özünəməxsus tonallığa malikdir.

«Orta mahur» və «Mahur-Hindi» muğamlarının «Rast» məqamı əsasında qurulduğunu böyük müğənnimiz Cabbar Qaryağdı oğlu da inkar etmir. O özünün «Keçmiş Azərbaycan xalq musiqisi» adlı əlyazmalarında «Rast» muğamı və onun variantlarından geniş bəhs edir. Lakin böyük musiqişünas «Mahur» muğamı üzərində dayanmır və bunun səbəbini isə «Mahur» və «Rast»ın məzmun etibarı ilə eyni muğam olmasında görür. Məncə məsələ aydındır, mübahisəyə ehtiyac qalmır.

«Orta mahur» özünün son dərəcə parlaq xarakterinə, əzəmətli və cingiltili səslənməsinə görə «Rast» və «Mahur-Hindi»dən bir qədər fərqlənir.

«Orta mahur»u başqa muğamlardan ayıran bir cəhət də odur ki, bu muğam çalınarkən mizrab tarın bütün açıq simlərinə toxunur, bundan da daima səslənən harmonik fon yaranmış olur.

Vokal tariximizdə Hacı Hüsü, Şəkili Ələsgər Məşədi Məmməd Fərzəliyev, Seyid Şuşinski kimi klassik xanəndələr və son 50 ildə isə Mütəllim Mütəllimov və Xan Şuşinski, «Mahur» ustası kimi məşhur olmuşlar. Lakin bunların heç biri bu muğamı Qaryağdı oğlu Cabbar səviyyəsində oxumamışlar. Doğrudan da, Qaryağdı oğlunun oxuduğu «Orta mahur» daha əzəmətli, nikbin, daha mübariz ruhda səslənir. Bunu sübut etmək üçün bizim əlimizdə köhnə qrammafon valları vardır. Bu valları «Mahur» üzərində səsləndirdikdə Cabbarın «Mahur»u başqalarının oxuduğu «Mahur»a nisbətən adamın nəzərini daha çox cəlb edir. Bir də Qaryağdı oğlundan başqa «Orta mahur»un «Vilayəti» şöbəsini də heç kəs oxumağa cəsarət etməmişdir. Xanəndələrin əksəriyyəti bu muğamı ifa edərkən «Vilayəti» yerinə «şikəsteyi-fars»ı oxuyub «Əşiran» guşəsinə əyaq verməklə ehmalca muğamın mayəsinə enmişlər.

Əgər Qaryağdı oğlu xanəndəlik sənəti tarixində «Orta mahur»un misilsiz ifaçısı olmuşsa, Xan Şuşinski isə «Mahur-Hindi» ustası kimi ad-san çıxarmışdır. Bu muğamın ifasında da Xan yaradıcılığına xas olan dərin lirizm, incə zövq, nikbin duyğular özünü büruzə verir. Xan muğamın bir şöbəsindən digərinə keçəndə bülbül kimi cəh-cəh vurmaqla öz məlahətli səsilə hamını heyran edirdi.

Bütün muğamlarda olduğu kimi «Mahur-Hindi»də də səslərin düzülüşü aşağıdan yuxarıya (pəsdən-zilə) doğru ucalır və genişlənir. Yəni hər bir melodik hərəkət şöbədən-şöbəyə keçəndə getdikcə gərginləşib zilə doğru istiqamət alır. Dəstgahın başa çatması səs yüksəlişinin və emosional gərginliyin tədrisən artması ilə bağlıdır. Bunu isə əldə etmək üçün xanəndənin səs keyfiyyətlərindən və ifaçılıq məharətindən çox şey asılıdır. Muğamın zil pərdələrinə cəngavərliklə girişən Xan, muğamın emosional keyfiyyətinə təsir edərək musiqinin ekspressivliyini tədricən güclənməsinə bir daha emosional gərginliyin artmasına səbəb olur. Bu gərginlik muğamın «Əraq» şöbəsində son həddə çatır. Burada Xanın ifaçılıq tarixində

görünməyən guşə və xalları, bir neçə formalı, mərtəbəli qoşa zəngulələri, işlətdiyi çətin priyomlar misilsizdir.

Xanla yanaşı bir çox xanəndələr «Mahur-Hindi» muğamını oxumağa cəhd etmişlər və yenə də edirlər. Lakin nədənsə onlar bu möhtəşəm muğamın öhdəsindən tam gələ bilmirlər. Hərçənd, bəzilərinin zil səsi vardır, lakin zil səsi olmaq hələ o demək deyil ki, bütün muğamların öhdəsindən gələ bilərsən. «Mahur» kimi son dərəcə ruhnəvaz və döyüş ruhlu bir muğamın tam öhdəsindən gəlmək üçün xanəndə, Üzeyirbəy demişkən, xalq musiqisinin xarakterik xüsusiyyətləri və qanunlarına dərindən bələd olmalıdır. Xanəndə «Mahur» ruhlu major muğamları Xan kimi o zaman oxuya bilər ki, ifaçılıq texnikasından başqa bədii ifa məharətinə də Xan kimi yiyələnmiş olsun. Bunlar olmasa heç nə çıxmaz.

* * *

Xan Şuşinskinin ifaçılıq sənəti tarixində bir «Segah» ustası kimi də ayrıca yeri vardır. Biz əvvəllərdə segah İslamdan danışarkən Azərbaycan musiqisində «Segah» muğamının tutduğu roldan geniş bəhs etdik. Eyni zamanda, bir çox «Segah» ustalarının adlarını yad etdik. Lakin Xan deyəndə, Xanın repertuarından söz açanda istər-istəməz, birinci növbədə, «Mirzə Hüseyn Segahı» yada düşür. Bir daha oxucunun nəzərinə çatdırmaq istərdim ki, «Mirzə Hüseyn segahı»nın banisi XVIII əsrin məşhur Qarabağ xanəndəsi Mirzə Hüseyn olmuşdur. Sonralar bu füsunkar «Segah» növünü Keştazlı Həşim, Mahmud İmamqulu oğlu, Hacı Hüsü, Şəkili Ələsgər və Xanın müəllimi İslam Abdullayev də böyük ilham və məhəbbətlə oxumuşlar.

Lakin burasını da inkar etmək olmaz ki, bu klassik xanəndələr «Segah» ustası olsalar da, lakin «Mirzə Hüseyn segahı»nı oxuyarkən nədənsə muğamın əsas şöbələrindən biri olan «Manəndi-müxalifi» (yəni müxalifə bənzər - oxşar) oxumamışlar. «Mirzə hüseyn segahı»nın «Manəndi-müxalif» şöbəsini yenidən canlandıran, daha doğrusu, «dirildən» Xan Şuşinski olmuşdur. Beləliklə, Xan, Mirzə hüseyndən təxminən 120-130 il sonra yenidən «Mirzə hüseyn segahı»na «Manəndi-müxalif» şöbəsini əlavə etmişdir. Hələlik Xanın oxuduğu «Mirzə hüseyn segahı»na keçməzdən əvvəl, ümumiyyətlə «Segah» haqqında bir-iki əlavə söz deməklə «Segah» haqqındakı təsəvvürümüzü bir qədər zənginləşdirsək pis olmazdı...

«Segah» Yaxın və Orta Şərq ölkələrində geniş yayılsa da «Segah»ın əsl vətəni Azərbaycandır. Təsadüfi deyildir ki, bizim xanəndələr «Segah»ı daha incə zövqlə, özü də böyük məharətlə oxumuşlar. Bu faktı İranın məşhur musiqişünası Ruhulla Xaleqi belə inkar etmir. Musiqişünas yazır: «Segah sözünün fars kəlməsi olmasına baxmayaraq, etiraf etmək lazım gəlir ki, «Segah» muğamı Qafqaz türkləri arasında daha geniş intişar tapmış və onların sənət ustaları tərəfindən daha böyük məharət və zövq ilə ifa olunur».[358]

---

[358] Ruhulla Xaleqi, Nəzər və musiqi. II cild, Tehran, 1939, səh. 190.

«Segah» muğamının Azərbaycanda geniş yayılmasının bir çox səbəbi vardır. Əvvəla bu muğam xalqımızın milli ruhuna daha çox uyğundur. Obrazlı desək, «Segah»dakı həzinlik, kədər və qüssə motivləri əsrlər boyu yadelli işğalçıların əsarət və zülmünə məruz qalmış Azərbaycan xalqının ürək çırpıntılarıdır. Xanəndələrimiz bu muğamı yanıqlı və həzin oxumaqları ilə xalqın məhəbbət və nifrətini, şikayətini, bir sözlə, həyat fəlsəfəsini ifadə etmişlər.

«Segah» dəstgahı Yaxın vo Orta Şərq musiqisində bir növdən ibarət olduğu halda, Azərbaycan musiqisində bir neçə variantda çalınıb oxunur. Məsələn XIX əsrin ikinci yarısına qədər «Segah» muğamı «Mirzə hüseyn segahı», «Yetim segah», «Orta segah», «Xaric segah» və «Zabul-segah» növlərindən ibarət idi. XX əsrin əvvəllərində isə «Segah» muğamı əsas etibarilə üç variantda («Zabul-segah», «Mirzə hüseyn segahı» və «Xaric segah») oxunurdu. Adlarının müxtəlif olmasına baxmayaraq, bunlar hamısı eyni muğamdır və bəzi xüsusiyyətlərə malikdir. Lakin «Zabul-segah» «Xaric segah»a və «Mirzə hüseyn segahı»na nisbətən bir növ orta (mərkəz) mövqe tutur, başqa segahlara nisbətən daha şaxəli, sanballı görünür.

Klassik xanəndələrimiz «Zabul-segah»ın özünü müxtəlif variantda oxumuşlar. Məsələn XIX əsrin məşhur xanəndəsi Əbdülbaqi (Bülbülcan) «Zabul-segah» oxuyarkən muğamı «Orta segah»la başladıqdan sonra keçirmiş «Şikəsteyi-fars»a, orada bir qədər gəzişdikdən sonra «Hasar» və «Müxalif» şöbələri oxuyar, «Mənsuriyyə» ilə başa vurarmış. Başqa klassik xanəndə Keştazlı Həşim isə «Zabul»da eyni ilə Bülbülcanın yolu ilə gedər, muğamı «Mənsuriyyə» ilə yox, «Əraq» şöbəsilə sona çatdırardı. XIX əsrin ortalarında artıq «Zabul» muğamı «Orta segah»la birlikdə oxunurdu. Bildiyimiz kimi «Zabul» muğamını məşhur müğənnimiz Qasım daha lirik tonda oxumaqla başqalarından fərqlənmişdi.

«Orta segah»ı məharətlə oxuyanlardan biri də məşhur müğənnimiz Malıbəyli Həmid olmuşdur. O, bu, «Segah»ı təkmilləşdirərək «Müxalif» şöbəsindən «Yədi-hasar»a keçməklə bu «Segah»a yenilik gətirmişdi. Sonralar Pəsxan Cəlil, Musa Şuşinski, Zülfü Adıgözəlov, Mütəllim Mütəllimov və İldırım Həsənov «Orta segah»ı tamam-dəstgah oxumaqda şöhrət tapmışlar.

«Segah» muğamının əsas variantlarından biri də «Yetim segah»dır. Bu muğam həm bəmdə (si kökündə), həm də bir oktava yuxarı, zildə oxunur. Yeri gəlmişkən onu da qeyd edim ki, «Orta segah»ı isə zildə (ikinci oktavanın Mi pərdəsində) oxumaq qeyri mümkündür. Halbuki «Yetim segah»ın zildən, yəni bir oktava yuxarıda oxunması səsi olan xanəndə üçün əlverişlidir. «Yetim segah»ın həm bəmdə, həm də zildə oxunması bu «Segah»ın qəmli-qüssəli səslənməsinə imkan yaradır. Həqiqətən, «Segah» muğamının bu variantı onun başqa növlərinə nisbətən daha kədərli, fəryadlı və qəmlidir. Bir də «Yetim segah» oxuyan xanəndənin səsi «yağlı» olmaqla, muğamın daha kədərli səslənməsi üçün intim qəzəllər seçilməlidir.

«Segah» muğamının ən az oxunan variantlarından biri «Xaric segah»dır. Ona görə «Xaric segah» deyirlər ki, bu variant «Segah» muğamının əsas növü olan «Zabul-segah»ın xaricində, yəni ondan ya bir kvarta aşağı, ya bir kvinta yuxarı, özü də «Yetim segah» pərdəsi (yəni kiçik oktavanın si notu) üzərində oxunur.

«Segah» dəstgahının ən ümdə variantlarından biri də «Mirzə hüseyn segah»ıdır. Bu «Segah» yuxarıda qeyd etdiyimiz kimi Mirzə hüseynin adı ilə bağlıdır. O, ilk dəfə olaraq «Segah» dəstgahına «Manənd-müxalif» şöbəsini əlavə edib, «Segah»a keçməzdən əvvəl «Müya» ilə «Segah» arasında oxuyub. Lakin Mirzə hüseyndən sonra gələn xanəndələr nədənsə muğamın «Manənd-müxalif» şöbəsini oxumayıblar. Bu isə muğamın təsir gücünü azaltmaqla xronoloji quruluşunu pozmuşdur.

«Manənd-müxalif»in yenidən «Mirzə hüseyn segahı»na qaytarılması yalnız və yalnız Xan Şuşinskinin adı ilə bağlıdır. Böyük sənətkar «Mirzə hüseyn segahı»nı oxuyarkən «Manənd-müxalif»i bir növ muğamın müqəddiməsi kimi oxumuşdur. Xanın «segah»a gətirdiyi bu yenilik, muğamın daha rəvan, dolğun və təsirli səslənməsinə səbəb olmuş, həm də bütün xanəndələr tərəfindən bəyənilmişdir. İndi artıq 60 ildir xanəndələrimiz «Mirzə hüseyn segahı»nı oxuyarkən Xanın yolu ilə, yəni «Segah»ı «Manənd-müxalif»lə başlayırlar. Beləliklə, Xan «Segah»ın tarixində bir növ, əgər mənası düzgün başa düşülərsə inqilab yaratmışdır. Biz onu cəsarətlə «Mirzə hüseyn segahı»nın ikinci müəllifi adlandıra bilərik...

Başqa muğamlardan fərqli olaraq «Segah» muğamı müxtəlif tonallıqlarda oxunur. Yeri gəlmişkən bir məsələni ürək ağrısı ilə qeyd etmək istərdim ki, son zamanlar səsi, sənəti olmayıb, lakin zor ilə xanəndə olmaq istəyən bəzi ifaçılar «Segah»ın başına min bir oyun açır, müxtəlif tonallıqlarda oxumaqla bu qədim və gözəl muğamı təhrif edirlər. İstər bu başabəla ifaçılar, istərsə də onlar ruhda olan zövqsüz dinləyicilərin nəzərinə çatdırmaq istərdim ki, «Segah»ın cürbəcür tonallıqda çalınıb-oxunması birinci növbədə ifaçı üçün texniki çətinliklər törətməklə muğamın şöbələri arasında ardıcıllığı da pozur. Nəticədə muğam saxtalaşır, olduğu kimi səslənmir. Buna görə də hər muğamı öz pərdəsində oxumaq lazımdır.

Üzeyir Hacıbəyov «Azərbaycan xalq musiqisinin əsasları» əsərində muğamları təhlil edərkən «Segah» muğamına və onun növlərinə xüsusi diqqət yetirmişdir. Ayrı-ayrı muğamların oyatdığı estetik-psixoloji təsir gücündən və onlarda xalqın mənəvi aləminin səlisləməsini görən böyük musiqişünas yazırdı: «Segah» muğamı lirik-aşiqanə əhəmiyyətə malikdir. Bütün incə aşiqanə xalq nəğmələri bu muğam əsasında qurulmuşdur. Buna görədə mən aşiqanə səhnələri öz operalarımda verdikdə bu muğamlardan istifadə edirəm».[359]

[359] Ü. Hacıbəyov. Əsərləri ikinci cild, Bakı, 1985, səh. 92.

Beləliklə, dinləyicidə məhəbbət, sevgi duyğuları oyadan «Segah» muğamının müxtəlif variantlarını təhlil edən Üzeyirbəy mayəsi məhz mi notu olan «Orta-zabul-segah»a əsas yeri vermişdir.

«Segah»ı olduğu kimi incə zövq ilə oxumaq hər xanəndənin işi deyildir. Təcrübə göstərmişdir ki, «Segah» muğamının öhdəsindən gələn, onu daha səlis, sərbəst, şirin və lirik tonda oxuyan xanəndələr xalq arasında daha məşhur, daha hörmətli olmuşlar.

Xan Şuşinski məhz belə xanəndə olmuşdur. Onun zil zabul üzərində (yəni şah pərdədə) asta-asta gəzişməsi adamı bihuş edərdi... «Müxalif»də isə vurduğu şirin xalları, zərif guşələri, xüsusilə incə zəngulələri dinləyən tamaşaçı nəinki kədər-qüssəni, hətta özünü belə unudardı. Xan ağzını açanda məclisdə nə qədər əsəbi adam olsa belə onu sehrləyib tamam sakitləşdirərdi... Buna görə də dinləyici onun gözəl səsindən, şirin nəfəsindən doymurdu. Əksinə onu təkrar dinləmək istərdi... Bütün bunlar onun nəticəsi idi ki, Xanın səsində qeyri-adi bir cazibə qüvvəsi, tembr gözəlliyi, texniki cəhətlər üstün idi. Bir də bu səsdə səmimilik, mehribanlıq, təbii emosiya və tembr orijinallığı son dərəcə güclü idi.

Xan, dinləyicini təkcə səsinin gücü ilə valeh etmirdi. O da klassik xanəndələr kimi söz seçməkdə usta idi. O, həmişə, istər «Zabul-segah»ına, istərsə də «Mirzə hüseyn segahı»na xüsusi qəzəllər seçərdi. Onun diksiyası son dərəcə aydın və axıcı idi. Xan oxuduğu qəzəllərin nəinki hər misrasını, hətta bir kəlməsini belə olduqca aydın və səlis tərzdə tələffüz edərdi. O, hətta muğamın zil pərdələrində gəzişəndə belə eyni aydınlıq, eyni səlistlik özünü büruzə verirdi. Bütün bu sənətkarlıq keyfiyyətləri böyük xanəndənin ifaçılıq məharətini birə-beş artırırdı...

İstər Xandan əvvəl, istərsə də sonra bir çox xanəndələr «Mirzə hüseyn segahı»nı məharətlə oxumuşlar. Onların hər birinin öz məziyyəti və təsir gücü olmuşdur. Lakin Xanın oxuduğu «Mirzə hüseyn segahı» istər molodik cəhətdən, istərsə də intonasiya yeniliyi baxımından öz həmkarlarının «Segah»ından xeyli fərqlənir və yüksəkdə dururdu. Öz müəllimi Segah İslamın irsini davam etdirən Xan, «Segah» ifaçılığında gözəl bir üslub yaratmışdır. Təsadüfi deyildir ki, Xandan sonra gələn müğənnilərin əksəriyyəti onun yolunu davam etdirərək məhz Xanın, «Segah»ını təqlid etməyə başladılar...

Xan Şuşinski ritmik muğamların da mahir ifaçısı idi. Xüsusilə onun qeyri-adi bir ustalıqla oxuduğu «Heyratı» muğamına söz ola bilməz. Xan «Heyratı»ya orjinal və özlüyündə olduqca nikbin səslənən bir melos gətirmişdir. «Heyratı» Xanın ifasında zəfər nəğməsi kimi səslənməklə dinləyicidə böyük ruh yüksəkliyi oyadırdı. Son dərəcə coşğun və yerli-yerində vurulan zəngulələr, incə xırdalıqlar, çətin priyomlar, muğama melodik naxışlar vurmaqla adamda belə təsəvvür yaradırdı ki, oxunan muğam, musiqi parçasından əlavə insanı böyük məqsədlər uğrunda mübarizəyə çağıran əzəmətli marşdır.

Məlum həqiqətdir ki, ritmik muğamlar yalnız zil pərdələrdə oxunur. Yəni səsi yüksək reqistrlərə çatmayan xanəndə ritmik muğamları oxuya bilməz. Bir də zil səsi olmaq hələ o demək deyil ki, ritmik muğamların öhdəsindən gələ bilərsən. Heç də yox!

Ritmik muğam oxumaq istəyən xanəndə zil səslə birlikdə hər şeydən əvvəl, gözəl qaval vurmağı da bacarmalıdır. Aydındır ki, musiqi üçlüyündə əsas yerlərdən birini qaval tutur. Qaval bizim qədim musiqi alətlərindəndir. Oyun havalarını, mahnı və təsniflərin, xüsusilə ritmik muğamların gözəl ifaçısını qavalsız təsəvvür etmək çətindir. Xanəndəlik sənətində qaval çalmaq ümdə şərtdir. Qaval vurmağı bacarmayan müğənni ritmik muğamların öhdəsindən gələ bilməz. Çünki, xanəndənin avazı qavalın ritmi ilə bir-birinə uyğun gəlməlidir. Deməli ritmik muğamı ifa edən xanəndə əgər qaval vura bilmirsə, onda xanəndə muğamın ritminə düzgün riayət edə bilməz və nəticədə muğam nəinki öz təravətini itirər, həm də düzgün səslənməz. Təsadüfi deyildir keçmişdə Qarabağda ritmik muğamın öhdəsindən gələ bilməyən, daha doğrusu, düzgün qaval vura bilməyən xanəndə haqqında söz düşəndə qocaman musiqişünaslar deyərdilər: «Filan xanəndənin əli-ağzı düz deyil». Bu sadə sözlərdə dərin bir həqiqət vardır. Yəni həmin xanəndə yaxşı qaval vura bilmir və buna görə də onun avazı, yəni «ağzı» «əli» ilə düz gəlmir.

Məhz buna görə də Xan Şuşinskinin (keçmiş musiqişünaslar demişkən) «əli, ağzı» düz olduğuna görə o, ritmik muğamların misilsiz ifaçısı idi. Xan qavalı gözəl ritmlə vururdu. Keçmiş Qarabağ toylarını yaxşı xatırlayıram. Xan nəinki, özünün məlahətli səsi, gözəl görkəmi eyni zamanda mahir qaval çalmağı ilə də dinləyicini vəcdə gətirərdi... O, oyun havalarının ritmini elə tutardı ki, bir çoxları Xanın yaxşı qaval vurması xatirinə oynamaqdan doymazdılar. Xan qaval çalanda bir çox priyomlar göstərərdi. Xüsusilə onun qavalda bir neçə formada çırtıq vurması, qavalı musiqinin ritmi ilə atıb-tutması hamını heyran edərdi... Təəssüf ki, Əbülfət Əliyev müstəsna olmaqla, müasir xanədələrin heç biri qaval vura bilmirlər. Bunu isə onlara heç cürə bağışlamaq olmaz.

Mən Xan qədər səsinin qədrini bilən, onu qorumağı bacaran ikinci bir nəğməkar görməmişəm. Çox qəribədir Xanda olan gur səs başqalarında olsa idi, bəlkə də onun qədrin bilməyib yerli-yersiz oxuyardı. Lakin Xan belə deyildi.

Burada bir haşiyə çıxmaq istərdim. Keçmiş xanəndələr səs «allah vergisi» kimi baxmışlar. Səslərinin qədrini bilmişlər. Səsin cilalanması üçün hər cür əziyyətə dözmüşlər.

Seyid Şuşinskinin təbirincə desək, xanəndə səsini 40 yaşınadək qorumalıdır. Çünki 40 yaşına qədər səsə fikir verməsən, onun nazını çəkməsən bata bilər. Buna görə də xanəndə 40 yaşına kimi özünü bir çox şeylərdən pəhriz saxlamalıdır. Klassik xanəndələrin bir çoxu səsin büllur kimi səslənməsi, rəndələnməsi xatirinə 40 yaşına kimi evlənməmişlər.

Qeyd etdiyimiz kimi Xan səsini qorumaqda müstəsna idi. Səsini şan-şöhrət naminə yormazdı. Özü də pullu toylara aludə olan deyildi. Getsə də ayda bir, ya iki məclisə gedərdi. Özü də hər adamın məclisinə ayaq qoymazdı. O, səsini necə qorumağı barədə belə deyərdi: «Ömrüm boyu səsimi qorumuşam. Bir balaca yorğunluq hiss etsəydim, səsim düz olmasa idi öldürsəydilər də oxumazdım. Çox varlı, kübar ailələrin təm-təraqlı məclislərinə düşmüşəm. Vəzifəli şəxslərin qəbulunda olmuşam. Gözəl-göyçək qızlar-gəlinlər üz vurublar ki, bizim sağlığımıza heç olmasa bir yüz qram iç, demişəm yox! Məni çox məcbur edəndə, boğazımı onlara göstərib demişəm: - Ay canım, burda xalqın əmanəti var. Mən bu əmanəti qoruyub saxlamalıyam. Əmanətə xəyanət olmaz. Məni məcbur etməyin, məclisi qoyub gedərəm.

Mən ömrüm boyu Cabbar Qaryağdı oğlunun bu vəsiyyətlərini unutmamışam:

- Səsin sənə qulaq asmadı, oxuma, zökəm oldun, oxuma, yorğun oldun, oxuma. Bakının dəli havasından özünü qoru. Küləkli havada eşiyə çıxma, istidən tərləsən belə su içmə. Çayxanalarda hamballarla çay içməyə razı ol, amma gözəl-göyçək qızlarla küçədə dondurma yeməyə razı olma».

Məhz buna görə də, ustadının bu müdrik vəsiyyətlərini yerinə yetirdiyinə görə Xanın səsi 25 yaşında necə qüdrətli və təravətli idisə, 70-75 yaşlarında da eyni əzəmət, eyni nikbinliklə səslənirdi...

Yeri gəlmişkən onu da deyim ki, müasir xanəndələrin əksəriyyəti sənəti öyrənmədikləri kimi, səsin qədrini də bilmirlər. Bunun nəticəsidir ki, xaric oxuyan kim, səsinə zor verib səhərəcən məclislərdə qışqıran kim, məclisdə oxumaq əvəzinə meyxana deyib qol qaldırıb oynayan, bir sözlə mütrüblük edən kim! Bir yandan da Abşeronun pullu toyları az-çox səsi olanların boğazını yırtır.

Yadda saxlamaq lazımdır ki, səs təbiətin nadir vergisidir. Bu vergi isə hər kəsə nəsib olmur. Bu vergiyə göz yumanlar isə bədbəxtdirlər...

Xanın toyda oxumağını sonuncu dəfə 1963-cü ilin payızında Ağdamın Əfətli kəndində eşitdim. Mən həmin toya dostum Gülablı Şafa Hüseynovla getmişdim. Geniş həyətdo 300 adam tutan böyük bir toy mağarı qurulmuşdu. Xan Bakıdan öz dəstəsilə (Xan, Allahyar, məşhur qarmonçu Teyyub Dəmirov), yerli musiqiçilərdən isə istedadlı tarzən Xosrov Fərəcov və kamançaçı Daniel iştirak edirdi. Çalıb-oynamaq qurtarandan sonra növbə Xana gəldikdə, toyun «padşahı» Mirqasım mənə müraciət etdi:

- Firidun müəllim, siz nə arzu edirsinizsə Xan onu oxuyacaq!

Doğrudan da «padşahın» mənə müraciət etməsi lap ürəyimdən oldu Çünki mən çoxdan belə bir fürsəti gözləyirdim, toyun «padşahı»na dedim:

- Mən xahiş edirəm, əvvəl Teyyub bir «Bayatı-Qacar» çalsın, sonra isə Xan «Mənsuriyyə» oxusun.

Bunu mən təsadüfi olaraq demədim. Çünki Xanın repertuarına yaxından bələd olanlar və onu ömrü boyu dinləyənlər yaxşı bilirlər ki, Xan ömründə məclislərdə «Mənsuriyyə» oxumamışdır. Bir dinləyici, həm də musiqişünas kimi Xanın «Mənsuriyyə» oxuması mənim üçün həm maraqlı, həm də zəruri idi. Yaxşı yadımdadır, Xan əvvəl gülümsədi, sonra başını bulayıb üzünü mənə çevirib dilləndi:

- Ay canım, bu yağışlı havada, özü də mağarda «Mənsuriyyə» oxumazlar.

Məclisi son dərəcə ləyaqətlə, özü də amiranə surətdə aparan «padşah» çəmkirdi:

- Xan, heç oyan-buyanı yoxdur. Nə xahiş ediblər, onu da oxumalısan, vəssalam!

Xan olduqca mehriban, mülayim, son dərəcə yumşaq adam idi, o, heç bir zaman razı olmazdı ki, ondan incisinlər. Şübhəsiz ki, böyük sənətkar haqlı idi. O məclis «Mənsuriyyə» yeri deyildi. Lakin neynəmək, belə bir fürsəti əldən buraxmaq olmazdı. Xan gördü ki, mən və «padşah» inad edirik, əlacsız qalıb dedi:

- Neynək, «Mənsuriyyə» demirsiniz, oxuyaram, - sonra üzünü tarzənə tutub əlavə etdi.

- Bala, simləri kökləyin, görək nə qayırırıq...

Həmin gecə onun xüsusi bir zövq ilə, daha doğrusu, cavanlıq ehtirası ilə, özünəməxsus bir məharətlə oxumağı indi də qəlbimdən silinməmişdir.

«Mənsuriyyə» ruhnəvaz olan «Çahargah» muğamının səkkizinci şöbəsidir. Son dərəcə çətin və mürəkkəb hava sayılan bu şöbə xanəndədən güclü səs və bir neçə forma və mərtəbədə sürəkli zəngulələr tələb edir. Şübhəsiz ki, hər xanəndə «Mənsuriyyə» oxuya bilməz. Lakin 63 yaşlı Xan nəinki bu mürəkkəb muğamın çətin gediş-gəliş yollarını son dərəcə asudə gəzişdi, hətta muğamın zərbini götürüb daha zilə, «üzzal» pərdəsinə qalxıb şaqraq zəngulələrlə tarın son pərdələrini (qəmişini) «döyməyə» başladı... Məni heyrət bürümüşdü. 63 yaşın ola, özü də belə bir cəngavərliklə «üzzal» pərdəsi üzərində gəzişəsən, bu ifaçılıq tarixində hər müğənniyə müyəssər olan hal deyildi.

Xan muğamın zilində heç bir əziyyət çəkmədən, sifətində heç bir dəyişiklik olmadan gəzişəndə mənim yadıma istər-istəməz Seyid Şuşinskinin, xüsusilə Cabbarın guşə və xalları yada düşürdü. Onu da deyim ki, Xanın «Mənsuriyyə»də işlətdiyi priyomlar misilsiz idi. Elə buradaca Allahyarın, Teyyubun, Danielin və Xosrovun da adlarını çəkmək yerinə düşərdi. Çünki bu mahir çalğıçılar Xama «Məmsuriyyə»nin öhdəsindən kəlməsi üçün əllərindən gələn köməyi əsirgəmirdilər...

Xan «Mənsuriyyə»ni başa vurub qavalı yerə qoydu. Məclisi alqış sədaları bürüdü: «Yaşa, min yaşa». «Sənə nənəm qurban», «Halal olsun sənə Qarabağın suyu, havası» kimi xoş sözlər eşidilirdi... Qəhərlənmişdim, yaş məni boğurdu...

Səbəbi aydın idi. Bir də nə belə səs, nə də belə oxuyan eşidib görməyəcəkdim. Mənim pəjmürdə halımı görən Xan üzünü mənə çevirib şəhadət barmağını havada oynadıb yarıciddi halda məni «hədələyib» dedi:

- Hə, əmi oğlu, indi necəsən? Bax, adamın anasını belə ağladarlar.

Hamı gülüşdü...

Məclis başa çatdı, hamı şad-xürrəm öz evinə getdi. Məncə həyəcanımdan o gecə səhərəcən yata bilmədim. Məni bir məsələ indiyə kimi həm narahat edir, həm də ciddi düşündürür: «Görəsən niyə, 60 ildən bəri Xanın səsi kimi ikinci bir səs peyda olmur?»

Bu sual məni həmişə narahat edir və buna cavab verməkdə çətinlik çəkirəm. Lakin bircə şeylə təsəlli tapıram ki, Xanın irsi, ölməz sənəti qızıl fonda daxil olmuşdur. Xan kimi səsi, sənəti olan sənətkarları tarix hər zaman yetirmir!

Biz hələ bir çox illər gözəl müğənnimizin şirin səsini doymadan dinləmək arzusunda idik. Lakin... 1979-ci ilin soyuq mart ayının 19-da səhər erkən «Ədəbiyyat və incəsənət» qəzetindən mənə zəng vurub xahiş etdilər ki, Xan haqqında intervyü verim.

- Nə münasibətlə? - Soruşdum. Cavabında dedilər:

- Dünən gecə Xan Şuşinski gözlərini əbədi yummuşdur.

Bu qara xəbəri eşitmək mənim üçün ağır və gözlənilməz idi. Göz yaşı və qəhər məni boğurdu... Qəzetin əməkdaşına yalnız bunu deyə bildim:

- Əfsuslar olsun, heyf... 50 il vokal dünyasına nur saçan bir çıraq söndü...

Xan məclislərin bəzəyi, toyların yaraşığı, milli musiqi mehrabının misilsiz nəğməkarı idi.

Hər dəfə yorğun və kədərli dəqiqələr keçirərkən Xanın səsini eşidən kimi ürək titrəyir, qəlb səyyar bir quş kimi uzaqlara uçub ömrün keçmiş, qəmli-qüssəli, acılı-şirinli günlərini bir daha yada salır, həm kədərlənir, həm də təsəlli tapırdıq.

Son atılmış ildə Xanın səsi kimi məlahətli, yumşaq və incə bir səs eşitməyən musiqi pərəstişkarları hər yeni səsə həssas münasibət bəsləyir, dərin inam və ümidlə Xanın zəngin xanəndəlik irsinin varisini gözləyirlər.

***

Xan Şuşinski Azərbaycan vokal incəsənətinin ən görkəmli və ən istedadlı nümayəndələrindən biri kimi tanınır. O, ömrünün əlli ilini milli musiqimizin inkişafına həsr etmişdir. Yüksək ifaçılıq qabiliyyətinə malik olan müğənni klassik Şərq və Azərbaycan muğamlarını, təsnif və el nəğmələrini tam mənası ilə sərbəst, xüsusi zövq və böyük ustalıqla ifa edirdi.

Xanda olan geniş diapozonlu, yüksək tessituralı gur səs və güclü nəfəs hər xanəndədə olmamışdır. Qədim xalq mahnılarını, təsnifləri, xüsusilə muğamları tam şəkildə, ustalıqla ifa etməkdə heç kəs onunla bəhsə girə bilməzdi. Xanın olduqca yağlı, şirin və son dərəcə zil səsi vardı. Qoca sənətkarlar söyləyirlər ki, belə bir səs yalnız məşhur xanəndə Hacı Hüsüdə olmuşdur.

Xan gözəl tembrli səsini istədiyi kimi ələ almağı, idarə etməyi, cilalamağı, hətta xüsusi bir zərgər ustalığı ilə cilalamağı da bacaran sənətkar idi. Eyni zamanda Xanın yüksək səhnə mədəniyyəti vardı. O, tamaşaçılar qarşısında böyük məsuliyyət daşıyar, səhnəyə çıxarkən dərin həyəcan keçirərdi; mən onun səhnəyə çıxarkən sifətinin titrədiyinin və əllərinin soyuduğunun dəfələrlə şahidi olmuşam. Bütün bunlar hamısı sənətə və özünə böyük tələbkarlıqla yanaşmaqdan doğurdu.

Bir müğənni kimi Xan sənətinin cəzbedici sirri dinləyicini tam ələ almağı idi ki, bunun isə əsas səbəbi yalnız və yalnız onun insanı məftun edən gözəl və təkrarolunmaz səsi, həddindən artıq rəvan, aydın nitqi və xüsusi vokal ustalığı idi. Xanın səsində doğmalıq, yaxınlıq, insanın könlünü ələ almaq qüdrəti, milli kolorit güclüdür. Kimə Xanı cavan yaşlarında görüb eşitmək nəsib olubsa, onun oxumağından daha çox estetik həzz, zövq-səfanı duyub. Doğrudan da Xanı dinləmək səadət, böyük xoşbəxtlik idi. Onun nikbin əhvali-ruhiyyə, sevinc, hiss və duyğular oyadan məlahətli səsi həmişə təravətli idi. O, 25 yaşında necə oxumuşdursa, 75 yaşında da onun incə səsi eyni əzəmət və nikbinliklə səslənmişdir. Xan bütün muğamları bəmdə, istərsə də zildə tam sərbəstliklə oxumuşdur. Özü də bu qeyri-adi, yumşaq tembrli səs bütün reqistrlərdə, eyni formada səslənmişdir. Bu nadir hallarda təsadüf edilən cingiltili səs tam şəkildə dolğun, bütöv, təsirli, həm də sərbəst idi. İstər bəm, istər orta reqistrlərdə səs olduqca düzgün səslənər, hətta yüksək notlar götürəndə belə bu səsdə heç bir dəyişiklik baş verməzdi. Xan ömründə bir dəfə olsun belə xaric oxumamışdır... Əksinə, Xan muğamların zilinə qalxanda onun səsi daha təravətli olardı. Elə bir çətin hava, elə bir zil muğam yox idi ki, Xan onların öhdəsindən asanlıqla gəlməsin.

Xanın oxuduğu «Segah»ı və «Qarabağ şikəstəsi»ni dinləyəndə adamın bütün sevincləri də, kədərləri də yadına düşür. Onun vurduğu şirin xallar, gözəl guşələr altında istər-istəməz xəyal səni uzaqlara aparır, sanki gözəl arzularınla qovuşursan.

Xanın «Şur»unu dinləyəndə adama elə gəlir ki, incə zövqlü bir nəqqaş zərif vaza üzərindəki naxışları silalandırır. O, muğamın «Sarənc» şöbəsinə melodik bəzəklər, melizmalar vuranda sanki könüllərə yol açır.

Xanın ifasına təsir qüvvəsi verən bir cəhəti ayrıca qeyd etmək lazımdır. Bu da ondakı xəlqilik və yüksək ideyalıqdır. Xan bütün varlığı ilə qədim Azərbaycan musiqi folkloruna, rəngarəng və zəngin muğamlarımıza bağlıdır. Oxuduğu muğamlar, hətta onların ən qəmginlərindən biri sayılan «Bayatı-türk» belə adamın ürəyinin incə tellərinə, qəlbinin dərin guşələrinə işıq saçır, onda nəsib və xeyirxah duyğular oyadır, düşündürür, daşındırır, fəqət heç bir zaman ruhdan salmır. Əksinə, insana qol-qanad verir, onun həyat eşqini gücləndirir.

Lakin Xan əldə etdiyi müvəffəqiyyətlə kifayətlənən sənətkarlardan deyildi. O, musiqi və oxumaq texnikasını mənimsəyərək onun əsası üzərində öz yaradıcılığını daha da inkişaf etdirərdi.

Xan Şuşinski mahir sənətkar idi. O, 40 il Azərbaycan Dövlət Filarmoniyasında səlist olmuşdur. O, bu dövr ərzində qardaşı, istedadlı tarzən Allahyar Cavanşirovla birlikdə Zaqafqaziya dinləyiciləri qarşısında kəndlərdə, şəhərlərdə, klublarda, hərbi hissələrdə, maarif evlərində, müxtəlif müəssisələrdə, hərbi xəstəxanalarda, çağırış məntəqələrində oxumuş, Azərbaycanda və Zaqafqaziyada keçirilən olimpiadalarda və baxışların çoxunda iştirak etmişdir. Bunların müqabilində hərbi hissələrdən, ayrı-ayrı nazirliklərdən, incəsənət müəssisələrindən, Sovet təşkilatlarından çoxlu təşəkkürnamələr və fəxri fərmanlar almışdır.

Ü. Hacıbəyov öz çıxışlarında dəfələrlə Xanın səsinə və gözəl sənətinə yüksək qiymət vermişdir. Böyük bəstəkar onun «Şur» oxumağından və «Alma almaya bənzər» mahnısından xüsusi həzz alardı. Şərq musiqisinin peyğəmbəri Cabbar Qaryağdı oğlu isə, vaxtilə gənc Xanı dinlədikdən sonra inamla onu «Gələcəyin ən gözəl oxuyanı» adlandırmışdı.

1971-ci ildə Azərbaycanın musiqi ictimaiyyəti Xanın 70 illik yubileyini keçirmişdi. Xanın uzun illər səmərəli fəaliyyətini nəzərə alaraq ona respublikanın xalq artisti kimi yüksək ad verilmiş, o, «Şərəf nişanı» ordeni və bir çox medallarla təltif edilmişdir.

Xan öz yaradıcılıq yolunu xatırlayarkən Zaqafqaziyada, həmçinin Şərq ölkələrində sənətkar kimi şöhrət qazanmasında yeni sosializm cəmiyyətinə borclu olduğunu söyləyirdi. O deyirdi: "Əgər Sovet hökuməti olmasaydı, mən toylarda oxuyan xanəndələrdən fərqlənməzdim, özüm də Şuşadan - Qarabağ mahalından kənara çıxa bilməzdim. Kommunist Partiyası və Sovet hökuməti incəsənətə çox yüksək qiymət verdiyindən, məni bir sənətkar kimi ortaya çıxardı. Mənim tərəqqi və inkişafıma yardım etdi. Mən də bütün varlığımla xalqa xidmət etməyə imkan tapdım".



Xan Şuşinskinin sonuncu üçlüyü: (sağdan) kamançaçı Nevton Qriqoryan,
tarzən Allahvar Cavansirov və Xan. (Bakı, 1967-ci il).

Xan olduqca təvazökar, sadə, mehriban və yaxşı bir dost idi. O, həddindən artıq nəcib, həm də alicənab insan idi. Xan hamıya eyni gözlə, eyni nəzərlə baxar, heç kəsin xətirinə dəyməz və heç kəsdən də heç nə əsirgəməzdi, olduqca qonaqpərvər idi. Çox danışmağı sevməzdi. Danışanda da qısa və aydın danışar, yumoru isə çox sevər, hərdənbir şux zarafatlar da edərdi. Nərd oynamağı xoşlardı. Onunla hər adam nərd oynaya bilməzdi. Hərdən zəng edərdi:

- Dur gəl, dərsini verim.

Xan cavanlıqda Ağdamda yaşayanda Xanlıq atından və iri ları xoruzundan çox xoşu gələrdi. Həyətlərində həmişə iri ları xoruzları saxlar, onları döyüşdürməkdən həzz alardı.

Gözəl, həm də iti yaddaşı var idi. Mənə Azərbaycan xalq musiqisi, onun Cabbar Qaryağdı oğlu, Məşədi Zeynal, Seyid Şuşinski, Şəkili Ələsgər, Kamra bəyim, qarmonçu Abutalıb, həkim Avanes İoanesyan, Bala Məlikov kimi sənətkarlar haqqında son dərəcə qiymətli xatirələr söyləmişdir. Həmişə Üzeyirbəyin və Səməd Vurğunun adlarını dərin hörmət hissilə çəkərdi.

Yeri gəlmişkən, fürsətdən istifadə edib Xanın bir çox klassik sənətkarlar haqqında söylədiyi səmimi ürək sözlərini oxuculara çatdırmağı özümə borc bilirəm... Yuxarıda qeyd etdiyim kimi Xanı ilk dəfə 1937-ci ildə əmim qızı Fatmanın toyunda görüb eşitmişəm. Xan bizim ailəyə yaxın adam idi. Xüsusilə əmim oğlu Qara ilə dostluq edərdi. Dəfələrlə Şuşada bizim evdə toy və ailə şənliklərində çalıb-çağırmışdı... Hər il yay ayları Şuşaya istirahətə gələndə mütləq bizim evin ən əziz qonağı olardı. Müharibədən sonra mən Dövlət Universitetində oxuyanda Xan ilə dostluq (1949) etmişəm və bu dostluq düz 30 il davam etmişdir... Mən hələlik Xan haqqında xatirə söyləmək fikrində deyiləm. Lakin yeri gəldiyinə

görə onunla saysız-hesabsız görüşlərimin biri haqqında qısaca olaraq məlumat vermək istərdim...

1961-ci ilin Novruz baramı günləri idi. Xanəndə İldırım Həsənovla Xangilə getdik. Bu gəlişimin iki məqsədi var idi: həm böyük sənətkarın ailəsini Novruz bayramı münasibəti ilə təbrik etmək, həm də avqust ayının 20-də onun 60 yaşı tamam olurdu. İstəyirdim radio və qəzetlər üçün bir şey yazım. Xan həmişəki kimi bizi gülərüzlə qəbul etdi. Söz-söhbət, çay dəstgahı və nərdtaxta oyunundan sonra mətləbə keçdik. Mən Xanın şəxsi arxivi ilə yaxından tanış oldum. Mənə çoxlu nadir şəkillər, konsert proqramları və bir neçə qrammofon valı bağışladı. Mən Xanın tərcümeyi-halı haqqında müəyyən qeydlər etdikdən sonra söz keçmiş klassik sənətkarlardan düşdü... O, həmişə olduğu kimi birinci növbədə adını böyük hörmətlə çəkdiyi və sənətinə son dərəcə məftun olduğu Qaryağdı oğlu Cabbar haqqında sözə başladı. «Cabbar Qaryağdı oğlunu ilk dəfə 1920-ci ildə Şuşada konsertdə görmüşəm. Onun haqqında çox eşitmişdim. Onu görməyə can atırdım. Nəhayət Cabbar əmi ilə Şuşada böyük bir toyda iştirak etdim. Səhv etmirəmsə, toy Hacı Dadaşın zalında vurulurdu. Toyun padşahı Əllaf Kərbəlayı Şükür Cabbar əmidən mənim oxumağımı xahiş etdi... Nə isə, mən oxudum. Onun çox xoşuna gəldi. Məni bağrına basıb gözləri yaşarmış halda dedi: - səsindən muğayat ol, sən yaxşı xanəndə olacaqsan... Cabbar əmi professor idi. Şairliyi də var idi. Özündən mahnı düzəldirdi, qəzəl yazırdı. Ona qulaq asanda fərəhlənərdim. Çox yırtıcı oxuyan idi. Bir muğamı azı 3-4 saat oxuyardı. Özü də hər mənəm-mənəm deyən xanəndə ondan sonra oxuya bilməzdi. Çünki oxumağa bir şey qalmazdı ki, oxuya. Ona görə ki, rəhmətlik Cabbar bir muğamın içində 12 muğamın hamısını oxuyardı. Heç kəsə heç nə qalmazdı. Buna görə də bəzən ona «kəmfürsət Cabbar» deyərdilər. Muğamdan-muğama elə sərbəst keçərdi ki, istiliyi-soyuqluğu hiss olunmazdı. Bu adamın fikri-zikri oxumaq idi. Bir gün oxumasa idi bağrı çatlardı. Bəzən onlara gedəndə görərdin güzgünün qabağında oturub özü ağzında havanı çalıb oxuyur. Mütaliyə eləməyi çox sevərdi. Bir gün qəzet, özü də urus qəzetlərini oxumasa idi yatmazdı. Kişi həqiqi alim idi... «Seyid haqqında çox eşitmişdim. İlk dəfə onun ilə Ağdaşda bir məclisdə iştirak etdim. Seyid ilə qabaq-qabağa oturub oxudum. Seyid çox səliqə ilə geyinərdi. O, həm də ziyalı idi. Onun Tiflisdə mehmanxanası, restoranı və «mersedes» markalı avtomobili var idi. O, Tiflis məclislərinin birində elə oxumuşdu ki, ona qızıl qaval bağışlamışdılar. O bütün muğamları çox ustalıqla oxuyurdu. Xüsusilə onun «Çahargah»ına söz ola bilməz. Şuşada bir toyda şirin «Mənsuriyyə» oxuduğu yerdə toyun «padşahı» qəfildən dilləndi:

- Ağa, «özündənbəy» məclisə gəlir, onu təriflə ki, ucuzluq olsun. Ağa, bir dəqiqənin içində «Mənsuriyyə»dən «Orta segah»a keçdi və bəyi tərif etdi. Mən yerimdə quruyub qaldım... Bu əhvalatı Cabbar əmiyə söylədim. Cabbar heç təəccüblənmədi, çiyinlərini çəkib dedi: - Belə bir məharət yalnız Seyiddə ola bilər.

Ağdamda Çəmənli Məşədi Səfərin məclisində Seyid məni oxutdu, mənə qızıl saat bağışladı və ağladı».

«Keçəçi oğlu Məhəmməd yaxşı bayatı oxuyardı. Onun «Bayatı-Qacar»ına qulaq assaydın dəli olardın. Muğamata dərin bələd idi. Özü də çox uzun nəfəsi var idi. Məsələn o, «Axşam oldu» təsnifini başlayanda: - Axşam oldu hey... - deyəndə əlinə zənbil alıb bazara gedib qayıtsan görərsəydin hələ: «Şamlar yandığını» deməyib. Onu demək istərdim ki, səsi rezin kimi idi, çəkdikcə uzanırdı. Özü də çox gözəl, quymaq kimi yumşaq adam idi. Xalis türk idi».

«Qurbanın çalğısına söz ola bilməz. Onun oturuşun-duruşun, tarı tutmağını heç kəsdə görmədim. Özü də onun biləyi şir biləyi idi. Cabbar kimi bir cəngavər xanəndəni dörd saat «Mahur» oxutmaq sənə zarafat gəlməsin. Buna heç bir tarzən tab gətirə bilməzdi. Özü də onun xanəndə oxutmaqda əvəzi yoxdur. Səni elə oxudar ki, heç ruhun belə inciməz».

«Məşədi Məmməd Fərzəliyev kimi zəngulə vuran görmədim. Özü də əntiqə qaval vurardı. Bütün xanəndələr ondan ehtiyat edərdilər...»

«Şəkili Ələsgər və Malıbəyli Həmid ilə Gəncə məclislərində bir neçə dəfə çıxış etmişəm. Hər ikisi mənim səsimə heyran qalardılar. Ələsgər həmişə deyərdi: «Çətin ağlım kəsir səndən sonra belə bir səs dünyaya gələ...»

«Üzeyirbəy ayrı adam idi. Belə insan beş yüz ildən bir dünyaya gələr. Onunla heç kəsi bir tərəziyə qoymaq olmaz. Mənim xətrimi çox istəyirdi. Yaman muğampərəst idi. «Şur»u çox sevirdi. Özü də həmişə deyərdi, heç kəs «Qarabağ şikəstəsi»ni və «Simayi-şəmsi» Xan kimi oxuya bilməz. Çox çalışdı məni operaya aparsın, getmədim. Dedim:

- Ay bəy, mən üzümə ənnik-kirşan yaxıb səhnəyə çıxa bilmərəm. Bir də səhnədə xalqın arvadlarına eşqnamə oxuyub onlarla mazaqlaşa bilmərəm...»

Xan, Üzeyirbəy haqqında sözünü başa vurub üzünü mətbəxin qapısına tutub, avazla səslədi:

- Ay canım, çay gətirin.

Mən tələsik və narahat halda dilləndim:

- Ay Xan, hələ çay vaxtı deyil, söhbət hələ qurtarmayıb.

O gülümsədi, qəlyanı tənbəki ilə doldurub dedi:

- Firi bala, bəs deyil? Daha kimi soruşmaq istəyirsən?

Mən tez cavab verdim:

- Bəs dostun?

Xan həmin dəqiqə bildi ki, söz Səməd Vurrğundan gedir. O bir qədər narahat oldu. Dərindən ah çəkib dedi:

- Mənim dərdimi təzələdin. Çalışıram Səmədi yada salmayım.

Onu yad edəndə tüklərim biz-biz olur. Çünki o dünyadan çox tez getdi, dostlarını da həsrətdə qoydu... Onun bir məclisi mənsiz keçməzdi. Moskvadan, uzaq ölkələrdən yanına qonaq gələn kimi tez məni çağırardı. Səmədin Gəncə,

Qarabağda qurduğu məclislərdə çox çalıb-çağırmışam. Səməd muğamatın vurğunu idi. Özü də «Segah»ı çox sevərdi. Elə bir məclis olmazdı mənə «Segah» oxutmasın. Oyun havalarından «Tərəkəmə»ni dinlərdi. Özü də mən onun kimi həyatı, gözəlliyi, insanlığı sevən ikinci bir şair görmədim. Səmədin böyük ürəyi var idi. Çox əliaçıq, dosta dost, düşmənə düşmən idi. Xalis kişi idi. Həm zəri var idi, həm də zoru. Olduqca sadə adamdı. Yadındadırmı «İsa bulağı»ndakı son görüşümüz... Görürdün də o özünü necə sadə, mehriban aparırdı.

Bəli, Səməd dünyadan vaxtsız köçdü. Onun ürəyi dolu idi, deyəsi çox sözü qaldı. 50 il nə ömürdü? Heç bilmirəm bu dünya niyə belədi? O qədər ölməli pis adamlar var ki, gəl görəsən! Niyə Səməd çox yaşamadı?..»

Mən gördüm ki, Xan getdikcə qəhərlənir, tez araya söz atdım:

- Xan, mən yoruldum. Keçək o biri evə, piano çalmaq istəyirəm.

İldırım da mənim təklifimə tərəfdar oldu. Xan, əlacsız qalıb-dilləndi:

- Onda bir «Bayatı-Qacar» çal İldırım pəsdən desin...

O günü gecədən xeyli keçənədək məclis davam etdi...

Xan Şuşinski daima xalq yaradıcılığından qidalanan müğənni idi. O, xalq musiqi xəzinəsinin nadir inciləri olan nəğmələrin füsunkar ifaçısı olmaqla bərabər bir çox el sözlərinə aşıq və şairlərin lirik şerlərinə belə incə nəğmələr qoşmuşdur. Onun məşhur «Qəmərim» mahnısından sonra vətəni Şuşaya həsr etdiyi: «Şuşanın dağları» mahnısı dillər əzbəri olmaqla əlli ilə yaxındır xanəndələrin repertuarından düşmür. Mahnının sözləri aydın, qısa və təsirli olmaqla musiqisi də rəvan, təbii və oynaqdır:

Şuşanın dağları başı dumanlı,
Qırmızı qoftalı yaşıl tumanlı
Dərdindən ölməyə çoxdur gümanlı
Ay qız, bu nə qaş-göz bu nə tel?
Ölürəm dərdindən onu bil,
Danışmasan da bala, barı gül!

Şuşada axşamlar sayrışar ulduzlar
«Çanaxqala»sını bürüyər qızlar,
Oturub yol üstə yarını gözlər,
Ay qız, bu nə qaş-göz bu nə tel?
Ölürəm dərdindən onu bil,
Danışmasan da, bala, barı gül!

Şuşanın hər yanda vardır sorağı,
Tərifə layiqdir «İsa bulağı»,
Dağları, bağları qızlar oylağı.

Ay qız, bu nə qaş-göz bu nə tel?
Ölürəm dərdindən onu bil,
Danışmasan da, bala, barı gül!

Son beytlər mahnının nəqəratıdır.

Bundan başqa nəğməkarın: «Ay gözəl», «Məndən gen gəzmə», «Al yanağında», «Dağlarda çiçək», «Gözəl yarım», «Ölürəm a Ceyran bala» mahnıları uzun illər yaradıcılıq axtarışlarının bəhrəsidir.

Xan bir musiqi xadimi kimi yaxşı bilirdi ki, nəğmə həyatımız üçün ən zəruri bir şeydir. O, işdə, əməkdə, döyüşdə, həyatda bizə kömək edir, qəmli dəqiqələrdə belə bizə təsəlli verir, qəlbimizdə nikbin duyğular oyadır, bizi fədakarlığa, qəhrəmanlığa ruhlandırır, xüsusilə gənc nəslin estetik tərbiyəsində mühüm rol oynayır. Məhz buna görə də Xanın oxuduğu nəğmələrin musiqisi kimi mətni də ahəngdar, aydın və dolğundur, müasir nəğməkarlarımız mahnıların məhz bu cür səslənməsinə nail olmalıdırlar. Bunun üçün isə nəğməkarın gözəl?

Səsindən, fitri istedadından başqa özünəməxsus yolu-izi, fantaziyası və oxuduğu mahnıları cilalayıb zənginləşdirmək, ona yeni-yeni əlavələr, guşələr, nəfəslər, xallar artırmaq işində dəyərli xidmətləri olmalıdır.

Xan Şuşinskinin son illərdə bəstələdiyi mahnılar içərisində qızı Bəyim xanıma həsr etdiyi, «Ay qəşəng Ceyran» mahnısı diqqətimizi daha çox cəlb edir. Xan bu mahnını 1959-cu ildə bir yaşlı balaca Bəyimin təzəcə dil açıb «dədə» deməsi münasibətilə bəstələmişdi:

Araqçının mirvari,
Ay qız, danış gül barı.
Evimizə gəlməsən,
Qonşumuza gəl barı.

**Nəqərət**

Ay qəşəng ceyran,
Gözlərə qurban.
Danış dilinə qurban,
Qara telinə qurban.

Əzizinəm ay gəlin,
Ulduz gəlin ay gəlin.
Qardaşıyın toyunda,
Nazik yuxa yay gəlin.

**Nəqərat**

Ay qəşəng ceyran,
Gözlərə qurban.
Danış dilinə qurban,
Gözəl xalına qurban.

Əzizinəm yonqarı,
Dülgər yonar yonqarı.
Qızıma qurban olsun,
Doqquz qoca, on qarı.

**Nəqərat**

Ay qəşəng ceyran,
Mən sənə qurban.
Danış, dilinə qurban,
Üzdə xalına qurban.

Xan Şuşinski bəstəkarlardan yalnız Üzeyir Hacıbəyovun yaradıcılığına müraciət etmişdi. Məlumdur ki, dahi bəstəkar özünün «Qara göz» adlı məşhur nəğməsini 1926-cı ildə bəstələmişdir. Bu gözəl və həmişəcavan mahnını ilk ifaçısı Xan Şuşinski olmuşdur. Qocaman sənətkarlar söyləyirlər ki, Üzeyirbəy Xanın ifasında bu mahnını dinləməkdən doymazdı. Təəssüf ki, müasir müğənnilər hətta bəzi xalq artistləri belə bu füsunkar mahnını düz oxumur, mahnının həm mətnini, həm də musiqisini bayaqlaşdırıb özlərindən belə qondarma əlavələr edirlər. Buna əllaməçilikdən başqa ayrı ad vermək olmaz. Heç kəsə ixtiyar verilmir bəstəkar mahnısını ifa edərkən özbaşınalıq etsin. Yadda saxlamaq lazımdır ki, böyük sənətkara və onun sənətinə yamaq vurmaq olmaz. Üzlərdən iraq belə bir həngamə çıxartmaq, mərmər daşın üzərinə qır tökməyə bənzər. Buna görə də biz, böyük Üzeyirin «Qaragöz» mahnısının mətnini Xanın ifasında səsləndiyi kimi vermək ehtiyacına vardıq:

Gülü baxçadan üz
Saçına saçax düz.
Yanıma gələrsən.
Qaraqaş, qaragöz.

**Nəqərat**

Məni gəl məzəmmət,
Eləmə gözəl yar.
Nə qədər qəşəngsən,
Nə qədər gözəlsən.
Elə bil mələksən.
Qaraqaş, qaragöz.

Sən mənim gülümsən,
Gülüm bülbülümsən.
Şirin dil, şirin söz
Qaranquş, qaragöz.

**Nəqərət**

Gülü baxçada al,
Saçına saçax sal.
Gül içində gül qal,
Qaranquş, qaragöz.

Səməd Vurğun Qarabağı «musiqimizin beşiyi» adlandırmışdır. Bu beşiyin başında qeyrətlə dayanan Üzeyirbəy, Şərqdə ilk dəfə opera musiqisinin əsasını qoymuşdur. O, Cabbar Qaryağdı oğlunu «muğamatın atası» hesab etmiş, Bülbül isə Xanı: «istedadlı sənətkar» adlandırmışdı.

Xan Şuşinskinin incə səsi və böyük sənəti bir çox ədib və şairlərin diqqət mərkəzində olmuş, onlar Xan haqqında ürək sözlərini demişdir. Yazıçı Süleyman Rəhimov Xanı «Milyonların sevimlisi» Əli Vəliyev «Əvəzsiz xanəndə», Mirzə İbrahimov «Gözəl sənətkar», Süleyman Rüstəm isə Xanın səsinə «Uzun ömürlü səs» deyib tərif etmişdir. Xanın qeyri-adi səsindən vəcdə gələn şair Məmməd Rəhim şerlərinin birində bu səsi dağ çeşməsinə bənzətmişdi:

Gözəl Qarabağa onda get ki, sən
Yaşıl yamaclarda yüz canan olsun.
İsa bulağında, cıdır düzündə,
Səsi dağ çeşməsi dostum Xan olsun.

Xan Şuşinski Azərbaycan musiqi mədəniyyəti tarixində müstəsna xidməti olan musiqi xadimidir. Azərbaycan poeziya tarixində Səməd Vurğun hansı yerdə dayanırsa, Xan da vokal tarixində o yerdə durur. Təəssüf ki, indiyə qədər Xanın xanəndəlik yaradıcılığını hərtərəfli əhatə edən sanballı tədqiqat əsərləri və monoqrafiyalar yoxdur. Məncə Xan haqqında, onun vokal sənətinə gətirdiyi

yeniliklər haqqında əsərlər, kinossenari yazmaq vaxtı çoxdan çatmışdır. Bu məsələ musiqişünaslarımızı ciddi narahat etməlidir. Elə etmək lazımdır ki, müasir gənclik və gələcək nəsillər Xanın qeyri-adi səsini eşitsinlər. Bunun üçün Xanın lent yazıları qrammofon vallarına köçürülməlidir. Bunlardan əlavə unudulmaz sənətkarın xatirəsini əbədiləşdirmək üçün musiqi məktəblərindən və Bakının küçələrindən birinə Xanın adını vermək, həm də onun Şuşadakı və Bakıdakı evlərinə xatirə lövhələri də vurmaq lazımdır...

Artıq altı ildir güllü bağçamızın bu şən bülbülünün incə səsini eşitmirik - məclislərimiz, konsert salonlarımız Xansız qalmışdır. Musiqimizin bünövrəsi və təməl daşı olan muğamlarımız Xansız qalmışdır. Vokal sənətində bir boşluq yaranmışdır. Nə isə çatmır, nəyinsə həsrətindəyik. Doğrudan da «Yeddi fətirin yeri göynəyir...» Biz hələ bir çox illər «Xan-Xan» deyib qaranlıq gecələrdə sərgərdan gəzəcəyik. Lakin ümidvarıq ki, Məhəmməd Füzulini, Hüseyn Cavidi, Üzeyirbəy Hacıbəyovu, Sadıqcanı, Cabbar Qaryağdı oğlunu, Qurban Pirimovu, Bülbülü, Səməd Vurğunu, Fikrət Əmirovu və Xanı yetirən bir millət bu cür istedadları yenə yetirəcəkdir...

# KİTABIN İÇİNDƏKİLƏR

Misilsiz xəzinə (F. Əmirov)
Azərbaycanda xanəndəlik sənətinin inkişafı tarixindən
Hacı Hüsü
Səttar
Sadıqcan
Məşədi İsi
Mirzə Muxtar
Bülbülcan
Mirzə Fərəc
Aşıq Abbasqulu
Lazar Ter-Vartanesov
Mirzə Məhəmməd Həsən
Məşədi Zeynal
Avanes Avanesov
Malıbəyli Cümşüd
Bala oğlu Qrikor
Cabbar Qaryağdı oğlu
Arsen Yaramışev
Keçəçi oğlu Məhəmməd
Şəkili Ələsgər
Məşədi Məmməd Fərzəliyev
Malıbəyli Həmid
Çarıqçı Bahadır
Əbülhəsən xan Azər İqbal Soltan
Dabbax Məhəmmədqulu
Xanlıq Şükür
Zabul Qasım
Əkbər Xamuş oğlu
Məcid Behbudov
Davud Səfiyarov
Məşədi Cəmil Əmirov
Kərbəlayı Lətif
Segah İslam
Hüseynqulu Sarabski
Səlyanlı Şirin
Avanes İoanesyan
Qurban Pirimov
Bahadır Mehralı oğlu

Qarmonçu Abutalıb
Armenak Əsriyev
Mirzə Mənsur
Bala Məlikov
Seyid Şuşinski
Saşa Oqanezaşvili
Məmmədxan Bakıxanov
Levon Qaraxanov
Lazar Qabrielyan
Musa Şuşinski
Kor Əhəd
Pəsxan Cəlil
Bülbül
Zülfü Adıgözəlov
Xan Şuşinski

**Şuşinski F.**

Ş 98 **Azərbaycan xalq musiqiçiləri.** B.: Yazıçı. 1985. 480 s.

Ş 4912000000-144 229-85 S(Az)2
M-656-85

**Фиридун Мухаммед оглы Шушинский**

Народные музыканты Азербайджана

(на азербайджанском языке)

Баку-1985

Rəssamı: A. Məmmədov.

Bədii redaktoru: E. Lazımov.

Texniki redaktoru: V.Plitkina.

Korrektorları: M.Muradova, N.Sadıqova.

Redaktoru: Teymur Əhmədov

İB №2238.

Yığılmağa verilmiş 8.04.1985-ci il. Çapa imzalanmış 10.11.1985-ci il. FQ 17300. Kağız formatı 70x90 $^{1}/_{16}$. Kağız № 1. Ədəbi qarnitur. Yüksək çap üsulu. Fiziki çap vərəqi 30,0. Şərti ç.v.35,10. Uçot nəşr. Vərəqi, 33,4. Tirajı 30 000. Sifariş № 765. Qiyməti 1 №-li kağızda 3 man. 20 qəp. Təbaşirlə kağızda 4 man. 30 qəp.

Azərbaycan SSR Dövlət Nəşriyyatı, Poliqrafiya və Kitab Ticarəti İşləri Komitəsi. "Yazıçı" nəşriyyatı. 370005. Bakı, Natəvan meydanı, 1. 26 Bakı komissarı adına mətbəə, 370005. Bakı, Əli Bayramov küçəsi, 3.